**Ağarəhim**

# Əsərlər

## Kinoseriallar

## XVI

**Bakı - 2014**

**Redaktorlar:**
**Əlizadə Əsgərli**
**Dilsuz**

**Ağarəhim.** Əsərlər. 20 cilddə. XVI cild (Kinoseriallar). Bakı, BQU nəşriyyatı, 2015, 491 s.

Görkəmli nasir və dramaturq Ağarəhimin bu cildində kinossenarilər və "Kabus" kinoserialı verilmişdir. Kinossenarilərdə ürəyi xalq, millət, vətən üçün döyünən, həyatını insanların rifahı naminə risklərə atan obrazlarla yanaşı bir qrup adamların nəyin bahasına olur-olsun istəklərinə çatmaq cəhdləri, cəmiyyətdə gülüş doğuracaq nadürüst addımları şərh olunur.

"Kabus" kinoserialında isə kimsəsizlər evi, tərbiyəçi-müəllim adı daşıyan ləyaqətsiz adamların hərəkətləri, cəmiyyətin bir qrup üzvlərinin kimsəsizlərə ikrah hissi doğuracaq münasibətləri, başqa sözlə, xalqın mənəvi dəyərlər sisteminin deqradasiyasını təşkil edənlər tənqid atəşinə tutulur.

*BQU 2015*



# Ala qarğa

*("Gül balalar" hekayələr silsiləsinin motivləri əsasında iki hissəli kinoserial)*

**İştirak edirlər:**

**Gülgəz** — qayınana
**Minarə** — qızı
**Gülarə** — qızı
**Təranə** — qızı
**Sitarə** — qızı
**Simarə** — qızı
**Nihad** — kürəkəni
**Məti** — kürəkəni
**Mövsüm** — kürəkəni
**Miriş** — kürəkəni
**Musik** — kürəkəni
**Ətrabə** — quda
**Sədəf** — quda
**Həkim** — ginekoloq
**Həkim** — cərrah
**Tibb bacısı** — doğum evindən
**Tibb bacısı** — travmotologiya şöbəsindən
**Kişi** — müstəntiq
**Ucaboy polis**
**Gödərək polis**

# I hissə

*Kameranın ekranında: Yeni il gecəsi. Yenicə təmir olunmuş üçotaqlı mənzil. Kəllə divarın yanında şkaf. Şkafın ortasında televizor. Pəncərə ilə üzbəüz divarın dibində divan qoyulub. Divardan asılmış çak-çukla işləyən saat, bir də Nihadla Minarənin qoşa çəkilmiş şəkilləri. Nihad televizoru, Minarə süfrəni açır. Saat on birə işləyir. Minarə şamları yandırır. Yemək-içməyi süfrəyə düzür. Ər-arvad stulları çəkib üz-üzə, göz-gözə əyləşirlər. Nihad qədəhlərə qırmızı şərab süzür. Sonra televizorun səsini alır. Ər-arvad yeyib-içirlər. Qədəhləri götürürlər.*

**Nihad:** Allaha yalvarıram ki, bu təzə mənzil bizə peşmançılıq gətirməsin. İnşallah, gətirməz də. Bu gün toyumuzun bir həftəsi tamam olur. İçək, əzizim, xoşbəxtliyimizin şərəfinə.

— İçək... Ancaq mən o söz....

— Başa düşmədim.

— Az içəcəm... İlk dəfədi.

— Qorxma... Bizi görən yoxdu. Necə deyərlər, ev bizim, sirr bizim.

— Mən kimsədən qorxmuram. Qorxduğum özüməm.

— Hə... Əla!

— Bəs nədi?

*Gülüşürlər. Şərabları içirlər. İşıqlar sönür. Nihad əsəbiləşir.*

— Bayram gecəsi də işıq söndürərlərmi? İndi gəl qanın qaralmasın.

— Yəqin hardasa, xətdə qəza baş verib. Qəsdən işığı kim





söndürər ki? Özü də Yeni İl bayramında. Bilirlər ki, hamı süfrə başındadı. Yeyir, içir.

— Bu saat işıq işçiləri kefdədilər. Yandırmağa kim gələcək ki? Ağlı olan vurandan sonra transformatora yaxın gedər?

— Deyirsən getməzlər?

— Gedər, ancaq başı xarablar. Bir də arvadından acıq eləyən kişilər, yaxud kişisi ilə dalaşan arvadlar.

*Gülüşürlər.*

— Qəsdən qəza yaratmazlar... Bu gecəni şam işığında keçirərik... Romantik gecə... Üz-üzə, göz-gözə. Necədi səninçün?

— Əla!

*Nihad şam işığında qədəhləri doldurur. O, qədəhini arvadının qədəhinə vurur.*

— Əşi, rədd olsun hamısı. Biz indi həyatımızın ən gözəl anlarını yaşayırıq. İnsan xoşbəxtliyini əldə eləyəndə bəzən başı qarışır. Keçirdiyi gözəl anları dəyərləndirmir. Sən demiş, doğrudan da romantik anlar. Sən tək gözəl.

— Bəsdi, bəsdi, gözə gələrik... Təriflənən şeyin içərisindən həmişə qurd çıxar.

— Qurdsuz meyvə də yaxşı olmur.

*Nihad arvadını qəflətən qamarlayıb öpür. Minarə çabalayaraq ərinin əlindən çıxır.*

— Dəlisən? Necə gəldi, elə şey olar?

— Məni sən dəli eləmisən, Minarə. Belə getsə, çətin ki ağıllanam.

— Ağıllanarsan... Çox danışma, yedik-içdik. Bekar qalıb

neynəyəcök? Sabah tez qalxmalıyıq.

— Niyə?

— Gərək hava işıqlananda qayınanama telefon açam.

— O tezdənliyə? Qaça-qaçdı?

— Hə... bilsin ki, yatıb günortaya qalan gəlinlərdən döörəm.

*Minarə stuldan qalxır. Yatağı açır. Gülür.*

— Bizim məhəllədə Zeynəb qarı vardı. O, tez-tez deyərdi: “Məni ora-bura çəkib dolaşdırmayın, sözünüzün Məmmədvəlisini deyin”. Kişinin adı məsələ çevrildiyindən o da qərəzlənib gedir qarının üstünə davaya. Qarı da qarıydı, ha. Sözü göydə tutardı. Alıb Məmmədvəlinin abrını, qaytarıb geri. Kişi sürüb qarının üstünə getməsəydi, bəlkə də çoxdan yaddan çıxardı. Dilədişə düşməzdi. İndi bütün Şirvanda Məmmədvəli dəbdədi...

*Nihadı gülmək tutur. Özünü saxlayanmayıb çeçiyir, içdiyi meyvə şirəsini püskürür, özünün də, arvadının da üst-başını isladır. Minarə dəsmal gətirir, ərinin də, özünün də üst-başını təmizləyir. Nihad onu qucaqlamaq istəyir. Minarə geri çəkilir.*

— Tələsmə... Tələsik iş...

— Bə nə vaxt?

— Özüm işarə verəcəm.

*Ər-arvad soyunub yataqlarına girirlər. Gözlərinə yuxu gedər-getməz qapı döyülür. Minarə hövlnak qalxıb ərini sirkələyə-sirkələ çağırır:*

— Nihad, ay Nihad, eşitmirsən? Qapı döyülür, dur gör, kimdi gələn?





*Nihad oyanır. Alt paltarında gedib qapını açır. İki polis içəri soxulur. Biri ucaboy, ikincisi gödərək. Onlar Nihadı qamarlayırlar. Hərəsi bir qolundan tutub bururlar. Sonra qollarını arxadan qandallayıb evdən çıxarırlar. Nihad qışqırır:*

— Axı siz kimsiz? Məni hara aparırsız? Mən neyləmişəm, günahım nədi? Ay camaat, köməyə gəlin. Polislərin belə qanunsuz hərəkət eləməyə ixtiyarları yoxdu.

*Minarə ağlayır.*

— Bu saat anama neylədiyinizi çatdıracam. Görərsiz, gəlib sizə necə ot yoldurar. Bizi evimizdən didərgin salırsız?

**Gödərək polis:** Anan kimdi, aaz? Çağırarsan, gələr, görərsən ona nə divan tuturuq. Zeynəb qarı demişkən “Qanun hər şeydən yüksəkdə dayanır”. Gələr, görər...

**Nihad:** Əvvəla, siz Zeynəb qarının adını tutmayın. İkincisi də, siz mənim qayınanamla bacarmazsız.

**Ucaboy polis:** Təxribat törətmisən, indi də bizə hədə-qorxu gəlirsən? Sən öl dəyyus, dərini boğazından çıxaracam.

— Baxarıq.

— Kimə arxalanırsan?

— Qayınanama.

— Əcəb kişisən.

**Minarə:** O nə sözdü, əə, deyirsən? Onun kişiliyini mən bilirəm. Sən nə qanırsan? Özünüz də burda çərənləməyin, lotuluq eləməyin. Lotu-potuluğa qalsa...

**Gödərək polis** *(sinəsini qabardaraq)***:** Özünü yığışdır. Biz dövlət adamlarıyıq. Çırtı-pırtı şəxslər döörük... Dövlət adamını təhqirə görə cinayət məcəlləsində əməlli-başlı maddə var. Təhqir eləyənə iş düşür.

*Nihad soyuqdan tir-tir əsir.*

**Nihad** *(arvadına)*: Sən dayan, dillənmə, bunlardan nə desən çıxar.

**Minarə:** Mən nə dedim ki. Bəyəm çərənləmək, lotu-potu sözləri pisdi? Pis olsaydı, anam gündə yüz dəfə bizə deməzdi.

**Ucaboy polis:** Bərəkallah anana. Özünüz də qışqırmayın. Sakinləri narahat eləməyin. Cinayət Məcəlləsində ona da maddə nəzərdə tutulub.

**Nihad:** Yalvarıram sizə, heç olmasa, yerini deyin, görüm məni hara aparırsız?

**Gödərək polis:** Şöbəyə.

*Minarə qışqırır. Binanın sakinləri yerbəyerdən səsə çıxırlar. Hamı mənzərəni kənardan seyr edir. Bir kişi polislərə yaxınlaşır.*

**Kişi:** Nə hadisə baş verib?

**Ucaboy polis:** Cinayət törədib.

**Nihad** *(arvadına)*: Anana telefon aç. İlan ulduz görməsə, ölməz.

**Gödərək polis:** Nə ölüm-ölüm salmısan? Adam da öldürmüsən? Səndən nə desən çıxar. Bu nə baş-gözdü əə, qoduq?

*Nihad əldən çıxmağa çalışır. Gödərək polis onun qarnına zərbələr endirir. Nihad iki qat olur. Daldan bir-iki təpik də Nihada çalır. Nihad qışqırır.*

**Nihad:** Ay ana, yırtıldı. Öldüm... Minarə, çətin ki, məndən kişi çıxa. Şahidsən... Gör neynəyirsən?

*Ucaboy polis də Nihadı vurmaq istəyir. Oğlan qorxur, səsini*





*kəsir. Polislərlə gedir. Onların arxasınca gedən Minarə əvvəl anası Gülgəzə, sonra da qayınanası Ətrabəyə telefon açır. Vəziyyəti danışır. Polislər şöbəyə çatırlar.*

**Ucaboy polis:** Transformatoru partlatmaqda niyyətin nə idi?

**Nihad:** Nə transformator?

**Gödərək polis:** Sifarişi kimdən almışdın?

**Nihad:** Nə sifariş?

**Minarə:** Nihada şər yaxırsız? Böhtan atırsız?

*Gülgəzlə Ətrabə özlərini hövlnak içəri salırlar. Gülgəzlə Ətrabə Nihaddan soruşurlar.*

**Ətrabə** *(oğluna)*: Bu, nə oyundu?

**Gülgəz:** Nə transformator?

**Nihad:** Oyunu polislər düzəldiblər. Mən transformator-zad görməmişəm. Yerini də bilmirəm. Bu axşam Minarəylə olmuşam.

**Ucaboy polis:** Kimlə olduğunun bizə dəxli yoxdu *(Ucaboy polis gödərək polisə göstəriş verir)*. Dəyyusu sal kameraya, axşam onunla danışarıq.

*Ətrabə əsəbiləşir.*

**Ətrabə:** Nə danışacaqsan, əə, gicbəsər?

**Gödərək polis:** Səni də onun yanına göndərərik.

*Gödərək polis Nihadı kameraya aparır.*

**Minarə:** Polislərin danışdıqları yalandı. Şərdi. Nihad səhərə qədər mənimlə olub. Yatmamışıq. Oynaşmışıq.

*Gülgəz qızına çəpəki baxıb göz ağardır.*

**Gülgəz:** Toçnı?

**Minarə:** Toçnı, ana. Mənim Nihadımı şərləyirlər.

*Gülgəz bu dəfə polislərin üzünə heyrətlə baxır. Gödərək polis Gülgəzin əl-qolunu işə sala biləcəyini düşünür. O, geri çəkilir. Kabinetdən çıxır. Gülgəz ucaboy polisə tərəf dönür.*

**Ucaboy polis:** Təxribat törədib. Bu gün transformator partladıb, yəqin sabah da metronu göyə sovurar. O birisi gün Allah bilir, neynəyəcək? Hələ biz öyrənəcəyik, görək beynəlxalq terrorla, "Hizbullah"la, "Əl-Qaidə"ylə əlaqələri var, yoxdu? Fakt budur ki, təxribat törədib.

**Gülgəz:** Başın xarab olub deyəsən? Nə "Hizbullah", nə Əl-Qaidə. Ağzı başına danışma. Nihadda o kişilik hardadı?

**Ucaboy polis:** Sakinləri bu bayram axşamında işığa həsrət qoyan adamdan nə desən çıxar. Bu axşam şəhərdə heç kim televizora baxanmayıb. Arvadım gözümü çıxarırdı. Özü də evdən çıxanda tapşırdı ki, cinayətkar tapılıb cəzalandırılmalıdır. Onu özbaşına buraxmaq olmaz... Nəyə deyirsiz and içim...

*Gülgəz qəflətən qışqırır.*

**Gülgəz:** Odu. Özüdü ki var. Bu axşam mənə daldan cuman polisdi. Ayə, dəyyus, anan yaşda adamam, sənə neyləmişdim? Binanın girəcəyində məni niyə yığışdırdın? Orama-burama niyə əl atırdın? Apardığın çantamı qaytar. İçindəki brilyant komplektləri neylədin? Sizdən şikayət eləməyim deyə ağzıma daş basmaq üçün axşam kürəkənimi yatağından bura gətirmisiz? Sizdən əl çəkənin atasına lənət. Bu saat televiziya studiyalarına telefon açacam. Qoy gəlib çəksinlər, göstərsinlər sizin sifətinizi camaata. Özüm də mətbuat konfransı keçirəcəm. Görsünlər, mənə necə hücum eləmisiz? Namuslu polislər də bilərlər ki, aralarında sizin kimi dəyyuslar da var. Darıxmayın, bu saat.





*Gülgəz telefonun nömrələrini yığır. Düyməni basır. Danışıq alınmır.*

**Gülgəz:** Zəhrmar kontur da qurtarıb. Eybi yoxdu, indi çıxıb alaram...

**Ucaboy polis:** Xanım, məni kiminləsə dəyişik salırsan? Yoxsa, məni şərləyirsən? Kürəkənin xuliqanlıq eləyib. Cinayətini boynuna almalıdı. O yan-bu yan yoxdu.

**Gülgəz:** Bayaq deyirdin təxribatçıdı. İndi də deyirsən, xuliqanlıq eləyib. Deyəsən, təxribatla, terrorla xuliqanlığı ayıranmırsan. Təxribatçı, terrorçu qrupların adlarını hardan öyrənmisən?

**Ucaboy polis:** Radio, televizor gündə bar-bar bağırmır?

**Minarə:** Nə həyasız adamsız?

*Gülgəz Ətrabəyə tərəf dönür və ona göz vurur.*

**Gülgəz:** Şahidsən də. Mənə daldan cuman buydu, yoxsa, o gödərək?

**Ətrabə:** Gödərək.

**Gülgəz** *(ucaboy polisə)*: O, gödərək polisi hara qaçırdın? Onu aradan niyə çıxardın?

**Ucaboy polis:** Qaçırmamışam. Qonşu otaqdadı, indi gələr.

**Ətrabə:** Adlarınızı da polis qoyubsuz. Görün, nəylə məşğulsuz? İndi kişi də eşidib gələcək. Sizdən əl çəkən döörük.

**Minarə** *(anasıyla qayınanasına)*: Hələ siz bilməyən çox şeylər var. Açacam sandığı, tökəcəm pambığı. Onda arvadlarının da üzünə baxanmayacaqlar... Arvadları onları qovub evdən

çıxaracaqlar.

**Ucaboy polis:** Sən də ananın balasısan.

**Minarə:** Bəli! Səhərə qədər Nihadla bir yorğan-döşəkdə olmuşuq. Gərək nə olub hamısını deyim? Gecə gözümüzə yuxu getməyib ki, deyəm, Nihad məndən xəbərsiz harasa aradan çıxıb, təxribat törədib.

**Ətrabə:** Ağız, sən saxla. O sözü ağlına alma.

**Ucaboy polis:** Ayıbdı. Qanun keşikçilərinə qarşı...

**Gülgəz:** Arvadının qucağından ərini tutub aparırsız, adamları şərləyirsiz, sonra da qəzəl oxuyursuz?.. Cəhənnəmə ki, Nihad cavan oğlandı, gedib üç-beş il yatıb gələcək. Canı sağ olsun, qızım da onu namusla oturub gözləyəcək. Bəs siz quldurluq elədiyinizə görə cəzanızı almayacaqsız?

*Gödərək polis gəlir.*

**Gödərək polis:** Yekə arvadsan, namuslu adamlara böhtan atırsan. Dediklərini sübut eləmək lazımdı.

**Gülgəz:** Yekə arvad anandı. Səni hardan, kimdən qayırıb, nə ağılla doğub? Anan yaşda arvadı daldan yığışdıranda, bilmirdin cavab veməli olacaqsan? Yüz min polis arasında olsanız da, sizi tanıyıram. Nə sübut-sübut salmısan? Özün sübut elə ki, məni daldan yığışdıran sən döördün? Çantanı əlimdən alıb qaçan bu ucaboy həmkarın döördü? Ayə, nə simasız adamlarsız?

**Gödərək polis:** Əcəb işə düşdük. Ayə, bu ala qarğadı ki?

**Ucaboy polis:** Məni heç nəylə qorxudanmazlar. Nihad terroristdi, təxribatçıdı, vəssalam.

**Minarə:** Təxribatçı sizsiz. Evlərə soxulursuz. Basqın eləyirsiz. Camaatın arvadlarına sataşırsız. Biz evdə olmasaydıq, nəyimiz var, soyub aparacaqdız.

**Ətrabə:** Nədən bildiz ki, transformator texniki səbəbdən partlamayıb. Onu məhz Nihad partladıb?





**Ucaboy polis:** Hamı deyir?

**Ətrabə:** Hamı deyəndə kimləri nəzərdə tutursan?

**Gödərək polis:** Şahidlər gələr, bilərsiz.

**Gülgəz:** Mənim şahidlərim burdadı.

**Minarə:** Tutaq ki, transformatoru Nihad partladıb. Məqsədi nə olub?

**Ucaboy polis:** Yəqin, piyan olub.

**Gödərək polis:** Mərdimazarlıq... Əlini dinc saxlamamaq... Sakinlərin rahatlığını pozmaq.

**Minarə:** Onda "Hizbullah"ın, "Əl-Qaidə"nin bura nə dəxli var?

**Ucaboy polis:** Olmasa, deməriк.

**Gülgəz** *(əsəbiləşir)*: Gədələr, mənə düz baxın. Nihadı buraxarsız, buraxmazsız, öz işinizdi. Yanım qapqaradı. Baxa da bilərsiz.

**Ucaboy polis:** Əşi, o yana elə. Bizi işə salma.

**Gödərək polis:** Onsuz da zibilin içindəyik.

**Gülgəz:** Sizin çimdiklədiyiniz yerlər indi də incidir məni. Düz-əməlli oturanmıram. Apardıqlarınızı geri qaytarın... Yoxsa, sizdən əl çəkənin atasına lənət!

**Ucaboy polis:** Kasıb arvadsan, səndə nə ola bilərdi?

**Gülgəz:** Brilyant komplekti rəhmətlik qayınanam hədiyyə eləmişdi. Rus çervonlarını qayınatam vermişdi. Hər kürəkənimdən də min dollar almışdım. Fikirləşirdim ki, özümə bir maşın alaram. Onu da siz qapdız. Şükür Allaha, sizi tapmışam.

*Polislər bir-birilərinə baxırlar. İlişdiklərini hiss eləyirlər. Göz-qaşla bir-birilərinə işarələr vururlar.*

**Ucaboy polis:** Bu gün keçdi. Nihadın yaxalanmasından rəis də xəbərdardı. Bu axşam kamerada qalsın. Səhər rəis gəlsin, danışaq, görək bir yola qoya bilirikmi?

**Minarə:** Nə?.. Keçən axşam yazıq Nihad yatmayıb, yuxusuzdu. Deyirsiz, bu gecəni də burda qalsın. Ana, onda Nihaddan kişi olmaz ki?

**Gülgəz** *(polislərə)***:** Bayaq demişəm, indi də deyirəm, Nihad məsələsindən qurtardıq. Onu özünüz bilərsiz. Mənim çantamı, bir də içərisindəki şeylərimi qaytarın. Yoxsa, rəisiniz ondan da xəbərdardı?

**Gödərək polis** *(qorxaraq)***:** Anam-bacım, bizi dəli eləmə. Hərəmizin bir kapal balamız var. Ailə sahibiyik...

**Gülgəz:** Bəs biz nəyik, a biqeyrətlər, bəyəm camaatın ailəsi, uşağı yoxdu? Biz yerdən çıxmışıq? Daş-qaşları sizin üçün saxlamışdım? Ondan-bundan utana-utana, qızara-qızara qəpik-qəpik pul almışdım ki, gəlib qapıb gedəsiz? Bu saat rəis bura gəlməlidi. Mənim ərizəmi qəbul eləməlidi. Eləməz... "Dəvədən də böyük fil var". Gedib şikayətimi onlara eləyərəm. Eybi yoxdu, nə olar-olar. Ya sizə verən Allah, ya da mənə. İndi sözünüz nədi?

**Ucaboy polis:** Allahu-Əkbər də. Paza keçmədik?

**Gödərək polis:** Adə, sənə dedim də. Rəis də gəlib gül ağzın açacaq. Söyülməyən yerimiz qalmayacaq. Gülgəz deyənləri rəis özü bizdən alacaq... Sat ver ev-eşiyini, alacaq. Nujenni bunu başa düşmürsən?

**Minarə** *(anasına)***:** Məndə kontur var, televiziya studiyalarına telefon açım?

**Gülgəz:** Aç, qızım, aç! Bunlar bizi başa düşmədilər. Televizordan baş verənləri eşitsə, rəis özü qaça-qaça gələcək bura. "El qınağı yaman olur".

**Ucaboy polis:** Əşi, onu saxla. Özümüz danışıb yoluna qoyarıq.

**Gödərək polis:** Zəhrmarı iyləndirmə. Rədd elə. Burax getsin. Bayramımız qara gəldi. Hoppandıq irəli düşək, tullanıb geri düşdük... Qorxudan, əsəbdən bayaqdan bəri içimizi yeyirik.

**Ucaboy polis:** Get aç kameranın qapısını, dəyyus dursun, bassın bayıra.





*Gödərək polis gedir. Ucaboy polis başını tutur.*

**Ətrabə:** İlan ulduz görməsə, ölməz.

**Ucaboy polis:** Siz də vızqırdın.

**Gülgəz:** Danışdıqlarını yeyəsən. Sizin kələyinizi başa düşdük. Bəs mənimkilər?

**Gödərək polis:** Hesab heç-heçə.

**Ucaboy polis:** Dinsizin ağzını imansız cırar.

**Gülgəz:** Başqa zırhazırı çıxmayacaq ki?

**Gödərək polis:** Yox!

**Ətrabə:** Kişi olun. Sizdən də pəzəvəngiləri tapılar.

**Polislər bir ağızdan:** Oldu, xanım.

*Nihadla Minarə, Gülgəzlə Ətrabə deyə-gülə qapıdan çıxırlar. Ətrabə öz evinə gedir. Gülgəz kürəkəniylə qızını evinə gətirir. Nihad o tərəf-bu tərəfə baxır. Minarənin qulağına nəsə pıçıldayır.*

**Gülgəz:** Yenə nə qarınağrın var, ay Nihad, utanma, de.

**Nihad:** Sən olmasaydın, qayınana, polislər məni bu gün yeyəcəkdilər.

**Gülgəz:** Polislər adam da yeyirlər?

**Nihad:** Onlar hər şey yeyirlər, qayınana.

**Gülgəz:** Ayə, başı xarab, səni həzm eləmək olar?

**Nihad:** Onlar eləyərlər.

**Gülgəz:** Bəyəm, mən ölmüşəm, hər yerdən çıxan, əyninə şalvar geyən sizə sataşa.

**Minarə:** Ağrım onların ağzına, ay ana. Onların şalvarları da hökumətindi.

**Gülgəz:** Hələ o polislərin canına odu bundan sonra salacam.

**Nihad:** Salma... Yoxsa...

**Gülgəz:** Qanmalıdırlar ki, Gülgəz kimdi? Onun kürəkənini yemək nəylə qurtarar?

**Nihad:** Biz indən belə tək yaşayanmırıq. Qorxuruq. Minarəylə danışdıq ki, sənin yanında olaq.

**Gülgəz:** Necə? Necə? Həmişəlik, yoxsa, donuzun burnu sovuşunca?

**Minarə:** Həmişəlik.

**Gülgəz:** Bu fikri sizin başınıza kim qoyub?

**Nihad:** Minarəylə belə fikirləşdik.

**Minarə** *(özünü əzdirib-büzdürərək)***:** Darıxıram... Səninlə olmaq istəyirəm. O ev bizə düşmür. Qonşular da bizə çəpəki baxacaqlar.

**Gülgəz:** Necə baxacaqlar?

**Nihad:** Çəpəki.

**Gülgəz:** Ağzımı açdırmasınlar. Onlara bir toy tutaram, səhər yedikləri də yadlarından çıxar. Ağız, bəyəm onlar qonşudular? Sizi çığırda-çığırda polislər aparanda durub bircə nəfər sizə niyə qəhmər çıxmadı? Biri niyə soruşmadı ki, ay polislər, bu zavallıları hara aparırsız?

**Minarə:** Düzdü, ana, düzdü.

**Gülgəz:** Ay onların qonşu başlarını dağlayım.

**Nihad:** Qayınana, çəniyə çox verirsən ey. Nə "hə" deyirsən, nə "yox". Biz də bilmirik qalacoq, ya qalmayacoq.

**Minarə:** Ana, biz evimizi satırıq. Niyə bilmirsən ki, polislər bizdən əl çəkməyəcəklər. Gedib-gəlib bizə girişəcəklər. Nihad hər gün işdə, mən evdə, Vallah, xatalı şeydi. Qorxuram...

**Gülgəz:** Nədən?

*Gülgəz fikirləşir. Otaqda o tərəf-bu tərəfə gedir.*

**Gülgəz:** Qorxma. Azacıq atılıb-düşərlər, mən özüm onların





cəzalarını verərəm.

**Nihad:** Onlara nə cəza?

**Gülgəz:** Paqonlarını soyundurtduraram. Evlərini satıb ən yaxşı halda pulunu mənə, pis halda yuxarıya ötürərlər. Bolluca zopa yeyərlər. Arvadları onları evdən qovarlar. Adam içinə çıxanmazlar. Xuliqanlıq, basqın maddəsiylə o ki var yatarlar... Ölməmişəm, sizin qarşınıza polis-molis çıxa. Hələ bir şey yoxdu, ay Nihad, indidən özünü batırırsan. Qızı da dəli eləmisən.

**Minarə:** Polislər xatadılar.

**Gülgəz:** Sən hardan bildin?

**Nihad:** Siz özünüzü çatdırınca məni zırhazır elədilər. Ən aşağısı bir ay Minarə mənim əzilən yerlərimə təpitmə qoymalıdı ki, özümə gəlim.

**Gülgəz** *(heyrətlənir)***:** Bəs bunu orda niyə demədin?

**Nihad:** Düşündüm ki, indi zopanı qıçlarıma vururlarsa, sonra da başqa yerimə çalarlar.

**Gülgəz:** Onda gəlin, siz mənim evimə köçün, mən də sizin. Dəyiş-düyüş eləyək.

**Minarə:** Yox... Ana... O, bizə xeyir gətirməyəcək.

**Gülgəzin daxili səsi:** Ay dadi-bidad, kürəkənim dəlidi. Deyəsən, mən də, qız da ilişmişik bu Ətrabə canı yanmışın gədəsinə. Ona baxanda çox sakit görünür. Deyəsən, zahiri məni aldadıb... Dərdim böyükdü. Açılıb-danışılası döör. Qızımı verdim ki, "Ölümü qoyum, dirimi ağlayım"? Kürəkən qızımdan da hürkəkdi. Quşdu... Quş... Bunun nəyinə vurulubmuş Minarə, bilmirəm. "Sevən qızın ağlı topuğunda olar", yerində deyiblər...

**Minarə:** Ana, qurban olum, yox demə.

**Nihad:** Məni Minarəyə həsrət qoya bilərsən.

**Minarə:** Biz bir-birimizi sevirik... Lap...

**Gülgəz** *(qızına)***:** Şit-şit danışıb ətimi tökmə. Elə bilirsən, mən kişi görməmişəm. Dünən bir, bu gün iki, ayağının altına daş qoyma. Çörəyini ver gəvələsin...

**Minarə:** Nihad yaxşı adamdı. Başına zəncir atıb mıxa keçirsəm, səhərə qədər yatacaq orda.

**Gülgəz:** Yox, bala, bu yaşda gedib qocalar evində çürüyən halım yoxdu, hər gələn başıma bir qapaz vura. Bir şərtlə evi sizə verə bilərəm. Çoxlu uşağınız olar. Mən öləndə vəsiyyət eləyərəm, ev-eşik onlardan birinə çatar.

*Nihadla Minarə Gülgəzi razı salanmayacaqlarını görərək getmək üçün ayağa qalxırlar.*

**Nihad** *(gülərək qayınanasına)***:** Öpürəm...

**Gülgəz:** Nihad, mənim o sözdən zəhləm gedir. Yığışdır özünü. Bir də ağzından çıxsa, incimə məndən.

**Minarə:** Hansı söz, ana?

**Gülgəz:** "Öpüş" sözü. Nəyə deyirsiz and içim. Kişidən sonra məndən bir çimdik boyda öpüş götürən olmayıb. Versəydim olardı. O qədər arxamca sürünənlər vardı... Sən gedəndə, Nihad, mən qayıdırdım, bala. Yadında saxla, nə vaxtsa, bu sözün qisasın səndən alacam.

*Nihadla Minarə gedirlər. Gülgəz mətbəxə keçmək istəyir. Qapı döyülür, Gülgəz gedib qapını açır, qonşu Rəfiqə gəlir.*

**Rəfiqə:** Yaman əsəbi görünürsən?

**Gülgəz:** Minarə əriylə gəlmişdi. Qız darıxır məndən ötrü. Deyir, köçüm gəlim yanına, yemək-içməyinə özüm baxım. Pal-paltarını təmizləyim. Nə vaxta qədər əlləşməlisən? Düzü, qızın ürək yanğısı məni də yumşaltdı. Kürəkənlə bir evdə qalmağı ağlıma sığışdıranmıram.

— Eləmə. Hələ sənin nə vaxtındı? Bəlkə bir ürəyinə yatanla qarşılaşdın. Təzə ailə qurası oldun. Onda deyəcəksən ki, a bala, bəsdi birlikdə yaşadığımız, çıxın evdən?





— Boy... Ağız bundan sonra nə ər?...

— Hə... Bir də bu dünyaya gələcəksən?

— Yoox...

— Ay sağ ol. Yaşamağı bacarmaq lazımdı.

— Ağız, bundan sonra uşaq doğmaq? Lap doğdum, özümü saxlayanmıram, onu kim saxlayacaq?

— Ay pir olmuş, nə doğmaq? Eləsin seç, uşaq nə ona lazım olsun, nə də sənə. Verin baş-başa, dolanın.

— Gərək ki, sənin ərinin bu günlərdə qırxı çıxır. Gözaltı elədiyin var?

— Nə gizlədim, a qonşu. Onsuz da gec-tez biləcəksən.

— Nəyi?

— Rəhmətliyin yeddisi gecəsi qonşu Nəcməddini saxladım yanımda. Özüylə də danışmışam... İsti-isti ayıbdı. Eşidən-bilən nə deyər? Qırxından o tərəfə qoymaram. Köçürəcəm evimə... Nə vaxta qədər oğurluq olacaq?

— Uşaqların nə deyirlər?

— Nə deyirlər-desinlər. Onlar var deyə, özümü çürüdəcəm?

— Necədi? Heç olmasa, suludu?

— Miyanə... Nə elədi, nə belə. Deyir ki, cavanlıqda yaxşı olub.

— Deməli, xatirələrlə yaşayır... Mənə də eləsini tapa bilərsən?

— Kişi azlığıdı? Uzağa niyə gedirsən? Elə götürək qonşu Şirməmmədi. Neçə vaxtdı arvadı ölüb. Özü də kiçik bizneslə məşğuldu. Əli çax-çukla oynayır. Gecənin birində sal evə. İstəyirsən, Şirməmmədə mən deyim. Özü də bu saat həyətdədi...

— Belə çıxır ki, səni bura o göndərib?

*Gülüşürlər.*

— Özünə demə. İstəsən, əl telefonuna zəng çalım, gəlsin

bura. Nə diş bilsin, nə dodaq.

— Mənim ərim var. Özü də bir-iki yox, çox.

— Nə danışırsan?

— Bəli!

— Mən bilmirdim.

— Oğlan nəvələrim mənim ərlərimdilər. Kəbinim onlara kəsilib. Özün də qalx vızqırt burdan.

*Rəfiqə suyu süzülə-süzülə gedir. Gülgəz kinayəylə onun ardınca baxır... Həyətə düşür. Günəşli havada gəzir. Axırda skamyada oturur. Sədəf qarı gəlir. Onlar görüşürlər. Sədəf qarı incik görünür. Bunu Gülgəz də anlayır.*

**Sədəf:** Ay quda, səninlə vacib söhbətim var.

**Gülgəz:** Buyur, quda. İkimizik, burda başqa adam yoxdu ki? Utanma, de gəlsin... Eşidirəm...

— Gəlin dəyişik çıxıb.

— Nə? Nə səfehləyirsən, aaz? Dəli olmusan, nədi?

— Belə də biabırçılıq olar? Bizə bir qızı göstərib başqasını vermisiz.

— Booy. Ağız o niyə elə? Bəyəm, başqası səndən artıqdı? Neçə vaxtdı toy olan? Vaxtında niyə gəlib demirdin?

— O vaxtdan gedə danışıb gülmür. Elə bil dəli olub. Evdən çıxıb qaçmaq istəyir, güc-bəlayla saxlamışıq.

— Xa... xa... xa... Nə danışırsız? Ondan ötrü özünü cırmağa dəyməz. Sonra da alın, baxın başbiletinə. Bu şəkli, bu adı, bu da soyadı. Hamısı dübbədüz yerində. Toy gecəsi qız zərbə düşüb. Gedən qızı kəllə-çarx eləyib. Görünür, təcrübəsiz olmusuz, birdən-ikiyə oğul evləndirməmisiz.

— Xeyr. Bizə göstərdiyiniz qızın əyri-üyrüsü yoxıydı.

— Qıza nə olub ki?

— Nə olacaq, qız onbadan qıçını çəkir.





— Elə şey ola bilməz. Mən qızı sappasağ zurna-qaval altında sizə vermişəm. Onun vağzalı, tərəkəmə oynamasını nə tez unutduz? O vaxt yengə dedikləri yadındadı?

— Yengə deyir ki, onba məsələsi mənimlə danışılmayıb. Ona mən baxmırdım. Mən tamam alahı şey üçün gəlmişdim.

— Danışılmasa da kor döördü ki, görərdi də.

— Yaxşı danışılan necə oldu?

— O pis olmadı.

— Hə... deməli, zərbə güclü olub, qız xəsarət alıb. Gələrəm, birlikdə baxarıq. Bir də ki, belə məsələni çox ağartmazlar. Çoxları belə olur. Kefini pozma. Toy gecəsi mən də elə olmuşdum. Başına xeyir olmuş eynən özümə oxşayıb. Doğanda düzəldim. Bax, gör, məndə elə şey var?

— Yoox!.. Birdən düzəlmədi?

— Yekə arvadsan, qaramat danışma. Adam ölüb, qan düşməyib ki, oturub arsız-arsız dərdini çəkək.

— Onbasın çox çəkir ey. Birdən, bacı, heç doğanmadı. Ya da doğduqları özünə oxşadı?

— Aaz, onun dərdini sən niyə çəkirsən? Atasına, anasına nə olub? Əllərin pişik yeyib?

— Anam-bacım, bu, çox girdirmə şeydi.

— O nəmənə şeydi?

— Yəni, dolaşıq.

— Ağız bəsdi. Danışıb ürəyimi qaldırma. Kül mənim başıma. Versəydim yalvaranlara, indi də sənin tüpürcəyini götürməzdim... Adamı peşman eləmə.

— Aaa... bəyəm mən sənə tüpürdüm?

— Bayaqdan yağdırdıqların tüpürcəkdən də bitərdi. Ağız, mənim qızım qoyun əti döördü ki, tərəzidə qalaydı... Apar ver məhkəməyə... Qız zərbəni sizdə alıb. Qoy ayırd eləsinlər, günah kimdədi? O da cəzasını alsın. Ağacın iki başı var, Sədəf, bir ucundan ayağını basanda, o biri ucu qalxıb dəyir adamın alnına...

— Verərəm məhkəməyə. Kor-kor, gör-gör. Qızının ombası aralıdan gəl-gəl deyir.

— Məhkəmə sənə şırtı-pırtı gəlməsin. Həkimlərdən ibarət tibbi ekspert komissiyası təşkil olunmalıdı. Həkimləri bilirsən də? İstəyəndə, ölünü dirildib üzünə şahid hazırlayırlar. İstəməyəndə, dirini öldürüb şahidi aradan götürürlər. İzi də itirirlər. Bu bir. Sonra məsələ keçəcək müstəntiqə. Ağa qara dedizdirmək onların əlində. Haqdı-nıxdı, olmayan şeyi yeridəcəklər sənə. Bu da müstəntiq. İş gedib çıxacaq məhkəməyə. Məhkəməni pazı alahı cürə olur. Orda gərək bir vəkil tutasan. Cibinə də babat pul basasan. Vəkil xərcsiz-filansız danışmır ha... Dövlət ittihamçısı bir tərəfdən, məhkəmə sədri o biri tərəfdən düşəcəklər üstünə. Nə yemisən, turşulu toyuq əti. Abrın-həyan gedəcək. Gərək onlarla əvvəlcədən keçi alverinə oturasan. Buna gücün çatar? Uşaqlar sənindi də, mənimdi də, qoy əl-ələ verib yaşasınlar. Azdan-çoxdan tapdıqlarını yesinlər. Get otur evində, məni də, uşaqları da, elə özünü də bəlaya salma, Sədəf.

*Sədəf fikirləşir. Ağız-burnunun suyunu silir.*

— Nə deyirəm, gəldim ürəyimi boşaldım. Yığılıb qalmışdı içimdə.

*Sədəf gedir. Gülgəz o tərəf-bu tərəfə baxır.*

**Gülgəzin daxili səsi:** Susuzluqdan dilim-ağzım quruyur. Şəkər adamam, gedim bir damcı çay qoyum içim. Özümə gəlim. Qızları ərə verəndə elə bilirdim dərd-bəladan qurtardım. İndi gör nələr çəkirəm? Məsələnin zorbası daldaymış. Hələ çox şeylə üzləşəcəm. Rəfiqə canı, yanmış da mənə ər axtarır. Xi... xi... xi...





## II hissə

*Gülgəzin evi. Çaydanı doldurub qaz piltəsinin üstünə qoyur. Qapı döyülür. O, gedib qapını açır. Qızı Sitarəylə kürəkəni Miriş gəlirlər.*

**Gülgəz:** Gəlin, gəlin. A bala, Miriş, bayaqdan səni arzulayırdım. Yaxşı oldu gəldin. Sənə deyiləsi vacib sözüm var. Stulu çək, qabağımda düz otür. Ora-bura boylanma.

*Miriş Gülgəzin qarşısında oturur. Sitarə də maraqla anasına baxır.*

**Miriş:** Eşidirəm, qayınana, yoxsa, şəklimi çəkmək istəyirsən?

**Gülgəz:** Şəklin çox vacibdi mənə? Boş-boş çənə döymə. Onsuz da üzünə baxanda qarnım döyur... A bala, şəhərdə belə söhbət gəzir ki, kimin ağzı "standarta" uyğun gəlmir, onu tikib balacalaşdırırlar. Dişi böyükdü, yontalayıb abra salırlar. Gözləri bir təhərdi, anadangəlmə gözlərini çıxarıb yerinə linza salırlar. Adını da qoyurlar plastik əməliyyat. Mən məsləhət bilirəm, sən də get ağzını qayırtdır. Dişlərini qaydaya saldır. Gözlərini çıxartdır, yerinə linza saldır. Ol gözəl-göyçək oğlan. Bu sir-sifətlə uzağa gedənməzsən.

**Miriş:** Necə? Necə? Xa... xa... xa... Bunlar mənə bəxşişdi, qayınana.

**Gülgəz:** Kimdən?

**Miriş:** Allah-Təaladan.

**Sitarə:** Yüz dəfə demişəm, ay ana, get, öz işinlə məşğul ol, bizim işimizə qarışma... Dilini dinc qoy. Belə danışığındı ki, qızlarını, kürəkənlərini özünə həsrət qoymusan.

**Miriş:** Bir az imkan ver pul yığım. Plastik əməliyyat çox bahadı. Pulsuz özümü şikəst eləyərlər.

**Gülgəz:** A bala, mən sizə düşmən döörəm. Hərənin ağzından bir avaz gəlir. Hərə bir şəbədə qoşur. İstəyirəm kürəkənlərim...

**Sitarə:** Mən balaca ağız, qarğıdalı dişli kişinin üzünə də tüpürmərəm.

**Gülgəz:** Hay-hay... Güya kişilər dayanıb tində səni gözləyirlər. Sən də nə vaxtsa gəlib, onların üzlərinə tüpürəcəksən. Mənim dərdimə bax... Pay atonan. Sevgi nə yaman şeymiş?! Dozası çox olanda gözləri də tuturmuş. Əri anasından da çox istəyir bu qızı... Öl, ay Gülgəz, öl. Güya mən sevgi nədi bilmirəm. Dünyadan xəbərsizəm...

**Miriş:** Sakit ol, qayınana. Bir balaca özümüzə gələk. Sənin arzularını yerinə yetirəcəm. Sənə söz verirəm...

**Gülgəz:** Sən kişi oğlusan. Adamı başa düşənsən... Nə isə, sonra danışarıq... Yaddaşım tamam xarab olub... Hə... Dünən yolumu bazardan saldım. Gördüm qonşu Məleykəylə əri Cəbiş də bazarlıq eləyirlər. Qatıq satan arvadın gözləri qəflətən Cəbişi aldı. Canı yanmış arvadın gözü-başı oynaşırdı. O qədər adamın içində nə desə yaxşıdı: “Belə də ərin olmaya?” Cəbişə hələ göz də vurdu. Xətalı iş görməmiş kişi diksindi: he... he... he.. Ancaq Cəbiş özünü o yerə qoymadı. Qatıq satanın göz vurmasını Məleykə də tutdu. Gözünə döndüyüm Məleykə də qəsdən qatıq bankasına toxundu. Banka düşüb sındı. Aləm qarışdı. Qatıq satan onun yaxasından tutub pulunu istədi. Başladı iki arvad davaya. Qatıq satan dedi pulumu ver. Cəbişin arvadı daş atıb başın tutdu. Axır əlacsız qalan Məleykə ağzını qatıq satanın qulağına dirədi: “Bəlkə Cəbişi bu axşam sənə verəm, qatıq puluyla qurtaraq”. Qatıq satan arif adamıydı. O, Məleykənin hansı simə vurduğunu dərhal anlayıb duymuşdu. Handan-hana astadan bildirdi: halalın olsun. Xa...xa...xa...





*Qapı döyülür. Miriş gedib qapını açır.*

**Miriş:** Ay xoş gəlmisiz. Həmişə siz gələsiz. Neçə vaxtdı sizə həsrət qalmışıq.

**Gülgəz:** Ağız, gör kimdi gələn? Mirişin səsi qonşuları dəli eləyəcək.

**Sitarə:** Musiklə Simarədi.

*Musiklə Simarə gəlirlər. Simarə anasını qucaqlayıb öpür. Musik əl verib Gülgəzlə görüşür.*

**Simarə:** Ana, sənə qurban olum. Neçə vaxtdı səni görmürəm. Darıxmışam. Səndən ötrü burnumun ucu göynəyir.

**Gülgəz:** Ədə, sizin heç biriniz məni eşitmirsiz. Qızlarım da ağızlarına su alıb durublar. Bircə kəlməylə sözümə qüvvət vermirlər. Bu, nə sir-sifətdi, Musik bala. Sənin şəlpə qulaqlarını, qırmızı yanaqlarını görəndə xəcalətimdən gündə yüz dəfələrlə ölüb-dirilirəm. Neçə dəfə adama deyərlər, onları qaydaya salmaq lazımdı?

**Musik:** Sənə qurban olum, a qayınana, bu qulağım, bu yanağım, bu da sən. Ürəyin necə istəyir, elə də düzəltdir. Güzgüdə öz-özümə baxanda heyrətlənirəm. Məni qaydaya saldırsan, ömrüm boyu qulun olacam.

**Simarə:** Qaxıl otur yerində, ay ana. Ərimlə işin olmasın. Musikin qulağını kəsdirib itəmi oxşadacaqsan. Yanaqlarındakı qırmızı olmasa, mən bir gün də Musikdə oturmaram.

**Gülgəz:** Axı onda kişi sifəti yoxdu. O boyda qulaq?.. O cürə yanaq?.. Adama nə deyərlər?.. Nə özünüz qanırsız, nə də deyilənlərə qulaq asırsız. Xəcalətinizi də mən anası ölmüş çəkirəm.

**Simarə:** Onu mən bilərəm. Nə deyirlər, desinlər. Zeynəb qarı demişkən: “İt hürər, karvan keçər”. Bizi bu kişilər alıb saxlayırlar... Gözəlliyimiz yox... Düz-əməlli ağlımız yox.

**Miriş:** Qayınanamızla işiniz olmasın. Qoyun ürəyini boşaltsın.

**Simarə:** Bizi bir kişi saxlamazdı. Bunların Allah atalarına rəhmət eləsin.

**Gülgəz:** Nə danışırsız, aaz? Siz özünüzdəkiləri bilirsiz? Ağlınıza, gözəlliyinizə söz olanmaz. Məni əsəbiləşdirəcəkdizsə, bura niyə gəlirdiz?

**Musik:** Simarə ikicanlıdı, xəstələnsə, əlimdən bir iş gəlməyəcək. Özü məsləhət bildi ki...

**Sitarə:** Ağıllı iş görmüsüz.

**Miriş:** O vaxtı biz də...

**Gülgəz:** Bura doğum evidi? Vaxtı çatmamış gəlirsiz üstümə.

*Hamı gülüşür.*

**Simarə:** Ana özümü bir təhər...

**Gülgəz:** Çatmamış?..

**Musik:** Məncə, gəlhagəldədi. Təcili tibbi yardım maşını çağırsaq, pis olmaz.

**Miriş:** Mən də elə düşünnəm.

**Gülgəz:** Sən hardan bilirsən?

**Miriş:** Qayınana, sözdü ağzımdan çıxdı da.

**Gülgəz:** Söz ağzından çıxar da.

**Miriş:** Əşi, qələt eləmədim ki. Vur öldür məni.

**Gülgəz:** Qələt elədin, özü də lap böyüyündən.

*Sitarə telefona yaxınlaşır. Nömrələri yığıb danışır...*

**Sitarə:** Danışdım, bu saat gəlir. Hazırlaşın.

**Gülzar:** Evi adamsız qoymaq olmaz. Mən Musiklə Simarəni aparım. Sitarə, sən ərinlə evdə qal.





*Maşın həyətə gəlir. Siqnal səsi eşidilir. Sitarə pəncərəyə yaxınlaşaraq həyətə baxır.*

**Sitarə:** Maşın gəldi.

*Tibb bacıları və həkim gəlirlər. Simarəni qolundan tutub aparırlar. Həyətdə maşına mindirirlər. Maşın hərəkətə gəlir. Xəstəxananın həyəti. Maşın dayanır. Xəstəni aparırlar. Gülgəzlə Musik həyətdə gözləyirlər. Ağ xalatlı yekəpər qadın onlara yaxınlaşır.*

**Tibb bacısı** *(Gülgəzə)***:** Qızındı?

**Gülgəz:** Hə...

**Tibb bacısı:** Nə verəcəksən, qızını rahat doğuzduraq?

**Gülgəz:** Verməsəm, rahat olmayacaq?

**Tibb bacısı:** Söz güləşdirmə. Tez elə... Ləngidə bilərsən. Sonrası...

**Gülgəz:** Musiki.

**Tibb bacısı:** Nəyi?

**Gülgəz:** Mu-si-ki. Qanmadın?

*Qadın çaş-baş qalır. Musik ona yaxınlaşır.*

**Musik:** Xanım, Musik mənəm. Nə lazımdı, məndə. Bəyəm, kişi döörəm?

*Qadın başıyla razılığını bildirir və çevrilib gedir. Gülgəzlə Musik qapı azğında var-gəl eləyirlər. Bir az keçir. Bayaqkı pəzəvəng tibb bacısı pəncərə qarşısında peyda olur. İçəridən bir barmağını qaldırır və gülümsəyərək gedir. Musik Gülgəzə, Gülgəz Musikə baxır. Aradan bir az keçir. İkinci dəfə yekəpər pəncərənin qarşısında görünür. Bu dəfə barmağının ikisini qaldırır*

*və üzünü çevirir. Qayınanayla kürəkən çaş-baş qalırlar.*

**Gülgəz:** Yəqin çətin olur, məzəndə iki yüzə qalxır.

*Musikin sifəti bozarır. Bunu görən Gülgəz çantasından bir yüzlik çıxarır və Musikə verir.*

**Musik:** Çox sağ ol, qayınana.
**Gülgəz:** Birini də özün qoy üstünə.

*Yekəpər tibb bacısı üçüncü dəfə gəlir. Hırıldayır. Bu dəfə üç barmağını qaldırır. Qayınanayla kürəkən özlərini itirirlər. Onlar qapıya yaxınlaşırlar. Musik içəri keçmək istəyir. Qadınlar onu sinəsindən geri itələyirlər Musik yıxılır. Başı yarılır. Təcili tibbi yardım maşını onu travmatologiya xəstəxanasına aparır. Pəzəvəng tibb bacısı gəlir. O, Gülgəzə yaxınlaşır.*

**Tibb bacısı:** Muştuluğumu ver, qızına üç qız doğuzdurduq.
**Gülgəz:** Nə? Başın xarab olub deyəsən? Camaat bezib bir qızı saxlayanmır, üçü nəyimizə gərəkdi. Bizi işə salmayın, biz oğlan ümidiylə gəlmişik.
**Tibb bacısı:** İndi mən neyləyim?
**Gülgəz:** Mən nə bilim... İkisini özünüzə götürün.
**Tibb bacısı:** Əşi, mənə pul lazımdı, uşaq yox. İstəsəydim, özüm onunu doğardım da.
**Gülgəz:** Bəs mənə niyə soxuşdurursan üç qızı? Elə kəramətin vardı, doğaydın da.
**Tibb bacısı:** Əcəb oda düşdük. İndi kiməsə uşaq saxlayaq? Pul var...
**Gülgəz:** Pulum olsaydı, səni evə çağırıb, qızı doğuzdurdurardım da. Olan-qalanımı Musikə verdim. Onu da nə günə saldız? Şikayət eləsə, nə cavab verəcəksiz?





**Tibb bacısı:** "Çağır gəlsin", cavabını özüm verərəm. Pulu yoxdu, ancaq üçünü birdən... Kasıb ağılsız olan-qalan gücünü...
**Gülgəz:** Mən zəhmət haqqı Musiki gətirmişdim. Götürərdiz yanınıza, sağalanda verərdi.

*Xəstəxananın bütün işçiləri tökülüşüb gəlirlər. Gülgəzdən pul istəyirlər. Bir şey alınmır. Səsə baş həkim gəlir.*

**Baş həkim:** Nə səs-küydü salmısız?
**Gülgəz:** Əşi, bu əldəgözləri hardan yığmısan bura? Üç uşaq doğanın a bacı, pulu olar? Hələ üstəlik, ərinin də baş-gözünü partladıb göndərdilər travmatologiyaya. Ordakı həkimlərə xərci hansınız çəkəcək?
**Baş həkim:** Sözündən belə çıxır, onu da biz verək?
**Gülgəz:** Kişini ölümcül hala salmısız, diliniz də var danışmağa? Əlbəttə, xərcini siz verməlisiz. Atalar deyib: "Güc doğana düşər". Kişini şikəst eləmisiz... Yəqin indiyəcən polisə də məlumat vermiş olarlar.

*Baş həkim Gülgəzin danışdıqlarından çəkinir. Gülgəz əsəblərini ələ almağa çalışır.*

**Baş həkim** *(astadan)***:** Bu ki, Ala qarğadı *(Sonra üzünü Gülgəzə tutaraq)*. Gülgəz xanım, siz gedin. Doğuluş ağır keçib. Ananın halı pozula bilər. Həftənin tamamında özüm maşına qoyub qızınızı gətirəcəm evinizə...
**Gülgəz:** Birdən səhlənkarlıq eləyərsiz ha?
**Baş həkim:** Nə danışırsız? Ananın da, uşaqların da məsuliyyətini öz üstümə götürürəm.

*Həkimlər, tibb bacıları Gülgəzi yola salırlar. Gülgəz taksiyə əyləşib travmatologiya xəstəxanasına gəlir. Palataya girir. Göz-*

*lərinə inanmır. Musikin bağlı başı çarpayıda, qıçları asılqanda. Musik ufuldayır. Gülgəzi görcək hönkürür. Qayınana Musikə yaxınlaşır.*

**Gülgəz:** Ayıbdı. Kişi ağlamaz.
**Musik:** Sitarənin əl-ayağı qurtardımı?
— Hə, oğlum, narahat olma.
— Vəziyyəti necədi?
— Özüm görməmişəm. Yalan deyənmərəm. Deyirlər yaxşıdı. Üç qızı olub.
— Nəə?
— Həəə...
— Nə qədər verdin?
— Əvvəl, səni vəd elədim. Götürmədilər. Saçların yoldular. Dedilər ki, fərli şey olsaydı, özündə saxlardın.
— Axırı nə oldu?
— Həftənin tamamınacan onları saxlayacaqlar xəstəxanada... Ancaq unutma, mənim yüzlüyüm səndədi.
— Onun da üstünə yüz qoyub verəcəm burdakı həkimə.
— Sən sakit yat, özüm nə lazımdı eləyəcəm.

*Gülgəz baş həkimin kabinetinə gedir. Baş həkimlə tibb bacısı qədəhi-qədəhə vururlar. Gülgəzi görərək çaşırlar. Araq şüşəsini hara soxacaqlarını bilmirlər. Gülgəz onlara çəpəki baxır.*

**Tibb bacısı** *(içini çəkərək)***:** Ala qarğa gəldi.
**Baş həkim:** Kim?
**Tibb bacısı:** Ala qarğa.
**Baş həkim** *(Gülgəzə)***:** Dərmandı... Ürəyinə başqa şey gəlməsin.

*Qədəh tibb bacısının əlindən düşür. Çilik-çilik olur.*





**Gülgəz** *(baş həkimə)***:** Narahat olma. Heç harda, heç kimə deməərəm. Özün də şüşəni dalına soxma, çıxar. Ayıbdı, gəlib görən olar.

*Baş həkim şüşəni qaytarıb stolun üstünə qoyur.*

**Baş həkim:** Nə lazımdı, xanım?
**Gülgəz:** Musikin qayınanasıyam, gəldim görüm....
**Tibb bacısı:** Yaxşıdı. Altını-üstünü təzəcə təmizlətmişəm.
**Gülgəz:** Özün necə aparır?
**Baş həkim:** Çox yaxşı. Sakitdi. Bir balaca belində. Bir qırıq da qıçlarında... Vəziyyəti bir sözlə, orta-ağır səviyyədədi.
**Gülgəz:** Yeməyi-içməyi?
**Baş həkim:** Biz ölməmişik ki. Nə lazımdı təşkil eləyəcök. Sağalan kimi də yola salacam...
**Gülgəz:** Elə eləyin, artıq söz-söhbətə yer qalmasın.
**Baş həkim:** Baş üstə.
**Tibb bacısı:** Oldu....
**Gülgəz:** Mən getdim, işinizi görün.

*Gülgəz gedir. Baş həkimlə tibb bacısı onu arxadan müşaiyət eləyirlər. Sonra da bir-birilərinin üzünə baxırlar. Məyus-məyus başlarını yelləyirlər.*
*Gülgəz evə qayıdır. Nihadla Minarə evdədirlər. Qadın əvvəl sevinir. Sonra sir-sifətini bozardır. Mirişlə Sitarə Gülgəzə yaxınlaşır.*

**Minarə:** Bacımdan nə xəbər?
**Gülgəz** *(əsəbi)***:** Üçünü qoydu yerə.
**Sitarə:** Nə?...
**Gülgəz:** Nə olacaq? Qız... Biz nəsillikcə öyrəncəliyik qız doğmağa.

**Nihad:** Sağ ol, Musik. Suyun iti axanı, adamın yerə baxanı.
**Miriş:** Mən belə bilməzdim.
**Gülgəz:** Sizə nə var? Yazığım Simarəyə gəlir. Üç uşaq, sentravoyu pozulmuş ər. Onları kim saxlayacaq? Bir sürü adam, bu saat hamısı xəstəxanada.
**Nihad:** Uşaqları nə vaxt yuyuruq?
**Gülgəz:** Aaa, Nihad doğanın qarnı yansın...
**Nihad:** Necə məsləhətdi, qayınana.
**Gülgəz:** Yumru başda ağıl olar. Eynən qarpıza oxşayır.
**Miriş:** Mən də elə düşünnəm.
**Simarə** *(ərinə)*: Sən öz işinə qarış.
**Minarə:** Anamızın dili dayanmır.
**Gülgəz:** Həmişə bu gedənin başında əlləm-qəlləm şeylər olur. Bu yaşa gəlmişəm, baş dəyişən eşitməmişəm. Doğrudu, xaricdə çox şeyləri dəyiş-düyüş eləyirlər. Bilmirəm, bu gədənin beynin çıxartdırım, ya kəlləsini əzişdirim? Çaşıb qalmışam.
**Simarə:** Nihad, incimə, anam, kürəkənlərinin hərəsində bir qəmbərqulu tapır. Qalmışdın sən...
**Nihad:** Qoy nə deyir, desin.

*Minarə saçlarını əliylə arxaya daraqlayır. Gülgəzin gözləri onun qulaqlarına dikilir. Arvad heyrətlənir.*

**Minarə:** Mənə niyə elə baxırsan, ana.
**Gülgəz:** Vay... Sənin qulağın hanı, aaz... Yoxsa, onu da bu Nihad başı xarab yeyib?
**Minarə:** Görəcək danışma, ana, mən uşaqlıqdan tay qulağam.
**Gülgəz:** Yox... Yalan danışma. Nihadın işidi, ondan nə desən çıxar. Mənə düzün de, elədisə, atanın goru haqqı sənin qulağının qisasını Nihadda qoymaram.
**Nihad:** Pişik balasını istədiyindən yeyir.





**Minarə:** Məni biabır eləmə. Qulağımın üstünü tük örtüb, görməmisən, dilini dinc qoy, açıb ağartma. Bilsələr, mənə təzə ad qoyacaqlar: Tayqulaq Minarə!
**Gülgəz:** Durun rədd olun burdan.

*Hamı gedir. Gülgəz evdə tək qalır. Otaqda o tərəf-bu tərəfə gedir. Qonşu Tükəzban gəlir. Salamlaşırlar. Gülgəz oturmaq üçün ona stul göstərir.*

**Tükəzban:** Mənə söz vermisən. Dedin ki, oğul doğub qızını oğluma alacam. Bəs hanı verdiyin söz?
**Gülgəz:** Oğlum oldu ki, sənin qızını da alam?
**Tükəzban:** Doğanmayacaqdınsa, söz niyə verirdin? Verməsəydin, biz də vaxtında başımıza çarə qılardıq da.
**Gülgəz:** Tələsmə, qoy özümə gəlim, bir şey fikirləşərik.
**Tükəzban:** Nə fikirləşəcəksən. Başıma daş düşüb...
**Gülgəz:** Darıxma. Bir yola qoyarıq.
**Tükəzban:** Səni məhkəməyə verəcəm. Qoy, məhkəmə özü ayırd eləsin.
**Gülgəz:** Altıaylıq döörsən ki. Oğlanın doğulmaması kişinin maymaqlığıdı. Mənim də bəxtimə belə kişi çıxdı da.
**Tükəzban:** Qızı neyləyim?
**Gülgəz:** Saxla. Görək kimin çolağı, şili var.
**Tükəzban:** Nə? Nə çolaq, nə şil? Bilirsən, camaatın qızı kimlərə ərə gedir? Analar kimlərlə quda olur?
**Gülgəz:** Ağ eləmə. Bacarsaydıq, onlara özümüz gedərdik. Da qızımızı niyə verirdik?.. Sən dur get. Özün də səsə salma.

*Tükəzban gedir. Gülgəz gəlib divanda oturur. Qapının zəngi çalınır. Gülgəz yenidən qapını açır. Şirindil Fatmanisə gəlir.*

**Fatmanisə:** Qız qalıb əlimdə. Onu neyləyim?

**Gülgəz:** Tələsmə. Ağzı yırtıqlıq eləmə. Qoy qız böyüsün. Uşaq bilsin ər nə olan şeydi.

**Fatmanisə:** Bacı soğan olsun, nəqd olsun.

**Gülgəz:** Dedim, narahat olma. Sən də get. Dilin əmanəti. Gündə də gəlib məndən o barədə söz soruşma.

*Fatmanisə gedir. Yenə qapı döyülür. Gülgəz əsəbi halda qapını açır. Bu dəfə xalası qızı Qızyetər gəlir. Gülgəz onu qarşılayır.*

**Gülgəz:** Ay qız, yaxşı oldu gəldin. Qonşular bezdiriblər məni. Mən dili qurdlamış gəlin gələndə qonşu gəlinlərə dedim ki, yeddi oğul doğacam. Hərənizdən də bir qız alacam. İşə bax. Fələk deyir, sən saydığını say, gör mən nə sayıram. Mən də yeddi oğul əvəzinə, beş qız doğdum. İndi də düşüblər üstümə, söz vermisən qızımızı al. Başım xarab olub. Mən neyləyim?

**Qızyetər:** Sən sakit otur. Mən bir şayiə yayacam.

**Gülgəz:** Nə şayiə?

**Qızyetər:** Arvadları yığaq sənin evinə. Səni yalandan "El anası" seçək. Qonşu qadınları da təşkilata üzv elə. Hərəsindən də bir ərizə, bir dənə də şəxsi anket al. Özlərinə də çoxlu iş tapşır. Qoyma işdən gözləri açılsın. Onda başları qarışar. Qızlarını ərə vermək yadlarından çıxar.

**Gülgəz:** Aa, birdən maaş-zad istəyərlər eeey.

**Qızyetər:** Qorxma. Nə deyirəm onu elə.

*Gülgəzlə Qızyetər qadınları evə dəvət eləyirlər. Ev qadınlarla doludur. Gülgəz ayağa qalxır.*

**Gülgəz:** Xanımlar! Gəlin Qızyetəri dinləyək.

**Qızyetər:** Əzizlərim! Beynəlxalq aləmdə gender, qadın hüquqları məsələsi gündəmdədi. Cəmiyyətin inkişafındakı avanqard rolumuzu da bilirsiz. Konservator kişilər tez-tez bizə mane olurlar. Qadınlarımız fəallıq göstərməsələr... Biz belə qərara gəldik ki, "El anası" cəmiyyəti yaradaq. Təşkilatın yeddi üzvi olmalıdı. O üzvlər də cəmiyyətin sədrini seçməlidilər. Üzvləri də siz təklif eləyin.





**Yerdən səslər:** Qaraqız, Gülxar, Tükəzban, Fatmanisə, Fatış, Gülgəz, Bəsti.

**Fatış:** Mən təklif eləyirəm, Gülgəz xanım cəmiyyətin rəhbəri seçilsin.

*Təklif səsə qoyulur və yekdilliklə qəbul olunur. Gülgəzlə Qızyetərdən savayı, hamı sevincək otağı tərk eləyir.*

**Qızyetər:** Xalaqızı, qonşu arvadlar da belə getdilər.

**Gülgəz:** Xı... xı.... xı...

*Qızyetər gedir.*

*Gülgəzin evi. Qızları, kürəkənləri, nəvələri evdədirlər. Minarə ilə Simarə süfrə açırlar. Simarə qədəhləri süfrəyə düzür. Gülgəz bişirdiyi plovu stola gətirir. Sonra hamı stol ətrafında əyləşir. Gülgəz ayağa qalxır.*

**Gülgəz:** Uşaqlar, nəvələrimin təvəllüd günlərini sonra qeyd eləyəcəyik. İki işi bir-birinə qarışdırmaq istəmirəm. Minarəylə Nihadı toylarından sonra evə dəvət eləmişəm. İstəyirəm, mənlisizli onlara: — Xoş gəldiz, — deyək. Bu məqsədlə bu cütlüyə hədiyyə də almışam.

**Sitarə:** Hədiyyə nədi?

**Gülgəz:** İki cüt alt paltarı.

*Nihadla Minarə hədiyyələri alırlar. Qalan qızlar və kürə-*

*kənlər arasına pıçhapıç düşür.*

**Nihad** *(ucadan gülür)***:** Oho... oho... oho... Qayınanamın özünə də qurban olum, hədiyyəsinə də.

**Minarə:** Aha... Hənkəz biz deyəndəndi.

**Gülarə** *(gülərək)***:** Ay ana, bu, o nədi almısan? Eşidən bilən nə deyər?

**Gülgəz:** Nə deyəcək, qabaqdan şaxtalı-çovğunlu qış gəlir. Geyərlər, üşüməzlər...

**Kürəkənlər və qızlar:** Ha... ha... ha... hi... hi... hi...

**Gülarə:** Biabır olduq ki?

**Təranə:** Qonşular eşitsə...

**Gülgəz:** Qonşuları mən sizdən yaxşı tanıyıram. Narahat olmayın.

**Sitarə:** Bağışla, Nihad.

**Simarə:** Anamızın zarafatından da keçmə.

**Minarə:** Bizə bu lazımıydı. Əcəb eləyib. Arvadla işiniz olmasın.

**Nihad:** Qayınanamın öpüşdən acığı gəlir. Hə desəydi, onu maç eləyərdim.

**Gülgəz:** Kəs. Səninlə sonra danışacam.

*Gülüş ara verir. Yemək-içmək başlanır. Minarə anasının qulağına nəsə pıçıldayır. Nihad qədəhlərə şərab süzür. Salfetlə ağzını silir. Ayağa qalxır.*

**Nihad:** Əziz qayınana və baldızlar! Çox hörmətli bacanaqlar! Qayınanamızın sevimli nəvələri! Ərz eləyim ki, bacanaqlar, bizim qayınanamız, baldızlar sizin ananız çırtı-pırtı adam döör. Ona elə belə "Ala qarğa" ləğəbini verməyiblər. O, ən ekstremal vəziyyətdən çıxış yolları tapandı. Bir göz qırpımında polisləri öz yerlərində oturtmağı bacarır. Ürəyi açıq, qəlbi təmizdi. Qayınana, biz səninləyik. Gəlin içək bu badələri hamımızın gözünün işığı, bircə dənəmiz olan qayınanamızın şərəfinə. O, xoşbəxtdi. Deyirlər...





**Minarə:** Deyirlər yox... Neçə dəfə demişəm, iqtibası birbaşa mənbədən götür: Zeynəb qarı deyərdi...

**Nihad:** Qız doğan analar həmişə urvatlı olurlar. Ona görə də şəxsən mən qayınanamı sevirəm. Beş qız doğmaq. Beşini də boya-başa yetirmək. Bilirsiz, bu, nə deməkdi? Bu, həm də beş kürəkəndi. Beş kürəkən beş qardaşdı. Hamısı da qayınanaya oğuldu. Təvəqqe eləyirəm, maqnitofonda bir "Tərəkəmə". Mən qayınanamla oynamaq istəyirəm.

*Məti maqnitofonun düyməsini basır. "Tərəkəmə"nin sədaları otağı bürüyür. Nihad Gülgəzi ayağa qaldırır. Gülgəz əvvəl özün çəkir. Oğlan əl çəkmir. Qayınana rəqs eləyir. Stolun ətrafında dövrə vurur. Nihad dizlərini yerə atır, "Ay can", "Ay can" deyərək əl çalır. Qayınanasının əhvalının yüksək olduğunu görən Nihad onu qucaqlayır və öpür. Gülgəz özünü itirir. Elə bu vaxt qalan kürəkənlər də bəhsə-bəhs qayınananı öpməyə başlayırlar. Qızların gülüş, alqış səsləri otağa yayılır. Nihad bir az da dərinə gedir. Qayınanasını qucağına alaraq atıb tutmağa başlayır. Arvadı saxlaya bilməyib əlindən salır. Gülgəz yerdə sevərək qalır. Nihad peşman olur. Qızlar, kürəkənlər həyəcanlanırlar. Minarə Nihada yaxınlaşır.*

**Minarə:** Mən belə dedim?

**Nihad:** Barıt tünd oldu.

**Minarə:** Şikəst qalsa, ona kim baxacaq?

**Nihad:** Özümüz, ölməmişik ki.

**Minarə:** Elə bilirsən, şikəstə baxmaq asandı?

**Nihad:** Özüm baxaram.

**Minarə:** Boş-boş danışma, altın-üstün kim təmizləyəcək bu

yaşda...

**Nihad:** Demirdin birlikdə qalaq?

**Məti:** Əə, neylədin? Arvaddan çətin ki...

**Mövsüm:** Deyirsən, o söz...

**Miriş:** Əşi, kefinizi pozmayın, qayınanadı da. Qiyamət qopmayıb ki?

**Musik:** Mən qayınanasız yaşayanmaram.

*Hönkurur dəsmalla gözlərinin yaşını silir.*

*Süfrə ortada qalır. Tibbi yardım maşını çağırılır. Gülgəzi xəstəxanaya aparırlar. Həkimlər müayinəyə başlayırlar. Qızlar həkimə yaxınlaşırlar.*

**Sitarə:** Ooy... Oturduğumuz yerdə...

**Həkim:** Ananızda uzun bir irtmək varmış. Zəhrmar arvadı hardan tutub bilmirəm.

**Simarə:** İrtmək nədi?

**Həkim:** O sonra....

**Minarə:** Həkim, düzələcək?

**Simarə:** Yəni düzəlməyə bilər?

**Həkim:** Rentgen yoxlamasından keçirilib. Cərrahlar müşavirədə irtməyi müzakirə eləyirlər. Ananızın yaşlı və şəkər xəstəsi olması işləri korlayır. Başa düşənmirəm, əri buna necə baxıb. Qorxduğumuz odu ki, zəhrimar xərçəngə də çevrilə bilər. Həkimlər kollegiyasının tam qənaəti belədi ki, nə qədər gec döör, mütləq əməliyyat olunmalıdı.

*Həkim gedir. Qızlar palatada Gülgəzə baş çəkirlər. Ağlamsınırlar. Yenidən həkim gəlir.*

**Həkim** *(Gülgəzə)*: Özünü necə hiss eləyirsən. Əməliyyata





hazırsanmı?

**Gülgəz:** Saxlamayın. Mənə olan olub. Məni yandıran odu ki, bir irtməyimi də saxlayanmadım, həkim. Camaat ağız-burnunu, dodaqlarını əməliyyat elətdirib üz-gözünü qəşəngləşdirir. Mən də bu yaşda irtməyimi...

*Qızlar, kürəkənlər Gülgəzin çarpayısını dövrəyə alırlar. Pıçhapıç düşür.*

**Nihad:** Bağışla məni, qayınana.

**Gülgəz:** Başın xarabdı, o yanda dur *(Üzünü Minarəyə tutur)*. Başını düzəltdir, yoxsa...

**Miriş:** Bizə vəsiyyətin varmı?

**Məti:** Alacağın varmı?

**Mövsüm:** Elədiklərini halal elə, qayınana.

**Miriş:** Heyf... Çox heyf... Nəvələrə kim baxacaq?

**Musik:** Ürəyim az qala çatlayır.

**Gülgəz:** Ayə, gedin zurnanızı aralıda çalın. Hərdənbir özünüzü də küləyə verin.

**Təranə:** Səbr elə...

**Gülgəz:** Eh... Keçi can hayında, qəssab piy... Ədə, ömrüm boyu irtməyimin varlığını ərimlə anamdan savayı kimsə bilmirdi. İndi bütün şəhər biləcək. Allah Nihadı kəssin. Aman Allah, bu informasiya qəzetlərə, televiziya kanallarına sızsa mən neylərəm? Yaman günə qaldım....

*Gülgəzi tibb bacıları arabacıqda əməliyyat otağına aparırlar. Qızlarla kürəkənlər dəhlizdədirlər. Həyəcan keçirirlər. Həkim gəlir. Hamı onu dövrəyə alır.*

**Minarə:** Vəziyyət necədi?

**Həkim:** Ürəyi zəifdi. Şəkəri də çoxdu... Hələ bir söz de-

yənmərik.

**Sitarə** *(Nihada)***:** Başına bir iş gəlsə, özün damda yerini hazırla.

**Məti:** Əcəb işə düşdük.

**Həkim:** Aranı qarışdırmayın. Dözün. Biz də baxaq görək...

*Həkim gedir.*

**Mövsüm:** Əə, bu irtmək nə olan şeymiş?..

**Miriş:** Çox zəhrmarmış.... Milyonda birində olur. O da gəlib çıxıb bu yazıqda.

**Musik:** Allah xeyirlisindən eləsin.

**Nihad:** Eləməyə bilər?

**Məti:** Mən hardan bilim?

**Mövsüm:** Həkim də söz deməyə acizdi.

**Miriş:** Əşi, cəhənnəmə ki. Onsuz da hamı öləcək.

**Təranə:** Hə.... Bunun ləyağı nədi?

**Miriş:** Qurtarın söz-söhbəti. Şər deməsən, xeyir gəlməz. Qəbiristanlıqda tanışı olan varmı?

*Hamı başını yelləyir.*

**Musik:** Oğraşlar, dədələrinin də qiymətin qoyublar üstünə. Kasıblar neyləsinlər?

**Məti:** Neyləyəklər? Çölə atmayacaqlar ki.

**Sitarə:** Gələn-gedən bizə nə deyər?

*Həkim tərini silə-silə gəlir. Qızlar, kürəkənlər yığılırlar onun başına.*

**Həkim:** Mürəkkəb əməliyyatıydı. Təcrübəmdə belə şey görməmişəm. Yaxşı qurtardı. Hamınızı təbrik eləyirəm. Qaldı şirinliyi.





**Miriş:** Bəyəm, irtməyin də şirinliyi olur?

**Simarə:** Qalxsın ayağa. Özü hər şeyi yerbəyer eləyəcək. Narahat olma, həkim.

*Tibb bacıları Gülgəzi apardıqları arabacıqda palataya gətirirlər. Gülgəz qızlarını, kürəkənlərini görüb kövrəlir.*

**Həkim:** Xəstəni incitməyin. Qoyun özünə gəlsin.

*Hamı gedir. Gülgəz çarpayısında uzanır. Əməliyyatdan üç gün sonra bir kişi həkimlə palataya gəlir. Kişi stul çəkərək Gülgəzin çarpayısının yanında əyləşir. Palatadakı digər xəstələr də ona altdan-altdan baxırlar. Həkim əlini Gülgəzin alnında gəzdirir.*

**Kişi:** Xəstəxanada şərait pis dööр.

**Həkim** *(Gülgəzə)***:** Əhvalın necədi?

**Gülgəz:** Həmd olsun Xudaya. Adamın başına nə desən gələrmiş. Barmaq boyda şey məni yıxdı... Çarpayıya möhtac elədi. Ağrıdan nəfəs alanmırdım.

**Həkim:** Yat dincəl. İnsanın harası ağrısa, elə bilir canı ordadı. Gərək vaxtında kəsdirəydin. İndiyə qədər nələr çəkdiklərini təsəvvür eləyirəm.

**Gülgəz:** Həkim, sən belə şeyi çox görmüş olarsan, təzədən uzanmaz ki?

**Həkim:** Birinci dəfədi belə şeylə qarşılaşıram. Qorxma. İşdi uzansa, Zeynəb qarı demişkən: “Ağa durur, ağacan durur”. Ölməmişik ki. İslanmışın yağışdan nə qorxusu. Qalperin bıçağı əlimizdədi, lazım gələr, salarıq işə, canın qurtarar.

**Gülgəz:** Necə? Necə?

*Naməlum kişi gülümsəyir. Həkim kişiyə baxır.*

**Həkim:** Siz söhbətinizi eləyin, mən də o biri palatadakı xəstələrimə baş çəkim.
**Gülgəz:** Gedin, həkim, indi anladım ki, qırıq-sınıq nə olan şeymiş.

*Həkim gedir. Naməlum kişi stulu Gülgəzin çarpayısına bir az da yaxınlaşdırır. Gülgəz yarası ağrıdırmış kimi ağız-burnunu əyişdirir. Hərdənbir də ufuldayır.*

**Kişi:** Adi zərbəyə dözmək olmur, onda qalmışdı ki, irtmək qırıq-sınığı ola. Çalış elə şeylərdən uzaq ol.
**Gülgəz:** Səndə də irtmək olub?
— Yox... Elə danışırsan...
— Qələt eləyirəm, bir də əl-qol açıb oynasam. Günah bircə qırıq da məndə olmadı. Başıma gələnlərin hamısı Nihadın qələtidi. Şit-şit atdığı atmacalar azlıq eləyirmiş kimi tutub məni zorla öpdü. Öz xoşuna ona öpüş verənin atasına lənət. Bəyəm dəli olmuşam. Sonra da məni qamarladı. Göyə atdı, tutdu. Özü də əşi, neçə dəfə. Birdən guppultuyla çırpıldım yerə. O andaca ölüb-dirildim. Canın üçün handan-hana özümə gəldim. Əlimi sürtüşdürdüm dalıma. Nə görsəm, yaxşıdı. Utanmazlıq eləyirəm. Barmaq uzunluqda irtməyim sınıb qalıb böyrü üstə. O üzəbu üzə əlləşdirdikcə ağrı başıma vurdu. Hərdən ürəyimə də təsir elədi.
— Nihad sonra neylədi?
— Neyləyəcək? And-aman elədi ki, bilmədim. Oldu da. Olacağa nə çarə?
— Burda qəsd məsələsi yoxdu ki?
— İnsan çiy süd əmib. Bəlkə də varmış. Bir ayağım burda, o birisi gorda. Yalan danışanmaram.





— Nihad səni həqiqətən də ayağa qaldırırdı, yoxsa döşəmədə sürmək istəyirdi.
— Onu da qəti deyənmərəm.
— Nihad kimdi?
— Kim olacaq. Başdan xarab. Üzünə baxsan, dərhal anormallığını bilərsən.
— Nədən?
— Başından.
— Yarana baxa bilərəm?
— Baxarsan.

*Gülgəz çarpayıda yanı üstə çevrilir. Kişi yorğanın altından əlini uzadaraq Gülgəzin irtməyini əlləşdirir. Sonra da başını bulayır. Palatadakı xəstələr qımışırlar.*

**Gülgəz:** Nə hırıldaşırsız az? Ginekoloq-zad döör ki? Cərrahdı da.

*Xəstələr özlərini yığışdırırlar.*

**Xəstələrdən biri:** Başqa şeyə gülürlər....

— Hə, nə oldu, düz kəsməyiblər?
— Yox... Yaxşıdı, irtməyinə söz olanmaz.
— Nəyi yaxşıdı?
— Hadisənin belə qurtarması.
— Yəni, necə?
— Salamatçılıqla.
— Yəni, başqa cür də ola bilərdi?
— Lap ölə də bilərdin, zərbədən belin də qırılardı. Belin qırılsaydı, səndən çətin ki, adam olardı.
— Bəs nə olardı?

— Yataq bulaşığı...

— Elə bu?

— Bəyəm, bu azdı? İynə-dərman əlində qalacaqdın. Uşaqların da bezib səndən üz döndərəcəkdilər.

— Ağzını yerə tut danış. Qaramat olma.

— Mən də bu dünyada yaşayıram. Övladın üzü valideynkindən soyuq olur.

— Hə, onu düz deyirsən... Naznazın uşaqları kimi. Boyların yerə soxum. Doğrudu, Naznaz çoxdan ölmüşdü. Ancaq uşaqların bircə ataları vardı, o da dururdu. Son vaxtlar uşaqlar atalarını da çərlədib öldürdülər.

— Sən də çox öyünmə. Elə ki ayağın büdrədi, hər şey qurtardı. Oturub-durub ölümünü gözləyəcəklər.

— Mənimkilər elə olanmaz.

— Üstlərinə çul çəkmə... Özü də səbirsizliklə. Eşitməmisən? Xəta üz verəndə, quymaq diş sındırar.

— Eşitmişəm. Bəyəm, mən camaat arasında yaşamıram? Rəhmətlik Zeynəb qarı da tez-tez o məsəli çəkərdi.

— Onun da irtməyini qırmışdılar?

— Yox, ona yaxın duranmazdılar. O, özü atlını atdan salardı. Rəhmətliyin yaxşı kəlamları vardı.

— Deyirsən, Nihadın başı xarabdı, hə?

— Başı xarab olmasa, iki gündən bir telefonla mənə vozduşnı öpüşlər göndərməz ki? Mən döörəm, sənsən. Özün de. Ağlı olan adam telefonla adama öpüş göndərər?

— Yox... Heç vaxt... Bu, ədəbsizlikdi...

— Bayaq sözarası dedin: uşaqlar sənə baxmazlar. O söz xoşuma gəlmədi. Sözü birbaşa deməzlər... Söz ikibaşlı olsa, yaxşıdı.

— Xanım, övlada əli gətirən, qaz vurub qazan dolduran atana lazımdı. Əli qazancdan qalan valideyn həmişə övlada yükdü. Kim özünə yük arzular ki?





— Booy... Bu nə danışır, aaz?.. A kişi, mən balalarımın kəsilən dırnağını heç kimə dəyişmərəm.

— Sən dəyişməzsən, onlar dəyişərlər. Hələ səni aparıb qocalar evinə də atarlar. Adına da yüz şəbədə qoşarlar. Qaldı Nihadın başına... Onun başı həqiqətən də xarabdı, xanım, xarabdı.

*Gülgəz qızışıb danışdıqca palatadakı xəstələr öz aralarında bir-birilərinə göz vurur, hırıldaşırlar. Xidmətçi palataya girir. Şvabrayla döşəməni silir.*

**Gülgəz:** Yekə arvadsan, görürsən söhbət eləyirik, mane olma da.

**Xidmətçi:** Kefimdən gəlməmişəm ki. Mənə palatanı yığışdır, — deyiblər, gəlmişəm. Bir də ki yatdığınız yeri təmiz saxlayın. Camaatı da bezdirməyin.

**Gülgəz:** Nə? Qurban olasan, bir əlcə sınıq irtməyimə, bir də yanımda oturan abırlı-həyalı bu kişiyə. Yoxsa, əlindəki şvabranı alıb...

**Xidmətçi:** Neylərdin?

*Gülgəz mənalı-mənalı xidmətçiyə baxır. Başını yelləyir.*

**Gülgəz:** Onu adama demirlər.

**Xidmətçi:** "Ala qarğa" ayamasını sənə qoyanın atasına rəhmət.

**Gülgəz:** Necə? Necə?

**Xidmətçi:** Eşitdiyin kimi.

**Gülgəz:** Rədd ol burdan.

*Xidmətçi gedir. Gülgəz üzünü kişiyə tutur.*

**Gülgəz:** Harda qaldıq?

— Biqeyrətin nənəsi yaşda arvada girişməsində. O, iynə-zad vurmur ki?
— Mən hardan bilim?
— Hadisə baş verən gün içmişdi?
— Hamı kimi o da bir az.
— Anaşayla arası yoxdu ki?
— Ay öyün tikilsin, bəyəm, mənə hesabat verir, deyəm ki, arası var, ya yoxdu?
— Nihad bura gəlib-gedirmi?
— Hər gün.
— O, cinayətkar döör ki?
— Bilmirəm. Bir az var, polislər onu tutub aparmışdılar.
— Niyə?
— Təxribat üstündə.
— Sonra nə oldu?
— Nə olacaq, o söz...
— Necə yəni, o söz?
— Bir-iki saat saxladılar, sonra buraxdılar.
— Sən bunları hardan bilirsən?
— Özüm də ordaydım. Qızım Minarə də.
— Siz orda neyləyirdiz?
— Nihada görə getmişdik.
— Sizin cinayətkarla nə əlaqəniz?
— Ər-arvaddılar da. Nihad həm də kürəkənimdi. Yaxşı, ayıb olmasın, tanımadım, sən kimsən?
— Müstəntiq Balayev.

*Gülgəz heyrətlənir.*

— Nə?
— Müs-tən-tiq.





*Nihadla Minarə əllərində çiçək dəstəsi palataya girirlər.*

— Budu ha, Nihad özü söhbətin üstə gəlib çıxdı.
— Əla, axtarışa ehtiyac olmadı.

*Nihadın sifəti bozarır. Minarə qorxur. Gülgəz işləri korladığını anlayır. Çıxış yolu axtarır.*

— Ayə, Balayevsən, Atayevsən, Anayevsən, nəsən bilmirəm. Oturduğum yerdə mənə niyə girişirsən. Sənin kimi müstəntiqi... (*Xəstələr çaş-baş qalırlar. Hamısı bir-birinin üzünə baxır*).
**Müstəntiq:** — Ağızbaşına danışma.
**Gülgəz:** — Bayaqdan bu xəstələr də şahiddilər. Bəs deyirsən, həkiməm. Deməli, məni aldadırsan. İrtməyimi, oramıburamı əlləşdirirsən. Sənə tapşırığı eləmi veriblər? Deyiblər, get xəstəxanaya xəstələri abırdan sal?

*Müstəntiq çaşır. Aləm qarışır. Nihad müstəntiqə cumur. Gülgəz ona imkan vermir. O, müstəntiqi boğazlayır. Müstəntiq qaçmaq istəyir. Ayağı ilişib yıxılır. Gülgəz özünü müstəntiqin üstünə atır. Onun qulağını dişləyir. Müstəntiq qışqırır. Səsə xəstəxananın işçiləri gəlirlər. Müstəntiqi Gülgəzin əlindən alırlar. Müstəntiq palatadan qaçır.*

**Nihad:** Kişi kimdi, ay qayınana?
**Gülgəz:** Kim olacaq müstəntiq. Gəlib səni aparsın.
**Minarə:** Apara bilərdi?
**Gülgəz:** Meyidimin üstündən... Burda qalsaq çox şey olacaq, yığışın, gedək.

*Hamı palatadan çıxır. İşıq sönür.*

***2009***

# Quzğun

***(Kinoserial)***

**İştirak edirlər:**

**Nəsiman** — 25 yaşında
**Sənubər** — yaşlı qadın, ev sahibəsi
**Kişi** — psixi xəstə
**Zülfəli Zülfüqarlı**
**Qəməş Qəməşov**
**Məməti Məmətiyev**
**Şirbala Şirbalayev**
**Gülgəz**
**Rəis**
**Ucaboy polis**
**Gödərək polis**
**Müstəntiq**
**Talıb**
**Səfər**
**Tuğra qarı**
**Məsmə**
**Nuruş**
**Qaçay Qılınclı**
**Mayor Həsənov**
**Canıyev**
**Mıxıyev**
**Cəsarət**
**Sehranə**





## I hissə

*Kamera panorama edir. Gecə-gecədən keçir. Sadə, təmtəraqdan uzaq ev. Pəncərəyə əks olan divarın dibində çarpayı. Sənubər qarı xəstədi. Ağ saçlı qarı köhnə, taxta çarpayıda ağır-ağır nəfəs alır. Nəsiman şam işığında stulda əyləşib fikirlidir. Qızıl mağazası, zinət şeyləri, satıcılar və alıcılar görüntüyə gəlir. O, dərindən nəfəs alır. Gözlərini yumur. Xəstə bacısı, yaşlı anası gözləri önündə canlanır...*

*Təsvir dəyişir. Nəsiman ayağa qalxır. Pəncərəyə yaxınlaşır. Qar yağır. Adamlar səkilərdə çətinliklə gedirlər. Küçənin tinində soyuqdan titrəyən dilənçilər. Nəsiman başını yelləyir, sonra da Sənubər yatan çarpayıya yaxınlaşır.*

**Nəsiman:** İndi necədi vəziyyətin?

**Sənubər:** Elə bil damarlarımda qanım donur *(kövrəlir)*. Belə ölmək istəməzdim. Bu, inləməkdi, it kimi gəbərməkdi...

*Nəsiman əlini qadının alınında gəzdirir. Ayaqlarını ovuşdurur.*

— Özünü qorxutma, Sənubər xala.
— Ürəyim əsir. Əzaba dözənmərəm.

*Qarı həyəcanlanır. Nəsimanın gözləri dolur, yan otağa keçir, yorğanını gətirərək qarının üstünə atır. Sonra stulda əyləşir.*

— Özünü darıxdırma, isinsən, hər şey ötəcək.
— İsti çay olsaydı... Boğazım quruyur.

*Nəsiman bir an fikirləşir. Ayağa qalxır, geyinir.*

— Bu saat çay təşkil eləyərəm.
— Qaz gəlir?
— Yox...
— Bəs necə hazırlayacaqsan?
— Bir şey fikirləşərəm.
— Getmə. Qorxuram. Getsən, ölüm məni məngirləyəcək *(ağlamsınır)*. İşimiz xod gedəndə ölümü adiləşdiririk. Elə ki ayağımız büdrədi, ölümün zəhmi bizi basır.
— Nə ölüm? Balaca xəstələnən kimi... Bəlkə telefon nömrələrini verəsən, qızını, oğlunu çağırım, gəlsinlər.
— Yox... İstəmirəm. Onlardan nə umacağım var, nə də nigarançılığım. Adam Allahdan umar. Bəndədən heç nə istəmirəm.
— Məndən də?
— Səni Allah özü bura göndərib.
— Onda səbr elə gəlirəm.

*Nəsiman çaydanı su ilə doldurur. Kibrit, qəzet götürərək həyətə düşür. Yer qarla örtülüdür. Yaxınlıqdakı tikinti obyektindən kiçik taxta, ağac parçaları, talaşalar yığır. Ocaq qalayır. Mişar daşlarından ikisini ocağın qırağına qoyur. Ocağı yandırır. Həyət-baca ala-toran görünür. Bir kişi gəlir. Ocaqdan bir az aralı dayanır.*

**Kişi** *(əsəbi halda)*: Söndür ocağı, yekəbaş, həyətdə nə lotuluq eləyirsən?
**Nəsiman:** Təhqir eləmə. Həyətdə ocaq qalayıb çay qoymaq bəyəm lotuluqdu?
— Bəli. Hər gələn məhəllədə lotuluq eləsə... Köhnə bazara təzə nırx qoysa...
— Evdə xəstə var. Onun üçün...





— Götür çaydanı, rədd ol burdan. Yoxsa, götürüb çaydanı çırparam kəllənə. Onda qanarsan.
— İmkan ver, çayı qaynadım.
— Sənin başın xarabdı. Camaatın yuxusuna zəhər qatma. Qanmırsan ki, külək zibil qarışdırar, məhəlləni od alar? Onda neyləyəcəksən?.. Deyirsən, polis çağıraq? Ya səni yıxıb yerə başa salaq?
— Bacararsan?
— Canını da alaram. Sənin kimilərdən çoxlarının qəbrini qazıb bu lələşin. O yan-bu yan eləsən, məhəllənin qarını sənə yedirərəm. Dinmirik, danışmırıq, gündə bir atasından xəbərsiz gəlib burda oyun düzəldir.
— Yekə kişisən, özünü uşaq kimi aparma, öz adını mənə qoyma, qanacaqsız.
— O gündə anasının əmcəyini kəsənlər gəlib burda zurna çalıblar. Arvad-uşağı dəli eləyiblər. Mən evdə olsaydım.... Şalvarlarını çıxarardım.
— Onların mənə dəxli yoxdu. Çay qaynasın, götürüb gedirəm.
— Kim ölur-ölsun.
— Deyəsən, əcəlin çatıb. Məni qana çalxama.

*Nəsiman əyilərək odunu ocağa qoyur. Kişi ona arxadan təpik çalır. Nəsiman büdrəyir. Özünü ocağa yıxılmaqdan qurtarır. Əlindəki ağacı kişinin gicgahına çırpır. Kişi qaçır. Elə bu vaxt yanğınsöndürən maşın həyətə girir. Ocağın yanında dayanır. Yanğınsöndürənlər maşından tökülüşürlər. Komandir Zülfəli Zülfüqarlı Nəsimana yaxınlaşır.*

**Zülfəli Zülfüqarlı:** Ayə, gecənin bu vaxtında kefin donbalıb? Novruza hələ iki ay var. Adamları dəli eləmisən.
**Nəsiman:** Nə Novruz? Nə çərşənbə? Görürsüz, çay qayna-

dıram.

**Zülfəli Zülfüqarlı:** Yox, əşi... Gecənin bu vaxtında?.. Elə bildim yumurta qaynadırsan.

**Yanğınsöndürənlər** *(bir ağızdan)*: Ha... ha... ha...

*Nəsiman ocağa odun qoyur. Komandir əsəbiləşir.*

**Zülfəli Zülfüqarlı:** Deyəsən, sənə söz batmır.

**Nəsiman:** Komandir, sözünüzə ciddi olun, sonrası da imkan verin arvada çay çatdırım.

**Qəməş Qəməşov** *(gülərək)*: Arvadın hökmünə bax ey... Biqeyrət.... Arvaddan qorxan kişi qapı arxasında qalar *(üzünü komandirə tutaraq)*. Ayə, bu ələ düşəsi nüsxə döör. Ha... Ha... Ha... Özü burda, arvad evdə özgə kişiylə.

*Qalanlar da gülüşürlər.*

**Nəsiman:** Ciddi fərqimiz yoxdu. Hamımız bir bezin qırağıyıq.

**Zülfəli Zülfüqarlı:** Bizim qonşumuzda sənin kimi arvaddan üyüdən bir kişi vardı. Məhəllə əhli yığıldı. Onun əlhəmini tərsinə qıldılar.

— O nə deməkdi?

— Quyuladılar getdi. Qəbir daşına da yazdılar: "Məhəllənin çiçəklənməsi uğrunda mübarizədə fədakarcasına həlak olan qonşumuz H.H.". Hüquq mühafizəçiləri də gəlib beləcə aktlaşdırdılar... Göndərdilər tarixin arxivinə. İndi qandın, əlhəmin tərsinə qılınması nə deməkdi?

— Arvadı neyləyir?

— Neyləyəcək? Üzüyola olduğundan onun-bunun möhübün düzməklə məşğuldu, ha... ha... ha...

— Əcəb kişisiz. Bolluca qeyrətiniz var.





— Kişiliyimizə şübhə eləyirsən? Səni də o yolla göndərərik gedər-gəlməzə. Onda ağlın başına gələr.

— Komandir, düzünü deyin, yoxsa, mənimlə məzələnirsiz?

— Özgə dərdimiz-sərimiz yoxdu, oturub səninlə məzələnək? Ya biz boş-boğazıq? Ya da sən... Ad, familiyan, ana-atanın adı nədi?

— Nəcəfzadə Nəsiman Xələf oğlu.

*Nəsiman ocağı qurdalayır. Sonra da əllərini ocağın istisinə tutur. Komandir acıqlanır.*

— Bizi saymırsan?

*Qəməş Qəməşov irəli yeriyir.*

**Qəməş Qəməşov:** Cənab komandir, akt hazırdı. İmzalaya bilər. Ya imzalayıb cəriməni ödəsin, ya da bizə görüm-baxım eləsin. Biz də vaxt itirməyək. Ola bilsin, başqa çağırışlar da var. Rəis əsəbiləşər.

**Nəsiman** *(gülümsünərək)*: Nə cərimə? Nə şirinlik? Qaz yox, işıq yox, evdə arvad xəstə, bəs mən neyləyim?

**Zülfəli Zülfüqarlı:** Ay bədbəxt, qaş qayırdığın yerdə vurub göz çıxarırsan. Xəstəni zəhərləyib öldürərsən. Polislər səni didişdirərlər. Yoxsa, polisləri tanımırsan? Göndərərlər səni qazamata. Oranı da bilirsən də...

**Qəməş Qəməşov:** Polislər də onu istəyirlər?

**Zülfəli Zülfüqarlı:** Qəməş Qəməşov düz deyir... Bir az cərimə ödə, bir az da uşaqlara hörmət elə. Qarda-qiyamətdə gəliblər, gedib boğazlarını yaşlasınlar. İçləri qızışsın.

**Nəsiman:** Mən özüm acından ölürəm. Bircə dilənməyim qalıb.

**Zülfəli Zülfüqarlı:** Aktını şöbəyə təqdim eləsək, ev-eşiyini

satıb canını qurtarmalı olacaqsan.

*Çaydan qaynayır. Nəsiman çaydanı götürür. Qəməş Qəməşov onun qarşısını kəsir.*

**Qəməş Qəməşov**: Deyəsən, sənə söz təsir eləmir. Səni bir hala salarıq.

**Nəsiman:** Səhərə qədər çənə döysəniz də, sizə verməyə bir qəpiyim yoxdu. İmkan verin, xəstə arvad gözləyir, çayı aparım.

**Məməti Məmətiyev** *(Nəsimana)***:** Camaatı bezdirmə, dılğır, gərək əl-qol işə salaq?

**Nəsiman:** Nəyəm?.. Dılğır? Ağzıbaşına danışma. O sözü yedirərəm sənə... Dəvədən böyük fil də var.

**Zülfəli Zülfüqarlı:** Nə var?

**Nəsiman:** Dedim də.

*Zülfəli Zülfüqarlı sağa-sola, aşağı-yuxarı baxır. Sonra üzünü Nəsimana tutur.*

**Zülfəli Zülfüqarlı:** Bizi hövsələdən çıxarıb camaatı bura yığma.

**Nəsiman:** Komandir, gedin qoz-qozu başqasıyla oynayın. Sizin kimi qəmişlərdən çox görmüşəm.

*Komandir Şirbala Şirbalayevə "vur" işarəsini verir. O da Nəsimanı vurur. Nəsiman səndələyir. Qəməş Qəməşov yerdən taxta parçasını götürür və Nəsimana ilişdirir. Məməti Məmətiyev hücuma keçir. Nəsiman Məməti Məmətiyevi başı ilə vurub yerə sərir. Sonra da Nəsiman çaydana əl atır. Komandirin üstünə cumur. Komandir qışqıra-qışqıra qaçır. Şirbala Şirbalayev qızışır. Nəsiman dolu qaynar çaydanı onun başına ilişdirir. Şirbalanın üz-başını, boyun-boğazını qaynar su yandırır. O, bağırır. Qəməş Qəməşov qırmızı kərpic parçasını Nəsimanın üzünə vurur. Nəsiman huşunu itirərək yerə sərilir. Adamlar alt paltarında hadisə yerinə axışırlar. Hamı qışqırır. Səs-küy aləmi bürüyür. Çox çəkmir ki, polis maşını gəlir. Nəsimanın qollarını qandallayırlar. Nəsiman üzünü Gülgəz qarıya tutur.*





**Nəsiman:** Gülgəz xala, çaydandakı qaynamış suyu Sənubər xalaya çatdır. O, xəstədi. Mən gəlincə gözün onun üstündə olsun.

**Gülgəz:** Nigaran qalma, oğlum. Ona özüm qulluq eləyəcəm. Ancaq alt paltarında rəisin yanına getmək ayıbdı. Tumanımı atıb başıma gələrəm. Özüm rəislə danışaram.

*Polislər Nəsimanı sürüyə-sürüyə, döyə-döyə maşına mindirirlər. Sonra da yanğınsöndürənlərin yanına qayıdırlar.*

**Ucaboy polis:** Nəsimanı bu hala niyə salmısız? Axı o, ölə bilərdi.

**Yanğınsöndürənlər** *(bir ağızdan)***:** Əvvəla, bu boyda ölkədə olmasın bir adam. İkincisi də, onu komandirdən soruşun. Əmri o, verir. Biz kimik ki?..

**Gödək polis** *(gülərək)***:** Onun adam döydürmək səlahiyyəti də var?

**Yanğınsöndürənlər** *(bir ağızdan)***:** O səlahiyyətin olub-olmamasını da komandirin özündən xəbər alın.

**Ucaboy polis:** Hanı komandir?

**Qəməş Qəməşov:** Qaçdı.

**Ucaboy polis:** Hara?

**Şirbala Şirbalayev:** Biz hardan bilək.

**Gödək polis:** Əcəb kişidi.

**Məməti Məmətiyev:** Qaçmaq namərdin peşəsidi.

**Ucaboy polis:** Peşəsini tərgidərik. Gəlin, siz də əyləşin ma-

şına.

**Şirbala Şirbalayev:** Biz iş başındayıq. Həm də dövlət adamıyıq.

**Gödərək polis:** Gözümüz aydın, dövlət adamısız. İş başında cinayət törədirsiz. Buna nə ad vermək olar?

**Qəməş Qəməşov:** Əşi, nə cinayət? Siz hər şeydə öyrənmisiz cinayət axtarmağa. Belələrinin dərslərini verməsək, hər gecə əlli yanğın törədərlər. Evlərə yüz əlli basqın olar. Yüzlərlə adam xəsarət alar, neçəsi də öldürülər.

**Məməti Məmətiyev:** Əşi, nə döymək? Bir-ikisini o, bizə vurub, bir-ikisini də biz ona vurmuşuq. Adam ölməyib, qan düşməyib. Bizə sülh, barışıq lazımdı. Avropa, Qərb, ATƏT sülh üçün çalışmırmı? Siz də o missiyanı yerinə yetirsəz, qiyamət qopmaz ki?

**Ucaboy polis:** Sülhü şöbədə bağlayarsız.

*Komandir qayıdır.*

**Zülfəli Zülfüqarlı:** Biz iş başındayıq. Yeni hadisə baş verə bilər. Hamımızı it kimi işdən "uf" demədən qovarlar.

**Şirbala Şirbalayev:** Başımıza daş düşdü. Uşaqlar evdə acından öləcəklər. Gəldik, dəyyusdan beş manat alaq... İndi gedək müstəntiq qarşısında oturaq? Tifağın dağılsın, komandir. İtin dalınca düşən zibilliyə tuş gələr.

**Zülfəli Zülfüqarlı** *(üzünü Şirbala Şirbalayevə tutaraq)*: Sən çərənləmə *(polislərə)*. Sabah gələrik. Qulağımızdan tutub bizi cəzalandırarsız.

**Gödərək polis:** Sabah saat on tamamda sizi gözləyəcəyik.

*Polislər maşına otururlar. Maşın hərəkətə gəlir. Tez də tini buruları yox olur. Adamlar da başlarını bulaya-bulaya, deyinə-deyinə dağılışırlar.*





*Kamera təcridxananı panorama alır. Dar kamera. Divarın dibində dəmir çarpayı. Köhnə stol, yanında da bir taburetka. Çarpayıya uzanan Nəsiman ayağa qalxır. İçəridə var-gəl eləyir. Qaralan üz-gözünü sığallayır...*

*Polis şöbəsi. Gülgəz gəlir. Növbətçi onu qarşılayır.*

**Gülgəz:** Mən rəisinizlə görüşmək istəyirəm.

**Növbətçi:** Rəis gəlməyib. Sözünüzü deyin, biz çatdırarıq.

— Mənə rəis gərəkdi. Lazım bilsəydim, sözümü sənə deyərdim.

— Bəyəm, rəisin yanına düşmək asandı? Hər gələn dovşan kimi tullanıb keçə onun kabinetinə.

— Belə çıxır ki, rəisin kabinetinə dovşanlar da gəlir? Ağzıbaşına danışma. Rəisin gələr "dovşan kimi tullanma" sözünün mənasını sənə qandıraram. Danışığını yeyəsən... Baş yoxdu ha...

— İşə düşmədik? İndi də gəl rəislə üzləş... Suallarına cavab ver... Xanım, belə ötkəmli danışmaqla...

— Saxlama de...

— Sən dava-davasan ki. Rəislə belə danışsan, on beş sutkalıqsan.

— Baxarıq.

— Xatadı ki, bu.

*Növbətçi başını yelləyir. Həyətdə maşın dayanır. Rəis maşından düşür. Növbətçi onun qarşısına qaçır, ayaqlarını cütləyir, əlini qulağının dibinə aparır. Rəis üz-gözünü turşudur, saymazyana salam alır. Binaya girir. Pilləkənləri qalxır. Gülgəz ona yaxınlaşır. Boğazını arıtlayır.*

**Gülgəz:** Sabahın xeyir, rəis.

*Rəis saymazyana ona baxır. Üz-gözünü yenə turşudur.*

**Rəis** *(astadan)***:** Aqibətin xeyir.

— Rəis, savadsız uşaq-muşağı yığmısan başına. Onlar da gəlib-gedənlərlə məzələnirlər. Sən olmayanda, laqqırtılarından qulaq tutulur. Olanmazdı özünə layiq olanları götürəydin işə?

*Rəis ayaq saxalyır. Gülgəzi başdan-ayağa süzür. Bic-bic gülümsəyir.*

— Qarı, mənə ağıllı adamlar xeyir gətirmir. Eşitmisən də?
— Nəyi?
— Ağıllı fikirləşincə, dəli çayı basıb keçir.
— Hal əhlisən *(gülümsünür)*. Varam sənin kimilərlə... Rəis, mən vacib iş üçün gəlmişəm. Məni qəbul elə. Sözümü deyim, gedim. Canın üçün şəkərəm, inisulini də vurmamışam. Cırıb-dağıtmağa adam axtarıram.
— Nə?
— Yeməyə...
— Sənin elə işin də var?
— Bə nə bilmişdin? Mən bu cəmiyyətdə yaşamıram? Hirsimdən ağzıma su da almamışam. Koma vurar, zibilə düşərsən. Səhər xeyir-şərinizi eləmədən, alverinizə başlamadan qanınız qaralar. Bu, nə sənə lazımdı, nə də mənə.

*Rəis maddım-maddım Gülgəzin üzünə baxır. Gülgəz sözünə davam edir.*

— Elə niyə baxırsan? Qadın görməmisən? Ədə, mənim yaşım keçib ey. Atdı-tutdu vaxtım döör. Məni dinləyəcəksən, ya yox?
— Dinləyəcəm.





— Allah səni arvadına çox görməsin.

*Rəis gülməkdən uğunur. Ətrafdakı polislər də gülüşürlər. Gülgəz polislərə gözlərini ağardır.*

— *(Polislərə)***:** Yığışdırın özünüzü, siz niyə gülürsüz, əə, qırışmallar? Rəis gəlməmişdən şirə-pələngə dönmüşdüz. Qripləmiş toyuqlar kimi indi sizə nə azar düşdü? Səsiniz də çıxmır.

*Polislər üzlərinə ciddi görkəm verərək dərhal geri çəkilirlər. Rəis özünü danqazlaşdıraraq:*

— *(Polislərə)***:** Hə... Necədi, səsiniz çıxmır? "İlan ulduz görməsə, ölməz".
— Ey... Rəis, heyf, keçdi o günlər. Bir də geri qayıtmaz. Papağımı günə yandırdım. Olaydı cavanlığım, bunlar necə lazımdı, baxardılar. Nümunə götürərdilər.
— Neylərdin?
— Görərdilər ki, analar necə qız doğub... Məni pilləkəndə saxlama, rəis. Görünür, toqqanın altın yaxşı bərkitmisən...
— Aydındı, gəl kabinetə.

*Rəislə Gülgəz kabinetə keçirlər. Rəis özünə məxsus yumşaq oturacaqda əyləşir. Gülgəzə də yer göstərir. Gülgəz əyləşir.*

— Kabinet başqa məsələ, rəis, zövqün də yaxşıdı.
— Adın nədi, xanım?
— Adım Gülgəzdi... Sən vicdanın mənə xanım demə. Eşidən olar.
— Niyə?
— Ətim tökülür. Mənim nəyim xanımdı? Bəzi qor-qoduqlar adına bəy dedizdirən kimi.

— Bəs nə deyim?

— Nənən yaşda arvada nə deyəcəksən? Əlbəttə ki, sadəcə olaraq qarı.

— Əşi, yox, nə qarı, hələ...

— Ağ eləmə, rəis. Gəl uzatmayaq. Birbaşa keçək mətləbə. Qısası, bu gecə bir sürü yanğınsöndürən bizim məhəllədə xuliqanlıq eləyib.

— Niyə?

— Qulaq as, kəmhövsələ olma.

— Buyur, xanım.

— Dedim axı, mənə "xanım" demə. Cimilləşdirmə bədənimi. Fərli-başlı canım-cəsədim də yoxdu.

— Yaxşı sözünə davam elə.

— Bizim binada Sənubər qarı yaşayır. Oğlu-qızı onu atıb gediblər. Valideynə baxmayan vecsiz övladdan bazarda sülənən it yaxşıdı... Arvadın vəziyyəti ağırdı. Özünü güc-bəlayla idarə eləyir. İstilik, işıq olmadığından evlər buza dönüb. Onun kirayənişini Nəsiman istəyib qarıya çay hazırlasın. Bunun üçün həyətdə ocaq qalayıb. Çay qaynadıb. Yanğınsöndürənlər necəsə, hardansa həyətdə peyda olublar.

— Binalarda yanğın olmayıb ki?

— Xeyr... Sözümü kəsmə, fikrim qarışacaq. Şəkəri zəhrimara qalsın. Sonra məndən bir təməsik anlamayacaqsan *(Rəis ucadan gülür. Bütün bədəni əsir, çiyinləri qalxıb enir. Gülgəzin sifəti ciddi görkəm alır)*. Bir özünə gəl, rəis, kefliylə kefsizinki tutan şey deyil. Əvvəla, burda özünü çöldə qoyan yoxdu. İkincisi də, kişi lax-lax gülməz, gülsə də ona şərəf gətirməz.

— Bağışla, qarı.

— Atana min rəhmət, rəis... Səni, məni yaradan haqqı o insafsızlar Nəsimanı ölüncə döydülər.

— Necə-necə?

— Dızğırdıblar. Sizin polislərin də gözlərinə dönüm, oğlanın





qollarını qandallayıb dalına-başına döyə-döyə gətirdilər bura.

— Gözünlə görmüsən? Yoxsa, eşitdiklərini danışırsan?

— Mən qulaq adamı döörəm, rəis, görməsəm deməræm?

— Bura zəhmət çəkməkdə məqsədin nədi?

— Onu kepezedən çıxarıb mənə təhvil verməlisən.

— Bu gecəki işlərdən xəbərim yoxdu.

— Deməli, vəzifənin öhdəsindən gələnmirsən *(fikrə gedir)*. Ayıbdı, elə sözü ağzına alma. Gendən baxanlar sənə nə deyərlər? Sayıqlığını itirib. Yox, bu, ağır mühakimədi.

— Ola bilər.

— Ağ eləmə, rəis.

— Nəyi ağ eləyirəm?

— Sən adamların evində hansı üzü üstə yatdığını da bilirsən. Nəylə nəfəs aldıqlarını da. Uşağı ver, sonra kimlə nə alış-verişin var, elə. Əlini qabağına tutanın atasına lənət. Yadda saxla, Nəsimanın heç nəyi yoxdu. Nə çıxsa, yanğınsöndürənlərdən çıxacaq.

— O söhbəti qurtar.

— Deməli, onlar sənə arxalanıblar. Odu da, çatmamış yazıq uşaqdan pul istəyiblər. Rəis, qanan adamsan, de görüm, yoluğun nəyi var, cırığa nə verə.

— Yavaş danış *(o tərəf-bu tərəfinə baxaraq)*, səsini eşidən olar.

— Bəyəm, burda bic iş görürük? Əyri işimiz yoxsa, nədən xoflanmalıyıq?

*Kabinetin qapısı aralanır. Yumru baş içəri girir. Salam verir. Rəis onu içəri dəvət edir. Gülgəz dərhal münasibət bildirir:*

—*(Yumrubaşa):* Gözlə, qurtarım, sonra gələrsən *(Üzünü rəisə tutaraq)*. Sən zor adamsan, başına and olsun, bir gün də belə qanmazlarla işləmərəm. Hərəsinin dalına bir dubinka çala-

ram. Bağıra-bağıra gedərlər.

— Niyə?

— Tərbiyəsizdilər. Əldəgözdülər. Belənçiklərdən əlhəzər.

*Yumrubaş adam rəisin növbəti dəvətini gözləyir. Rəis ona yenə "gəl" işarəsini verir. Yumrubaş gəlir. Rəis üzünü Gülgəzə tutaraq.*

— O məsələyə bu müstəntiq baxır.

— Məni dağa-daşa salma. Hər evin bir kişisi olar. Kişisiz ev susuz dəyirmana bənzər. Bu evin kişisi "sənsən". Kişilyini boynundan atma. Atsan, heç kim sənə yaxşı baxmaz. Ağır otur, batman gəl, beş-üç manata aldanma.

*Rəis başını tutur. Müstəntiqin üzünə baxır*

**Müstəntiq:** Nə olub, rəis?

**Rəis:** Ayə, bunu çək apar öz kabinetinə.

**Gülgəz:** Mən nəyəm, əə? Cinayətlər törədirsiz, sonra da mənə xox eləyirsiz. Hay... Hay... Kişi kişi olar, oyuncaq yox.

**Rəis:** Bizi təhqir eləmə. Səni atdıraram içəri, ağlın başına gələr.

**Gülgəz:** Qızışma. Adam eləyəcəyi şeyi deməz. Qocalığıma baxma, mən də çox azı dişlər qırmışam. Bir əlimə düşəndə, bir də əlimdən çıxanda seviniblər.

**Müstəntiq:** Ayıbdı, xanım.

**Gülgəz:** Əə, bu, hardan çıxdı? Rəis bunu başa sal. Bir də mənə xanım desə, sənin bu kabinetində dünyanı lərziyə salan zıppıltı qopacaq.

**Müstəntiq:** Rəis, mən tələsirəm. Prokurorluqdan məlumat almışıq ki, Gülgəz qarıgilin həyətində bu gecə adam qətlə yetirilib. Qar altından meyid tapılıb.





**Rəis:** Nə? Prokurorluqla təcili danışın, təhqiqat qrupuna səni də daxil eləsinlər. Cinayət işi yerindəcə araşdırılsın. Meyid müayinədən keçirilsin.

**Müstəntiq:** Oldu.

**Rəis:** Qarını da verdim sənə. Apar...

**Gülgəz:** Mən sizin üçün nəyəm? Unutmayın ki...

**Müstəntiq:** Nəyi?

**Gülgəz:** Mənəm-mənəm deyənlərin şalvarını çıxarmağımı...

**Müstəntiq:** Yaxşı, get, ona sonra baxarıq...

*Gülgəz gedir. Onun ardınca müstəntiq də kabinetdən çıxır. Rəis qalxıb arxa otağa keçir.*

*Hüquq-mühafizə orqanlarının işçiləri hadisə yerindədirlər. Ocağın yandırıldığı, Nəsimanın döyüldüyü yeri, ondan otuz metr kənardakı daş-kəsəklikdə qar altında donub qalan meyidi müşahidə edirlər. Ətraf binaların sakinləri hadisə yerinə axışırlar. Onlar meyidin kimliyini tanıyırlar. Məsmə oğlunun meyidini donmuş görcək heyrətlənir. Qadın ağlayır, üz-gözünü cırır. Ürəyi qısılır. Qadınlar ona kömək eləyirlər. Handan-hana özünə gəlir.*

**Məsmə:** Şükür Allahın məsləhətinə. Bir övlad verdi, o da xəstə. Axırı da bu.

*Ana oğlunu qucaqlamaq istəyir. Müstəntiq və polislər ona imkan vermirlər.*

**Müstəntiq:** Kənara çəkilin. İşə mane olmayın.

**Məsmə:** Kaş mən öləydim. Balamı bu günə kim saldı?

**Müstəntiq:** Mərhumun adı, soyadı, atasının adı.

*Talıb kişi müstəntiqə yaxınlaşır.*

**Talıb:** İsmətov İsmət İsfəndiyar oğlu.

**Müstəntiq:** Bu xəstə-zad deyildi ki?

**Talıb:** On ildi psixi xəstəydi.

**Müstəntiq** *(Məsməyə)*: Düşməniniz yoxdu ki?

**Məsmə:** Xeyr.

**Müstəntiq:** Şübhələndiyniz adam varmı?

**Məsmə:** Yox...

**Talıb:** Xəstə uşağın nə düşməni?

**Müstəntiq:** Bu qətl necə ola bilər?

**Talıb:** Mənim ağlımca qar donub, yer sürüşkən olub. Görünür, ayağı sürüşüb yıxılıb. Başı daş-kəsəyə dəyib ölüb...

**Səfər:** Əşi yox... Son vaxtlar onda xəstəlikdən əsər-əlamət yoxıydı. Adamla ağıllı-başlı danışıb gülürdü. Ört-basdır eləmə, Talıb kişi.

**Tuğra qarı:** Qaşınmayan yerdən qan çıxarma, Səfər. Ara qarışdırmağa öyrəncəlisən. Xəstəyə hansı ağıllı adam əl qaldırıb özünü bəlaya salar?

**Səfər:** İnanmıram... İsmət öz xoşuna ölən döördü. O, hələ səksən il də yaşaya bilərdi. Onu öldürüblər, özü də insafsızcasına. Vəssalam, şüttamam.

**Məsmə:** Mən heç kimin babalını yuyanmaram. Mənim balama heç kəs qəsd eləməzdi.

**Səfər:** Bu cinayəti dəlixanadakı dəlilər gəlib eləməzlər ki, cənab müstəntiq? Onlar gecəykən bu qarda-qiyamatda gəlib cinayət törədiblərsə, heç nə, İsmətin qanı batdı.

**Müstəntiq:** Sizcə, İsmətin qətlinin bu gecəki hadisəylə əlaqəsi yoxdu ki?

**Nuruş kişi:** Cənab müstəntiq, bayaqdan mən də elə düşünürəm. Güman eləyirəm ki, onu ya Nəsiman öldürüb, ya da yanğınsöndürənlərin komandiri. Ola bilər xəta digər yanğınsöndürənlərin də əlindən çıxsın. Mən belə şeyləri çox görmüşəm.

**Məsmə:** Nuruş kişi, quramaçılığını saxla. Bizi dağa-daşa salma.





**Nuruş kişi:** A bala, istəyirəm, qətlin səbəbləri tam üzə çıxsın. Sən də düşmənini tanıyasan. Yoxsa, ömrün boyu qulağın səsdə olacaq. Deyib-ağlamaqdan savayı çarən qalmayacaq.

**Müstəntiq:** Fikrini tamamla, Nuruş kişi.

**Nuruş kişi:** Əl qərəz... Nəsiman öldürübsə, cənab müstəntiq, deməli, qətl məqsədlidi. Yox... Yanğınsöndürənlər qətlə yetiriblərsə, çox güman ki, təsadüfidi. Bunu onlardan soruşsanız, yaxşıdı. Bir neçə ağılsız, qurama fikirdən bir ağıllısını, məntiqlisini çıxarmaq olar.

**Gülgəz:** Zibil qarışdırma, Nuruş. Sənin nağılların kimə gərəkdi?..

**Nuruş kişi:** İstintaqa. Məhkəmənin düzgün qərar çıxarmasına.

**Gülgəz:** Adə, nəfəsi hardan alıb, hardan buraxdığını bilmirsən, bu yaşda fitva verməklə məşğulsan?

**Nuruş kişi:** Fitva verənin atasına lənət.

**Müstəntiq:** Söyüşü yığışdırın.

**Gülgəz:** Lap atasına da. Özünə də.

**Qaçay Qılınclı:** Nuruş kişi, camaata böhtan atma. Ağzına gələni danışmağa öyrəncəlisən.

**Gülgəz** *(Qaçay Qılınclıya)*: Atana rəhmət. Nə dedin?! Ürəyimdən tikan çıxdı. Sənə havayı yerə quzğun deməyiblər ki? Kişinin başı var da. Güc deyil ki.

**Müstəntiq:** Mane olma. Qoy sözünü desin.

**Qaçay Qılınclı:** Bir ayağın burda, o birisi gorda, kimə gəldi şər atırsan, Nuruş kişi.

**Nuruş:** Əə, nə dedim ki, a bala? Mən sözümü dedim, baxarsız, axırı da mən deyən kimi olacaq. Onda tıs-pısınız yatacaq. Müstəntiq mən deyənləri eşitdi. Nəzərə alar-almaz, öz işidi. Mən ona təsir göstərənmərəm.

**Məsmə:** Siz Allah oyun düzəltməyin. Mənə onsuz da olan

olub. İsmətlə qurtardım. Getdi... Elə bilin heç olmayıb *(ağlayır)*.

**Müstəntiq:** A bacı, kirisənə.

**Qaçay Qılınclı:** Axşamdan xeyli keçmişdi. Hava qaralmışdı. Mən teatrdan çıxıb evə gəlirdim. Yolum burdan düşdü, gördüm kimsə İsmətlə mübahisə eləyir. Mən ayaq saxladım. O adam mənə əsəbiləşdi: burda meymun oynadıram? Rədd ol burdan, səni doğrayaram. Doğrusu, mən çəkindim. Ağlıma gəlməzdi ki, o, xəstə adama əl qaldırar.

**Müstəntiq:** O, necə adamıydı?

**Qaçay Qılınclı:** Ucaboy, yekəpər.

**Müstəntiq:** Təsviri konkretləşdir.

**Qaçay Qılınclı:** Həm dalı mənə tərəf idi, həm də hava qaranlıqıydı, ona görə də dəqiq təsvirdə acizəm, cənab müstəntiq.

**Müstəntiq:** Hə... Davam elə.

**Qaçay Qılınclı:** Getdim evə. Kimsəyə bir söz demədim. İndi məlum olub ki, qətl məndən sonra baş verib. Burda nə zavallı Nəsimanlıq, nə də yanğınsöndürənlərlik iş var. Ay camaat, gümanla danışmayın. Təhqiqatın istiqamətini dəyişə bilərsiz. Cinayətkar qalar kənarda, günahsız adam ilişər. Allahınızdan qorxun. Bəlaya düşərsiz.

**Müstəntiq:** Sən Nəsimanı nə vaxtdan tanıyırsan?

**Qaçay Qılınclı:** Tanımıram. Polislər onun əl-qolunu qandallayıb maşına basanda görmüşəm.

**Müstəntiq:** Bəlkə axşam İsməti hədələyən adam o, olub? Bir yaxşı fikirləş...

**Qaçay Qılınclı:** Xeyr. Mən gördüyüm adamla Nəsiman arasında böyük fərq var.

*Təhqiqat qrupunun üzvləri maşına oturub gedirlər. Binaların sakinləri də dağılışırlar.*

*Müstəntiqin kabineti. İki polis Nəsimanı kabinetə gətirir. Nəsiman əyləşir. Polislər kabinetdən çıxırlar*





**Müstəntiq:** Cavan oğlan, istəyirəm birbaşa mətləbə keçək. Cinayət Məcəlləsinin xuliqanlıq və qəsdən adamöldürmə maddələriylə sənə cinayət işi açılıb.

**Nəsiman:** Nə? Xuliqanlıq? Qəsdən adamöldürmə?

— İsməti öldürməkdə məqsədin nə olmuşdu?

— İsmət kimdi?

— Özün yaxşı bilirsən. Şahidlər var.

— Bircə bu qalmışdı?

— Gec-tez boynuna alacaqsan.

— İsməti öldürməyimi?

— Biqeyrət. Xəstəyə əl qaldırarlar?

— Məni təhqir eləmə. Adam öldürmək, kimsəyə əl qaldırmaq mənim işim deyil. Mənə hansı cəzanı verirsiz, verin. Mən heç kimin cinayətini üstümə götürməyəcəm.

— Dilini kürəyindən çıxardaram.

— Onu eləyə bilərsiz. Ancaq heç bir böhtanı, iftiranı boynuma götürə bilmərəm. Qaldı mənim bura düşməyimə. O pulsuzluğumla, natəmiz, qudurmuş adamların əməlləriylə bağlıdı. Bilirəm, pulsuz adamı həbs də eləmək olar, öldürüb qanını batırmaq da.

— Səni mən gətirməmişəm bura. Yanğınsöndürənlərlə canınız çıxaydı, ictimai yerdə xuliqanlıq eləməyəydiz. Neçə binanın sakinlərini yuxudan oyatmısız. Gecəyarı hamısını tuman-paça həyətə tökmüsüz. Nalayiq sözlərlə arvad-uşağın qulaqlarını doldurmusuz. Hamı sizdən bezardı. İndi də həyasız-həyasız danışığına bax. Səndən pul istənib? İstənibsə, saxlama de. Sonra gec olar?

— Elə danışırsız, adamın gülməyi gəlir.

— Gülməyi gələr də.

— Mənim qəbahətim insanlığımdı, müstəntiq.

— İnsanlıq adından istifadə eləyən azıydı, qalmışdın sən. İçəridə boş-bekar oturmusan. Qələm, kağız verim, insanlıq barədə qəzetlərə məqalələr yaz, lap kitab da olar. Kimliyini tanıt.

— Cənab müstəntiq, görürəm, əhvalınız çox yüksəkdi, indi mənə ömürlük həbs hökmü də nəzərdə tuta bilərsiz.

— Xəstəni öldürməni sənə qanun bağışlamayacaq. O cinayətdən sonra gərək dilin söz tutmasın. Qarşımda tir-tir əsəsən.

— Nəinki xəstəni, heç sağlamı da.

— Söz güləşdirmə.

— *(Nəsiman əlini stola vuraraq)* Dedim, mənə böhtan atmayın. Öləcəm, ancaq quramalarınız keçməyəcək. Bir qarın çörək dalınca kənddən şəhərə gələn adamı görün nə fəlakətlərə düçar eləməyə çalışırsız?.. Qurama hökmlərin kəsəri olmaz.

*Müstəntiq polisləri çağırır, Nəsimanı kameraya göndərir.*

**Müstəntiqin daxili səsi:** Bəlkə doğrudan da Nəsiman günahsızdı? Mən də qəribə adamam. Maddi dəlilsiz sorğu-sual aparıram. İki dəfə dəlixana həyatı keçən İsməti Nəsiman niyə öldürməlidi?.. Hər halda, ekspertiza rəyini alaq...

## II hissə

*Müstəntiq polisləri çağırır. Yanğınsöndürənlərin komandiri Zülfəli Zülfüqarlını kabinetinə gətirdir.*

**Zülfəli Zülfüqarlı:** Eşidirəm, cənab müstəntiq.

**Müstəntiq:** Sizi nə vadar elədi ki, Nəsimanı döyməyə başladız?

— Cərimə pulu istədik, vermədi.

— Niyə? O, yanğın törətmişdi?





— Həyətdə ocaq qalamışdı.

— Ocağa nəzarət eləyirdi?

— Deyənmərəm.

— Ondan əlavə pulu niyə istəyirdiz?

— Yalandı.

— Həmkarların etiraf eləyirlər.

— Olmayan şeyi necə deyə bilərəm?

— Siz xuliqanlıq eləyən yerdə İsmət adlı adam qətlə yetirilib. Onu necə öldürdüz?

— Nə?.. *(Çaşır)* Bunu indi eşidirəm. Mən savaş yerindən qaçdım. Bəlkə məndən sonra kimsə öldürüb. Onu deyənmərəm.

— Sənin həmkarların bu qətli törədərdilərmi?

— Onların yerinə and içənmərəm. Bəlkə də... İnsan çiy süd əmib... O qədər dələduzlar var.

— Ən böyük dələduz sənsən. Aləmi sən qatmısan. Rüşvət vermədiyi üçün adam söymüsən, adam döymüsən. Kərpic parçasıyla onu vurmusan. Adamlarını qızışdırıb onun üstünə salmısan. Nə var, nə var, sizə pul verməyib. Ayə, a qanmaz, pulu yoxdu da, ondan ötrü adam öldürməlisiz? Axı sən dövlət işindəsən. İş başında olmusan, namərd.

— Qələt eləmişəm. Bir də o “şeyi” yemərəm. Oturduğumuz yerdə paza keçmədik?

— Həmkarların deyir, İsməti sən öldürmüsən. Buna nə deyirsən?

— Cənab müstəntiq, yəqin qaçdığıma görə acıqla deyirlər.

— Əcəb kişisən. Kişi də meydandan qaçarmı, əə, dələduz?

— Kişi olsaydım, burda nə gəzirdim. İtim ölmüşdü, müstəntiq?

— Sən deyəsən, ağızdan da panossan? Bəlkə qətli Nəsimanın üstünə atmaq istəyirsən?

— Atmaq niyə? Bizimlə savaşa qədər də öldürə bilərdi, sonra da o yaramaz.

— Polislər Nəsimanı şöbəyə gətiriblər.

— Əgər o polis şöbəsinə gətirilibsə, deməli, günahkardı. Cinayəti də o, törədib.

— Qalmaya bilərdi...

— Nə böyük şeydi.

— Sən təmiz adamlara da ləkə yaxmağa hazırsan. Bu səndə irqdən gəlir, yoxsa...

*Müstəntiq polisləri çağırır. Onlar Zülfəli Zülfüqarlını aparırlar. Qəməş Qəməşovu gətirirlər.*

**Qəməş Qəməşov:** Müstəntiq, komandirin atasına lənət. Başımıza daş saldı. Yanıram, cırılıb-dağılıram, müstəntiq! Beş manatdan ötrü canım çıxır kamerada! Kamera rütubətli, məndə də gemaroy... Öl Qəməş, öl!.. Ürəyim çatlayır.

**Müstəntiq:** Deməli, pul istəməyini, Nəsimanı döyməyini boynunu alırsan.

— Sən demə, Nəsiman yetimin biridi. Kirayənişindi. Qarnına çörək tapmayan ac-yalavacdı. Biz də düşmüşük bədbəxtin üstünə. Vur vura bildikcə. Başımız kəsilib, gözlərimiz çıxarılmalıdı.

— Özünüzü günahkar sanırsınızmı?

— Ayaqdan başadək.

— Yaxşı, İsməti hansınız öldürdü?

— Yox, o, bizim işimiz döör. Hərləyib-fırlayıb bizim boynumuza qoymaq istəyirsiz? Onun ölümündən xəbərim varsa, atam-anam itlə yatsın.

— Valideynlərini təhqir niyə eləyirsən?

— Çünki mən ağılda övlad dünyaya gətiriblər.

*Müstintiqin göstərişiylə polislər Qəməş Qəməşovu aparır, Məməti Məmətiyevi gətirirlər.*





**Müstəntiq:** Bura niyə düşdüyünü bilirsən də?

**Məməti Məmətiyev:** Ağılsızlıqdan, qudurmuşluqdan, müstəntiq.

— Nəsiman sizə əl qaldırdımı?

— Onu dörd adam çırpdıq. Elə bil kilim çırpırdıq. Zərbələrin guppultusu aləmi başına götürmüşdü. O mənzərəni lentə alan olsaydı... Belə vəziyyətdə o yazıq dümdüz durmalıydı? Heç əl-qol tərpətməməliydi? Hələ bu, harasıdı, biz ocaqda yanıb əriməliydik.

— İsmətin ölümü barədə nə deyə bilərsən?

— Yox, onu o yana elə, müstəntiq. Ondan xəbərsizəm. Məni fəlakətə sürükləməyin.

— Necə yəni, xəbərsizsən?

— Zorla boynuma qoymaq istəyirsiz. O, düz gələn iş döör. Başqa bəhanə axtarın.

*Növbətçilər Məməti Məmətiyevi aparır, Şirbala Şirbalayevi gətirirlər.*

**Müstəntiq:** Sizin banda kərpic parçasıyla Nəsimanın üz-gözünü dağıdıb. Bu xuliqanlıq siz yaşda adamlara yaraşırmı?

**Şirbala Şirbalayev:** Səhvimizi başa düşürük.

— Bu, səhv döör, cinayətdi.

— Oturduğum yerdə məni bu işə saldılar. Bu, nə namussuz işdi biz tutduq, özüm də bilmirəm.

— Kimlər?

— Komandir. Bir də həmkarlarım... Arvadım iki aydı dünyasını dəyişib. Altı azyaşlı uşaq mənim umudumdadı. Balalarıma yazığın gəlsin, müstəntiq.

— Nəsimanın günahı nə idi? Onun qoca anasını, xəstə bacısını niyə nəzərə almadız?

— Dava qızışanda nə ana, nə bacı?.. Biz şəhərin izdihamlı

yerində ayaqlarımızdan asılmalıyıq.

— Niyə assınlar?

— Onsuz da Allah cəzamızı verəcək. Qoy yoldan ötənlər tüpürsünlər üzümüzə.

— İsməti hansınız öldürdüz?

— Heç mən adam öldürənə oxşayıram? Müstəntiq, onu məndən uzaq elə.

— Adam öldürənin buynuzu olur? Təqribən eyni yerdə, eyni məqamda iki hadisə baş verir. Ola bilməz ki, onlar arasında əlaqə olmasın.

— Beş manatdan ötrü adam öldürərlər? Nəyə deyirsiz and içim, mən ondan xəbərsizəm.

— Beş manatdan ötrü adam əzişdirən nadanlardan nə desən çıxar. Qaldı ölüm işinə, Şahidlər üzünüzə dursalar necə?

— Hamını yalana öyrədiblər. Anasını-bacısını satanlar o qədərdi ki. Bir balaca hərbə-zorba gəlsən, keçən əsrdə öz əcəliylə ölənlərini də bizim boynumuza şələləyəcəklər. Heç "uf" da deməyəcəklər.

— Deməli, boynuna almırsan. İstintaq hər şeyi aydınlaşdıracaq. Unutma ki, etiraf yüngülləşdirici hal kimi dəyərləndiriləcək.

— Müstəntiq, o söz-söhbət bizi tutmayacaq... Nə istəyirsiz, deyə bilərsiz. Məni eləmədiyim dərdi-bəlaya salmayın... Yalvarıram sizə, məni o xətadan uzaqlaşdırın. Dedim axı, azyaşlı uşaqlarım var.

*Müstəntiq gülür. Ayağa qalxır. Kabinetdə o tərəf-bu tərəfə gedir. Sonra Şirbala Şirbalayevə tərəf dönür.*

— Sizin banda böyük cinayət törədib. Qalsanız da bir olacaqsız, ölsəniz də.





*Müstəntiq polisləri çağırır, Şirbala Şirbalayevi də kameraya göndərir. Başını qolları arasına alır. Qapı döyülür. Başqa bir polis məktub gətirir. Müstəntiq məktubu açır.*

**Müstəntiq** *(oxuyur)***:** İsmətov İsmət İsfəndiyar oğlunun ölümü ilə əlaqədar tibbi ekspert komissiyasının

**rəyi**

Mərhum İsmətov İsmət İsfəndiyar oğlunun meyidinə 04 aprel 1994-cu il tarixdə tibbi ekspert komissiyası tərəfindən baxış keçirildi. Məlum oldu ki, ölüm anlarında psixi xəstə olan İsmətdə ürək tutması baş vermiş və o, huşunu itirərək yıxılmışdır. Bu zaman kəllə baş-beyin qabığından bərk əşya ilə öldürücü zərbə də almışdır. Çox güman ki, yıxılarkən onun başı yerdəki hansısa daş-kəsəyə dəymişdir. İsmətov İsmət İsfəndiyar oğlunun bədənində əlavə heç bir iz-əlamət yoxdur. Rəy rayon prokurorluğunun müstəntiqinə təqdim etmək üçündür.

*Tibbi Ekspert Komissiyasının*
*sədri: K.Səlimxanov*
*04.04.94*

*Müstəntiq fikrə gedir. Sonra qalxaraq prokurorun kabinetinə keçir.*

**Prokuror:** Eşidirəm, müstəntiq.

**Müstəntiq:** Tibbi Ekspert Komissiyasının rəyi hazırdı. Tam yəqinləşdirildi ki, İsmətov İsmət İsfəndiyar oğlu ürək tutmasından dünyasını dəyişib. Nəcəfzadə Nəsiman Xələf oğlu bütün hallarda təqsirsizdi. Yanğınsöndürənlər isə ictimai yerdə xuliqanlıq etmə, törətmə, günahsız adama ağır bədən xəsarəti yetirmə, rüşvət tələb etmə maddələrinə görə təqsirlidirlər.

**Prokuror:** Aha... Belə də. Onda Nəcəfzadə Nəsiman Xələf

oğlundan barışıq kağızı al, özünü də azadlığa burax. Yanğınsöndürənlərin işini də gör neyləyirsən?

**Müstəntiq:** Oldu, cənab prokuror.

*Müstəntiq prokurorun kabinetindən çıxır. Prokuror onun ardınca gedir...*

*Sənubərin evi. Nəsiman gəlir. Sənubər onu qucaqlayıb öpür, ağlayır.*

**Sənubər:** Mənim oğlum, mənim balam. Bağışla məni. Səni oda saldım. Başına gələnləri Gülgəz danışdı mənə. Gülgəz polis rəisiylə, müstəntiqlə danışıb.

**Nəsiman:** Sağ olsun. Özün necəsən?

— Yaxşıyam. Nigarançılığım səndəniydi.

— Qismət beləymiş.

— Çay, yemək hazırdı. Toqqanın altını bərkit.

*Nəsiman əyləşir. Qarı çay, yemək gətirir. Nəsiman yeməyə başlayır.*

— Neçə gündü ağzım daddan düşüb.

— Türmə də kişi üçündü.

— Qanun keşikçiləri, bir də arvadından bezənlər üçün hə. Özünü idarə eləyənməyənlər, arvad qabağında tir-tir əsənlər, Sənubər xala, məhbəsdəkilərin üstünə elə xoruzlanırlar, gəl görəsən.

— Dünya əzəldən belə qurulub, oğlum. Hamı bir ağılda, bir boyda, bir biçimdə olsaydı, heç yaşamağa dəyərdimi?

*Gülgəz gəlir. Nəsimanı görcək sevinir. Onu qucaqlayıb, öpür.*





**Gülgəz:** Allaha qurban olum, ay Sənubər, oğlunun gəlişinə sevinirsən, bilirəm. Bu saat gəlirəm.

*Gülgəz gedir.*

**Nəsiman:** Gülgəz xala hara getdi?

**Sənubər:** Görəsən, ağlına nə gəldi?

**Nəsiman:** Yəqin, nəyisə evdə unudub.

**Sənubər:** Elə bil şeytanla oturub-durur.

**Nəsiman:** Belə çıxır, onu tanımırsız?

**Sənubər:** Evi tikilmişin qızı bir ağıla qulluq eləyir ki.

*Gülgəz əlində tort qutusu, meyvə şirəsi qayıdır.*

**Nəsiman:** Hə, bu nədi, vururuq?

**Gülgəz:** Əlbəttə. Ən əziz günümüzdü. Neçə gündü yuxumuz ərşə çəkilib, yatanmırıq. Da ağrı-acımız canımızdan çıxar. Ayə, Nəsiman, o nə müstəntiqdi, a bala? Başına baxanda adam lərzəyə gəlir.

**Sənubər:** Gülgəz neçə gündü ona rişxənd eləyir.

**Nəsiman:** Nə olub ki?

**Gülgəz:** Müstəntiqin gözü-başı qaynaşır. Görəm, onun indisi belədisə, cavanlığı necəymiş?

**Sənubər:** Bizi biabır eləmə, Gülgəz, yoxsa, müstəntiq sənə girişib?

*Nəsiman gülməkdən az qala uğunur.*

**Gülgəz:** Ağrım onun ürəyinə. Eləsindənsə, mənə qəbr lazımdı. İtə kimdi baxan?.. Oğlum elə düşünər ki... Zarafat eləyirik. Qorxdum. Nəsimandan uma, bir şey qoparmaq istəyə... Hardan verəcəkdi?

**Nəsiman:** Məndə nə var, nə umalar?.. Ancaq adam oturduğu yerdə xətaya düşə bilərmiş.

**Sənubər:** İnsan xəta-bəladan uzaq deyil. Şeytan ki, var, həmişə həndəvərində fırlanır. Əli tutan bir şey oldu, zəli kimi yapışır ondan. İstədiyinə çatmasa, buraxmır ki...

**Gülgəz:** Xəta sənin yox, yanğınsöndürənləriniydi. Şalvara sığışmırdılar. Tısbağanı öldürdün, ya arxası üstə çevirdin. İkisi də bir şeydi. Nələri var, əllərindən alacaqlar. Ağılları başlarına gələr.

**Nəsiman:** Gülgəz xala, yanğınsöndürənlərlə müstəntiqin sövdələşməsində olmamısan ki?

**Gülgəz:** Onu bilməyə nə var ki? Bəyəm, onlar gün axşamacan kabinetdə oturub barmaqlarını sovurmalıdırlar?

**Sənubər** *(Nəsimana)*: Yoxsa, sənin də boynuna bir şey-mir şey qoyublar.

**Nəsiman:** Yox... Məndən barışıq razılığı aldılar.

**Gülgəz:** Səndən alacaqlarını da onlardan bağırda-bağırda qoparacaqlar.

*Telefon səsi otağı bürüyür. Nəsiman dəstəyi götürür. Qadın səsi eşidilir.*

**Nəsiman:** Alo... Alo... Mənəm, Nəsiman... Ana sənsən?..

**Ana:** Ədə, neçə gündü səsini eşitmirəm. Az qala ürəyim çatlayacaqdı.

**Nəsiman:** Mən yaxşıyam. Bacım necədi, ana.

**Ana:** Biz də yaxşıyıq. Başımı yastığa atan kimi, səni yuxuda görürəm.

**Nəsiman:** İş çoxdu, ana. Axşamlar evə gec gəlirəm. Vaxt tapan kimi gələcəm. Məndən nigaran qalmayın.

**Ana:** Eybi yoxdu, zəng çaldım ki, halını xəbər alım. Bir də...

**Nəsiman:** Hə saxlama, sözünü de.





**Ana:** Bacının xəstəliyi hərdən... Olsaydı... İynə-dərman pulu...

**Nəsiman:** Yaxşı... Narahat olma... Bu günlərdə təşkil eləyərəm (*Nəsiman anasıyla xudahafizləşir. Dəstəyi yerinə qoyur).* Ax... Ana ürəyi... Dözmür... İlişməyim ona da əyan olub.

**Sənubər:** Analar hamısı elədi, oğlum. Onlar yaranandan əzabkeşdilər.

*Gülgəz söhbətin səmtini dəyişir.*

**Gülgəz:** Ədə, Çinarlıda adamın varmı?

**Nəsiman:** Var... Anam, bacım, xalam, bibim, əmim...

**Gülgəz:** Sözü burcutma. Mən onları soruşmuram. Gözaltını deyirəm.

**Sənubər:** Oğlumu utandırma. Hələ qabaqda ev, iş, güzaran məsələsi var.

**Gülgəz:** Kişi gərək ovu barədə vurmağı bacarsın. Vurmayan bekara şeydi. Peşmançılığını sonra çəkəcək.

*Bu dəfə Nəsiman söhbətin səmtini dəyişir.*

**Nəsiman:** Dava düşən gecə deyirlər həyətdə adam ölüb?

**Gülgəz:** Şərini üstünə atmağa əlimyandı adam axtarırdılar. Müstəntiq də, elə polislər də səninlə yanğınsöndürənlərdən şübhələnirdilər... Dırnaq ilişən yerləri olsaydı, səni güdaza verəcəkdilər. Mən çox qorxdum. Ancaq Qaçay Qılınclı kişilik elədi. Sizi itin ağzından qurtardı.

**Nəsiman:** Qaçay Qılınclı kimdi?

**Sənubər:** Bizim binada yaşayır. Dələduz... Narkoman... Şər... Qan... Quzğun. Hansını deyim. Bədbəxt oğlu şər dağarcığıdı. Ağıla gəlməyən şeylər fikirləşir.

**Nəsiman:** “Quzğun” sözünü necə başa düşək?

**Sənubər:** Axtarıb səni tapacaq. O, elə quzğundu ki, səni elə-belə müdafiə eləməyib. Özün görəcəksən. Onda mənə sual verməyə ehtiyac olmayacaq.

**Gülgəz:** Mən gedim. Qohumum bizə gəlməlidi...

*Gülgəz gedir. Nəsimanla Sənubər stolun üstünü qaydaya salırlar*

**Nəsiman:** Sənubər xala, sən dincəl. Mən də bir az hava alım.

*Sənubər dincəlmək üçün yan otağa keçir. Nəsiman həyətə düşür. Var-gəl eləyir. Bir kişiylə qarşılaşır.*

**Kişi:** Salam. Deyəsən, məni tanımadın? Qaçay Qılınclıyam.

**Nəsiman:** Hə... Adınızı eşitmişəm.

**Qaçay Qılınclı:** Kişi adamsan. O gecə vuruldum cəldliyinə. Yanğınsöndürənlərlə yaxşı vuruşdun.

**Nəsiman:** Gərək olmayaydı.

**Qaçay Qılınclı:** Hüquq işçiləri çox ayıq olurlar. Onlar cinayətin izinə düz düşmüşdülər.

**Nəsiman:** Başa düşmürəm.

**Qaçay Qılınclı:** Burda başa düşməzlik nə var ki? Sən ocaq qalayanda mən binanın girəcəyində, qaranlıqda dayanıb papiros çəkirdim. İsmət sənə yaxınlaşdı. Aranızdakı həngamə yadındadı da... Zərbən İsmətə kifayət elədi. Beyni silkələndiyindən qaça bilməyib huşunu itirib yıxıldı. Ekspertin gəldiyi qənaətə görə, aldığı zərbədən onun beyninə qan sızıb. Mən də üstün vurmadım. Onlar səbəb kimi ürək tutması və yıxılarkən başına daş-kəsək dəyməsini göstəriblər. Ola bilsin ki, o anda İsmətin ürəyi də tutub. Ona da inanıram ki, ürək tutmasına səbəb qəfil zərbədən diksinib, bərk həyəcan keçirməsi olub.





*Nəsiman tutulur. O, sarsılır. Udqunur.*

**Nəsiman:** Sən nə danışırsan?

**Qaçay Qılınclı:** Qışqırma... Astadan danış. Eşidən olar. Səni satarlar. Sonra da gəl qurtar... Çətin məsələdi.

— Onu mən qətlə yetirməmişəm.

— Mən qəsdən demirəm ki, onu sən qətlə yetirmisən. Sadəcə zərbən güclü oldu.

— Xeyr, məni dolaşdırma.

— Səni itin-qurdun ağzından qurtardım. Hadisəni başqa səmtə yönəltdim. Təşəkkür əvəzinə... *(Səsinə ara verir. Sonra sakit tərzdə fikrini davam etdirir)* Ayıbdı... *(Bir az da düşünür. Üzündə təbəssüm yaranır)* Hüquq işçiləri dostlarımızdı... Bir də qəsdən öldürməmisən ki? Qaldı səni dolaşdırmağa... Parlaq həqiqət qara yalanla bir araya gəlməz.

— Olmayan cinayəti boynuma qoyursan?

— Görürəm, möhkəmsən, inadkarsan, səninlə iş görmək olar... Ancaq fakt danılmazdı.

— Xətanı məndən uzaq elə. Qoca anam, xəstə bacım var. Dərdi-sərim onlardı. Yadda saxla, acından ölsəm belə onların xatirinə mən cinayət eləmərəm.

— İqtisadi məngənə adamı hər cür alçaqlıqla qarşılaşdırır... Onda and-amana də ehtiyac olmur. Kişi ağlamaz. Mən səninlə düşmən deyiləm. İçində az qaynat. Adamı beş manatdan ötrü öldürüb qanını da batırırlar. Elə bilirsən qanun keşikçilərinin ondan xəbərləri yoxdu? Var. Hamını öz mənafeyi düşündürür. Mən ali təhsilli hüquqşünasam. Vəkil işləyirəm. Biz də bu cəmiyyətdə yaşayırıq. Nəyi var, nəyi yoxdu, bilirik.

*Qaçay Qılınclıyla Nəsiman yaxınlıqdakı parka, ordan da kafenin qarşısına gəlirlər.*

— Qaçay, dediklərin məndə ruh düşkünlüyü yaradır. Belə olmaz. Hansı zəmanədə yaşayırıq.

— Nahaq. Girək kafeyə. Sən azadlıqdasan, bu, hər şeydi... Allahına şükür elə. Qalanını da sonra danışarıq.

— Yox... Toxam...

*Qaçay Qılınclı təkid eləyir. Nəsiman kafeyə girməyə məcbur olur. Əyləşirlər. Xidmətçi qadın gəlir.*

**Qaçay Qılınclı** *(xidmətçiyə)*: İki lülə, iki tikə, təzə xiyar, pomidor, bir şüşə də araq. Tez elə, vaxt itirməyək.

**Nəsiman** *(Qaçay Qılınclıya)*: Mən içmirəm.

— Xanım, sən gətir, içməzsə qalar, apararsan *(Üzünü Nəsimana tutaraq)*. İlk dəfə çörək kəsirik. Bir-birimizi hələ yaxşı tanımırıq. Cəmiyyətin bütün zümrələrini birləşdirən çox həssas, gözə görünən və görünməyən bağlar var. Onlardan başlıcası iqtisadi bağlardı. "Aç qılınc çapar". Əgər ailəmizi qoruyanmırıqsa, anamız-bacımız hansısa alçağa bir loxma üçün əl açmağa məcbur olursa, bizim yaşamağa haqqımız varmı? İmkansız adamların namusuna təcavüz eləyirlər. Biz oturub o anımı gözləyəcəyik? Götürək narkotikanı. Ən gəlirli biznesdi. Əfqanıstandan çıxarılan maddələr İrana, Azərbaycana, burdan da Rusiyaya, Orta Asiyaya və nəhayət, Avropaya, Qərbə ötürülür. Bunu imkansızlar eləyə bilərmi? Yaxud silah satışını götürək. Bu işi əsasən, böyük dövlətlər həyata keçirirlər. Böyük qırğınlar törədən silahları vaqonlara, təyyarələrə doldurub dünyanın bir qitəsindən o biri qitəsinə aparıb dollara çevirmək adi adamların işi ola bilərmi? Hələ insan alverini, qadın biznesini, rüşvətxorluğu, oğurluğu, korrupsiyanı... qoyaq bir kənara. Cinayətkar aləm türməyə də öz üzvlərini yerləşdiriblər. Türmədə yatan "obşaklar" azadlıqdakı, azadlıqda hərəkət edən qatı cinayətkarlar baronlarsa türməyə düşən düşmənlərinin ölümünə sifariş verirlər. İnsanı





bu cinayətkarların əlindən bircə şeylə qurtarmaq olar. Mafiozlarla, baronlarla birləşərək dili dinc saxlamağı bacarmaqla.

*Xidmətçi sifarişləri stola gətirir. Qaçay qədəhlərə araq süzür. Qədəhlər qaldırılır.*

— Mənim həvəsim yoxdu.

— Sənin azadlığa çıxmağın və ilk tanışlığımızın şərəfinə.

*Qaçay Qılınclı qədəhi boşaldır. Nəsiman Qılınclı da içir. Qaçay yenidən qədəhləri doldurur.*

— Mənə az süz.

— Sən təmiz oğlansan. Üz-gözündən ləyaqət yağır. İnsanlar dəyişkəndi. Şəhərin çirkinliklərindən xəbərsizsən. Heç kəsə inanma. Bir də görürsən, etibar elədiyin adam səni elə bəlaya salır ki, özün də ona məəttəl qalırsan. Ehtiyat igidin yaraşığıdı. Sənin şərəfinə.

*Qədəhlər boşaldılır.*

— Mənə böyük dərs verdin.

— Hələ çox almalısan.

*Gülüşürlər. Qaçay Qılınclı yenidən qədəhləri doldurur. Dostların əhvalı yüksəlir. Aralarındakı məsafə yavaş-yavaş yaxınlaşır.*

— Mənim ən zəif yerim insanlara inamımdı, Qaçay. Ürəyi yumşaqlığımdı. Niyə belədi, səbəbini heç özüm də bilmirəm.

— Mən dostluğa sədaqətli adamam, özün də görəcəksən. Gəl, bu badələri də mənim sağlığıma qaldıraq.

*Gülüşürlər. İçirlər. Qaçay Qılınclı xidmətçini çağırır. Xərci ödəyir. Onlar kafedən çıxırlar. Söhbət eləyə-eləyə yaşadıqları evin qarşısına gəlirlər. Qaçay Qılınclı çantasını açır. Kiçik qəzetə bükülü bağlamanı Nəsimana verir.*

— Bu nədi?

— Heroyindi. Kibrit qutularında əridə bilərsən. İki min ABŞ dolları zəhmət haqqı sənin. Qalanını da yavaş-yavaş mənə ödəyərsən. Lazım olsa, mənə deyərsən.

— Qorxuram, Qaçay.

— Qorxan gözə çöp düşər.

— Birdən ilişdim?

— Ehtiyatlı ol. Şər deməsən, xeyir gəlməz, ilişdin, onda kimsəni tanımırsan. Narkotikanın bir ucu oliqarxların, bayaq dediyim baronların, o biri ucu obşaklərin əlindədi.

— Desələr, bunu hardan almısan?

— Deyərsən, zibillikdən tapmışam. Bir o qədər də məndə var. Satqınlıq eləməsən, səni qurtararıq. Eləsən, fəlakətin başlanacaq.

— Necə?

— Göndərəcəklər obşakların yanına. Onlar da sadəcə olaraq öh işlərini görəcəklər.

*Nəsiman başı ilə razılığını bildirir. Evə gəlir, heroini gətirdiyi kibrit qutularına qoyur, qutuları da cibinə yığır. Adamların yığınaq olduğu yerlərə — çayxanaya, kinoteatrların qarşısına, metro stansiyanın girəcək və çıxacaqlarına gedir. Heroinləri əridir...*

*Nəsiman evə gəlir. Sənubər çox narahatdır. Onu Nəsiman duyur.*

**Sənubər:** Nəsiman, mənim evimdə qalırsan. Həyatın üçün





məsuliyyət daşıyıram.

**Nəsiman:** Bilirəm.

— Elə bilirsən başım xarab olub? Ya özümü salıb itirmişəm. Gedib-gələn vaxtın məlum. İşləmirsən. Maaş almırsan. Bəs hardan dolanırsan? Dünən stolun üstə atdığın pullar hardanıydı? Kəndirini kəsəcəklər ha. O gün də səni Qaçay Qılınclıyla bir yerdə görüblər. Geci-tezi var, o, səni güdaza verəcək... Qurtar Qaçay Qılınclıdan... Yaxşı oğlansan, ancaq pis şagird. Cinayət nədən törəyir? Cahidlikdən.... Anlamazlıqdan... Dar düşüncəlikdən... Nəfsigirlikdən...

— Deyirlər, qismət də var.

— Qələt eləyirlər. Ağıllı oğulun ana-bacısı ağlamaz.

— Yaxşı, mən getdim.... Gecikirəm.

*Nəsiman otaqdan çıxır. Gəzə-gəzə parka tərəf gedir. Kəndçisi Cəlalla qarşılaşır. Cəlal onu görcək sevinir. Görüşürlər.*

**Cəlal:** Çoxdandı səni görmürdüm, Nəsiman. Necəsən, iş tapa bilmisənmi?

**Nəsiman** *(yalan danışmalı olur)***:** Hə... Tikintidə fəhlə işləyirəm. Deyirlər, böyük ixtisar var...

— Hə, mən də ixtisara düşdüm. İş yerimi itirdim.

— İndi hara gedirsən?

— Qatara bilet götürmüşəm... Kəndə. Ayın axırı qayıdacam.

— Gələndə mütləq görüşək. İndi səndən bir xahişim var, Cəlal.

— Nə xahişdi?

— İki yüz manat versəm, onu anama çatdıra bilərsənmi?

— Niyə çatdırmıram ki? O məndən nə əziyyət tələb eləyir ki?

*Nəsiman iki yüz manat pulu Cəlala verir. Onlar xudahafizləşirlər.*

**Nəsimanın daxili səsi:** Sənubər xala hey danlayır məni. Qaçay Qılınclıdan əl çək deyir. Qoca ana, xəstə bacı. İş yox... Qazanc yox... İmkansızlıq nə böyük fəlakətmiş...

*Park. Nəsiman çayxanaya yaxınlaşır. Çayxanada qarışıqlıq yaranır. Bir neçə nəfər süprüşə-süprüşə çölə çıxırlar. Polislər iki nəfəri saxlayır. Süprüşənlərdən biri Nəsimana tərəf qaçır. Nəsiman özünə tərəf qaçan adamın narkoman olduğunu anlayır. Nəsiman da qoşa binalara tərəf qaçır. İki polis onun ardınca düşür. Nəsiman binanın tinində hamilə qadınla toqquşur. Qadın yıxılır.*

**Qadın:** Vay, öldüm! Belim sındı. Mənə kömək eləyin. *(Polis ona yaxınlaşır. Qadını qaldırır. Qadın onu qucaqlayır)* Məni... məni həkimə... Vəziyyətim ağırdı. Yoxsa... Məni tək qoyub getməyin...

**Polis:** Burax... Cinayətkarı tutaq. Sonra danışarıq, sənə kömək eləyərik.

*Qadın buraxmır, polisin ayağı sürüşür və yıxılır. Nəsiman binanın girəcəyinə soxulur. Polis ayağa qalxır. Nəsimanın ardınca qaçır. O, Nəsimanı görmür. Yaxınlıqda zibil atan kişi ilə qarşılaşır.*

**Polis:** Narkoman hara qaçdı?

*Kişi Nəsimanı görsə də, polisə əks istiqaməti göstərir.*

**Kişi:** O tərəfə qaçdı. Binanın tinindən keçdi.

**Polis:** Ola bilməz. Bu tezliyə qaçıb canını qurtaranmazdı.

**Kişi:** Mənə nə düşüb, polis, yalan danışam. Polissən deyə gəlib bəlkə gözümü də çıxarasan. Boğaz arvada kömək eləmək





əvəzinə... Mən qaçanı niyə müdafiə etməliyəm? Görmədin, maşallah, təpinən kimi, kişinin oğlu üç milyonluq fransız atları tək qaçırdı.

**Polis:** Söz güləşdirmə.Polisə kömək eləmək əvəzinə...

*İkinci polis də gəlir. Kişinin sözünü dinləyir.*

**İkinci polis:** Ayə, bununla nə ağız-ağıza verib söz güləşdirirsən?

**Polis:** Deyirsən, onun əvəzinə bunu aparaq?

**Kişi:** Onu bacararsız. Ancaq sizə ağır başa gələr.

**Qadın:** Düşdü... düşdü... Təəccili tibbi yardım.

**Kişi:** Gedin, onu aparın. Özünüz də cavab verin.

*Polislər ratsiya ilə danışırlar. Qadına yaxınlaşırlar. Təcili tibbi yardım maşını gəlir. Qadını aparırlar. Polislər də gedirlər. Kişi Nəsimanın ardınca binaya girir. Nəsimanı binanın damında görcək gülümsəyir.*

**Nəsiman:** Getdilər?

**Kişi:** Qorxma. Yola saldım. Yamanca ilişəcəkdin.

**Nəsiman:** Sən məni tanıyırsan?

**Kişi:** Polislərin sözündən başa düşdüm ki, bizim kolleqsən. Mənim kibrit qutumu ver, gedim *(Nəsimandan kibrit qutusunun birini alır)*. Bu, havayıdı?

**Nəsiman:** Hə...

**Kişi:** Sən Qaçay Qılınclının şkolasındansan.

**Nəsiman:** Nədən bildin?

**Kişi:** Materialdan.

*Nəsiman tələm-tələsik binadan çıxır. Evə tərəf gedir, yolda Qaçay Qılınclıyla qarşılaşır.*

**Qaçay Qılınclı:** Nəsiman bikef görünürsən. Yoxsa, kefinə soğan doğrayan olub?

**Nəsiman:** Parkda polislərdən güclə qurtardım canımı. Yoxsa...

**Qaçay Qılınclı:** Gəl dalımca.

*Qaçay Qılınclı qabaqda, Nəsiman da onun ardınca çayxanaya gedirlər. Yolda polislərlə qarşılaşırlar.*

**Nəsiman:** Gəlirlər. Məni ilişdirəcəklər, üstümdə xeyli qutu var.

**Qaçay Qılınclı:** Qorxma, bizim adamdılar.

**Nəsiman:** Nə danışırsan?

**Qaçay Qılınclı** *(polislərə)***:** Eşitdim, aləmi qarışdırmısız? Bizə vurduğunuz ziyanı kim ödəyəcək?

**Polislər** *(bir ağızdan)***:** Əvəzini çıxarıq.

**Qaçay Qılınclı** *(Nəsimana)***:** Çıxar, hərəsinə bir kibrit qutusu ver.

*Nəsiman qorxur. Sonra Qaçay Qılınclının təkidiylə iki qutu çıxarıb polislərin hərəsinə birini verir.*

**Polislər** *(Nəsimana)***:** Get, işinlə məşğul ol.

*Polislər parkın yuxarısına, Qaçay Qılınclıyla Nəsiman aşağısına tərəf gedirlər.*

*Sənubərin evi. Sənubər fikirlidir. Qapının zəngi çalınır. Sənubər qapını açır. O, qapı ağzında oğlu Cəsarəti görür.*

**Cəsarət:** Evə gələ bilərəmmi?

**Sənubər** *(astadan, laqeydcəsinə)***:** Gəlmisən də.





*Cəsarət içəri keçir. Otağı nəzərdən keçirir .*

— Mənə “xoş gəldin” demədin, ana.

— Nə əkərsən, oğlum, onu da biçərsən... Heyfsilənirəm.

— Niyə?

— Sənə o adı qoymağıma... Xeyir ola, nə yaxşı gəlmisən?

— Sən nə vaxtadək tək-tənha yaşamalısan?

— O suala özün cavab ver. Bəs, bu evi neyləyək?

— Sataq.

— Yox... Heç vaxt... Biqeyrət oğul. Atanın ruhu bu evə gəlib-gedir. Deyirsən, onu bu evdən pərikdirək? Ruhunu incidək? Bunu Allah bizə bağışlayar?

— Üç otaq nəyinə lazımdı? Köç bizə. Nə bişiririk ondan da bir qaşıqda sən yeyərsən.

— Mənim dərdimi çəkmə. Ölüncə bu evdə qalacam. Sonrasına bacınla baxarsız.

— Bəlkə qızının adına köçürmək istəyirsən? Unutma ki, atanın malı oğula düşür, kürəkənə yox.

— Xoruzun quyruğu göründü.

— Onda gəl verək kirayəyə.

— Vermişəm.

*Cəsarət Nəsimanın otağına keçmək istəyir. Sənubər onun yolunu kəsir.*

— Kənara çəkil. Başqasının otağına icazəsiz girməzlər.

— Onu mən bilərəm.

*Cəsarət Sənubəri kənara itələyir, Nəsiman yatan otağa keçir. Nəsimanın çamadanını, paltarlarını eşələyir. Narkotik maddəni və kibrit qutularını tapır.*

— Bu narkoman kimdi? Kirayənişin saxlamağa bir qadın tapanmırdın? Bu yaşda kişi sənin nəyinə gərəkdi? Bayaqdan atamın ruhunu incidə biləcəyindən danışırdın. Özün onun ruhuna xəyanət eləyirsən?

*Sənubər Cəsarətin üzünə bir sillə vurur.*

— Alçaq, gör mənə nə deyir. O, mənim nəvəm yerindədir. Mənə həyandı. Sənin kimi qeyrətsiz oğuldan min dəfələrlə o yaxşıdı. Çıx evdən, bir də bura ayaq basma. Mən öləndən sonra gəlib atanın əmlakına sahib olarsan. Bu yaşda mənə kişi lazımdı?

*Sənubər itələyə-itələyə Cəsarəti qapıdan çıxarır. Gülgəz qapı ağzında görünür.*

**Gülgəz:** Qonşulardan ayıbdı.

*Cəsarət əsəbi halda pilləkənləri enir, Gülgəzlə Sənubər evə keçirlər.*

**Sənubər:** Heyf zəhmətimdən.
**Gülgəz:** Özünə gəl. Cavanlar bəzən qocaları düz başa düşmürlər. Şeytana lənət oxu.
**Sənubər:** Yaramaz işləri görürük, ağzıbaşına danışırıq, başqalarına dil yarası vururuq, sonra da şeytanı günahkar çıxarırıq.
**Gülgəz:** Bir azdan dediklərinə peşman olacaq.
**Sənubər:** İnanmıram.

*Qapı döyülür. Gülgəz qapını açır. Üç polis nəfəri içəri daxil olur. Gülgəzlə Sənubər bir-birlərinin üzünə təəccüblə baxırlar. Polislər özlərini təqdim edirlər.*





**Mayor:** Mən mayor Həsənov, sağımdakı leytenant Canıyev, solumdakı serjant Məkirovdur. Bu ev kimindir?
**Sənubər:** Mənim.
**Mayor:** Axtarış aparmalıyıq.
**Gülgəz:** Nə məqsədlə?
**Canıyev:** Sonra bilərsiz.
**Sənubər:** Mayor olan yerdə sən başından yekə danışma.
**Məkirov:** Bir az mədəni danışın.
**Mayor:** Kirayənişin saxlayırsız?
**Sənubər:** Bəli.
**Mayor:** O, hansı otaqda yaşayır?

*Sənubər otağı göstərir. Polislər otağa keçirlər. Narkotik maddələri və narkotika yığılmış kibrit qutularını götürürlər.*

**Mayor:** Qarı, narkomanı evə niyə buraxmısan?
**Sənubər:** O, narkoman döör.
**Mayor:** Bəs bunlar nədi?
**Sənubər:** Onlara toxunmayın.
**Mayor:** Niyə?
**Sənubər:** O rəhmətlik kişidən qalıb. Yadigardı. Əl-ayağa düşməsin deyə bu səhər onu çantaya mən qoymuşam. Evimdə mənə darğalıq eləməyəcəksiz ki, mayor?
**Mayor:** Ərin narkomanıydı?
**Sənubər:** Elə ciddi yox, hərdən az-az.
**Gülgəz** *(qəsdən polislərə)*: Yəni deyirsiz rəhmətlik kişi döördü?
**Canıyev:** Mayor, bunlar qarı dööllər ey, aferistlərdi.
**Gülgəz:** Aferiöst əzizlərindi, yaramaz.
**Məkirov:** Bunları aparaq şöbəyə.
**Sənubər:** Gedəyin, görək kim kimə. Ayə, mənim yetmiş altı yaşım var. Hay-hayım gedib, vay-vayım qalıb. Məni həbs eləyə-

cəklər? Hay-hay...

**Gülgəz:** Ona duxları çatmaz.

**Mayor:** Deyəsən, siz biz polisləri tanımırsız.

**Gülgəz:** Özünüzə əziyyət verib bizi ora aparmayın. Tamrınız çəkirsə, bir neçə qram sizə də görüm-baxım eləyərik. Ondan ötrü özünüzü cırmayın.

**Canyıev:** Yekə arvadsan, o nə danışıqdı?

**Gülgəz:** Nə danışıqdı, əə? Siz gedin, familiyanızın dərdini çəkin. Adam dilinə gətirməyə də utanır: Canyıev, Məkirov... Pa... Pa... Pa... Qulaq da qəbul eləmir. Bir-iki səs də o yan-bu yan olsa, aləm qarışar.

**Mayor:** Mənimki necədi? O da xoşunuza gəlmir.

**Gülgəz:** Onu arvadından soruş.

**Mayor:** Mən familiyamı deyirəm.

**Sənubər:** Səninki belə də. Müsəlman sayağı.

**Canıyev:** Bunlarla çəniyə çox versək, qəmbərqulu çıxacaq. Aparaq, rəislə dilləşsinlər. Onda xəta-baladan uzaq olarıq.

**Məkirov:** Mən də elə düşünnəm, mayor.

*Mayor qəflətən qışqırır. Gülgəz hıçqırır, bədəni titrəyir. Sənubər mayorun əlindəki narkotik maddəni alır.*

**Sənubər:** Bu, elə-belə şey döör, mayor. Sizə dedim axı, o rəhmətlik kişidən mənə əmanətdi.

**Mayor:** Ondan da əmanət olar? O, Nəsimanın zəhrimardı.

**Sənubər:** Oğlanın adını çəkmə. Öyünmə ki, mayorsan-nəsən. Biz mayor-miyor tanımırıq.

**Mayor:** Oğlun Cəsarət Nəsimanın adını verib bizə. Yoxsa, biz hardan bilirdik burda nə var?

*Sənubərlə Gülgəz uğunurlar, hi... hi... hi... Polislər də onlara qoşulur, ha... ha... ha... Səsə qonşular gəlirlər. Onlar da uğunmağa başlayırlar. Nəsimanla Qaçay Qılınclı gəlirlər. Nəsimanı görcək Sənubər səsini kəsir.*





**Sənubər** *(qəsdən)*: Kəsin bu yersiz hırıltıları. Narkotik maddələr ərimdən qalmadı. Bayaq oğlum Cəsarət gəlmişdi. Qorxdum kişinin əmanətinin dalına keçə. Ona görə də narkotik maddələri kibrit qutularına yığıb Nəsimanın çantasında gizlətdim.

**Gülgəz:** Nəsiman haranın qoduğudu bura narkotika gətirə?

*Nəsiman sezilməz halda əvvəl Sənubərin, sonra Qaçay Qılınclının üzünə baxır. Onlar başlarıyla Nəsimana "boynuna alma" işarəsini verirlər.*

**Mayor** *(polislərə)*: Qarıların əllərini qandallayın. Şöbədə boyunlarına alarlar.

## III hissə

*Sənubərlə Gülgəzin qollarını qandallayırlar. Onları polis şöbəsinə aparırlar. Nəsiman hərəkətlərinə peşman olur.*

*Qarılar rəisin kabinetindədilər. Rəis kabinetdə o tərəf-bu tərəfə gedir. Sonra kreslosunda əyləşir. Boğazını arıtlayır.*

**Rəis** *(mayora)*: Qandallarını açın.

*Mayor qandalları açır. Rəisin göstərişiylə mayor da əyləşir. Gülgəz rəisin üzünə kinayəylə gülümsünür.*

**Gülgəz:** Ağzına qurban olum, rəis. Səndə olan mərifət bunlarda niyə yoxdu? Onların kişiliyi deyəsən, dovşanınkı qədərdi.

*Sənubər Gülgəzin börünü basır.*

**Sənubər:** Kirisənə.
**Rəis:** Mayor, bu, nə görəcəkdi?
**Mayor:** Qarılar narkobizneslə məşğuldular.
**Gülgəz:** Əvvəla, qarı sənin doğmalarındı. İkincisi, sənin rəisin müdrük adamdı. Özündə yoxdu, heç, olmasa ondan dərs götür.

*Rəis yerindəcə qurcalanır. Pencəyinin yaxasını çəkir, qalstukuna əl gəzdirir.*

**Rəis** *(mayora)***:** Düz deyir, özünüzü aparanmırsız.
**Gülgəz** *(mayora)***:** Rəis hər şeyi bilir. O, sizə nümunədi. Sənubər yetmiş altı yaşın içindədi. Mənim yaşım da həşdadı addayıb. İki gedəylə bizi bura niyə gətirmisiz?
**Rəis** *(mayora)*: O gedələr kimlərdi?
**Mayor:** Leytenant Canıyev, serjant Məkirov.
**Sənubər:** Elə familiyası olanların belə də əndirabadi mayorları olar.
**Rəis:** Mayor, gedələrə deynən familiyaların dəyişsinlər. Düz deyirlər. O familiyalarla adamlar arasına çıxmaq olmaz.
**Mayor:** Oldu, rəis.
**Gülgəz:** Rəis, bunların ağılları yoxdu.
**Rəis:** Niyə?
**Mayor** *(əsəbi halda)***:** Onu sübut eləmək lazımdı.
**Rəis** *(Gülgəzə)***:** Ağıllarının olmadığını təsdiq edən sübutdəlilləriniz varmı?
**Gülgəz:** Var... Mənim qollarımı qandallayıb gətiriblər yanınıza?
**Rəis:** Bəli!
**Gülgəz** *(mayora üzünü tutaraq)***:** Mən kimin evində qandallanmışam?





**Mayor:** Sənubərin.
**Gülgəz**: Narkotik maddə kimin evindən çıxıb?
**Mayor:** Sənubərin.
**Gülgəz:** Söhbət kimin ərindən gedir?
**Mayor:** Sənubərin.
**Gülgəz:** Elə isə mənim narkotika ilə nə əlaqəm? Əlaqəm yoxsa, qoluma qandal vurub məni bura niyə gətirmisiz? Niyə məni narahat eləmisiz? Məni ictimaiyyat içərisində niyə nüfuzdan salmağa çalışmısız? Deməli, mənim hüququmu kobudcasına tapdalamısız. Mən məhkəməyə müraciət eləyib hüquqlarımın bərpasını tələb eləyə bilərəmmi?

*Mayor susur.*

**Rəis:** Eləyə bilərsən.
**Gülgəz** *(rəisə)***:** İndi özün de, onların ağlı var, ya yoxdu?
**Rəis:** Düz deyirsən, yoxdu.
**Gülgəz:** Onda əmrlərin ver, işdən azad elə.

*Rəis mayorun üzünə baxır. Mayor gözlərini döyür. Sonra da yazıqlaşaraq marıdır.*

**Rəis** *(əsəbiləşir)***:** Nə baxırsan, əə, üzümə, yaramaz. Cavab ver də, ölüsən?
**Mayor:** Bir də elə qələt eləmərəm.
**Rəis** *(üzünü Sənubərə tutaraq)***:** Yaxşı, bu nə narkotikadı? Sən yaşda arvad narkobizneslə də məşğulsan?
**Sənubər:** Rəhmətlik ərimindi, miras qalıb.
**Rəis:** Başqa şey miras qoyanmazdı?
**Sənubər:** Bədbəxt oğlu, təkcə özün apardı. Etibarsızlıq elədi.

**Gülgəz:** O kişinin şəxsi işidi. Ona kim nə deyə bilərdi? Kişi kişidi də.

**Sənubər:** Təskinliyi miraslarından alıram. Vəsiyyət eləmişəm, onu öləndə qəbrimə qoysunlar. Rəhmətliyin yanına əliboş getməyim.

**Rəis:** Bunu sənə verməsəm, onda necə?

**Sənubər:** Onda kişiyə özün cavab verməli olacaqsan. Burda bizlik iş yoxdu, nə qədər saxlasan, bir şey çıxmayacaq. Umacağın varsa, üstündən xətti çək. Əynimizdəki tumandan başqa bir şeyimiz varsa, lap atamıza lənət. Onu da çıxarıb sənə verənmərik, versək də, köhnə şeylərdi, sənə yaraşmaz. İçəri atsan, bizə daha xoş olar.

**Rəis:** Niyə?

**Gülgəz:** Burda qarnı dolusu yeyib-içərik.

**Rəis** *(mayora)***:** Bunları bura niyə gətirmisən? Yola sal getsinlər.

**Mayor:** Dedik siz də tanış olasız.

**Rəis:** Yolla.

**Mayor:** Oldu, rəis.

**Gülgəz:** Mən bu uzaqlığa yolu piyada gedənmərəm. Qıçlarım bədənimi saxlamır.

**Sənubər:** Mən də.

**Rəis:** Ha.... Mayor, taksi tut, yola sal.

**Gülgəz:** Rəis, sənə qurban olum. Həkim iynə-dərman yazıb, almağa pulum yoxdu. Mayora tapşır, mənə yüz manat versin.

**Mayor:** Nə?

**Rəis:** Qışqırma. Qarının işin düzəlt getsin.

**Mayor:** Nə işini?

**Rəis:** İynə-dərman işini.

**Sənubər:** Rəis, məni rəhmətliyin yanında üzüqara eləmə. Əmanətimi qaytar.

**Rəis:** Ərinə məndən salam söylə. Həm də halal eləsin.





**Gülgəz:** Rəis, mayor verənə oxşamır.

**Rəis:** Qələt eləyir.

**Gülgəz:** Elə burda, gözünün qabağında versin də.

**Rəis:** Çıxar ver.

**Mayor:** Öl mayor, öl! Sənə bu lazımdı?

*Mayor Gülgəzə yüz manat verir. Sonra Sənubərlə Gülgəz onun ardınca binadan çıxırlar. Nəsiman qapı ağzında görünür.*

**Gülgəz** *(Nəsimana)***:** Səbrin yox, qərarın yox, indi başlayacaqsan zır-zır ağlamağa. Bizi biabır eləmə.

**Sənubər:** Nə it yiyəsisən, nə də qurd. Rəis kişinin əmanətini də aldı əlimizdən. Məni kişiyə qoydu şuluzümmə.

**Gülgəz:** Mayor, rütbəni necə almısan?

**Mayor:** Rəisimiz verib.

**Gülgəz:** Ağlın olsaydı, birbaşa general verərdi.

**Mayor:** Məndən general çıxar?

**Sənubər:** Çıxar, lap heyvərəsindən.

**Gülgəz:** Heyf ki, vintciklərin çatmır.

*Mayor taksi saxladır. Nəsiman qabaq, Sənubərlə Gülgəzsə arxa salonda əyləşirlər. Maşın yerindən tərpənir. Sənubərlə Gülgəz maşından mayora əl eləyirlər. Maşın Sənubərgil yaşayan binanın qarşısında dayanır. Sənubərgil maşından düşürlər. Evə qalxırlar. Nəsiman utana-utana stulda əyləşir.*

**Nəsiman:** Sənubər xala, məni söyüb-döyməyə, gözlərimi çıxarmağa ikinizin də haqqınız var.

**Sənubər:** Gəl o söhbətə qayıtmayaq. "Əşyayi-dəlilinin" halallığını da rəisə verdim.

**Gülgəz:** Hesab bərabərdi: 0=0.

**Nəsiman:** O nə deməkdi?

**Gülgəz:** Bir zaman sən Sənubərə, indi də Sənubər sənə görə polisə düşdü. İkinizin də borcu mənədi. Ödənc nə vaxt olacaq, bilmirəm.

*Otağı gülüş səsləri bürüyür. Nəsiman yataq otağına keçir. Yata bilmir. Səhər çarpayısından qalxaraq məktub yazır.*

"Salam, Sənubər xala! Əməlimdən xəcalət çəkirəm. Qəbahətim böyükdü. Zəhmətini mənə halal elə. Əllərindən öpürəm.

*Hörmətlə: sənə layiq olmayan*
*kirayəşinin Nəsiman*
*14.04.99"*

*Nəsiman çanta-çamadanını götürür, evdən çıxır...*
*Sənubər məktubu oxuyur. Təəssüflənir. Gözləri dolur.*
*Nəsiman Qaçay Qılınclının maşınında onun bağ evinə gedir. Maşından düşürlər. Kamera bağı panarama eləyir.*

**Nəsiman:** Bağ cənnətdi, bilmirəm buranı qoyub şəhərdə nə gəzirsən?
**Qaçay Qılınclı:** Şəhərə öyrəşmişəm. Burda ancaq şənbə və bazar günləri oluram. Bağda iş çoxdu. Bağa baxmaq, həyət-bacanı belləmək, meynələri budamaq, suvarmaq üçün vicdanlı, işgüzar adam lazımdı. Gərək buranı öz bağın sanasan.
— Başqa necə ola bilər.

*Qaçay Qılınclı baqajı açır. Bazardan aldığı meyvələri, ərzağı, əti, meyvə şirəsi və araq şüşəsini götürür. Evə aparır.*

— Əti doğra, tök qazana. Qoy bişsin. Təmiz havada yüz-yüz gillətmək pis olmaz... Ağacları sulamaq lazımdı. Mən də onlara





baxıb gəlirəm.

*Nəsiman yemək hazırlayır. Stol, stulları həyətə çıxarır. Süfrə açır. Meyvələri, qədəhləri, yeməyi süfrəyə düzür. Qaçay Qılınclı gəlir. Yemək başlanır.*

— İçmək həvəsim yoxdu.
— Bağda ikimizik. Bizə kim qəbahət tutacaq ki? Buranın bir dəlisi var, o da mənəm. Kim başını qaldırsa, anasını ağladaram.
— Səhhətim.
— Görünür axşam bərk qorxmusan, bekara şeydi. Qorxma... Tülküdən qorxan, gərək toyuq saxlamasın.

*Qaçay qədəhləri araqla dodurur.*

— Zaman bizi qarşılaşdırıb. Az müddətdə sənə çox öyrəndim, Nəsiman. Məncə, buna səbəb talelərimizin, xarakterlərimizin oxşarlıqları ilə yanaşı, həm də ağıllarımızın uyarlığıdı. İstərdim, bu xoş münasibətlərimiz davamlı olsun. İçək gələcəyimiz şərəfinə.

*Qədəhlər vurulur, içilir.*

— Atalar yaxşı deyib. Su axar çuxurun tapar.
— Nəsiman, etiraf eləyim ki, mən cinayətkaram. İnsan anadangəlmə cinayətkar olmur.
— Demək istəyirsən ki, onu zaman cinayətkar eləyir.
— Yox... Burda zamanın nə günahı? Zaman milyard-milyard illərdi axıb gedir. İnsanı cinayətkar eləyən yaşadığı cəmiyyətdi, onu əhatə eləyən mühitdi.
— Zaman deyəndə mən də onları nəzərdə tuturdum, Qaçay. Bir də ki cinayətkarlığa meyl insanın canında da olur. İradəsizliyi də var. İrsi də istisna eləmirəm.

— Sən çox uzaqlara getdin, Nəsiman.

— Bəlkə də.

*Qaçay Qılınclı qədəhləri doldurur.*

— Söz sənindi, Nəsiman.

— Mən sağlıq deyənmirəm. İndi ki, ikimizik bir-iki kəlmə uydurum *(gülüşürlər)*. Qaçay, neçə vaxtdı yaxın ünsiyyətdəyik. Görürəm, bacarıqlı, tədbirli adamsan. Ayıq-sayıqlığına da söz olanmaz. Məncə, dərini kola sürtməyə çox meyillisən. Ehtiyatlı ol. Elə bilmə ki, ətrafımızdakılar bizi başa düşmürlər.

*Qaçay Qılınclı diqqətlə Nəsimanı dinləyir. Gözləri qıyılır, nəsə demək istəyir. Nəsiman ona imkan vermir.*

— Qardaş, bizim aramızda dostluq təməli qoyulub. Mən bildiklərimi, içimdəki narahatlığımı, nigarançılığımı olduğu kimi səninlə bölüşməyə borcluyam. Güman eləyirəm ki, bu, həm də bizim təhlükəsizliyimiz olar.

*Nəsimanın son sözləri Qaçay Qılınclının xoşuna gəlir. Qaçay Qılınlı gülümsəyir. Sonra sözləri başı ilə təsdiqləyir.*

— Sağ ol, Nəsiman. Səni mən belə də təsəvvür eləyirdim. Sənə etibar eləmək olar. Sədaqətinə, ağlına inanıram. Sağ ol, dostum.

*Qədəhləri bir-birinə vururlar, axıra qədər içirlər.*

— Əcəb özümüzü zəhərləyirik... Bir tərəfdən içkini pisləyirlər, o biri tərəfdən satırlar. Hansına inanasan?

— Bəzən dərman kimi də buyururlar... Nəsiman, sənə bir





şey verəcəm. Özündə saxla. Hər şeyə sərf eləmə. Görməsinlər. Yaman günün yarağıdı.

— O nə olan şeydi?

*Qaçay kostyumunun altında gizlətdiyi tapançanı çıxarır və Nəsimana verir. Nəsiman təəccüblənir. O tərəf-bu tərəfə çevirir.*

— Məni işə salar. Dəli-qudurmuş gəlib mənə sataşar, özümü saxlayanmaram, Qaçay.

— Onunla iş qaydasını dənizin kənarında sənə öyrədərəm. Silahla gərək ehtiyatlı davranmağı bacarasan. Ehtiyatsızlıq...

— Qardaş, bu, xatalı şeydi. Bu, mənim nəyimə gərəkdi. Kənddəkilər bilsələr, ürəkləri qopar.

— Silahla oynamayan kişidən arvad da çəkinməz, Nəsiman *(gülüşürlər)*. Vaxt gələr öpüb gözünün üstə də qoyarsan. İndi qalx gedək.

— Hara?

— Dənizin sahilinə.

— Burda olmaz.

— Tapança səsinə şəhər axışıb gələr.

*Qaçay Qılınclıyla Nəsiman maşına əyləşib bağlardan uzaqlaşdılar. Maşından düşdülər. Qayacıqlara tərəf gedirlər. Sal qayanın altında dayanırlar. Qaçay Qılınclı tapançayla davranış, patronları darağa yerləşdirmə, atma qaydalarını izah eləyir. Hədəfə atəş açır. Nəsimana təcrübi nümunələr göstərir. Xeyli məşq edirlər. Nəsiman həvəslənir.*

— İlk dəfədi əlimə tapança alıram, Qaçay.

— Hələlik bəsdi... Tezliklə sən də alışacaqsan. Bayaqdan parta-part salmışıq. Eşidib gələrlər, sonra da gəl itə-qurda cavab ver. Qayıdaq.

*Maşına əyləşirlər, maşın sürət götürür.*

— Qaçay ailəlisən?

— Yox...

— Nə əcəb?

— Evlənmiş olsaydım, burda nə gəzirdim? Arvad: —Hardasan? — deyə gözümü çıxaracaqdı. Unutma ki, evlənmək üçün imkan gərəkdi. Bir də mənəvi hazırlıq.

— Sən imkanlısan axı.

— Sənə elə gəlir. Sənə nəzərən imkanlıyam, prokurora, polis rəisinə, məhkəmə sədrinə görə yox. Mənəvi-psixoloji cəhətdən də elə.

— Sən özünü onlarla niyə müqayisə eləyirsən?

— Heç də onlardan fərasətsiz deyiləm. Onların yuxarılarda adamları var. Sənin gözaltın varmı?

— Yox... Ancaq düşünürəm ki, sən mən döörsən axı. İstədiyin işi asanlıqla həyata keçirə bilərsən.

— Bu yaxınlarda əməliyyat keçirmək fikrindəyik. O baş tutsa, ondan sonra evlənmək barədə düşünmək olar, Nəsiman. Yoxsa, indiki vəziyyətdə...

— Bilmək olar, o nə əməliyyatdı?

— Vaxtı çatanda, hə...

— Bu məşqlər də yəqin onun üçündü?

— Çox güman ki?

— Narkotika, qadın biznesi, adam oğurluğu olmasın. Adam ilişəndə xəcalət çəkir.

— Yox... Narahat olma. Onlar məni də yorub. Tək bircə əməliyyat keçirəcəm. Dərhal da xaricə gedəcəm.

— Bəs burdakı ev-eşik? Əmlak?

— Valideynlərim baxar.

— Qaçay, sən danışdıqca, mən də əcəb həvəsə gəlirəm. Bircə, pul qazanıb bacımı müalicə elətdirə bilsəydim, anamın axan





göz yaşlarını kəssəydim, dərdim olmazdı.

— Heç vaxt düşünmə ki, bu cəmiyyətdə halal yolla pul qazanacaqsan. Yadda saxla ki, onu nə vaxtsa, hardansa, kimdənsə, hansı yollasa, qoparmalısan.

— Məni qorxudursan, Qaçay! Belə çıxır ki, pul qazanmağın yeganə yolu cinayətdi.

— Mən başqa yol görmürəm və onu təsəvvür də eləmirəm. İşdi, alınsa, bizimlə bir operasiyaya girərsən. Sonra özün də aradan çıxarsan.

— Mən anamla bacımdan kənarda yaşayanmaram... *(Tərddüdlə)* Baxır nəyə?

— Arxı tullanmamış çırmanmazlar. Ana-bacını səndən kim ayırır ki? Bircə dəfə qaz vurub-qazan doldurmaq. Sonra da hər şeyə tüpürmək. Gedib səssiz-küysüz rahat həyatını yaşamaq. Necədi sənin üçün, Nəsiman?

— İmkan ver, fikirləşim.

— Sirr sənə açılıbsa, iştirakdan savayı özgə çarən qalmır. Sən soruşdun, mən də sirri sənə açdım. Səni bu əməliyyata qoşmaq əslində tək mənim qərarım deyil, Nəsiman. Sənin bu bağda yaşaman da açığını deyim ki, kimlərləsə razılaşdırılıb.

— Yenə qarışıq, burulğanlı fikirlər... Yenə qorxu... Yenə vahimə... Sonu görünməyən dolaşıq yollar... Alov... Yanğın... Əzab-iztirablı anlar... Uy aman...

— Onlarsız həyat yoxdu, Nəsiman. *(Qaçay cibindən papiros çıxarır. Yandırır. Dərindən bir qüllab alır. Nəsimana tərəf üfürür)* Obyekt bizimkilər tərəfindən izlənir. Dəstə üzvləri də bəllidir.

— İlişsək.

— Sözümü kəsmə. Dəstə üzvlərinin adları şərti olacaq. Etibarlı şəxslər bizə xidmət eləyəcəklər. Biz lazım olanı götürürük.

— Necə?

— Tələsmə. Altı aylıq döörsən ki? Yollar vaxtında deyilə-

cək. Sən də biləcəksən. Bizə yuxarının göstərişləri gərəkdi.

— Səni dinlədikcə gözlərim qaralır, Qaçay.

— Əminlik olmasa, addım atılmaz. Məqsədə çatmaq üçün hər cür vasitə və metod işə tətbiq olunacaq.

— Bu, çox çətin operasiyadı, Qaçay.

— Sənə elə gəlir. Çünki təcrübəsizsən.

— Məni qorxudur... Bəs mühafizəçilər? Bəs qanun keşikçiləri?

— Onlardan da bir neçəsi bizə xidmət eləyəcək. Unutma ki, bu işdə hər bir adamın öz vəzifəsi olacaq. Sən öz vəzifəni icra etməlisən. Başqa şey fikirləşməməlisən.

— Vay, dədəm vay. Mənim vəzifəm nə olacaq?

— Yerində biləcəksən... Çox danışmayaq. Razılaşdıq. Sirr ikimizin aramızda qalır.

— Oldu.

*Qaçay Qılınclının mobil telefonuna zəng gəlir. Qılınclı qırıq-qırıq danışır. Nəsiman heç nə anlamır.*

— Mən getməli oldum.

— Xeyirdimi?

—Xeyir olar.

*Maşın darvazanın qarşısında dayanır.*

— Sən düş... Ehtiyatlı ol.

— Oldu!

*Nəsiman maşından düşür. Maşın gedir. Nəsiman darvaza qapısını açır, həyətə keçir.*

*Nəsiman ağacları sulayır. Həyət darvazası döyülür. Nəsiman qapını açır. Qapının qarşısında maşın var. Ucaboy qız maşının yanındadır.*





**Nəsiman:** Eşidirəm.

**Qız:** Qapını açın, maşını içəri salım.

— Aça bilmərəm. Mən elə göstəriş almamışam. Axı sizi tanımıram.

— Adım Sehranədi. *(Sehranə nömrəni yığır və telefonu Nəsimana uzadır)* Al, danış.

*Nəsiman telefonu alır, qulağına aparır. Qaçayın səsi eşidilir.*

— Nəsiman, qız bizim adamdı. Qoy maşını salsın həyətə. Ona qayğı göstər. Bir azdan mən də gəlirəm.

— Oldu.

*Nəsiman darvazanı açır. Sehranə maşını həyətə salır. Nəsiman evdən yumşaq oturacaq gətirir. Stol açır. Meyvə qoyur. Sehranə həyətdəki hovuza yaxınlaşır. Qızın idmançı görkəmi Nəsimanın xoşuna gəlir.*

**Sehranə:** Adam soyunub çimmək istəyir.

**Nəsiman:** Soyuq olar.

— Nə soyuq? Cavan oğlansan, gör nədən qorxursan?

— Xəstələnə bilərsiz. Mən sizə görə deyirəm.

*Sehranə gülür. Papirosu yandırır.*

— Bağda tək yaşayırsan?

— Hə...

— Darıxmırsan?

— İşləyirəm. Meynələrə baxıram, başım qarışır.

*Küçədə maşın siqnal verir. Nəsiman gedib qapını açır. Qaçay Qılınclı da maşını həyətə salır. Maşından xeyli meyvə, şərab götürür. Nəsiman onları alır. Evə aparır. Qaçayla yemək-içmək hazırlayıb süfrəyə gətirirlər.*

**Nəsiman:** Dadlı pendir, təzə çörək də var, gətirimmi?
**Sehranə:** Əla! Üzümlə, şərabla gedər.

*Nəsiman pendir-çörək gətirir. Qaçay qədəhlərə şərab süzür. Sehranə üzümdən bir-iki gilə ağzına atır və qədəhi götürür.*

**Sehranə** *(Qaçaya)***:** Qonağın etibarlı oğlana oxşayır.
**Qaçay Qılınclı:** Qonaq döör, dostumdu. Sehranə xanım, sənin şərəfinə.

*Qədəhlər vurulur, şərablar içilir. Nəsiman sıxılır.*

**Nəsiman:** Qaçay, siz söhbətinizi eləyin. Mən dənizin sahilinə düşəcəm.
**Sehranə:** Piyada getmə, maşınlardan birini götür.
**Qaçay Qılınclı** *(gülərək)***:** Yamanca günah işlədirik. Bu dəfə gələndə gərək Nəsimanı da nəzərə alaq.
**Sehranə:** Bilsəydim, Naziki də götürərdim. O, ölür belə şeylər üçün.
**Nəsiman:** Yox... Yaxşı ki, gətirməmisiz?
**Sehranə:** Xədimsən? Yoxsa... Biz bilmirik.

*Şərab içən Qaçay Qılınclı çeçiyir. Şərabı üst-başına püskürür. Nəsiman çaşır.*

**Qaçay Qılınclı** *(Nəsimana)***:** Dincəldin? Sehranə yaxşı dedi. Bunu istəyirdin? Təzə gəlin kimi heç nədən utanıb qızarırsan.





Bəyəm, qadın görməmisən?
**Nəsiman:** Qoyun, özümə gəlim.

*Gülüşürlər. Nəsiman Qaçay Qılınclıdan açarı alır. Maşınla həyətdən çıxır. Dəniz sahilində gəzişir.*

**Nəsimanın daxili səsi:** Artıq odun içərisindəyəm. Sənubər xala düz deyirmiş... Qaçay Qılınclı çox çətin, qapalı adamdı. Sənubər xala necə də sərrast və dəqiq deyir: Quzğun. Gec-tezi var, ilişəcəm. Axı o gözəgörünməzlər kimdi? İndi nə plan hazırlanır? O nə operasiyadı? Sehranəlik orda nə iş var? Heç Sehranə də düz adama oxşamır. O da Qaçay Qılınclının tayıdı...

*Nəsiman düşüncələrə dalır. Sonra sahildə var-gəl eləyir. Xeyli keçir. Maşına oturur, evə qayıdır. Sehranənin maşınını həyətdə görmür.*

**Nəsiman:** Getdi.
**Qaçay Qılınclı:** Hə...
**Nəsiman:** Ayə, o, həmişə elə danışır?
**Qaçay Qılınclı:** Necə?
**Nəsiman:** Biədəb... Bir az da qalsaydım...
**Qaçay Qılınclı:** Onun gördüyü işləri hələm-hələm kişilər görənməz. Hərbidə olub.
**Nəsiman:** Nə danışırsan?
**Qaçay Qılınclı:** O, qadından çox kişiləşib. Snayperlə əla işləyir. Yüz atəşindən beşi boşa gedə bilməz... Bu gecə əməliyyat aparılacaq. Təxminən yüz saniyə müddətində.
**Nəsiman:** O vaxta neyləmək olar?
**Qaçay Qılınclı:** Belə işdə vaxt qızıldan qiymətli olur. Sənin vəzifən yükü alıb otuz saniyəyə "Çip"ə qoymaq olacaq. Özün də həmin maşınla aradan çıxacaqsan.

**Nəsiman:** Əməliyyatda neçə nəfər və kimlər iştirak eləyəcək?

**Qaçay Qılınclı:** Onların sənə dəxli yoxdu. Sən üzərinə düşən vəzifəni yerinə yetirib ordan uzaqlaşacaqsan.

**Nəsiman:** Mən hara getdiyimi bilməli döörəm?

**Qaçay Qılınclı:** Üç mərtəbəli qızıl mağazasına.

**Nəsiman:** Axı ora nəzarət altındadı.

**Qaçay Qılınclı:** Söz güləşdirmə, Nəsiman. Nəzarətçilər bu axşam bizim adamlar olacaqlar.

**Nəsiman:** Girib-çıxacağım yerlər məlumdu?

**Qaçay Qılınclı:** Əlbəttə... Gecə saat üç qırx beşdə yuxunun şirin vaxtı yaxınlıqdakı inzibati binada partlayış olacaq. Adamların başı qarışacaq. Ondan beş dəqiqə sonra rabitə kanalında nasazlıq baş verəcək. Güc strukturları ilə əlaqə kəsiləcək. O anda qaldırıcı kranın qolu üçüncü mərtəbədəki soldan altıncı pəncərəyə yaxınlaşacaq. Pəncərə içəridən dərhal açılacaq. Sən qolun üzəriylə gedib yükü alaraq kranın qarmağına keçirəcəksən. Kran ləngimədən səninlə birlikdə yükü aşağı endirəcək. O anda "Cip" yanında dayanacaq. Göz qırpımında yükləri yerbəyer eləyib aradan çıxmalısan. Görüş yerini özüm deyəcəm.

**Nəsiman:** Çox dumanlı, qarışıq və qorxulu əməliyyatdı, Qaçay. Qaranlıq, sirli bir aləmdə nəhəng əjdahanın üstünə gedirik. Burda da deyirsən ki, onun sənə dəxli yoxdu. Axı oynalınan tale mənimdi. Necə gəldi, onu tufana atmaq olarmı?

**Qaçay Qılınclı:** Əməliyyatda iştirak edənlərin taleyi həm də mənim taleyimdi. Hamıya necə gəldi qol-qanad vermək olmaz. Onlardan biri ilişsə, hamımızı sata bilər. Sadə bir düsturu niyə başa düşmürsən? Hamınızın silahınız da olacaq.

**Nəsiman:** Sənin evində qalıram. Səninlə duz-çörək kəsirəm. Mənə etibar eləyirsən, ya yox.

**Qaçay Qılınclı:** Eləməsəm, burda olmazdın, Nəsiman. Elə iş var ki, onu tam açıqlamazlar. Açıqlasaq fəlakətlə qarşılaşarıq.





**Nəsiman:** Aydındı.

**Qaçay Qılınclı:** Bu axşam əməliyyata birlikdə gedəcəyik. Cəld və ehtiyatlı ol. Qorxub həyəcanlansan, işləri korlaya bilərsən. Hər şey alt-üst olar. Hamımız ilişərik. Unutma ki, bizi snayperlər izləyəcək.

**Nəsiman:** Dəhşət.

**Qaçay Qılınclı:** Çətini ilk əməliyyatdı.

**Nəsiman:** Elə danışırsan ki, sanki su içmək kimi adi bir işdi.

**Qaçay Qılınclı:** Gəl uzatmayaq. Bir kənara çəkilib düşüncələrimizi bu gecəki əməliyyat üzərində cəmləşdirək.

*Qaçay Qılınclıyla Nəsiman hərəsi bağın bir tərəfinə çəkilir. Xeyli var-gəl eləyirlər. Qaçay Qılınclı bağ evinin zirzəmisinə girir. İki tapança götürür. Birini Nəsimana verir, ikincisini özündə saxlayır. Yavaş-yavaş külək qalxır. Getdikcə şiddətlənir.*

**Nəsiman:** Külək nə yaman qalxdı?

**Qaçay Qılınclı:** İstəyirəm külək bir az da şiddətlənə.

**Nəsiman:** Niyə?

**Qaçay Qılınclı:** Tufan olsa, yaxşıdı. Adamlar küçələrdən tez çəkilər. İşıqlar sönər. Səs-küy eşidilməz. Hər kəs öz başının hayında olar.

**Nəsiman:** Əməliyyat yüz saniyəyə qurtaracaqsa... Elədiklərimiz kimin ağlına gələ bilər?

**Qaçay Qılınclı:** Konkret deyənmərəm kimin? Mağazanın həndəvərində ayıq, ağıllı adamlar çoxdur. Bir səs, kiçik anlaşılmaz hərəkət duyan kimi, özləri nəticə çıxarıb mobil telefonlarla hüquq-mühafizə orqanlarını xəbərdar eləyəcəklər.

**Nəsiman:** Ay aman, sən deyənlər barədə heç zaman düşünə bilməzdim.

**Qaçay Qılınclı:** Çünki hüquqşünas deyilsən. Qanunlardan xəbərsizsən. Cinayətkar gərək qanunları yaxşı bilsin. Rəqibini

aldatmağı, başını dümanlandırmağı bacarsın... Yoxsa, əziyyəti faş olacaq, özü də ilişəcək. İndi gəl otur maşına, gedək. Vaxt daralır.

*Qaçay Qılınclı sükan arxasına, Nəsiman arxa salona oturur. Maşın şəhərə doğru sürət götürür. Qaçay Qılınclı tez-tez telefonla danışır. Maşın qaranlıq küçələrin birində dayanır...*

**Nəsiman:** Çatdıq?
**Qaçay Qılınclı:** Düşək.
**Nəsiman:** Maşın burda qalacaq.
**Qaçay Qılınclı:** Sual vermə, arxamca gəl.

*Onlar iki küçəni keçirlər. Köhnə sökülü binanın yanında dayanırlar. Qaçay Qılınclı telefonu söndürür, başqa telefonu açır.*

**Nəsiman:** Məni dəli elədin.
**Qaçay Qılınclı:** Al, binoklla bax. Mağazanın pəncərəsinə yanaşan kranın qolunu görürsənmi? Sənə bayaq dediyim kran odur. Tikintiyə yaxınlaş. Qalan məsələləri dediyim kimi icra elə. Təkrar eləyirəm, nəzarətdəsən, get, sənə uğur olsun.

*Nəsiman mağazanın yanındakı tikiliyə yaxınlaşır. Bəzək kollarının arasından keçir. Maskanı geyinir. Mağazanın həndəvərinə göz gəzdirir. Naməlum maskalı adamın mühafizə otağına girdiyini görür. İçəridə qarmaqarışıqlıq yaranır. Naməlum adam öz işini görür və ikinci mühafizə otağına soxulur. Qarmaqarışıq hadisə bu otaqda da təkrarlanır. Naməlum maskalı adamın Qaçay Qılınclı olduğunu yəqinləşdirir. Nəsiman heyrətlənir. Gurultu qopur. Alov göyə qalxır. Az keçir rabitə şəbəkəsində ikinci partlayış baş verir. Nəsimanın əl telefonuna "başla" mesajı gəlir. Nəsiman krana qalxır. Kranın qolu üstündə pəncərəyə yaxınlaşır. Dərhal pəncərə açılır. Uzun maskalı adam bir-birinin ardınca Nəsimana üç dolu kisə verir. Sonra qollarını "iks"vari çarpazlayır. Hardansa, snayperlə açılan atəş həmin adamın alnından dəyir. O, səsini çıxarmadan yıxılır. Kranın qırası aşağı enir. Bir "Cip" maşını gəlir. Nəsiman kisələri qıradan çıxarıb maşına yığır.*





*Kranı idarə edən adam özünü "Cip"ə atır. Sürücü səs boğucu tapançayla onu vurur. Nəsiman maşına minir. Maşın sürət götürür və şəhərdən çıxır. Buzovna bağlarına istiqamət götürür. Hündür divarlarla əhatə olunan həyətə çatır. Darvaza içəridən açılır. Maşın həyətə girir. Nəsiman Qaçay Qılınclını həyətdə görcək gülümsünür.*

**Nəsiman:** Nə tez gəlmisən?
**Qaçay Qılınclı:** Yatıb orda qalmalıydım?
**Nəsiman:** Sevinirəm, Qaçay.
**Qaçay Qılınclı:** Kisələri gətirin içəri.

*Nəsimanla sürücü kisələri evə aparırlar. Onları açırlar.*

**Sürücü** *(əllərini göyə qaldıraraq)***:** Əla! Ay Allah, bəlkə bundan sonra biz də adam kimi yaşayaq.
**Qaçay Qılınclı:** Bunları üç yerə bölməliyik. İkisi yuxarının, biri də bizim. Zirzəmidə də bir kişi var. Onun da atası zərziba üstündə oturmağı xoşlayırdı. Bəs ona verməyək?
**Sürücü:** Cinayətin törədicisi mən, qazanan başqası? Bunlar üç adam arasında bölünəcək. Kim kimə pay verər, verməz öz işidi.
**Qaçay** *(sürücüyə)***:** Gedək, kömək elə, qarajdakıları da gətirək.
**Sürücü** *(sevincək halda)***:** Orda da var bunlardan?
**Qaçay Qılınclı:** Biz havayı yerə baş sındırmırıq.

*Qaçay Qılınclıyla sürücü qaraja gedirlər. Tapança səsi eşidilir. Nəsiman qorxur. Qaçmaq istəyir. Qaçay həyətdə görünür. Uşaq ağlaması eşidilir. Qaçay on yaşlı oğlanla geri qayıdır.*

**Qaçay** *(uşağa)***:** Oğlan, bunları yeyə bilərsənmi?
**Oğlan:** Adam dəmir yeyər?
**Qaçay Qılınclı:** Atan onlardan ötrü özünü öldürürdü. Bəlkə yeyəsən, atana qismət olmayanlar sənə qismət ola?
**Nəsiman:** Uşaqla işin olmasın. Atasının hərəkətlərinin ona nə dəxli?
**Qaçay Qılınclı:** Bunu elə-belə buraxmaq olmaz, Nəsiman.

*Qaçay Qılınclı oğlanı başından vurur. Oğlan yıxılır. Nəsimana tərəf əsəbi baxır. Nəsiman Qaçay Qılınclının niyyətini anlayır, onun üstünə atılır. Qaçay Qılınclı Nəsimanın da başını nişan alır. Patron qurtardığından atəş açılmır. Nəsiman ona güclü zərbə endirir. Qaçay Qılınclı yıxılır. Başı daş divarın tininə dəyir. Nəsiman tapançanın qundağıyla Qaçay Qılınclının başına döyür. O, ölür.*

**Nəsiman** *(oğlana baxaraq ağlayır, sonra Qaçay Qılınclıya baxır)***:** Al, özün ye, Quzğun. Gör bu qızıllar neçə adamın həyatına son qoydu. Azyaşlı uşağın günahı nəydi, onu öldürdün?

*Nəsiman mobil telefonun nömrələrini yığıb birbaşa prokurorun növbətçisinə zəng çalır. Baş verənləri danışır. Ünvanı bildirir.*
*Səhər ara verəndə hüquq-mühafizə işçiləri gəlirlər. Onları dəhşət bürüyür.*

**Nəsiman:** Biz bu axşam qızıl mağazasına basqın elədik.
**Prokuror:** Ondan xəbərdarıq. O barədə sonra danışarıq...





*Prokuror irəli gedir. Oğlanı qucağına alır. Qanlı üz-gözündən öpür. Ağlayır. Sonra meyidi döşəməyə qoyur. Qaçay Qılınclının al-qana boyanan başını ayağı ilə çevirir.*

**Prokuror:** Bu alçaq bizdən bir kurs yuxarı oxuyub. Qatı cinayətkardı... *(Üzünü təhqiqat qrupuna tutur)* Qızıllar sizi çaşdırmasın. Onların sahibləri var. Əmanətə xəyanət eləyənlərin aqibəti Qaçay Qılınclınınkı kimi olar *(Üzünü Nəsimana tutaraq)*. Bu qədər daş-qaşdan yalnız sən əl çəkə bilərdin. Qaçay Qılınclını öldürməklə, çoxlarını bu qatı cinayətkardan xilas eləmisən. Hələ neçə-neçə faciələr baş verəcəkdi. Bilməlisən ki, günahsız deyilsin. Sənə qarşı cinayət işi açılacaq. Cəmiyyət üçün hələ itirilməmisən...

***2009***

# Qəzəb

***(Dörd bölümlü kinoserial)***

**Gülayə** — həkim, 45-50 yaşlarında, Emilin anası
**Emin Eminli** — 50 yaşında, prokuror
**Emil Eminoğlu** — 23 yaşında
**Müstəntiq** — 40 yaşlarında
**Tibb bacısı** — 30 yaşlarında
**Yaşlı xəstə**
**Cavan xəstə** — 25-26 yaşlarında
**Kişi**
**Seymur** — cavan oğlan
**Qadın**
**Ucaboy polis**
**Gödək polis**
**Sərdar** — cavan oğlan, Münəvvərin nişanlısı
**Sitarə** — cavan qız
**Köməkçi** — 30 yaşlarında
**Qəmər** — 45 yaşında, Münəvvərin anası, Emin Eminlinin bacısı
**Münəvvər** — Qəmərin qızı, Sərdarın nişanlısı
**Əliqulu** — 30 yaşında şahid
**Yunis** — 28-30 yaşında şahid
**Aşbaz** — 35-40 yaşlarında şahid





## I bölüm

*Xəstəxana. Geniş və işıqlı qadın palatası. Palatada iki çarpayı var. Çarpayıda iki xəstə uzanıb. Tibb bacısı yaşlı xəstəyə iynə vurur. Həkim Gülayə xanım içəri daxil olur. O, üz-gözündən yorğun görünür. Xəstələr onu görcək üzlərində xoş təbəssüm yaranır. Gülayə növbəylə xəstələrə yaxınlaşır. Əhvallarını soruşur. Yaşlı xəstənin hərarətini, nəbzini yoxlayır. Analizlərin cavablarını, xəstəlik vərəqini nəzərdən keçirir.*

**Tibb bacısı:** Hər şey normaldı. Həkim, gərək ki, ciddi şey yoxdu.
**Gülayə:** Hə... Biz düşünəndən də yaxşıdı.
**Yaşlı xəstə** *(Sevincək halda)***:** Həkim, öyrənmişəm, deyirlər, salamat olsun, sənin də bir oğlun var. Allah onu sənə çox görməsin. Bura gələndə evimə salamat qayıdacağıma ümidim yoxıydı. Uşaqlarımın niskilli baxışlarından hiss eləyirdim ki, əllərini məndən üzüblər. İndi maşallah, qoz kimiyəm.

*Hamı gülüşür.*

**Gülayə:** Xala, yamanca vasvasısan. Öz aramızdı, xəstəlikdən qorxansan, ha? Həkimin vəzifəsi xəstəyə yardımdı.
**Yaşlı xəstə:** Qorxmasaydım, bu qədər yaşayardımmı. He... He... He...
**Tibb bacısı:** Hippokrat andını həkimlər elə-belə içməyiblər ki.
**Gülayə:** Hə, o da var, vicdan da... Vicdan olmasa, Hippokrat neyləyəcək ki.

*Pauza*

**Yaşlı xəstə:** Mən həkim tanıyıram, a qızım, Hippokrat andı yox ey, neyləsə...

**Tibb bacısı:** Neyləsə nə?

**Yaşlı xəstə:** Xəstəliyin üzü qara olsun. Nə qədər ayağın yer tutur, kiməsə gərəkliyini hiss eləyirsən. Elə ki, yatağa düşdün, ay sağ olmuş, hələ doğmaca oğlunun, qızının da üzünə baxmağa utanırsan. Onda qalmış ki, yad qızı gəlin ola.

**Gülayə:** Gəlin sənə necə baxır?

**Yaşlı xəstə:** Söz olanmaz.

**Gülayə:** Bu gün də burda qal, qonağımız ol, xanım. Sabah səni evə yola salaram gedərsən.

**Yaşlı xəstə:** Səni min budaq olasan. Balanın toyunu görəsən. Bu xasiyyətinə görədi, xəstələrin səndən danışanda dilləri ağızlarına sığmır.

*Gülayə məmnunluq hissi keçirir. Sonra cavan, təzə gələn xəstəni müayinə eləyir.*

**Gülayə:** Sizin narazılığınız nədəndi?

**Cavan xəstə:** Həkim, deyiləsi döör. Mənim işim qalıb Allaha.

**Gülayə:** Necə? Başa düşmədim.

**Cavan xəstə:** Halım tez-tez dəyişir, həkim, başım hərlənir. Nədəndi bilmirəm, kürəyimdə hərdən küt ağrılar hiss eləyirəm. Tez-tez tər məni basır. Halsız oluram. Son vaxtlar hər şeyə həvəsim sönüb, yeməkdən kəsilmişəm. Çox üşüdürəm. Bu nəsə elə bil məni aparacaq.

*Gülayə təəccüblə xəstənin üzünə baxır.*

**Tibb bacısı** *(Gülümsəyərək)***:** A bacı, maşallah, rəngin qırmızı turp kimidi. O qədər şey sadaladın, az qala ürəyim qopacaqdı. Ağız, nə olub bəyəm, bir özünü ələ alsana. Həkimi çaşdırma.





**Gülayə** *(Tibb bacısına)***:** Səhər ac qarına qanın ümumi analizlərini götürün, rentgenin cavablarını əldə eləyin. Şəkərini mütləq yoxlayın. Xəstə vəziyyətini o qədər də şişirtmir, hazırda onun hərarəti var. Hərarəti varsa...

**Tibb bacısı:** Oldu həkim.

*Xəstə bir qədər də irəli çıxır.*

**Cavan xəstə:** Həkim, bu yaşa gəlmişəm, mən belə vəziyyətə düşməmişəm. Ürək sıxıntısı guppagup məni gic eləyir.

*Yaşlı xəstə maddım-maddım həmkarının üzünə baxır. Sonra öz-özünə mızıldanır.*

**Yaşlı xəstə** *(ikimənalı)***:** Deynən xəstəlik anamı ağladır.

*Hamı gülüşür.*

**Gülayə** *(Cavan xəstəyə)***:** Neçə yaşın var?

**Cavan xəstə** *(mızıltıyla)***:** Həkim, heç nə, iyirmi altı.

**Tibb bacısı:** Ərə get, xanım, ərə! Özünü dağa-daşa, iynə-dərmana salma. Üzdən iraq, sənin dərmanın ərdi, bacı.

*Pauza*

**Cavan xəstə:** Oyunun olsun, a bacı, üzdən iraq niyə? Oğlanların gözləri yumulubsa, bir çoxu da çörək dalınca xaricə gedibsə, bir sözlə, məni alan qəhətə çıxıbsa, neyləyim? Sonrası da iynə-dərmanlar kar eləməyənə ər binəva neyləyəcək?

**Tibb bacısı:** Sənə elə gəlir. Eləyər, özü də əməlli-başlı. Görünür əri lazımınca dəyərləndirmirsən.

*Palatanı yenə gülüş səsləri bürüyür. Həkim tibb bacısına göz ağardaraq üzünü xəstəyə tutur.*

**Gülayə:** Soyuqlamısız. Bu yaxında qrip də keçirmisiz...
**Cavan xəstə:** Hə... Onu düz deyirsiz, həkim.
**Gülayə:** Analizlərin cavablarını alaq, onda hər şey aydın olar. Tələsmə, tezliklə sağalarsan *(gülərək)*. Gərək tibb bacısı deyənlər barədə fikirləşəsən.
**Cavan xəstə:** Fikirləşərəm... Türkəçarədən zəhləm gedir, həkim. Qonşumuz Zeynəb qarı dedi, gəl səni özüm müalicə eləyim. Getmədim. Düşündüm, başıma yüz qəmbərqulu gətirər. Dərdimin üstünə dərd gələr. Onda da gəl ölünü qoy, dirini ağla. Ara həkimlərindən yenə oxumuşlar yaxşıdı. Düz eləmişəm, ya səhv, həkim?
**Tibb bacısı:** Dübbədüz eləmisən, xanım... Özünü də çox əzdirib-büzdürmə. Zeynəb qarı onu da deyərdi: Yersiz naznazılığın özü də adama bir dərd gətirir.
**Cavan xəstə:** Mən ona inanmırdım, sən demə, qarının başı varmış...
**Yaşlı xəstə:** Ağız, sənin cavanlığın belədi, qocalığın nə olacaq?
**Cavan xəstə:** Onu yadıma salma.

*Həkim götürüləcək analizlərin adlarını yazıb xəstəlik vərəqini tibb bacısına verir. Gülayə qabaqda, tibb bacısı da onun ardınca palatadan çıxırlar. Gülayə öz kabinetinə gedir. Stulda əyləşir. Kitabçasında qeydlər aparır. Ayağa qalxıb bir neçə dəfə otaqda var-gəl eləyir. Gülayənin mobil telefonuna zəng gəlir. Gülayə telefonu açır. Kor-kobud kişi səsi eşidilir.*

**Kişi:** Alo... Alo...
**Gülayə:** Eşidirəm.





— Xanım, oğlunu şərləyib, atıblar içəri. Xəbəriniz var?
— Bilirəm.
— Kimlər şərlədiklərini də bilirsiz?
— Bəli! Onu da bilirəm.

*Pauza*

— Baş verən hadisədə, oğlunuz Emilin şərlənməsi bizim gözlərimiz önündə baş verib. Prokuror Emin Eminlinin bacısı Qəmərin qızı Münəvvərlə nişanlısı Sərdar oğlunuz Emili heç nədən tufana atdılar. Zəng çaldım ki, siz də biləsiz.
— Onu da dəqiqliyi ilə bilirəm. Daha deyiləsi sözünüz varmı?
— İstədim sizə çatdırım ki, biz anonim məktub yazıb hər şeyi yuxarı təşkilatlara ötürmüşük. Ayıq olun. İstərdik yağlı dillərə aldanmayasız, məktubda yazılanları təsdiqləyəsiz. Cinayətkar cəzasını çəkməlidi. Sərdar dərisinə sığmırdı. Çatana çatır, çatmayana bir daş atırdı.

*Gülayə bərk əsəbiləşir, ancaq ciddi-cəhdlə hirsini boğmağa çalışır.*

— Anonim məktub niyə? Düz adam olsaydız, adınızı deməkdən çəkinməzdiz. Yoxsa, ilanı Hacı Əhməd əliylə tutursuz?
— Hacı Əhməd niyə? Bəyəm ana oğul üçün Hacı Əhməddi?.. Deyirsiz, adımı yazıb özümü sizə görə bəlaya salım? Görürəm, xanım, oğlunuzun günahsız həbsi sizi o qədər də maraqlandırmır?
— Bağışlayın, mən kiminlə danışıram?

*Kişi susur. Xeyli fikirləşir. Əvvəl nə deyəcəyini bilmir. Handan-hana cavab verir.*

— Vaxt gələr, istəyinizə nail olarsız, onda özümü sizə təq-

dim elərəm.

*Gülayə kinayəylə, acıq verirmiş kimi dillənir.*

— Bir kişinin öz adını deməyə cəsarəti çatmırsa, o hansı mübarizəylə nəyəsə nail ola bilər? Yadda saxla, mənim oğlum həbs olunmayıb. Qaldı kimlərinsə böhtan deməlırinə, it hürər, karvan keçər.

*Kişi düşünülməmiş misal gətirir.*

— Hesabını qanmayanın sürüsünü otarmaq, doğrudan da çətindi, xanım.

*Gülayə sərt cavab verir.*

— Mərifətinə bərəkallah. Qardaş, oğlumun vəziyyəti mənim işimdi. Onun üçün narahat olmayın. İstəməzdim, siz yaşda adamlar tin-bucaqda pişik boğuşdurasız. Bir də zəng çalıb mənim başımı qatmayın. Əks halda...

*Gülayə pəncərənin önündə dayanır. Duyuğa gedir. Handanhana köksünü ötürür. Hiss olunur ki, bərk narahatdır.*

*Kadr dəyişir. Ekran qaralır, sonra yavaş-yavaş ağarır. Emilin uşaqlığı, məktəb illəri, yeniyetməliyi ekanda canlanır. Sonra pərdə arxasından Gülayənin daxili səsi eşidilir.*

**Gülayənin daxili səsi:** Eh... Emil! Emil! Lap başımı itirmişəm, oğlum. Neyləyim?.. Özüm də bilmirəm, bu əndazəsiz faciə bizi hardan qamarladı? Üstəlik, ağır vəziyyətimizdən istifadə eləməyə cəhd göstərən nadanlar var. İndi hər şey mənə nəhayətsiz dəryanı xatırladır. Həyat sonu görünməyən bir ümmandı. Oğlum, ağlına yaxşı bələdəm.





*Pauza*

Sən heç vaxt cinayət törədib, kimsəni öldürərək dəmir barmaqlar arasına düşə bilməzsən... Sənin də, elə mənim də taleyimiz əvvəldən uğursuz olub... Axı niyə? Nəydi bizim günahımız? Hələ vaxtıykən mən hiylədən, məkrdən uzaq kimsəsiz uşaq evində kövrək addımlarını hara gəldi atan cılız bir qızcığazıydım. Taleyin hökmüylə ölümlə həyat arasında çabalayırdım... Nə qədər məşəqqətli olsa da, dünyanın dərd-sərindən xəbərsiziydim. Onda hər şey mənə yaxşı, əlçatmaz görünürdü. Sevinirdim, sabahım barədə düşünürdüm. Elə bilirdim, həmişə elə olacaq... Arzularım qol-qanad açacaq.

*Pauza*

Dünyanın ən xoşbəxti olacam. Sən demə, necə də yanılırammış. Böyüdükcə, insanları yaxından tanıdıqca o təmiz, bakirə duyğularımdan əsər-əlamət qalmadı... Emil, mənim balam, halımızı, düşdüyümüz faciəmizi xatırlayanda elə bilirəm, ya yuxudayam, ya da bütün həyatımı itirmişəm... Bu başımıza gələn bəla necə, hardan və nədən doğdu, oğlum?..

*Ekran yavaş-yavaş ağarır. Gülayənin gəncliyi gözləri önündə canlanır*

*Kamera panorama eləyir. Sakit dəniz. Göydə ala-tala buludlar. Mavi sular. Qırçın-qırçın dalğalar. Ləpələr sahili döyəcləyir. Lap uzaqlarda gözə dəyən ara-sıra qayacıqlar. Bakı bağları. Sahil boyu tək-tək hərəkət eləyən yaxtalar. Dənizin ortasında lövbər salan gəmilər. Sahilə yaxın sulara qıyhaqıyla baş vuran bəyaz qağayılar. Çimərlikdə qaynar qum dənəcikləri üzərində uzanıb dincələn adamlar. Onlardan da bir qədər aralıda dayanan minik avtomobilləri. Yüngül meh Gülayəylə Eminin üzgözünə sığal çəkir. Onlar xoşbəxt görünürlər. Gülayə ayaqqabılarını çıxarıb dənizin sahilində addımlayır. Ömürlərinin xoşbəxt anlarını yaşayırlar.*

**Gülayə** *(Yaxtaları göstərərək)*: Yaxtayla o günkü dəniz gəzintisi çox xoşuma gəldi, Emin.

**Emin:** İstəsən, yenə gəzintiyə çıxa bilərik. Təki sənə xoş olsun.

**Gülayə** *(Çəkinəcəkli halda)*: Yox... Yox... Sənə deməsəm də, *(gülümsünərək)* yaxta suları yaranda qorxudan az qala ölübdirilirdim, Emin.

*Emin gülür, sonra başını yelləyir.*

— Çox nahaq, əzizim, sən nədən qorxursan? Beş addımlığımızda, dənizin bir yerdə dayanmayan təhlükəsizlik xidməti əməkdaşları nədən ötrüdü? Burda nə gəzirlər? Onlar bizə nəzarətçidilər.

— *(Gülərək)*: Onlara da çox güvənmə. Zeynəb qarı demişkən: "Bədbəxtlik baş verəndə, quymaq diş sındırar". Çalış boğulma, boğuldunsa, onların da yüz bəhanələri olacaq. Biz qızlar quşlar kimiyik. Öyrəncəliyik səksəkə içində yaşamağa. Göyün üzünə bulud gəlməmiş, canımızı hara qoyacağımız barədə fikirləşirik. Səs-küyümüz aləmi bürüyür. Bir də ki eşitmisən də...

— Nəyi?

— Nə işin var meşədə, çaqqal səni çığırda.

*Gülüşürlər. Sonra da ağır-ağır addımlarla gəzişirlər. Gülayə ayaq saxlayır. Emin bir-iki addım gedib dayanır.*

— Nə oldu, xeyir ola, niyə dayandın, Gülayə? Yenə ağlına nə gəldi? Yoxsa, tibbdən mənə mühazirə oxumaq fikrindəsən?

— Tibbdən yox... *(Köks ötürərək)* Neçə gündü, içimdə, nədənsə narahatlıq duyuram. Gecələr yata da bilmirəm. Qarmaqarışıq, dolaşıq fikirlər məni dəli-divanə eləyir. Beynimi qurd kimi didir. Elə bil qeybdən mənə içimi göynədən nəsə oxuyurlar,





Emin.

*Pauza*

— Niyə, gözəl xanım? Bu gün-sabah ali təhsilini tamamlayıb həkim olursan. Oturub-durub Allahına şükür eləməkdənsə...

— Yaxşı-yaxşı. Komplimenti özünə saxla. Elənçiyə qalsa, sən də hüquqşünas olacaqsan...

— Eh... Görək də. Allah ağzından eşitsin.

— Qismətimizdə varsa...

*Emin sinəsini qabardır və təkəbbürlə cavab verir.*

— Hə... Ən böyük arzum cavanlıqda prokuror, qocalıqda hakim olmaqdı.

— *(Gülərək)* İddiana bərəkallah. İncimə, iddialı adamlardan heç xoşum gəlmir, Emin. İstərdim deyəydin, mən mərhəmətli insan olacam...

— Sənin qəribə xarakterin var, Gülayə. Böyüklərin mərhəməti...

— Böyüklər deyəndə sən kimləri nəzərdə tutursan? *(Etinasız halda)*: Karyera, nüfuz sahiblərini?

*Gülayə Eminin qəlbinin incə simlərinə qəsdən toxunur.*

— Karyera hələ insan olmaq demək deyil. Əzizim, Emin, mərhəmət insanda olur, karyerada yox...

— Hərdən dilin istiot kimi adamı yandırır.

— Düz sözdən qaçma, mədhiyyədən qaç.

*Emin dönüb Gülayəyə baxır. Qızın gözlərindən heç nə anlamır. Eyni ahənglə ona cavab verməyə çalışır.*

— Gah hərdən sərt olursan, gah da mülayim. Mənə elə gəlir

ki, bəzən hərdəmxəyallığın da var. Ha... Ha... Ha...

— O nə deməkdi? Heç nə anlamıram.

*Gülayəyə xoş olmaq xatirinə Emin bildirir.*

— Gah üzündə elə bil günəş doğur, dərd-sərsiz olursan, doğrusu, onda sevinirəm. Gah da sifətini qara, boz buludlar alır, üzgözün turşuyur. Elə olanda da içimi qara-qorxu alır. Fikirləşirəm ki, nəsə bir oyun düzəldəcəksən. Ha... Ha... Ha...

*Gülayə söhbətin səmtini dəyişir.*

— Biz nə vaxta qədər hürkək, gözləri qıpıq dovşanlar kimi, ya da havalı danalar tək beləcə məqsədsiz-filansız gəzib dolanmalıyıq, Emin? Utandığımdan yataqxanaya da gedəmmirəm. Qızlar hərəsi bir söz deyir, bir şəbədə qoşur mənə.

*Pauza*

Kimsəsizlər evində böyüyən qızın əskisi tustulu olar, Emin. Rəfiqələrimdən utanıram, üzlərinə baxammıram.

*Emin Gülayənin nə demək istədiyini anlayır. Ancaq özünü o yerə qoymur.*

— Qələt eləyirlər rəfiqələrin. Sənə paxıllıqları tutur.

— Niyə?

*Emin Gülayənin üzünə baxmadan mənəm-mənəmliklə cavab verir.*

— Necə niyə? Cavan oğlanam. Özü də bu gün-sabah oluram hüquqşünas. Bəlkə heç səni işləyətməyəcəm... Birdə ki kim istər rəfiqəsi özündən qabağa çıxsın?





— Boş-boş danışma... Sən nə fikirləşirsən?

— *(Sifəti bozararaq)* Hə... Belə de... *(Bir-iki addım ataraq)*

*Pauza*

Yoxsa, məndən xəbərsiz sənə dil verənlər var? Başına təzə ağıl qoyanlar peyda olublar? Eləsə, utanma, açıq de. Səni yolundan azdıran alçaqlar...

— Mənə dil, ağıl verənlər kimlər ola bilər, səncə? (*Sərt halda)* Sən deyəsən, özünü itirirsən?... Bu nə tondu mənimlə danışırsan? İl yarımdı şəhərdə ayaq döymədiyimiz küçə qalmayıb. Allah bilir, bəlkə tin-bucaqda dolaşan it-pişiklər də bizi tanıyır. Sən nə elədiyini başa düşürsən?

*Eminin səsi gərilir və Gülayənin qəlbinə toxunacaq halda deyir.*

— Tüpürüm tin-bucaqda dolaşanlara. Mən o sözlərə layiqəm? İçində sarsaq-sarsaq sözünü qaynatma. Fikrini açıq de. Bəlkə qarşında basarlı işim var?

*Söhbət getdikcə kəskinləşir.*

— Təhqirə keçmə. Dediklərimdə anlaşılmazlıq nə var ki? Son vaxtlar sən çox dəyişmisən, Emin. Daha o park sənin, bu park mənim, — deyə səninlə gəzə bilməyəcəm. Gec-tez bilməlisən. Uşağa qalmışam. Körpəni yataqxanadamı?.. Bəyəm, bu ən böyük basarlılıq deyil?

*Emin özünü itirir. Necə hərəkət eləyəcəyini təsəvvür eləmir. Tədricən özünü ələ alır.*

— *(Təəccüblə)*: Nə?! Uşaq?!. Sən dəli olmusan, nədi?! Bircə bu hoqqamız qalmışdı! Bəs böyüklər?!.

# II bölüm

*Gülayə ciddi nəzərlərlə Eminin üzünə baxır.*

— Hə... Dəli niyə oluram? Böyüklərin indi yadına düşür? Özün bilmirdin ki, o münasibətlərin sonu nə vaxtsa, nəylərsə nəticələnə bilər?

*Emin sahildəki qumun üstündə çömələk oturur. Nəfəsini ağır-ağır alır.*

— Mənə qəzəl oxuma, rədd elə getsin. Bircə bu çatışmırdı!.. Bu, biabırçılıqdı! Bu, özümüzü el içində, tanış-bilişin gözləri qarşısında ifşa eləməkdi! Bunu bilirsən?

*Gülayənin hövsələsi daralır. O da eyni tərzdə cavab verir.*

— Qara məni basınca mən qaranı basım eləmə, Emin. Mən uşaq deyiləm. Mənə anlamaz kimi baxma, Emin. Mən sənə nələr ola biləcəyini əvvəlcədən xatırlatmışdım. Onda ayaq geri qoymadın. — Bağ belə, bostan belə. Hər şeyə özüm cavabdehəm, — dedin. And-aman elədin... Təkidlərin yadındadımı? O dediklərin sayıqlamalarmış? Ağlını başına yığ. Uşağına sahib dur. Özünü dağa-daşa salma.

*Pauza*

— Qurtar, çürütmə sözünü. Bircə ata-anamı infarkt eləməyim qalmışdı. Aman Allah...

— Yox, Emin, sən düşündüyün mümkün deyil.

— Onda mən, Gülayə.

— Onda sən nə? Uşağından imtina eləyəcəksən, Emin?

— Belə getsə, mənimlə razılaşmasan, niyə də eləməyim?





*Gülayənin gözləri hədəqəsindən çıxır.*

— Körpədən?

— Elə səndən də.

*Gülayə nifrətlə Eminə baxır.*

— Bu qədər alçaq, qəlb oğrusu olduğunu təsəvvür eləməzdim. Görürəm, sən hər cür cinayətə imza ata bilərsən. İnanıram, bu sifət ki, səndə var, deyərsən ki, mən Gülayəni tanımıram.

— Əlbəttə... Vadar eləsən...

— Sən bədbəxtsən. Sənə yazığım gəlir. Öz övladından imtina eləyən atadan hər cürə söz eşitmək mümkündü. Mən heç vaxt körpəmə qəsd eləmərəm. Ancaq onu da istəməzdim ki, indiyə qədər mən çəkənləri bundan sonra dünyaya gələcək doğma balam çəksin. Atasızlığın, anasızlığın nə olduğunu mən çox görmüşəm... Həmişə mənə yağlı vədlər verərdin, namərd. Hüquqşünas olacağınla fəxr eləyərdim. Tüpürüm sənə də, sənin gələcək karyerana da *(Ağlayır)*. Mən səni tanıdığıma heyfslənirəm.

*Pauza*

Hissiyyatsızlığıma, gözlərimin korluğuna təəssüflənirəm. Parıltıya aldanmışam.

*Emin yumşaq, bir qədər də yalvarıcı tərzdə deyir.*

— Sən məni anlamırsan, Gülayə. Gedək həkimə, xərcini mən çəkərəm, səni bətnindəkindən xilas eləyək. Sonra qanuni yolla nigaha gedək *(qımışaraq)*. Nə qədər ürəyin istəyir... Gələcəyimiz qabaqdadı.

— Gedək həkimə, xərcini mən çəkərəm — dedin?

— Hə... Sözümün üstündə də dururam. Ondan narahat olma...

— Əclaf!.. Mən sənə yapışmamışam... Qürurum imkan vermir ki, burdakı camaatı sənə də, özümə də güldürüm. Olmayan ləyaqətimizə tüpürtdürüm.

— *(Hirslə)*: Qudurma. O səhvi tək mən yox, birlikdə eləmişik, Gülayə. Gedib orda-burda ağzına gələni danışsan?.. Unutma ki, mən Eminəm.

— Sən boş tabaqsan... Nakişisən. Namuslu kişi qadını dağlar ağırlığında dərd-bəlaya salıb qaçmaz, Emin.

— Sən ağzına gələni danışsan, mən də deyəcəm hamısı şərdi, böhtandı. Sonra da... Nə qədər ki, körpədən qurtarmamısan, mən sənə də sahib durmayacam, Gülayə.

— Ağzı başına danışma. Sən canlı meyidsən. Əbləhsən. Təəssüf ki, mən bunu indi anlayıram. Kişi olmayanın öz sözü də olmaz.

— Sən deyənlər min illərdən bəri deyilmiş bayatılardı. Sonrası da uşağın kimdən olmasını sübut eləməlisən. Əks halda...

*Gülayə başını yelləyir.*

— Yoxsa əlinə al bayraq alıb düşəcəksən küçələrə ki, ay camaat, Gülayə, dəli olub. Uşaq səndən deyil, başqasındandı? Bu qadın özünü mənə zorla calamaq istəyir? Ay burnunun qabağını görməyən ...

— Onları özün deyirsən. Mənə ehtiyac qalmadı. Bir də ki səsini çox qaldırma. Niyə məni məcbur eləyirsən ki, səndən soruşum: Axı sən kimsən ki, doğduğun da kim ola? Yadında saxla, istənilən adamı aradan götürmək çox asandı. Onda qalmış da ki səni.

— *(Acı-acı gülümsünərək)* Necə?

— Xırdalamaq istəmirəm.

*Pauza*

— Yox, xırdala. Dediklərinə inanmaq istəyirəm. Deməli, mənə hədə gəlirsən? Mənim bədbəxtliyim ondadı ki, sən bədbəxtlə qarşılaşmışam. Elə olmasaydı, bu gün burda səninlə çənə döyməzdim... "Aradan götürmək" nə deməkdi, təkrar eləyirəm, fikrini xırdala.





*Emin bir an fikirləşib, uydurur. Gülayəni qorxuzmağa çalışır.*

— Baş üstə, deyim? Qatil aradan götürmək istədiyi şəxsi ya boğazından asır, ya da onun vena damarını kəsir. — Özüm intihar elədim, — deyə cibinə də yazılmış bir kağız qoyur. Cibini geniş açıb hadisə yerinə gələn hüquq mühafizəçilərinin də elə ordaca səsini kəsir. Bununla da iş bitir. Nəsə yenə xırdalamağa ehtiyac var?

*Gülayə qəh-qəhə çəkir.*

— Cinayətkar sistemə çox mükəmməl yiyələnirsən, Emin. Əsl qatil, cinayətkar olacağına şübhə eləmirəm. Sən deyənlər çox adi yoldu. Özün də fəxrlə deyirsən ki, hüquqşünas olacaqsan. Gülməlidi, elə deyilmi? Adamı daha başqa necə aradan götürmək olar?

*Emin gülümsəyərək zarafata salır.*

— Yollar çoxdu. Lap sadəsi maşınla vurdurursan, sonra da beş min verib qanını batırırsan.

— Sənin dəyərin nə qədər olar, Emin?

— Mənim dəyərimi verəcək adam anasından olmayıb.

— Olar, Emin, olar. Ancaq bu gün sən mənə tamam başqa qiyafədə görsənirsən.

— Necə?

— Bayaq da ucundan-quağından dedim. Təkrar eləyirəm, sən potensial cinayətkarsan. Canisən. Sənin başqa adın yoxdu.

*Pauza*

— Sən mənə istədiyin adı qoya bilərsən. Ancaq adamlar...
— Gələcəyin prokuroru, hakimi? Ha... Ha... Ha... Emin, indi qorxuram...

*Səsinə ara verir, handan-hana sözünü davam etdirir.*

— Çox qorxuram, Emin.
— Nədən, Gülayə?
— Təəssüf ki, bətnimdəki məxluqda sənin qanın var... Rədd ol, daha sənin kimi övlad qatili olacaq vəhşini görmək istəmirəm.
— Sağ ol səni, Gülayə? Səndə bu dillər hardandı? Sən ki, belə döördün *(Səsinə ara verir)*. Əslində mən də qorxuram.
— Sən nədən Emin?
— *(Çılğınlıqla)* Bətnindəkinin özünə oxşayacağından.
— *(Əsəbiləşir)* Necə yəni, özünə oxşayacağından, Emin?
— Axı məni niyə məcbur eləyirsən, hər şeyi deyim?
— Çəkinmə, Emin, de. Onsuz da mənim qulaqlarım sənin kimi nadandan çox şey eşidib. Nə bilirsən, saxlama, de.
— Sən kimsəsizlər evindən çıxmısan. Sənin də, elə səndən olanın da...
— Bəlkə düşünürsən, sənin qanın, əsli zatın təmizdi?
— Hər halda.

*Gülayənin nəfəsi daralsa da, o, əsəblərini cilovlamağa çalışır.*

— Emin, qıçlarım qırılaydı səninlə qarşılaşan yerdə. Namərd kişilərdən, deyingən, ağzından çıxardığı sözün mənasına varma-





yan arvadlar yaxşıdı. Bax, sən onlardansan. Əmin ola bilərsən. Dünyaya gətirəcəyim körpəmi özüm böyüdəcəm. Onun sənə ehtiyacı olmayacaq. Sən gözlərimdə meyidsən.

*Emin sarsılır. Gülayə ondan üz çevirib gedir. Gülayənin uzaqlaşdığını görən Emin onun ardınca gülümsünür, başını yelləyir, o da əks istiqamətə gedir.*

**Eminin daxili səsi:** Mən sümüyümü kimliyi doğru-durust bilinməyən bir qadına, ondan törəyən kiməsə calamaq istəmirəm.

*Emin gedir.*

**Gülayənin daxili səsi:** Səninlə qarşılaşanda ağlıma da gəlməzdi ki, nə vaxtsa, məni qaragünlü eləyərsən, alçaq Emin. Məni murdar əski parçasına döndərib ayaqların altına atdın. Sənli günlərimi nə vaxtsa xatırlayanda, od tutub yanacam. Onda nifrət eləyəcəm özümə də, aldandığım o anlara da, ilk tanışlığımızdan verdiyin saxta, yağlı vədlərə də... Heyf... Çox heyf.

*Kadr dəyişir. Şadlıq sarayı. Musiqiçilər çalır. Gənclər rəqs edir. Seymur rəqs eləyə-eləyə Münəvvərə yaxınlaşır, gülümsəyir. Münəvvər Sərdara acıq vermək üçün qəsdən Seymura çiyin vurur. Göz süzdürür, qaş oynadır. Bunu Sərdar görür. O, gözlənilmədən qarmaqarışıqlıq yaradır. Vurhavur başlanır. Kimisinin üst-başı cırılır. Kimisinin ağız-burnu qanayır. Bu anda ekran qaralır. Seymur qışqırır. Handan-hana ekran ağarır. Hamı korpeşman kənara çəkilir. Bıçaqla vurulan Seymur döşəmədə çabalayır.*

**Seymur:** Öldüm, ana. Ay alçaq, neyləmişdim sənə, məni vurdun?

**Sərdar:** Münəvvərə sataşanda, alçaq, işini bilməliydin.

*Adamlar Seymuru dövrəyə alırlar. Həkimlər və polislər gəlirlər. Seymuru şadlıq evindən çıxarırlar.*

**Qadın:** Vay! Vay! Günahsız oğlanı bıçaqladılar. Seymuru Sərdar bıçaqladı *(o üzünü Sərdara tutaraq)*. Ədə, ay əclaf, toyu vaya niyə çevirdin? Sənin anan-bacın yoxdu?

*Sərdar qanlı bıçağı yanındakı Yunisə ötürür. Bu zaman onu bir neçə adam görür. Polislər qayıdırlar.*

**Ucaboy polis:** Cinayəti kim törətdi?

**Sərdar** *(Emili göstərərək)***:** Seymuru bu cavan oğlan bıçaqladı.

*Sərdarın sözünü Münəvvər və Yunis təsdiqləyir.*

**Emil:** Yalan deyirlər. Mən Sərdarı vurmamışam. Onu heç tanımıram da...

*Pauza*

**Gödək polis** *(Emilə)***:** Yalan danışma. Üz-gözündən cinayətkarlıq yağır. Cinayəti törədib indi də boynundan atma. Onsuz da içəri girən kimi hər şeyi açıb tökəcəksən. Ancaq boynuna alsan, günahın yüngülləşər.

*Emil çaşır. Sərdara hücum çəkir. Onu Yunis və başqaları geri itələyirlər. Emil büdrəyir.*

**Emil:** Xeyr... Seymuru mən vurmamışam. Mənim bıçağım olmayıb. Seymuru Sərdarın vurduğundan siz də xəbərdarsız, məclisdəki adamlar da. Niyə həqiqəti demirsiz?





*Səs-küy qopur. Emili müdafiə eləyənləri Sərdarın dostları hədələyirlər. Polislər Emilin qolundan tutub onu çəkə-çəkə şadlıq evindən çıxarmaq istəyirlər. Emil müqavimət göstərir. Ratsiya şöbə ilə danışır...*

**Ucaboy polis** *(Emilə)***:** Alə, a bala, Seymuru al-qana niyə buladın? Türmədə cəzanı alarsan, ağlın başına gələr.

*Emil əsəbiləşir. Yenidən polislə dartışır.*

**Emil:** Yox... Düz danışmırsız. Polis olanda nə olar? Yoxlayıb dəqiqləşdirmədən adamı cinayətkar adlandırmazlar. Cinayəti mən yox, Sərdar törətdi. O, mənə böhtan atır. Utanmaz-utanmaz dostları da, hətta nişanlısı da onu müdafiə edirlər.

**Yunis:** Alə, kasıbın dilinə bax, ey.

*Münəvvər Emilə yaxınlaşır.*

**Münəvvər:** Sən yaxşı oğlansan, Emil... Şərəşurluq eləmə, dayım prokurordu, sən cinayəti boynuna al, biz sənə kömək eləyərik. Nə qədər lazımdı, anana da əl tutarıq.

*Emil nifrətlə Münəvvərə baxır.*

**Emil:** Əvvəla, heç vaxt mən törətmədiyim cinayəti boynuma almaram. İkincisi də, biz sizin kimi əxlaqsız deyilik. Anam əl tutmalara tüpürməyi çox yaxşı bacarır. Dayın da, deməli, sənin tayındı. Bir cibdən çıxmısız.

**Münəvvər:** Onda türmədə çürüyərsən.

*Adamlar kor-peşman olurlar. Hamının üz-gözündən narazılıq oxunur.*

*Kadr dəyişir. Polis şöbəsi. Gülayəylə Emil, Emilin sinif yoldaşı Simarə müstəntiqin otağında üzbəüz danışırlar.*

**Gülayə:** Bu nə oyundu, sən düşmüsən, oğlum?

*Emil qaradinməz halda başını aşağı salır. Anasına cavab vermək istəmir. Anasının kövrəldiyini görcək astadan bildirir.*

**Emil:** Seymuru mən yox, Sərdar vurdu, ana. Onların arasında Münəvvərə görə əvvəlcədən narazılıq olubmuş. İçib piyan olan Sərdar ondan qisasını aldı, toyu yasa çevirdi.

*Gülayəni heyrət bürüyür.*

— Seymuru Sərdar vurduğunu gözlərinlə gördünmü?

*Pauza*

— Hə... Sərdarı aradan çıxarmaq üçün nişanlısı Münəvvər və onun dostları məni şərlədilər. Yunis Sərdarın bıçağını alıb gizlətdi. Polislər də cinayətkarın Sərdar olduğunu bilirlər.

— Aydındı.

*Cavan qız Sitarə Gülayəyə yaxınlaşır.*

**Simarə:** Gülayə xala, mən sizi yaxşı tanıyıram. Emillə bir sinifdə oxumuşuq. O, bu işdə günahsızdı. İstəyirəm biləsiz, əclaflar Emili qəsdən bu cinayətə qatırlar.

**Gülayə:** Axı Sərdar kimdi?

— Münəvvərin nişanlısı... Narkaman... Alkaş...

— Bəs Münəvvər kimdi?

— O da Sərdarın nişanlısı. Prokurorun bacısı qızı.

*Kadr dəyişir. Prokurorluq. Gülayə dəhliz boyu qapılara baxa-baxa irəliləyir. Üstünə "Prokuror" sözü yazılan kabinetin qapısını açır. İçəridə köməkçi iş-güclə məşğuldur.*





**Köməkçi:** Xanım, sizə kim lazımdı?

**Gülayə:** Prokuror.

— Özünüzü təqdim eləyin.

— Gülayə Seyidzadə, həkim.

— Gözləyin, indi gələr.

*Elə bu vaxt prokuror Emin Eminli gözləmə otağına daxil olur. Gülayəylə qarşılaşırlar. Prokuror Gülayəni tanımazlığa vurur, salamsız-kalamsız kabinetinə keçərkən üzünü köməkçiyə tutur.*

**Emin:** Qəbuluma gələnlər, məni gözləməsinlər. Bu gün ciddi məşğulam.

**Köməkçi:** Oldu, cənab.

*Gülayə prokuroru ayaqdan-başa süzür.*

**Gülayə** *(kinayəylə)***:** Məni tanımadız, prokuror?

*Prokuror Gülayəyə tərəf dönür.*

**Emin** *(etinasız halda, ağızucu)***:** Hə... Tanıdım.

**Gülayə:** Yoxsa, məni də qəbul eləməyəcəksiz?

**Emin:** Bu gün işim çoxdu, xanım. Yuxarıdan ciddi və təcili tapşırıq almışam, onu yerinə yetirməliyəm.

— *(Əsəbi halda)*: Mənsə elə indi sizinlə çox ciddi söhbətə oturmalıyam.

*Emin onun gözlərinin içinə baxır. Qadının gözlərində qəzəb duyur.*

— Hökm eləyirsən, xanım?
— Sən necə dəyərləndirirsən, elə də qəbul elə?

*Emin yumşalır.*

## III bölüm

— Sabaha saxlayammarıq?
— Xeyr!.. Sabah gecdi.

*Emin Gülayənin artıq söz-söhbət eləyə biləcəyindən ehtiyatlanır. Özünü köməkçisinin yanında sındırmaq istəmir. Başıyla Gülayəyə razılığını bildirir.*

— Bu saat, ancaq sözünüzü tez eləyin deyin, xanım.

*Emin kabinetə daxil olur. Güzgü qarşısına keçir. Üz-gözünə sığal çəkir. Ani fikrə gedir. Köməkçi stolun üstündəki qovluğu götürərək prokurorun otağına daxil olur və çox çəkmir ki, geri qayıdır.*

**Köməkçi** *(Gülayəyə)***:** Keçin, xanım, vaxtı çox almayın.

*Gülayə kabinetə keçir. Prokuror masa arxasında şəstlə əyləşib. Gülayə kabineti saymazyana müşahidə eləyir.*

**Emin** *(Amiranə tərzdə)***:** Əyləşin. Eşidirəm səni, Gülayə xanım.





*İşıqlı və geniş kabinet. Divardan asılmış prezidentin şəkli. Stolun üstündə Azərbaycan bayrağı. Konstitusiya və cinayət məcəlləsi kitabları.*

**Gülayə** *(Rişxəndlə)***:** Əla kabinetiniz var. Görürəm adımı da unutmamısız, Emin Eminli *(Gülümsünərək)*. Cavanlığınızda prokuror olduz, qaldı qocalığınızda hakimliyiniz. Boy-buxununuz, səliqə-sahmanınız göstərir ki, sizdən həqiqətən də müdrik hakim olar.

*Pauza*

— *(Kinayəylə)*: Çətini prokuror oluncaydı.
— Əminliklə deyirəm, Emin, hakim də olacaqsız... Mebelləriniz də parıltılıdı, göz oxşayır, maşallah. Güman ki, ağlınız da yetişmiş olar.
— Dedim axı, vaxt azdı, yubanmayın, keçin mətləbə.
— Prokuror Emin Eminlinin oğlu Emil Eminoğlu qondarma şahid ifadə və izahatlarıyla barmaqcıqlar arasına atılıb. Gərək ki, onun həbs orderini də sən vermisən.
— Bu nə söhbətdi? Məni dolamısız? Ya şantaj eləyirsiz?
— Təəssüf ki, dediklərim həqiqətdi, prokuror, özün de, sən hansına layiqsən? Özü də sənin bacın Qəmərin qızı Münəvvərin ləyaqətsizliyi ucbatından.
— *(Əsəbiləşərək)*: Yalandı. Mənim nə Qəmər adda bacım var, nə də Münəvvər adında bacım qızı. Sən harda, kiminlə nə daşındığını bilirsənmi?
— Mən səni qınamıram, Emin. Yalana vərdişkarsan. Sən vəzifənə görə ən əziz adamlarından da imtina eləməyə öyrəncəlisən axı.
— Sən məni tanımırsan. Adamlara qarayaxmağından qurtar.

*Gülayə uğunur. Birdən gülüşünü saxlayır. Eminin gözlərinin içinə baxır. Emin gözlərini yana çevirir.*

— Sənin kimliyini mən çox yaxşı tanıyıram. Səndə insanlıqdan əsər-əlamət yoxdu, pro-ku-ror. Səsini başına atıb, özünü biabır eləmə. Şəxsən mən səndən nə cəsarət, nə də hünər gözləyirəm. İnsanlıq da ummuram. Səndən çəkinəcək yerim də yoxdu. Yadındamı, bir zaman doğmaca oğlundan imtina eləyib, məni də arsız, namussuz küçə qadınına çevirdiyin? Bir dəfə sənin ləyaqətinə, qüruruna tüpürüb güzəştə getmişəm. İndi isə sənin güzəşt limitin qurtarıb.

*Pauza*

— Bəlkə sən məni kiminləsə dəyişik salırsan, xanım?

— Namərd həmişə hər yerdə namərdi. Onun başına nə qədər dolansan da, əcaib xilqətindən əl çəkməz.

— Başa düşmürəm, məni niyə əsəbiləşdirirsən?

— Cavanlıqda sənə tüpürdüm, arxanca düşmədim. Qüsuru özümdə axtardım. Görürəm, nəinki düzəlmisən, əksinə, namərdliyini bir az da artırmısan. Mənim kimi neçə qadını bədnam eləmisən? Neçə övladını başsız qoymusan? Axı səndə şəhvət hissi güclüdü. İntim duyğularının qulusan.

— Mənə bunları deməyə gəlmisən? Daldan atılan daş topuğa dəyər.

— Səsin qalxmasın. Səndən heç bir asılacağım yoxdu. Mən dövlət idarəsinin qapısını döyüb, haqqımı tələb eləməyə gəlmişəm.

— Səni heç cürə başa düşmürəm.

— Başa düşərsən... Düşməzsən, səni özüm başa salaram.

— Mənə təzyiq göstərəmmərsən. Səni tanıdığım ala-toran yadıma gəlir. Şəhərdə o qədər adam tanıyıram ki? Mən maaşa dolanıram. Pulum-param da yoxdu *(Sözünə ara verir, sonra söhbətin səmtini dəyişir)*. Yoxsa, köhnə palan içi sökməyə gəlmisən? Əvvəlcədən deyim, niyyətin keçməz, iftiraların üçün səni həbs elətdirərəm.

— İslanmışın yağışdan nə qorxusu? Əmin ola bilərsən, qeyrətsizliyinə bələdəm *(Acı-acı gülümsünərək)*. Ancaq içinin üfunəti daha da kəskinləşib. Alçaq, mən dilənçi deyiləm. Pula-paraya da gəlməmişəm.





*Emin dodaqlarını gəmirir. Nəfəsi daralır. Əlləriylə başını tutur.*

— Gülayə, dedim axı, əvvəla, məni təhqir eləmə. İkincisi də, mənim nə Qəmər kimi bacım, nə də Münəvvər təki bacım qızı var.

— Bəsdi, Emin. Həyasızlığın da həddi var. Hələ ilk tanışlığımızdan Qəmərin sənin bacın olduğunu özün mənə demişdin. Münəvvəri də yaxşı tanıyıram. Onun piyaniska, narkoman nişanlısı Sərdar Seymuru qətlə yetirdiyi halda, onu hansı əsasla Emilə bağlayırsız? Gör, bacın qızı Münəvvər Emilə nə deyir: “Dayım prokurordu, o sənə kömək eləyər. Anana da əl tutarıq”. Gözümüz aydın. İndi səndən soruşuram, Emin, bu nə qudurğanlıqdı? Bu qədər həddi aşmaq olar?

— Əşi, mən hər yoldan ötənin ağzına qıfıl vurammaram ki.

— Sən həmişə yalan danışırsan, hay-küyçüsən, Emin.

— Heç nə başa düşmürəm: Emil, Qəmər, Münəvvər, Sərdar, Seymur. İndi də bilmirəm, sən özün hansı daşın altından çıxmısan?

*Pauza*

— Əlindəki səlahiyyətdən istifadə eləyib çərənləmə. Elə danışmaq sənə çox baha başa gələr. Emin, sən də, mən də yaxşı bilirik ki, Emilin o cinayətlə heç bir əlaqəsi yoxdu. İmtina eləsən də, eləməsən də, Emil sənin oğlundu. Ay bədbəxt, sən doğma oğlunun üzünü bircə dəfə də olsun görməmisən. O, eynən sənsən. Nə qədər əclaf olmaq lazımdı ki, heç vaxt yıxılanda qolundan tutub qaldırmadığın, yemək-içməkdən korluq çəkəndə bir loxma yedizdirmədiyin oğlunun taleyinə bu qədər biganə qa-

lasan! Kimlərəsə qohumluq ucbatından "uf" demədən, doğmaca oğlunu barmaqcıqlar arasına atdırasan! Agah ol, mən bu işdə ayaq geri qoymayacam.

*Gülayənin boğazı qıcıqlanır. Onu öskürək tutur. Handan-hana sakitləşir. Sonra sözünə davam eləyir.*

Onu da bilirəm, sən dovşandan da betər qorxaqsan. Vəzifəndə qalmaq üçün ar-namusunu satmağa hazırsan. Hələ səni hakimlik kürsüsü gözləyir. Ha... Ha... Ha... Bəlkə, bu dediklərim yalandı?

— Xanım, mənə qara yaxma. Açıq de görüm, məndən istəyin nədi?

— Bu iyirmi üç ildə sənə bir dəfə yaxınlaşmışam? Səndən təmənna ummuşam?

— *(Fikrə gedir)*: Yox...

— İndi də sənə demirəm, mənim oğlumu damdan aç burax. Xeyr, cinayəti o törətsəydi, deməzdim də. Mənim səndən tələbim odur ki, törədilmiş cinayət işini qanun çərçivəsində həll elə. Səs-küy salıb, qara-qorxu yaradıb, aləmi başına yığma. Səndən qorxmuram. Əks halda...

— Əks halda nə? Prokurora hədə-qorxu?

*Gülayə Emini ələ salır.*

— Yox... Rəngin saralır, Emin.

— Bu nə sözdü, Gülayə?

— Emilin prokuror Emin Eminlinin oğlu olduğunu aləmə car çəkib sənə sübut eləyəcəm. Onda görərsən ki, mən yalan deyirəm, yoxsa həqiqət? Onda sənin yalançı karyeran, saxta nüfuzun çöp üzərində qurulan oyuncaq körpü kimi tarı-mar olar. Aç qulağını eşit, evində qoçuluq eləyən əziz-xələf arvadının da qapaz





altısına çevriləcəksən. Yağ içində börək kimi saxladığın uşaqlarının da üzlərinə xəcalətindən baxammayacaqsan.

*Pauza*

— Gəl, xoşluqla məndən əl götür. Hədələrini də yığışdır. Bir də ki sübutu biz eləyirik, adi vətəndaş yox.

— Necə? Səni görən gözlərindən eləyərəm, Emin.

— Görürəm, sənə humanistcəsinə yanaşdıqca ayağın çox yer alır. Azğınlaşırsan. Mən prokuroram. Mənim sənə cinayət işi açmaq hüququm var, xanım.

— Yox... Düz demirsən. Sən özün cinayətkarsan. Cinayətkarınsa məsuliyyəti olmur.

— O sənin fəlsəfəndi.

— Xeyr. Doğmaca oğlunu çölə atan atada, qohumunu törətdiyi cinayətdən yayındıran, əsl cinayətkarın əvəzinə, başqasını barmaqcıqlar arasına atan prokurorda, təkrar eləyirəm, məsuliyyət olmur. Olsa-olsa, ən yaxşı halda, onda insaf tapılar. Onun da həddi var.

*Emin ağzını büzür, başını yelləyir.*

— Heç nə anlamıram.

— Burda anlaşılmaz nə var ki? Çox sadə məntiqdi.Onu da başa düşmürsənsə, mən sənə nağıl danışmalıyam?

— Bayaqdan çənənə güc vermisən. Fikrini açıq de.

— İnsafsız cinayətkar evə basqın eləyir, hər nə var çırpışdırır. Rədd olub gedərkən qarət elədiyi evi də od vurub yandırır. İnsaflı cinayətkar, düşməninin bir gözünü çıxarır, ya bir qolunu, bir qıçını kəsir, insafsızsa, hər ikisini. İndi aydın oldumu sizə, cənab pro-ku-ror. Səndə insaf yoxdu, Emin. İnsafsızdan adam da olmaz. Bəlkə yalan deyirəm?

*Telefon zəng çalır. Emin dəstəyi götürür. Amiranə kişi səsi eşidilir. Emin səsi tanıyır. Ayağa qalxır.*

**Emin:** Ooyy... Qardaş, salam. Yuxarılarda vəziyyət necədi?

**Kişi:** Hər şey yaxşıdı. Bu nədi? Səndən böyük bir anonim material gəlib. Səni, bacını, bacın qızını, təzə qohumun Sərdarı da bir-birinizə qatıb o ki lazımdı ovuşdurublar.

— Ovuşdursunlar da. O qədər anasının əmcəyini kəsənlər var ki? Nə olsa yazırlar. Gələrəm, danışarıq.

— Ayə Zeynəb qarı necə deyir: Ha... Ha... Ha... Od yanmasa, tüstü çıxmaz.

— He... he... he... Cənab, o qədər ağla gəlməyən şeylər baş verir, gəl görəsən. Mənə də bir anonim ərizə göndəriblər. Kişinin necə başı xarab olubsa, öz arvadından ağzına gələni yazıb. Çağırıb arvaddan soruşuram, bu nədi? Nə cavab versə yaxşıdı: "Bu da ərimin qeyrətinin bolluğundandı". Tökdüklərini "yığ papağına".

— Bəs kişidən soruşmadın ki, bu nə hərəkətdi, a qırışmal?

— Soruşdum. O da bildirdi ki, arvad mən deyəndən demir. O, başında özgə hava gəzdirir. Ha... Ha... Ha...

— Materialı sənə göndərirəm. Ona özün tutarlı cavab ver. Mən də işi bağlaya bilim. Sonra görüşərik.

— Oldu, cənab.

*Emin dəstəyi yerinə qoyur. Qamətini düzəldir. Üz-gözünü turşudur.*

**Gülayə:** Bu da yuxarı.

— Anonim material!

— Yolunu azana, it-qurd hürüşər, Emin.

— Doğrudan, sənin anonim materialdan xəbərin yoxdu?

— Materialı mən versəydim, bura ayaq basmazdım, Emin. Telefonda arvadından yazan ər barəsində danışdın. Məni qınama, gəlib deyəcəm: O ərlə səndə bir oxşarlıq görürəm. Zeynəb qarı deyərdi: "Kişilər bir bezin qıraqları olurlar".





— Əşi, ondan az iqtibas gətir. Yekə arvad sözünə sərhəd qoymur. Ağzı yırtıqdı, nə olsa atır... Gic oldum...

— Görürəm.

— Xanım, ovqatım təlx oldu, gəl, söhbəti saxlayaq başqa vaxta.

*Emin qalxır, pəncərəni açır. Kabinetə təmiz hava dolur.*

— Yox.. Gəlmişəmsə, ürəyimdəkilərin hamısını deməliyəm. Məni axıra qədər dinlə, Emin.

— Tez elə, xanım.

*Pauza*

— Yaddaşını yaxşı-yaxşı qurdala. Düz iyirmi üç ilin söhbətidi. Dənizin sahilindəki son görüşümüzü xatırla. Söhbətimiz o zaman xeyli gərgin keçdi, sonra da birdəfəlik ayrıldıq. Onda sənə dedim: "Uşağımız var". Sənsə qorxaq sərçəyə döndün. Suda islanmış siçanı xatırlatdın mənə. Onda sənə həm yazığım gəldi, həm də nifrət elədim. İnsan gəncliyində cəsarətli olar. O zaman cəsarətin olmayıbsa, indi səndən nə cəsarət umum. Sən uşaqdan da, məndən də imtina elədin. Mən neylədim? Tanış-biliş qınağından qaçıb ev şəraitində uşaq dünyaya gətirdim. Onun atası sən olduğunu yaş kağızına yazdırdım. Ağlı söz kəsəndə: — Atam hanı? — deyə o, soruşdu. Ondan həqiqəti gizlətdim. Dedim ki, oğlum, atan Ağdərədə ermənilərlə vuruşda həlak olub.

*Pauza*

Atan boylu-buxunlu, oxumuş, xalqını, vətənini sevən adamıydı... İndi ona necə deyim ki, bağışla məni, oğlum, sənə atan barədə danışdıqlarımın hamısı uydurmaydı. Sənin atan səndən imtina eləyən, karyerist, prokuror Emin Eminlidi. O, dələduz, o, dəyyusdu! Belə getsə, həqiqət naminə mən sənin oğluna da, tanış-bilişlərinə də həqiqəti açacam. Məhkəmə yoluyla olanları ictimailəşdirəcəm. Eybi yoxdu, onda da hər şeyi boynundan

atarsan. İş o səviyyəyə qalxsa, unutma ki, dişi canavar daha amansız olur. Mən gedirəm, Emili də rütubətli dar kamerada saxlama. *(Qeyzlənir)* Emin, hələ düşünməyə vaxtın var.

*Eminin sir-sifəti bozarır. Gülayəyə heç nə deyə bilmir. O, başını aşağı salıb susur. Qadın stuldan qalxaraq iti addımlarla kabinetdən çıxır.*

**Eminin daxili səsi:** Eh... Gülayə... Gülayə.. Elə bilmə ki, o zaman səndən ayrılmaq mənim üçün də asan oldu. Etiraf eləyim, bayaq səni görəndə artistlik elədim. Çox təəssüf ki, o zamankı büdrəmələrimin məsuliyyətini yavaş-yavaş dərk eləyirəm. Təəssüflənirəm. Sən onda da, indiki kimi qururluydun, cəsarətliydin... Sözünü düz adamın gözlərinin içinə deyəniydin. Axı məni də başa düş. Mənim nüfuzum var, ailəm var, uşaqlarım var...

*Emin əlləriylə başını tutur. Qulaqlarında Gülayənin səsi bir neçə dəfə gurlayır.*

**Gülayənin daxili səsi:** O, sənin oğlundu! O, sənin oğlundu! O, sənin oğlundu!.. Emilin sənin oğlun olduğunu sənə sübut eləyəcəm. Hadisəni ictimailəşdirəcəm...

*Emin yumruğunu stola çırparaq ayağa qalxır. Kabinetdə var-gəl eləyir. Pəncərənin önündə dayanır. Ekran qaralır, sonra tədricən ağarır. Gülayəylə parkdakı ilk görüşləri gözləri önündə canlanır. Gülayəylə Emin qarşılaşırlar. Oğlan qıza çiçək dəstəsi təqdim eləyir. Sonra da yanaşı addımlayırlar.*

**Emin:** Gülayə, neçə vaxtdı mən səni qarabaqara izləyirəm. Özümdən asılı olmadan səni görəndə ürəyim titrəyir.





— Hiss eləyirdim, Emin. Gəl, o barədə danışmayaq. O halları mən də çox keçirmişəm.
— Mən xoşbəxtəm.
— Mən də.

*Ekran qaralır, sonra yavaş-yavaş ağarır. Gəmiylə dəniz gəzintisi. Gülayə Eminin qolundan bərk-bərk tutaraq özünə tərəf çəkir. Emin onun saçlarını sığallayır, üzündən öpür.*

— Qorxursan?
— Səninlə birlikdə olanda yox.
— Eh... Xoşbəxt gələcək vəd eləyən anlar!.. Sən nə qədər cazibədarsan?!

*Gülayə özünü xoşbəxt hiss eləyir. Emini qucaqlayır. Ekran qaralır, sonra ağarır. Son görüşün epizodları. Dənizin sahili. Gülayəylə Eminin söhbəti.*

— Emin nə vaxta qədər...
— Tələsmə...
— Uşağımız olacaq...
— Rədd elə! Rədd elə!..
— Övladından imtina eləyən, alçaq!

*Mübahisə. Gülayənin sərt hərəkətləri. O, əsəbiləşərək gedir. Gülayənin son cümləsi bir neçə dəfə Eminin qulaqlarında gurlayır "Rədd ol!.. Rədd ol!..". O, əsəbi halda stulda oturur. Yenidən qalxır. Soyuducunu açır. Bir şüşə su götürür, stəkana töküb içir. Yenidən stulda əyləşir. Gülayənin bayaq işlətdiyi bəzi ifadələri yaddaşında daşlaşdırır.*

**Eminin daxili səsi:** Gülayə necə dedi? "Atan səndən imtina

eləyən karyerist Emin Eminlidir?”, “Mən oğluna da... həqiqəti açacam”, “Dişi canavar daha amansız olur”. Bəli! Acı da olsa, dediklərin həqiqətdi, Gülayə! İttiham və mühakimələrin əsaslıdı. Günahkaram... Məni söyməyə də, döyməyə də, lap öldürməyə də haqqın var.

*Emin yumruğuyla alnını döyəcləyir. Düyməni basır. Müstəntiq kabinetə daxil olur. Emin əliylə stul göstərərək ona “otur” işarəsini verir. Müstəntiq əyləşir. Eminin halı özündə deyil, o, müstəntiqə mənalı-mənalı baxır. Əsəbi halda başını qaldırıb endirir.*

**Müstəntiq:** Əsəbi görünürsüz, cənab prokuror?
**Emin** *(Handan-hana)*: Emil Eminoğlunun cinayət işi nə yerdədi?

## IV bölüm

— Bu həftə yekunlaşacaq.

*Emin yalan danışmalı olur.*

— Onu yuxarıdan tələsdirirlər. Görünür adamı var.
— Adamı anasıdı. Çox dilli, hökmlü qadındı.
— Həqiqəti, ancaq həqiqəti üzə çıxarın.
— Axı...
— Axısı-maxısı yoxdu. Mənə həqiqət gərəkdi.
— Həqiqəti üzə çıxartmalı olsaq, onda gərək Emil Eminoğlunu azad eləyib, bacınız qızı Münəvvərin nişanlısı Sərdarı içəri ataq.
— Ayə, ay evin yıxılsın, az bacıqızı, bacıqızı sal. Cinayəti Sərdar törədibsə, əclafı atın içəri. Mənə həqiqət gərəkdi. Qandın?!





— *(Müstəntiq kikkildəyə-kikkildəyə)*: Cənab prokuror, camaat arasında artıq söhbət gəzir.
— Nə söz-söhbət?
— Onu mən deyəmmərəm.

*Emin müstəntiqi diqqətlə nəzərdən keçirir və təəccüblənir.*

— Qaynatma, tez elə görüm, nə söz-söhbətdi o?
— Mən demirəm ey, camaat deyir.
— Əsəbiləşdirmə məni, axı nə deyirlər?
— Anasının əmcəyini kəsənlər çıxarıblar ki, guya Emil sizin Gülayədən olan xəlvəti oğlunuzdu.
— Ayə, a siyasətsiz, bəlkə Gülayə məni özünə yaxıb?
— Əşi, elə yaxmaq olar?
— Niyə olmur. Dil ətdi də, fırlandı dedi.
— Nə deyim vallah.
— Onu çıxaranlar qələt eləyirlər. Bir də ki böyük nüfuz sahibləri barədə çox söz deyərlər. Hər sözün başına ip atsaq...
— Cənab prokuror, iş qarışır. Emili buraxsaq, gərək Sərdarı həbs eləyək. Onda da bacın Qəmər tumanını atacaq başına.

*Pauza*

— Cəhənnəmə atsın. Hələ ki, toyları olmayıb? Bu dama girər, bir başqasıyla möhüblərini düzərlər. Düz demirəm? Bu dünyada kürəkən, ya ər qəhətdiyidi? Mən nə deyirəm, get onu da elə. Mənim Sərdardan heç xoşum gəlmir. Dəyyusu elə bil ilan boğub. Özün də söz güləşdirmə. Yaxşı olar ki, Emil Eminoğluyla mən də görüşüm.
— Kabinetinizdə, yoxsa kamerada?

*Emin ani fikrə gedir.*

— Burda yox, kamerada.
— Oldu, cənab prokuror.
— Əsəblərim gərilib. Mənə imkan ver, bir az dincəlim.

*Müstəntiq nagüman halda kabinetdən çıxır. Emin düşünür. Ayağa qalxır. Ekran qaralır, sonra ağarır.*

*Kadr dəyişir. Eminlə polis nəfəri kameranın qarşısındadırlar. Polis qapını açır. Emin kameraya daxil olur. Üzünü tük basmış Emil ayağa qalxır.*

**Emin** *(polis nəfərinə)***:** Sən gedə bilərsən.
**Polis:** Oldu, cənab.

*Polis nəfəri gedir. Emin keçib çarpayının qırağında əyləşir. Emil başını aşağı dikir. Emin onu diqqətlə müşahidə eləyir. Nəfəsi daralır. Bədəni əsir. Handan-hana özünə gəlir.*

**Emin:** Emil, neçə yaşın var?
**Emil:** İyirmi üç.
— Özünü günahkar sayırsanmı?
— *(Küskün halda)***:** Xeyr.
— Necə xeyr? Günahsız adam barmaqcıqlar arasına düşə bilərmi?
— Əvvəllər mən də elə bilirdim, düşməz. Görürəm, indi həyat tamam başqadı. Adamı hara desəniz salırlar, prokuror.
— Burda həyatlıq nə iş var? Fikrini açıq de.
— Təqsirkarın cinayətini yumaq üçün arxasında sizin kimi adamı lazımmış...

*Prokuror diksinir. Sonra Emili dərindən müşahidə edir. Emil başını aşağı salır.*





— Emil, bu gün göstəriş vermişəm, sənin məsələni yenidən araşdıracaqlar.
— Heç kəsə əziyyət verməyin, cənab prokuror, onsuz da, həmin çüy, həmin dibək olacaq. Məni buraxıb bacınız qızı Münəvvərin nişanlısı Sərdarı həbs eləməyəcəksiz ki? Həbs üçün ən uğurlu namizəd mənəm.
— Bu nə sözdü, Emil?
— Mənim o sözü deməyə həm haqqım, həm də əsasım var.

*Emin başını aşağı salır. Fikirləşir. Sonra dərindən ah çəkir.*

— Elə ümidsiz danışma. Sən deyən kimi olsaydı, cinayət işini təkrar istintaqa qaytarmazdım, Emil.
— Ümidlər çox zaman puça çıxır, prokuror.
— Yaşından qabağa çox çıxmırsan ki?

*Pauza*

— İndi sözümü deməyəndə nə vaxt deməliyəm ki. Qoy məni günahsız yerə cəzalandıranlar...

*Emil başını qaldırıb Emini sezməyə başlayır. Onların baxışları toqquşur. Anlaşılmaz hisslər hər ikisinin bədənini titrədir. Gözlərdə müəmmalı mənalar duyulur.*

— Bu gün anan Gülayə xanım da qəbuluma gəlmişdi. Onunla sənin həbsin barədə xeyli söhbət elədik.
— Nahaq. Gərək gəlməyəydi. Ədalət başqalarının xahişiylə axtarılmaz, prokuror. O hisslər gərək hər kəsin içində pərvərniş tapsın. Axı ədalət bütün insanlar üçün meyar olmalıdı...
— *(Çaşqın halda)***:** Anan səni məndən xahiş eləmədi. Əksinə, istintaqın ədalətlə araşdırılmasını, həqiqi cinayətkarın üzə çıxarılmasını tələb elədi. Bu da mənim çox xoşuma gəldi.

*Pauza*

— Anam tələb eləməsəydi, mənim haqqım boğulmalıydı? Onda kimsəsizlər neyləsin? Ömürlərini haqsız yerə dörd divar arasında keçirməlidilər? Əgər eləsə, çox heyf!

— Həqiqət gec-tez öz yerini tapır. Ancaq bir az o yan-bu yanı var.

— Dediklərinizə gülməyim gəlir. Bu neçə gündə bəs mənim çəkdiyim əzab-əziyyətlər necə olsun?

— Kompensasiyamı istəyirsən?

— Yox... Qətiyyən...

— Barəndə ədalətsizlik olub. Bunu mən də etiraf eləyirəm.

— *(Gülümsünərək)*: Günəş hardan doğub?

*Emin başını qaldırır. Bütün diqqətini Emilin üzünə yönəldir. Ancaq oğlanın üzündə heç bir dəyişiklik duymur.*

**Emilin daxili səsi:** Yazıq, ana! Ömrün boyu həqiqət axtarmısan? Mənə də həqiqətdən danışmısan. Hanı o, həqiqət?! Axtarılan həqiqət çox çətin hallarda üzə çıxır. O, üzə çıxanda, yalanlar mənasını itirir.

— Az qalıb, tələsmə Emil. Ananın da intizarına son qoyular. Ananla birlikdə yaşayarsan. Gələcəyə ümidli ol.

— Cənab prokuror, cinayətkaramsa, hər cür cəza çəkməyə hazıram. Məni yandıran həqiqət axtarıcısı müstəntiqin cinayətkarın əllərini kəsməməsi yox, əksinə, onun görənin gözlərini çıxarmasıdı. Onu bacın qızı Münəvvər də, onun nişanlısı Sərdar da, hətta, o məclisdəkilər də təsdiq eləyərlər.

— Nəyə işarə vurduğunu bilirəm, Emil. Prokuror kimi deyirəm, sən haqlısan. Mənə deyiləcək başqa sözün varmı? Həyat da çoxüzlüdü. Bəzən ağlına gəlməyən elə şeylər baş verir ki, özün də çaş-baş qalırsan.

*Pauza*

— Cinayətin mahiyyəti müstəntiqə də, şahidlərə də, hadisənin bütün iştirakçılarına da aydındı. Sadəcə cinayətin araşdırıcısında qanunla vicdanın, ədalətlə mərhəmətin vəhdəti yoxdu.





— *(Qəti təkidlə)*: İndi olacaq! Olacaq Emil!

— O, siz təhqiqatçıların vəzifə və vicdan məsuliyyətindən doğur.

**Eminin daxili səsi:** Emil haqlıdı. Hökmlüdü. Qanunpərəstdi. Vüqarlıdı. Heç kimdən, heç nədən qorxmur. Eynən anasıdı.

*Emin ayağa qalxır. Emilə əl verir. Hansı qüvvənin təsiriylə-sə gizilti bütün bədənin bürüyür. Ekran qaralır, sonra ağarır.*

*İki polis Emili müstəntiqin kabinetinə aparır. Müstəntiq Emilə oturmaq və polislərə otaqdan çıxmaq işarəsini verir. Sorğu başlanır.*

**Müstəntiq:** Emil, cinayət törədilən gecə hadisənin necə baş verməsi barədə olduğu kimi izahat yaz.

**Emil** *(Küskün halda)*: Neçə dəfələrlə izahat vermişəm. Bəyəm, onlar bəs eləmir? Xahiş eləyirəm, istintaqı yekunlaşdırıb işi məhkəməyə mümkün qədər tez göndərəsiz.

*Pauza*

— A kişi, atılıb-düşmə. Qaradan tünd rəng var? Deyəsən, xeyrini anlamırsan? Keçən dəfə elə məsləhətiydi, indi belə.

— İzahat verməsəm, yenə baş-gözüm əziləcək, ağız-burnumun qanı bir yerə qatılacaq? İnsafınız olsun, müstəntiq.

*Müstəntiq diqqətlə Emilin üzünə baxır.*

— Cinayət işi prokurorun nəzarətindədi. Mənə elə gəlir ki...

— Bu, oyundu?

— Prokurordan soruşsaydın, o sənə düzünü deyərdi.

— Maraqlıdı. Təhqiqatın gedişi əvvəllər onun nəzarətində deyildi? Yoxsa, nəsə baş verib?

— *(Əsəbiləşir)*: Əvvəla, sualları sənə mən verirəm. İkincisi, cavablarına özün məsuliyyət daşıyırsan. Gərək Allah verən ağlı işlədəsən.

— Əcəb müstəntiq oyunu?

— *(Saymazyana)*: Yox, prokuror...

— Təkrar eləyirəm. Qərarınızı verin, işi məhkəməyə göndərin. Onsuz da danışdıqlarınız yalan, əməlləriniz hiylədi. İndi görək nə məkrniz var?

— Söz güləşdirmə, o bizim işimizdi. Nə tələb olunur, onu da elə.

— Hökmdü?

*Pauza*

— Ayə, nə qanmaz adamsan, bayaqdan dağı itələmişdilər üstünə. İndi Tanrının sənə yazığı gəlir, sən də şıllaq atırsan. O qədər alqış oxuyacaqsan bizə.

— Sizə yox, mənə qapı açana.

— Sənə qapı açan kimdi?

— Allahım.

*Emil qələm, kağız götürüb izahat yazır. Müstəntiq izahatı oxuyur. Sonra Emili polislərlə kameraya göndərir. Qapı açılır. Şahid cavan oğlan Əliqulu içəri girir.*

**Əliqulu:** Məni niyə çağırtdırmısız, cənab müstəntiq?

**Müstəntiq:** Hə... Gəl otur. İzahatı yenə dəyişmək lazımdı.

— Hi... Hi... Hi... İndi kimin xeyrinə?

— Çənəni boş saxlama. Şəri atarlar üstünə, qalarsan altında bağıra-bağıra. İzahatı yaz, özü də düzünəqulu.

— Müstəntiq, vallah, Sərdar yeyər bizi.

— Ayə, qurtar, Sərdarı söydürmə mənə.

— Müstəntiq, vallah-billah əcəb qarınağrısına düşmüşük. İlk izahatımda yazırdım ki, Seymuru Sərdar dəyyus qətlə yetirdi.





Seymur yaxşı oğlanıydı. Heyf ondan... Qoymadız. Əşi, indi nə yazım?

— Dedim, axı, Əliqulu, düzünəqulu. Qanmadın?

— Qandım, müstəntiq, necə yazım ki, mərhum Seymuru bıçaqla Sərdar qətlə yetirdi. Eyni hadisəylə bağlı bir-birinə iki zidd izahat?! Prokuror eşitsə, onda pazı kimə çalacaq? Sizə, yoxsa mənə?

— Prokurorun pazından qorxma. Deyəsən, Sərdargillə prokurorun qohumluq əlaqələri pozulur, elə olmasaydı...

— Dəqiqdi, müstəntiq?

— Yoxsa, ədalət axtaran kimiydi?

— Belə de... Yazıram ha, müstəntiq, zibili çıxsa, atamın goru haqqı, məhkəmədə üzünə duracam.

*Pauza*

— Çərənləmə, nə deyirəm, onu da yaz.

— Baş üstə, müstəntiq. Geniş yazım, qısa.

— Yaz ki, gözümlə gördüm, Seymuru Sərdar bıçaqladı.

*Əliqulu Sərdarın qətli törətməsi barəsində izahat yazır. Sonra qalxaraq gülümsünə-gülümsünə kabinetdən çıxır. Onu şahid Yunis əvəz eləyir.*

**Müstəntiq:** Sən də gəl otur, hadisə necə baş veribsə, elə də yaz.

**Yunis:** Bəs keçən dəfə yazdığım?

— O, lax çıxdı.

— Cənab müstəntiq, nəyə deyirsiz and içim. Bu axşam zıpbıltı yuxu görmüşəm. Yazsam, bu izahatın xatası çıxacaq. Olar, sabah gəlim, sizi necə təmin eləyir, elə də yazım?

*Müstəntiq Yunisə tərs-tərs baxır. Üz-gözünü turşudur. Sonra əlini stola vurur. Yunis diksinir.*

— Yekə kişisən, əə, ağciyər olma... Ürək-göbəyini yemə. Nə qismətində var, onu da görəcəksən. Kişinin başına iş gələr.

— Birdən iş yenə dəyişər. Sərdar məni Seymurun gününə salar.

— Dedim axı, iş kişi başına gələr. Kişi döörsən?

— Kişiyəm. Sərdar yenə bıçağa əl atsa, onda məndə kişilik qalmayacaq.

— Məni dolama, otur, nə deyirəm, onu da yaz.

— Onda Sərdar öldü ki.

— Onun sənə dəxli yoxdu. Belə məsləhətdi.

*Yunis izahatını dəyişir. Müstəntiq oxuyur. Yunis gedir.*

*Qəmər kabinetə daxil olur. Müstəntiq stuldan qalxaraq ona yer göstərir.*

**Qəmər:** Eşitdim, oyun düzəldirsiz?

**Müstəntiq:** Prokuror yuxarıdan təzə göstəriş alıb, xanım. Gərək biz də həqiqəti araşdıraq.

— Sərdarın işi?

— O iş çezdi.

—Cibinizi yenə doldurmusuz? Başınıza oyun açaram. Deyəsən, məni tanımırsız?

— Qardaşın eşidər, yaxşı düşməz, xanım. Sənə kürəkən, qızına ər lazımdı?

*Pauza*

— Eşitsin... Puldan ötrü kimliyi bilinməyənin ardınca düşmüsüz? Belə çıxır ki, Emilin anası xəstələri soyub-soyalayıb gətirib verib sizə? Ya başqa iş olub?

— Onu prokurorla....

— Qardaşım cücədi... Cücə...

*Qəmər otaqdan çıxır.*





*Restoranın baş aşpazı hırıldaya-hırıldaya kabinetə daxil olur.*

**Aşpaz:** Cənab müstəntiq, eşitdim, izahatı dəyişmək lazımdı? Düzünü yazsam, prokurorun çəngindən qurtara biləcəm? Olmazdı ki, bu işdə məndən vaz keçəydiz? Axı mən qanan, hörmət başa düşən adamam.

**Müstəntiq:** Bilirəm qanansan, sən indi izahatını yaz, sonrasına baxarıq. Uzaq başı dəyişərik.

— Elə olar?

— Əlimizdə döör?

— Şər deməsən xeyir gəlməz, birdən...

— Sərdar mənim boynuma.

*Aşpaz izahat yazır. Ayağa qalxır, müstəntiqin cibinə əlini salır.*

— Sənə ana südü kimi halaldı, dalı da olacaq.

— *(Gülümsünərək)*: Ay şuluq! Varam ey səninlə...

— Neyləyim, məni də anam belə doğub, müstəntiq.

*Kadr dəyişir. Eminin kabineti. Gülayə kabinetə daxil olur. Emin əsəbi görünür, o, Gülayəylə söhbətə oturur.*

**Emin:** Məni dərd-bəlaya salmısan.

**Gülayə:** Mən yox. Öz cəzanı çəkirsən. Kimiydi səni məcbur eləyən, günahsız adamı içəri atasan... Emin, vəziyyət necədi?

— Arxayın ola bilərsən. Göstəriş vermişəm, hər şey həll olacaq.

— Qanun... Qanun... Səsimiz çıxmasaydı, deməli, Emil damda çürüməliydi?.. Mənə minnət qoyma, pro-ku-ror.

— Uzatma. Sən müstəntiqlə əlaqə saxla. İşi yoluna qoyacaq-

lar. Mən axırda Emili bu kabinetdə sənə təhvil verəcəm. Ancaq dilini dinc saxla.

*Gülayə sevinir. Kabinetdən çıxır. Qəmər kabinetə daxil olur. Emin bacısını görcək gülümsəyir.*

**Qəmər:** O nə işdi, ədə. Başın xarab olub nədi? Camaatın vəzifəliləri qaz yolanda, bizimki sərçə tumarlayır.

**Emin:** Səsini boğ, qaldırma, eşidən olar. Öyrənmisən ağzıbaşına danışmağa.

— Ədə, sən bu zəmanədə yaşamırsan? İndi atıb-tutan kürəkən tapmaq olur?

— *(Əsəbiləşir)*: Pa... Atıb-tutan. Onun lap atasına lənət. Yox... Yortan. Cinayət eləyib, cəzasını da çəkməlidi. Sən də get, özünə ağıllı-başlı kürəkən axtar. On il yatandan sənə kürəkən çıxmaz.

— Hə... Nə oldu?.. Gülayəylə yenə imsiləşdiz? A başını dağlayım, o yüz qazan dibini çalxalayan çömçədi. Arvadın eşidib bilsə...

— Kəs səsini. Onsuz da mənim qaraçuxam çoxdan yatıb. Özümüzdən xəbərimiz yoxdu, başqalarına quyruq qoşuruq. Aç qulağını eşit, istintaq araşdırması gedir. Sərdar Seymuru qətlə yetiribsə, damda da o, yatmalıdı. Qaldı arvadımın məsələdən xəbərdar olmasına, onu sübut eləmək gərəkdi.

*Kadr dəyişir. Gülayə sevincək halda müstəntiqin kabinetinə daxil olur. Müstəntiq gülümsəyir.*

**Müstəntiq:** Özünü bərk darıxdırmışdın, Gülayə xanım. Zeynəb qarı deyib: “Hər qaranlığın işığı olur”. İndi o işıq sənin üçün doğub.

**Gülayə:** Özümü darıxdıraram da, müstəntiq. Zülmlə vur-tut





bir oğul böyüt, o da günahsız-filansız zindanlarda çürüsün.

**Müstəntiq:** Axşam xüsusi əməliyyat keçiriləcək. Ondan sonra Emili prokuror kabinetində özü sənə təhvil verəcək.

*Gülayə kabinetdən çıxır. Kadr dəyişir.*

*Prokuroun kabineti. Emin Emili Gülayəyə təhvil verir.*

**Emin:** Xanım sizi təbrik eləyirəm Axtarışda belə yanlışlıqlar çox olur.

**Gülayə:** Təkcə axtarışda.

*Prokuror üzünü Emilə tutur:*

— Oğlum, xoşbəxt ol. Allahın nəzəri üstündə olsun.

*Sonra Emil anasıyla əl-ələ tutub gedirlər. Emin onların ardınca həsrətlə baxır. Filmin titrləri oxunur.*

***2013***

# Kabus

*(Otuz bir bölümdən ibarət kinoserial)*

**İştirak edirlər:**

**Ayaz** —
**Nərmin** —
**Fərəc** —
**Cəmil** — “Kimsəsizlər evi”nin
**Xanım** — sabiq sakinləri
**Xatirə** —
**Nihad** —
**Firuz** —
**Səma** — aktirisa, Ayazın anası
**Səmra** — Səmanın qızı
**Güloğlan** — Səmranın əri
**Toğrul** — Fərəcin qayınatası
**Münəvvər** — Fərəcin qayınanası
**Şahanə** — Fərəcin arvadı
**Köçəri** — tərbiyəçi
**Nəzifə** — “Kimsəsizlər evi”nin direktoru
**Gödəkboy polis**
**Ucaboy polis**
**Gombul polis**
**Müstəntiq**
**Gözəlov**
**Nuridə** — həkim
**Şövkət** — Nuridənin anası





**Tibb bacısı**
**Şəhla** —
**Sadiqə** — direktorun müavinləri
**Gülşən** — müəllimə
**Afaq** — Səmanın qonşusu
**Xədicə** — xidmətçi
**Qaraş** — zavod işçisi
**Maya** — Ayazın yaşadığı yataqxananın komendant
**Aqil** — qapıçı
**Təranə** — növbətçi
**Malik** — zavod işçisi
**Oğlan** — işsiz
**Rəis**
**Professor**
**Usta**
**Komendant**
**Şükür** —
**Simarə** — ev sahibləri
**Marina İvanovna** — gözətçi
**Pinəçi Sultan Murad** —
**Pişik Müzəffər** — qonşular
**Beçə Qafar** —
**Sərdar** — Şükürün qonşusu
**Fatma** — Sərdarın arvadı
**Tərlan** — Ayazın iş yoldaşı
**Təriş** — Nərminin otaq yoldaşı
**Bağır** — yataqxana sakini
**Bəsti** — Fərəc köçürülən “Kimsəsizlər evi”nin direktoru
**Səidə** — aktyor
**Qadın**
**İkram** —
**Salman** — xəstə

**Qadın** — qızı üçün ər axtaran
**Məsmə** — iki uşaqlı dul qadın
**Naməlum şəxs**
**Kişi**
**Səmədağa** — Səmanın qonşusu
**Nənəş** — Səmranın qayınanası
**Şahlar** — Fərəcin işçisi





## I bölüm

*Yaz fəsli. Günorta çağı. Dənizkənarı park. Açıq səma. Kamera sakit dənizə tuşlanır. Lap uzaqlarda hərdənbir ora-bura üzən gəmilər və sürətlə hərəkət edən qayıqlar görünür. Gah mavi sulara baş vuran, gah da qanadlarını çırpa-çırpa havada şığıyan qağayılar... Kamera yavaş-yavaş səmtini dəyişir. Sahili döyəcləyən qırçınlı dalğalar. Şəhərin göz oxşayan görünüşü ekranda canlanır. Sahildə uşaqlar oynaşırlar, adamlar gəzişirlər. Hər tərəf gül-çiçəkdir. Arxada göydələnlər...*

*Sahildəki skamyada əyləşən iyirmi yeddi yaşlı Ayaz dənizi seyr eləyir, dərin düşüncələrə dalır. Xəyalı onu lap uzaqlara - uşaqlıq çağlarına aparır. Gözləri önündə o zamankı Dənizkənarı park canlanır. Günəşli hava. Əlvan gül-çiçəklər. Ata-analarının əllərindən tutan uşaqlar. Hərdənbir də o tərəf-bu tərəfə qəhqəhəylə qaçan, yaşıdlarıyla oynaşan dəcəllər... Ayaz özünün anasıyla bu yerlərə gəlməsini, anasının əlindən hey dartınaraq çıxmasını, gül qoparmasını xatırlayır.*

**Ayazın daxili səsi:** Eh... Həyat... Həyat... Kiminə xoşbəxtlik bəxş eləyirsən, kiminə də olmazın məşəqqətlər, əzab-əziyyətlər çəkdirirsən... Bunu necə başa düşək?!. Mərhəmətdən doğur, yoxsa, üzgörənlikdən, çoxüzlülükdən... Atıldığım zamanlar çox şeyin fərqinə varanmasam da, anamlı dünyam mənə çox əziz, çox şən və mehriban görünür. Eh... Ana! Ana!.. Biləsən, sənin üçün nə qədər darıxmışam... qəribsizləmişəm...

*Atıldığı anları xatırlayır. Elə bil sinəsinə dağ çəkilir. Gözləri dolur. Anasının kədərli gözləri, nigaran baxışları kino lenti kimi gözləri önündə canlanır. Qəflətən anasının sifəti bozarır. Üzü sərt görkəm alır.*

**Səma** *(acıqlı)***:** Ayaz, bir də nadinclik eləsən, sözümə baxmasan, səni bura atıb gedəcəm. Bir daha məni görməyəcəksən.

*Ayaz gülür.*

**Ayaz:** At get də. Sonra özün qayıdıb gələcəksən. Məni qucaqlayacaqsan, üzümdən öpəcəksən.

*Səma gülümsəyib, başını yelləyir.*

**Səmanın daxili səsi:** Uşaq ki, uşaq... Səni nələr gözləyir?! Üzüm gülür, içim qan ağlayır...

*Ayaz şitənir, yenə çiçəklərə tərəf dartınır. Səma qayğılı-qayğılı sözünə davam eləyir.*

— Dəniz necə də gözəldi. Gedək ləpələrə baxaq... Sən ağıllı oğlansan. Ola bilsin...
— Yox, əvvəlcə mağazaya gedək, sinikers alaq.

*Səmayla Ayaz mağazadan "Snikers", peçenye, bir şüşə də su alırlar. Dənizin sahilinə gəlirlər. Xeyli gəzirlər. Mavi sulara, belədən-belə uçuşan qağayılara tamaşa edirlər.*

— Quşlar dənizə baş vururlar.
— Quşlar belə oynaşırlar.
— Ana, gəmilər axşam da dənizdə qalırlar?
— Hə, oğlum, gəmilər axşam da dənizdə qalırlar.
— Onlar neyləyirlər?
— Yük daşıyırlar, adamları başqa ölkələrə aparırlar, başqa ölkələrdən gətirirlər.
— Gəmidə sürən əmilər qorxmurlar?





— Yox... Onlar gəmiylə üzməyə axşam da dənizdə qalırlar.
— Biz də gəmiylə üzə bilərik?
— Sən böyüyəndə hə...
— Mən də gəmidə üzəcəm... Gəmi suda bata bilər?
— Qəza baş verəndə hə...
— Ay aman!.. Onda hamı ölər ki... Onların uşaqları yetim qalar, eləmi?
— Eh... Məni suallarınla yordun, oğlum. Gedək, bir az da skamyada əyləşək, dincimizi alaq.

*Onlar gedirlər. Skamyada otururlar. Şəndirlər. Ayaz anasını qucaqlayır.*

— Mənim qəşəng anam. Sən çox gözəlsən. Mən səni çox istəyirəm, lap çox. Bacımı da çox istəyirəm.
— Mən də səni çox istəyirəm.
— Biz indi gəmiyə minə bilərik?
— İndi yox, oğlum, pulumuz yoxdu.

*Səma oğlunun saçlarından öpür, başını sığallayır. Ayaz anasının nəvazişindən sevinir, onun yanaqlarından öpür. Ana da oğlunu bağrına basır, dönə-dönə üzündən öpür. Gözləri dolur, yanaqlarından yaş üzüaşağı süzülür Ayaz təəccüblənir və kövrələrək soruşur.*

— Niyə ağlayırsan, ana?
*Pauza*
— *(gözlərinin yaşını silərək)* Ürəyim darıxdı, oğlum.
— Atam da burda olsaydı, Səmranı da özümüzlə gətirsəydik, lap axşamacan gəzərdik. Bacım da dənizə, uşaqlara baxıb sevinərdi. Düz deyirəmmi, ana?
— Hə!.. Oğlum, düz deyirsən.

*Səmanın sifəti bozarır. Dənizə tərəf baxır, dərindən ah çəkir. Sanki dünya başına dolanır. Ayazın balacalığı gözləri önünə gəlir: gülüşləri, qəhqəhələri, hər şeyi bəhanə eləyib ağlamaları...*

**Səmanın daxili səsi:** Eh, oğlum. Kaş heç doğulmayaydın. Hardan biləsən ki, ananın sözləri, gülüşləri, baxışları... Hamısı saxtadı. Böyüyəndə biləcəksən çox şeyi. Hələ mənə nifrət də eləyəcəksən.

**Ayaz:** Ana, dənizdən neft də çıxarırlar?

— Hə... Oğlum, çıxarırlar...

— Atam neftçi olub, hə?..

— *(Yalan danışır)* Hə... Neftçi olub. Bu gün nə çox sual verirsən, Ayaz? Saqqalın ağarsın, bu qədər sual olar? Hövsələm lap daraldı.

— Saqqalın ağarsın nədi?

— Hə, gəl indi cavab ver.

— De də... De...

— *(səsi titrəyərək)* Oğlum, sən otur burda. Heç hara getmə. Bax, o balaca binanı görürsən? Orda azacıq işim var. Gözlə, ora dəyib gəlirəm.

— Mən də səninlə gedim?

— Yox!.. Yox!.. Oğlum, böyük oğlansan, ayıbdı, qadınlar səni ora buraxmazlar.

— Hə... Bildim, hara gedirsən... Ancaq tez gəl. Gəlib məni apararlar.

— Kimlər?

— Polislər.

— Polislər uşaq aparmırlar.

— Onda oğrular...

— Yox... Qorxma... Burda oğru nə gəzir?

*Səma Ayazı bağrına basır, üz-gözündən öpür və gedir. Ayaz onun arxasınca baxır. Vaxt keçir. Ayazın narahıtlığı başlanır. O tərəf-bu tərəfə baxır. Boylanır, özünə təskinlik verir.*





**Ayazın daxili səsi:** Yəqin indi gələr anam. Eh... Dənizə bax... Necə də böyükdü? Bu qədər su hardandı? Gəmilər dənizdə necə üzür? Batmırlar? Balıqları dənizdən gəmilərlə tuturlar?

*Ayaz "Snikers"i açır, ondan bir-iki dişdəm götürür. Qaş qaralır. Ayaz darıxır. Yanından ötən qadından soruşur.*

— Xala, anamı görmədin?

— Yoox! Sən kimin oğlusan?

— Səmanın.

— Anan hara getdi, oğlum?

— *(Ayaz binanı göstərərək)* Bax, o binaya...

— Səni özüylə niyə aparmadı?

— Dedi, ayıbdı.

— Hə... Onda indi gələr. Bir az da gözlə...

*Kadr dəyişir. Səma Ayazdan uzaqlaşır. Gedib bir qədər kənarda uca ağacın altında əyləşir. Oğlunu müşahidə eləyir. Sakitcə göz yaşları axıdır.*

**Səmanın daxili səsi:** Görən, Ayaz nə düşünür? Yazıq balam... Səni necə atım?.. Ürəyim çatlayır... Ana da doğma balasını öz xoşuyla atarmı? Düşünəndə ürəyim sıxılır.

*Səma dizlərini ovuşdurur. Yanlarını didişdirir. Dərindən yanıqlı ah çəkir.*

*Kadr dəyişir. Ayaz peçenye yeyir, su içir. Parkda işıqlar yanır. Qorxu hissi Ayazı bürüyür. Gözləməkdən yorulur. Ağlayır. Qol-qola gəzən cavan oğlanla cavan qız ona yaxınlaşaraq qar-*

*şısında dayanırlar.*

— Niyə ağlayırsan? *(Yanındakı oğlana tərəf dönərək)* Nə gözəl uşaqdı. Adam az qalır bağrına bassın.

*Ayaz hıçqıra-hıçqıra üzünü yana çevirir. Qız da ona qoşulur. Bu mənzərəni görən ətrafdakılar onlara yaxınlaşırlar. Onlar da Ayazın halına acıyırlar. Başqa bir xanım Ayazdan soruşur.*

— Səni bura kim gətirib? Dünyanın işinə bax... Allah uşağı gör kimlərə verir? Kor, şil üçün ölənlər var... Küçələr yiyəsiz uşaqlarla doludu.

*Ayazın cavab vermədiyini görənlərin hərəsi bir şey uydurur.*

— Yəqin azıb, tay-tuşlarını itirib. Bu yaşda uşaq bura uzaqdan gələ bilməz, görünür, yan-yörədəki evlərdən gəlib. Yiyələri gəlib çıxarlar.

**Ayaz:** Yoox... Mən anamla gəlmişəm.

— Bəlkə də atıblar... Belə şeylərlə qarşılaşanda, adam dəhşətə gəlir. O qədər axmaq adamlar var ki... uşaqları dünyaya gətirirlər, sonra da pişik balası qədər dəyərləndirmirlər.

**Ayaz:** Mən anamı çox istəyirəm. Bacımı da.

— Bəlkə özü evdən çıxıb, valideynləri indi narahatdılar. Ola bilməz ki, uşaqlarını axtarmasınlar... Yəqin ürəklərini yeyirlər...

— Ürəklərini yeyənlər belə qələt eləməzlər. Gözləri uşaqlarının üstündə olar. Başları qatışıb özlərinə bəzək-düzək verməyə, ya da laqqırtı vurmağa.

*Kadr dəyişir. Kamera Səmanın üzünü, gözlərini göstərir. Qadın daha da həyəcanlanır. Polisin hadisə yerinə gəldiyini görən kimi rahatlanır.*





*Kadr dəyişir. Ucaboy polis Ayazın qarşısında əyilir. Oğlanın saçlarına sığal çəkir.*

**Ucaboy polis:** Uşağın üzünə baxanda ürəyim parçalanır. Övladını atan valideyndən nə umasan?

**Gödəkboy polis:** Hər tip adamlar var. Belə ata-anaların yaşamağa haqları yoxdu. Əlacım olsa...

**Ucaboy polis:** Qatillər...

*Kadr dəyişir. Səmanın vucudu titrəyir.*

**Səmanın daxili səsi:** Polislər balamı küçədə sahibsiz qoymazlar. Onu şöbəyə aparıb, sonra da uşaq evinə təhvil verəcəklər. Təki salamat olsun.

**Gödəkboy polis:** Oğlum, bura kimlə gəlmisən?

**Ayaz** *(hıçqıra-hıçqıra ağlayır)***:** Anamla.

— Anan hara getdi?

— Bilmirəm. Dedi, indi gəlirəm.

— Adın nədi?

— Ayaz.

— Bəs ananın adı?

— Səma.

— Atanın adı nədi?

— Atam yoxdu. Ölüb.

— Bacı-qardaşın varmı?

— Balaca bacım var.

— Onun adı nədi?

— Səmra.

— Bura nə vaxt gəldiniz?

— Günorta.

— Günortadan burdasan?

— Hə...

— Eviniz hardadı?
— Bilmirəm.

*Adamlar bir-birilərinin üzlərinə baxaraq. təəccüblənirlər. Üz-gözlərini büzüşdürürlər. Ayaz çiyinlərini çəkir. Ağlayır.*

**Adamlardan biri:** Uşağı atıblar... Ciyəri yansın elə valideynlərin, ək, doğ, at.
**Ərinin qoluna girən qadın:** Versəydilər, aparıb saxlardıq. Yazıq uşağın nə günahı var? Onu qarşıda hələ gör nələr gözləyir? Görəsən, insanlar niyə belə rəzil olurlar?

*Kadr dəyişir. Ekranda Səma görünür. Həyəcandan boğulur.*

**Səmanın daxili səsi:** Allah kəssin kimsəsizliyi, imkansızlığı. İki uşağı harda, necə saxlayım? Onları nikahdankənar dünyaya gətirdiyim üçün hamı mənə həqarətlə baxır... Uşaqlar mənim umuduma qalsalar, gözüm görə-görə məhv olacaqlar... Artıq gücüm çatmır. Haldan düşürəm.

*Kadr dəyişir. Polis maşını gəlir. Ayaz əvvəl getmək istəmir, sonra razılaşır. Ayazı maşına mindirirlər. Maşın hərəkətə gəlir.*
*Kadr dəyişir. Səma iti addımlarla parkdan çıxır.*

**Səmanın daxili səsi:** Dilsiz-ağızsız uşağı öz əllərimlə həyatın cəngəlliklərinə atdım. Görəsən, onun taleyi necə olacaq? İndi mən kimə, necə deyim ki, doğma balamdan imtina elədim. Deməzlər, a sərsəm, atacaqdınsa, niyə doğurdun? Niyə qızını yox, oğlunu atdın? Onları necə başa sala bilərəm ki, oğlum danışa bilir. Böyükdü... "Kimsəsizlər evi"ndə Səmraya nisbətən o özünə yol tapa bilər.





*Kadr dəyişir. Səmanın evi. Səma qapını açır, otağına girir. Səmranı bağrına basır. Hönkür-hönkür ağlayır.*
*Kadr dəyişir. Polis şöbəsi. Polislər Ayazı dövrəyə alırlar.*

**Gombul polis:** Ayaz, ananı tapsaq, onunla gedərsənmi?
**Ayaz:** Hə...
— Ananı çox istəyirsən?
— Hə...
— Bilsən ki, anan səni atıb, harasa qaçıb, yenə onunla gedərsən?
— Yox... O, məni atmayıb. Mən anamı çox istəyirəm. Nə olar, polis əmi, anamı tapın.
**Ucaboy polis** *(pıçıltılı səslə)*: Uşağa elə suallar verməyin... Az qalır ürəyim dayana.

*Hamı susur. Ayaz kövrəlir. Gödəkboy polis stuldan qalxır. Şüşəni açır və Ayaza stəkanda su verir.*

**Gödəkboy polis:** Bir qurtum su iç, oğlum, ürəyin sərinləsin. Biz səni tək qoymarıq. Ananı tapsaq, səni ona qaytararıq. Tapmasaq...

*"Tapmasaq" sözü Ayazı yenidən kövrəldir. Bunu görən gombul polis Ayazın başına sığal çəkir.*

**Gombul polis:** Özünü ələ al, qorxma. Polis əmilər yanındadı. Səni tək qoymarıq.

*Ucaboy polis telefonla danışır.*

**Ucaboy polis:** Xanım, kimdi danışan?
— "Kimsəsizlər evi"nin növbətçisi, Təranə xanım.

*Qadının səsi otağı bürüyür.*

**Ucaboy polis:** Bir uşaq gətirmişik şöbəyə.
**Təranə:** Atılıb?
**Ucaboy polis:** Bilmirik... Ola bilər... Çalışırıq aydınlaşdıraq. İndi onu yedirib-içirmək, rahatlamaq lazımdı... Gəlin, gözləyirik.

*Ucaboy polis dəstəyi yerinə qoyur. Başını yelləyir.*

**Gödəkboy polis:** Böyük uşaqdı. Hər şeyi qanır, başa düşür.
**Gombul polis:** Belə də şey olar? Doğurlar, sonra da hara gəldi, atırlar. Öz uşağına qənim kəsilən başqalarına nə olar? Kimdilər?
**Ucaboy polis:** Vəhşilər...

*Ağ xalatlı iki qadın içəri girir. Onlar Ayaza diqqətlə baxırlar.*

**Təranə:** İnsanlar hər oyuna girirlər... Üzdə imam övladı, içdə heç nə, tülkü... Siz narahat olmayın... Hərənin bir qisməti var. Bu oğlanın da taleyi belə yazılıbmış.
**Ucaboy polis:** Uşağın adı Ayazdı. Bizim tərəfimizdən qeydiyyata götürülüb. Mənim lap ürəyim ağrıdı.
**Təranə:** Bizim yerimizə olsaz, nə edərsiniz? Elələri var, qundaqda atılırlar... Daş ürəkli valideyndən çibin yaxşıdı...

*Qadınlar Ayazı maşına mindirirlər. Maşın bir qədər gedir və "Kimsəsizlər evi"nin qarşısında dayanır. Kadr dəyişir. Ayazı içəri aparırlar. Onu əzizləyirlər. Yedirib-içirirlər. O daha ağlamır. Təranə Ayazın paltarlarını soyundurur və ona gecə (yataq) paltarı geyindirir.*





## II bölüm

**Təranə:** Oğlum, gecdi, uzan yat. Sabah özün boyda çoxlu dost tapacaqsan burda.

*Ayaz soyunub yatağa girir. Adyalı üstünə çəkir. Başını balınca qoyur. Anası gözləri önünə gəlir. Yenidən onu hıçqıraq tutur.*

**Ayaz:** Anamı istəyirəm. Səhər açılanda mən burdan qaçacam.
**Təranə:** Hə... İndi yat. Səhər açılanda...

*Ayaz yuxulayır və tez də oyanır. Çarpayının ortasında oturub ağlayır.*

**Ayaz:** Anamı istəyirəm. Evimizi istəyirəm. Anam hardadı? Bacımı istəyirəm.

*Təranə Ayazın səsinə oyanıb, ayağa qalxır, Ayazı qucaqlayır, saçlarından öpür.*

**Təranə:** Yat, Ayaz, dedim axı, səhər açılsın. Onda sənin ananı axtararıq... Hər şey yaxşı olacaq. Sənintək uşaqlar burda çoxdu, mənim balam. Hamısı da sənin kimi qəşəng, gözəl, göyçək...

*Kadr dəyişir. Səmanın evi. Səma çarpayasında o tərəf-bu tərəfə çevrilir. Qalxır, yarı çılpaq halda otağında gəzişir. Səmranın mışıl-mışıl yatmasına baxır. Gözlərinin yaşını silir.*

**Səmanın daxili səsi:** Ayazsız günlərimiz başlandı, qızım.

Mən neylədiyimi özüm də bilmirəm. Mənə elə gəlir ki, başqa əlacım da yox idi. Ya səni atmalıydım, ya da qardaşını. Görünür, atılmaq onun taleyinə yazılıbmış... Yazıq, kimsəsiz oğlum. Gözlərini açmamış taleyin ağrı-acıları səni qamarladı. Özü də mənim əlimlə.

*Səhərdir. Ayaz yatağından qalxır. Təranə onu geyindirir. Həyətə düşən uşaqların yanına aparır. "Kimsəsizlər evi"nin balaca sakinləri onu dövrəyə alırlar. Hamısı təzə sakinə hörmətlə yanaşırlar. Nərmin adlı qız Ayazın əlindən tutur və gözlərinin içinə baxır.*

**Nərmin:** Səni də atdılar? *(Ayaz onun sualına cavab vermir. Çiyinlərini çəkir.)* Gedək yuyunma otağına.

*Nərmin qabağa düşür. Kadr dəyişir. Yuyunurlar, daranırlar, sonra əl-ələ tutub, yuyunacaq yerindən çıxırlar.*
*Kadr dəyişir. "Kimsəsizlər evi"nin həyəti. Qızlı-oğlanlı uşaqlar bir yerə toplaşırlar... Hərə oxuduğu, televizorda gördüyü, eşitdiyi bir şeydən danışır. Fərəc Təranəylə zarafat eləyir.*

**Fərəc:** Bu cücələrin payını yeməyin.
**Təranə:** Bu nə sözdü, Fərəc?
**Fərəc:** Düz deyirəm. Minib oturursunuz başımızda.

*Ayaz əsəbiləşir və Fərəcə qarşı çıxır.*

**Ayaz:** Adam özündən böyüyə elə söz deyər?
**Fərəc:** Sən sus. Yumurtadan yenicə çıxan cücəsən. Otur yerində.
**Ayaz:** Bu nə sözdü?
**Fərəc:** Sözümə qarşı söz demə, səni bilirsən neylərəm?





**Ayaz:** Mən səndən qorxmuram.

*Fərəclə Ayaz üz-üzə dayanırlar. Nərmin onlara yaxınlaşır. Araya girir.*

**Nərmin:** Fərəc, hamı görür ki, sən Ayazdan böyüksən. Güclüsən. Onu vura bilirsən. Dalaşmayın.
**Fərəc** *(Nərminə)***:** Mənə ağıl vermə.
**Nərmin:** Sən yaxşı oğlansan, Fərəc, mən televizordan eşitmişəm, güclü zəiflərə özünü göstərməz.

*Pauza*

**Ayaz:** Bəsdi, Nərmin. Onun heç bir gücü yoxdu. O ancaq danışmağı bacarır.
**Fərəc:** Sənə gücümü göstərərəm, Ayaz.

*Fərəc Ayazın ağzına, üzünə bir neçə yumruq vurur. Ayaz da onun cavabını verir. Ancaq Ayazın ağzı, burnu qanayır. Köynəyi al-qana boyanır. Uşaqlar araya girirlər. Onları aralayırlar. Fərəc Ayazın anasına söyür. Ayaz döyülsə də, söyüşləri eynilə Fərəcə qaytarır.*

**Ayaz:** Fərəc, sənin anan yoxdu?
**Fərəc:** Nə ana? Anam olsaydı, burda nə gəzirdim?
**Ayaz:** Fərəc, sən əclafsan. Qansızsan. Sən heç kəsə hörmət eləmirsən.

*Nərminin gözləri dolur. O, Ayaza yaxınlaşır. Əlindən tutur, onu su kranına tərəf aparır.*

**Nərmin:** Əl-üzünə su vur, özünə gəl. Hamı bilir ki, o səndən böyükdü. O, səni döyə bilər, Ayaz. Fikir eləmə.
**Ayaz:** Mən heyfimi Fərəcdən alacam, Nərmin. Nə olsun ki,

o məndən böyükdü, güclüdü.

**Nərmin:** Yox... Sən düz fikirləşmirsən. İstəyirəm biləsən, uşaqların Fərəcdən zəhləsi gedir. Səninlə dalaşdığı üçün onu görməyə gözüm yoxdu. İstəmirəm, onunla bir də üzləşəsən.

*Xanım söhbətə qarışır.*

**Xanım:** Hər adama baş qoşmazlar, Ayaz. Fərəc istəyir ki, hamı ondan qorxub çəkinsin. O, nə desə, sözünü çevirən olmasın.

*Xatirə Ayaza haqq qazandırır.*

**Xatirə:** Heç kim Fərəcdən əskik deyil. Hərənin öz sözü olmalıdı. Ürəyi istəməyən kimi hərəkət etməlidi.

**Nihad** *(Ayaza)*: Qardaşım, Fərəc də pis oğlan deyil. Onun yaxşı xasiyyətləri çoxdu. İstiqanlıdı. Ürəyi yumşaqdı. Dostluqda möhkəmdi. Özün şahid olacaqsan.

**Xanım:** Az təriflə onu. O, yaxşı oğlan olsaydı, günahsız Ayazın ağız-burnunun qanını axıtmazdı.

**Nərmin** *(Ayaza)***:** Gedək bağın yuxarısında əyləşək.

*Ayazla Nərmin bağın yuxarısına tərəf yanaşı addımlayırlar. Skamyada otururlar.*

*Ekran qaralır, sonra ağarır. Ayazın gözləri önünə anası Səmayla bacısı Səmra gəlir. Ayazın gözləri dolur, ağlamsınır.*

**Ayazın daxili səsi:** Məni bura niyə gətirdilər? Axı anamdan ötrü ürəyim darıxır.

**Nərmin:** Yaxşı, yaxşı, Ayaz. Məni kövrəltmə.

— Mən ağlamağı sevmirəm. Həmişə anam deyənləri eləmişəm. Görünür, o məndən inciyib. Nə vaxtsa gələcək. Anam sənin də xoşuna gələcək... O, nə vaxt gəlsə, sən də bizimlə gedər-





sən.

— Gəlməyəcək... Gəlsə də, bizi aparmayacaq, Ayaz.

— Yox, mənim anam aparar.

*Uşaqlar Ayazla Nərminə baxırlar. Hamının Ayaza yazığı gəlir.*

**Cəmil** *(üzünü Fərəcə tutur)***:** Fərəc, sizin davanız hamıya pis təsir elədi. Gərək Ayazla dalaşmayaydın. O, pis oğlana oxşamır.

— Görmədin, Cəmil, Ayazın məni söydüyünü?

— Düz demirsən, Ayaz səni söymədi. Sadəcə, cavabını qaytardı. Qaytarmasaydı...

— Söyüşün əvəzini mən də ondan çıxacam. Onda Ayazın ağlı başına gələr.

— Bu olmadı. Direktor səni burdan çıxarar. Onda gedib harda yaşayarsan?

— Onsuz da gec-tez biz burdan gedəcəyik... Gedəcəyimdən də qorxmuram.

— Danışdıqların xoşuma gəlmir. Gedəcəksən deyə hamının nifrətini qazanmalısan? Davanızdan sonra hamı Ayaza qayğıyla yanaşır. Qorxularından bir söz deməsələr də, uşaqlar səndən qaçırlar. Belə olmaz... Biz dost olmalıyıq. Bizim kimimiz var? Ata-ana yox, bacı-qardaş yox, əmi-dayı yox... Direktorun qulaq kəsənlərinə. Əlaltılarına?..

— Direktor mənə neyləyəcək? Döydürəcək?.. Söydürəcək?.. Yadımdadı, Süleymanı, Ağasını döyüb xəstəxanaya atdılar. Qaçayı da şikəst elədilər. Qorxaq olma, Cəmil.

— Mən özümdən qorxmuram. Sənə görə qorxuram.

*Fərəc duruxur, sonra üzünü çevirərək gedir. Cəmil onun ardınca ani olaraq baxır. O, bağın aşağı hissəsinə tərəf yavaş addımlarla irəliləyir...*

*Kadr dəyişir. Qış. Çöldə qar dizə çıxır. Soyuq hava, şaxta adamı bıçaq kimi kəsir. Dəhlizdə, otaqlarda az qalır adam dona.*

**Nihad:** Mən bərk üşüyürəm.
**Xanım:** Mən də soyuğa dözmürəm.
**Xatirə:** Axşam soyuqdan yata bilməmişəm.
**Firuz:** Gəlin həyətə düşüb qar topu oynayaq.

*Uşaqlar razılaşırlar. Ayaz Nərminin üzünə baxır.*

**Nərmin:** Mən üşüyürəm, Ayaz.
**Ayaz** *(uşaqlara)***:** Mən də gedəsi olmadım.
**Fərəc:** Ayaz, kişi qız sözüylə oturub-durmaz. Mən deyirəm, hamımız gedəcəyik. İndi bax işinə, ya mənim sözüm, ya da Nərminin.
**Ayaz:** Mən kiminsə sifarişiylə oturub-durmuram, Fərəc. Nərmini otaqda tək qoya bilmərəm.

*Fərəcin sifəti bozarır.*

**Fərəc:** Mənim sözümü çevirmə, Ayaz. Səni...
**Ayaz:** Çox da böyük-böyük danışma, Fərəc. Mən özüm bilərəm neylədiyimi.

*Nərmin Ayaza yaxınlaşır.*

**Nərmin:** Baş qoşma Fərəcə, Ayaz.

*Söz Fərəcə təsir eləyir, Fərəcin şitliyi tutur. O, pəncərələri taybatay açır.*

**Fərəc:** İkinizi də soyuqda donduracam. Siz məni hələ tanı-





mırsız.
**Ayaz:** Ağıllı ol, Fərəc.

*Ayaz pəncərələri bağlayır. Fərəc ona əl atır. Ayaz var gücüylə Fərəcin ağzından vurur. Fərəcin burnu qanayır... Fərəc davanı saxlayır. Ayazı buraxır. Əl-üzünü yumağa gedir. Nərmin Ayazı tutur, onu Fərəcin ardınca getməyə qoymur.*

**Nərmin:** Axmaqla yenə qarşılaşdın? Ehtiyatlı ol, o səndən heyfini çıxacaq, qardaş.
**Ayaz:** Nərmin, qanımı ondan aldım.
**Nərmin:** Axı, sənə dedim, unut. Kitabda oxumuşam, qisas pis şeydi.

*Ayaz pəncərələri bağlayır.*

**Cəmil:** Bu olmadı.
**Firuz:** Direktor hamımızı cəzalandıracaq.
**Xanım:** Əcəb işə düşdük. Yenə dava? Yenə qan? Dava-qırğınla hara qədər gedəcəyik?
**Xatirə** *(uzaqdan gülərək)***:** İki qoçun başı bir qazanda qaynamaz, — deyirlər.
**Firuz** *(kinayəylə)***:** İki nər, iki igid... Fəxrimizdilər. İgid odu, atdan düşə atdana. Belə şeylər çox olacaq. Buna öyrəşməliyik.

*Hamı gülür.*

**Nərmin** *(Ayaza)***:** Gedək kitabxanaya. Fərəci az şişirdin, az fitvalayın. Fitva bizə lazım deyil, kimsəsiz uşaqlarıq.

*Kadr dəyişir. Nərminlə Ayaz otaqdan çıxırlar. Dəhliz boyu gedə-gedə Nərmin sözünə davam edir.*

— Ayaz, Fərəcdə bıçaq var. Ondan uzaqda dayan. Elə adamlar heç vaxt umu-küsünü unutmurlar. Onda qalmışdakı arada qan ola.

*Pauza*

— Sən hardan bildin ki, onda bıçaq var?

— Turnikdən aşanda cibindən düşdü. Qorxuram, qardaş. Sən ölərsən, Fərəci tutarlar. Onda mən də özümü öldürərəm.

— Narahat olma. Bıçaq saxlamasına baxma. Adam vurmağa cəsarət eləməz.

— Axşam çarpayıda yatanda ayıq ol, Fərəc kinlidi, o, səni vura bilər.

— Çox götür-qoy eləyirsən. Ona görə də ağlına çox şey gəlir.

*Kadr dəyişir. Yeməkxana. Stollara yemək-içmək düzülür. Uşaqlar yeməkxanaya gəlirlər. Nərminin ayağı stula toxunur. Stul aşır.*

**Fərəc** *(Nərminə)***:** Qoltuqda gəzən ifritə... İndin budusa, gələcəyin daha dəhşətdi.

*Nərmin ağlayır. Ayazı heyrət bürüyür. O, dözmür, itələyib Fərəcin başını divara vurur. Uşaqlar araya girirlər. Fərəcin başı qanayır. Xidmətçilər, uşaqlar qışqırırlar. Qəflətən Fərəc bıçaqla Ayazın çiynindən vurur. Qan Ayazın bədənini bürüyür. "Kimsəsizlər evi"nin tibb işçisi gəlir. Ayazın müayinəsinə başlayır. Bıçağı Fərəcdən alırlar. Ayazın halı pisləşir. Direktor müavini Sadiqə gəlir.*

**Sadiqə:** Fərəc, deyəsən, yolunu azmısan? Əlindəki bıçaqla dilini, qulaqlarını kəsdirərəm.

**Fərəc:** Mən özüm dil, qulaq kəsirəm.

**Sadiqə:** Yaxşı, danışarıq, Fərəc. Belə olmaz.





*Handan-hana Ayaz özünə gəlir.*

*Kadr dəyişir. Səmanın evi. Səma çarpayısında yatır. O, yerində eşələnir. Qəflətən qışqırır.*

**Səmanın daxili səsi:** Ayaz! Ayaz! Oğlum! Sənə nə oldu? Niyə xəstələndin?.. Ah... Gördüklərim yuxuymuş... Oğlum yenə yuxuma gəldi. Səni atdığım üçün hər cür cəzaya layiqəm. Ağılsızlığım başıma oyun açdı. — Öz-özünə eləyənə, el yığılsa, eləyə bilməz, — deyiblər. İndi yan, əri, Səma. Dilin ağzında quruyur, ciyərin parçalanır. Sən özünə də, balana da güzəran qazana bildinmi?..

*Səma çarpayısına uzanır. Gözləri tavana dikilir.*

*Kadr dəyişir. Kimsəsizlər evi. Cəmil, Firuz, Xatirə, Nərmin və həkim Fərəci dövrəyə alıb, məzəmmət edirlər.*

**Cəmil:** Fərəc, bu olmadı. Biz bundan sonra sənə necə dost deyə bilərik? Sənə inanan, etibar eləyən olarmı?

**Firuz:** Deyirsən, bundan sonra sənə yaxın gəlməyək. Sən bu gün Ayazı, sabah da bizi bu hala sala bilərsən...

**Xatirə:** Sən qorxulu adamsan. Biz hamımız kimsəsizlərik. Özümüz öz qayğımıza qalmasaq, bizə kim əl uzadar? Bu səhvi sənə kim bağışlar, kim?

*Pauza*

**Nərmin:** Fərəc özündən çox razısan. Yadında saxla, sən heç vaxt Ayazın tayı ola bilməzsən. Ayaz ölsəydi, canını hara qoyardın?

**Fərəc:** Məni az sıxışdırın. Mən neylədiyimi yaxşı bilirəm. Təkcə Nərminin "Sən Ayaz ola bilməzsən" deməsi mənim xoşuma gəldi. Nərminin Ayaza istəyi məni sevindirir.

*Kadr dəyişir. Direktor Fərəclə Ayazı qarşı-qarşıya əyləşdirir. Onlarla söhbətə başlayır.*

**Nəzifə:** Sizin nə ortaqlı payınız var ki, bölüşdürənmirsiz? Sizi himayə eləyən, qayğınıza qalan kimsəniz yox. Şəxsən sən, Fərəc, təhsilini başa vurmamısan. Yaşın az. İşləmirsən. Burdan birbaşa türməyəmi getmək istəyirsən?

**Fərəc:** Yox... Neyləmişəm ki, türməyə gedəm?

**Nəzifə:** Neyləyəcəksən? Ayazı bıçaqla vurmusan. Özün də deyirsən neyləmişəm? Belə getsə... Sadiqə müəlliməyə də cavab qaytarırsan. Sən nə fikirləşirsən?

**Ayaz:** Mən günahsızam.

*Pauza*

**Nəzifə:** Siz buranın işçiləriylə oyun oynayırsız? Ya bizə vid göstərirsiz? Başınıza gecədən qaranlıq oyun açaram.

**Fərəc:** Açırsız da. Açmaq nəyə deyirsiz?

**Nəzifə:** Belə getsə...

**Fərəc:** Bizi az hədələyin...

*Pauza*

**Nəzifə:** Sən də yığışdır özünü, Ayaz. İkiniz də böyük səhv eləyirsiz. Mən istərdim yaxşı-yaxşı düşünəsiz. Tək özünüzə yox, uşaqlar, bir-birinizə yazığınız gəlsin. Kimsəsiz uşaqların gələcək həyatı öz əllərindədi. Onlara kimsənin təfavütü yoxdu. Qərarı özləri verirlər. Niyə özünüzü bədbəxt eləyirsiz?

**Fərəc:** Özünü düz aparsın, qanı da axıdılmasın!

**Ayaz:** Sənə neyləmişəm, Fərəc?

**Fərəc:** Sözümü qaytarırsan.

**Ayaz:** Mən satqın deyiləm... Əcəb eləyirəm.

**Nəzifə** *(əsəbiləşir)***:** Sən kimsən, Fərəc?

**Fərəc:** İnsan...

**Nəzifə:** Elə bildim...

**Fərəc:** Deyin, saxlamayın sözünüzü.





**Nəzifə:** Məndə olan məlumata görə, bir neçə dəfə dalaşmısız. Qanınızı tökmüsüz. Bu nalayiq hərəkətlər ağıllı, ayıq, sabahını düşünən adamlara yaraşarmı? *(Üzünü Fərəcə tutaraq)* Yaxşı bıçağı hardan əldə eləmisən, Fərəc?

**Fərəc:** Tapmışam.

**Nəzifə:** Hardan?

**Fərəc:** Bağın aşağısından.

**Nəzifə:** Sən vurdun, Ayaz öldü. Nə qazanacaqsan? Türmə! Hərdən qızları da təhqir eləyirsən. Kişi də qız uşağını, yaxud qadını təhqir eləyərmi? Adam olan kəslər bir-birilərini al-qana boyayarlarmı? Siz mənə söz verməlisiz... Bu sizin son davanız olacaq... Özünüz də əl verib barışın.

*Fərəclə Ayaz bir-birilərinə əl verirlər. Barışırlar. Direktorun otağından çıxan Fərəclə Ayazı uşaqlar sevinclə qarşılayırlar.*

**Fərəc:** Məni bağışla, Ayaz. Səhvimi başa düşmüşəm. Səninlə dost olmaq istəyirəm.

**Ayaz:** Mən də səninlə barışıram.

**Fərəc:** Səninlə dost olacam.

*Uşaqlar əl çalırlar. Nərminin üzündə təbəssüm, gözlərində sevinc parlayır. Uşaqlar dağılışırlar. Nərminlə Ayaz bağın aşağısına tərəf gedirlər.*

**Ayaz:** Nərmin, Fərəclə mənim barışmama görürəm, sən çox sevinirsən...

*Pauza*

**Nərmin:** Hə, Ayaz, mən istəyirəm, sən yersiz, həyatına təhlükə gətirən çəkişmələrdən, dava-dalaşlardan uzaq olasan... Mənim Fərəcdən ağlım bir şey kəsmir. O, sənə dost deyər, ancaq sonra sənə zərbə endirər. Gərək hər ikimiz ona göz qoyaq.

**Ayaz:** Bacı, kişi ölümündən qorxmaz. Lap əzəldən mən onu yerində oturtmasaydım, o məni döyməsindən şirnikəcək, tez-tez üstümə kəkələyəcəkdi.

*Cəmillə Xatirə onların yanına gəlirlər.*

**Cəmil:** Ayaz, Fərəclə barışmanız çox yaxşı oldu. Biz burda günümüzü sayırıq. Axırımz necə olacaq bilmirik. Bizim kimi adamlara azadlıqda oğru, yalançı, cinayətkar... kimi baxırlar. Mən onun da xatirini istəyrəm, elə sənin də...
**Nərmin:** Fərəc xatiri istənəsi adam deyil.
**Xatirə:** Neyləyək, vuraq öldürək? Tərbiyə eləməliyik.
**Nərmin:** Özümüzü aldatmayaq, o heç vaxt tərbiyə olunmayacaq.
**Cəmil:** Qanmayanı başa salmalıyıq.
**Xatirə:** Başa salmasaq, o da məhv olar.
**Cəmil:** Mən indi Fərəclə danışıb sənin yanına gəlmişəm. Dostum, unudun olub keçənləri. Şəxsən mənə Fərəc dedi: "Ayaz, qorxaq, yalançı, yaltaq olsaydı, mən ondan heç vaxt bağışlanmamı istəməzdim. Ayaz mərddi. Dalaşsaq da, mən onun xatirini istəyirəm".
**Nərmin:** Deyirsiz, Fərəcin sözlərinə inanaq?
**Cəmil:** Başqa yolumuz varmı?
**Xatirə:** Fərəcin sözlərində həqiqət görürəm. Səninlə dalaşdığına, sənə əl qaldırdığına çox peşmandı. Gəldik sənə deyək, ona qarşı qəlbində kin-küdurət varsa, sil getsin...
**Nərmin:** Bu barışıq Ayaza da, Fərəcə də lazımdı.

*Pauza*

**Ayaz:** Fərəc sərtdi. Ciddidi. Dediyi sözün üstə durandı. Cəsarətlidi. Açığını deyim ki, mənim elələrindən xoşum gəlir. Mən özüm də başa düşürəm ki, uşaqlıq eləmişik. Ancaq onu da bilin ki, mən Nərminin təhqir olunmasına dözə bilməzdim. Nərmin





mənim üçün ən əziz adamdı. Onu heç kəsə dəyişmərəm.
**Cəmil:** Sağ ol, Ayaz.
**Nərmin:** Qurban olaram sənə.
**Xatirə:** Kişisən, Ayaz.

## III bölüm

*Ayazın gözləri dolur. Səsi titrəyir. Onun bu halı Nərminə də, Xatirəylə Cəmilə də təsir eləyir. Nərmin Ayaza sığınır.*

**Cəmil:** Bilirik, Ayaz. Onu Fərəc da başa düşüb. Yenə deyirəm, o, çox peşmandı.

*Uşaqlar yeməkxanadan çıxırlar. Həyətə düşürlər.*
*Kadr dəyişir. Fərəc Ayaza yaxınlaşır.*

**Fərəc:** Səninlə ikilikdə ciddi söhbətim var, Ayaz.
**Ayaz:** Buyur, eşidirəm.
— Burda yox. Bağın aşağısına düşək.

*Onlar bağın aşağısına tərəf gedirlər. Skamyada əyləşirlər. Nərmin onları kənardan müşahidə eləyir.*

— Eşidirəm, Fərəc.
— Ayaz, mən sənə inanıram. Düşünürəm ki, sirr saxlayansan. Səninlə açıq danışa bilərəm.
— Buyur.
— Dostum, mən "Baron" olmaq istəyirəm.

*Ayaz "Baron" sözünü ilk dəfə eşitdiyindən çaşır.*

— Nə?

— Eşitmədin? Ba-ron.
— O nə deməkdi?
— Türmədə lotuların başçısına "Obşak", azadlıqda oğrularınkına "Şef", quldurlarınkına "Baron" deyirlər.
— Burda quldur var, Fərəc?

*Pauza*

— Sən bilməyən çox şey var, Ayaz. Mən fikirləşmişəm, biz özümüzü əclaflardan qorumasaq, pis günə düşəcəyik.
— Mən heç nə başa düşmürəm, Fərəc.
— Səni özüm sonra başa salaram.
— Ucundan-qulağından de, mən də bilim.
— Vaxt gələndə hamısını deyəcəm. Biz üç nəfər olacağıq. Mən, sən, bir də Cəmil. Aramızdakı söz-söhbəti heç kim bilməməlidi. Kim kimə xəyanət eləsə, o öldürüləcək.
— Sən nə danışırsan? Axı, bizi tutarlar, türmədə çürüdərlər.
— Bəyəm, biz türmədə deyilik? Burda çürümürük? Burayla türmənin az fərqi var. Burdan çıxanda da, bizim yerimiz türmə olacaq, Ayaz.

*Ayaz Fərəci dinlədikcə özünü itirir. Bundan istifadə eləyən Fərəc sözünə əlavə edir.*

— Danışdıq. Mən "Baron"am. Bu gizli addı. Onu ağızdan çıxarmaq olmaz.

*Onlar ayrılırlar. Fərəc Cəmillə görüşür.*

**Cəmil:** Sən hey deyirsən ki, burda çox şey olur, biz xəbərsizik. Ancaq nə baş verdiyini demirsən. Əgər biz üç nəfər sözümüzü bir yerə qoyub, nəyisə eləmək istəyiriksə, deməli, baş verənlərdən üçümüz də xəbərdar olmalıyıq. Biz səninləyik. Etiraz eləmirik, ol "Baron". Ancaq bizdən söz gizlətmə.





*Fərəc fikrə gedir.*

**Fərəc:** Deyirəm, siz bilirsizmi ki, buradakı qızların taleyiylə oynayırlar, onları aparıb, harda gəldi, pozurlar.
— Kim?
— Köçəriylə direktor Nəzirə.
— İnanmıram.
— Bəli! Mən də inanmaq istəməzdim, ancaq heyf ki, belədi. Köçəri Tamamı, Nazlını, Xanımı otağına apararaq onların bakirəliyini alıb. Hər il burdan çıxan qızlar elə gedirlər... Direktor Nəzirə qızları şəhərdən gələn pullulara iş adıyla ötürür. Onlar da aparıb qızların başlarına oyunlar açırlar. Bəyəm, bunları, Cəmil, siz bilmirsiz?
— Xeyr... Mən ilk dəfə eşidirəm. Bəlkə sənə səhv məlumat veriblər, Fərəc.
— Uşaqlara gətirilən ərzağın da dalına direktor, direktorun təsərrüfat üzrə müavini Balaş, aşpaz Solmaz keçirlər. Gətirilənlərin hamısı uşaqlara verilirmi?
— Vermirlər?
— Yoox... Mən yemək üçün demirəm, Cəmil, qarınqulu da deyiləm, istəyirəm bunları siz də biləsiz.
**Ayaz:** Bunları hamı deyir, Fərəc. Nə olsun ki, həqiqətdi? Birincisi, əlimizdə dəlil yoxdu, lap olsa da, biz onlara neyləyə bilərik?
**Fərəc:** Eləysə birini də deyim. Köçəri oğraş Fazili zorlamaq istəyib. Yazıq oğlan güc-bəlayla Köçəridən canını qurtarıb.
**Ayaz:** Əşi, ola bilməz. Elə də şey olar? Bəlkə böhtandı? Ya kimsə zarafat eləyib Fazillə. Köçərini ələ salıb.

*Pauza*

**Fərəc:** Fazil özü sizə etiraf eləsə, inanacaqsız? Əgər bunun qarşısını almasaq, o işləri gec-tez bizim də başımıza açacaqlar. İndi təkcə fikirləşməyin, həm də burda baş verənləri izləyin.

Gec-tez görəcəksiz ki, mən yalan danışmıram, Ayaz.

**Ayaz:** İmkan ver, sən deyənləri biz də izləyək.

**Fərəc:** İzləyin, ancaq elə eləyin ki, onlar şübhələnməsinlər.

**Cəmil:** Ayaz düz deyir. Biz də izləyək. Sonra görüb eşitdiklərimizi, duyduqlarımızı dəqiqləşdirib, birlikdə danışarıq. Onsuz da, bizim həyatımızı doğmalarımız korlayıblar. Bizi pişik balası kimi atıblarsa, bunlar neyləməlidilər?

**Ayaz** *(fikrə dalır, handan-hana)***:** Fərəc, sən dediklərinlə az qala məni dəli vəziyyətinə saldın. İndi biz kimə inanaq?

**Cəmil:** Burda yaşamaq çox çətindi.

**Ayaz:** Azadlıqda yaşamaq asan olsaydı, səncə, bizi doğmalarımız atardılarmı?

*Fərəc bir anlığa fikrə gedir. Ayazla Cəmil susurlar. Handan-hana Fərəc başını qaldırır, köksünü ötürür.*

**Fərəc:** Keçən axşam gözlərimlə gördüklərimə, az qala, inanmadım. Əvvəl, elə başa düşdüm ki, yuxu görürəm. Sonra anladım ki, gördüklərim həqiqətdi.

**Ayaz:** Nə gördün?

**Fərəc:** Tələsmə deyirəm. Saat on iki olar-olmazdı. Hamı yatmışdı. Mən bərk darıxdım. Durub dəhlizə çıxdım. Dəhliz boyu gəlib pəncərənin qarşısında dayandım. Pəncərədən həyət darvazasının qənşəri açıq-aydın görünürdü...

**Cəmil:** Uzatma, sözünü qısa elə.

**Fərəc:** Qorxuram məni düz anlamayasız.

**Ayaz:** Fərəcin sözünü kəsmə, Cəmil.

**Fərəc:** Birdən darvazanın çöl tərəfində qara rəngli “Cip” markalı avtomobil dayandı. Ucaboy kişi maşından düşüb, Köçərinin otağına gəldi. Aradan bir az keçmiş Köçəri qızlardan Tamamla Həliməni otağına çağırtdırdı. Köçəriylə tərbiyəçi Günəş qızları maşına mindirib yola saldılar.





**Cəmil:** Burda böyük iş gedir ki?

**Ayaz:** Hara yola saldılar?

**Fərəc:** Mən nə bilim hara?

**Cəmil:** Sonra?

**Fərəc:** Sonrası budur ki, mən pəncərənin qabağında dayanıb, onların gəlişini gözlədim. Bir də hava işıqlananda qızları geri qaytardılar.

**Ayaz:** Qızlarla danışdınmı?

**Fərəc:** Yox... Bu oyunun ardı da olacaq.

**Cəmil:** Həliməni yaxşı qız kimi tanıyırdım. Bilməzdim ki, o bu yolu gedər.

*Pauza*

**Fərəc:** Qızlar günahsızdılar, kimsəsizdilər. Qorxurlar. Onları qınamayaq. Bizim işimiz *(soyuqqanlıqla)* Köçəriylə olmalıdı.

*Cəmil Fərəcin üzünə baxır. Çiyinlərini çəkir. Ağzını büzür, tərəddüd eləyir. Fərəc iti addımlarla yataq otağına gedir. Ayazla Cəmil də onun ardınca.*

*Kadr dəyişir. Yeməkxana. Sadiqə Xanıma yaxınlaşır. Gözlənilmədən qızın başına şapalaq vurur. Xanım diksinir, geri çəkilir.*

**Sadiqə:** Lotudan, ifritədən əmələ gəlmiş. Nə cəsarətlə mətbəxdən ət oğurlayırsan? Sənin ciyərini çıxaracam.

*Uşaqlar qulaqlarına inanmırlar. Hamı Xanımın üzünə təəccüblə baxır. Xanım ağlayır. Handan-hana dillənir.*

**Xanım:** Ət mənim nəyimə lazımdı? Mən mətbəxə hardan girə bilərəm? Mən əti harda, necə bişirib yeyə bilərəm?

**Sadiqə:** Dil-dil ötmə. Yalan deyirsən. İndi sənə göstərərəm.

**Xanım:** Yalan deyirəmsə, göstər.

*Sadiqə mətbəxə gedir. Sümük dolu boşqabla qayıdır. Boşqabı stolun üstə qoyur.*

**Sadiqə:** İndi ye sümükləri. Tez elə. Bu sümükləri yeməsən, səndən əl çəkməyəcəm.

*Sadiqə Xanımı yerə yıxır, təpikləyir. Xanım qışqırır. Fərəc haqsızlığa dözə bilmir. İrəli çıxır. Sadiqəni itələyir. Sadiqə yıxılır.*

**Fərəc** *(Sadiqəyə)***:** Əti aşpazla sən özün oğurlamısan. İndi də oğurluğunun üstü açılır. Xanımı bura qatma.
**Sadiqə** *(Fərəcə)***:** Kəs səsini, itin doğduğu. Xanıma qəhmər çıxana bax... Səni zəhərlədib öldürtdürərəm.
**Nərmin** *(Ayaza)***:** Bunu təşkil edən elə danışırlar. Bu gün Xanımı, sabah da bizi...
**Ayaz** *(Sadiqəyə)***:** Xanımın ət oğurladığını görən olub?
**Sadiqə:** Kəs... Adama oxşamaz... Müstəntiqsən?..
**Xatirə:** Hamısı böhtandı... Belə olsa...
**Sadiqə:** Nə?..
**Xatirə:** Direktor Nəzifə xanıma, qapıda dayanan polislərə şikayət eləyəcəyik.
**Fərəc** *(soyuqqanlıqla)***:** Bunu təşkil edən elə əziz-xələf direktorumuz Nəzifədi də. Görünür, təzə nəsə düşünüb.
**Sadiqə:** Bircə Nəzifəyə böhtan atmanız qalmışdı. Adə, Nəzifənin sizə yedirtdikləri gözünüzdən gələr.
**Ayaz:** Gəlməz.
**Sadiqə:** Nədən bilirsən?
**Cəmil:** Nəzifə özü uşaqlardan dolanır.
**Sadiqə:** Başa düşmədim.
**Fərəc:** Burda başa düşməməli nə var ki? Nəzifə özü səni Xanımın üstə qaldırıb. Eybi yoxdu...





**Sadiqə:** Fərəc, dilin çox uzundu. *(Səsi enir)* Mən Xanımı tərbiyə eləmək üçün...
**Fərəc:** Sən özün, müəllimə, o sümükləri yeyə bilərsən? Əgər yeyə bilərsənsə, bizə bir nümunə göstər.
**Sadiqə:** Fərəc, sən öz əcəlinlə ölməyəcəksən.
**Fərəc:** Elə siz də...

*Kadr dəyişir. Gecə gecədən keçir. Yataq otağının qapısı astadan bir neçə dəfə döyülür. Ayaz qalxaraq qapını açır. Nərminin kövrək səsi eşidilir:*

— Ayaz, dəhlizə çıx.
— *(Dərhal)***:** Gözlə, Nərmin, gəlirəm.

*Ayaz geyinib dəhlizə çıxır.*
*Kadr dəyişir. Üz-gözü pörtən, özünü itirən, saçları pırpızlaşan Nərmin özünü Ayazın üstünə atır. Ağlayır. Ayaz onu sakitləşdirməyə çalışır.*
*Kadr dəişir. Nərminlə Ayaz həyətə düşürlər. Skamyada otururlar.*

— *(pıçıltılı səslə)***:** Sənə nə olub, Nərmin?

*Nərmin başını Ayazın sinəsinə dirəyir və ağlayır. Hönkürür.*

— Mən ölsəm, bundan yaxşıdı, Ayaz.
**Ayaz:** Axı, nə olub? Sözünü de. Saxlama. Sən mənim bacım, mən də sənin qardaşınam. Mənə hər şeyi deyə bilərsən. Utanıb çəkinmə, Nərmin.

*Pauza*

— Köçəri əclaf ertədən mənə dedi: “Axşam saat onda otağıma gələrsən”. Mən də getdim. Otaqda heç kim yoxıydı, ikimiz-

iydik. Birdən o məni qamarlayıb öpdü.

— Nə?!

— Hə... Mən dartınıb onun əlindən çıxmaq, qışqırıb qaçmaq istədim. O, məni qucağına aldı, ağzımı sulğuncladı — Səsin çıxsa, tərpənsən, səni boğub, buradaca öldürəcəm, — dedi.

— Saxlama, qalanını da de.

— Sonra da mənimlə oldu... Hər şey bitdi. Mən neyləyəcəm, Ayaz? Bircə yolum qalır, özümü öldürmək.

*Pauza*

— *(Əsəbi, ancaq pıçıltılı səslə)*: Sən get otağına, səs-küy salıb, aləmi qaldırma, başqalarında şübhə oyatma.

— Ürəyim çatlayır.

— Su iç, özünə gəl, ancaq başına gələnləri heç kəsə demə. Sabah ikilikdə danışarıq.

— *(Ağlaya-ağlaya xısıltıyla)*: Mən belə gedə bilmərəm, Ayaz.

*Nərminin bədəni titrəməyə başlayır. Ayaz onun çiynini qucaqlayır. Özünə tərəf sıxır.*

— Ağlama, Nərmin... Onsuz da o, tez-gec öldürüləcək.

— *(Titrək səslə)*: Sən nə danışırsan, Ayaz? O, idmançıdı. Bütün fəndləri bilir. O, sizə imkan verməz əl qaldırmağa. Onu öldürəni həbs eləyərlər. Necə fikirləşirsən, bəlkə direktora, müəllimlərə ondan şikayət eləyim.

— Yox... Heç kəsə...

*Ayazın Nərminə yazığı gəlir. Onun alnına, saçlarına sığal çəkir. Nərmin başını onun dizlərinin üstünə qoyur. Sızlaya-sızlaya ağlayır.*

— Kimsəsizlik əclaf şeydi, Nərmin. Sən şikayət eləmə. Eləsən, hamı səni ələ salacaq. Sənə pozğun kimi baxacaqlar.





— Sən nə danışırsan, Ayaz.

— Hə, elədi əzizim. Rəfiqələrin səndən üz döndərəcəklər. Onda canından da bezəcəksən. Bura bizim üçün cəhənnəmə çevriləcək.

— *(Təəccüblə Ayaza baxır)*: Bizim üçün dedin, Ayaz?

— Hə... Necə bəyəm?

— Sənin üçün niyə?

— Biz dost deyilik?.. Bəyəm, özünü məndən ayrı sanırsan? O gün ədəbiyyat müəllimimiz necə dedi? “Dost olun, uşaqlar, sizin həyatınız hələ qabaqdadı. Çox şeydən xəbərsizsiz. Ona görə də həyatın çətinliklərinə, dolanbaclarına özünüzü hazırlamalısız. Möhkəmləndirməlisiz...”.

— Doğrudan da elədi. Biz niyə belə olduq? O əclaf məni niyə belə elədi? Mənə yazığı gəlmədimi? Müəllim də elə iş görərmi? Allah niyə onları elə yaratdı, bizi belə?

*Pauza*

— Tələsmə, Nərmin. Mən hansısa kitabda oxumuşam. Ağ qoçun qisası qara qoçda qalmır. O, cəzasını alacaq.

— Nə vaxt, Ayaz? Mən məhv olandan sonra?

— Qəlbini sıxma, mənim heç vaxt Köçəridən xoşum gəlməyib. Mən onu əclaf sanmışam. Deməli, səhv eləməmişəm. Mən onu düz başa düşmüşəm, Nərmin.

— Ayaz, bizi bura atanlar əclafdılar. Nə olsun ki, ata-anamız olublar. O gün kinoya baxırdınmı?

— Hə, necə bəyəm, Nərmin?

— Çobanların quzuları örüşə aparmalarını görürdünmü? Bax, biz o quzularıq.

— Quzularıq?

— Hə...

— Əcəb bənzətmədi.

— Bəs, nə bilmisən, Nərmin? Əllərində çomaq tutan çoban-

larsa, bizə baxanlardı. Quzular başlarını aşağı salıb, necə də sakit-sakit gedirdilər, hərdənbir də mələşirdilər...

*Deyilənləri anlamırmış kimi, Nərmin üzünə, dizlərinə vurmağa başlayır. Səsi boğula-boğula Ayazın yaxasından tutur, hönkür-hönkür ağlayır. Tez-tez öz-özünə deyinir.*

— O, məni niyə çağırdı? Məni niyə biabır elədi? Mən uşaqların arasına necə çıxacam, Ayaz? Mənə inan. Mən bu işdə günahsızam. Ürəyim partlayır. Mən öləcəm. Axı, mən elə bilirdim müəllim...

— Hər şey geridə qaldı, Nərmin. Olan olub. Bayaq da dedim, indi də deyirəm, bunu kimsə bilməməlidi.

*Pauza*

— Tək sən deyilsən, o, çoxlarına sataşıb. Tələsmə... Dedim, axı. Sən mənim dostumsan. Mən həmişə sənin yanında olacam. Qorxma. Burdan gedəndə də səni özümlə aparacam, bacı.

— Sağ ol, Ayaz. Sən yaxşı oğlansan. Təskinliyin ürəyimə sakitlik gətirir. Mən də heç vaxt səni unutmaram. Kimsəsizə sataşmağa nə var ki?

*Pauza*

— Bizi atıblar, Nərmin. Axı niyə? Özüm də bilmirəm. Ancaq biz buna dözməliyik. Kimsəsizlik nə qədər pis olsa da, biz onu içimizə salmamalıyıq.

*Pauza*

Anam məni atdığı günlər yadıma düşəndə, az qala, dəli oluram. Necə də ağırıydı o anlar. O günləri bir də yadıma salmaq istəmirəm.

— Ayaz, mən hamıdan xəcalətli qalacam. Hamı mənə pis baxacaq. Deyəcəklər, mən pozğunam. Bilirsən, mənim nə vəziyyətə düşdüyümü?

— Dedim axı, Köçəri tək sənin yox, çoxlarının başına elə





oyunlar açıb. İnanıram, burdan ayrılan qızlardan xoşladıqlarını, gözlərinə yaxşı görünənləri öz yatağına salıb əclaf. Özünə gəl. İnan mənə, burda olan qızlardan da sənin vəziyyətində olanlar var.

## IV bölüm

*Nərmin dərindən nəfəs alır. Ağır-ağır ayağa qalxır.*

— Sən nə danışırsan, Ayaz? Bəyəm, burda mənim günümə düşənlər də var?

— Get otağına. Özünü həmişəki kimi apar. Kimsəni şübhələndirmə. Köçəri bir də səni çağırsa, getmə. Vaxt gələndə ürəyindən tikan çıxacaq.

*Onlar ağacların kölgəsiylə bağın aşağısına necə gəlmişdilərsə, elə də geri qayıdırlar. Ayaz Nərmini yataq otağına yola salır, qayıdanda gözlənilmədən qarşısına Köçəri çıxır. Ayaz nifrətlə ona baxır.*

**Köçəri:** Gecə vaxtı qızla burda nə sülənirsən? Ayə, küçük, sənin qızla gəzən vaxtındı?

— Nə dedin?

— Dərd, çor dedim. Səsin çıxsa, səni bu əllərimlə boğaram, zinadanolma.

*Ayaz "zinadanolma" ifadəsinin mənasını anlamır. Susmağa üstünlük verir. Yataq otağının qapısı açılır. Fərəc dəhlizə çıxır.*

**Köçəri** *(dərhal)***:** Sabah danışarıq. Səni əcəl hərləyir.

**Ayaz:** Danışarıq.

*Fərəc heç bir şey olmamış kimi vanna otağına girir və tez də çıxır. Köçəri Ayaza qıyğacı baxa-baxa gedir.*

**Fərəc** *(astadan)***:** Ayaz, indi mən deyənlərə inandınmı?

*Ayaz Fərəcin sözünü başıyla təsdiqləyir. Fərəc sakit tərzdə bildirir.*

— Nərmin səni çağıranda və sən yataqdan qalxıb gedəndə mən hər şeyi başa düşdüm, dostum. Sən indi bilirsənmi ki, burda baş verən hər şeydən mən xəbərdaram.

— Hə, anladım, dostum. O, məni sarsıtdı.

— Yataq, sabah dərsdən sonra — istirahət saatlarında ikilikdə danışarıq. Onda Köçəri barədə də bir şey fikirləşərik.

*Kadr dəyişir. Ayazla Fərəc otağa daxil olurlar. Ayaz soyunub yatağına girir. Hey yerində eşələnir. Səhər açılır. Fərəc yarıyuxulu halda pıçıltılı səslə Ayazdan soruşur.*

— Deyəsən, sən də bu gecə yata bilmədin, Ayaz?

— Yox... Fərəc, gör əclaf nəylə məşğul olur?

— Sus, ad çəkmə. Bizim başımıza elə şeylər çox gələcək, Ayaz.

— Zülm üçün doğulmuşuq.

*Kadr dəyişir. Səmanın evi. Gecə yarı. Səma yatağında o tərəf-bu tərəfə çevrilir. Səmra onun yanında mışıl-mışıl yatır. Səma yuxuda diksinir. Heyrət içərisində oyanır. Çarpayısının ortasında yarıçılpaq vəziyyətdə oturur. Səmraya tərəf baxır. Hıçqıra-hıçqıra ağlayır.*

**Səmanın daxili səsi:** Allah, mən neylədim? Mən nə qədər qaragünlüyəmmiş. Ayazı niyə atdım? Mən onsuz yaşaya bilmi-





rəm. Gecənin bu vədəsində yuxuda da oğlum məni rahat buraxmır. Mənə necə də küskün-küskün baxırdı. Gözlərindən qəm, kədər, nisgil, inciklik yağırdı. O, — Ana — deyə həmişəki kimi üstümə qaçmadı... Mən anlayıram ki, dünyanın ən əclaf qadınıyam. “Yaşada bilməyəcəyəm” bəhanəsiylə mən hansı addımları atdım. Ayazı girdablara düçar eləyib, arxamı boşaltdım... Qızımı dayaqsız qoydum. Səmra böyüyüb qananda bunu mənə bağışlayarmı? (*Səmra anasının hıçqırıqlarına, pıçıltılarına oyanır, dodaqlarını büzüb, ağlamağa başlayır).* Yat, Səmra, yat! Sən hardan biləsən ki, anan vicdanını satıb, törətdiyi cinayəti anladığı üçün göz yaşları axıdır. Bu ağıl ki, ananda var, Ayazın əvəzinə sən də atıla bilərdin.

*Səmra səsini kəsmir. Ana qızının yanına uzanaraq onu qucağına alır. Bərk-bərk bağrına basır. Qızını ovundurmağa çalışır.*

*Kadr dəyişir. Fərəc, Ayaz və Cəmil həyətdəki skamyada otururlar. Cəmil o tərəf-bu tərəfə baxır.*

**Ayaz:** Xeyir ola, Cəmil, sözlü adama oxşayırsan?

**Cəmil:** Hə... Bu axşam yatmamışam.

**Fərəc:** Niyə?

**Cəmil:** Xatirə dediklərindən.

**Ayaz:** Xeyir ola?.. Yenə təzə xəbər?

**Cəmil:** Ola bilər, deyəcəklərimdə bir yanlışlıq da olsun. Təki yanlış olaydı.

**Fərəc:** Sözünü de... Sən də qəribə adamsan... Qulağın səs eşitdisə, onu yüz yerə yozursan. Axırına çıxmasan, sakitləşmirsən...

**Cəmil:** Hə... Onu düz deyirsən. Çox narahatam.

**Ayaz:** Ayə, sözünü çox gözləməliyik?

**Cəmil:** Bir az çəkinirəm, Xatirənin taleyindən. Qıza yazığım gəlir. Qorxuram, həyatı ilə oynamış olam.

**Fərəc:** Dostlarımızın talelərinə biz də biganə deyilik, Cəmil.
**Cəmil:** Teymurun ölümü yadınızdadır?
**Ayaz:** Hə, nə olub ki?
**Cəmil:** Xatirə deyir ki, onu Köçəri öldürdü.
**Ayaz:** Necə yəni, Köçəri öldürdü? Ola bilməz.

*Pauza*

**Fərəc:** Onu bilirəm, Cəmil. Teymur həyət qapısına yaxınlaşanda Köçəri onu təhqir eləyib. Teymur da Köçərinin dediklərini özünə qaytarıb. Köçəri onun qarnına təpiklə vurub. Teymur yıxılıb. Sonra da ikinci zərbəni onun başına endirib. Teymurun qulağından, ağzından qan gəlib. Dərhal da Teymuru aradan çıxarıblar. Bunlarımı eşitmisən, Cəmil?
**Ayaz:** Ayə, siz nə danışırsız? Mən yatmışam. Burda baş verənlərdən xəbərsizəm.
**Fərəc:** Dostum, hələ çox şeylərdən xəbərsizik... Teymur yaxşı oğlanıydı. Mən onun xatirini çox istəyirdim. Heyf ondan.
**Ayaz** *(çaşqın halda):* Ayə, bu qan batarmı? Allah cəzalarını verəcək.
**Cəmil:** Kim Köçərinin, Nəzifənin cəzalarını verəcək, deyə bilmərəm. Ancaq hələ ki, cəzalanan biz kimsəsizlərik, başqalarını görməmişəm?
**Ayaz:** Allah başlarına daş salacaq.
**Fərəc:** Salacaq, salmayacaq, deyə bilmərəm. Oturub hər şeyi Allahdan gözləmək gücsüzlərin, bir də çıxış yolu tapa bilməyən xanımların işidi. Köçəri, Nəzifə çox kimsəsizləri güdaza veriblər... Bizi də verəcəklər...
**Ayaz:** Ayə, Fərəc, səninlə danışandan sonra bir müddət özümə gələ bilmirəm.
**Cəmil:** Bu qədər əzildikdən sonra nə gələcəksən?
**Fərəc:** Qəsd edilən dostlarımızın qanını biz almasaq...
**Ayaz:** Ayə, Cəmil, böyüklər niyə belə ağılsız hərəkət eləyirlər?





**Cəmil:** Necə?
**Ayaz:** Başımıza gətirilənlərdən xəbərsizsən? Uşaqların nə günahları var? Gah öldürürlər, gah söyürlər, gah da qızları...

*Pauza*

**Fərəc:** Sadəcə saymazlıq. Qaniçənlik... Bəlkə də bilirlər ki, onlardan elədiklərini soruşan olmayacaq... İçim nifrət hissindən alışıb yanır... Sizə deyirəm, öldürülməsəm, öldürəcəm. Barəmdə nə düşünürlər, düşünsünlər...

*Fərəcgil əyləşdikləri skamyadan qalxırlar. Söhbət eləyə-eləyə binanın girəcəyinə tərəf gedirlər.*
*Kadr dəyişir. İstirahət günü. Oxu zalı. Uşaqlardan kimisi kitab oxuyur, kimisi şahmat oynayır, kimisi də şəkil çəkir. Fərəc Ayaza gözüylə "arxamca gəl" işarəsini verir. Fərəc qabaqda, Ayaz da onun ardınca bəzək kollarının arasında qoyulmuş skamyada otururlar. Cəmil də saymazyana, ayaqlarını sürüyə-sürüyə onlara yaxınlaşır. Bu vaxt yanlarından ötən Təranə üzünü Fərəcə tutur.*

**Təranə:** Sağ ol, oğlum. Ailə, ev-eşik sevən, ailəcanlı kişi olacaqsan.
**Fərəc:** Nədən bildin?
**Təranə:** Bu səhər gördüm, həyət-bacadakı zir-zibilləri bir yerə topladığını. Sonra da yandırdığını. Kaş hamı sənin kimi olaydı.
**Cəmil** *(Təranəyə zarafatla)*: Necə düşünürsən, Ayazla məndən yaxşı kişi olmaz?
**Ayaz:** Gərək biz də işimizlə onu sübut eləyək.

*Fərəc gülümsünür və astadan bildirir.*

**Fərəc:** Hə... Küçələrdə məhv olmasaq.

*Fərəc Təranəylə danışsa da, olduqca narahat və əsəbi görünür.*

**Ayaz:** Özünə gəl... Tələsmə... Əsəbiləşmə. Biz bura gəlmişiksə, necə olur-olsun, Köçərini öldürməliyik. Dostum, öləsi Köçəri, əsəbiləşən sən.

**Fərəc:** Yox... Məni əsəbiləşdirən onun ölümü deyil. Cinayət eləyib, cəzasını da çəkməlidi. Məni narahat eləyən uşaqlarımızın taleləridi. Görürsüz, qızlar otaqlarından çıxmaq istəmirlər. Həyətə düşüb, hava almaqdan qorxurlar. Onların canlarında vahimə var.

*Pauza*

**Ayaz** *(üzünü Cəmilə tutaraq)***:** Fərəc haqlıdı, nə qədər ki, Köçərinin dərsini verməmişik, o qızların gözlərində biz uşaq kimi qalacağıq. Eybi yoxdu, biz uşaq kimi qalaq.

**Fərəc:** Bu əclaflar qəddarlıqda bizə valideynlərimizdən də betər oldular. Biz ya özümüz barədə düşünməliyik, ya da Köçəriylə direktorun, onların əlaltılarının kölələrinə çevrilməliyik.

**Ayaz:** Bu, həyatdı. Görünür, bizə dərs verir.

**Cəmil:** Mən nə qərar versəniz razıyam... Onsuz da, gələcək həyatımız türmədi, ölmək ölməkdi, xırıldamaq nə deməkdi?

**Fərəc:** Ayə, özünüzə çox da qapılmayın.

**Ayaz:** Fərəc, mən sənin ağlına heyran qalıram. Kaş məndə də səndəki qabiliyyət olaydı.

**Fərəc:** Yox, Ayaz... Düz demirsən.

**Cəmil:** Etiraf eləyirik ki, səndəki düşüncə bizdə yoxdu. Bu sənin qabiliyyətini şişirtmək deyil... Sən cəsarətlisən. Ayıqsan. Sən düzlük axtarırsan. Sözü yerində deyə bilirsən. Bu, anadangəlmə qabiliyyətdi. İstəyirəm mən də sənin kimi olam. Ancaq neyləyim ki, ola bilmirəm.

**Ayaz:** Cəmil düz deyir, Fərəc.

**Fərəc:** Yəqin ki, mənim dediklərimə inanırsız. Şəkki-şübhə





eləmirsiz. Mənə yalançı, uydurmaçı, fırıldaqçı kimi baxmırsız. Bunu keçəcəyimiz çətin, vahiməli həyat da göstərəcək.

**Ayaz:** Sən xalis Baronsan, qardaş.

**Fərəc:** Mənim dostlarımıza yazığım gəlir. Nə qədər ki, Köçərini aradan götürməmişik, o, direktorla əlbir olub, qızların başına oyunlar açacaq.

*Pauza*

**Cəmil:** Köçərini yola salsaq, inanıram ki, direktor da yığışacaq. Onu da susduracağıq.

**Fərəc:** Susmaz... Öz işidi... Susdurarıq... *(Fərəc üzünü Cəmilə tutaraq ani fikrə gedir. Gözlərinin dərinliyində ağır bir qəm, qüssə, kədər duyulur).* Axşamkı əhvalatdan yəqin ki, xəbərdarsan, Cəmil.

**Ayaz** *(dərhal)***:** Fərəc, dostum, sən deyənləri ölsəm də, yerinə yetirəcəm. Söz verirəm. Ancaq heç bir yerdə Nərminin adı çəkilməməlidi. *(Kövrəlir.)* O, günahsız, kimsəsiz, yazıq bir qızdı.

**Fərəc** *(qətiyyətlə)***:** Tək Nərminin yox, Ayaz. Heç kimin adı çəkilməməlidi. Biz ölsək də, qalsaq da, işə başlamalıyıq.

**Cəmil:** Necə?

**Fərəc:** Həftənin dördüncü günü — sabah yox, o birisi gün Köçəri axşam növbəsində olacaq. Onun dişində şirə qalıb. O, yenə kiməsə sataşacaq.

**Ayaz:** Öləcəm, ancaq ondan qisasımı alacam.

**Cəmil:** Əcəb işdi. Onun Allahı yoxdu?

**Fərəc:** Biz həmin gün gecə onun işini bitirməliyik. Sözümüz qətidi, geriyə yolumuz yoxdu. Bunu da mən sizə deyirəm. Siz ölsəniz, mən də öləcəm.

**Ayaz:** Hər şey aydındı. Köçərini necə aradan götürəcəyik?

**Fərəc:** İmkan ver, Ayaz. Bilirsiz ki, Köçərinin gecə yatdığı otaq həyətin giriş qapısı ağzındakı birmərtəbəli binadadı. Həmin otağın pəncərəsi həyət divarına tərəfdi. Ora elektrik

lampası qoyulmadığından, gecələr alatoran olur...

**Cəmil:** Qoyulsa da, lampanı qırmağa nə var?

*Pauza*

**Ayaz:** Biz burda çox otururuq. Diqqəti cəlb eləyə bilərik. Qalxın, gedək yatdığımız binanın zirzəmisinə. Ordan Köçərinin otağını daha aydın görə bilərik.

*Onlar ayağa qalxırlar. Tək-tək, aralarında beş-on dəqiqə olmaqla zirzəmiyə gedirlər.*

**Cəmil:** Gərək əvvəldən bura gələydik.

**Ayaz** *(gülür)*: İlk təcrübədi. Sağlıq olsun.

**Fərəc** *(pəncərədən baxır)*: Uşaqlar, Köçərinin otağına iki yolla soxula bilərik. Mən hər şeyi götür-qoy eləmişəm.

**Cəmil:** O yolları indi bizə deyə bilərsənmi?

**Fərəc:** Birinci yol budu ki, mən sizi yatdığımız binanın ikinci mərtəbəsindəki süpürgə, xəkəndaz, bel, vedrə, vanna yığılmış açıq otaqdan izləyirəm. Siz isə pəncərəyə yaxınlaşırsız. Cəmil, sən Ayazın ayaqları altında yatırsan. O, sənin kürəyinə çıxır. Sən yavaş-yavaş onu qaldırırsan. Görürsünüz, pəncərənin bir şüşəsi sınıb, yoxdu. Ayaz cəftəni açır və çox ehtiyatla pəncərədən otağa düşür.

**Cəmil:** O mümkündürmü?

**Fərəc:** Mümkün olmasa, onu deyərəmmi?.. Ayazın əlində uzun tiyəli bıçaq olacaq. Yatdığı yerdə bıçağı qəflətən Köçərinin mədəsinin üstündən soxur və burur. O tərəf-bu tərəfə fırladır. Köçərinin o zaman səsi çıxmayacaq.

*Ayaz özünü saxlaya bilmir.*

**Ayaz:** Fərəc, sənin nəslində müstəntiq-zad olmayıb ki?

**Fərəc:** Yox, necə bəyəm? Nəslim vardı ki, biləm, müstəntiq




vardı, ya yoxdu?

**Cəmil:** Müstəntiq kimi danışırsan.

**Fərəc:** Müstəntiqi deyə bilmərəm, amma qəti bilirəm ki, cinayətkar olub. O da yəqin qanla mənə keçib.

**Ayaz:** Sözünə davam elə.

**Fərəc:** Köçəri cəzasını alır. Ömrünü namusunu oğurladığı qızlara bağışlayır. Sonra da Ayaz bıçağı götürüb aradan çıxır. Səndə də bir bıçaq olacaq, Cəmil. Əgər ölüm işini Ayaz tək həyata keçirə bilməsə, sən dərhal ona köməyə gedirsən. O anda mən də yanınızda olacam.

*Fərəci dinlədikcə Ayazın bütün bədəni yay kimi açılır, yumulur. Başındakı tüklər biz-biz olur.*

**Ayaz:** Adam öldürmək mənim üçün ilk təcrübədi.

**Cəmil:** Ayə, bəyəm biz mütəxəssisik. Ya qəssabıq?

**Ayazın daxili səsi:** Bu yaşda banda yaratmaq, adam öldürmək?! Qan tökmək?! Alçaq Köçəri, sən neylədin?.. Nərminin göz yaşlarını nəylə əvəzləmək olar? Cəmi-cümlətanı on dörd yaş. Dünyadan xəbərsiz, yeniyetməliyə qədəm qoymaqda olan Nərminin bakirəliyini almaq! Onu zorlamaq! Dəhşət!.. Aman Allah, o baş verənlər beynimdə çözələnəndə vücudum titrəyir... Bəli, Köçəri ölməlidi. Onun ölümünə indidən haqq qazandırıram...

**Cəmil:** Hər gün başımıza bir oyun gəlir. Dərd üstə dərd qalaqlanır.

**Ayaz** *(Fərəcə)*: Bəs ikinci yol?

*Pauza*

**Fərəc:** İkinci yol odur ki, hər axşam Köçəri qapıçıyla ya domino, ya da şahmat oynayır. Qapısı da çox vaxt açıq olur. Onun otağının küncündə hündür paltar şkafı var.

**Cəmil:** Onların Köçərinin öldürülməsinə nə dəxli var?

**Ayaz:** Tələsmə, Cəmil, qoy Fərəc sözünü axıra çatdırsın.

**Fərəc:** Dəxli odur ki, mən Köçərini nəzarətə götürürəm. Cəmil içəri girib şkafın arxasında gizlənir və onun gəlməsini gözləyir.

**Ayaz:** Birdən gəlmədi?

**Fərəc:** Gələcək.

**Cəmil:** İmkan ver, Ayaz. Özün də həyəcanlanma.

**Fərəc:** Gecə Köçəri otağına gələndə mən avtomatdan "Kimsəsizlər evi"nin işığını söndürürəm. Köçəri də, qapıçı da elə biləcəklər ki, elektrik xəttində nəsə bir xəta baş verib. Ustanı gecəikən çağırtdırmayacaqlar. Yatıb səhəri gözləməli olacaqlar. İşığın olmaması hadisənin baş verməsinə daha yaxşı şərait yaradacaq.

**Ayaz:** Aha...

## V bölüm

**Fərəc:** Köçəri soyunub yatağına girir. Cəmil onun yuxulamasını gözləyir. Xorultusu, fısıltısı eşidiləndə, Cəmil əməliyyata başlayır. Ayaz, sənsə qapı ağzında dayanıb işin sonunu gözləyirsən. Nəsə bir hadisə baş versə, dərhal Cəmilə köməyə gedirsən.

**Ayaz** *(təəccüblə)*: Başqa söz ola bilməz.

**Cəmil** *(astadan)*: İkinci yol yaxşıdı.

**Ayaz:** Tutalım, biz girdik içəri. Bizim ona gücümüz çatacaqmı?

**Cəmil:** Qorxursan, çəkil geri. Mən ondan ya qisasımı alacam, ya da öləcəm.

**Fərəc:** Tərəddüd edirsən, Ayaz?

**Ayaz:** Yox... Həqiqəti deyirəm, Fərəc.

**Fərəc:** Sən məni axıradək dinləmirsən, Ayaz. Duyuq salmadan Köçərinin yataq otağına girə bilsək, hər şey biz düşünən kimi olacaq.





**Cəmil:** Necə düşünürsən, Fərəc, Fazili də bu işə qatmağımızı?

**Fərəc:** Əvvəla, iştirakçıları çoxaltmaq qarğa məndə qoz vara oxşayır. İkincisi, Fazilin ağzı çuval kimidi, etibar eləmirəm. Üçüncüsü də, cinayətdən çox adam xəbər tutmasa yaxşıdı.

**Ayaz:** Qeyrəti olan sirrini çıxararmı?

**Fərəc** *(gülümsünərək)*: Qeyrət sözünü uşaqlara başa salmaq çətin olar. Hələ ki, Köçəriyə üçümüz kifayət elərik... Əməliyyatdan sonra burda görüşürük... Bıçaqları atmayın, izimizə düşə bilərlər.

*Onlar razılaşırlar. Tək-tək zirzəmidən çıxırlar.*

**Ayazın daxili səsi:** Son anda öldürmək vəzifəsini niyə Fərəc mənə yox, Cəmilə tapşırdı? Maraqlıdı, o çətin, qorxunc işdən Cəmil də imtina eləmədi.

*Pauza*

— Doğrudur, Fərəcə Köçərini "Mən öldürüm" təklifini vermədim. Axı niyə?.. Onsuz da əməliyyatın içərisindəyəm. Cinayəti onlarla bölüşürəm. Hə, yadıma düşdü. Fərəc mənə demişdi ki, Nərmindən əvvəl Cəmilin dostu Xatirənin də bakirəliyini Köçəri almışdı. O qızın da həyatını Köçəri dəyyus korlamışdı... Sağ ol, Fərəc, bu barədə sən heç kəsə bir kəlmə də ağzından söz çıxarmamısan. Təkcə qızlar arasında Xatirənin özü ehtiyatsızlıq eləmişdi. Ondan da bir neçə dəfə direktor bəhrələnmişdi...

*Kadr dəyişir. Səmanın evi. Qapı döyülür. Səma qapını açır. Qonşu Afaq görünür:*

**Səma:** Gəlin, gəlin, Afaq xanım.

*Afaq içəri keçir. Stulda əyləşir.*

**Afaq:** Ayaz hardadı? Neçə vaxtdı gözümə dəymir.

*Səma özündən uydurur.*

— *(Uydurur)* Kənddədi. Anam çox darıxır, ağladı-sıtqadı, dedi ver mənə, onu özüm saxlayacam. Əlacsız qalıb razılaşdım. Neyləyim, anadı, sözündən çıxa bilmədim.
— Elə bilirdim sənin anan...
— Yoox... Allah eləməsin... Anam Ayazla nəfəs alır.
— Uşaq səndən ötrü darıxmır ki?
— Eh... Niyə darıxmır? Darıxır. Özümün də Ayazdan ötrü dilim-ağzım təpiyir. Neyləyim, anadı da. İstədi, sözün çevirənmədim.
— Maşallah, göz dəyməsin, Səma, Ayaz çox şirin uşaqdı. Gözlərindən ağıl yağır.

*Pauza*

— Sizinkilər də xoşbəxt olsun. Özümüz də valideynik. Mənim bacımın uşağı olmur. Neçə dəfələrlə kiçik qızımı istədi götürüb saxlasın. Ancaq ürəyim gəlmədi. Vallah, sən qəribə anasan.
— Niyə? Burda nə var ki?
— Ağız, necə nə var, bəyəm övladı da gözdən uzaq qoymaq olar?..
— Bacın səndən incimədi?
— İncisin də... O da mənim acığıma gedib "Kimsəsizlər evi"ndən bir qız uşağı götürdü. Ağız, Allah o qızın sevgisini elə salıb bacımın ürəyinə, gəl görəsən.

*Səma dərindən ah çəkir.*

— Dünya belədi də... Hərəyə bir ömür qismətdi. Uşağı gör kim doğur, kim saxlayır. Biri öz xoşuyla vicdanı, namusu satır,





o birisi yoğurmadım-yapmadım, hazırca kökə tapdım eləyir.
— Ay Səma, deməsən, danışmasan da duyuram. *(Səmanın ürəyi atlanır. Afaq sözünə davam eləyir)* Ayaz üçün darıxırsan, onun nigarançılığını çəkirsən.
— Hə... Vallah-billah gic toyuğa dönmüşəm. Ağzımı açıb danışmasam da, ürəyim dözmür. Hara gedirəm, uşağın səsini eşidirəm. Nəfəsinə həsrətəm.
— Kim nə deyir desin, Səma xanım, ən böyük sevgi övlad sevgisidi...

*Pauza*

— Evdə oturmuşdum, birdən Ayaz yadıma düşdü. Ağzıma daşlar, ürəyimə yüz fikir gəldi, birdən Ayaza xətər yetər, xəbərim olmaz. Yaxşı deyil, gedim görüm nə var, nə yox...
— Çox sağ ol. Hər şey yaxşıdı... Ancaq...
— Ancaq nə?
— Bir balaca sıxıntım var.
— Olacaq da. Sağlıq olsun, papağını fırla, böyüyüb gələcək yanına...
— Təki sən deyən olsun.
— Mən gedim, uşaqların dərsdən qayıdan vaxtlarıdı.

*Afaq gedir. Səma tək qalır.*

**Səmanın daxili səsi:** Çətini bir yalan danışmaqdı. Qalan ömrüm də yalana, ikiüzlülüyə bürünəcək... Ağılsız baş... Sən nələr törətmirsən? Sahibini nələrlə qarşılaşdırırsan?.. Çək cəzanı, Səma, çək. Hələ çox yanıb-yaxılacaqsan. Hələ çox göz yaşları axıdacaqsan... Mən kim oldum: bala qatili! Özü özünün düşməni...

*Səmanın ürəyində küt ağrı əmələ gəlir. O, əlləriylə ürəyini tutur. Divana uzanır...*
*Kadr dəyişir. Sinif. Dərs prosesi. Gülşən müəllimə şagirdlər-*

*lə keçmiş dərs barədə müsahibə aparır. Qapı açılır. Sadiqə hay-küylə sinfə daxil olur.*

**Gülşən:** Bu nə hərəkətdi, xanım. İçrəidə dərs gedir.
**Sadiqə:** Dərs-mərs bilmirəm. Neçə gündü yata bilmirəm. Fərəc qabağa çıx...

*Fərəc ayağa qalxır. Uşaqlar çaşqın halda gah Sadiqəyə, gah da Fərəcə baxırlar.*

**Fərəc:** Sözünüzü deyin.
**Sadiqə:** Deyirəm qabağa çıx...
**Gülşən:** Niyə?
**Sadiqə:** Barmağımı salıb, onun gözlərini çıxaracam.
**Gülşən:** Xanım, bu hərəkət tərbiyəçiyə yaraşmaz.
**Sadiqə:** Sən saxla. Elə elədiyinizdi ki, Xanımın üstündə Fərəc abrımı aldı. Yoldaşları da onu müdafiəyə qalxdılar.
**Xanım:** Yağışdan çıx, yağmura düş...
**Gülşən:** Ondan da xəbərdaram. Hamısı özün yaratdığın mərəkə olub. Heç kəsdən inciməyə haqqın yoxdu.
**Sadiqə:** Bəsdi, sən canın... *(Üzünü Fərəcə tutaraq)* Sənnənəm, yaramaz.

*Fərəcin qabağa çıxmayacağını görən Sadiqə daha da əsəbiləşir. Gözləri hədəqədən çıxır. Özü Fərəcin üstə gedir və əlini oğlanın saçlarına atır. Fərəc Sadiqənin əllərini kənara itələyir.*

**Fərəc** *(əsəbiləşir)***:** Deyəsən, özünü apara bilmirsən. Uzaqlaş məndən.
**Sadiqə:** Alçaqlar... Çörəyi dizləri üstə olanlar... Bu qədər sizə əziyyət çəkirik. Qazancımız da bu.
**Nərmin:** Dəliyəm, zorluyamdı.





*Gülşən Sadiqəyə yaxınlaşır. Onun qolundan tutur.*

**Gülşən:** Sinfi tərk elə, xanım. Sonra ikilikdə danışarıq.

*Sadiqə qolunu Gülşənin əlindən aralayır.*

**Sadiqə:** Yox... Qoy desin, Fərəc, görüm o nəyə arxalanır, mənimlə belə dil-dil ötür.
**Fərəc:** Nəyə yox, kimə?
**Sadiqə:** Sənin kimsən var?
**Fərəc:** Mən özüm kimsəyəm. Mənimlə belə danışma.
**Sadiqə:** Kimsəli küçüklər burda nə sülənir.
**Ayaz:** Sadiqə xanım, uşaqları təhqir eləmə. Bizi də, sizi də yaradan var...
**Sadiqə** *(Ayaza)***:** Kəs, küçük! *(Üzünü Fərəcə tutaraq)* Sənin başına daş salacam. Arxalanırsız Gülşən kimi intriqabazlara.
**Fərəc:** Mən özümə arxalanıram... Gülşən müəlliməni bu işə niyə qatırsan? Onun günahı nədi?
**Gülşən:** Sən lap özünü itirirsən, Sadiqə. Nə danışdığını da bilmirsən.
**Sadiqə:** Anam-bacım, mən səni "Kimsəsizlər evi"nə direktor qoyanam? Əşi, ürəyin istəyir direktor olmaq, get düz-qoş, gəl. Kimdi sənə mane olan?
**Ayaz:** Bunun azarı varmış...
**Cəmil:** Öyrədilib.
**Gülşən:** Əlli dərənin suyunu qarışdırma uşaqların yanında. Özünü yığışdır. Yoxsa... Məsələni yuxarıda qaldıracam.
**Sadiqə:** Öyrənmisən satqınlığa...
**Gülşən:** Tutaq ki, mən sən deyən kimiyəm, Sadiqə. İndi bura niyə gəlmisən? Dərsi niyə pozursan? Fərəci niyə təhqir eləyirsən? Biz sənin üçün nəyik? Axı, üzdən iraq, tərbiyəçisən.
**Sadiqə:** Fərəcin canın almağa.

**Nərmin:** Aaa... Bu lap dillidi ki...
**Fərəc:** Sadiqə tərbiyəçi yox, tərbiyəsizdi. *(Onun barmaqlarını tutub sıxır.)*
**Cəmil:** Sıx, qoy qışqırsın. Canı çıxsın.
**Sadiqə:** Öldüm, ana, burax barmaqlarımı, it oğlu.
**Fərəc:** İtin balası özünsən. İndi çıxar gözlərimi.

*Ağrıya dözə bilməyən Sadiqə yalvarmağa başlayır.*

**Sadiqə:** Fərəc, burax barmaqlarımı.
**Fərəc:** Yox... Qıracam.
**Gülşən:** Burax, Fərəc. Deyəsən, ağlı başına gəlir.
**Fərəc:** İnanmıram.
**Xatirə:** Qoyun qırsın. O elə kafirdi ki...
**Xanım:** Elə bilir, Fərəc də mənəm.

*Sadiqənin sinəsi qalxır-enir. Nəfəsi təngiyir. Dizlərini yerə qoyur. Gülşən müəllimə Sadiqənin barmaqlarını Fərəcin əlindən alır. Qızlar Sadiqəni sinifdən çıxarırlar.*
*Səma divanda uzanır və fikrə gedir.*
*Kadr dəyişir. Axşamdır. Qaş qaralır. Fərəc, Ayaz və Cəmil Köçərini və onun yatdığı otağı nəzarətə götürürlər. Cəmil olduqca qayğılı və həyəcanlı görünür. Onlar binanın həndəvərində var-gəl eləyirlər. Cəmil pəncərədən Köçərinin otağına baxır. Tez də binadan uzaqlaşır. Ayaza "Gedək" işarəsini verir. Ayazla Fərəc bir an çaşırlar. Cəmil Fərəcə yaxınlaşır. Ayaz da özünü onlara yetirir. Fərəc təəccüblə Cəmilin üzünə baxır. Ayaz çiyinlərini çəkərək başını yelləyir.*

**Cəmil** *(gülümsəyərək pıçıltılı səslə)***:** Məsələ biz düşünən qədər də çətin deyil. Qapı açıqdı. Şkafın arxasında gizlənmək bəs edər ki, Köçərinin məsələsini çürüdüm.





*Pauza*

Qorxusuz-hürküsüz qapıdan çıxıb gedim. Nə diş bilsin, nə dodaq. Sabah direktorumuz özü Köçəri üçün zurna çaldırar.
**Ayaz:** Yox... Onda otağa ikimiz girəcəyik, Cəmil. Köçəri oyanar, səni boğub öldürər. Əlimiz heç hara çatmaz.

*Fərəc diqqətlə Cəmilin üzünə baxır.*

**Fərəc:** Birdən Köçəri səni otağında gördü?
**Cəmil:** Onda deyərəm ki, guya bilmir. Ayazla sən sözü bir yerə qoyub məni döymək istəmisiz. Mən də qaçıb bura sığınmışam. Elə olarsa, Köçərinin də ağlına bir şey gəlməz.

*Fərəc Ayaza tərəf dönür. Ayaz özünü saxlaya bilmir.*

**Ayaz:** Cəmil, Köçəri toyuq deyil.
**Cəmil:** Alınmaz, Ağa durur, Ağacan durur.
**Fərəc** *(qəti etiraz eləyərək)***:** Bizi oyundan kənarda saxlamağa çalışma, Cəmil. Hamımızın o qətldə əli var. Qətli siz törətsəniz də, fikir mənimdi. Üçümüz də eyni dərəcədə cavabdeh olacağıq...

*Kadr dəyişir. Fərəc, Ayaz və Cəmil bəzək kollarının yanına gedirlər. Fərəc torpağı eşələyib salafana bükülü iki ədəd uzun tiyəli bıçaq çıxarır. Bıçağın birini Ayaza, o birini Cəmilə verir. Onlar bıçaqları üstlərində gizlədirlər və qətlin vaxtını gözləməli olurlar...*
*Kadr dəyişir. "Kimsəsizlər evi"nin zalı. Uşaqlar zaldadırlar. Hamının üzündən sevinc hissi yağır. Hamı şirin-şirin söhbət eləyir. Nəzifə səhnəyə qalxır.*

— Uşaqlar, bu gün respublikanın görkəmli bəstəkarı Oqtay

Zülfüqarov və onun rəhbərlik elədiyi "Aysel" uşaq musiqi teatrının üzvləri sizinlə görüşə gəliblər. Onları səhnəyə dəvət eləyirəm. *(Oqtay Zülfüqarov və teatrın üzvləri səhnəyə gəlirlər. Uşaqlar balaca dostlarını alqışlayırlar. Zalı alqış səsləri bürüyür.) Oqtay Zülfüqarov pianinoda çalır. Teatrın üzvləri növbəylə mahnı oxuyur, şeirlər söyləyir, rəqslər eləyirlər. Nərmin yanında əyləşən Ayazdan pıçıltılı səslə:*

**Nərmin:** Ayaz, biz də ata-anamızın yanında olsaydıq, belə oxuya, rəqs eləyərdikmi?

**Ayaz** *(çiyinlərini çəkərək):* Bu bəxt ki, bizdə var...

— Elə rəqs eləyərdim ki...

— Nərmin, qalx gedək.

— Hara?

— Bayıra...

— Tamaşa eləmək istəmirsən?

— Yox... Ürəyim sıxıldı...

— Niyə?

— Anam yadıma düşdü...

— Bilsəydim, deməzdim. Sakitcə tamaşa eləyərdim... Ürəyin o qədər yumşaqdı ki?

*Ayazla Nərmin sakitcə zaldan çıxırlar. Xatirə onların zaldan çıxdıqlarını görür. Yanında əyləşən Cəmilə...*

**Xatirə:** Ayazla Nərminə nə oldu?

**Cəmil:** Mən nə bilim. Görəsən, Ayazın başına indi nə fikir gəldi. Qəribə oğlandı.

— Xəstələnməzlər ki?

— Əşi, yox... Yəqin tamaşa xoşlarına gəlmədi.

— Axı artistlər yaxşı oynayırlar. Ürəyə yatımlı musiqi, şən mahnılar, rəqslər...





— Deyə bilmərəm...

— Sən tamaşa elə, Cəmil, mən görüm, onlara nə oldu?

— Onda birlikdə gedək.

*Cəmillə Xatirə zaldan çıxırlar. Həyətdə söhbət eləyən Ayazla Nərminə yaxınlaşırlar.*

**Xatirə:** Nə oldu, Nərmin, niyə çıxdınız?

**Nərmin:** Heç, özümüz. Zal güzaydı... Adama təsir eləyir. Bəs siz niyə çıxdız?

**Cəmil:** Sizə görə...

**Ayaz:** Gərək tamaşa eləyəydiz. Yəqin çıxdığınızı Nəzifə də gördü?

**Xatirə:** Görsün də...

**Nərmin:** Bir azdan sorğu-sual başlanar. Direktor olsa da, çox yüngül-dingildi. O boyda arvad, yanına alıb özü ağılda arvadları, axıra yaxın özü də düşəcək ortaya. Göyərçin təki qanad açıb süzəcək.

**Xatirə:** Bəxtəvərin dərdi yox, səri yox. Evi-eşiyi, uşaqları, yeməyə çörəyi...

**Ayaz:** Arsızdı... Elə bil, Köçəriyə vurulub.

**Nərmin:** Ədə, bəsdi...

**Cəmil:** Görmürsüz, Köçərini necə müdafiə eləyir? Elə bil əridi.

*Tamaşa qurtarır. Uşaqlar həyətə dağılışırlar.*

*Kadr dəyişir. Axşamdan xeyli keçmiş Cəmil Köçərinin otağında öz yerini tutur. Ayaz zirzəmidən, Fərəcsə ikinci mərtəbədən Köçərini müşahidə etməyə başlayırlar. Saat on iki.*

**Köçəri:** Mən gedim. Gözümün acısını alım. Başım xarab

oldu.

**Qapıçı:** Get, amma bir az zəifsən.

**Köçəri:** Zəifəm deyə mənə uduzursan?

**Qapıçı:** Neyləyim? Qorxuram sabah gəlməyəsən. Mən də darıxam.

*Gülüşürlər.*

*Kadr dəyişir. Köçəri qapıçının otağından çıxır. Fərəc işığı söndürür. Həyət-baca, binaların dəhlizləri zülmətə qərq olur.*

**Köçəri** *(qışqıraraq)*: Bu nədi, əə? Səhərə qədər beləmi olacaq?.. Əşi, gedim yatım. Bu vaxt kimi yuxudan qaldırsam, ancaq söyüş yiyəsi olaram.

**Qapıçı:** Xudahafis.

## VI bölüm

*Kadr dəyişir. Köçəriylə qapıçı öz otaqlarına çəkilirlər. Ayaz zirzəmidən çıxır, Köçəri yatan otağın qapısının ağzına gəlir. Getdikcə hövsələsi daralır. Gecə saat dörddə Köçərinin yatdığı otağın qapısı ehtiyatla açılır. Cəmil qapının ağzında dayanır, o tərəf-bu tərəfə baxır. Kimsənin olmadığını dəqiqləşdirir, zirzəmiyə qaçır. O, qan-tər içindədir. Sifəti ağarır. Əsəbdən, həyəcandan bədəni titrəyir.*

**Ayaz:** Nə oldu, Cəmil?

**Cəmil** *(təngnəfəs)*: Qurtardı. Bu da bıçaq.

*Bıçağı Fərəcə uzadır.*

**Fərəc:** Bıçaqları saxlamayın, rədd edin, getsin.





*Bıçaqları həyətdəki on-on iki metr dərinlikdən keçən kanalizasiya lükünə atırlar.*

**Cəmil:** Bu da fakt. Axtarıb tapsınlar.

*Fərəclə Ayaz Cəmili qucaqlayaraq öpürlər.*

**Fərəc:** Açılsa, hər şeyi mən öz üzərimə götürəcəm.

**Ayaz** *(gülümsünərək)*: Bəs mən?

*Pauza*

**Fərəc** *(Cəmilə)*: Qapıda, divarlarda, şkafda, hardasa əl izlərin qala bilər. Səhər səs-küy düşən kimi adamlarla sən də Köçəri yatan otağa gir. Bəzi əşyalara əl vur.

**Ayaz:** Niyə?

**Fərəc:** Otaqda Cəmilin əl izləri olsa, hay-küy düşəndə deyə bilək ki, Cəmil də adamlarla otağa girib. Otaqda əl izlərinin qalması təbiidi.

*Pauza*

**Ayaz** *(gülərək)*: Qızılbaş Fərəc.

*Onlar tək-tək yataq otağına çəkilirlər.*

**Ayazın daxili səsi:** Deməli, qətl baş tutdu. Köçərini aradan götürdük. Dəyyus yoxdu və olmayacaq da... Görəsən, bu qətlin üstünün açılması mümkündürmü?..

*Kadr dəyişir. Səhərdir. Günəşin parlaq şüaları pəncərə şüşələrini deşərək otağa yayılır. Həyətdə süpürgəçilər, uşaqlar görünürlər. Birdən həyətdə səs-küy, haray-həşir qopur.*

**Təranə** *(qışqırır)*: Vay! Vay!.. Köçərini al-qana boyayıblar!.. Yatdığı yerdə öldürüblər!.. Ay camaat, gəlin!.. Polis çağı-

rın!.. Vay... Vay... Cavanıydı! Heyf Köçəridən...

*Adamlar hadisə yerinə qaçırlar. Köçərinin yatdığı otağa doluşurlar. Cəmil, Ayaz, Fərəc də adamların arasındadırlar. Yorğan-döşək al-qan içindədir. Köçərinin bərələn gözləri dəhşət saçır. Ayaz Cəmilə baxır. Fərəcə yaxınlaşır. Ona çölə çıxmaq işarəsi verir. Fərəclə Ayaz otaqdan çıxırlar.*

**Ayaz:** Səncə, Cəmilin üst-başı qana boyanmayıb ki?

*Fərəc çiyinlərini çəkir.*

**Fərəc:** Bilmirəm.
**Ayaz:** Cəmilin üst-başına baxmaq lazımdı.

*Ayaz Cəmili də him-cimlə çölə çağırır.*

**Ayaz:** Cəmil, imkan ver üst-başına baxaq. Üstünə Köçərinin qanı çırtdaya bilər. Cəmil, sən otağa qalx.

*Cəmil otağa gedir. Ayazla Fərəc də onun ardınca. Onun üst-başını yoxlayırlar. Cəmilin üstündə qan izi tapmayaraq geriyə — hadisə yerinə qayıdırlar. Tibbi yardım maşını gəlir, həkimlər müayinəyə başlayırlar. Müstəntiq, polislər adamları otaqdan çıxarırlar. Direktor özünü yetirir. O, qorxudan danışığını itirir, bədəni titrəyir.*

**Fərəc:** Ayaz, bəsdi itin cəsədinə baxmaqdan gözlərimizi döyənək elədiyimiz. Gedib əl-üzümüzə su vuraq. *(O, üzünü sonra Cəmilə tutur)*. Cəmil, sən də gəl... Canında qorxu-hürkü hiss eləmirsən?
**Cəmil:** Yoox...





**Fərəc:** Əsas odu. Çalış söz-söhbətdən uzaq ol. Özün də hiss eləmədən şübhə doğurarsan.
**Cəmil:** Oldu.

*Fərəcgil gedirlər. Meyidi tibbi yardım maşınına qoyurlar və həyətdən çıxarırlar. Polislər, müstəntiq hadisə yerini ölçüb-biçirlər. Adamlardan izahat alırlar. Müstəntiq uşaqlarla söhbətə oturur.*

**Müstəntiq:** Uşaqlar, Köçəri necə adamıydı? Sizi incitmirdi ki?
**Fərəc:** Yaxşıydı... Deyib-güləniydi.
**Cəmil:** Tez-tez məzəli söhbətlər eləyərdi.
**Ayaz:** Çoxlu nağıl bilirdi. İdmanla məşğul olurdu.
**Müstəntiq:** Onun kimləsə dava-dalaş elədiyini görmüsüzmü?
**Fərəc:** Yoox.
**Müstəntiq:** Bu cinayəti sizcə kimlər törətmiş olar?

*Uşaqlar bir-birilərinin üzlərinə baxırlar.*

**Ayaz:** Onu biz hardan bilək?
**Cəmil:** Heyf, Köçəri müəllimdən. Tez-tez bizimlə məzəli söhbətlər eləyərdi.
**Müstəntiq:** Yaxşı-yaxşı fikirləşin, uşaqlar. Burada müəlliminizi öldürürlər, sizsə deyirsiz, heç kimi görməmişik.
**Fərəc:** Yalan danışaq?
**Müstəntiq:** Yalan niyə? Olanını...
**Nərmin** *(qəsdən)***:** Fikirləşirsiz biz törətmişik?
**Müstəntiq:** Siz yox... Bəlkə siz törədənləri görmüsüz? Ya kimdənsə şübhələnirsiz?
**Xatirə:** Bizi bu işə qatmayın. Bizi tərbiyəçilər axşamdan yatızdırırlar, səhər oyadırlar.

**Fazil:** Bizim Köçəriyə gücümüz çatardımı?

*Müstəntiq gülür.*

**Ayaz:** Yaxşı olar ki, o cinayəti burda işləyənlərdən soruşasız.
**Cəmil:** Bizim Köçəri müəllimlə nə düşmənçiliyimiz ola bilər ki?
**Müstəntiq:** Uşaqlar, demirəm ki, siz eləmisiz. Yaxşı-yaxşı düşünün. Xatırlayın. Düşmənsiz adamı öldürməzlər. Ölüm varsa, deməli, düşmən də var. Kişini yatağında öldürüblərsə, deməli, bura gələn də olub.
**Fərəc:** Mənə elə gəlir ki, bu işdən xəbərsizliyimizi siz də yaxşı bilirsiz. Cinayətkar korafəhm iş görməz ki, onu biz duyaq, hiss eləyək. Cinayətin izini başqa yerdə, başqa adamlarda axtarın.
**Müstəntiq:** Mənə dərs verməyin, uşaqlar.
**Ayaz:** Dərs niyə? Bu qızlar qətli eşidib özlərindən keçiblər. Bədənləri qorxudan tir-tir titrəyir.
**Nihad:** Ayə, bayaqdan, az qala, özümü batırmışam.

*Hamı gülür. Müstəntiq də özünü saxlaya bilmir, qəhqəhə çəkir.*

**Müstəntiq:** Yaxşı, qalxın gedin. Ancaq bir şey eşitsəniz, hiss eləsəniz, qapının ağzında dayanan polislərə çatdırın.

**Uşaqlar bir ağızdan:** Oldu!..

*Uşaqlar gedirlər. Müstəntiq də onların ardınca otaqdan çıxır.*

**Ayazın daxili səsi:** Bundan sonra qızlar səhvə yol verə bilərlərmi? Nərmin, Xatirə, Xanım artıq-əskik danışmazlar ki? Uşaqlar arasında Köçəriylə bağlı gəzən söz-söhbətə toxunmazlar ki? Müstəntiq azacıq sudur anlasa, cinayəti bizim üstümüzə yönəltməz ki?





*Fərəc, Ayaz və Cəmil bir-birilərindən uzaq gəzirlər. Nərmin Ayaza yaxınlaşır.*

**Nərmin:** Ayaz, ürəyim necə də sakitləşib. Ancaq indi sizdən qorxuram.
**Ayaz:** Orda bizlik nə iş var ki?
**Nərmin** *(gülümsünərək)*: Demirəm ki, bütün işlər sizlikdi.

*Pauza*

Hardan, kimdən nə eşitdiklərini bilmirəm. Qızlar arasında belə söhbət gəzir ki, Köçərini bizim oğlanlar qətlə yetiriblər. Ehtiyatlı olun. Çox söz danışmayın. Mən getdim, ürəyim sənin yanındadı, Ayaz.

*Ayaz tutulur. Tez özünü Fərəclə Cəmilə yetirir.*

**Ayaz:** Uşaqlar deyirlər: Köçərini biz qətlə yetirmişik.
**Fərəc** *(zarafatla)*: Dostum, lakatırlarının tezliyi çox zəifdi.

*Pauza*

**Cəmil:** Çox gecikmiş xəbərdi. Biz dünən səs-küy qopanda onu eşitmişdik. Ancaq səni qorxutmaq istəmirdik.
**Ayaz:** Belə çıxır ki, sirr açılır?
**Fərəc** *(dərhal)*: Nə sirr? Biz neyləmişik ki? Köçərini ancaq direktor özü aradan götürdə bilər.
**Ayaz** *(gülərək)*: Axı, o da inandırıcı olmalıdı.
**Fərəc:** İnandırıcı nəyə deyirsən? Ziddiyyət, narazılıq iş yerində olar. Yığılır-yığılır — düşmənçiliyə çevrilir.
**Cəmil:** Sadiqəylə Gülşən müəllimə, ya da direktorla Gülşən

müəllimə kimi.

*Pauza*

**Fərəc:** Ağürək olma, Ayaz. Kişinin başı qalda gərək. Bərkə dursa, hər şeyi mən eləmişəm.

*Kadr dəyişir. Axşama az qalır. Adamlar seyrəlib gedirlər. Nəzifə Fərəci, Ayazı və Cəmili kabinetinə çağırır. Əvvəl Fərəc, dalınca Cəmil və onun da arxasınca Ayaz kabinetə girirlər. Əllərini yanlarına salaraq direktorun qarşısında dik dayanırlar. Qadın onları ayaqdan-başa süzür. Baxışlarıyla uşaqların gözlərinin odunu almağa çalışır.*

**Nəzifə:** Keçin, əyləşin.

*Uşaqlar otururlar.*

**Ayaz:** Eşidirik.

**Nəzifə** *(Fərəcə)***:** Bura kimin evidi?

**Fərəc:** Bizim... Kimsəsizlərin.

**Nəzifə:** Doğrudu. Cavabın xoşuma gəldi. Burdakı yaxşı, pis işlər kimin adınadı?

**Fərəc:** Əlbəttə, bizim, sizin.

*Nəzifə başıyla Fərəcin sözünü təsdiqləyir. Bir an fikrə gedir.*

— Fərəc, neçə ildi burdasan? Səndə kişilik xüsusiyyətləri var. Yalançılığını heç vaxt, heç kimdən eşitməmişəm. İnanıram ki, indi də elə olacaq. Bilirsən ki, Köçəri qətlə yetirilib. Onun öldürülməsinin sirrini, kimlər tərəfindən öldürülməsini mənə aç. Çəkinmə. Həyatın qabaqdadı.

— Mənim qorxan-çəkinən yerim yoxdu. Mən hardan bilim ki, Köçərini kim öldürüb? Niyə öldürüb? Bir də ki, həyatım bur-





da həmişə belə acınacaqlı olacaq?

— Sənə indiyə kimi gözlərin üstə qaşın var deyən olubmu?

— Məni atan elə atmayıb ki, kimdənsə, nədənsə fərəhlənib firavan həyat gözləyəm. Uşaq deyiləm.

*Pauza*

Mən burda dünyanın, həyatın nə olduğunu anlamışam. Sadiqə kimilərini də görmüşəm.

— Başından böyük danışma, Fərəc.

— Həyatım belə başlayıbsa, əmin ola bilərsiz, belə də sona yetəcək. Siz bər-bəzəkli sözlərlə bizi aldatmağa çalışırsız. Bizə göndərilən azuqələri yeyirsiz, sonra da gəlişi xoş sözlərlə başımızı bələyirsiz. Sadiqəni gah qızların, gah da oğlanların üstə salırsız.

*Köçərinin qətlindən Nəzifənin diqqətini yayındırmaq üçün Fərəc Sadiqənin hərəkətlərini qəsdən qabardır.*

— Bu, nə danışıqdı, Fərəc? Mən səni Sadiqəyə görə bura çağırmamışam.

— Bağışlayın... Biz dinmirik, susuruq, elə bilirsiz, bura hansı məqsədlə çağrıldığımızı bilmirik?

— *(Hökmlə)* Burda nə məqsəd ola bilər?

— Cinayəti bizim üstümüzə atmaq.

— Mən səninlə çox səmimi danışıram.

— Siz düz demirsiz, səmimi deyilsiz. Kimsəsizləri tapdalayırsız, məhv eləyirsiz, sonra da deyirsiz, mən səmimiyəm. Sadiqə kimi qanmazlar da... Elə adamlardan müəllim-tərbiyəçi olar? Əşi, biz onsuz da bədbəxtlərik də. Kimsəsizlərik də.

— Palan içi açıb tökmə. Dilini kəsərəm, Fərəc.

— Bəyəm, Sadiqənin hərəkətlərini sizə açıb demək... Hədələrinizi başa düşürəm. Onları bacararsız... Lap Köçərinin halına da sala bilərsiz bizi.

— *(əsəbiləşir)*: Sözündən belə çıxır ki...

— Burda törədilən cinayətdən, güya, siz xəbərsizsiz? Zorlanan qızları axşamlar kənar şəxslərə kimlər ötürürlər. Sadiqə qızları döyür. Burda zavallı oğlanların günahları nədi?

— Bu nə böhtandı, mənə deyirsən, Fərəc. Axı, sizin üstünüzdə mənim əməyim, əziyyətim var.

— Mən onları tapdalamıram. Ona görə də bildiklərimi içimdə saxlayıram, satqınlıq eləmirəm. Bəlkə də başqası sizin stulda otursa...

— Vay!.. Vay! Ədə, sən lap fanatiksənmiş.

*Pauza*

— Hər şeyin əndazəsi var. Boş sözlərlə məni şirnikdirməyin. Mən satqın olsaydım, sizin sirlərinizi açardım.

— Bay, atonan. Hələ yumurtadan indi çıxıb ey. Cik-cikinə bax... Bir kəlmə soruşub işə düşmədim?

— Bəyəm, Köçəri bakirəliyini alan qızlarla birlikdə başqa qızları da qara maşınlara mindirib haralarasa yola salan siz deyilsiz?...

— *(Əlini stola vuraraq)*: Fərəc!..

*Özünün bütün sirlərindən Fərəcin xəbərdar olduğunu hiss eləyən və tam aydınlığıyla ifadə elədiyini görən Nəzifənin gözləri böyüyür. Getdikcə onun sifətini narazılıq kölgəsi bürüyür. Fərəc danışdıqca əsəbiləşir, qadının gözlərinin içinə qəzəb və nifrətlə baxır.*

— Bu sənin sözün deyil, Fərəc. Sən kimlərdənsə eşitdiyini danışırsan.

— Siz deyəsən, hamıdan şübhələnirsiz?

— Sən ağıllı oğlansan. Fikirləş, gör burda sən deyənlər mümkündürmü? Bura neçə göz baxır.

— Mən nələrə şahidəmsə, onları deyirəm, müəllimə.





— Yox, düz danışmırsan. Sən elə başa düşmə ki, burda çalışanların hamısının məndən xoşu gəlir.

*Pauza*

Qapıda dayananlar da polisdilər. Bura yüz göz baxır. Qapıçıdan tutmuş direktora qədər hamı sizin xidmətinizdədi. Sağlamlığınızın, təhsilinizin qeydinə qalanlardı.

— Biz onları inkar eləmirik.

— Sən deyənlər müəllimlərinizə, tərbiyəçilərinizə atılan böhtanlardı, iftiralardı...

— Bu, Sadiqənin üstümüzə atdığı böhtanlardan da betərdi?

— Booy... Sənin içində nələr yatırmış, Fərəc?!

— *(Acıqlı-acıqlı)*: Siz Köçərinin ölümünü mənim, bu kimsəsiz uşaqların üstünə atmaq istəyirsiz. Bəyəm, üstümüzə atmaq istədiyiniz qətl bizə böhtan, şər deyil? Biz kimik? Kimlə düşmənçiliyimiz var? Biz müəllimimizi necə öldürə bilərik? Bizim ona gücümüz çatardımı?

— Özünü pərdələmə. Qabaqdangəlmişlik eləmə.

— Subutunuz varmı, xanım?! Bizə yazığınız gəlmir?

*Pauza*

— Sözündən belə çıxır ki, burda işləyənlərin vicdanı yoxdur? Sizə düşmən kəsiliblər?

— Bilmirəm, izah eləyin, bizim üçün burayla türmənin nə fərqi var? Köçərini biz öldürmüş olsaydıq, boynumuza alardıq. Öz xoşumuzla gedib türmədə də yatardıq... Köçəriylə toqquşmalarda həmkarları ola bilərlər, biz yox!..

— Müəllim öz kimsəsiz, yazıq, yetim şagirdinə zor eləyirsə, əlbəttə, o, öldürülməyə layiqdi. Bəlkə keçmiş məzunlarınızdan kimsə öldürüb onu?

*Cəmil stolun altında əlini Ayazın dizinin üstünə qoyur və sıxır. Ayaz söhbətə qoşulmaqda şərti pozduğunu və ciddi səhvə yol verdiyni anlayır. Fərəc əsəbi halda Ayazın gözlərinin içinə*

*yanakı baxır.*

**Fərəc:** İmkan ver, Ayaz, sözümü qurtarım. Danışığından belə çıxır ki, Köçəri əclafın ölümündə sənin əlin var? Varsa, qorxma, utanıb çəkinmə, de.

**Ayaz:** Ayə, yox, ayə. Bircə bu qalmışdı?

*Pauza*

**Fərəc:** Bəli! Bu da direktorumuza cinayəti özündən uzaqlaşdırmaq üçün imkan verəcək ki, əlinə al bayraq alıb dalğalandırsın: ay camaat, yığışın gəlin, cinayətkarları tapmışam. Bununla da ən böyük cinayətkarların başına sığal çəkəcəklər.

— Ayə, Fərəc, vallah, sənin ağzından qan iyi gəlir. Sən gələcəyin potensial quldurusan.

— *(Üzünü Nəzifəyə tutaraq)*: Sizdən dərs almışıq. Bəyəm, bilmirsiz ki, cinayəti sizinlə əvvəlcədən razılaşaraq, bura qız aparmaq dalınca gələn kişilər törədiblər?

— *(Səs gözlənilmədən qalxır və danışığın məntiqi pozulur)*: Sən nə danışırsan? Bilirsən, elə böhtan üçün sənə neylərlər?

— Bayaq dedim axı, məni də Köçərinin halına saldırarsız...

## VII bölüm

*Nəzifənin sifəti qızarır. Hədəqədən çıxan gözlərindən kin, nifrət yağır. O, alt dodaqlarını üst dişləriylə bərk-bərk sıxır.*

*Fərəc söhbətə bir qədər rəng verir.*

— Xanım, mən hələ kimsəsiz Teymuru kim vurub öldürdüyünü, onun ağzından, qulağından açılan qanı kim batırdığını demirəm.

— Ayə, sən dəli olmusan? Sən öl səni birbaşa göndərtdirə-





rəm dəlixanaya.

**Ayaz:** Əsəbiləşmə, xanım, nə olsun ki, direktorsan... Teymuru Köçəri vuranda, sən onu aradan çıxaranda, yazıq uşağın ölümünü ört-basdır, eləyəndə, heç fikirləşirdinmi, sənə neçə gözlər baxdığını?

**Nəzifə:** Ayaz, sən də belə?..

**Cəmil:** Biz qızlı-oğlanlı hamımız o hadisəyə şahidik, müəllimə.

**Nəzifə:** Mən sizi bura çağırdım ki?

**Fərəc:** Bunlar nə vaxtsa, açılacaq, Nəzifə xanım. Biz kimsəsizlər nə vaxta qədər qorxu, əzab içərisində yaşamalıyıq? Burda baş verən hadisələri hamı bilir, sənin əlinlə törədildiyini.

**Nəzifə:** Bunu kim deyir?

**Fərəc:** Bu uşaqların hamısının müşahidələridi.

**Ayaz:** Əgər bizi də Teymur yolu göndərsəniz, bütün uşaqlar sənin...

**Nəzifə:** Mənim nə?

**Cəmil:** Üzünə duracaqlar.

**Nəzifə:** Bunda deyiblər də: yetim kimə təpik atarsan...

**Fərəc:** Xeyr... Sən bizə çörək vermirsən... Bizim sayəmizdə kef eləyirsən. Burda özünə hökmranlıq sarayı qurmusan...

**Nəzifə:** Vay!.. Vay!.. Vay!.. Heyf, mənim zəhmətimdən.

**Ayaz:** Zəhmət çəkməmisən... O ki var...

**Nəzifə:** Oxunu atıb yayını gizlətmə...

**Cəmil:** Xanım, ola bilməzdi ki, halallarına haram qatmayaydın? Ola bilməzdi ki, bu kimsəsizlərin göz yaşlarını axıtmayaydın?

**Nəzifə:** Ayaz, sizi başa düşürəm. Siz mənim düşmənlərimin sözlərini deyirsiz...

**Ayaz:** Xeyr... Biz heç kimin sözüylə oturub-durmuruq. Hamısı öz günahındı.

*Nəzifənin təzyiqi qalxır. Özünü çox pis hiss eləyir. Katibə həkim çağırır. Fərəcgil kabinetdən çıxırlar. Həkim kabinetə daxil olur. O, Nəzifəni müayinə eləyir. Ona iynə vurur. Nəzifə handan-hana özünə gəlir.*

**Həkim:** Nəzifə xanım, bərk əsəbiləşmisiz. Sizə belə əsəbiləşmək olmaz.

*Nəzifə söhbəti pərdələməyə çalışır.*

**Nəzifə:** Yoox... İş çox əsəbilikdi.
**Həkim:** Əsəbilikdi... Əşi, bəyəm canınızdan artıqdı vəzifə? Verin cavanlardan birinə, işləsin... Bu dünyadan o dünyaya bir şey aparan olub?
**Nəzifə:** Ötər indi... Belə təzyiq məndə hərdən olur... Düzələcək hamısı... Sən get, narahat olma, həkim. Nə qismətdi, onu da görəcəyik.

*Həkim gedir. Nəzifə otaqda tək qalır. Fərəcin, Ayazın, Cəmilin sözlərini xatırlayır.*

**Nəzifənin daxili səsi:** Yamanca yerdə axşamlamışam. Bunlar öldürəcəklər məni. Mən özümü gör nə vəziyyətə salmışam? Qıçım boyda uşaqlar üzümə dururlar. Elədiyim bütün hərəkətlərimi çəkinmədən, qorxmadan deyirlər. Onlar qan-qan deyirlər. Bunları sıxsam, üstlərinə bir az da getsəm, barıt çəlləyi kimi partlayacaqlar. Sifətimi açıb tökəcəklər. Onda da bu yaşda gedib dama girməli olacam... *(Başını iki əliylə bərk-bərk sıxaraq)* Ax... Nəzifə... Nəzifə... Pul, vəzifə, ətrafımdakı məddahlar məni necə də aldatdı. Rəzil bir insana çevirdi... Qorxu, vahimə içərisində yaşamaq olarmı? Bircə yolun var, Nəzifə. Nə qədər ki, bunlar kimsəsizlər evinin sakinləridilər, udmaqdan savayı nə çarəm var, nə də yolum...





*Kadr dəyişir. Sinif otağı. Uşaqlar sinifdədirlər. Gülşən müəllimə əlində jurnal sinfə daxil olur. Uşaqlar ayağa qalxırlar. Əyləşirlər. Müəllimə üzünü uşaqlara tutur.*

**Gülşən:** Fərəc, bu gün Nəzifəylə çox sərt danışmısız. Söhbətin nədən getdiyini bilmirəm. Onu bərk əsəbiləşdirmisiz. Belə olmaz. Uşaqlar, hamımız bütün etik qaydalara riayət etməyə borcluyuq.
**Fərəc:** Müəllimə, məsləhətiniz üçün özüm və dostlarım adından sizə təşəkkür eləyirəm. İstərdik biləsiz ki, onun əsəbiləşməsində biz günahsızıq. Əgər hörmətli Nəzifə xanım bizi günahkar çıxarırsa...
**Gülşən:** Yoox... Onunla görüşməmişəm, o da mənə heç bir söz deməyib. Müəllim-şagird münasibəti...
**Ayaz** *(dərhal)*: Baş üstə... Narahat olmayın, Gülşən müəllimə...
**Cəmil:** Bizim direktorla nə sözümüz ola bilər? Axı bizdən direktor olmaz.
**Gülşən** *(gülərək)*: Deyirsən, ancaq direktor olmaq istəyənlər...
**Cəmil:** Bəlkə düz demirəm?..
**Gülşən:** Təkcə onu bilirəm ki, çoxları sizdən gileylənirlər...
**Fərəc:** Hər kəs öz işinə cavabdehdi...

*Kadr dəyişir. Direktorun kabineti. Nəzifə yumşaq kreslosunda əyləşir. Fərəc, Ayaz və Cəmil qarşıdakı stullarda otururlar.*

**Nəzifə:** Uşaqlar, o günkü söhbətimiz çox anlaşılmaz alındı. Mən söhbətimizin elə dalana dirənməsini istəməzdim. Siz də çızığınızdan çıxdınız.

**Fərəc:** Xanım, biz bu söhbətə təkrar qayıtmaq istəməzdik. Siz cinayət eləyirsiz, bizsə elədiklərinizi özünüzə xatırladırıq. Siz elədiklərinizi boynunuza almırsız. Belə çıxır, sizin əvəzinizdə günahkar bizik. Belə olmaz, xanım.

— Siz mənimlə bərabərhüquqlu adamlar kimi danışırsız.

— Bəs necə danışmalıyıq? Cinayət törədən siz, susan biz... Qarşınızda titrəməliyik?

— Fərəc, yenə söhbətimiz alınmır.

— Alınması üçün həqiqəti danışın. Səhvinizi etiraf eləyin.

— *(Qorxu və təlaş içərisində)*: Heyf zənnimdən. Mən həmişə sizi çox istəmişəm. İndi də bura çağırmışam ki, görüb-bildiklərinizi mənə deyəsiz. Qara ləkəni üstümüzdən silək, *(səsinə ara verərək)* Fərəc...

— Gördüyünüz işlərə çox gözəl don geyindirməyi bacarırsız...

— Sən nə danışdıqlarını bilirsənmi? Mən sizə ana əvəzi olmuşam. Mən sizi əclaf adamlardan qorumuşam.

*Pauza*

Mən olmasaydım, onlar sizi "hup" eləyib udardılar. Hamı məni yaxşı tanıyır.

— *(İkimənalı)*: Biz də sizi yaxşı tanıyırıq.

— Otuz illik təcrübəmdə sən deyənləri mənə deyən olmayıb. Təkrar eləyirəm, sənin ağzından qan iyi gəlir. Axı, mən sən deyən adam deyiləm.

— Bərkə düşəndə, ayağı büdrəyəndə, hər kəs qarşısındakına elə bayatılar oxuyur, xanım.

*Pauza*

— Sizin hamınız bizim balamızsız. Kim istəyər öz balasına qənim kəsilsin?

— Biz ana barəsində çox şeylər eşitmişik. Oxumuşuq, hətta, çox görmüşük. Çoxları fırıldaqçıdı. Bəyəm, "Kimsəsizlər evi"-nə gətirilənlər anaların atdıqları deyillər? Onlar ana yox, ifritələrdi. Ürəksizlərdi.





— Mən səni indi-indi tanımağa başlayıram, Fərəc.

— Anam üçün ürəyim sızlayır, xanım. İndi sizdən soruşuram, anam hardadı? Deyəcəksiz, mən hardan bilim? Öz anası sahib durmayanlara başqalarının "Sizə ana əvəziyəm" deməsi, nə qədər səmimi ola bilər? Bəlkə bu sözünüzü "Ura!" ilə qəbul eləyək?

— Bəlkə atılmanızda da direktor, kollektiv günahkardı?

— Yoox... Siz deyən analardı.

— Fərəc, səndə bu qəddarlıq hardandı? Sənə neçə vaxtdı qayğı göstəririk. Sənsə tamam başqa şey fikirləşirsən?

— Doğma valideynlər öz övladlarını hara gəldi atırlarsa, biz övladlarda başqalarına inam ola bilərmi? Əgər taleyimizə cavabdeh olanlar bizi kimə gəldi, necə gəldi "hədiyyə" eləyirlərsə, onda kimlərə inanaq?

*Pauza*

— Etiraf eləyim ki, sözlərində böyük həqiqət var, oğlum.

— Günahımız olmaya-olmaya Köçərinin ölümü bizim üstümüzə atılırsa, nə fikirləşirsiz, qarşınızda diz çökək?

— Sən gözlərimin içinə şər, böhtan danışırsan.

— Şəxsən öz adımdan, bu uşaqların adından deyirəm, bizi bu cinayətlə əlaqələndirməyin. Bizi məcbur eləməyin, burda baş verənləri ağzımıza alaq...

*Nəzifənin səs telləri getdikcə gərilir. Handan-hana onda təslimçilik duyulur.*

— Uşaqlar, gəlin belə danışmayaq. Təsəvvür eləyək ki, bizim aramızda belə söz-söhbət olmayıb. Mən sizi hər yerdə müdafiə eləyəcəm. Unutmayın ki, yaşadığınız bu "Kimsəsizlər evi" barədə pis danışmaq sizə də ləkə gətirər. Hər yerdə hamı sizə pis baxar.

**Cəmil** *(dərhal)*: Elə sizə də.

*Nəzifə dəstəyi götürür. Düyməni basır.*

**Nəzifə:** Sadiqə, yanıma gəl.
**Sadiqə:** Oldu.

*Nəzifə üzünü Fərəcgilə tutur.*

**Nəzifə:** Uşaqlar, belədi də. Kimə iş tapşırırsan, səni yarıtmır. Deyirsən, get filankəsin başına sığal çək, o gedir başın özünü gətirir. Adamı peşman eləyir. Sadiqə də elələrindəndi.
**Cəmil:** Sadiqə elədi, onda burda niyə saxlayırsız?
**Nəzifə:** Elə bilirsiz başqasını gətirəndə ondan yaxşı olacaq? O bundan da betər çıxacaq.
**Fərəcin daxili səsi:** Oyunsan, oyun. Basarlısan. Dilin gödəkdi... Yoxsa, onu dişlərilə didib-dağıdardın. Uf da deməzdin.

*Qapı açılır. Sadiqə içəri girir. Uşaqları kabinetdə görcək təəccüblənir. Ancaq özünü o yerə qoymur.*

**Sadiqə:** Eşidirəm, xanım.
**Nəzifə:** Bu uşaqlarla nə işiniz var? Neçə dəfə sizə demişəm, uşaqlara səmimi, mehriban olun.
**Sadiqə:** Çox... Sinəmdən asılan əlimi görürsüz. Barmaqlarımı Fərəc qırıb sındırdı.
**Ayaz:** Fərəc az elədi. Gərək dibindən qoparaydı.
**Sadiqə:** Görürsüz də...
**Nəzifə:** Aa... Belə de. Fərəc sən qoçusan?
**Fərəc:** Necə düşünürsüz, Sadiqə sarıqlı barmaqlarıyla gözlərimi çıxarsaydı, onda...
**Nəzifə:** Fərəc, kim kimin gözlərini çıxara bilər ki? Sözdü, deyib də.





**Cəmil:** Xeyr, əvvəl söz olur, sonra əməl.
**Sadiqə:** O balalarımın canıyçın, barmaqlarım qırılanda elə bildim ürəyim dayandı.
**Fərəc:** Kaş dayanaydı. O da olaydı Xanımın döyülməsinə cavab.
**Sadiqə:** Bunlar düzələn deyil.
**Fərəc:** Nə olar, vaxt gələr, heyfini çıxarsan.
**Nəzifə:** Sadiqəni bura çağırmadım ki, dartışasız. Aləm başımıza yığışa.
**Sadiqə:** Oldu, qurtardıq. Bir də belə şey olmaz. Günahın hamısı Gülşəndə oldu. O qızışdırmasaydı, mən də elə qələt eləməzdim.
**Fərəc** *(Sadiqəyə)*: Bu adam deyil...
**Sadiqə:** Bəs nəyəm?
**Fərəc:** Dovşan.
**Ayaz:** Eynən... Özüdür ki, var.
**Nəzifə:** Nədən bilirsən, Ayaz?
**Cəmil:** Nədən biləcək? Sadiqənin ağlından. Onun sifarişi yerinə yetirməsindən.

*Nəzifə Cəmilin üzünə kinayəylə baxır. Sonra üzünü Sadiqəyə tutur.*

**Nəzifə:** Camaatı mənim üstümə qaldırmayın. Başınızı aşağı salın, işinizi işləyin.
**Sadiqə:** Oldu, xanım.

*Sadiqə gedir. Nəzifə pəncərədən çölü seyr eləyir.*
*Olduqca israrlı görünən direktorun sifətində yüngül təbəssüm yaranır.*

**Nəzifə:** Məni başa düşdüz də. Polislər sizdən izahat almaq istəsələr, söhbətə otursalar, deyin ki, heç kimi görməmişik, heç nədən xəbərimiz yoxdu. Köçərinin də ölümünü səhər hay-küy qalxanda eşitmişik. Nə sözünüz olsa, mənə deməkdən çəkinməyin... Qaldı Sadiqəyə, onun hərəkətlərinə... Narahat olmayın, onunla özüm danışaram. İndi qalxın, gedin.

*Fərəcgil kabinetdən çıxırlar. Uşaqlar pəncərədən onlara həyəcanla baxırlar. Cəmil onlara əlini yelləyir.*

**Ayaz:** Ehtiyatlı ol, Cəmil. Direktor pəncərədən bizə baxa bilər.

*Pauza*

**Fərəc** *(narazı halda)*: Qəribədi, hamı özünü haqlı, çoxbilmiş sanır. Elə bilir ki, gözlü təkcə özüdü. O, hamını görür, onu isə görən yoxdu. Mənə elə gəlir ki, Sadiqə kimi Köçərini də qudurdan, yolundan azdıran bizə "Ananız əvəziyəm" deyən bu qadındı.
**Cəmil** *(astadan)*: Hə, o, şərait yaratmasaydı...
**Ayaz:** Burda öldürüləsi hələ çox adam var.
**Fərəc** *(gülərək)*: Deyəsən, dişində şirə qaldı. Bu dəfə öldürmək növbəsi səndədi.
**Cəmil:** Eh... Adam öldürmək asan deyilmiş, Ayaz. Köçərinin əvəzində yüz dəfələrlə özüm ölüb-dirildim.

*Gülüşürlər.*

**Fərəc:** Bir müddət təxribat dayanar...
**Ayaz:** Direktor meyid sifətindədi. Fərəc, sən o sözləri hardan, necə tapıb danışırdın? Mən bir kəlmə dedim, az qala, özümü dolaşdıracaqdım.

*Pauza*





— Kabinetdən çıxanda mən gözlənilmədən qanrılıb arxaya baxdım. Qadının arxamızca bizi qəzəb və nifrətlə izlədiyini gördüm. Mənə elə gəlir ki, mənim duyduqlarımı o da başa düşdü... Əclaf qadın. Gözləri çıxmalıdı.
**Cəmil:** Xeyir ola, Ayaz? Nə mızıldanırsan, sözün var, elə de, biz də eşidək.
**Ayaz:** Direktor arxamızca elə baxırdı ki, sanki dişiylə boğazımızı üzməyə hazırıydı.
**Cəmil:** Əlbəttə, hazırıydı. Ancaq Fərəcin dedikləri onu öldürdü. Bizi satmaq, ələ vermək, cəzalandırmaq imkanını əlindən aldı. Əlacı qalıb arxamızca yana-yana baxmağa. Yoxsa, onu da çox görürsən o qadına?
**Fərəc:** O, qadın deyil. Şeytandı, dünyanın ən iyrənc həşəratıdı. Narahat olmayın. O, qətli bizdən özü uzaqlaşdırmağa çalışacaq. Bilirsiz niyə?

*Pauza*

## VIII bölüm

Çünki özünün zibilləri açıla bilər. Daha o, keflə yaşamayacaq, ömrü boyu qorxu-əzab çəkəcək... Dağılışaq. Bir yerdə çox olmayaq.
**Cəmil:** Mən də elə düşünürəm. Qələbədən şeşələnməmiz hamıda bizə qarşı qıcıq oyadar.
**Ayaz:** Deyirlər, qan tökmək günahdı... Allahın adama qəzəbi tutar.
**Cəmil:** Allah izin verməsə, adam öldürmək olar?
**Fərəc** *(ucadan gülərək)*: Qızları zorlayanda, Allah onun öldürülmək hökmünü Əzrayıla vermişdi...
**Ayaz:** Hə... Bilirəm, Əzrayıl da o işi sənə, sən də Cəmilə həvalə elədin.

**Fərəc:** Bizi küçük kimi bayıra atanların hərəkəti necə?! Bu kimsəsizlərlə heyvan kimi davranmalar necə?!

**Cəmil:** Kimsəsizləri zorlama...

*Pauza*

**Fərəc:** Hə... Ayaz... Səsin çıxmır. Bizi qumara qoyublar, qardaş.

**Ayaz:** Kimlər?

**Fərəc:** Şeytanlar... İblislər... Gedək... Çənəyə çox versək, çox şey çıxacaq.

*Fərəc, Cəmil və Ayaz aralanırlar. Cəmillə Fərəc hərəsi bağın bir tərəfinə, Ayazsa kitabxanaya gedir. Stulda əyləşir. Qəzetləri vərəqləyir... Başını qolları arasına alır.*

*Kadr dəyişir. Adi günlərdən biri. Yeməkxana. Uşaqlar yemək yeyirlər. Nəzifə gəlir. Stolların arasıyla gəzir. Uşaqları müşahidə eləyir... Fərəcə yaxınlaşır.*

**Nəzifə:** Necəsən, Fərəc?

**Fərəc:** Yaxşıyam.

**Nəzifə:** Narazılığın yoxdu ki? Varsa, çəkinmə, de...

**Fərəc:** Nədən çəkinəcəm? Onsuz da bizə olan-olub. Qaradan da tünd rəng?

**Nəzifə:** Allahına şükür elə, Fərəc?

**Fərəc:** Niyə?

**Nəzifə:** Çünki burda özünə yer tapa bilmisən... Burda olmaya da bilərdin.

**Cəmil:** Allah baxır.

**Nəzifə:** Hamımız deyəndə, kimləri nəzərdə tutrursan?

**Ayaz:** Sizi də, özümüzü də.

**Nəzifə:** Uşaqlar, köntöy danışırsız. Mənimlə özünüz arasındakı pərdəni yırtmayın.





*Nərmin Ayaza göz-qaşla danışmamaq işarəsi verir. Ayaz sözünü saxlayır.*

**Fərəc:** Pərdə?.. O nə olan şeydi?

**Nəzifə:** Qudurmayın.

**Cəmil:** Biz hamımız qurbanlığıq.

*Direktor əsəbiləşir.*

**Nəzifə:** Kimlər kimlərə?

**Fərəc** *(gülərək)***:** Biz sizə, siz də şeytana... Müəllimə, siz kitab oxuyursuz?

**Nərmin:** Oxumasaydı, ondan direktor olardı?

**Fərəc** *(Nərminə)***:** Sən sus. Danışma. Mən direktora sual verirəm.

**Xatirə:** Fərəc, tünd xasiyyətin var. Yazıq qız nə dedi ki, ağzından vurdun?

**Cəmil:** Sən də sus, Xatirə. Siz bilməyən...

*Nərmin susur.*

**Fərəc:** Mən dünən kitabda oxudum ki, cəmiyyət cızığından çıxıb yolunu azanda Allah onlara qənim olur. Bu, düzdü?

**Nəzifə:** Fərəc, məni dolayırsan?

**Fərəc:** Yoox... Niyə ki? Allah kəlamıyla adam dolayarlar?

*Pauza*

**Nəzifə** *(hövsələsi daralaraq)***:** A, yekəbaş, sən bilirsən mən kiməm?

**Fərəc:** Bilirəm.

**Nəzifə:** Kiməm?

**Fərəc:** Sadəcə direktor.

**Cəmil** *(acıqla)***:** Mən də elə bilirəm. Nə olub ki?

**Fərəc:** Məncə, adam olmaq yaxşıdı.

**Ayaz:** Bəsdi, Fərəc, qurtar.

**Fərəc:** Bir məsələni də öyrənim, sonra...

**Nəzifə:** Nə məsələdi, o?

**Fərəc:** Lovğalarla, özündən razılarla narkomanlar arasında deyirlər, elə bir fərq yoxdu. Hamısı havalı olur.

*Pauza*

**Nəzifə:** Naharını elə. Gəl kabinetimə. Ona kimi də mən sənin suallarına cavab barədə fikirləşim.

*Nəzifə əsəbi halda yeməkxanadan çıxır.*

**Nərmin:** Bu yaxşı söhbət olmadı. Bəhanəylə hamımızı cəzalandıracaq.

**Xanım:** İslanmışın yağışdan nə qorxusu?

**Cəmil:** Qaradan tünd rəng?

**Ayaz:** Onsuz da bəhanə axtarır.

**Fərəc:** Tələ mənimçün qurulub.

**Nihad:** Nədən bildin?

**Fərəc:** İlk sualı mənə ünvanlamasından. Halımı soruşmasından. Bir azdan nəticəni bilərsiz.

*Fərəc, Cəmil və Ayaz günorta fasiləsindən sonra Nəzifənin kabinetinə yaxınlaşırlar. Fərəc qapını döyüb içəri keçir.*

*Kadr dəyişir. Nəzifə masasında oturur. Əsəbidir.*

**Fərəc:** Eşidirəm...

**Nəzifə:** Bayaq imkan vermədin sözümü deyim. Yuxarıdan belə məsləhət bilirlər ki, səni başqa "Kimsəsizlər evi"nə köçürək.

— Məsləhət bilirlər, yoxsa, öz istəyinizdi?

— Hər nədi...





*Fərəc özünü sındırmır. Qamətini düzəldir. Gülümsəyir. Nəzifəni süzür.*

— Bu mənim də arzumdu, xanım. Ancaq sənə bir xatırlama da verim.

— Maraqlıdı... Buyur.

— Əgər, Ayazla Cəmilə gözünüz üstə qaşınız var desəz, çox şey açılacaq. Sən də özünü qoru. Onda mən də öz sözümü deməli olacam.

— Sən onların qəhrini çəkmə.

— Riyakar qadın.

*Fərəc Nəzifənin son sözünü gözləmədən kabinetdən çıxır. Uşaqlarla vidalaşır. Nəzifə Fərəcin sənədlərini hazırladır və onu təşkilatçı müavinlə başqa məktəbə köçürür.*

*Uşaqlar Fərəcin başqa məktəbə köçürüldüyünə təəccüblənirlər. Çaşırlar. "Kimsəsizlər evi"ndə Fərəcin yoxluğu hiss olunur.*

**Ayaz:** Fərəcin getməsi çox pis oldu. Bizim kisəmizdən getdi.

**Cəmil:** Ayaz, nəsə, başıma qurdlu-qurdlu fikirlər gəlir.

— *(Diqqətlə ona baxaraq)* Başa düşmədim, Cəmil, sözünü açıq de.

— Ayə, bu direktor Fərəci əkdi. Ona xətər yetirməz? Səncə, indən belə o, bizə girişməz ki?

— *(Özündən razı halda)***:** Qələt eləyər. Dünya dərəbəylikdi? O, bizə nə girişəcək? Deyəcək ki, burdakı qızları satıram, Ayazla Cəmil mənə mane olurlar? Yox... Dostum, o, indi Allaha yalvarır ki, vaxt tez gəlsin, biz də burdan rədd olaq. Onun elədikləri açılmasın.

— Deyirsən, bir qələt eləməz, hə... Ayaz.

— Hə... Dostum, ikimiz bir daşa güc vurmuşuq. Arxayın ol,

onu da mən deyirəm sənə... Direktorun ağlı yoxdu.

— Niyə?

— Çünki Fərəc indi çox şey aça bilər. Fərəci başqa yerdənsə burda, əlində yaxşı saxlayardı.

*Cəmil xeyli fikrə gedir.*

— *(Utana-utana, çəkinə-çəkinə)*: Məni bağışla, səndən bir söz də soruşmaq istəyirəm.

— Çəkinmə, de. Səndən gizli sözüm yoxdu, Cəmil.

— Sən Nərmini sevirsən?

*Ayaz bu sözü eşitcək çaşır. Nə deyəcəyimi bilmir. Handan-hana suala sualla cavab verir.*

— Necə sevmək? Bu sözü deyəndə nəyi nəzərdə tutursan? Mən "Kimsəsizlər evi"nə atılandan o qıza bacı demişəm, o da mənə qardaş. Mən onu bacı kimi sevirəm.

*Pauza*

— Mənim ondan xoşum gəlir, Ayaz. İcazə verərsənmi, xoşum gəldiyini ona deyim.

— De... Sevgi hər kəsin öz işidi. Çalış, sözündən inciməsin. Göz yaşları əlindədi. O, ağlayanda mənim ürəyim sızlayır, dözmürəm.

*Cəmil xeyli fikrə gedir.*

— Yox... Ona söz deyəsi olmadım, dostum. O, yaxşı qızdı. Nə olsun ki, Köçəri...

*Ayazın gözləri yaşarır. Cəmilin də sifətində qızartı yaranır. Cəmil qucaqlayaraq Ayazın üzündən öpür.*





— Bağışla məni, Ayaz.

*Kadr dəyişir. Nəzifə kabinetindədir. Sadiqəylə Təranə kabinetə daxil olurlar. Hər ikisinin üzündə gülüş, gözlərində sevinc duyulur.*

**Sadiqə:** Əla!.. Çox düz eləmisən. Mən onu çoxdandı sizə demək istəyirdim. Ancaq cəsarət eləmirdim.

**Təranə:** Çoxdan getməliydi... Mən necə illərdi burda çalışıram, nə qədər uşaq görmüşəm, Fərəc kimisini görməmişəm.

**Nəzifə:** O uşaq deyildi. Elə bil, təcrübəli müstəntiqiydi. Mən boyda arvadı ağzımı açan kimi borclu çıxarırdı. Adamı bir göz qırpımında bada verərdi.

**Sadiqə:** Görmədin, məni necə şikəst elədi?

*Qapı açılır, Gülşən içəri girir. Əsəbidi.*

**Gülşən** *(direktora)*: Eşitdim, Fərəcin dalından dəymisən.

**Nəzifə:** Mən yox, özü özünün.

**Gülşən:** Bunu Allah götürməz.

**Sadiqə:** Niyə götürməz? İt oğlu uşaqların hamısının başını pozurdu. Bizi də gic eləmişdi.

**Gülşən:** Giclik anadangəlmə xəstəlikdi. Eşitməmisən, südlə gələn qəbrə gedər.

**Sadiqə:** Ağız, Fərəc məni elə günə salıb ki, gecələr də yata bilmirəm. Hey onunla danışıram. Dünən axşam alçaq, az qala, evimi yıxıb balalarımı yetim qoyacaqdı. Bir loxma yediyimi də zəhər eləyib gözlərimdən tökəcəkdi.

**Təranə:** Bıy, bu da təzə çıxdı?

**Nəzifə:** Gədənin üzündən, elə bil, cin yağır. Ona görə də mən dəli oluram.

**Sadiqə:** Yorğundum, fikirləşdim ki, yatıb dincəlim, soyunub

girdim yatağıma. Atasından xəbərsiz gəlib girdi yuxuma. Mən də yuxuda — Fərəc! Fərəc! — deyə sayıqlamışam. Bunu da başı xarab ərim eşidib. Başlayıb məni dümsükləməyə. Alma-satma, mən də oyandım. Dedim: — Nədi əə, qoymayacaqsan yatmağa? Dedi: — Nə yatmaq, it qızı, de görüm Fərəc kimdi? Özünə oynaş tapmısan? And-aman elədim: "Sən nə danışırsan? Nə Fərəc? Nə oynaş?" O saat qandım ki, anası ölmüş yuxuma girib. Səhərə qədər çəpələşdik. İnandıra bilmədim ki, bu Fərəc sən deyən Fərəclərdən deyil. İki gündü kişinin qaşqabağı yerlə sürünür.

**Təranə:** Booy... Yaxşı qurtarmısan.

**Gülşən** *(qəsdən)***:** Namusu-qeyrəti olsaydı, səni doğrayardı.

**Təranə:** Kaş gəlib Fərəci yortaydı. Özünün də canı qurtarardı, bizim də.

**Gülşən:** Siz dəli olmusuz? Direktora xoş getsin deyə, hər sifətə girirsiz.

**Təranə:** Nə demək istəyirsən, Gülşən xanım? Bu boyda "Kimsəsizlər evi"ndə olmasın bir Fərəc.

**Gülşən:** Necə?.. Necə?.. Hamı insandı, Təranə. Nə olsun ki, kimsəsi yoxdu, o, ağıllı oğlandı. Onun gələcəyi var.

**Nəzifə:** Yaşaya bilsə... O, öz əcəliylə ölməyəcək.

**Gülşən:** Sizə yazığım gəlir. Görün, nə günə qalmısız ki, burda bir uşağın ayaqları altında quyu qazmaqla məşğulsuz. Üçünüzün də övladı var. Qarşılarına çıxacaq.

**Sadiqə:** Aa... Üzü üzümüzə, gözü gözümüzə balalarımıza qarğıyır bu?

**Təranə:** Gülşən, sən ailə qurmamısan. Bala qədrini hardan biləsən? Apar saxla. Gələcəkdə də...

*Direktor, Sadiqə və Təranə gülürlər.*

**Gülşən:** Nə gələcəkdə? Saxlama, sözünü axıracan de...

**Təranə:** Özün başa düşdün.





**Gülşən:** Camaatı özünə oxşatma. Allah səni vurub.

**Sadiqə:** Ay Gülşən, səsini atma başına. Elə ağıllısan, get özünə gün qazan. Da bizi abırdan niyə salırsan?

**Gülşən** *(direktora)***:** Hansı ağılla Fərəci qovdun?

**Nəzifə:** Bu nə sözdü? Qovmadım, yaşayış yerini dəyişdim. Qoy getsin ağıllansın... Dəli, zırramadan ötrü atıla-atıla durub gəlmisən yanıma. Qanımızı qaraldırsan. Burda nə pis iş var ki? Ürəyin istəyir, apar saxla.

**Sadiqə:** Ağız, kimsəsiz uşaqdan ötrü ürəyini çatlatma. Eləsindən çox görmüşük. Sabahın oğrusu, qatilidi. Öldürdülər, heç, öldürmədilər, türmədə çürüyəndi də...

**Nəzifə:** Üz-gözündən cinayətkarlıq yağır. Böhtan, iftira üçün doğulub elə bil.

**Gülşən:** Xeyr... Düz danışmırsız. Sizin dedikləriniz də böhtandı, şərdi. Hələ bilmək olmaz, sizinkilər necə olacaq. Fərəcin gələcəyini mən görürəm.

**Nəzifə:** Bəlkə dövlət xadimi görürsən onun şəxsində.

**Gülşən:** Daha böyük...

**Sadiqə:** Hi... Hi... Hi... Gülşən, öz aramızdı, əcəb fanatiksən.

**Təranə:** İndi necə düşünürsən, Gülşən? Fərəc gedib deyə, dəsmal götürüb ona yasmı saxlayaq?

**Gülşən:** Yas saxlanılası adamlarınız çoxdu... Hər kəs öz ölüsü üstə ağlasa yaxşıdı.

**Nəzifə:** Dava-davasan ey, Gülşən.

**Gülşən:** Mən Fərəclə əlaqəmi kəsməyəcəm. Onu hansı fırıldaqla başınızdan elədiyinizi öyrənəcəm.

**Nəzifə:** Həddini aşırsan, Gülşən. İstəyirsən, səni də Fərəcin ardınca...

**Gülşən:** Onu bacarmazsan. Məni bura onun şagird yoldaşları göndərib. Bir də öz vicdanım vadar eləyib. Uşaqla heyvan kimi rəftar eləməzlər.

**Təranə:** Ağız, sən kimsən direktora ağıl verirsən?

**Sadiqə** *(Gülşənə)***:** Anam-bacım, özgə iş-gücün yoxdu? Get, onlarla məşğul ol da. Nə tutmusan Fərəcin quyruğundan...

**Gülşən:** Bilirəm, sizin quyruğunuz Fərəcinkindən uzundu. Belə olmaz... Ağacın iki başı olur. Bir tərəfindən ayaq basanda, o biri tərəfi düz adamın alnına dəyir.

**Nəzifə:** Hə... Bu da hədə... Fərəcin canıyananına bax ey... Anam-bacım, direktor olmaq istəyirsən, durum, gəl, otur yerimdə.

**Gülşən:** Direktor olmaq heç kəsin ata-anasından miras qalmayıb. Lazım gəlsə, olaram, niyə də olmayım?.. Onda gərək Sadiqə, Təranə kimi yaltaqlar bəri başdan özlərinə yer axtarsınlar.

**Sadiqə:** Hay-hay... Bu ağılla...

**Təranə:** Allah kəssin mən görən işi. Böyrümdən keçən "xox" eləyir... Nə qədər qorxu-hürkü içərisində yaşamaq olar?

**Gülşən:** Bədbəxtsiz də...

**Nəzifə:** Sözünü dedin, biz də eşitdik. Xanım, nəticə çıxararıq, çıxarmarıq, özümüz bilərik. Bu söhbət qapandı. Durun, hamınız gedin.

*Sadiqə, Təranə deyinə-deyinə qapıdan çıxırlar. Gülşən ayaq saxlayır.*

**Gülşən:** Mən də gedirəm. Uşaqlara az sitəm elətdir.

**Nəzifə:** Mənə ağıl vermə... Sən özün mələk deyilsən. *(Nifrətlə Gülşənin üzünə baxır.)* Alçaq... Duraram, səni bu əllərimlə... *(Dəstəyi götürür, şahid olmasın deyə katibəyə)* Qaç aptekə. Mənə ürək sakitləşdirici dərman al...

*Dəstəyi yerinə qoyur.*

**Gülşən:** Bilirəm, nə demək istədiyini. Yekə arvadsan, nə özünə dəyər verirsən, nə də başqasına. Unutma ki, mənim biləyim səninkindən güclüdü.





*Nəzifə cəld ayağa qalxır. Qapını arxadan bağlayır. Gülşənə bir sillə vurur. Gülşən geri çəkilir. Tez də Nəzifənin saçından yapışır. Onu yıxır və başına-üzünə döyməyə başlayır. Nəzifə qışqırır.*

**Nəzifə:** Ağız, qurtardıq. Məni burax. Qurban olum, vurma. İndi katibə gələcək.

**Gülşən:** Cəhənnəmə gəlsin, gora gəlsin katibə. Harın alçaq. O uşaqların əynindən-qarnından kəsdiklərin səni qudurdub.

**Nəzifə** *(əl-ayağı əsir)***:** Qurtardıq.

**Gülşən:** Yaramaz, məni əllərinlə boğacaqdın, yoxsa...

**Nəzifə:** Qələt elədim.

**Gülşən** *(direktoru buraxaraq)***:** İndi get, qapını aç. Səsin çıxsa, səni əzəcəm...

## IX bölüm

*Nəzifə səndələyə-səndələyə qapıya gedir. Qapını açır. Gülşən onu ayaqdan-başa müşahidə eləyir. Sonra sakit addımlarla qapıdan çıxır.*

*Kadr dəyişir. Ayazla Nərmin həyətdə gəzirlər.*

*Nərmin çəkinə-çəkinə, qızara-qızara ürəyindəki ən səmimi duyğularını Ayaza açır.*

**Nərmin:** Ayaz, bir neçə aydan sonra "Kimsəsizlər evi"ylə xudahafizləşirik. Düşünmüsənmi, hara üz tutacağıq? Ev-eşik yox. Düz-əməlli təhsil almamışıq. İşsiz-gücsüz çətin olacaq. Canımı qara-qorxu alıb, qardaş. Biz neyləyəcəyik?

— Eh... Allahı olan dərd çəkməz. Qismətimizdə nə varsa, o da olacaq.

*Nərminin səsi titrəyir... Bala quş kimi Ayaza sığınır. Ayaz sözünə davam eləyir.*

— Qorxma, Nərmin. Biz burdan çıxanda birlikdə gedəcəyik. Mən hara, sən də ora. Qalmağa, işləməyə yer taparıq. Hər il "Kimsəsizlər evi" ilə nə qədər uşaq xudahafizləşir. Onlar necə, biz də elə.

*Pauza*

— Sən nə danışırsan, Ayaz? Bilmirsən ki, bizim kimiləri cəmiyyət qəbul eləmir? Uşaqların çoxu iş, ev tapa bilməyib küçələrə, oğurluq eləyib, basqınlar törədib, türmələrə düşürlər? Mən sənsiz dözməyəcəm, özümü öldürəcəm, qardaş.

*Nərmin yazıq görkəm alır. Bunu müşahidə eləyən Ayazın ürəyi kövrəlir.*

— Yox, Nərmin. İndidən hər şeyi özümüzə dərd-sər eləməyək. Həyat insanı hər şeyə öyrədir...

— Ayaz, yaşamaq nə qədər çətinmiş? Biz niyə belə olduq?

— Ondan danışma, Nərmin. Hərdən doğulduğum üçün özümü məzəmmət eləyirəm. Niyə, bilmirəm.

— Bəyəm, biz də ata-analılar kimi həyatımızı qurub yaşaya bilməzdikmi? Hərdən düşünürəm: insan bu dünyaya niyə gəlir? İnsan bəzən heyvanlardan da, həşəratlardan da ağır ömür yaşayır. Bax, elə götürək özümüzü...

— Sən niyə belə ümidsiz danışırsan, Nərmin?

*Pauza*

— Çünki, mən qorxuram. Bu "Kimsəsizlər evi"ndən çıxmaq istəmirəm. Burda qalıb yaşamaq istəyirəm. Ancaq neyləyim ki, məni burda qalmağa qoymayacaqlar. Yaşadığımız bu əzablı, dərd-sərli dünyadan kənarda nə çoxdu Köçəri kimiləri.

— Gördün, o da cəzasını aldı. Hər halda, ömür axıra qədər





belə gedə bilməz.

— Axı, gedir. İnanmıram ki, burdan çıxan kimi elə əclafların cənginə keçməyək... *(Nərmin danışa-danışa ağlayır)* Mən anamı bir dəfə də olsun görməmişəm. Yəqin ki, adımı da, inisialımı da, lap atamın adını da burda qoyublar. Hərdən düşünürəm, Ayaz, görəsən, anam məni dünyaya gətirməsi barədə əvvəlcədən düşünübmüşmü? Yoxsa... Yəqin ki, yox...

— Eh... Atandan sonra nə düşünür, düşünsün. Lap göz yaşları axıtsın. Sənə faydası olacaqmı, təskinlik gətirəcəkmi?

— Yoox... Heç vaxt, Ayaz.

— Hərdən mən də sənin kimi düşünürəm. Bəzən dağı arana, aranı dağa daşıyıram. Anamdan getdikcə hey uzaqlaşıram. Qəribədi, onu sən əvəzləyirsən desəm, inan. Heç vaxt özümü sənsiz görmürəm. Sən çox ağıllısan, gözəlsən, Nərmin.

*Pauza*

— Eh... Ağıl... Ağıl yerində, zamanında ağıl olur, Ayaz. Biz ağıllı olub, neyləyə bilərik?

— Ağıl hər şeydi, Nərmin. Biz yalnız ağılla özümüzü xilas edə bilərik.

— Kino, televiziya ekranlarında insanlara əl açan dilənçiləri görürsənmi? Şəhər gəzintisinə çıxanda onlarla üzləşmisənmi?

— Hə... Necə bəyəm, Nərmin?

— Yəqin ki, biz də elə həyat sürənlərdən olacağıq. Qardaş, bu dediklərim siz oğlanlar üçün, bəlkə də asandı. Bizim üçün bilirsən nə qədər məşəqqətlidi?

*Pauza*

Allah başına daş saldı Köçərinin.

— Bəlkə də qızların qarğışı tutdu onu. Al-qana boyandı. Ancaq şübhə eləmirəm ki, orda sənin də əlin var.

*Ayaz dərhal onun dediklərinə etiraz eləyir.*

— Yox... Onu düz demirsən. Məndə bıçaq hardanıydı? Mənim ona gücüm çatardımı?

— Axı, qızlar deyirlər Köçərini siz qətlə yetirmisiz.

— Biz — kimlər?

— Fərəc, Cəmil, bir də sən.

— İncimə məndən. Görünür, sən çox sadəlövhsən. Deyilənlərə inanansan. Sifətində uşaq şıltaqlığıyla yanaşı, sadəlövhlük cizgiləri də var.

*Pauza*

— Ayaz, mənim inamımı öldürə bilməzsən. Köçərini öldürməniz o zamanlar gözlərinizdən oxunurdu. Qızlar deyirlər ki, Fərəcdən direktor da qorxurdu.

*Pauza*

— Qəribədi. Zeynəb qarı belələrinə deyirmiş də, "Qız evində toydu, oğlan evinin xəbəri yoxdu". Siz qızlar əməllicə-başlıca bizim qəhrəman obrazımızı yaratmısız ki.

*Hər ikisi gülür. Bağda ağacları sulayan orta yaşlı Xədicə onlara yanaşır.*

**Xədicə:** Uşaqlar, az qalıb vaxtınıza. Burdan gedəndə çoxları gələcək həyatlarını düşünməyib, necə gəldi, hərəkət eləyirlər. Tanımadıqları gənclərə qoşulurlar. Qumar, içki, narkotikayla özlərini çirkaba bulaşdırırlar.

*Pauza*

Görürəm, dostsunuz. Çalışın, dostluğunuzu axıra qədər qoruya biləsiz.

**Ayaz:** Biz bacı-qardaşıq, Xədicə xala.

**Xədicə:** Mən nə deyirəm, oğlum. Sizi yaxşı tanıyıram. Bacı-qardaş da, dost da olsanız, istəyirəm, ən çətin anda bir-birinizə dayaq olasız... Hara gedəcəyinizi, nə iş görəcəyinizi əvvəlcədən götür-qoy eləsəniz, çox şey qazanarsız.





**Nərmin:** Elə mən də Ayaza bayaqdan onu deyirəm. Görək neyləyəcəyik...

*Pauza*

**Xədicə:** Uşaqlar, bir çox gəncin gücünə inamı həmişə onu ağlagəlməyən zor qarşısında qoyur. Lovğalıq, mənəm-mənəmliklə heç nə qazanmaq olmur. Sakit adamların başı salamat, qarınları tox olur. Özlərinə tez güzəran qazanırlar. Burdan çıxanda uzağa getməyin.

**Ayaz:** Bəs hara gedək? Kimlərin yanına qaçaq?

**Xədicə:** Verin özünüzü bağlara. Bağ yiyələri sizin kimi ağıllı, işgüzar adamlar axtarırlar. Bağda evsiz-eşiksizlərə qalmaq üçün şərait də yaradırlar, hər gün iş də olur. Verin əl-ələ, Nərmin ev işləri görsün, Ayaz, sən də çöl. Azdan-çoxdan alıb həm qarnınızı doydurarsız, əyin-başınızı düzəldərsiz, həm də beş-üç manat arxaya atarsız. Yığıb özünüzə ucuzvarı daxma alarsız. Heç kəsə də ehtiyacınız olmaz.

**Nərmin:** Neçə ilə?

**Xədicə:** Yatmağa yeriniz, yeməyə çörəyiniz olsa, illər bir-birini əvəzləyəcək. Bir də görəcəksiz, hər şey düşündüyünüz kimidi.

**Ayaz:** Dəryada qızıl balıq sevdası.

**Xədicə:** İnciməyin məndən, yeri gəlib deyəcəm, dava-dalaşla, qoluzorluluqla, tapdığını arağa-filana verib qarına tökməklə, papiros fısqırtmaqla iş düzəlməz.

*Pauza*

Sizə ailə lazım olacaq. Bu günün cavan olanı sabahın ahıl kişisidi, qadınıdı. Səhər oğurluq eləyən axşam türmədə oturur...

*Xədicənin sözlərinə Ayaz biganəlik göstərir. Üzünü yana çevirir. Nərminsə ona diqqət yetirir və onun sözlərini başıyla təsdiqləyir.*

**Nərmin** *(Ayaza)***:** Sən Fərəc tökənləri yığırsan. Onu təqlid eləyirsən. Unudursan ki, belə hallarda sən özün olmursan. O, gedişlər sənə yaraşmır. Sən çalış, özün ol. Heç kimi yamsılama. Başqasının ayaqqabılarını geymək olar, ancaq onun kimi gəzmək olmaz.

*Ayaz diqqətlə Nərminin üzünə baxır.*

— Bu, nə deməkdi, Nərmin?
— Mən istəmirəm, Ayaz, sən başqası olasan.

*Pauza*

Mən istəmirəm, sən özünü Fərəcə oxşadasan. İstəyirəm, sən yıxılıb qalxanda da, ağlayıb güləndə də özün olasan. Mən süniliyi, saxtakarlığı qəbul eləyə bilmirəm...

*Nərminin dedikləri Ayazı tutur. Əvvəl ciddi görkəm alır. Sonra gülümsəyir.*

— *(Zarafatla)***:** Mən özümçün xarakter biçirəm, Nərmin. Ola bilər ki, səhvə yol verim. O da sənə saxtakarlıq kimi görünsün.
— *(Gülümsünərək)***:** Yaxşı, yaxşı, özünə bəraət qazandırma. Dağ uzaqdan daha aydın seçilir.
— Məni dağa bənzətdiyin üçün sağ ol.
— Gərək, sən də hərəkətlərinə baxmağı bacarasan.

*Pauza*

— Danlaq?
— Danlaq niyə? Olanı demək nə vaxtdan danlaq olub?

*Kadr dəyişir.*

**Nəzifə** *(həkimə)***:** Bu nə söhbətdi yayırsan?
**Həkim:** Mən olanı demişəm, xanım.





— *(Əsəbiləşir)***:** Ağız, başın var, sənin?
— Görmürsən, çiyinlərim üzərindəki bu boyda başı? Bəlkə sənin gözlərin... Eynək gətizdirim.
— *(Astadan, hirsini boğaraq)***:** O sözü ellə bir eləyincə, mənə xəlvəti deyə bilməzdin? Ay qız, axı, səni mən himayə eləyirəm, bu xarabada.
— Məni Allahım himayə eləyir. Sən kimsən mənə o sözü deyirsən? Burda nə var? Dolanışıq yox... Gedib ikicə iynə şabbıldatsam, xəstədən, ən azı onca manat alacam.
— Onda burda niyə vaxt itirirsən?
— Mənə yol göstərmə, xanım.

*Həkimlə səs-küylü danışığın fayda verməyəcəyini anlayan direktor bir qədər də yumşalır.*

— Ay qız, sənə də söz deməyə məəttələm. Elə bil, barıt çəlləyisən. Özün də him gözləyirsən. O andaca atılırsan.
— Uzatma, sözünü de.
— Sözüm budu ki, xanımı bir də müyainə elə. Güya, səhvə yol vermisən. Qızın bətnində uşaq yox, kista var.
— Aa... Yoxlayıb deməzlər ki, bu tibb bacısının başı xarabdı?
— Yox... Mən olan yerdə heç kəs cəsarət eləməz. Eləyər, onu atdıraram içəri. Sən nə bilirsən uşaq kimdəndi?
— Sən deyən çox xatalı şeydi. Zibili məndən uzaq elə... Maraqlıdı, o qız harda, kiminlə görüşüb?
— Ay qız, nə işinə qalıb? Bədbəxtin ciyərinə də soyuq olub. Elə oskürür, elə bil, içalatı, ürək-böyrəyi qopub gələcək. Çox şişirtmə. Çalış hamiləlik diaqnozunu geri götür. Onu ciyər-miyərlə əvəzlə. Ayıbdı. Yediyimiz qazana təpik atmayaq. Eşidib-bilən bizi də qatar məsələyə.
— Bilirsiz, xanım, yenə deyirəm, mən nə varsa, onu da yazacam.

*Direktor həkimi sözlə yola gətirə bilmir. Ona yaxınlaşır. Xalatın cibinə pul basır. Həkim nəm-nüm eləyir.*

— Ağız, məni pozma: hi... hi... hi...
— Pozğunun nəyin pozacam?
*Həkim əsəbiləşir. Nəzifə çəkinir. Tez sözünü yumuşaltmağa çalışır.*

— Bu nə sözdü? Mənə deyirsən pozğun?
— Zarafatı da başa düşmürsən. O saat atılırsan. Ay qız, mən pozğun sən pozğunun xasiyyətini pul verməklə pozuram.

*Həkim ucadan gülür.*

— Ağız, eşidən olar, elə bilər, pozğunun tündündənik. Kişi də eşidər, məni evə-ailəyə həsrət qoyar... Yaxşı da, sənin xatirinə...

*Nəzifə gedir. Həkim direktorun göstərişiylə əməkdaşların qulaqlarını doldurur.*
*Kadr dəyşir. Soyuq hava. Qar yağır. Buz kimi otaqlar. Soyuqdan titrəyən uşaqlar bir yerdə qərar tuta bilmirlər.*

**Nihad:** Öldük soyuqdan, belə getsə, donacağıq. Qorxuram ki, günorta içməyə isti çay da olmaya. Onda lap batdıq.
**Xatirə:** Hə... Nihad nifrin-nifrin danışdı da...

*Hamı gülür.*

**Nərmin:** Nihad neyləsin? Olanı deyir də... Bəxtimizə qaragün yazılıb.





*Xanım öyüyür və tez də otaqdan çıxır. Xatirəylə Nərmin tələm-tələsik onun ardınca gedirlər... Xanım bir neçə dəfə haldan-hala düşür. Öyümələr, qaytarmalar təkrarlanır. Xanımı "Kimsəsizlər evi"nin tibb məntəqəsinə aparırlar.*

**Tibb bacısı:** Xanıma soyuq olub. Bərk xəstələnib. Zavallı qız hamilədi.

*Uşaqlar, işçilər arasına pıçapıç düşür. Söz-söhbət direktora çatır. Nəzifə tibb məntəqəsinə gəlir. Adamlar susurlar. Hamını məntəqədən çıxarırlar.*
*Kadr dəyişir. Fərəcin köçürüldüyü "Kimsəsizlər evi". Gülşən müəllimə direktor Bəsti xanımla görüşür.*

**Gülşən:** Xanım, mən Fərəcin müəlliməsiyəm. Onunla görüşə gəlmişəm. Onunla görüşə bilərəmmi?
**Bəsti** *(gülümsünərək)***:** Xoş gəlmisiz, Gülşən xanım. Neçə ildi burda işləyirəm, müəllimin şagirdinin arxasınca gəlməsini ilk dəfə görürəm... Məndə olan məlumata görə, Fərəc çox çətin uşaqdı. Heç kəslə yola getmir.
**Gülşən:** Baxır kimlə... Mən neçə illərdi Fərəcə dərs demişəm. Xarakterinə yaxşı bələdəm. Kaş bütün uşaqlar belə olaydı...
**Bəsti:** Təəccüblüdü...
**Gülşən:** Fərəc həqiqətpərəstdi. Dostluqda sadiqdi. Gözləri açıqdı. Ürəyi yumşaqdı. Təmizdi... Yaxşı cəhətləri, bir sözlə, çoxdu. Ancaq haqsızlığa, böhtana, şərə dözməyəndi. Sözü düz adamın gözlərinin içinə deyəndi. Bu xasiyyətinə görə uşağa pozğun, çətin tərbiyə olunan damğası vurmaq olarmı? O, kimsəsiz uşaqdı. Allah kimsəsizə zülmü götürərmi?!
**Bəsti:** Maraqlıdı... Qalx, gedək... Fərəclə birlikdə görüşək.

*Kadr dəyişir. Gülşənlə Bəsti kabinetdən çıxırlar. Uşaqlar həyətdədilər. Fərəc Gülşəni görcək sevinir. Gülşənlə Bəstiyə yaxınlaşır. Salam verir.*

**Fərəc:** Gülşən müəllimə, sizi də qovdular? Burda işləyəcəksiz?
**Gülşən:** Yox, Fərəc.
**Bəsti:** Səni görməyə gəlib.

*Fərəcin də, Gülşənin də gözlərindən yaş süzülür. Bəsti üzünü yana çevirir. Gülşən gözlərinin yaşını silir.*

**Gülşən:** Necədi, Fərəc, bura xoşuna gəlirmi?
**Fərəc:** Hələ ki, mən təzəyəm. Uşaqlarla tanışlığımız başlayıb. İnanıram, hamısıyla dostlaşacam.
**Gülşən:** "Kimsəsizlər evi" necədi?
**Fərəc:** İstər ora olsun, istər bura. Adları zəhmlidi. Adamda ağır hisslər oyadır. Köçürüblər bura... Heç kimi pisləmək istəmirəm. Təkcə sizin, bir də dostlarım üçün darıxıram. Sağ olun Gülşən müəllimə, məni yada saldığınız üçün. Unutmaram heç vaxt.
**Gülşən** *(qəsdən yalan deməli olur)***:** Dostların da səndən ötrü darıxırlar. Az qalıb, vaxtınızı qurtararsız, görüşərsiz... Al, bu da mənim telefon nömrəm. Bəsti xanımdan xahiş eləyəcəm, mənə telefon açmaq istəyəndə sənə şərait yaratsın... Dostlarına sözün varmı?
**Fərəc:** Mənim salamımı çatdırın. Deyin ki, Fərəc hamınızı sevir. Hamınız qəlbimdəsiz.
**Gülşən:** Qapıçının otağında kiçik bağlama var. Onu götürərsən. Ürəyin nə istəsə, mənə telefonla deyərsən.
**Fərəc:** Əziyyət çəkmisiz, müəllimə.
**Bəsti:** Mən də Gülşən xanıma təşəkkür eləyirəm, oğlum.





Gülşən xanım burda yoxdu, mən burdayam. Nə sözün-söhbətin olsa, utanma, gəl yanıma.

*Fərəclə Gülşən xanım xudahafizləşirlər. Bəstiylə Gülşən həyət qapısına tərəf gedirlər. Gözlərindən yaş axıda-axıda Fərəc arxadan onları müşahidə eləyir.*

## X bölüm

**Nəzifə:** Pıçapıçı yığışdırın. Xanımın hamilə söz-söhbəti yalandı. Deyilənlər böhtandı. Mənə qarşı təxribatdı. *(Üzünü adamlara tutaraq)* Xanım yaxşı qızdı, onu biabır eləməyin.
*Pauza*
O sözü kimdən eşitsəm, onu burdan it kimi qovaram. Böhtanın da həddi var. Bir yerə yığılıb, ağzınıza gələni danışmayın.

*Xatirənin Xanıma yazığı gəlir. Onun qoluna girir. Bağın aşağısına tərəf aparır. Uşaqlar onları müşahidə edirlər. Xanım ağlayır. O, Xatirəyə başına gələnləri danışır.*

**Xanım:** Mən günahsızam. Məni Köçəriylə direktor Nəzirə bu vəziyyətə saldılar.
**Ayazın daxili səsi:** Aman Allah, necə olub ki, biz kimsəsizlərin talelərini bu alçaqlara etibar eləyiblər. Bizim günahımız nədi? Biz hansı pis əməlin sahibiyik? Niyə bizi belə cəzalandırırsan?

*Nəzifə Xanımı tərbiyəçi vasitəsiylə öz kabinetinə çağırtdırır. Uşaqlar böyük səksəkə və nigarançılıqla bir-birilərinin üzlərinə baxırlar. Xanım Nəzifənin yanına gedir.*

**Nəzifə:** Xanım, sən vərəm xəstəsisən. Səni müalicəyə göndəririk. İndicə həkimlə özüm danışmışam. Səni müalicə eləyəcəklər. Qorxma.

*Pauza*

Ancaq soruşan olsa, qızlığının alınması barədə bir kəlmə də danışma. Biabır olarsan. Sağal gəl, səni bura işə götürəcəm.

**Xanım:** Axı, qızlığımı Köçəri aldı.

**Nəzifə:** Nə olsun? Onu kimdi ömrü boyu özündə saxlayan. Bilirsən ki, Köçəri də öldürülüb.

**Xanım:** Mən sağalacam?

**Nəzifə:** Səndə nə var ki? Çıx çöldə gözlə. Səni öz maşınımla aparacam.

**Xədicə** *(Gülşən müəlliməyə mızıltılı səslə)***:** Yazıq qız vərəmmiş. Onu müalicə üçün həkimlər xəstəxanaya köçürtdülər... Sən demə, ögüməsi də, arabir öskürməsi də vərəmdənmiş...

**Gülşən:** Boş-boş danışma. Direktor Xanımın başını yedi. O, həqiqətən də hamilədi. Onu "Kimsəsizlər evi"ndən çıxartdı ki, ikicanlılıqdan azad elətdirsin.

**Xədicə:** Booy, sən nə danışırsan? Elə şey olar? Direktor qorxmur?

*Pauza*

**Gülşən:** Qorxduğu üçün fırıldaq yollarla yaşını çoxaltdırıb ki, xaricə yola saldırsın... Bu, xalqımıza, millətimizə, onun genefonuna yönəlmiş xəyanətdi. Hamıya yönələn cinayətdi. Nə qədər o direktordu bu zavallılar hələ çox haqsızlıqlarla qarşılaşacaqlar. Gərək xalq özünü elə əclaflardan qorusun...

**Xatirə:** Axı, necə?

**Gülşən:** Söz tapa bilmirəm, qızım.

**Ayaz:** Bizə bəla Allahdan gəlib.

**Xatirə:** Allahsıza Allah neyləsin?

*Uşaqlar sarsılırlar.*





*Kadr dəyişir. Televizora çəkiliş aparılır. Dilli-dilavər, üstbaşları səliqə-səhmanlı uşaqlardan bəziləri şeir deyir, mahnı oxuyur, rəqs eləyir. Saat on bir. Nərmin, Xatirə, Ayaz, Cəmil, Nihad və Firuz çəkilişdən imtina eləyir, zaldan çıxırlar. Yuxarı mərtəbədəki sinif otağına gedirlər. Hamısı qəmgindirlər. Nərminlə Xatirə göz yaşları içərisində bir-birilərini qucaqlayırlar. Ayaz heyrətlənir. Qapı açılır. Təşkilatçı Sadiqə içəri girir. Uşaqları görcək əsəbiləşir.*

**Sadiqə:** Fahişələrdən doğulmuşlar, necə də sarmaşıblar bir-birilərinə. Gərək burda sürtüşəsiz? Sürtüşməyə vaxtınız çox olacaq... *(Üzünü oğlanlara tutur).*

*Pauza*

Oğraşlar! Ata-analarından xəbərsizlər, özlərini veriblər gözdən uzaq otağa. Pul verib, sizin üçün aşağıda çəkiliş təşkil eləmişik. Mərəkə qurmuşuq. Sizsə fahişələrlə tamaşadasız.

*Cəmilin əsəbləri dözmür, Sadiqənin üstünə sıçrayır. Sarı rəng çəkilmiş saçlarından tutub başını ayaqları altına qoyur. Nihadla Firuz Cəmili arxadan qucaqlayırlar. Sadiqənin saçlarını onun əlindən güc-bəlayla alırlar. Qadının gözlərinin altı qızarır, dişləri qanayır. Sadiqə söyüş söyə-söyə Cəmilə hücum çəkir. Oğlanlar Cəmili tuturlar. Qızlarsa sinifdən qaçırlar.*

**Cəmil:** Sən alçaqsan. Qadın deyilsən.

**Sadiqə:** Səni burdan türməyə atdıracam, ərimə öldürtdürəcəm.

*Sadiqə qapıdan çıxır, çəkiliş otağına gedir.*

*Çəkilişdən sonra Nərmini, Xatirəni, Ayazı, Cəmili, Nihadı və Firuzu direktor öz otağına çağırtdırır.*

**Nəzifə:** Özünüzü nə sanırsız, Ayaz, Cəmil? Yoxsa, Fərəcdən dərs almısız? Mən o zaman sizə güzəştə getdim. Törətdiklərinizi ört-basdır elədim, şişirtmədim. Ona görə qudurduz?!

**Ayaz:** Düz demirsən. İstəmirəm köhnə zibilə təzədən qayıtmağı.

**Nəzifə:** Qorxudan, xəcalətdən, eləmi?

**Ayaz:** Biz onda istəmədik sənin sirlərini faş eləyək.

**Nəzifə** *(əsəbiləşərək)***:** Buna bax ey.

**Cəmil:** Biz onda da günahsızıydıq, indi də. Özünüzdən qorxduğunuz üçün törətdiyiniz cinayəti açıb-ağartmadız. Bilirik, Fərəcin də yerini qorxunuzdan dəyişdiz. Elə bilirdiz, başa düşmədik?

**Ayaz:** O iş hələ də gündəmdədi.

*Pauza*

**Nəzifə** *(qışqıraraq)***:** Yaxşı, o iş qurtardı. Siz indi bizi qonaqların yanında biabır elədiz. Üç gününüz qalıb, dözə bilməzdiz? Arvadın üz-gözünü vurub dağıtmısan, Cəmil.

*Sadiqə əlində qəzet bükülüsüylə içəri girir. Onun gözləri hirsindən, qəzəbindən hədəqədən çıxır. Cəmil Sadiqəni vurduğunu boynundan atır.*

**Sadiqə:** Yalan danışır, oğraş. Mənim üz-gözümü bu dağıtdı.

**Cəmil:** Xeyr, hamısı yalandı. Sadiqə özü öz üz-gözünə vurdu, məni şərləmək üçün.

**Nəzifə:** Niyə?

**Cəmil:** Bilmirsiz? Necə niyə?

**Ayaz:** Cəmili şərləmək üçün... Cəmilin o işdə heç bir günahı yoxdu.

**Nihad:** Günahın hamısı Sadiqədə oldu.

**Nəzifə:** Sadiqə yox, müəllimə.

**Firuz:** Müəllimə elə olmur.





**Nəzifə:** Söz güləşdirmə, Firuz.

**Cəmil:** Siz də bizə hədə-qorxu gəlməyin. Köçərinin qatili hələ tapılmayıb. Başqa cinayətləriniz də...

*Pauza*

**Nəzifə:** Demək istəyirsən, cinayətkar mənəm?

**Ayaz:** Elə deyil?

*Sadiqə qəzetin arasından çörək bıçağını çıxarır, Cəmilin üstünə şığıyır, qızlar qışqırırlar. Cəmil dərhal geri atılır. Ayaz Sadiqənin qolundan tutur və geri çəkir. Nəzifə Sadiqənin qarşısına keçir. Sadiqə Cəmilə yenə hücum çəkir. Bu zaman onun əlindəki bıçaq direktorun qarnına girir.*

**Direktor:** Öldüm, ana! Ağız, sən neylədin?

**Sadiqə:** Bilmədim, bağışla məni. Beyni çalxalanmışın bağırsaqlarını tökəcəkdim.

**Direktor:** Məni həkimə çatdırın!

*Səs-küy qopur. Nəzifənin üst-başı qana boyanır. Uşaqlar Cəmili kabinetdən çıxarırlar.*

*Kadr dəyişir. Həyət. Uşaqlar Ayazla Cəmilin ətrafına toplaşırlar. Hamı həyəcanlıdı. Nərmin titrəyir.*

**Ayaz:** Uşaqlar, Sadiqənin başında bir çanaq qan vardı, boşaltdı. Nə yaxşı ki, Cəmilin üstə yox... Ölüm var... Deməli, polislər, müstəntiqlər indi tökülüşüb gələcəklər.

**Cəmil:** Hə... Bizi də sorğu-suala çəkəcəklər.

**Ayaz:** Nə soruşsalar, hamımız eyni cavabları verməliyik.

**Firuz:** Biz əvvəlcədən hardan bilək müstəntiq nə sual verəcək?

**Ayaz:** Firuz, müstəntiq bizə gəzib-dolaşdıqlarımızdan, yeyib-içdiklərimizdən sual verməyəcək. Bizdən hadisəylə bağlı söz

soruşacaq... Onda biz heç bir şeyə toxunmuruq. Ancaq Sadiqənin hərəkətlərindən danışırıq. Yoxsa...

**Cəmil:** Soruşsalar, şəxsən mən deyəcəm. Buraxılışla bağlı zalda çəkiliş gedirdi, biz çəkilmək istəmədik. Qalxdıq yuxarı mərtəbəyə. Başladıq burdan çıxandan sonrakı hərəkətimizi götür-qoy eləməyə. Birdən qapı açıldı. Sadiqə içəri girdi. Başladı bizi söyməyə, təhqir eləməyə. Mən də ona cavab qaytardım. Sadiqə başladı üz-gözünü cırmağa. Saçlarını yolmağa. Sifətinə, dizlərinə vurmağa... Sonra bizi direktorla hədələyib otaqdan çıxdı... Direktor bizi otağına çağıtdırdı. Söhbətə başlamışdı ki, qəzetə bükülü nəyləsə Sadiqə kabinetə girdi. Məni yenidən təhqir elədi. Sonra da üstümə cumub məni vurmaq istədi. Mən dərhal kənara çəkildim. Bıçaq direktorun qarnına girdi.

**Firuz:** Birdən başqa suallar da verdi?

**Ayaz:** Firuz, həyəcanlanma. Nə sual versələr, onların cavabı "bilmirəm", "görməmişəm", "xəbərim yoxdu"du.

*Sadiqə həyətə çıxır. Uşaqları bir yerə toplaşan görür. Əsəbiləşir. Qışqırır...*

**Sadiqə:** Qırğın qırmışlar, odu ha, toplaşıblar. Allah bilir, kimə neyləmək istəyirlər. *(Uşaqlara)* Heç sizi xoşbəxt olmayasız. Başınız açılmasın... Mənim başımı qatdız. Çörəyimi zəhər elədiz.

*Gülşən müəllimə gəlir. Xatirə özünü ələ ala bilmir.*

**Xatirə:** Düz deyirsən. Allah bilir, neylədiyini. Ona görə də bizə bu ömrü, sənə də bundan sonrakı gələcəyi qismət eləyir.

**Xədicə:** Ay uşaqlar, gedin. Bir yerə toplaşmayın. Sizi görəndə, elə bil, bəzilərinin gözlərinə tikan girir. Düşünmürlər ki, onların da uşaqları, nəvələri "Kimsəsizlər evi"nə düşə bilərlər.





**Sadiqə** *(Xədicəyə)***:** Nifrin-nifrin ikibaşlı danışma, ifritə.

**Xədicə:** Nə danışacam? Nə danışacam? Hələ başa düşmürsən ki, tifillər kimsəsiz uşaq evindədirlərsə, özün türmədə olacaqsan. Ağız, Allahından qorxmursan? Direktoru da, Köçərini də, vallah, səni də o uşaqların ah-nalələri tutdu. Məni palan içi sökməyə vadar eləmə. Hər şey qurtardı... İndi cavab vermək vaxtıdı. Tökülüşüb gələcəklər.

**Gülşən:** Uşaqlar, burda sizin qəbahətiniz yoxdu. Qorxmayın. Biz də həqiqəti deyəcəyik.

**Sadiqə:** Mənim düşmənlərim böyrümdəymişlər ki? Vay! Vay! Ölübmüş hissiyatım. Kormuş gözlərim...

*Hamı çaş-baş qalır. "Kimsəsizlər evi"nin işçiləri kabinetə doluşurlar. Telefonla təcili tibbi yardıma və polisə zəng çalırlar. Sadiqə baş-gözünə, dizlərinə döyür. Saçlarını yolur.*

— Vay! Evim yıxıldı... Balalarım yetim qaldı. Anan mələr qalsın, Cəmil. Sən neylədin?!

*Uşaqlar Sadiqəyə cavab vermirlər. Dağılışırlar.*

*Həkimlərlə polislər hadisə yerinə təqribən eyni vaxta gəlirlər. Həkimlər direktoru təcili müayinə eləyir, maşına mindirirlər. Maşın sürətlə həyətdən çıxır. Polislər işçiləri və uşaqları kabinetin yan-yörəsindən uzaqlaşdırırlar. Müstəntiq həyətdə o tərəf-bu tərəfə gəzişir. Sonra üzünü Sadiqəyə tutur.*

**Müstəntiq:** Bu, nə həngamədi, aaz? Sən xuliqanlıq eləmisən? Cinayət törətmisən?

*Sadiqə müstəntiqin suallarını cavablandırır.*

**Sadiqə:** Müstəntiq, düz deyirsən, bura xuliqanxanadı. Xara-

banın Əlisi dəli, Vəlisi dəli. Uşağı, böyüyü, arvadı, kişisi dəli. Bir sözlə, hamısı dəli. Məni də dəli elədilər.

*Pauza*

Soxdum kişinin arvadının qarnına bəri üzündən bıçağı, çıxdı o üzündən. Ölsə, başıma daş düşəcək. Qurban olum, müstəntiq, səni doğan arvada, səncə, o, öləcək?

**Müstəntiq** *(üzünü adamlara tutaraq)***:** Ayə, bu dəlidi, əə? Belə adamı da bura işə götürərlər?

**Gülşən:** Cəmil yaxşı qurtardı.

**Xatirə:** Cəmilin nə günahı var?

**Sadiqə:** Yıxılana balta çalan çox olar.

**Xatirə:** Zırramasan, zırrama.

**Sadiqə:** Müstəntiq, səncə, direktor öləcək?

**Müstəntiq:** Aaz, sən gicsən. Sənin yerin dəlixanadı. Mən həkiməm? Mən nə bilim yortduğun öləcək, ya ölməyəcək?

**Sadiqə:** Müstəntiq, vallah, yalan danışmıram, məni bic Cəmil ağıldan çıxardı.

**Ayaz** *(dərhal)***:** Sənin başında əvvəldən qan vardı. O oğlanı da, qızları da, bizi də söydün, təhqir elədin. Direktoru da sən qana boyadın.

**Nərmin:** Əməllərinin bəhrəsini dad.

*Kimsə müstəntiqə telefon açır. Müstəntiq "Hə", "hi", "hə"lə qırıq-qırıq danışırlar. Sonra müstəntiq telefonu söndürür.*

**Müstəntiq** *(yanındakı polislərə)***:** Direktor yoldaca qanaparmadan keçinib. Sadiqənin qollarını qandallayın, onunla uşaqları da şöbəyə aparaq.

*Sadiqəylə uşaqları polis şöbəsinə aparırlar. Kadr dəyişir. Uşaqları danışdırırlar. Sadiqəylə hər birini üzləşdirirlər. Uşaqlar düşündükləri kimi izahatlar verirlər. Kamera müstəntiqin kabinetini, uşaqlardan izahatların alınmasını ötəri panorama eləyir. Uşaqları avtobusla "Kimsəsizlər evi"nə qaytarırlar.*





*Kadr dəyişir. Sinif otağı. Gülşən müəllimə içəri daxil olur. Uşaqlar partadan qalxırlar. Gülşənin əhvalı yüksəkdir.*

**Gülşən:** Uşaqlar, bu gün sizə sürprizim var.

*Uşaqlar maraqla Gülşən müəllimənin üzünə baxırlar.*

**Nərmin:** Nə sürprizdi o, müəllimə?

**Gülşən:** Dünən, Fərəc köçürülən "Kimsəsizlər evi"nə getdim.

**Ayaz:** Fərəci gördüzmü?

**Gülşən:** Səbrin olsun, Ayaz. Getmişəmsə, deməli, onu da görmüşəm. Açığını deyim ki, elə Fərəci görmək üçün getmişdim. Fərəc məni görcək çox sevindi. Hamınızı soruşdu. Sizi çox sevdiyini, sizin üçün darıxdığını dedi.

**Cəmil** *(səsi titrəyə-titrəyə)***:** Orda Fərəci sıxışdırmırlar ki?

**Gülşən:** Yox... Mən direktorla da danışdım. Vəziyyətiylə tanış oldum. Yaxşıdı.

**Ayaz:** Bizim hamımız Fərəci görmək istərdik.

**Gülşən:** Fərəc, həqiqətən ağıllı oğlandı. Prinsipialdı. Qorxaq, yaltaq adamlar həmişə yalançı, satqın, başı aşağı olurlar. Mən Fərəci qorxmaz, iradəli bir şagird kimi tanıyıram. Ancaq çoxları onu görməzliyə vururdu. Çalışın bir-birinizi unutmayın. Unutsaz, unudulacaqsız... Unudulmaqsa ağırdı. Dostun, sirdaşının itirilməsidi. Elə olanda adam özü təklənir, tənhalaşır. Tənhalıqsa çox pis şeydi... Sizə uğurlar... İndi də keçək dərsimizə...

*Kamera sinfi tədricən panorama eləyir.*

*Kadr dəyişir. Səmanın iş yeri. Aktyorlar işə gəlirlər. Pilləkəndə Səma Səidə xanımla üzləşirlər. Görüşürlər.*

**Səidə:** Necədi işlərin, Səma xanım?
**Səma:** Belə də... Miyanə...

*Gülüşürlər.*

— Miyanə yaxşıdı. Nə çox qabağa çıxmaq, nə də dala qalmaq adama fayda vermir. Bir para adamı dilə-dişə salır. Ay Səma, bu axşam Ayazı yuxuda görmüşəm. Görürəm totuq-motuq oğlan olub. Kişiləşir.
— Allah sənin bircə qızını sənə çox görməsin.
— Ağız, oxuması necədi?

*Səma uydurur.*

— Yaxşıdı. Deyir, oxuyub mühəndis olacam.
*Pauza*
— Mühəndislik də pis deyil. Arxan, köməyin olsun. Səidə xalası ona qurban. *(Gülərək)* Özünə də indidən çatdır. De, əla oxusa, özünü yaxşı aparsa, qızım Ayişəni ona verəcəm. *(Gülüşürlər)* İndi mən gedim. Sən də işinlə məşğul ol.

*Səidə xudahafizləşir. Səma pillləkənləri necə çıxdığını bilmir.*

**Səmanın daxili səsi:** Yenə uydurma... Yenə yalan. Nə vaxtsa açılacaq bu saxtakarlıqlar... Həqarətli baxışlara, göynərti verən söz-söhbətlərə dözə biləcəmmi? Ana yanında xoşbəxtliyi təmin olunmayan cılız bir uşaq başqalarının nəfəsiylə isinə, sözlərindən məmnun ola bilərmi?!

*Səma için-için ağlayır, pəncərəyə yaxınlaşır. Meydana tərəf baxır. Sonra üz-gözünün yaşını silir, qrim otağına gedir.*





## XI bölüm

*Kadr dəyişir. Səhərdir. Uşaqlar yeməkxanaya axışırlar. Əl-ələ görüşürlər.*
**Xatirə:** Bu gecə çox pis yatmışam...
**Firuz:** Mən də axmaq yuxu görmüşəm.
**Nihad:** Yuxuda elə bildim, kimsə məni boğur.
**Cəmil:** Bu gecə Sadiqəylə vuruşmuşam.
*Pauza*
**Nərmin:** Yuxuda boynu bükük bir qadın görmüşəm, ola bilsin, anamdı.
**Ayaz:** Gördüklərimin heç birini yadımda saxlaya bilmədim. Elə bil, yaddaşım pozulub.
**Xatirə:** Elə bil, hamımız qocalmışıq.

*Hamı məyus görünür. Üzlərindən əsəbilik oxunur.*

**Nihad:** Həyat nə qədər ağırmış?
**Firuz:** Hamıyçün yox...
**Nərmin:** Bizi bu məskənimizdən necə buraxacaqlar?
**Firuz** *(gülümsünərək)***:** Nə üz qoyduq ki, o sualı da verək onlara?
**Cəmil:** Sual verməyə adam var ki? Əsas iki adam vardı, onları da çıxar elədik.
**Xatirə:** Buranın adını, görmədiz, polislər xuliqanlar düşərgəsi qoydular.
**Nihad:** Çətin ki, bizə bir adam sahib dura.
**Cəmil:** Ən yaxşı sahib özümüzük.
**Cəmil:** Uşaqların ürəkləri bir, dillərisə tamam başqa şey deyir.
**Azad:** Yəqin ki, bizi aparıb kimlərəsə tapşırarlar. Yataqxana-

larda bizə yer ayırarlar. Mən istərdim ki, heç olmasa, ildə bir neçə dəfə görüşək. Dərd-sərimizi bölüşək. Onsuz da mən Nərmindən ayrılmayacam. Biz bir olacağıq.
**Firuz:** Mahnıda necə deyilir?

*Hamı Firuza baxır.*

**Nihad:** Fal açırsan. Biz nə bilək hansı mahnıda?
**Firuz:** "Ürək deyir yaşa hələ..."

*Nərminin üzündə işıq yaranır. Həmişə gözlərində özünə məskən salan kədər, qəm bir anlığa əriyir, onu sevincdən doğan parıltı əvəzləyir.*

**Nərmin:** Mənim ağıllı, sədaqətli qardaşım, öl desən, ölərəm.
**Firuz:** Ayaz belədi də.

*Ayazın gözləri dolur. Kövrəlir. Xatirənin yanaqları allanır. Qeyri-iradi dərindən ah çəkir.*

**Cəmil** *(üzünü Xatirəyə tutur)*: Görəm, Xatirə mənimlə gedərmi?
**Nihad:** Vallah, kişi adamsız.

*Xatirə birdən-birə hönkürür. Nərmin onun başını qucaqlayır.*

**Firuz** *(zarafatla)*: Bu da sevgidəndi.
**Nərmin:** Sənə nə oldu, Xatirə?
**Xatirə:** Mən Cəmillə...
**Nihad:** Firuzla da mən gedərəm.

*Cəmil Xatirənin əlindən tutur.*





**Cəmil:** Biz bir olacağıq.

*Kadr dəyişir. Saat on. Uşaqları direktor müavini Şəhlanın kabinetinə çağırırlar. Onun yanında üç kişi əyləşib.*

**Şəhla:** Uşaqlar, sizin istəklərinizi nəzərə aldıq. Ayazla Nərmin, Cəmillə Xatirə, Nihadla Firuz birlikdə gedirsiz. Bu qonaqlar sizi işlə təmin eləyəcəklər.

*Uşaqlar qonaqlarla bircə-bircə görüşürlər. Göz yaşları içərisində Şəhladan ayrılırlar.*
*Kadr dəyişir. Ayazla Nərmini Qaraş aparır. Səkkizinci kilometr. Hündürmərtəbəli bina. Qaraş Ayazla Nərminin sənədlərini komendant Mayaya təqdim eləyir.*

**Qaraş:** Maya, bu oğlanın adı Ayazdı. Qızınkı isə Nərmin. Bu uşaqlar kimsəsiz uşaq evindən göndərilmişlər. Görürsən, üzgözlərindən nur yağır. Gözün üstlərində olsun. *(Üzünü Ayaza tutaraq)* Maya, bu binanın komendantıdı. O, deyənlərə əməl eləmək lazımdı.
**Maya:** Çox yaxşı. Narahat olma, yola gedərik, Qaraş müəllim.
**Qaraş:** Onlara iki otaqda yer elə. Səhər özünlə sexə gətir. Müdiriyyət onlara iş verəcək. *(Ayaza tərəf dönərək)* Bu günlük yemək-içməyinizə xərcliyiniz varmı?
**Maya:** Bu gün bizə qonaqdılar, Qaraş müəllim. İndi tapşıraram, otaq yoldaşları onları yola verərlər.
**Qaraş** *(mızıltılı səslə)*: Hə... Gör, neyləyirsən, biz sabah tapşırarıq mühasibatlığa. Bunlara avans xərclik verərlər.

*Pauza*

**Qaraş:** Narahat olmayın, Ayaz. Hər şey yaxşı olacaq. Sizi burda yatacaqla təmin eləyəcəklər. Biz hələlik sizə yüngül —

usta yanında şəyird işi verərik, işləyərsiz.

**Ayaz:** Çox sağ olun. Xidmətinizi unutmarıq.

**Qaraş:** Buranın sakinləri də kənddən-kəsəkdən gələnlərdilər. Bir neçə qaçqın ailəsi də yaşayır burda. Onlarla mehriban olun.

**Nərmin:** Narahat olmayın. Bizə başımızı soxmağa otaqcıq lazımdı.

**Qaraş:** Hamısı ev-eşiklərini itiriblər, dava-dalaş, narazılıq salmağa bəhanə axtarırlar. Nə desələr, dinməyin, çalışın yola gedin.

**Nərmin:** Biz bura dava-dalaşa gəlməmişik. Bizim onlarla nə ortaqlı iş-gücümüz?

*Pauza*

**Maya:** Ay qız, çatmamış kimliyini tanıtma. Ağsaqqal kişiyə...

**Qaraş** *(dərhal)*: Maya, o mənə kobud nə dedi ki? Zeynəb qarı deyərdi: "Balığı at dəryaya, balıq da bilməsə, xaliq bilər".

*Maya qarşısındakı nömrələnmiş cədvələ baxır.*

**Maya:** Nərmini üç qız yaşayan bir otağa verəcəm. Pis qızlar deyillər. Şahnaz nişanlıdı. Ayın axırında toyu olacaq. Köçəcək ər evinə.

**Ayaz** *(fikirləşmədən)*: Birdən köçmədi?

**Maya:** Ərin evdə qoyub, gəlib burda yatacaq? *(Əsəbi halda)* Qaldı, Ayaz... Üçüncü mərtəbədə kiçik bir otaq var. Dörd metr uzunu, iki metr eni. Bir çarpayı sığır. kəllə tərəfinə də stol, stul qoya bilərik. Bəlkə Ayazı ora verək, Qaraş müəllim?

*Pauza*

**Qaraş:** Əla! *(Üzünü Ayaza tutaraq)* Səninkini Allah yetirdi, oğlum. Çoxluqdansa, belə yaxşıdı, qulağın dinc olar, nəyin var, nəyin yoxdu, özün bilərsən. Necə deyərlər: öz əlin, öz başın.





**Nərmin:** Elə yaxşıdı, qardaş. Tək olsan, gəlib otağını qaydaya salaram, pal-paltarını təmizləyərəm.

**Maya** *(dərhal)*: Ay qız, ağlın gəldiyin yerə getməsin. Burda ona imkan verənmərik. Gündə sakinlər axışacaq üstümə, hərə bir söz deyəcək... Yaxşı, qalxaq yuxarı.

*Mayayla Qaraş qabaqda, Nərminlə Ayaz onların ardınca gedirlər. Otaqlara baxırlar.*

**Qaraş:** Ayaz, bəxtigir oğlansan.

**Ayaz:** Bəxtigir olsaydım...

**Qaraş** *(gülümsünərək)*: Dilli-dilavərsən.

**Maya:** Məncə, özlərindən çox razıdılar.

**Nərmin:** Bizim yerimizə kim olsa...

**Maya:** Yaxşı, artıq söhbəti qurtarın. Bu saat tapşıracam bu otaqda şərait yaratsınlar... Ayaz, xoşuna gəlirmi?

**Ayaz:** Hə... Mənə başımı qoymağa yer lazımdı.

*Onlar ikinci mərtəbəyə qalxırlar. Maya qapını döyür. Bir cavan qız qapını açır. Otaq səliqə-sahmanlıdı.*

**Maya:** Təriş, rəfiqələrin hardadı?

**Təriş:** Dükana gediblər, indi gələrlər.

*Pauza*

**Maya:** Sizinlə bu otaqda Nərmin də qalacaq. İndi çarpayı, yataq dəsti də qoyduracam bura. Onsuz da Nüşü hələlik qonağınızdı. Onu Nərmin əvəzləyəcək.

**Təriş:** Məsləhət sizindi, Maya xanım.

**Qaraş** *(üzünü Ayaza tutur)*: Oğlum, yatın, dincəlin. Özüm də sizinlə maraqlanacam. Danışdığımız kimi, səhər Mayayla əyləşirsiz maşına, gəlirsiz iş yerinə.

*Qaraş əlini cibinə salır. İyirmi manat çıxarır və Ayaza uzadır.*

**Qaraş:** Al bunu, şəhərə çıxsanız, xərcləyərsiz.

*Ayaz puldan imtina eləyir. Qaraş təkidlə pulu Ayazın cibinə soxur.*

**Ayaz:** Yox... İstəmirəm. Onsuz da hər işimizi siz görürsüz.
**Qaraş:** Pulsuz çölə ayaq qoymazlar. Məvacibini alanda qaytararsan.
**Maya** *(zarafatla)*: Ayaz, bəy verən atın dişinə baxmazlar.
**Nərminin daxili səsi:** Gör nə günə qalmışıq. Bütün əzalarımız yerində... biz sədəqə də almalı oluruq.

*Gülüşürlər. Əlacsız qalan Ayaz pulu alır.*

**Ayaz:** Bizi utandırırsız... Qaytaracam.

*Nərminin gözləri dolur.*

**Qaraş:** Qətiyyən. Sabah görüşərik.

*Ayazla Nərmin Qaraşdan ayrılırlar. Maya xidmətçini çağırtdırır. Xidmətçi gəlir.*

**Maya:** Tərişgilin otağına əlavə çarpayı, yorğan, döşək. Dördüncü mərtəbədəki boş otağı təcili qaydaya sal. *(Üzünü Ayaza tutaraq)* Ayaz, siz də bir az gəzişin.

*Xidmətçi, Ayaz və Nərmin gedirlər. Kadr dəyişir. Yaxınlıqdakı park. Ayazla Nərmin gəzə-gəzə fantanın kənarına gəlirlər. Sonra yaxınlıqdakı skamyada əyləşirlər.*

**Nərmin:** Ayaz, deməli, bu gündən bizim üçün yeni həyat





başlandı. Təzə üzlər, təzə çətinliklər. Səncə, biz bu çətinliklərə uyuşa biləcəyikmi? Dolanışığımız necə olacaq?
**Ayaz:** Bir çox şeylər özümüzdən asılı olacaq. Bəzilərinə də gərək göz yumaq. Üstündən keçək. Adamlarla mehriban dolanaq. Deməsinlər ki...
— Mən də elə düşünürəm... Ancaq hər adamı da özümüzə yaxın buraxa bilmərik.

*Ayaz söhbətin səmtini dəyişir.*

— Görəsən, Cəmillə Xatirə, Nihadla Firuz da yerləşdilərmi?
— Təhkim olduqları adamlar, yəqin ki, onları yerləşdirəcəklər.

*Pauza*

— Yadındamı, Nərmin, bir zaman görüş yeri müəyyən eləmək istəyirdik. Daha ona ehtiyac olmayacaq.
— Hə... Məskunlaşdığımız yataqxanalar məlumdu. Getsək, görüşə biləcəyik. Doğrudu, şəraitə bir müddət çətin uyuşacağıq.
— Nərmin, əzizim, sən hələ qundaqdaykən atılmısan. Ata, ana hissiyyatı duymamısan. Hərdən onu düşünəndə birtəhər oluram.
— Necə yəni birtəhər olursan, Ayaz?

*Pauza*

— Sıxılıram. Sanıram ki, “ata”, “ana” sözlərini işlətsək də, bəzən əzizlədiyimiz, xoşladığımız, yaxud acıqlandığımız, hirsləndiyimiz adamların fərqinə varmırıq. Gərək ehtiyatlı olaq. Düşünürəm ki, bundan sonra bir çox qayğılardan uzaq olacağıq. Kimsəni maraqlandırmayacağıq.
— Düz deyirsən, Ayaz? Mayanın danışıqlarına fikir verdinmi? Zalım qızı əl-ayaq tutmaq üçün ölür. Dava hərisidi.
— Qarşılaşdığımız həyat barədə təsəvvürlərimiz səthidi. Dayazdı. Gərək ehtiyatlı olaq.

— Çox hissiyyatlısan, Ayaz. Neçə gündü başımda gəzdirdiklərimi indi sən mənə deyirsən.

— İncimə məndən, sən valideynlərini görməmisən. Onların hissindən uzaqsan.

— Mən də buna çox təəssüflənirəm.

*Ayaz fikrə gedir.*

— Mən atamı görməsəm də, az da olsa, anamın istək və nəvazişlərini dadmışam, Nərmin. Onun südünü əmmişəm. Boy-buxunu, sir-sifəti, yerişi-duruşu yadımdadı. Nəfəsini duymuşam. Dodaqlarının izləri uzun müddət yanaqlarımda qalmışdı.

— Onlar barədə çox düşünmə. Kövrələcəksən. Qəlbin sıxılacaq.

— Elə xatirələr var ki, onlar heç vaxt unudulmur, Nərmin.

— O anlar arxada qaldı, Ayaz.

— Etiraf eləyim ki, mənə qulaqburması verməlırini, cəzalandırmalarını yaddaşımda alatoran şəkildə oyada bilsəm də, doğma bacımı heç cürə xatırlaya bilmirəm. Görünür, buna görə də məndə anama qarşı acıqla, hirslə yanaşı, bəzən bir istək də doğur.

*Pauza*

— Eh... Ayaz, sən hansı simlərə toxundun. Onları düşünəndə ürəyim muma dönür. Ana hissiyatı dadmasam da, hərdən istəyirəm, onun yanında uzanam. Anam məni qolları arasına alıb bağrına bassın, mən də onun üz-gözündən öpüm. Bircə dəfə də olsun, başımı onun dizləri üstünə qoyum. Nəfəsini alım, dincəlim.

— Bayaqdan mənə təsəlli verirdin.

— Bəs, neyləyim, başqa yolum varmı?

— Eh... İnsan xilqəti.

— Xilqət... Xilqət... Yanıb-yaxılıram anam barədə düşünəndə. Heç nə ağlıma gətirə bilməyəndə, üzünü görmədiyimdən,





sözlərini eşitmədiyimdən, əməllərini sezmədiyimdən, onun xarakterik cizgilərini təsəvvürümə belə gətirə bilmirəm...

*Pauza*

— Eh... Nərmin!.. Nərmin!.. Həyat hər kəsə bir dərs verir. Etiraf eləyim ki, anamın beş yaşımdaykən məni atması sinninə uyuşmayan...

— İstəməzdim, anan barədə sinninə uyuşmayan sözünü sən işlədəsən, Ayaz.

— Məni bağışla, Nərmin. Hansı kitabdasa oxumuşam, bəzi qadınlar eyş-işrətə kişilərdən daha çox meyilli olurlar. Kef çəkməyi xoşlayırlar. Gözəlliklərini gözə soxmağa, kişiləri məftun etməyə çalışırlar.

*Pauza*

— Qadınların hamısı barədə o sözləri demək insafsızlıqdı, Ayaz. Hamını bir papaq altına yığmaq ədalətsizlikdi. Elələri var ki, yalnız ailə, uşaq üçün doğulublar. Bəziləri də ictimai işlər üçün. Onların da bütün istəyi, duyğusu rəhbərlikdi.

**Ayazın daxili səsi:** Anası barədə bəzi sözləri Nərminin üzünə desəm, bəlkə o, məndən inciyər. Onun qüruruna toxunar...

**Nərmin:** İnsanın bu qədər çətin məxluq olduğunu bilməzdim.

— Gəlib deyəcəm, Nərmin, nə gizlədim səndən, yəqin bizim də analarımız eyş-işrət sevənlərdən olublar. Elə olmasaydılar, bizi niyə atırdılar ki? Özü də necə? Qundaqdaykən səni, beş yaşımdaykən məni. Eh... Yerə-göyə sığmayan acı bir həqiqət... Sonaladıqca, götür-qoy elədikcə, başqa zir-zibillər də başımda yırğalanır. Kişilərin ən böyük alçaqlığı odur ki, qadınlara müəyyən niyyətlə yanaşırlar. Onları aldadaraq varlıqlarına hakim olurlar. Hisslərini, duyğularını, hətta, ağıllarını özününküləşdirirlər. Az müddət onlarla keflərini çəkirlər. Sonra da ürəklərini aldıqları qadınları atırlar.

— Ən böyük günah qadınlardadı, Ayaz. Qadını kim nəyə

məcbur eləyə bilər ki. Hər kəs öz əməlinin bəhrəsini dadır.

— Bizim günahımız nədi, Nərmin?

— Heç nə...

— İndi bu hal qadınlar arasında yayılmayıb, dəbə minməyib desəm, yanılmış olaram. Uşağı qazanırlar, sonra pozuluşurlar. Uşaq saxlamağın, böyüdüb boya-başa çatdırmağın ağırlığını duyanda, onu kiməsə ya satır, ya da harasa — binaların girəcəklərinə, zibilliklərə... atırlar. Hələ doğmalarına öz əlləriylə qəsd eləyənləri demirəm... Yaxşı halda, bizim kimi "Kimsəsizlər evi"nə verirlər.

*Pauza*

— Eh... Elə bil, özündə deyilsən, Ayaz. Fikrə getmisən... Özünə qayıt. Həyatımızı özümüzdən savayı kimsə dəyişə bilməz.

— Taleyin qismətinə bax, əzizim. Valideynlər can-parəsini atırlar. Zavallı uşaqlar böyüyürlər. Qanı qanından olmayan uşaqların hiss və duyğuları bacı-qardaş istəyiylə çulğalaşır, eyni xətdə birləşirlər, doğmalaşırlar.

— *(Gülərək)*: Necə ki, səninlə mənimki kimi. Keçirəcəyimiz yataqxana həyatı səninlə məni eyni istiqamətdə düşünmək zorunda saxlayan təki.

— Qəribədi, *(dərindən ah çəkərək)* hər ikimiz indi məmnunuq. Görəsən, bizi hardasa azad, sərbəst sanmaq olarmı? Heç kəsdən o qədər də asılılığımız yoxdu. Öz əlimiz, öz başımızdı.

*Pauza*

İnanıram, xərcimizi ödəyəcək qazancımız da olacaq. Yaşaya biləcəyik. Təkcə bizə cəsarət, qətiyyət, müntəzəmlik, davamlılıq, bir də sədaqət lazımdı, Nərmin. Şükür ki, o da var...

— Ayaz, hər dəfə sən xatirələrə dalanda mən qəhərlənirəm, kövrəlirəm.

— Heç vaxt yadımdan çıxmayacaq.

— Nə?





— Nərmin, ilk məvacib cədvəlinə imza atacağımız anlar. Maaşımızı alanda səni birbaşa geyim mağazasına aparacam.

## X bölüm

*Nərmin qəhqəhə çəkir.*

— Gedək, yəqin ki, otaqlar indi hazır olar, Ayaz.

*Nərminlə Ayaz yataqxanaya gedirlər.*

*Kadr dəyişir. Maya, Ayaz və Nərmin zavodun həyətinə girirlər. Həyətdə Qaraşla qarşılaşırlar. Qaraş onları sexə aparır. Ustayla tanış eləyir. Ayaz kəsici, Nərmin isə rəngçəkmə sexində işləməli olurlar. Ayrı-ayrılıqda ustalar Ayazla Nərminə izahat verirlər. Hamının üzündə sevinc hissi oxunur.*

**Qaraş** *(Ayaza)***:** Oğlum, burda sənin kimi gənclər çoxdu. Gündüz işləyirlər, axşam oxuyurlar. Gərək gözlərin işdən qorxmasın. Özünü zəhmətə alışdıra biləsən. Məvacib pis deyil... Biz də ailəmizi burdan aldığımızla dolandırırıq. Qazanmaq şərt deyil, gərək aldığını qənaətlə xərcləməyi bacarasan. Aldığını vecsiz yerə səpmiyəsən.

**Ayaz:** Çalışacam...

**Qaraş** *(üzünü Nərminə tutaraq)***:** Bu sözlər sənə də aiddi, qızım. İntizamsızlıq ən böyük qəbahətdi. Əvvəlcədən deyim: intizamsızlıqdan böyük qəbahət yoxdu.

*Ayazla Nərmin eyni anda başlarıyla Qaraş deyənləri təsdiqləyirlər.*

*Kadr dəyişir. İş başlanır. Kamera zavodu, sexi və Ayazla Nərmini iş başında panorama eləyir. Qızğın iş gedir.*

*Kadr dəyişir. Ayazla Nərmin kassadan məvaciblərini alırlar.*

*Gülə-gülə, danışa-danışa mağazaya gəlirlər. Kadr dəyişir. Mağaza. Ayaz Nərmin üçün ayaqqabı və don seçir. Nərmin ona mane olmağa çalışır.*

**Nərmin:** Ayaz, elə eləmə. Pulumuzu indidən xərcləməyək. Nəzərə al ki, bu məvaciblə nə az, nə çox, düz bir ay dolanmalıyıq. Bu boyda şəhərdə kimimiz var, borc alaq?

*Pauza*

**Ayaz:** Yox... Keç güzgünün qarşısında bunları geyin, mən baxım. Mənə elə gəlir ki, sənə çox yaraşacaq.

*Nərmin paltarları geyinməkdən dönə-dönə imtina eləyir.*

— Yox... Bizə pul lazım olacaq. Birdən-birə olmaz. Hər ay bir az qənaət eləyib alarıq.

*Nərmin cəhdindən əl çəkir. O, paltar geyinmək üçün ayrılan yerə keçir. Donu, ayaqqabını geyinir, pərdəni gülə-gülə aralayır.*

— Əla! Ürəyimcədi, Nərmin.
— Yox!.. Görürsənmi, yaraşmır, Ayaz. Növbəti ay.
— Xeyr... Sözü çevirmə.

*Ayaz kassaya yaxınlaşır, pulu sayır. Onlar mağazadan çıxırlar.*

— Sən çox gözəlsən, qəşəngsən. Sən xoşbəxt olmağa layiqsən, Nərmin. Doğrudur, mən də atılmışam. Mən "Kimsəsizlər evi"ndəki əzab-iztirablara qatlaşmışam. Qismətimdəndi, Allahın mərhəmətindən ölməmişəm, hələ ki, yaşayıram.
— Bəs mən, qardaş? Əslində mən ölməliydim.





— Qundaqda atıldığından, sənin əzabların, ağrı-acıların mənimkindən çox olub. Onu düz deyirsən. Hara gəldi, atılmısan. İstiyə-soyuğa düşmüsən...

*Pauza*

— Məni kövrəltmə. Onsuz da ağlamaq əlimdədi. Bir az da qurcalasan, göz yaşları axıdacam.
— Göz yaşları sənə yaraşmır, Nərmin.
— O heç kəsə yaraşmır. Özümün də göz yaşından zəhləm gedir.
— Səbəbini bilmirəm, Nərmin. Məni "Kimsəsizlər evi"ndə ilk qarşılayan, yanına çəkən, əl uzadan, — Gəl gedək, — deyən sən oldun. Sanıram, bu, sənin ilk möcüzən idi.
— Məni çox şişirtmə. Nə böyük şey olub, sənə yanaşmışam. O vaxt sən deyənləri ağlıma da gətirməmişəm.
— Sənin səmimiyyətin, mehribanlığın elə o vaxtdan mənim uşaq hisslərimə, düşüncələrimə hakim kəsildi. Bu, adını çəkib, mərhəmət dilədiyimiz o ali varlığın hikmətidimi? Aman Allah, həqiqətən də sənin qüdrətin nə qədər böyük, nə qədər əzəmətlidi!..

*Ayazla Nərmin pay-piyada danışa-danışa, gülə-gülə yataqxanaya gəlirlər. Ayaz qalan pulunu son qəpiyinəcən dəhlizdə çıxarıb Nərminə uzadır:*

— Al, sən xərclərsən. Pul mənim nəyimə gərəkdi?
— *(Gülərək)***:** Ayaz, nə pulun qalıb ki? Çoxunu mənə xərclədin. Qəpik-quruş hara çatar ki?
— Yaxşı, al sən saxla. Xəzinədar sən ol, bacı. Ayın axırınacan bir şey fikirləşərik.
— Sən nə danışırsan? Oğurluqmu, kiməsə basqınmı eləyəcəksən? İnan, həmin andan da üzünə baxmaram. Aclığı da birlikdə keçirəcəyik.

— *(Gülərək)*: Nərmin, mən oğruya, basqınçıya oxşayırammı?

*Nərmin yavaşca Ayazın əlini əlinə alır. Dərindən ah çəkir.*

— Mən səni oğruya, basqınçıya oxşatmadım, qardaş. Sənə sual verdim. Yenə deyirəm, ac qalsaq, oğurluqmu eləyəcəksən? Biz birik...

*Ayaz gülümsünərək Nərmindən ayrılır.*

— Sən necə dedin, Nərmin? "Biz birik". Biz biriksə, deməli, birik. Bütövük... Daim birlikdə olacağıq... Biz nə qədər doğmalaşmışıq. Ürəklərimiz nə qədər yaxınlaşıb...

*Pauza*

Hisslər, duyğular, düşüncələr, demək olar ki, hamısı birdi.

— Hər deyilən sözü şişirtmə. Məni utandırma. Mən sənin həyatın üçün məsuliyyət daşıyıram, qardaş.

— Nə ağır şeymiş kimsəsizlik. Nərmin, mənim bir çox müstəbid duyğularıma sipər çəkirsən. Qəbahətlər törətməyimə imkan vermirsən.

*Kadr dəyişir. Səhərdir. Nərminlə Ayaz zavodun həyətindədirlər. Qapıda dayanan Aqil onlara yaxınlaşır.*

**Aqil:** Ayaz, ayə, vallah, kefdəsən. Siz "Kimsəsizlər evi"ndə də beləydiz?

*Ayaz tutulur. Nərmin onun üzünə baxır.*

— *(sakit tərzdə)*: Necə bəyəm?

*Pauza*





— Ayə, erkəkli-dişili dovşan kimi bir-birinizdən ayrılmırsız...

**Nərmin:** Bu nə söhbətdi, alçaq?

**Aqil:** Qızışma, aaz. Burda elə gəzirsiz, guya, atanızın xarabasıdı. *(Üzünü Ayaza tutaraq)* Ayə, bəlkə buna başqası da...

**Nərmin:** Başqası qələt eləyər. Elə sən də.

*Pauza*

**Ayaz:** Aqil, səhər-səhər zəhər qusursan. Ya qan vermək istəyirsən?

*Aqil ucadan gülür.*

**Aqil:** Buna bax ey... Gör nə danışır? İtin qudursun, Ayaz.

**Nərmin:** Ayazı özünə oxşatma. Sən qudurmasaydın, səhər-səhər əl-ayağımıza dolaşmazdın. Keç güzgünün qarşısına, gör adama oxşayırsanmı? Sir-sifətindən murdarlıq yağır.

**Aqil:** Məni təhqir eləmə, ləçər.

**Nərmin:** Ləçər istəklilərindi.

*Bu sözü eşidən Ayaz gözlənilmədən Aqili vurur. Onlar əlbəyaxa olurlar. Nərmin yerdəki taxta parçasını götürür, bir neçə dəfə Aqilin kürəyinə, qollarına vurur. Yaxınlıqdakı fəhlələr onları ayırırlar. Aqil geri çəkilir.*

**Aqil** *(astadan)*: Bu qızın xuliqanlığı da varmış?

*Pauza*

**Ayaz**: Nataraz.

**Aqil:** Nataraz valideynlərindi, Ayaz.

**Ayaz:** Natarazdan nataraz törəyər.

**Nərmin:** O da nə sözünü bilər, nə də hərəkətin...

*Ayaz Nərminin qolundan tutur. Sexə tərəf çəkir.*

**Ayaz:** İtə ağac bulasan, qayıdıb səni tutar.
**Nərmin:** Buna ağac bulamağa da ehtiyac yoxdu.
**Aqil:** Gedin... Gedin... Vaxt gələr, cavabını alarsız.

*Ayazla Nərmin sexlərinə gedirlər. Gündəlik işlərini görürlər. Ayazla Nərmin işdən piyada qayıdırlar. Ayaz fikrə gedir. Nərmin gülümsünür.*

**Nərmin:** Yenə fikirlisən? Nə olub? Eşitməmisən, yüz fikir bir borcu ödəmir?
**Ayaz:** Əzizim, çox şey deyirlər. Onlardan işə yarıyanı da olur, yaramayanı da. Fikirsiz həyat varmı?
— Qardaş, fikir də var, fikir də. Fərqlərinə varmadan sən hamısına baş qoşursan. Özünə yük eləyirsən. At beynindən çox şeyi. İncimə məndən, bu yaşda elə bil, qocalmısan...
— Nərmin, adamların xoşbəxtliyi məncə uşaqlıq dövrlərində olur. Allah uşaqları sevərək yaradır. Balacalıqda onların hər biri mələk olur... Allah da onların nazıyla oynayır. Elə ki, böyüyürlər, böyüklərin hal-xislətini əxz eləyirlər, onda yavaş-yavaş şeytanın fitvasına yuvarlanırlar. Pis, murdar işlərə baş qoşurlar. Hər cür alçaqlıqlara əl atırlar.
— Belə çıxır ki, yaradanlarını tanımırlar?
— Tanısalar, bu qədər eybəcərliklər baş verərdimi, bacı?
— Mən bir hekayədə oxumuşam. Allah hər şeyi sevgiylə, məhəbbətlə yaradıb... Ancaq taleyini "Özün biç, özün qur" — deyib.
— Qardaş, artıq biz uşaq deyilik. Kimlərəsə mələk cildində görünək, şeytanın fitvasıyla oturub-duraq... Məntiqə vuranda, bəzən heç özümə də inanmıram. Doğrudan da, mən sevgiylə doğulmuşamsa, sənin dediklərinə görə, sevgiylə, məhəbbətlə qayğılanmalıydım. Ta qundaqdaykən, "Kimsəsizlər evi"nə niyə atılmalıydım? Dilsiz-ağızsız, gücsüz, qayğıya möhtac bir uşaq öz





taleyini özü qura bilərdimi? Yaxud mənim kimi yüzlər. Yox... Bəzən taleyini "Özün biç, özün qur"a da inanmıram. Açığını deyim, o mənim məntiqimə sığmır.

*Ayaz fikrə gedir. Nərminin mühakimələrinə cavab tapa bilmədiyindən çiyinlərini çəkir.*

— Nərmin, həyat o qədər müəmmalarla doludur ki, bəzən reallığa əsaslanan elementar məntiq xəyalımızda yaratdığımız ən böyük fantaziyaları, mifləri bir göz qırpımındaca vurub dağıdır. Ondan əsər-əlamət qoymur. İnsanı yenidən düşünməyə vadar eləyir, tərəddüdlər burulğanına atır. Nəhəng dalğaların qoynunda uzən qayıq kimi insanı belədən-belə atır.
— Ayaz, qardaş, boynuna al ki, səndə az da olsa, fanatizm də var.
— Bacı, Xudanın böyük qüdrətinə iman heç də fanatizm deyil. O, Allah yoludu. Əqidəmizdi. Gələcəyə olan istəyimizdi, arzularımızdı. İnsanlıq yoludu. — Dünya yaxşılardan xali deyil, — deyib müdriklər.

*Ayaz gözlənilmədən dayanır. Nərmin təəccüblənir.*

— Niyə dayandın, Ayaz?

*Ayaz yanlarından ötdükləri nəhəng palıdı göstərir.*

— Bax, neçə yüz illərdi bu qocaman palıd zamanın qovğalarına mərdanəliklə dözərək, tək-tənha öz ömrünü yaşayır. Onu da yaşadan istəkdi... Sevgidi... Məhəbbətdi.... Nə qədər çətin, acınacaqlı olsa da, elə bizi də... Bacı, böyük mütəfəkkir Lev Tolstoy deyir: "Sevgi, məhəbbət harda varsa, orda Allah vardır".

*Nərminlə Ayaz məskunlaşdıqları yataqxanaya çatırlar.*

*Ayaz otağına getmək üçün Nərminlə xudahafizləşir. Dördüncü mərtəbəyə qalxır. Yaşadığı mənzilin qapısını açarkən, qonşu otağın qapısı da açılır — Bağır görünür.*

**Bağır** *(Ayaza)***:** Alə, qonşu, bu nədi, əə. Gələn kimi lotuluq eləməyə başlamısan? Yetimxana sizi nə pis öyrədib, əə? Bəyəm, bura yiyəsizdi? Sənə deməyiblər ki, Bağırla da görüş, onun xeyir-duasını al?

**Ayaz:** Bağışlayın, Bağır kimdi?

— Tanımırsan məni?

— Yoox...

— Tanıdaram.... Alə, sən kimdən artıqsan? Bura sənin üçün nədi? Gündə qızla gəlib-gedəsən. Yataqxanada o ixtiyarı sənə kim verib?

— Bağır, suallarını üstümə az yağdır. Nə demək istəyirsən?

*Bağır tutulur. İti nəzərlərlə Ayazın gözlərinin içinə baxır. Baxışının Ayazın halına təfavüt eləmədiyini anlayır.*

— Sənin qaşın-gözün qaradı? Alə, səndən soruşuram: lotusan?

— Mənə o yaramaz adı qoyma, Bağır. Görürəm, sən özün lotusan, məni də özünə tay eləməyə çalışırsan.

— Düz deyirsən, Ayaz. Səndən lotu olmaz. Mən istəsəm, burdan kənara ayaq qoymaram, dostlarım gündə mənə bir qız...

— Gətirərlər, demək istəyirsən? O söz kişi qırığına yaraşmır, Bağır. Get özün ağılda adamlarla dil-dil öt. Mən sənə tay deyiləm.

— Səninki oldu dava-dalaş, Ayaz. Göz eləyərəm lotulara, meyidini qoyarlar həyətdə.

— Hə... O gün də iki-üç meyid yığırdılar maşına. Yəqin sən





təşkil eləmisənmiş... Nə olar?

— Alə, məni dolayırsan?..

— Özünü dolağa layiq bilirsən?..

*Bağır ani fikrə gedir.*

— Alə, qurtar o pozğunla. Özünü burdakı cəyillərə göstərmə. Elə şeylərdən çox görmüşük. Burda heç kimdən artıq deyilsən. Cılız bir gədəsən, qıçın-qıçına dolaşır. Görünür, yetimlər evində də ac qalmısan. Qarın dolusu yeməmisən. İndi bir loxma dilinə dəyib, qudurmusan. Qızla gəzirsən... Nə qırılması qol-qıçların, boyun-boğazın var.

— Bağır, görürəm domba gözlərin çox qabağa çıxıb, zağarın var. Mənə bir də sataşsan, səni domba gözlərindən, bir də zağarından eləyəcəm. Özü də bu otağında.

*Bağır Ayazın sözündən qorxur. Səsinin tonunu dərhal dəyişir. Gülümsünür. Ayazın qoluna girmək istəyir. Ayaz qolunu çəkir.*

— Alə, Ayaz, canın üçün zarafat eləyirəm. Get, işində ol. Bir adam sənə ayağın yandı, geri çək desə, mənə de, atasını yandırım.

— Xudahafiz, Bağır...

*Ayaz qapını açıb, otağına girir. Stolun üstündə orduya çağırış vərəqəsini görür. Oxuyur.*

**Ayazın daxili səsi:** Nərmindən ayrılmaq. Tək, kimsəsiz gənc, gözəl qız. Yataqxana həyatı. Canavarlar mühiti. Nərmin bu mühitdə necə baş çıxaracaq?.. Bəs, mən onsuz necə dözəcəm?

*Pauza*

Eh... Dünya... Dünya... Oyunlarından baş açmaq olmur. Nə qədər ağlagəlməz sürprizlərin var... Bir dərddən yaxa qurtarmamış, adamı o birisiylə qarşılaşdırırsan?

*Ayaz Nərminin yaşadığı otağa düşür. Çağırış vərəqəsini ona göstərir. Nərmin halbahal olur...*

**Nərmin:** Mən bu barədə səndən soruşmasam da, gözləyirdim, Ayaz. O sənin borcundu... Neyləmək olar.
**Təriş:** Cavan oğlansan... Olmaya əsgəri xidmətdən qorxursan, Ayaz.
**Ayaz:** Yox... Qətiyyən. Oğlan doğulanda o xidmət boynumuza biçilib.
**Nərmin:** Ayaq üstə durma... Əyləş, çay iç.
**Ayaz:** Yox... Qalxım otağıma... Siz də bir az dincəlin. Sabah danışarıq. Hələlik.

*Kadr dəyişir. Səhərdir. Ayaz birinci mərtəbəyə düşür. Maya ilə qarşılaşır.*

**Maya:** Ədə, Nərminə neyləmisən ki, axşamdan qızlar nə qədər dərman-dava eləyirlərsə, təzyiqini aşağı sala bilmirlər. Nəbzi də normadan artıq döyünür.

## XI bölüm

*Ayaz qaça-qaça pilləkənləri qalxır. Nərmingilin qapısını döyəcləyir. Qapını Təriş açır. Ayaz salamsız-kəlamsız otağa girir. Nərmin gözləri yumulu çarpayısında uzanıqlıdır.*

**Ayaz:** Nərmin... Nərmin.





**Təriş** *(astadan)*: Ona sakitlik gərəkdi.

*Həmin an yataqxananın həkimi Şükufə gəlir. Nərmini müayinə eləyir. Ona iynə vurur, resept yazır.*

**Həkim:** Nərmin nədənsə bərk əsəbiləşib. Ona sakitlik gərəkdi.

*Həkim gedir. Ayaz Nərminin çarpayısının yanında əyləşir.*

**Ayaz:** Niyə əsəbiləşmisən, Nərmin?
**Nərmin:** Ayaz, sən əsgərliyə getməlisən. Bəlkə danışaq ikimiz...
**Ayaz** *(gülümsünərək)*: Hələ qoy görək. İki il nə böyük vaxtdı ki. Yanındakı qızlarla başını qatarsan, papağını da fırlarsan, bir də gördün qayıtmışam. Yenə yanındayam.
— Sənsizlikdən qorxuram, Ayaz. Özü də çox...

*Pauza*

— Tələsmə... Bir az da dözümlü ol, gülüm. Adam anadan gərək xoşbəxt doğulsun. Xoşbəxtlik adama sonradan verilmir. Ağac yerdən əyri çıxanda deyirlər, heç vaxt düzəlmir... Qarşılaşdığımız hadisələrə müqavimət göstərmək imkanımız olmasa, biz hara qədər irəliləyə bilərik?!.

*Pauza*

— Dərd gələndə üzünü görmə.
— Nərmin, başımıza gələnlərdə biz günahkar deyilik.
— Hərdən mən də elə düşünürəm, Ayaz. Bəlkə, valideynlərimizin də taleləri bizimki kimi qaragünlü olub? Bizi saxlaya bilməyiblər. Ona görə də atıblar.
— Atıldığım gün, anamı gözləməyim, keçirdiyim həyəcan, polis şöbəsi, "Kimsəsizlər evi"ndə qaldığım gecə hərdən gözlərim önündə canlanır, Nərmin.

*Pauza*

Elə bil, içimə ağır yük çökür. Mən bəlkə bu yaşda hər cür cinayətlərə imza ata bilərdim, nə yaxşı ki, atmamışam.

— Hərdən mən də o barədə düşünürəm, Ayaz. Ona görə də səndən bəzən qorxuram.

— Arxayın ol, səni xoşbəxt eləmək xatirinə o yolu heç vaxt seçmərəm. Sən mənim üçün doğma anadan da, bacıdan da əzizsən. Əvəzedilməzsən.

— Qardaş, deyirlər əxlaq və mənəviyyat seyrangahı yerləyeksan olanda ən ağır cinayətlər törəyir. Onun da səbəbkarı etinasızlıq, murdarlıq, alçaqlıq, axmaqlıq olur.

— Bəli! Bəli! Tamamilə doğrudu. Belə olan təqdirdə dünyaya gətirdiyin övladı atmaq, onu yad əllərə vermək nə çətin işdi ki, Nərmin?!.

*Ayazın gözləri dolur. Nərmin Ayazın fikirlərini dağıtmaq üçün onun əlini əlinə alır. Sıxır. Gülümsəyir.*

*Kadr dəyişir. Nihadla Firuz yaşayan yataqxana. Çay süfrəsi. Xatirəylə Nərmin süfrəyə çay gətirirlər. Özləri də əyləşib şirin söhbət eləyirlər.*

**Nihad:** Uşaqlar, sahə müvəkkili tez-tez Firuzla və mənimlə maraqlanır.

**Cəmil:** Xeyir ola?

**Firuz:** Biz də bilmirik.

**Nihad:** Kabinetinə çağırtdırıb, bizi söhbətlərə tutur. Niyə? Bilmirik...

*Pauza*

**Ayaz:** Bəlkə siz nədəsə səhv eləyirsiz?

**Nihad:** Yox... Qətiyyən... Mənə elə gəlir ki, biz izlənirik. Öyrənmək istərdim, sizi də izləyirlərmi? Elə halları siz də hiss eləyirsizmi?





*Uşaqlar təəccüblə bir-birilərinin üzünə baxırlar.*

**Cəmil:** Firuz, Nihad deyənləri sən də hiss eləyirsənmi?

**Firuz:** Eləyirəm. Əslində, sahə müvəkkilinin ikimizə də münasibəti eynidi. Fikirləşirəm ki, biz "Kimsəsizlər evi"ndən çıxmışıq. O, bizi öyrənmək istəyir. Ona görə də mən polisin bizi izləməsinə təbii baxıram.

**Ayaz:** Niyə?

**Firuz:** Ona görə ki, bura şəhərdi. Yataqxanada hər cür adam yaşayır. Oğrular, quldurlar, xuliqanlar, kimlər, kimlər. Biz aldanıb onlara qoşula bilərik. Cinayət törədərik.

**Ayaz:** Çox sadəlövhsən, Firuz.

**Firuz:** Ola bilər.

**Xatirə** *(gülərək)*: Əcəb düşüncədi. Polislər də sənin kimi düşünürlərmi?

**Cəmil** *(ani fikrə gedir, sonra astadan)*: Firuz, siz nə pis iş görmüsüz ki, polis də çatmamış sizi nəzarətə götürsün?

*Pauza*

Əgər izlənirsizsə, deməli, sizin hərəkətlərinizdə şübhə əlamətləri var. Buna adi hal kimi baxmaq olmaz.

**Xatirə:** Sonu biabırçılıqla nəticələnər.

**Ayaz:** Polis sizi izləyirsə, əlbəttə, Xatirə deyən kimi olacaq.

**Firuz:** Niyə?

**Ayaz:** Atılma, qardaş, imkan ver, sözümü deyim. Bəlkə, yataqxanada çevrənizdəkilərdən kimlərsə elə iş görüb ki, siz də kölgə altına düşmüsüz. Polis həmin işlə bağlılığınıza aydınlıq gətirmək istəyir.

**Cəmil:** Ehtiyatlı olun. Oturub-durduqlarınızdan kimsə cinayət eləyər, sonra elədiyini sizin üstünüzə atar. Ona görə də sahə müvəkkili məsələni dəqiqləşdirməyə çalışır.

**Xatirə:** Ən pisi odur ki, bunlarla söhbət eləyib, zəif damarlarını tutmaq istəyə, Cəmil. Sonra da özü sizi cinayətə təhrik elə-

yə... Bunlar ağla batandımı? Əlbəttə, dediklərim mənim şəxsi düşüncələrimdi.

**Nihad:** Mən siz deyənləri bir neçə dəfə Firuza demişəm. Ancaq onu inandıra bilmirəm ki, sahə müvəkkilinin niyyəti çirkindi...

**Firuz:** Lap tutaq ki, onun məqsədi çirkindi. Nihad, qardaşımsan, ona necə deyə bilərik ki, bizdən şübhələnmə. Biz sən düşünən qədər də əclaf deyilik.

*Pauza*

**Xatirə** *(Ayazla Nərminə)***:** Əgər sahə müvəkkili heç nədən bunları gözaltı eləyirsə, o əclafların əclafıdı.

**Firuz:** Gözaltı deyəndə ki, şübhələnir.

**Ayaz:** Şübhələnməyi kim ona qadağan eləyə bilər ki?

**Cəmil:** Əslində şübhələnməsə, cinayətkarın izinə düşə bilməz.

**Nərmin:** Ayaz, siz elə danışırsız, mən qorxmağa başlayıram.

**Xatirə** *(heyrətlənərək)***:** Yəni polis elə iş görər?

**Cəmil:** Alçaqlıq polisə, ya mülki geyimli adama baxmır. Alçaq alçaqdı. O, hər işi görə bilər... Hər bir insanın içində alçaq hisslər var. Əclaf işləri də alçaq adamlar törədirlər...

**Nihad:** Düz deyirsiz, alçağın nə buynuzu olur, nə də alnında qoşqası.

**Cəmil:** Olsaydı, nə vardı ki? Aralıdan seçilərdi, hamı da işini bilərdi.

**Ayaz:** Nihad, əldə elə bir fakt yoxdu. Biz gedib polisə deyə bilmərik ki, bu adamlardan niyə şübhələnirsən? Onlar nə pis iş tutublar? Yaxud hansı cinayəti törədiblər?

**Nərmin:** O hərəkət "Qarğa məndə qoz var" olar. Polisin şübhələrini daha da artırar. Olmayan şeyləri də Nihadla Firuzda axtarar.

*Pauza*

**Nihad** *(narazılıqla)***:** Axı biz bir şey eləməmişik. Səhər işə





gedirik. Axşam da gəlib otağımızda oluruq. Ara günlər də sizinlə.

**Ayaz:** Axmaq fikrin başa hardan, nədən gəldiyini müəyyən eləmək çətindi.

**Cəmil:** Sizin günahsız olub-olmamanız, hələ şərt deyil, Nihad. Cinayətin böyüyü, balacası olmur. Ağır-yüngülü olur. O da bir göz qırpımında, çox zaman da fikirləşmədən baş verir.

**Firuz** *(əsəbiləşərək)***:** Ayə, Nihad, yekə kişisən, yüz dəfə sənə demişəm ki, qorxaq olma. Axmaq işlər həmişə qorxaq adamları tapır... Bu qədər adamın içinə bir göz qırpımında şübhə toxumu səpdin, qanını qaraltdın. Bundan sonra hamı narahat olacaq. Bəlkə, polis bizimlə dost olmaq istəyir?

**Cəmil** *(başını yelləyərək)***:** Polisin dostu ya satqın olmalıdı, ya da cinayətkar. Onun da yeri ya türmədi, ya da torpağın altı.

*Pauza*

**Firuz:** Zeynəb qarı demişkən, qorxan gözə çöp düşər. Nihad, qardaşım, qismətimizdə varsa, türmədə də oturacağıq. Türmədən heç kim sığortalanmayıb...

**Ayaz:** Qalxın gedək, sizi bu gün mən dondurmaya qonaq eləyəcəm. O da olacaq sahə müvəkilinin sizi izləməsinə cavab...

*Hamı gülür. Kadr dəyişir. Uşaqlar dondurma yeməyə gedirlər. Kafe. Kafe gənclərlə doludur. Ayaz dondurma sifariş verir. Xidmətçi stola dondurma gətirir. Danışa-gülə... dondurma yeyirlər. Sonra şəhər gəzintisinə çıxırlar. Nərmin narahatdır.*

**Nərmin** *(astadan)***:** Ayaz, doğrudanmı, Nihadla Firuz izlənə bilər?

**Ayaz:** Boş şeydi.

**Nərminin daxili səsi:** Biz kimsəsizlərin əskisi, görürsənmi, həmişə tüstülüdü? Hər kəsin itiyi bizdə axtarılır. Yazıq uşaqlar... İndiyədək çəkdikləriniz azdı?.. Gözlərinizlə od götürmü-

süz... İndi də gəl səksəkə içərisində yaşa. Bəyəm, belə də iş olar?

**Xatirə:** Görürsən ki, olur.

**Nərmin:** Allah cəzalarını verəcək. Geci-tezi var.

**Xatirə** *(gülərək)*: Gözlə.

**Cəmil:** Bizdən ötrü cəmiyyəti cəzalandıracaqlar?!..

**Ayazın daxili səsi:** Bu, yaxşı söhbət olmadı. Nihad və Firuz duyuq düşüblərsə, deməli, şübhə var. Şübhə varsa, çox şey ola bilər, o da gec-tez üzə çıxacaq...

*Axşama yaxın uşaqlar ayrılırlar. Hər kəs öz yaşadığı yataqxanaya gedir. Səhər erkəndir. Cəmil Ayaza zəng edir.*

**Cəmil** *(təntimiş halda)*: Ayaz, Nihadla Firuzu polis şöbəsinə aparıblar. Gəl, polis şöbəsinin qarşısında görüşək.

*Kadr dəyişir. Ayaz yataqxanadan çıxır. Cəmillə Ayaz polis şöbəsinin qarşısında rastlaşıb müstəntiqlə görüşə gedirlər. Kadr dəyişir. Müstəntiqin otağı. Ayaz qapını döyür. İçəridən — Gəlin — sözü eşidilir. Cəmillə Ayaz içəri daxil olurlar. Müstəntiq onları ayaqdan-başa süzür.*

**Müstəntiq:** Əyləşin.

*Ayazgil əyləşirlər. Müstəntiq onların üzünə baxır.*

**Cəmil:** Təşəkkür eləyirik.

**Müstəntiq:** Eşidirəm sizi.

**Ayaz:** Bizim dostlarımızı — Nihadla Firuzu bura gətiriblər. Doğrusu, səbəbini bilmirik. Gəldik, öyrənək görək, niyə?

*Müstəntiq əlindəki qələmi stolun üstünə atır. Onları bir də*





*nəzərdən keçirir.*

**Müstəntiq** *(əsəbi halda)*: Siz də zinalardansız? Oğraşlar, sülənə-sülənə qalmısız küçələrdə. Bir loxma zəhər üçün sataşmadığınız adam, soxulmadığınız tin-bucaq yoxdu. İndi də tullana-tullana...

**Cəmil:** Bu nə danışıqdı? Belə danışıq müstəntiqə...

**Müstəntiq:** Mənə ağıl verirsən?

**Cəmil:** Yox... Hər kəsin öz ağlı var.

**Müstəntiq:** Şəhərdə görün neçə yetimxana var. Hərəsi də ildə nə qədər pozğun urcah eləyir canımıza. Ölkədə oğurluq, basqınlıq baş alıb gedir.

*Pauza*

**Ayaz:** Belə çıxır ki, ölkədəki bütün cinayətləri biz eləmişik?

**Müstəntiq:** Söz güləşdirməyin. Onun hesabını biz aparırıq.

**Ayaz:** Yəqin ki, sabah o hesaba Firuzla Nihad da daxil olacaqlar.

**Müstəntiq:** Ola bilsin siz də. Cinayətdən kim suğortalanıb ki?

**Ayaz:** Belə çıxır ki, siz özünüzü də nə vaxtsa o siyahıda görürsüz.

**Müstəntiq:** Deyəsən, başınız gicikir.

**Cəmil:** Sən də bizi qorxutmağa çalışma. Biz də hər kiçik şeydən qorxan deyilik. Qaradan da tünd rəng?

**Müstəntiq:** Öz ayağınızla yaxşı gəlmisiz, bu saat sizi də atdıracam içəri. *(Ayazla Cəmil bir-birilərinin üzlərinə baxırlar)* Ağlınız olsun. Ayə, gedin daş atın, yük daşıyın, qarnınızı doydurun... Kişilər sizin üçün mağaza açıblar ki, gedib hazırına nazil olasız? Düşünmürsüz ki, onun sahibi var?

**Ayaz:** Çox yuxarıdan getmirsən ki?

**Müstəntiq:** Dilinizi kürəyinizdən çıxararam.

**Cəmil:** Müstəntiq, bizi niyə təhqir eləyirsən? Bəyəm, biz

oğurluq eləmişik?

— Siz eləməmisiz, xəbəriniz ki, var. Eşitməmisiz, görənlə eləyən yarıdı?

— Xeyr. Onlar heç nə oğurlamayıblar.

— Belə çıxır ki, sahə müvəkkili yalan deyir?

— Elə çıxmır, əslində elədi.

*Ayaz əsəbiləşir.*

**Ayaz:** Bəli! Yalan deyir. Onlar oğru deyillər. Bayaqdan — Oğurlayıblar, oğurlayıblar, — deyirsən, ancaq nə oğurladıqlarını demirsən?

*Müstəntiq sərt halda Ayazın üzünə baxır.*

**Müstəntiq** *(əsəbi halda)***:** Otuz yeddi saylı mağazadan iyirmi şüşə araq, on şüşə konyak, neçə şüşə çaxır. Kassadan nə qədər pul...

**Ayaz:** Çox görəcək danışırsan. Baş qoymağa yerləri yoxdu, onları oğurlayıb hara yığıblar?

**Müstəntiq:** Mən nə bilim, aparıb harda satıblar, ya kimlərə veriblər?

**Cəmil** *(sakit tərzdə)***:** Müstəntiq, o sahə müvəkkilinin uydurmasıdı. Allah bilir, nə azarı var. Gələcəkdə də hansı quramaları ortaya qoyacaq.

*Pauza*

**Müstəntiq:** Sahə müvəkkilinin nə azarı ola bilər?

**Cəmil:** Mən nə bilim? Bəlkə Firuzla Nihadı başqalarına qurbanlıq seçib.

**Ayaz:** Haqsız iş yeriməz. Kimsəsiz iki gənci tutub atmısız içəri. Onlardan nə fayda görəcəksiz?

**Müstəntiq:** Ayə, düdük, biz onları fayda üçün tutmuşuq?





**Cəmil:** Əlbəttə. Elə olmasaydı, özünüzü azara salardızmı?

**Ayaz** *(söhbətə ara verir)***:** A kişi, günahımız varsa, bizi də tutun. Ancaq təhqir eləməyin. Gec-tez hər şey açılacaq. Özünüz də görəcəksiz ki, onlar oğru, cinayətkar deyillər. Bu, böhtandı, şərdi. Özü də böhtanların böhtanı, şərlərin şəri. Belə olmaz.

**Müstəntiq:** Ayə, durun basın bayıra. Bu gün onların, sabah sizin cinayətləriniz açılacaq... Görünür, onlarla siz də əlbirsiz. Boş-boş çənəyə verməyin. Durun, rədd olun, xeyirsizlər.

*Cəmillə Ayaz əsəbi halda kabinetdən çıxırlar.*

**Cəmil:** Qorxuram, Nihadla Firuzu bunlar özləri daha ağır cinayətə təhrik eləyələr.

**Ayaz:** Necə?

— Oğurluğa... Basqına... Adam öldürməyə...

— *(Ayazın bədəni titrəyir)*. Müstəntiq lap ağ elədi. Bu qədər də yalan, böhtan olar?

— Müstəntiq öyrəncəlidi, Ayaz. Bir az səbrli ol. Görək axırı hara gedib çıxacaq?

*Ayazla Cəmil fikirli halda bağda gəzirlər. Skamyada əyləşirlər.*

— İndi müstəntiqin bu yaramaz rəftarından kimə şikayət eləyək?

— Kimə eləyəcəksən, Ayaz. İt itin ayağını basmır. Rüşvətini verib, zavallıların cinyətlərini daha da ağırlaşdıracaqlar.

— Danışmağa söz tapmıram. Matım-mutum quruyub. Belə də insanlıq olar?

— **“**Kimsəsizlər evi”ndə Nəzirə, Köçəri, Sadiqə, burda da sahə müvəkkili, müstəntiq. Yəqin məhkəmədə də hakim. Gəl zavallı Firuz, yazıq Nihad, özünüzə çıxış yolu tapın.

— Atmaqdansa, gərək doğulanda ata-anamız ağzımıza yastıq basaydılar. Birdəfəlik onların da canları qurtaraydı, elə bizim də.

— Bizi dünyaya gətirənlər fikirləşirlər ki, çoxdan ölmüşük, qardaş.

*Pauza*

— Firuzla Nihadın içəri atılması nəyəsə xidmət eləyir. Ola bilər ki, işgəncə verib, onları hansısa cinayətə qoşsunlar. Oğurluğa, basqınlığa təhrik eləsinlər... Narkotikayla əlaqələndirsinlər... Belə olsa, çətin ki, vəziyyətdən çıxa bilək, Cəmil.

— Bu cəmiyyətdə çox şey ola bilər.

— Şübhə eləmirəm ki, bu gün Firuzla Nihad, sabah da biz... Budur, doğmalarımızın bizə bəxşişləri... Gözləyək görək, daha hansı əcaib hadisələr baş verəcək.

*Cəmillə Ayaz yenidən müstəntiqlə görüşə gəlirlər. Əsəbidirlər.*

*Cəmil müstəntiqin qapısını döyür. Ayaz cavab gözləmədən qapını aralayıb başını içəri soxur. Müstəntiq Ayazı tərs-tərs süzür.*

**Müstəntiq** *(əsəbi)*: Gəlin, görüm.

*Onlar kabinetə girirlər. Müstəntiq ayağa qalxır.*

**Müstəntiq:** Ayə, nə həyasız, sıntarmış adamlarsız.
**Cəmil** *(dərhal)*: Biz adam deyilik, cənab.
**Müstəntiq:** Bə nəsiz?
**Ayaz:** Həşərat.
**Müstəntiq:** Bu nə deməkdi?
**Cəmil:** Cəmiyyətin bizə münasibəti belədi.
**Müstəntiq:** Ağzıbaşına danışmayın... Sizi içəridə çürüdərlər.





**Ayaz:** Bilirik.

*Müstəntiq ucadan gülür.*

## XII bölüm

**Müstəntiq:** Oturun. Bayaqdan başım ağrıyırdı. Vaxtında gəldiz, bərk yorulmuşam, gəlin, bir az da məzələnək.

**Ayaz:** Biz bura sizi məzələndirməyə gəlməmişik. Biz təlxək deyilik. Yaxşı olar ki, özünüzə məzə verəcək başqa adamlar tapasız.

**Cəmil** *(kinayəylə)*: Vaxtım yoxdu, olsaydı, sizinlə şəxsən mən məzələnərdim. İndi məzə üçün darıxmısızsa, sahə müvəkkilini çağırın. Bura Firuzla Nihadın yeri deyil. Sahə müvəkkili onları başının dumanlı vaxtı... Bəlkə də siz deyən kimi məzə üçün...

*Müstəntiq Cəmilin sözündəki kinayəni tutur.*

**Müstəntiq:** Mənə sahə müvəkkilinin, başqasına da mənim başımın dumanlı olması barədə nəsə deyəcəksiz? Bəlkə, deyəsiz, sahə müvəkkili narkotika da qəbul eləyib?

**Ayaz:** Eləyirsə, hərəkətləri gec-tez biruzə verəcək.

**Cəmil:** Bəli! Bəli! Mütləq!

*Pauza*

**Müstəntiq:** Başı xarablar, deyəsən, harda olduğunuzu bilmirsiz? Sizi atdıraram içəri, orda boynunuzu qırdıraram. Çörəyinizi itlərə yem eləyərəm. Əclaflar, həşəratlar.

**Ayaz:** Keçən söhbətimizdə həşərat olduğumuzu qəbul eləmirdin. İndi özün bizə o adı qoyursan?

**Cəmil:** Müstəntiq, gəlmişik, öz ayaqlarımızla. Bizi də həbs

elə. Bəlkə bizim canımız da yaramazların, alçaqların üzlərini görməkdən qurtara... *(Müstəntiq Cəmilin üzünə diqqətlə baxır)* Bizim üzümüzə niyə elə baxırsan?

**Ayaz:** Nə pis iş görmüşük? Kimlərə sataşmışıq?

**Müstəntiq:** Sizin başınız xarabdı.

*Pauza*

**Cəmil:** Hamının başı xarabdı, müstəntiq, tək bizim yox. Şərlənib kameraya atılan Nihadla Firuzun da, bura gəldiyimiz üçün Ayazla mənim də. Bir sözlə, hamının... Tor-töküntülərik!..

**Müstəntiq:** Necə yəni hamının?

**Cəmil:** Nəhəng kəşfləriylə dünyanı özünə heyran qoyan müdrik qapıdan çıxmaq üçün ana-bala pişiklərə iki deşik açırsa, deməli, onun da başı xarabdı.

**Müstəntiq:** Ayə, necə? Necə? Ha!.. Ha!.. Ha!..

**Cəmil:** Hə... Sahə müvvəkilinin də... Elə sizin də, müstəntiq.

*Müstəntiq susur. Ciddi görkəm alır. Qəflətən qışqırır. Ayaz Cəmilin əlindən tutur.*

**Ayaz:** Müstəntiq, sizlər niyə unudursuz ki, bizim valideynlərimiz də siz yaşayan bu yaramaz cəmiyyətin üzvləridi. Onlar da hamı kimi bu cəmiyyətdə tərbiyə alıblar. Bu cəmiyyətdə boya-başa çatıblar.

**Müstəntiq:** Ayə, bəsdi, ayə, bu cəmiyyətə nə ağzına gəldi yaxma.

*Pauza*

**Ayaz:** Siz hardan bilərsiz bizim nə çəkdiyimizi? Siz kefə öyrəncəlisiz. Bizim günahımız nədi, siz eləyənləri bacarmırıq...

**Cəmil:** Bizim günahımız nədi? Atılmağımız? Ləyaqətsiz insanların cəzalarını bizmi çəkməliyik? İlk görüşdə dedin, zinalardansınız? Lap tutaq ki, elədi. Düzünü bilmək istəsən, indiki zəmanədə kimin atasının həqiqətən kim olması mübahisəlidi.





**Ayaz:** Bu cəmiyyətdə zinadan övlad gətirənlər azdılarmı?! Kimlərin düz, yaxud kimlərin əyri olduqlarını ayırmaq çox çətindi...

**Müstəntiq:** Ayə, ağzınızı yerə tutun danışın. Mənim də sarsaq beynimi xarab elədiz.

*Pauza*

**Ayaz:** Həqiqət belədi.

**Müstəntiqin daxili səsi:** Bəlkə elə mən də... Nə bilmək olar. Dəlidən doğru xəbər. Görəsən, anam atamın kimliyini həqiqətən bilirmi? Yoxsa, o da qarışdırıb aləmi? Nə desən çıxar. Ha!.. ha!.. ha!.. Onu kimə qəbahət tutmaq olar? Hamı belədi.

**Cəmil:** Hərənin öz taleyi, öz qisməti var, müstəntiq.

**Müstəntiq:** Ayə, siz ağıllı adamı dəli eləyərsiz.

**Cəmil:** Qətiyyən... Şübhə varsa, deməli, həqiqətə yol açılır.

**Müstəntiq:** Şübhə yaman şeydi.

**Ayaz:** Əşi, biz də onu deyirik də...

*Müstəntiq çaş-baş qalır. Handan-hana başını bulayır.*

**Müstəntiq:** Ayə, siz cığanlarsız, əə.

**Cəmil:** Cığan nədi, müstəntiq?

**Müstəntiq:** Vaxtımı almayın. Onu gedin Həsənağa Bakinskidən soruşun... Ha!.. ha!.. ha!.. Hər sözə görə kameranın qapılarını açıb cinayətkarı azadlığa buraxmırlar. Qalxın gedin.

*Ayazla Cəmil qapıdan kor-peşman çıxırlar.*

**Cəmil:** Hələlik bu barədə Nərminlə Xatirəyə bir söz deməyək.

*Kadr dəyişir. Axşam. Yataqxananın zalında qoyulmuş televizorda kriminal aləmə həsr olunan veriliş gedir. Ayaz verilişi din-*

*ləyir.*

**Diktor:** Oğrular otuz yeddi saylı mağazaya basqın elədiklərini, nəhayət, boyunlarına aldılar.

*Ayaz dərhal zaldan çıxır. Cəmilə telefon açır. Nihadla Firuzun vəziyyətlərini Cəmilə çatdırır.*

**Cəmil:** Mən də baxdım.
**Ayaz:** Tez elə, çıx yataqxanadan. Səni polis şöbəsinin qarşısında gözləyirəm.

*Ayazla Cəmil polis şöbəsinin qarşısındadılar. Polis idarəsinə gedirlər. Görüşürlər. Onları gombul polis qarşılayır.*

**Gombul polis:** Nihadla Firuz günahsızdılar. Onlar buraxıldılar.

*Ayazla Cəmil Nihadla Firuzun yaşadıqları yataqxanaya yollanırlar. Kadr dəyişir. Görüşürlər. Hər birinin gözlərindən sevinc yağır. Ancaq Firuzla Nihadın üz-gözləri qançırdır.*

**Cəmil:** Sizə nə olub? Sizi kim döyüb?
**Ayaz:** Əzişdiriblər. Kim döyəcək, polislər.
**Nihad:** Bədənimiz qançırdı.
**Cəmil:** Bu da yaşadığımız cəmiyyət?!
**Ayaz:** Qoy isti yorğan-döşəkdə rahat yatsın valideynlərimiz.

*Şəmbə günü. Bakı Qızlar Universitetinin qarşısı. Gənc tələbə qızlar deyə-gülə universitetdən çıxırlar. Yol keçən Nərminlə Ayaz tələbələri görcək ayaq saxlayırlar. Nərmin köksünü ötürür.*





**Ayaz:** Nə oldu, yenə? Niyə köksünü ötürürsən?
**Nərmin:** Ayaz, elə istərdim, bu universitetdə təhsil alım...
**Ayaz:** Nərmin, gec deyil... Gəl, bu il qəbul imtahanlarına hazırlaşaq. Sənədlərini sən bu universitetə ver, mən də başqasına. Özü də dövlət hesabına.
**Nərmin** *(ümidsiz halda)***:** Elə mümkün olarmı?
**Ayaz:** Olar. Ancaq gərək gəzməyi, yatmağı azaldaq.

*Ayazın dedikləri Nərminin ağlına batır. Kadr dəyişir. Yataqxana şəraiti. Dərsliklər, test kitabçaları əldə eləyirlər. Birlikdə oxuyurlar, yazırlar. Sənədlərini imtahan komissiyasına təqdim eləyirlər. Kadr dəyişir. İmtahan günü. Səhər. Ayaz Nərminin yaşadığı otağın qapısını döyəcləyir. Qapını Təriş açır.*

**Təriş:** Ayaz, qardaşım, Nərmin xəstələnib. Özündə deyil. Başında kəskin ağrı var. Onun üçün imtahan vermək çətin olacaq.

*Ayaz tutulur.*

**Ayaz:** Nə?.. Yatıbmı?
**Təriş:** Yox, yuyunur.

*Nərmin gəlir. Ayaz Nərminə tərəf dönür.*

**Ayaz:** Olmaya təzyiqin qalxıb, Nərmin?
**Nərmin** *(zəif səslə)***:** Bilmirəm. Ancaq düşünməyi bacarmıram.

*Pauza*

**Ayaz:** Yox... Təzyiqin qalxıb. Vaxtı əldən verə bilmərik. Sən hazırlaş, mən aptekdən dərman alıb gəlirəm.

*Nərmin hazırlaşır. Ayaz aptekə qaçır. Dərman alır və qayıdır.*

**Təriş:** Ayaz, sən düz deyirsən. Təzyiqi qalxıb Nərminin. Burnundan qan açıldı. İndi vəziyyəti yaxşılaşır.
**Nərmin:** Hə... Qardaş, indi yavaş-yavaş özümə gəlirəm.
**Ayaz:** Nərmin, ağzına bir loxma çörək al.
**Nərmin:** Təbim çəkmir.
**Ayaz:** Özünü məcbur elə.

*Nərmin bir loxma kəsir. Ayazla Nərmin imtahana buraxılış sənədlərini götürərək otaqdan çıxırlar. Yataqxananın qarşısındaca taksiyə otururlar. İmtahan qəbul olunacaq binaya gedirlər... İmtahana girirlər.*
*İmtahan qurtarır. Ayazla Nərmin görüşürlər.*

**Ayaz:** Sənə nəsə olub? Özünü pis hiss eləyirsən?
**Nərmin** *(gülümsünərək)*: Qorxma, suallar gözlədiyimdən də asan idi, Ayaz. Bəs sən neylədin?
**Ayaz:** Mən də sualları cavablandırdım. Ancaq qorxum səndən idi, bacı. Mənə elə gəlir ki, əziyyətimiz hədər getməz...

*Onlar yataqxanaya qayıdırlar. Nərminin rəfiqələri çox sevinirlər. Nərmin Bakı Qızlar Universitetinin filologiya, Ayazsa Pedaqoji Universitetin tarix fakültəsinə daxil olurlar.*

**Təriş:** Xoşbəxt ol, Nərmin. Mən sənin qələbənə inanırdım.
**Nərmin:** Sənin sayəndə. Mənə köməyini dəyərləndirirəm.
**Təriş** *(Ayaza)*: Qardaş, sən həqiqətən də, namuslu oğlansan. Allahdan sizə səadət diləyirəm.

*Kadr dəyişir. Yataqxana. Uşaqlar Ayazla Nərmini təbrik eləyirlər. Hər kəs öz otağına çəkilir.*





**Ayazın daxili səsi:** Böyüklüyünə şükür, Xudaya. Nərminin bu gün sevinci yerə-göyə sığmır. Gözlərindən necə də nur yağır?!
**Nərminin daxili səsi:** Allah, Ayazı mənə çox görmə. Bizi ayırma.

*Kadr dəyişir. Nərminlə Ayaz parkda gəzişirlər. Şən və xoşbəxt görünürlər.*

**Nərmin:** Ayaz, rəfiqələrim otaqda ziyafət keçirtmək istəyirlər. Hazırlıq da görüblər. Cəmilə, Xatirəyə, Firuza, Nihada da de.
**Ayaz:** Nə danışırsız, bəs mən?...
— Sözü çevirmə. Mən deyənlər qızların təklifləridi.

*Ayaz tort, iki şampan və dörd qızın hərəsinə bir ətir şüşəsi alır. Axşam. Nərmingilin otağı. Stol açılıb. Nərmin, Xatirə, Təriş, Aynur, Ayaz, Cəmil, Firuz və Nihad stolun ətrafında əyləşirlər.*
*Ziyafət başlanır. Hamının üz-gözündə sevinc. Ayazla Nərminin təkidiylə Cəmil qədəhlərə şampan süzür.*

**Cəmil:** Əziz bacılarım və qardaşlarım. "Kimsəsizlər evi"ndən kənarda ilk ziyafət və sevincli günümüzü qeyd elədiyimiz anlar. Bu günü heç vaxt unudmarıq. Bu gün Nərminlə Ayazın yaddaşlarında yaşayacaq gündür. Biz çox böyük qələbənin sevincini yaşamağa toplaşmışıq. Xatırladım ki, onlar "Kimsəsizlər evi"ndə də hamımıza nümunəydilər. Görünür, indi də o ənənələrinə sədaqətlidilər. Gəlin, bu qədəhləri qaldıraq bacım Nərminin, qardaşım Ayazın şərəfinə.

*Qədəhlər qaldırılır. Toqquşdurulur. Hamı içir. Nərmin çeçiyir və qədəhi yarımçıq süfrəyə qoyur.*

**Nərmin:** Məni bağışlayın, içə bilmirəm. İyi məni vurur.
**Təriş:** İçərkən nəfəs alma. İç getsin.
**Nərmin:** Qaytara bilərəm.
**Aynur:** İlk dəfə hamı elə olur, Nərmin.
**Nihad:** Mən də içə bilmirəm.
**Firuz:** Ayə, Nihad, məni biabır eləmə.
**Ayaz:** Zeynəb qarı burda deyirdi də: "Yeməmisiz qaz ətini, görməmisiz ləzzətini".

*Cəmil qədəhlərə yenə şampan süzür. Sonra üzünü Nərminə tutur.*

**Cəmil:** Bəhanə eləmə. Bu qədəhi axıra qədər içəcəksən. Yoxsa...
**Nərmin:** Nə yoxsa?..
**Cəmil:** Ayaza nuş olmayacaq.

*Otağı gülüş səsləri bürüyür. Cəmil sözü Ayaza verir.*

**Ayaz:** Qardaşlar, qızlar tədarük görməsəydilər, yada salmasaydılar, inanmıram bu tədbir olaydı. Elə bu tədbirə görə də, əhvalımızın xoş, həyatımızın sevincli və maraqlı keçməsinə görə də biz qızlarımıza təşəkkür eləməliyik. Yaşca, demək olar ki, o qədər də fərqimiz yoxdu. Yaşımızın elə dövrüdü ki, nə qədər çətinliklərə məruz qalsaq da, arzularımızın, xəyallarımızın çağlayan dəmidi. Xanımlar, inanın, siz olmasaydınız, biz bu məclisdə ürəklə otura bilməzdik. Siz bizə sevinc, rahatlıq bəxş eləyirsiz. Gəlin bu qədəhləri də Cəmil, Firuz, Nihad, xanımlarımızın sağlamlıqları, ləyaqətləri, xoşbəxtlikləri şərəfinə içək...





**Cəmil** *(Nərminə)***:** Hə... Hünərin var, içmə.
**Xatirə:** İçəcək... Özü də axıracan.

*Qədəhlər boşalır. Yemək-içmək davam edir. Aynur qalxır. Maqnitofonun düyməsini basır. Otağı oynaq musiqi bürüyür. O, qızları rəqsə dəvət eləyir. Oğlanlar da onlara qoşulurlar. Məclis daha da şənlənir. Rəqs dayanır. Cəmil qədəhlərə şampan süzür. Aynur söz alır.*

**Aynur:** Doğrusu, mən Ayazla Nərminin dostluğuna qibtə eləyirəm. Bu qədər səmimiyyət, bu qədər mehribanlıq?.. Nərmin həmişə deyərdi: "Cəmillə Xatirə bizi qabaqlayıblar". Mən inanmırdım. Bu məclisdə bu həqiqətə şahid oldum. Görürəm, Firuzla Nahidin də ürəkləri sizinlə döyünür. Onlar sizinlə nəfəs alırlar. Səmimiyyət qarşılıqlı olur. Olmasa... Sağ olun, Tərişlə mən bu qədəhləri sizin dostluğunuzun möhkəmliyi naminə qaldırırıq.

*Qədəhlər qaldırılır. İçilir.*

**Təriş:** Mən həmişə elə bilirdim ki, "Kimsəsizlər evi"ndə siz baş girləyirsiz. Təhsil almaq, gözəl mədəniyyətə sahib olmaq istəyi sizdən çox-çox uzaqdı. Mən Nərminlə tanış olanda, Ayazın Nərminə qayğısını görəndə, Nərminin Ayaza qənirsiz istəyini hiss eləyəndə başa düşdüm ki, mən çox yanılmışam. Bu qəbahətimə təəssüflənirəm... Bu məskunlaşdığımız yataqxanada, elə gənc oğlan, elə gənc qızlarla qarşılaşırıq, bəzən özümüz özümüzdən utanırıq. Xəcalət çəkirik. Yəqin elələri ilə siz də qarşılaşırsız... Onların əxlaqdan uzaq hərəkətlərindən siz də əziyyət çəkirsiz... Yaman günün ömrü az olar. Əziyyətsiz işin bəhəri olmaz... Gərək özünüzü beləcə qoruya biləsiz...
**Aynur:** Ay qız, mühazirəni yığışdır. Bu gün deyib-gülmək,

çalıb-oynamaq üçün toplaşmışıq. Mən oxumaq istəyirəm.

**Hamı bir ağızdan:** Əla!!!

**Aynur:** Ancaq hamı oxuyacaq ha... Görək kimin qabiliyyəti nədi?

**Nərmin:** Mən yox...

**Xatirə:** Mən də yox...

**Təriş:** Onda kim qaldı? Eybi yoxdu, Aynur, sən oxu. Biz çıqqırığımızı çıxarmadan oynayaq.

Aynur oxuyur:

*Üstünə iz düşməyən şehlər gözəldi?!*
*Qonçaları oxşayan şehlər gözəldi.*
*Şad xəbərlər gəzdirən dillər gözəldi?!*
*İnsanı qocaltmayan illər gözəldi.*

*Çiçəklərə bürünmüş çöllər gözəldi?!*
*Sevincini bölən şəxslər gözəldi.*
*Şad xəbərlər gəzdirən dillər gözəldi?!*
*İnsanı qocaltmayan illər gözəldi.*

*Daim gülən gülümsər üz nə gözəldi?!*
*Saf ürəyin aynası gözlər gözəldi.*
*Şad xəbərlər gəzdirən dillər gözəldi?!*
*İnsanı qocaltmayan illər gözəldi.*

*Hamı əl çalır. Nərmin qalxır, Aynurun üzündən öpür.*

**Nərmin:** Bu mahnını çox eşitmişəm. Etiraf eləyim ki, indiyə qədər mənə belə təsir eləməmişdi.

**Xatirə:** Təzə səs, təzə nəfəs.

**Ayaz:** Ürəklə oxudu.

**Firuz:** Qadınsız kişinin həyatı iki qəpiyə dəyməz.

**Təriş:** Cavan oğlansız. Hələ harasıdı? İnşallah, vaxt gələr si-





zin də olar. Gərək bezməyəsən.

**Nihad:** Qadın nazıyla oynamaq çox çətindi.

**Firuz:** Ayə, görməmisən, bilmirsən. Özün də doğrayıb tökmə...

## XIII bölüm

*Hamı gülür. Nihad tutulur. Nərmin Nihadı vəziyyətdən çıxarmağa çalışır.*

**Nərmin:** Nihad xaraktercə sərt görünsə də, qəlbi çox incədi.

**Firuz:** Kimdi onun qəlbinin incəliyini ölçüb-biçib üzə çıxaran?

**Cəmil:** Ayə, sən nədən narahatsan? Onu vaxt gələndə yiyəsi özü axtarıb tapacaq.

**Xatirə:** Bunlar hamısı bir zarafatdı. Bəlkə tortun vaxtıdı?

**Ayaz:** Əcəb, yadımdan çıxıb.

**Aynur:** Siz tortu kəsin, mən çay dəmləyim.

*Xatirəylə Nərmin tortu kəsib boşqablara yığırlar. Aynur təzə dəmlədiyi çayı stəkanlara süzür. Hamı yeyir-içir. Gecə-gecədən keçir.*

**Cəmil:** Dağılışmağın vaxtıdı. Gedək bir az gözümüzün acısını alaq. Səhər işə getməliyik. Səbəbkarlara, əziyyətimizi çəkənlərə də təşəkkür eləyirik.

*Qonaqlar gedirlər.*

*Kadr dəyişir. Şəhər gəzintisi. Göydə ala-tala buludlar var. Günəş hərdən buludların arasında gizlənir. Ayazla Nərmin gəzə-gəzə şəhərkənarı bulvara gəlirlər.*

**Nərmin:** Dəniz necə də narahat görünür. Qağayıların hay-küyü, sevinci adama ləzzət verir. Ayaz, gəl bir az skamyada əyləşək. Əhvalım qarışır.

**Ayaz:** Nə?.. Bəyəm, əhvalın pisdi ki? Sənə nə oldu?

— Heç, Ayaz. Hərdən dünyanın dərdi-səri elə bilirəm sinəmə çökür... Onda halım qarışır... Bununla belə, sənə bir söz də demək istəyirəm. Mən sənə ancaq həqiqəti deyə bilərəm. Əmin olmadığım şeyi yox...

*Ayaz təəccüblə Nərminin üzünə baxır.*

— Məni çox intizarda saxlama, Nərmin.

— Gərək məni bağışlayasan... Bizimlə bir sexdə Təhminə adlı qadın işləyir. O, hər gün bir bəhanəylə mənə yaxınlaşır. Bir neçə dəfə də əvvəllər belə hallar olub. Deyir, qonşu sexdə işləyən Malikin xoşuna gəlirsən. Onunla görüşə çıxsan, yaxşı olar, bəlkə səni alacaq. Yetim, kimsəsiz qızsan.

*Ayaz bərk narahat olur.*

— Sənin ona cavabın nə oldu?

— Dedim, hər ikiniz qələt eləyirsiz. Eşşək anqırar, tayını tapar.

— Yaxşı demisən, gərək üzünə də tüpürəydin.

*Pauza*

— Qansa, tüpürməkdən də betəriydi dediklərim.

— Sonra nə oldu?

— Bir müddət Təhminə bu söhbətə qayıtmadı. Mən də onu açıb-ağartmağa, səni əsəbiləşdirməyə lüzum görmədim. O vaxt səpdikləri toxumu təzəlikcən cücərtməyə başlayıblar.

— İndi nə deyirlər?

— Hara gedirəmsə, Malik iş-gücünü atıb arxamca düşür.





Addımbaaddım məni izləyir. Dünən də mənə ismarıc göndərib, Güləndamdan.

— *(Əsəbi halda)*: İndi nə deyir?

— Nərmin ya mənim olmalıdı, ya da heç kimin. Lazım gəlsə, Ayazı da məhv elətdirərəm.

*Pauza*

Sənin taleyindən qorxuram, Ayaz.

— Qorxma. Ağciyər, qorxaq adamlar həmişə hətərən-pətərən danışarlar. Onda o hünər hardadı? Vuran oğul atasına genəşməz.

*Ayaz gülümsünür. Nərmin başını yelləyərək dərindən ah çəkir.*

— Mən həmişə sənə yük olmuşam, Ayaz. Elə indi də.

— O hədələr də, səni izləmələr də boş şeydi, Nərmin. Bir də ki, sən çox ağıllı və tədbirlisən, həm də ehtiyatlısan. Malik kimdi ki, onun qarşısından qaçaq? Sən narahat olma. Mən özüm onunla öz dilində danışaram.

*Pauza*

— Elə mənim qorxub-çəkindiyim də budu. Onlar çoxdular. Güləndamın dediyinə görə, səni də nişangaha çeviriblər.

— Dedim, boş söhbətlərdi. Çoxları sözü deyirlər, söz bozaranda, ya dediklərini başqa səmtə yönəldirlər, ya da tamam boyunlarından atırlar. İnanıram, Malik də elələrindəndi.

*Kadr dəyişir. İş yeri. Adamlar öz iş-güclərindədirlər. Malik Ayaza yaxınlaşır.*

**Malik:** Səni bir dəqiqə olar?

**Ayaz:** Lap bir saat da mümkündü.

— Onda kənara çəkilək.

*Malik əsəbidir. Ayaz özünü qəsdən başadüşməzliyə vurur. Onlar kənara çəkilirlər. Ayazla Malik üz-üzə dayanırlar. Malik sinəsini qabardır. Ayaz özünü bir şey olmamış kimi aparır.*

— Buyur, eşidirəm, Malik.

*Pauza*

— Ayaz, nə düşmüsən Nərminin arxasınca? Sənin bir də ona yaxınlaşdığını görsəm, həyatını məhv eləyəcəm.

— Böyük-böyük danışma, Malik. O qızı az təqib elə. Xanımı təqib eləmək kişiyə yaraşmır.

— *(Hövsələsi daralaraq)***:** Nərmini istəyirsən?

— Yox...

— Elə isə, nə sülənirsən onun ardınca? Səninlə çox danışmayacam. Sən kim, mən kim?

*Ayaz çox ehtiyatla yan-yörəsinə baxır. Malikin iş yoldaşlarından ikisini görür. Malik üzünü onlara tutur.*

— Ayə, mənim dərdimə baxın ey. Camaatın qarşısına bülbül çıxanda, mənimkinə bayquş çıxır.

*İş yoldaşları Malikin sözünə gülsələr də, heç bir münasibət bildirmirlər.*

**Ayaz** *(Dərhal)***:** Bayquş özünsən, Malik. Sənin kimi adamlar Nərminin kəsili dırnağına dəyməzlər. Özün də yavaş danış. Səsin aləmi başına götürməsin. Söhbəti saxla. İşi böyütmə, rəis gəlir.

— Gəlsin də, neyləyəcək? Uzaqbaşı, işdən çıxaracaq. Ondan sən qorx.

*Rəis gəlir. Maliklə Ayazın əsəbiliyini duyur.*





**Rəis:** Ayə, işi buraxıb burda nə avaralanırsız? Camaatı başınıza yığmayın. Haydı, iş başına.

**Malik:** Rəis, camaatın gözünü qırmağa çalışma. Bir hörtüpörtüsü çıxar uğruna. "Mık"da eləyə bilməzsən.

**Rəis:** Bu nə sözdü?

**Malik:** Qədeş, işimizi görürük də, oynamırıq ki?

**Malik:** Ayaz məni səninlə hədələyir. İstəyirsən, gözlərinin qabağında döyüm Ayazı.

**Rəis:** Mənə vid göstərirsən, oğraş? Şələ-küləni götür, rədd ol burdan. Bu saat səni həbs elətdirərəm.

**Malik:** Səndə o kişilik hardadı? Olsaydı, Ayaza gözün üstə qaşın var deyərdin.

**Rəis:** Ayaz nə pis iş görüb ki, onu cəzalandıram?

**Malik:** Hər gün gözümüzün qabağında matuşkə gəzdirir. Ona bir söz demirsən.

**Ayaz:** Matuşkə özünsən, alçaq. Danışığına bax...

**Rəis** *(əsəbiləşir)***:** Oğraş!!!

**Malik:** Atam! Atam! Nə dedim ki, sənə.

**Rəis:** Rədd ol, alçaq.

**Malik:** Get deyirsən, gedim də. Da niyə qışqırırsan?

*Rəisin əsəbiliyini görən işçilər dağılışırlar. Söhbət sona yetir. Kadr dəyişir. İşin sonu. Nərminlə Ayaz iş yerindən çıxırlar. Avtobus dayanacağına tərəf gedirlər. Nərmin arxaya baxır və içini çəkir.*

**Nərmin:** Ayaz, Malik gəlir. Sən səbrli ol. Geri çəkil. Onun cavabını mən özüm verəcəm.

*Ayaz dərhal vəziyyəti anlayır.*

**Ayaz:** Sən sakit ol, Nərmin. Malik dava üçün gəlir. Ona yeri-

ni göstərməsəm, yığışmayacaq.

*Malik özünü yetirir və Nərminin qolundan tutur, özünə tərəf çəkir. Yanlarında qara rəngli, xarici markalı minik avtomobili dayanır. Malik Nərmini maşına tərəf çəkməyə başlayır. Nərmin qışqırır, Malikin üzünə tüpürür. Ayaz Malikə yumruq zərbəsi endirir. Maşından iki oğlan düşüb Ayazı vurmağa başlayılar. İki polis nəfəri onları saxlayır. Ratsiya ilə köməyə əlavə polis çağırırlar, onların qollarını bağlayıb şöbəyə aparırlar. İfadələr alınır.*

**Gombul polis** *(oğlanlara)*: Sadiqlə Alışan, sözüm sizədi. Nərmini çəkişdirməkdə, Ayazı vurmaqda məqsədiniz nəydi?

*Pauza*

**Sadiq:** Nərmini maşına basıb, Malikə qaçırmaq.

**Gombul polis:** Dünya dərəbəylikdi? Bu ölkənin qanunlarının sizə dəxli yoxdu? Hansı əsrdə yaşayırsız? Qeyrətiniz var? İndi baxarsız işinizə... Ağılsız baş yiyəsinə donuz güddürər.

*Oğlanlar başlarını aşağı dikirlər.*

**Gombul polis:** Nərmini tanıyırsan? Birdən-birə ona niyə girişirsən? Sahibsiz görmüsən?

— Zavodda görmüşəm.

— *(Üzünü Malikə tutaraq)*: Nərminə niyə küçədə girişirsən?

— Mənim Nərmindən xoşum gəlir, istədim, onu qaçırım.

— Hər xoşun gələni qaçırmalısan? Görürsən ki, Nərmin səni istəmir.

— O, Ayaza görə "yox" deyir, Ayaz olmasa... Mən Ayazı...

— Aha... Sonra...

— Lap onu öldürməyə də hazıram. Bu barədə Nərminə də demişəm.





*Üzünü Nərminə tutaraq*

**Gombul polis:** Nərmin, Malikə nə sözün var?

**Nərmin:** O, adam deyil. Hər gün məni təqib edir. Neçə dəfələrlə ona — Mənə yaxın gəlmə, məni təqib eləmə, — demişəm. İt motaldan əl çəkməyən kimi, o da...

*Sadiqlə Alışan eyni vaxtda:*

**Sadiq:** Malikin təhrikiylə Ayazı aradan götürəcəkdik.

**Nərmin** *(Ayazın qoluna girərək)*: Ayaz mənim qardaşımdı. Təhminəylə Güləndam da bunlarladı. Onlar da məni bezdiriblər. O qadınlar da mənə qarşı xuliqanlıq eləyirlər.

**Gombul polis:** Ayazla Nərmin, siz gedin, çağıranda gələrsiz.

*Ayazla Nərmin polis şöbəsindən çıxırlar. Piyada yataqxanaya qayıdırlar.*

**Ayaz** *(astadan)*: Nərmin, onsuz da aldığımız məvacib özümüzü dolandırmağa çatmır. Malik kimi alçaqlar da bir tərəfdən bizi əsəbiləşdirirlər. Bəlkə iş yerimizi dəyişək?

**Nərmin:** İşdən çıxsaq, yataqxanadan da çıxmalı olacağıq. Güzəranımız daha da ağırlaşacaq. Biz daha pis vəziyyətə düşə bilərik. İndi hər ikimiz axşam təhsil alırıq. Çalışaq, təhsilimizi başa vuraq, sonra.

*Pauza*

— Az qala cinayət törədəcəkdik. Mən qorxuram cinayət törətməkdən. Bilirsən niyə, Nərmin?

— Yoox... Niyə?

— Qorxuram sənə xəyanət eləmiş olam. Ağzını vəhşi kimi açan bu dünyada sən tək, kimsəsiz qalasan. Onda dünya səni udar, bacım.

*Pauza*

— Çox fikirləşmə. Fikirləşdikcə vahimələnəcəksən. İşdən, yataqxanadan çıxmaq — pulsuz qalmaqdı. Pul isə hər şeydi. Bizi pulsuzluq udar.

*Ayaz fikirləşir. Handan-hana mızıldayır.*

— Onu düz deyirsən. Mən başqasından asılı qalmaqdan, kimdənsə borc almaqdan çətin şey tanımıram.

— Sənə yüngül iş tapmaq lazımdı. O barədə mən də düşünürəm.

— Mən sənin kürəyinə yük qoya bilmərəm, Nərmin. O mənim faciəm olar. Daim vicdanım üşüyər. O mənim rəzil işə imza atmam olar. Bu, fələyin oyunudu.

*Nərmin gülümsünür.*

— Fələyin oyunudu?

— Hə... Bilməliyik ki, fələyin oyunu bütün hallarda müəmmalı olur. Budur bizim yaşadığımız həyatın iç üzü. Nə qədər dözmək olar təhqirlərə, həqarətli baxışlara?... Heyfim gəlir günahsızlara. Xüsusilə də qızlara.

*Pauza*

— Qız-oğlan, fərq eləməz. Bədxəbxtlik hər ikisini sındırır.

— Xoşbəxtlik arzularıyla, səadət ümidiylə valideynlər özlərini atırlar girdablara. Analı-atasız, fərq eləməz. Günahsız uşaqları atmalı olurlar zibilliklərə.

— Nə yaman kövrəlirsən, Ayaz. Sən xatirələrlə, xəyallarla yaşamağa öyrəncəlisən. Olan olub bizə. Bu qədər özünü üzməyə dəyərmi?!

*Pauza*

— Dünyadan xəbərsiz məsum uşaqlar. Direktor Nəzirələr,





tərbiyəçi Köçərilər, təşkilatçı Sadiqələr... Kimlər... Kimlər... Hələ uşaq ikən həyat insanları nehrə kimi çalxalayır, özünün "ət maşınından" keçirir, məhv eləyir. Tab gətirənləri də atır turmələrin ağuşuna...

— Ayaz, belə getsə, deyəsən sən məni ağladacaqsan. Sən nə qədər sentimentalsan. Hisslərin nə qədər kövrəkdi?! Bilirsənmi, qardaş? Dünyada uduzan həmişə qəlbi kövrəklər, başqalarının hallarına yananlar olurlar...

*Pauza*

— Ruhumla bağlandığım, Nərmin, hardan gəlib, hara getdiyimizi bilirsənmi?

— Bilirəm, qardaş, sən yanımdasan, mənə dayaqsan, elə bilirəm dünyanın xoşbəxtiyəm.

— Bacı, bu böhranlı məqamda, dərd-sərimin aşıb-daşdığı indiki çağımda yeganə arzum var: səni xoşbəxt, sədaqətli görmək... Mən əzab çəkirəm.

*Pauza*

Adamların əcaib rəftarları heç vaxt bizi rahat buraxmayacaq. Güman eləyirəm, həyatımız beləcə sona yetəcək.

— Eh... Ayaz, düşündükcə haralara gedib çıxırıq?!

*Nərmin Ayaza diqqətlə baxır. Kövrəlir. Başını yelləyir, dərindən ah çəkir.*

— Ayaz, deyəsən, dərd-sər, əzab, istirab canımıza elə hopub ki, heç vaxt biz ondan özümüzü qurtara bilməyəcəyik...

— Əşi, həyatda hər cür həşəratlar olduğu kimi, hər tip adamlar da var. Gərək çox şeyi üzdən getməyi bacaraq.

— Qalan ömrümüz nə qədərdi ki, onu da keçmişimizin ağrıacılarıyla keçirək, qardaş.

*Pauza*

— Sən deyənlərlə tam şərikəm. Anlayamadığım odur ki,

adamlar bizə niyə belə münasibət bəsləyirlər? Axı, biz kimə neyləmişik? Olmaya nədəsə səhvə yol veririk?

*Nərmin gülür. Ayaz təəccüblənir.*

— Vay!.. Vay!.. Heyf bizə ərmağan olunan ömürdən!
— Mən elə düşünmürəm, Ayaz. Mənə elə gəlir ki, ətrafımızdakılarla bizim münasibətimizi korlayan Mayadı.
— O, bir dəfə qabaqlar mənə demişdi: "Balam, nə vaxta qədər yataqxanada qalacaqsız? Yeyib-içməklə, əyin-baş paltarı almaqla hara gedəcəksiz? Qırın, qırpın, özünüzə bir daxma alın".

*Pauza*

— Mən onun sözündə pis şey görmürəm. O, bizim cibimizdən xəbərsizdi. Maya əslində bizə yol göstərir.
— Sən deyən olsun. Bu yaxınlarda mənə gör nə məsləhət verir? O gədədən gözüm su içmir. Özünə adam tap. Həm səni dolandırsın, həm də başını qatsın.
— Sən ona nə dedin?
— Mən ona deməyə söz tapa bilmədim. Ağlamaq məni tutdu.
— Hə... Ağlama, arxasını de.
— Deyir: "Nə olub az? Gözünün qarasını tökmə. Vaxt gələr, mən deyənləri özün başa düşərsən...".

*Ayaz tutulur. Nəfəsi təngiyir.*

— Maya ilə görüşüb gəlirəm.





# XIV bölüm

*Ayaz əlini Nərminin əlindən çəkir. Nərmin onun qarşısına keçir.*

— Sənə söz demək olmur. O saat özündən çıxırsan...
— Onun cavabı verilməlidi, Nərmin.
— Bu, xanımların söhbətidi, sənə deməyə də bilərdim, Ayaz. Məni niyə məcbur eləyirsən ki, sirrlərimi içimdə saxlayım, sənə deməyim... Aramızda sirr saxlamaq bizə fayda verərmi?

*Ayaz Nərminin gözlərinin içinə baxır. Orda inciklik, nigarançılıq, yazıqlıq, yalvarış görür. Sonra o, qəti şəkildə bildirir.*

— Özünü elə apar ki, guya, sənin heç nədən xəbərin yoxdu, Nərmin.
— Yoox!.. O sözləri mən özüm Mayaya yedizdirəcəm, Ayaz.

*Pauza*

Bilirəm, kiməsə məndən ötrü söz verib, Maya. O, əxlaqsız, mənəviyyatsız qadındı. Elələri doğma qızlarını da...
— Yaxşı, söhbəti qurtaraq, Nərmin.
— Söz verirsən? Maya ilə söhbət etməyəcəksən.

*Nərminin dedikləri Ayazın qulaqlarında guruldayır. Hirs, qəzəb Ayazı boğur, onu cansız, iradəsiz bir məxluqa çevirir. Xəyalı Ayazı bəzən uçurur, bəzən də insafsızcısına yerə çırpır...*

*Kadr dəyişir. Adi günlərdən biri. Ayaz Nərminlə şəhərə gəzməyə çıxır. Ayaz Nərmini irəli buraxır. Qızla qapı ağzında cavan oğlan qarşılaşır. Oğlan guya, tələsirmiş kimi əlini Nərminin döşləri üstə qoyur və içəri keçmək istəyir. Qəfil baş verən hadi-*

*sədən Nərmin özünü itirir və diksinib geri atılır. Hirs Ayazın beyninə vurur.*

**Oğlan** *(dərhal astadan)***:** Hələ xamdı.

*Ayaz gözlənilmədən oğlanın ağzına, sonra da başına, boyunboğazına zərbələr endirir. Dəhlizdəki yataqxana sakinləri onları aralayırlar. Ayazı sakitləşdirməyə çalışırlar.*

**Ayaz** *(dərhal)***:** O xamdı, sən öyrənmiş əclafsan.

*Maya fürsəti əldən vermir, yeməkxanada çay içən ucaboy polisi çağırır. Polis gəlir, Ayazla Nərmini oğlanla üz-üzə qoyaraq danışdırır.*

**Ucaboy polis** *(oğlandan)***:** Adın nədi?
— Surxay.
— Yataqxanada yaşayırsan?
— Yox...
— Burda nə gəzirsən?
**Maya:** Bacım oğludu. Mən çağırmışam.
**Ucaboy polis:** Bacın oğludu, çağırtdırmısan, burda düzəltdiyi mərəkəyə bax, hoqqabazın.

*Ayaz əhvalatı danışdıqca Maya əsəbiləşir, dodaqlarını gəmirir. Nərmin Ayazın sözünü təsdiqləyir.*
*Maya Ayazla Nərmini günahkar çıxarmağa çalışır. Ayaz dözmür. Əsəbiləşir. Cavab verməli olur.*

**Ayaz:** Maya, bu fitnə-fəsad sənindi. Unutma ki, mən sən düşünəndən çox şey bilirəm. Ağzıma su alıb dururam, elə bilirsən... Başına oyun açaram.





*Pauza*

**Maya:** Bu nə deməkdi, Ayaz? Elədiyim hörmətin əvəzidi? Yetim, kimi söyərsən, çörək verəni?
**Ayaz:** Xeyr. Özünü şişirtmə. Sən özünü görən adamsan... Nərminlə işin olmasın.
**Maya** *(Mayanın səsi tağımından düşür)***:** Adamları özünə oxşatma, sürtük. Mən yetimxanadan gəlməmişəm.
**Ayaz:** Məni təhqir eləmə, mən çox çətinliklər görmüşəm. Burayla türmə arasında da elə bir fərq görmürəm.

*Maya karıxır.*

**Ucaboy polis** *(Surxaya)***:** Sən xuliqanlıq eləmisən. Onun da cəzasını almalısan.

*Mayayla Surxayın sifəti ağarır.*

**Ayaz** *(Mayaya)***:** Öz aləmində bahalı vərdişlərə yiyələnmisən, Maya. Xəcalətdən gərək nəfəsin çıxmayaydı.
**Maya** *(pıçıltılı səslə)***:** Yaxşı, qurtarın söhbəti, Surxayla barışın.
**Ayaz:** Kimlə barışım? Günahsız qızı təhqir elədiyi üçün?
**Maya** *(ucaboy polisə)***:** Qoy getsinlər.

*Ayazla Nərmin əsəbi halda gedirlər.*

**Nərmin:** Maya çox qorxulu adamdı. Səni şərləyib tutdura bilər.
**Ayaz:** Sən bilirsən, Nərmin, o bizi hara sürükləyirdi? Bundan sonra qələt eləyər, bizə heç nə eləməz.
**Nərmin:** O, bizə xox gəlir.

*Kadr dəyişir. Nərmin çarpayıda xəstə yatır. Tərişlə Ayaz ona dərman içirirlər.*

**Ayaz:** Bacı, tibbi yardım maşını çağırım. Həkim gəlsin, səni müayinə eləsin. Məsləhət bilərsə, xəstəxanaya gedərik. Orda yoxlanılarsan.
**Nərmin:** Eh... Qardaş, mədəm elə şiddətli ağrılar verir ki, sağalacağımı ümid eləmirəm.
**Təriş:** Bu qədər nagüman olmaq?.. Ayaz, sən təcili yardıma zəng elə. Nərminə qalsa...

*Ayaz otaqdan çıxır. Təriş Nərminə bir stəkan su verir. Ayaz qayıdır.*

**Ayaz:** Təcili yardımı çağırdım. İndi gəlir. Mən düşüm aşağı. Onu qarşılayım.
**Təriş:** Özünü darıxdırma, Ayaz. Bu saat Maya ilə gələcəklər.

*Qapı açılır. Maya qabaqda, xəstəxananın həkimi tibb bacısı ilə otağa daxil olurlar. Cəlalova Nərmini müayinə eləyir. İlkin yardım başlanır.*

**Həkim:** Nərmini xəstəxanaya köçürməliyik. O, dərindən müayinə olunmalıdı. Bizimsə, burda ona imkanımız yoxdu.

*Ayazın sifəti bozarır. Tərişlə Maya Nərminə təəccüblə baxırlar.*

**Nərmin:** Yoox... Ayaz. Mən... Mən... Getmək istəmirəm.
**Ayaz:** Sən tək getməyəcəksən. Mən də...

*Nərmin inad göstərir. Həkimlə Ayaz təkid eləyirlər. Nərmin*





*axır ki, razılaşır. Ayazla Təriş Nərmini maşına mindirirlər.*
*Kadr dəyişir. Xəstəxana. Nərmini rentgendən keçirirlər. Qan analizləri götürürlər.*

**Həkim** *(Ayaza)*: Oğlum, Nərmin sənin nəyindi?
— Bacım.
— Yaxşı olar ki, onu Onkoloji Mərkəzə aparasız. Özünə demə... Mən şübhələnirəm. Görünür, nə vaxtsa zərbə alıb... Vaxt keçib, müalicə olunmadığından onun mədəsində törəmə yaranıb.
— Törəmə nədi?
— Xərçəng.

*Ayaz donur. Onu soyuq tər basır.*
*Kadr dəyişir. Ayaz dəhlizə çıxır və Nərminə yaxınlaşır.*

**Ayaz** *(Nərminə)*: Nə vaxtsa, hardasa qarnına, ya mədənə toxunan bir şey olmayıb ki?
**Nərmin** *(fikirləşir)*: Əclaf Köçəri məni qamarlayıb çarpayıya atanda mədəmin üstü çarpayının dəmirinə dəydi. Onda sancı verdi. Bir müddət ağrıdı. Sonra da ötüb keçdi. Necə bəyəm?

*Ayaz yalan danışmalı olur.*

**Ayaz:** Heç, həkim deyir, həmin zərbədəndi... Müalicə olunsa, düzələr.

*Ayazla Nərmin taksiylə Onkoloji Mərkəzə gedirlər. Kadr dəyişir. Nərmin ayaq üstə dayana bilmir. Əli mədəsinin üstündə qalır. Professor Nərmini tibbi cihazlarla müayinə eləyir.*

**Professor:** Ayaz, həkim diaqnozu düz qoyub. Səhvə yol ver-

məyib. Nərmin xəstəxana şəraitində müalicə olunmalıdır. Xəstəliyin fəsadları hər gün arta bilər. Buna elə-belə baxma, oğlum.

*Pauza*

**Ayaz:** Professor, Nərmin çox düşüb. Arıqlayıb... Yeyə bilmir... Səsi sanki quyunun dibindən gəlir, nitqi getdikcə pozulur. Son vaxtlar utandığından mənimlə üzləşmək belə istəmir.

**Professor:** Bilirəm, bu xəstəliyin xarakteri belədi. Nərmin xəstəxanada yatmalıdı.

*Nərmin xəstəxanaya köçürülür. Ayrıca palatada yatır. Həkimlər, tibb bacıları onu müalicə eləyirlər.*

**Həkim** *(Ayaza resept verərək)***:** Ayaz, bu iynə-dərmanları özün tap. Xəstəxanada yoxumuzdu. Doğrudu, hamısı bahalıdı, gör neyləyirsən.

**Ayazın daxili səsi:** Pulum yox. Borc istəyəsi adamım yox. Mən neyləyim?

*Pauza*

Bəli, indi bıçaq sümüyə dirənir. Nəyin bahasına olursa-olsun, pul tapmaq lazımıdı. Ancaq necə? Oğurluq eləməkmi? Aman Allah, biz nələrlə üzləşirik? Gözlərim baxa-baxa Nərmini əldənmi verim? Oğurluqdan, basqınlardan gətirdiyim pullarla zavallı qızcığazı xəstəliyin çəngindən qurtara biləcəyəmmi? Onun yaşamasına ümid varmı?

**Nərmin:** Qardaş, özünü üzmə. Ağır iş səni də mənim günümə salar. Sən Allah, özünü qoru. Dərman-davanın da mənə faydası yoxdu. Özünü az xərcə sal...

*Nərmin ağrı-acıdan üzülür. Çətinliklə danışır. Ayaz ağzından artıq söz çıxaracağından çəkinir. Axşam Nərminin yanına gəlir. Həkimlə xeyli söhbət eləyir. Əllərini əlinə alır, saçlarına sığal çəkir. Nərmin Ayaza sığınır.*





**Ayazın daxili səsi:** Mənə pul gərəkdi. Mən yataqxanada qalsam da aylıq məvacibim heç cürə bizə çatmır. Bundan sonra səhər yeməyini təxirə salacam, hər həftənin ən azından iki gününü oruc tutacam. Bu da ayda təqribən məvacibimin üçdən birinə qənaət eləməkdi. Bu qənaət sayəsində müəyyən dava-dərman ala bilərəm. Qalan iki naharıma da on-on iki qəpiklik paket supları alıb keçinərəm. Bu pulları da müəyyən şeylərə sərf eləyərəm.

*Pauza*

Hər gün işdən sonra gedim bazara, orda yük daşıyım. Azdan-çoxdan da əlimə pul salım. Yoxsa, çətin olacaq. Mənə kimdi pulsuz dərman verən.

*Nərmin qəsdən Ayazı düşüncələrindən ayırmağa çalışır.*

**Nərmin:** Ayaz, xəstəxananın iyi-qoxusu səni birtəhər eləyər.
**Ayaz:** Qorxma. Onsuz da mən iy bilmirəm.
**Nərmin:** Ac qalma. Get naharını elə.
**Ayaz:** Məndən nigaran olma.

*Ayaz kövrəlir. O, fikrə dalır.*

**Ayazın daxili səsi:** Nə yaman şeymiş kasıblıq. Pulun olmaması adamı lap it gününə salır. Oğurluqdan çəkinirəm. Heç vaxt elə iş görməmişəm. İlk oğurluğum əlimdə tutulsa, mən Nərmini görə, onun qayğısına qala biləcəyəmmi? Əlbəttə ki, yox!..

*Pauza*

Pulumuz olsaydı, inanıram, bəlkə də Nərmin bu qədər əzab-iztirab çəkməzdi. Vaxtında üstünə düşüb onu bəladan qurtarmaq olardı. Mən də bu qədər xəcalət çəkməzdim. Pul sən nə qüdrətlisənmiş?! Bəzən adamın ağlını da çaşdırırsan. Bu dəhşətdi, fəlakətdi. İnsanlığın ölümüdü...

*Kadr dəyişir. Ekran qaralır. Sonra ağarır. Günorta çağı. Zavod. Sex. Ayaz qan-tər içərisində işləyir. Yorğun görünür.*

**Usta:** Ayaz, son zamanlar yaman yorğun görünürsən. Özün də sınıxmısan.
**Ayaz:** Hə... Xəstəmiz var, usta. Görünür...

*Pauza*

**Usta:** İşdən sonra istirahət elə, oğlum. Adam cavanlığında sağlamlığının qeydinə qalmır. Onun da altını qocalığında çəkir. Yeməyinə fikir ver. Hər şey yoluna düşəcək.
**Ayazın daxili səsi:** Eh... Usta! Usta! Sən hardan biləcən nələr çəkdiyimi. Canımdan əziz Nərminimdən əlim üzülür. Taleyimə doğan günəşim batır. Nə yemək?! Nə içmək?! Nə istirahət?! Hamısı boş şeydi... Qaraçuxamız yatıb...

*İşin sonu. Ayaz işdən tələm-tələsik çıxır. Avtobusa minir. Bazara gəlir. Arabacıqla yük daşıyır.*
*Kadr dəyişir. Ekran qaralır, yavaş-yavaş ağarır. Xəstəxana. Ayaz palataya girir. Nərmin ona baxır. Qızın gözündən qəm, kədər yağır.*

**Ayaz:** Hə... Özünü necə hiss eləyirsən, bacı?
**Nərmin:** Belə də.

*Pauza*

**Ayaz:** İndi yaxşı görünürsən. İnşallah, tezliklə sağalarsan. Ayağa durarsan. Yataqxanada qızlar — Təriş də, Aynur da yolunu gözləyirlər.
**Nərmin:** Ayaz, qardaşım, son vaxtlar nə yaman sınıxmısan? Bilirəm, mənim dərdimi çəkirsən. Əzablarıma qatlaşmaq sənin üçün çox ağırdı.
**Ayaz:** Yox... Nə sınıxmaq? İnan mənə, gücüm əvvəlki vaxtdan indi daha çoxdu.





**Nərmin:** Yəqin yemirsən, içmirsən... Həkim mənə deyib.
**Ayaz** *(dərhal)*: Nəyi?
**Nərmin:** İynə, dərmanların bir çoxunu sənin almağını. O pullar səndə hardandı?.. *(Ayaz Nərminin gözlərinin içinə baxır)* Özünü nahaq yerə dağa-daşa çırpıb borc eləmə... Yəqin hardasa, əlavə iş tapmısan, nahaq... Onsuz da biz tezliklə ayrılacağıq... Özündən muğayat ol, qardaş.

*Ayazın gözləri dolur. Həkimlər bunu Ayaza qüsur tuturlar.*

**Həkim:** Belə olmaz, Ayaz. Sən emosionallığınla xəstəni haldan çıxarırsan.
**Ayaz:** Bağışlayın, həkim, özümü saxlaya bilmədim.
**Həkim:** O çox pis.
**Ayazın daxili səsi:** Yaşamaq nə qədər çətindi. Əzab, deyəsən, bizim kimi insanlarla birgə doğulur. Bəşəriyyət yaranandan həmişə haqq, ədalət axtarırıq. Hanı?.. Zülmətdə doğulan, indi-indi həyata atılan, onun həzzinin, dadının nə olduğunu tam anlamayın qızcığazın üzləşdiyi zülmü nə ilə əlaqələndirəsən?

*Pauza*

Eh, həyat... Həyat... Yaşam üçün biz sənin qarşında dizmi çökməliyik? Ömründə bircə dəfə biz kimsəsizlər qarşısında nəzakətli, ürəyiaçıq, mərhəmət və səxavətli olmusanmı? İnanmıram. Doğrudanmı, sən bu qədər müəmmasan, qəddarsan?! Ancaq qəddarsan. O da baxır kimə?
**Həkim:** Ayaz, bilirəm imkansızsan, ancaq başqa əlacım da yoxdu, al bu resepti, gör, bu dərmanları hardan alırsan? Sabaha mütləq lazımdı.

*Ayaz otaqdan çıxır. Səhərdir. Ayaz əlində bükülü qayıdır. Dərmanı həkimə verir.*

**Ayazın daxili səsi:** Birdən Nərmin... Onda neyləyərəm? Bəlkə Cəmillə Xatirəyə Nərminin vəziyyətini çatdırım? Onlar da təzə ailə qurublar. Bəlkə onlar məndən yaxşı düşünərlər. Nə qədər olmasa, Xatirə...

*Ayaz tələm-tələsik xəstəxanadan çıxır. Cəmilgillə söhbətə gedir. Onu Cəmillə Xatirə qarşılayırlar.*

**Ayaz:** Nərmin pis vəziyyədədi. Geriyə dönəcəyini ağlım kəsmir.

*Cəmillə Xatirə tutulurlar. Nə eləyəcəklərini bilmirlər.*

**Xatirə** *(Cəmilə)*: Qalx, Cəmil, gedək.

*Onlar taksiyə əyləşərək xəstəxanaya yollanırlar. Yol boyu Xatirə göz yaşlarını saxlaya bilmir. Kadr dəyişir. Onlar palataya girirlər. Nərminin özünü itirdiyini, adam tanımadığını görürlər. Hər üçü məyus olur. Xatirənin gözlərindən yaş axır.*

**Ayaz** *(çaşqın halda)*: Nərmin, Nərmin! Cəmillə Xatirə buradadılar, səninlə görüşə gəliblər. Sənə qurban olum, gözlərini aç, bacı.

*Nərmin özündə deyil. Tibb bacıları palataya girmələrinə görə Cəmillə Ayaza irad tuturlar. Xatirənin Nərminin keşiyini çəkməsinə razılaşırlar. Cəmillə Ayaz həyətə düşərək skamyada əyləşirlər.*

*Oturduğu yerdəcə Ayaz hönkürtüylə ağlayır. Cəmil onun qolundan yapışır, ayağa qaldırmaq istəyir. Əlacsız qalan Cəmil Ayazı qucaqlayır.*

**Cəmil:** Yaxşı, yaxşı, özünə gəl, Ayaz. Özünü ələ al...





**Ayaz:** Mən Nərminsiz yaşaya bilmərəm, Cəmil. Bütün gücüm, varlığım, elə bil, sarsılır.

*Pauza*

— *(Titrək səslə)*: Ayaz, qardaşım, sən çox emosionalsan. Sən hər şeyi özünlə ölçürsən. İncimə məndən, təbiət-həyat sənin istəyinə tabe ola bilməz. Qardaş, mən Allaha inanıram. O, bizə nə qismət eləyibsə, ona da qane olmalıyıq. Qalx ayağa. Bir hərlənək... Dözümlü ol, Ayaz.

## XV bölüm

— Nərmin çox zərbələr aldı. Bilirsən, o ata-anasının da, başqa doğmalarının da istəyini, qayğısını məndən alır, Cəmil. Onun məndən savayı kimsəsi yoxdu... Əclaf Köçəri. Onun qanı necə də içilməliymiş...

— İçilməli nəyə deyirsən? Lap tutalım stəkanı doldurub birnəfəsə içdin. O sənə indi təskinlik verəcəkdimi?..

*Pauza*

Həyatı bilmək olmur. Bir də, o bizim ixtiyarımızda deyil ki, onu istədiyimiz səmtə yönəldək. Bircə yolumuz var: dözüm!.. Dözüm!.. Bir də Allaha sığınmaq!

*Pauza*

— Eh... Nə qədər?.. Hərdən beynim kilidlənir. Nərminin başına bir iş gəlsə, onda özümü...

— Sən deyəsən, dəli olursan, Ayaz. Sənin dediklərin Nərminə sədaqətdən yox, hissə qapılmaqdandı. Biz “Kimsəsizlər evi”nin sakinləri çox bağlanmışıq bir-birimizə. Ona görə də yaşamımızı bir-birimizin varlığında görürük. Həyatsa hələ bizə çox şey öyrədəcək. Çox şeyə alışdıracaq. Hətta səbri də, dəyanəti də, olub-keçənlərə arxa çevirməyi də. Lap küsüb-barışmağı da. Sən yaxşı oğlansan, Ayaz, təkcə sentimentallığın olmayaydı...

*Cəmillə Ayaz həyətdə gəzirlər. Yel üz-gözlərini yaladıqca Ayaz özümə gəlir. Qəmlə, kədərlə, qüssəylə dolan içi elə bil, yavaş-yavaş boşalır.*

— Cəmil, gedək palataya. Görək, indi vəziyyəti necədi, Nərminin?

*Onlar yenidən palataya qayıdırlar. Nərminin üzündə təbəssüm var. Deyiləni başa düşür. Cəmili görcək onun üzündə bir qədər də işıq yaranır. Cəmil onun əlindən öpür. O, özünü saxlaya bilmir, gözləri dolur. Xatirə ərinə yavaşca dümsük vurur.*

**Xatirə:** Bəsdi, kövrəltmək olmaz.

*Cəmillə Xatirə stulda əyləşirlər. Ayaz Nərminin çarpayısının qırağındaca oturur. Əlini əllərimə alır, ustufca tumarlayır. O, başını Ayazın dizinə tərəf sürüşdürür. Ayaz onun başını qucağına alır, saçlarına sığal çəkir. Nərmin diqqətlə hamını nəzərdən keçirir.*

**Nərmin** *(Cəmillə Xatirəyə pıçıltıyla)*: Ayazdan göz olun.

*Nərmin gözlərini həsrətlə Ayazın üzünə dikir. Nərminin döyünən ürəyi bir andaca dayanır.*
**Xatirə:** Bacı, bacı!

*Xatirə qışqırır. Səsə şəfqət bacıları gəlirlər. Məyus-məyus Nərminə baxırlar. Ayaz nə eləyəcəyimi bilmir. Hönkürə-hönkürə onun başını qucağına alır, qışqırır. Sonra ayağa qalxır...*
*Nərminin dəfni. Zavod işçiləri, yataqxana sakinləri, Cəmil, Xatirə, Nihad, Firuz və Ayaz yasdadırlar. Din xadimi dini ayin oxuyur. Cənazə qaldırılır. Bir az irəliləyir. Qəbiristanlıq. Dəfn*





*mərasimi. Hamı Ayaza təskinlik verir.*

**Cəmil:** Özünün də, Nərminin də, nəyiniz varsa, götür, gedək bizim qaldığımız yataqxanaya. Biz necə, sən də elə.
**Ayaz:** Yox, Cəmil. Sənin ailən var. Mən Nihadla, Firuzla birlikdə qalacam.

*Ayaz paltarlarını yır-yığış eləyərək Nihadgil yaşayan yataqxanaya köçür. Ayaz Nərmini yuxuda görür. Ayılanda ağlamağa başlayır.*

**Nihad:** Ayaz, belə getsə, sən də xəstələnəcəksən. Bir özünə bax güzgüdə. Qardaş, belə olmaz. Nərmin yaxşı qız idi. O, səni çox istəyirdi, lap çox.

*Pauza*

Yolunda hər çətinliyə dözərdi. Nə qədər onun yolunda əzabəziyyət çəkdiyini demirik. O, sənin borcun idi. Elədin. İndi də özünün həlakına çalışırsan. Belə olmaz.
**Ayaz:** Sən deyənlə razıyam. Neyləyim ki, özümü onsuz hiss eləyə bilmirəm. Hara gedirəmsə, harda oturub-dururamsa, Nərminləyəm. Onu bircə an belə yaddaşımdan nəinki silmək, heç ondan aralıda dayana da bilmirəm...
**Firuz:** Aqillər — Sevgi belə olur — deyirlər. — Yandırıryaxır.
**Nihad:** Dözüm... Dözüm... Yenə dözüm...
**Ayazın daxili səsi:** Eh... Uşaqlıq illəri. Həyatımızın nə qədər çətin anları olsa da, bəlkə də xoşbəxt dəqiqələri sənə məxsusdu... Doğrudu, əziyyətlərimiz də olub. Ağla gəlməyən zülmlər çəkmişik... Biz yataqxana həyatına qovuşanda elə bildik ki, zülmdən, iztirabdan, tam olmasa da, qurtarmışıq. Sən demə, zülmlərimiz qabaqdaymış.

*Pauza*

İnsafın, mürvətin yoxmuş, həyat. Əziz bacım, Nərmin, bir dəfə taleyimiz barədə danışanda sən mənə suallar verdin: axı biz niyə belə olduq? Bizim də üzümüzə xoşbəxtlik qapısı açıla bilməzdimi? Nə vaxta qədər heysiyyətimiz tapdalanmalıdı? O zamanlar mən sənin o suallarına doğru-dürüst cavablar verə bilməsəm də, çalışırdım ki, səni boğucu düşüncələrdən ayırım. Başını qatım. Təəssüf ki, bütün cəhdlərim əbəsmiş...

*Kadr dəyişir. Bazar günü. Ayaz, Nihad və Firuz səhər yeməyinə otururlar. Süfrə açılır. Ayaz Nərminsizliyini hiss eləyir. Əllərini yumruqlayır, var gücüylə stola vurur. "Nərmin!", "Nərmin!" — deyə qışqırır. Sonra da hönkürtüylə ağlamağa başlayır. Çarpayıda üzüaşağı uzanır. Xeyli vaxt keçir. Qalxır, ayaqlarını sürüyə-sürüyə gül mağazasına gedir. Nihadla Firuz onun arxasınca gəlirlər. Ayaz bir dəstə gül alır. Birlikdə Nərminin qəbrini ziyarətə gedirlər. Nihadla Firuz Ayazın hərəkətlərini Cəmillə Xatirəyə də çatdırırlar.*

**Firuz:** Qardaşım, bu, olmadı. Özünü lap əldən salırsan.
**Nihad:** Mənim sənə yazığım gəlir. Əsəbiləşirəm.

*Ayaz bir qədər duruxur.*

**Ayaz:** Mən də bilirəm, ölənlə ölmək olmaz. Vallah, vurun, öldürün məni. Neyləyim ki, dözə bilmirəm Nərminsizliyə.

*Kadr dəyişir. Yataqxana. Cəmilgil yaşayan otaq.*

**Firuz:** Belə getsə, Ayaz dəli olacaq.
**Cəmil:** Biz də onun səhhətindən narahatıq. Neyləyək?
**Xatirə:** Bəlkə həkimə müraciət eləyək.
**Cəmil:** Həkimləri tanımırsan? Beş manatdan ötrü psix deyə





atarlar içəri, sonra çıxara bilmərik, yazığı. Bədbəxt olar. Özüm Ayazla danışaram.

*Axşam. Ayazla Xatirə Firuzgil yaşayan yataqxanaya gəlirlər.*

*Kadr dəyişir. Otaqda Firuz, Nihad söhbət eləyirlər. Cəmil birbaşa mətləbə keçir.*

**Cəmil:** Ayaz, sənin sədaqətin hamımıza bəllidi. Ancaq sənin bu qədər çılğınlığın, emosionallığın, nəzərə al ki, Nəriminin də ruhunu incidə bilər...

*Pauza*

**Xatirə:** Nərmin səninlə nəfəs alırdı, Ayaz. Neçə dəfələrlə o özü mənə demişdi: "Ayazın başından bir tük əskik olsa, mən yaşamaram. Ayaz yaşamalıdı..." Mən istəyirəm, sənə bir sirri də açım. Nərmin səni sevirdi. Varlığıyla, bütün ruhuyla.
**Cəmil:** Xatirə düz deyir. Ancaq bakirəliyini qoruyub saxlaya bilmədiyindən, daha doğrusu, oğurlatdığından, o, özünü sənə layiq bilmədi. Ona görə də o, ruhunu, hissini, duyğusunu tamam başqa bir səmtə — "qardaş-bacılığa" yönəltdi. O, həmişə səni xoşbəxt görmək istəyirdi...
**Xatirə:** Sən özünü həlak eləməklə onun da hissinə, duyğusuna qarşı çıxmış olursan... Sabah mən yıxılıb ölsəm, ağzıma daşlar, Cəmil də özünü həlak eləməlidimi?

*Pauza*

Yox... Ayaz, qardaşım, indiyəcən ölməyib, salamat qalmışıqsa, Allah verən ömrü yaşamalıyıq. Ölənlə ölmək olmaz...

*Ayaz Xatirəni dinləyir.*

**Ayaz** *(ağlayır)***:** İndi sən hardasan, mənim Nərminim, mənim ruhum?..

*Ayaz Nərminin kitablarını, xatirə dəftərçəsini götürür, və-*

*rəqləyir. Nərminin öz xəttiylə yazdığı cümlələri bircə-bircə yoxluyur.*

"Ayaz, yeganə arzum səni xoşbəxt görməkdi. Qardaşım, həyat məni bir neçə dəfə sınağa çəkdi. Etiraf eləyim ki, onun zərbələrinə tab gətirə bilmədim. Şikəst oldum... Sən xoşbəxt olmağa layiqsən. Bilsəm, hardasa xoşbəxtliyinə mane olaram, inan mənə, bütün varlığımı, həyatımı sənin yolunda fəda eləyərəm...".

*Ayaz xeyli mütəəssir olur. Nərminin şəklinə baxır. Xatirə dərindən ah çəkir.*

**Xatirə:** Ayaz, sən qəribə oğlansan, çox inadkarsan. Hərdən fikirləşirəm, o taylı-bu taylı azərbaycanlıları yığasan, sənin kimisi tapılarmı?

**Cəmil** *(astadan)***:** Təkcə Füzulisi əskikdi... "Nərmin və Ayaz" poeması yazsın...

— Nərminin, ruhu şad olsun, bir stəkan çay içək, özümüzə gələk, Xatirə.

*Pauza*

— Qardaşım, istəyin də təhri var. Elə bilmə ki, biz Nərmini az istəyirik. Ölümlə hesablaşmalıyıq. Heç kəs ondan qaça bilməz. Kim elə düşünürsə, böyük səhvə yol verir. Biz bu çağacan çox dostlarımızı itirmişik. Onlardan biz qalmışıq. Gəlin, əl-ələ verib yaşayaq. Onsuz da içərisində yaşadığımız bu cəmiyyət bizi qəbul eləmir.

— *(Dili topuq vura-vura, dodaqları səyriyə-səyriyə)***:** Valideynlərin atdığı övladı kim qəbul eləyər ki? Onda qalmış da ki, cəmiyyət ola.

— Söhbət çox uzandı. Xatirəylə biz gedək. Siz də bazara gedəcəksiz.





*Xatirəylə Cəmil məskunlaşdıqları yataqxanaya, Ayaz, Nihad və Firuz bazara gedirlər.*

*Kadr dəyişir. Bazar. Ayaz, Firuz, Nihad meyvə və ət alırlar...*

**Nihad:** Bu gün qarnımız doyar.

**Firuz:** Həm də ağzımız dada gələr.

**Nihad:** Yemək barədə az fikirləşin. Umsuq olarsız.

**Ayaz:** Deyirsən, sahə müvəkkili torbaları əlimizdən alar ?

*Hamısı gülür.*

**Firuz:** Qələt eləyər.

*Kadr dəyişir. Yataqxananın girəcəyi. Ayazgül girəcəyə yaxınlaşırlar. Gözətçi Marina İvanova qapı ağzında onları qarşılayır.*

**Marina İvanovna:** Siz qəribə uşaqlarsız. Sizdən xoşum gəlir. Paxıllığınız, mərdimazarlığınız, cibgirliyiniz yoxdu. Sizin otağınız mənə bir dahi yazıçının "Günəş adası" əsərini, sizsə həmin adanın sakinlərini xatırladırsız. Doğrusu, əvvəllər nə "Günəş adası", nə də onun sakinləri barədə təsəvvürüm vardı. Nə isə...

**Firuz:** Xoş sözə görə sağ olun.

**Nihad:** Çalışaq etimadı doğruldaq.

**Marina İvanovna:** Uşaqlar, utanıram deməyə. Gərək məni bağışlayasız. Yüz altıncı otaqdan Vüsalın kostyumu, yüz on dördüncüdən isə Namiqin pulu oğurlanıb.

**Ayaz:** Bəlkə...

**Nihad:** Öz quramalarıdı. Nə oldu, oğrular eyni vaxtda iki əməliyyat apardılar?

**Marina İvanovna:** Bilmirəm, istərdim bu söhbətə hazır ola-

sız. Komendant və ondan savayı iki nəfər otaqları gəzirlər. Yəqin ki, gözlərinə xoş görünməyənləri...

**Ayaz** *(küskün halda)***:** Nə deyirlər, desinlər... İnsanlardan hər şey gözləyirəm.

**Firuz:** Tələsik qərar vermə.

**Nihad:** O qədər yaramazlıqlar görmüşük ki? Nə olsa bizdə qıcıq doğurur, Firuz.

**Firuz:** Bilirəm... Neyləmək olar?

*Komendant və yanında iki nəfər gəlirlər.*

**Komendant:** Ayaz, söhbət gəzir ki, uşaqlar səndən şübhələnirlər.

**Nihad:** Şübhələr çox şeydisə də, hələ həqiqət deyil.

**Firuz:** Biz Ayazı yaxşı tanıyırıq. Onun elə bir alçaq hərəkətə meyillənməsi mümkün deyil. Əgər siz həqiqətən də Ayazdan oğurluq görürsüzsə, yaxud şübhələnirsizsə, onda o cinayəti biz üçümüz törətmişik.

**Nihad** *(dərhal)***:** Ayaz təmiz oğlandı. O, heç vaxt elə hərəkət eləməz.

**Ayaz:** Bu iftiranı gözləyirdim.

**Komendant:** İftira niyə olur ki? Dedim axı, söhbət gəzir...

**Ayaz:** Bəs sənin ağlın?.. Mən burda pulumu verib qalıram. Fikrini dəyişib, mənim burdan getməyimi istəyirsənsə, gedə bilərəm.

**Firuz:** Ayaz barədə deyilənlər böhtandı. Gedin oğruları başqa otaqlarda axtarın.

**Komendant:** Ayaz, uzatmayaq, sən yataqxanadan getməlisən. Özünə başqa yer tap.

*Ayaz daxili sarsıntı keçirir.*





**Ayazın daxili səsi:** Mən yataqxanadan çıxmalıyam. Özü də tez. Əks halda şərlənəcəm. Barmaqcıqlar arasına düşsəm, "Kimsəsizlər evi"ndəki gün-güzərandan artıq əzablarla qarşılaşmalı olacam. Bu isə sərbəstliyimi, az-çox azadlığımı itirməkdi. Ola bilsin ki, həyatım birdəfəlik türməylə bağlansın.

*Ayaz dəhşət içərisində qalır. Hirs, qəzəb onu boğur. Üzünü komendantdan çevirir və otağa gedir.*

*Kadr dəyişir. Axşamdır. Ayaz Cəmilgilə gəlir. Görüşürlər. Xatirə süfrə açır. Ayaz nə çay içə, nə də xörək yeyə bilir. Bunu Cəmillə Xatirə də anlayırlar.*

**Xatirə:** Yenə nə oldu, Ayaz? Halın tez-tez elə dəyişir ki, səni tanımaq olmur.

**Cəmil:** Yenə Nərmin, Ayaz?

**Ayaz:** Yeni mənzil axtarışı. Ayə, ay Cəmil, inan mənə, adama nə iftira desən, atırlar. Düşünən yoxdu ki, bu eləyər, ya eləməz.

**Cəmil:** Ayə, niyə deyinirsən. Nə olub?

**Ayaz:** Deyəsən, bu gün komendatın gözlərinə pis görünmüşəm. Deyir, yataqxanadan kiminsə nəyisə oğurlanıb. Sən yataqxananı tərk eləməlisən.

**Cəmil:** Ayə, onu özünə dərd eləmə. Qal bizdə. Sabah açılsın. Görək sənə harda yer tapırıq.

**Ayaz:** Yox... Bu gecəni birtəhər vağzalda qalaram.

*Pauza*

**Cəmil:** Dəli-dəli danışma... Heç hara getməyəcəksən. Uzaqbaşı oturduğumuz yerdə mürgü döyərik.

*Ayaz getmək istəyir. Cəmillə Xatirə onu qapıdan çıxmağa qoymurlar. Ayaz qalır. Stulda əyləşərək söhbət eləyirlər. Səhər-*

*dir. Qapı döyülür. Cəmil qapını açır. Nihadla Firuz gəlirlər. Böyük həyəcan keçirirlər. Ayaz Xatirənin gözlərimin içinə baxır.*

**Ayaz** *(Xatirəyə)*: Məni bağışla.

**Xatirə:** Sən nə qəbahət eləmisən ki, Ayaz?

*Ayaz hiddətindən boğulur.*

**Ayaz:** Nərmindən sonra lap gülünc vəziyyətə düşmüşəm. Görünür, özüm də gülüncəm. Nərmin yaşasaydı...

*Pauza*

**Xatirə** *(gözləri dolur)*: O, taleyin qismətidi... Özünü darıxdırma, ələ al, Ayaz, sən zəif deyilsən axı.

**Cəmil:** Nərminin ölümünə biz də acıyırıq. İnan, yanırıq. “Kimsəsizlər evi”ndə hərəsi bir dərddən: sətəlcəmdən, zəhərlənmədən, döyülmədən ölənlər yadındadırmı? Bizim də hər birimiz üçün qardaş, o təhlükə vardı da.

**Xatirə:** Görünür, Nərminə də belə həyat qismətmiş. O gün Cəmil ikilikdə dedi: “Ayazın çox geniş qəlbi var. Sədaqətlidi”. İndi sən neyləməliydin ona?

**Nihad:** Yataqxanadan çıxarılmanı sən niyə bu qədər şişirdirsən?

**Ayaz:** Nərmin olsaydı, mən belə günə düşməzdim, — deyə düşünürəm... Axı niyə?

**Xatirə:** Tutaq ki, sabah mənim də başıma bir iş gəldi... Cəmil də sənin kimi fikirləşməlidimi? Əgər o, mənə hörmət eləyirsə, özünün qayğısına qalmalıdı.

*Pauza*

**Firuz:** Sən reallıqdan, həqiqətdən uzaqlaşırsan, Ayaz. Bağışla məni, səndə romantika güclüdü. İstərdim, ətrafına da bir baxasan...

**Ayaz:** Gecələr yata bilmirəm. Dağı arana, aranı dağa daşıyıram. Bu gecə ağlıma belə fikir gəldi: bütün varlığımla anamı, heç olmasa, uzaqdan görmək, onu tanımaq istəyirəm. Bu arzu həyata keçəcəkmi, ya yox, bilmirəm. Məni gerçəkliklə üz-üzə qoyacaqmı, yenə bilmirəm.





*Pauza*

Açığını deyim, gözlənilmədən beynimdə yaranan qıcıqlar məni narahat eləməyə başladı. Əvvəllər anamı görmək barədəki düşüncələrim ötəri olsa da, son vaxtlar başımda tez-tez dolanır.

**Xatirə:** Buna inamın varmı?

**Ayaz:** Özümü inandırmağa çalışıram. Düşünürəm: mən onu harda axtara, harda tapa bilərəm? Bu boyda — neçə milyonluq şəhərdə neçə illər əvvəl məni atan, itirən adamı necə tanımaq olar?

**Cəmil:** Tapsaydın, o möcüzə olardı.

**Ayaz:** Sonra da öz-özümə deyirəm, tutalım, lap tapdım, tanıdım, məni özü atıbsa, indi o, mənə yaxın durarmı? O, mənə oğlum deyərmi? Bəs mən necə, ona ana deyərəmmi? Çox müəmmalı məsələ, çox dolaşıq niyyət, çox pırtlaşıq kələf!

— Bilirsən, o nəylə bağlıdı?

— Yoox...

— Vəziyyətin düzəlir. Getdikcə sarsıntılı anların azalır, qəm, qüssə, kədər hisslərin xoş əhvalla — yaşam istəyi, sevinc duyğularıyla əvəzlənir.

— Hər anın öz dərd-səri var.

— İnan mənə. Uşaqlıqda indiki qədər gücümüz yox idi axı.

— Ola bilər. Son vaxtlar həyatımdan məmnunam. Bu hisslər mənə hardan gəlir? Bilmirəm... Heç bu barədə düşünmək istəmirəm də.

**Nihad:** Biri mən. “Kimsəsizlər evi”ndə, elə indi də o qədər qəm, kədər içərisində inlədiyim anlar olub ki. Onda özümə də, ən yaxın həmdəmimə də nifrət eləmişəm. Elə olanda beynim bulaşırdı.

*Pauza*

**Ayaz:** Hərdən xırda-xuruş fikirlərim bir-birinə elə qaynayıb-qarışır, çulğalaşır ki, halım çöyrükür. Elə bilirəm ki, məni böyük bir aysberq altına alır. Bütün bədənim lərzəyə gəlir. Öz-özümdən vahimələnirəm.

**Xatirə:** Qəribə xarakterin var. Maqnit kimi hər şeyi içinə çəkirsən.

## XVI bölüm

**Ayaz:** Hərdən düşünürəm: biz hansı əxlaqdan, mənəviyyatdan danışırıq? Hər gün televiziya kanallarında cinayətlər nümayiş etdirirlər. Əxlaq-mənəviyyat deyilən dəyərlər qalsa, bu qədər vəhşiliklər törəyərmi? Tərbiyəçi Köçərinin, direktor Nəzirənin, təşkilatçı Sadiqənin əməllərini gözləriniz önünə gətirin. Qanunlara əməl edən normal cəmiyyət bu hallara dözərdimi?

**Cəmil:** Ayə, ay Ayaz, sən nədən danışırsan? Oğlu atanı-ananı boğursa, qardaş qardaşı bıçaqlayırsa, bacı bacının başını kəsirsə və cəmiyyət də çıqqırığını çıxarmırsa, hansı əxlaqdan, mənəviyyatdan danışırsan?

**Xatirə:** Bir üzdən iraq, kişi doqquz adamı qumbarayla, tapançayla vurur, onlardan da yeddisi ölürsə, televiziya kanalları onu göstərirsə və buna rəğmən öldürən tərəfin oğlu özünü asırsa, atası onu görüb ürəyi partlayırsa, yenə də cəmiyyət susursa, daha nədən danışasan?

**Fərəc:** Xatirə düz deyir. Qanun kəsərini itirəndə cəmiyyət sözünü deməlidi. O da yoxsa, zərərçəkənlə cinayətkar öz haqq, ədalət balansını saxlamağa çalışacaq. Tək-tək adamlar fayda verəcək iş görə bilmirlərsə, onda iş qalır Allaha. Onun səbrinə...

**Nihad:** Cahil cəmiyyət. Yararsız təhsil. Bizə əxlaq-mənəviyyatdan mühazirə oxuyan hoqqabazlar, görəsən, öz əməllərinin





puçluğunu görüb özləri özlərinə gülmürlər ki?.. Əlac qalır qanunları, eşələməyə... Görəsən, ordan bir şey çıxacaqmı?!

**Xatirə:** Ayə, görəcək işlərimiz var ey. Oğul türmədə. Ana oğluna qız axtarır, nişan taxır. Sonra da qız tərəfi deyir: "Qızıma ev al. Oğlunu türmədən qurtar, yoxsa nişan üzüyünü geri qaytaracam". Qız anası yenə deyir: "Oğlunun ağsaqqalı kimdi? Biz onu tanımırıq. Gəlsin, bir onunla danışaq". Nə cavab alsa yaxşıdı: ağsaqqalı atamdı, boyunu yerə soxduğum, bizə nə pul verir, nə dəyər. Onu neyləyirsən? Sözünü mənə de, cavabı da məndən al. Sevda baş tutmayanda, qız anası oğlanın babasıyla görüşməli olur. Məlum olur ki, ağsaqqal abırlı-başlı adamdı. Oğul anasının bu qohumluğu, sən demə, qız tərəfə atmağa hesablanıb. Əlacsız qalan ata deyir:

— Qızım, bir halda ki, elədi, nə mənim elə qızım var, nə də elə nəvəm. O qanun, o da sən.

**Cəmil:** Hə... Necədi, Ayaz, sənin üçün. Kimdən inciyib, kimdən küsməliyik. Cəmiyyət içərisindəki az-çox vicdanlılara da "ölüm hökmü"nü belə verir. Qurtar əcaib fantaziyalardan.

*Dərin fikrə gedən Ayaz handan-hana boğazını arıtlayır. Dərindən nəfəs alır.*

**Ayaz:** Fantaziya və reallıq. İnsan və cəmiyyət. Həyat və şəxsiyyət.

**Nihad:** Həyat... Gözəl yaşam imkanlılara məxsusdu. Kim oğrudu, ətrafındakılara düzlük təlqin eləməyə çalışır. Dələduz qanundan danışır. Əqidəsiz ideologiyadan dəm vurur... Nələr, nələr... Gəl ayırd elə əyriləri düzlərdən.

**Firuz:** Ayə, o gün müstəntiq bilirsiz Nihadla mənə nə dedi?

**Xatirə:** Biz hardan bilək nə dedi?

**Firuz:** Dedi: a şərəfsizlər, siz korrupsiyayla məşğulsuz. Belə aformit eləyərəm, canınızı qurtara bilməzsiniz əllərdən.

**Xatirə:** Korrupsiya!!!

**Nihad:** İnanmırsız?

**Cəmil** *(zarafatla)***:** Ayə, fəxr elə ki, müstəntiqin elə adam olub.

**Nihad:** Deyirsən, yaxşı qurtarmışıq?

**Cəmil:** Doğrudan da, insan çətin məxluqdu. Bəzən ölüm də onun gözlərində heç bir şeyə çevrilir. İçinə qapanır. Onda gözlərinə heç nə görünmür. Əziz balasını da dişləriylə didməyə hazır olur. Niyə beləyik?

**Xatirə:** Cəmil, həyatı belə təsəvvür eləsəydin, doğulmaq istərdinmi?

**Cəmil:** Yoox... Bu dəhşətlər qəbirdə də bizə rahatlıq verməz.

**Ayaz:** Qəribədi, indi mənə elə gəlir ki, ölümdən qorxmuram. Hər şeyin, hər şeyin üstünə gedə bilərəm. Deyirlər, ölüm hissi çox vahiməli və qorxuncdu.

*Pauza*

Adi vaxtlar düşündüklərini, sərbəst, müstəqil qərarlar verdiklərini ölüm təhlükəsi anlarında ağlına gətirməyə macal tapmırsan.

**Xatirə:** Hə... Ancaq onda duyursan ki, yaşadığın dünya nədi?! Sən kimsən? Anlayırsan ki, sən özün özünün də deyilmişsən. Bax, həyatın əsl müəmması burdadı...

**Cəmil:** Bu dəhşətli faciələr hamımızın başına gələ bilər.

**Ayaz:** Hamının içində cinayət törətmək instinkti var.

**Nihad:** Mən onları fikirləşəndə dəhşətə gəlirəm.

**Firuz:** Eh... Ayaz elə bil, getdikcə fanatikləşir.

**Ayaz:** Sizə elə gəlir. Ən çox anam sində olan qadınların gözlərinə baxıram. Onların gözlərinin ağında kiçik qara nöqtə axtarıram. Bir də yerişlərinə, dodaqlarına diqqət eləyirəm. Anamdan yadımda qalan əsas bunlardı. Onun gözlərini, yerişlərini tam dəqiqliyilə xatırlayıram.





**Nihad:** Bu adidən adi təsəvvürlər və xatırlanmalar düşünürsən ki, öz bəhrəsini verər?

**Ayaz:** Deyə bilmərəm. Ancaq bu ötən illər ərzində mən yüz dəfələrlə, bəlkə, min dəfələrlə anamı yuxularımda görmüşəm. Onun gözlərinə, yerişlərinə çox tamaşa eləmişəm.

*Pauza*

**Firuz:** İnamın gücü, inadın davamlılığı çox vaxt adamı arzularına qovuşdurur.

**Xatirə:** Sən bizim hamımızdan fərqlisən, həssassan, Ayaz...

**Ayaz:** Bəlkə də... Dünyadan xəbərsiz, zəif, çəlimsiz bir uşağı həyatın dibinə atmaq! Ona zərbə vurmaq!.. Bunlar hansı əxlaqa, mənəviyyata ziddir! Doğrudu, anamı mühakimə elədiyim üçün mənə bu işdə vicdansız, insafsızsan deyənlər də tapılar.

**Xatirə** *(nəvaziş və canıyananlıqla)***:** Ayaz, anan barədə təsəvvürlərin çox səthidi. Onu da bilmirsən — anan hardadı? Taleyi qapanmayıb ki?

**Ayaz:** İnanmıram.

**Nihad:** Ananla sənin burulğanlı keçmişin imkan verəcəkmi bundan sonra ana-bala olasınız?

*Cəmilin sifətində hissolunmaz təbəssüm yaranır və çox tez də görünməz olur.*

**Cəmil:** Güman eləyirəm, bu, dəryada damla axtarmağa bənzəyir. Bilsəm ki, tapa bilərik, vallah, səninlə bütün küçələri, parkları gəzərəm. Bir balkon da qalmaz göz qoymadığım...

**Ayaz** *(astadan)***:** Cəmil, mən anamı yalnız özüm tapa bilərəm, başqaları yox. Yəqin onunla harda qarşılaşsam, duyğum, hissiyyatım, ümidim, inamım da mənə azdan-çoxdan kömək edər. Əlbəttə, özüm də bilirəm, bu, dəryada qızıl balıq tutmaq sevdasıdı.

**Nihad:** Anan bu şəhərdədirsə...

**Firuz:** Biz valideynlərimizin izindən-tozundan xəbərsizik. Ola bilsin ki, sənin keçirdiyin hissləri duya bilmərik. Sən isə çox dolaşıq, arzuolunmaz, böhranlı anlar yaşayırsan. *(Gözləri yaşla dolur.)* Mən səni başa düşürəm, Ayaz.

*Pauza*

**Ayaz:** Təkcə mənə təskinlik verən odur ki, maddi imkansızlıq buxovunu, az da olsa, qıra bilmişəm. Bir düz həqiqətən minlərlə yalanı bir göz qırpımında kəsir.

**Xatirə:** Həyatın iç üzü necə də cəncəllidi?

**Ayazın daxili səsi:** Xəyalən anamın qarasına gileylənirdim: Ana! Ana! *(Dərindən ah çəkir)* Məni atdığın andan indiyəcən, demək olar ki, hər gün içim göynəyir. Çox zaman insanlardan qaçıram. *(Bir anlığa yanındakıları unudur)* Ana, məni qəbul eləyə də bilərsən, eləməyə də. Mən günahsızam, üzüm yanında ağdı. Nə utanc gətirən qəbahətim, nə də qarşında xəcalət çəkəcək işim var?!

*Kadr dəyişir. Axşamçağı. Ayazla Firuz parkda gəzişirlər. Sonra da Dram Teatrının yanındakı kafedə əyləşirlər. Kofe sifariş verirlər. Əlli yaşı olar-olmaz bir qadın və iyirmi üç-iyirmi dörd yaşlı cavan qız içəri girirlər. Yanakı qoyulan stolun ətrafında əyləşirlər.*

**Firuz** *(Ayaza)***:** Oturan xanımı tanıyırsan?

**Ayaz:** O, hər gün televizorda çıxış eləyən Səma Cahangirlidi. Çox gözəl aktrisadı. Məlahətli və ecazkar səsi var. Xarakterləri çox gözəl parodiya eləyir. İmkan tapan kimi gələrik teatra. Müşahidə eləyərsən onun ifa tərzini, baxarsan yaratdığı obrazlara.

*Qadınla qız hərəsi bir fincan kofe içir və ayağa qalxırlar. Kafedən çıxırlar. Ayazla Firuz da onların ardınca. Qadınla qız uzaqlaşırlar.*





*Ayaz Firuzdan ayrılır. Kadr dəyişir. O, evə gəlir.*

*Anasının yerişini, gülüşünü və bir də sağ gözündəki ağ kiçik nöqtəni andıran qara xalı xatırlayır.*

**Ayazın daxili səsi:** Aktirisa anama necə də bənzəyir?! Aktrisa, doğrudan da, mənim anam ola bilərmi? Yanındakı qız kimdi?.. Əşi, hər kim olur-olsun. Elə bil, dəli oluram. Bu hal məndə nə vaxta qədər davam eləyəcək?.. Əcəb fikirlər, ziddiyyətlər məngənəsinə düşmüşəm. Reallıq və fantaziya; inam və inamsızlıq; həqiqət və yalan; arzu və xəyal... Nələr, nələr.

*Pauza*

Boğuluram içərisində yaşadığım daxili təlatümdə. Nədi bunlar?! Xoşbəxt gələcəyimin başlanğıcını vəd eləyən, ona ümid işığı saçan şüalar, yoxsa, bəxbəxtliyimin daha fəlakətli olacağını xəbər verən iztirablı hissiyyat?!

*Kadr dəyişir. Səhər. Hava boz-bulanıqdı. Ayazı fikir götürür. Kadr dəyişir. O, teatrın qarşısına gəlir. Teatrın qarşısındakı afişalara baxır. Afişadan oxuyur:*

“Əsgər anası” tamaşısında Səma Cahangirli Mələk obrazınıda. Tamaşa 09 aprel 2012-ci il, saat $19^{00}$-da başlanacaq”.

**Ayazın daxili səsi:** Hardansa beynimdə belə bir fikir peyda oldu: “Anamın da adı Səma idi”. Bu aktrisa mənim anam ola bilərmi?

*Ayaz kassaya yaxınlaşır. Bilet alır. Fikrirlidir. O, mağazadan aldığı bir dəstə güllə teatra gedir. Foyedə gəzir. Səma Cahangirlinin divardan asılı portretinə baxır. Cansız şəkli canlı anasıyla qarşılaşdırır. Tərəddüd eləyir.*

**Ayazın daxili səsi:** Adam adama oxşayar... Bu, mənim anam ola bilərmi? İnanmıram... Bəlkə də... nə bilmək olar?... Əcəb işdi... Lap tutalım anamdı. Bir zaman məni atan bu qadın indi məni qəbul eləyərmi?..

*Ayaz zala keçir. Ön cərgələrdən birində oturur. Mələk səhnəyə çıxır. Alqış səsləri salonu bürüyür. Ayaz aktrisaya heyrətlə baxır. Gözləri önündə gah anasıyla bağlı nişanələr, gah da Mələk obrazının yaradıcısı Səma Cahangirli canlanır.*

**Ayazın daxili səsi:** Qadın anama oxşayır. Yerişi, gəlişi, gedişi eynən anamınkıdı...

*Gərginlik Ayazı boğur. Sakit-sakit göz yaşları axıdır.*

**Ayazın daxili səsi:** Ana obrazını dərin hisslərlə, təlatümlü duyğularla, qızğın bir ürəklə oynayan aktrisa, hansı səbəbdən öz doğmaca balasını ata bilər? Görəsən, atdığı övladının keçirdiyi hissləri oynadığı obrazın xarakterinə, hərəkətlərinə gətirirmi? Doğma oğlu Ayazın hisslərini, əzab və iztirablarını ifadə elədiyi obrazın — Mələyin oğlanları Şubayın, Şirzadın timsalında verə bilirmi? Yoxsa, elə bu obrazın ifası da qondarmadı, boğazdan yuxarıdı?..

*Tamaşanın son akkordu vurulur. Aktyorlar tamaşaçılarla vidalaşmağa gəlirlər. Ayaz səhnəyə qalxır. Büdrəyir. Yıxılmaqdan özünü güc-bəla ilə saxlayır. Səma Cahangirliyə yaxınlaşır, qarşısında dayanır. Çiçək dəstəsini ona tərəf uzadır, düz gözlərinin içinə baxır. Axtardığı qara nöqtəni, xalı onun sağ gözünün ağında tapır. Ayazı dəhşət bürüyür. Həyəcanlanır.*

*Ayaz yataqxanaya gəlir. Kadr dəyişir. Komendantla qarşılaşırlar.*





**Komandant:** Ayaz, məni bağışla. O gün də dedim. Neçə gündü məni dinc buraxmırlar. Çətinliyini bilirəm. Ancaq yenə sənə deməyə məcburam. Rəhbərlikdən tələb eləyirlər ki, qeydiyyatı olmayan adamları yataqxanadan uzaqlaşdıraq. Gecələr gəlib yoxlayacaqlar. Sənin burda qaldığını görsələr, məni işdən azad eləyəcəklər. Əsməcə içərisindəyəm. Özünə yer tap, get.

*Ayaz kinayə ilə komendantın üzünə baxır. Komendant utanır.*

**Ayaz:** Çalışıb kirayə ev taparam. Mənə bir həftə möhlət ver.
**Komendant:** Olar... Ancaq məndən incimə.
**Ayazın daxili səsi:** Mən bu axşam tamaşadan sonra Səma Cahangirlini izləyəcəm. Harda yaşadığını öyrənəcəm. Onlara yaxın yerdə kirayə ev tapacam. Belə olarsa, bir yolla o xanımla da ünsiyyətə girə bilərəm.

*Kadr dəyişir. Ayaz "Əsgər anası" pyesinin tamaşasına təkrarən baxır. Tamaşa sona yetir. Teatr binasının çıxış qapısından bir qədər aralıda dayanır və Səma Cahangirlinin gəlişini gözləyir. Qadın teatrdan çıxır. İti addımlarla Murtuza Muxtarov küçəsiylə Sovetski adlanan məhəlləyə tərəf gedir. Ayaz onun bir dar dalana girdiyini müşahidə eləyir...*

*Kadr dəyişir. Səhərdir. Ayazla Firuz Səma Cahangirli yaşayan məhəlləyə gəlirlər. Qonşuların qapılarını döyürlər. Kirayə ev soraqlayırlar. Ev sahibi yaşlı Simarəylə qarşılaşırlar.*

**Ayaz:** Bizə kirayə ev lazımdı.
**Simarə:** Oğlum, onu evin kişisi bilər. Onunla danışın.
**Ayaz:** Kişini nə vaxt görə bilərik, xala.
**Simarə:** Elə indi...

*Qadın həyətdəcə kişini səsləyir.*

**Simarə:** Ay Şükür, bir qapıya çıx. Gələn var, gör nə deyir?

*Qapı açılır. Şükür köynəyinin düyməsini bağlaya-bağlaya içəridən çıxır.*

**Şükür:** Nə lazımdı, sizə?
**Ayaz:** Kirayə ev.
— Var, ancaq çox balacadı. Neçə vaxtdı əl dəymədiyindən tör-töküntülüdü. Bilmirəm, sizi təmin eləyər, ya yox.
— Mən tək qalacam, Şükür dayı. Özüm əl gəzdirərəm. Neçəyə verəcəksiz?
— Bax da, oğlum. Nəyin var, verərsən, yoxdu, verməzsən. Yatağın olacaqmı?
— Xeyr. Kirayə haqqını verəcəm.
— Onda arvada deyərəm, evdən sənə yorğan-döşək də verər... Keçin, otağa baxın.

*Ayazgil otağa keçirlər. Doqquz kvadratmetrlik otaq səliqəsahmansızdı. Həyətdə təqaüdçü Şükür kişi və onun arvadından savayı üç ailə də yaşayır.*

**Şükür:** Oğlum, haralısan?
**Ayaz** *(qəsdən yalan danışır)***:** Bakı kəndlərindən.

*Şükür kişinin gözlərində məmnunluq hissi oxunur. Bununla belə, diqqətlə baxanda, onun gözlərində qırıq-qırıq tərəddüd duyulur.*

**Ayaz:** Sizə sənəd göstərmək lazımdımı?
**Şükür** *(astadan)***:** İnamsız adam qəlbsiz olar. İnsanlığını “hup” demədən rəzilliyə dəyişər. O isə ləyaqətə, heysiyyətə tüpürməkdi.





— Şükür dayı, bizimki tutdu. Mən nə vaxt çantamı gətirə bilərəm?

*Pauza*

— Oğlum, buranın şərtləri var. Əvvəlcə onu qəbul elə. Sonra razılaşaq... Cavan oğlansan, bura yad, fintiyuruş qız-mız ayağı dəyməməlidi. Araq-çaxır içilməməlidi. Kobud danışıq qadağandı. Bir sözlə, düz gəlib, düz getməlisən.
— Onları da qəbul elədim. Nə vaxt qüsura yol versəm, məni çölə ata bilərsən.

*Pauza*

**Simarə:** Əşi, uşağı çox sıxma-boğmaya salma. Nəvən yerindədi. Bərkə duranda, qulaqburması verərsən, yığışar.
**Şükür** *(Ayaza)***:** Eşitdin, oğlum, arvad nə dedi?
**Ayaz:** Eşitdim.
— Onda, mən Simarəyə deyərəm, bu gün ora əl gəzdirər. Sabah nə vaxt istəyirsən, gəl.

*Ayazla Firuz gedirlər.*

**Firuz:** Bura yaxşıdı. Tək əlin, tək başın. Səni narahat eləyən olmayacaq. Çalış, məvacibinə qənaət elə. Qorxma, biz ölməmişik ki?
**Ayaz:** Özgə cibinə göz dikən, ac qalar.
**Firuz:** Bərk ayaqda nəzərə al.
**Ayaz:** İstədiyim yar idi, yetirdi pərvərdigar.

*Kadr dəyişir. Səhəri gün Ayaz gəlir. Otaqda yerləşir. Simarə həyətdə samovar çayı qoyur, dəmləyir.*

**Simarə** *(qonşulara)***:** Samovar çayı hazırdı. Kömürlə qaynatmışam. Kimin susuzluğu var, stəkan-nəlbəkisiylə buyura bilər.

*Qonşular əllərində stəkan, qənd, konfet, limon gəlirlər.*

*Qonşularla tanışlıq başlanır. Şükür kişi qonşularla Ayaz arasında xoş, səmimi və mehriban münasibətlər yaratmağa çalışır.*

**Şükür:** Qonşular xoşuna gəlirmi?

**Ayaz:** Niyə də gəlməsin? Hamısı mehriban, səmimi. Diqqətli, qarşısındakı adama hörmət qoyan, nəvaziş göstərəndilər. Narazılıq olanda gərək mən özüm şələ-şüləmi yığıb gedəm. Yersiz gəldi, yerli qaç olmayacaq ki?

**Şükür:** Simarə xalan necə?

**Ayaz:** O, xala deyil, Şükür dayı, anadı. Əsl ana.

**Simarə:** Bu məhlədə hamı bir ailənin üzvüdü.

**Şükür:** Mən də mehribançılıq istəyirəm. Heç vaxt bu məhlədən səs çıxmayıb.

*Pauza*

**Simarə** *(Ayaza)***:** Cavan oğlansan, niyə evlənmirsən? Uzatma. Çalış, bu il toy elə. Biz də gələk toyuna. Sındıra-sındıra süzək.

**Ayaz:** Eh... Simarə xala, siz nə danışırsız? Evsiz-eşiksiz nə evlənmək? Orda-burda güc-bəlayla iş tapıram. Az məvacib alıram. Elə adamlar var ki, qan-tər axıda-axıda qazandığımızın da quyruq-qanadını kəsirlər. Aldığım bəzən qarnımı doyurmur. Üstəlik də ki kirayənişin yaşamaq.

## XVII bölüm

**Şükür:** Kirayənin pulunun dərdini çəkmə. O da qurban olsun sənin kəkilinə.

*Pauza*

**Səma:** Atan, anan nə əcəb səni şəhərə tək buraxıblar? Qorxmurlar?





*Söz Ayazı tutur. Ancaq özünü o yerə qoymur.*

**Ayaz:** Nədən?

**Səma:** Şəhərdə o qədər anasının əmcəyini kəsənlər var ki.

*Ayaz çaşır. Nə deyəcəyini bilmir.*

**Ayaz** *(uydararaq)***:** Atamın üzünü görməmişəm. O, cavankən dünyasını dəyişib. Anamsa xəstədi. Ona bacım baxır. Dedilər, şəhərdə kabab bişirirlər, gəldim kabab iyinə, gördüm eşşək dağlanır. Nə özümə bir şey eləyə bilirəm, nə də anama dava-dərman pulu göndərə.

*Hamının nəzərləri Ayaza dikilir. Səmanın sifəti bozarır. Sualının yersizliyini hiss eləyir.*

**Simarə:** Deyəsən, sən də ana sevənsən. Anasız nəinki düşmənim, heç canavarın da balası olmasın. Anasızlığın dadını çox dadmışam.

*Şükür kişi başını yelləyir. Bir qurtum çaydan içir.*

**Şükür:** Bəs anasız bala neyləsin? Dünyanı quran elə qurub ki... Həm də heç atanı sayan yoxdu.

*Ayaz Səmaya və onun yanında əyləşən qızı Səmraya gözucu baxır.*

**Ayaz:** Nədənsə analar qızlarını çox istəyirlər.

*Səma udqunur. Solğun sifətində güclə seziləcək cizgilər bir-birini əvəzləyir. Qız qalxır və evə gedir.*

**Simarə:** Eh... Oğlum, qız nədi, oğlan nədi? Hər ikisi ananın bətnindən gəlib. Hər ikisi ananın qanı, canı, ruhudu.

**Ayaz:** Bəlkə, Simarə xala, qız köçəri quşdu, gedəsi qonaqdı, analar ona görə...

**Simarə:** Eh... Saqqalın ağarsın. Cavan oğlansan, gör nədən şikayətlənirsən? Olmaya, bacına qarşı qısqanclıq hissi yaranır səndə.

**Şükür** *(dərindən köksünü ötürür)***:** Bacı qardaşın namusudu... Belə olan tövrdə nə qısqanclıq?

**Ayaz:** Yaxşı xatirimdədi, dörd-beş yaşım olanda anam məni Bakıya xəstəxanaya gətirmişdi. Axşam tərəfi o, məni Sahil parkına apardı. Xeyli gəzdik. Adamların toplandığı yerə gəldik. Beş yaşı olar-olmaz, əlində "Snikers", su qabı və yarım paçka peçenye tutmuş bir oğlan için-için ağlayırdı. Adamların suallarına cavab verməsə də, sonra dili açıldı: "Anamı verin!" "Anam mənə dedi, burda dur, gəlirəm", "Anam getdi", "Gəlmədi...". O zaman gördüklərimi indi də unuda bilmirəm.

*Pauza*

**Simarə:** Əsəbiləşmə, Ayaz, sonra nə oldu?

**Ayaz:** Polisin "Kimin var?" sualına o, "Balaca bacım" cavabını verdi. O zaman düzgün anlamasam da, indi məndə belə təsəvvür yaranıb ki, analar qızlarını sevirlər. Görürsüz, ana oğlu atır, qızı tutur.

*Ayaz Səmanın üzünə ötəri baxır. Qadının solğun yanaqları qızarır.*

**Şükür** *(diksinmiş halda)***:** Sən nə danışırsan? Barəsində danışdıqların öz gözlərinlə gördüklərindi, yoxsa, eşitdiklərin?..

**Ayaz:** Axı dedim, gözlərimlə görmüşəm.

**Şükür:** O, ana deyil, şeytandı. Necə yəni, uşağı küçəyə at, qaç. Bəyəm, uşaq pişik balasıdı? Ya küçükdü? Bütün bədənim





titrədi... Elə ananın gülləsi əskikdi.

*Səma sanki deyilənləri eşitmir. Elə bu vaxt qızı da qayıdır.*

**Simarə** *(yana-yana)***:** Eh... Oğlum, Allah o qədər canlı yaradıb, töküb çölə-bayıra ki...

**Şükür:** Doğub-böyüdüb, boya-başa çatdırası uşağını ana küçələrə atırsa, ya ona sahib durmayıb, hələ özgələrə demirəm, doğmalarına ötürürsə, o şəxsin adı...

*Pauza*

**Simarə:** Doğma balasına sədaqət göstərməyən qadından etibar gözləmək olmaz. Saxlamırdı, aparıb öz əllərilə hökumətə təhvil verəydi.

**Şükür:** Elə olsaydı, hərdənbir gedib ciyərparasını yoluxsaydı, bəlkə də övlad anasını bağışlayardı.

**Ayazın daxili səsi:** Səma həqiqətən də mənim anam olacaq. Necə də həyəcanlanır?! Necə də udqunur? Sir-sifəti ağarır? Ölüb-dirilir. Bəli, bizi Allah özü qarşılaşdırır, yoxsa hisslər, duyğular bizi belə çəkə bilməzdi...

*Səma stəkan-nəlbəkisini götürərək evə gedir. Handan-hana geri qayıdır və üzünü qızına tutur.*

**Səma:** Səmra, bayaq rəfiqən telefon açmışdı, bir ona zəng çal, yəqin sənə deyiləsi sözü var.

*Səmra dərhal ayağa qalxıb evə gedir.*

**Ayaz** *(söhbətin səmtini dəyişərək)***:** Elə şeylər çox olur... Saxlaya bilməyib, orda qoyub ki, onu hansısa vicdanlı adam "Kimsəsizlər evi"nə versin, ya da aparıb saxlasın.

**Şükür:** Necə yəni, başqası "Kimsəsizlər evi"nə versin, ya

aparıb saxlasın? Lap əsəbiləşdirdin məni.

**Simarə:** Ürəyim ağrıdı.

**Şükür:** Da gör nə var. Bizi işə salma.

*Gülüşürlər.*

**Simarə:** Əşi, onu eləyənin Allahı var?.. Qızışıb, yüz hoqqadan çıxırlar... Uşağı dünyaya gətirirlər. Sonra da atırlar. Doğma bacım o qələti eləsəydi, boğazını dişlərimlə üzərdim.

*Pauza*

**Şükür** *(əsəbi halda)***:** Dünyanı, bütün kainatı öyrənməyə səy göstərən, nüvə silahları, ballistik raketlər, elektron cihazları kəşf edən insan özünü dərk eləməyi ağlına da gətirmir. Kimə nə deyəsən? Bu, bəşəriyyətin bəlasıdı, oğlum. Ağlının əzəmətindən, idrakının möhtəşəmliyindən dəm vuran insanın şüuru sivilizasiyaların toqquşduğu zamanda gör nə ilə məşğuldu?

**Simarə:** Vay! Vay! Vay! A kişi, gör nə günlərə qalmışıq?!

*Ayaz Səmanı sezilməz dərəcədə diqqətində saxlayır. Səma isə özünü itirir.*

**Ayazın daxili səsi:** Söhbətə bu cür başlamaqda düz elədim, yoxsa səhv? Tələsmədim ki? Bu yerdə istiqanlılıq, çılğınlıq lazım idimi? Bu illər ərzində, ehtiyacım olanda anam məni axtarmayıbsa, indi onu gəzib-dolanıb tapmağıma lüzum vardımı? Bu, mənim ağlımın bolluğudu, yoxsa kasadlığı? Ona görməzə-bilməzə, — Sən mənim anamsan, — desəm, o, dediklərimə inanarmı? Bəli, hisslər coşanda, emosiyalar zirvələr fəth eləyəndə ağıl öz məhvərindən qopur. Mən hələ dəqiqliyilə bilmirəm, həqiqətən də o, mənim anamdımı? Bəlkə, hissə qapılıram? Bəlkə, mən Səmanı öz anamla dəyişik salıram?..

*Pauza*





**Şükür:** Adam, elə şeylər eşidir... Az qalır, yaşadığı cəmiyyətə nifrət eləsin.

**Səmra:** Bu işdə cəmiyyətin nə günahı?

**Şükür:** Böyükdü, arvad. İnsan cəmiyyətdə formalaşır.

**Səma:** Həyat adamı çox şeyə məcbur eləyir.

**Şükür:** Yox... O, bəhanədi.

**Ayazın daxili səsi:** Aman Allah, bəlkə, o, bizim — mənim və anamın başına gələn vaqiə eynilə Səmanın da başına gəlib? Mən də korafəhmlik eləyirəm? Yapışmışam bu zavallının yaxasından. Qəribə adamam... Haqdı-nıxdı, içimdə onu günahlandırıram. Səmanın sinəsinə qat-qat çökən qəm, qüssə, kədər yükü gözlərindən duyulur. O, üstünə qalaqlanan dərd-sər qatlarının altında inildəyir. Əlbəttə ki, bunu mənə hissiyyatım diqtə eləyir.

*Kadr dəyişir. Qonşulardan heç kəs gözə dəymir. Ayaz həyətdə qəzet oxuyur. Səma evdən çıxır.*

**Səma:** Burda niyə tək oturmusan, Ayaz?

*Pauza*

**Ayaz** *(qəsdən)***:** Bərk darıxıram, Səma xanım. Həyət-baca bəzən mənə dar gəlir. İşim ağırdı. Təzə iş yeri axtarıram.

**Səma:** Gəlin evə, bir azdan Səmra da gələcək.

*Ayaz əlində qəzet Səmagilə gedir. Yumşaq kreslода əyləşir.*

**Ayaz:** Səmra nə əcəb evdə yoxdu?

— Rəfiqəsilə dükan-bazara çıxıblar. Cavan qızdı, ona da iş tapa bilmirəm ki, heç olmasa, başı qatışsın. Evdə oturub çox küskünləşir...

— Hə... Düz deyirsiz, işsizlik çətindi. Özü də cavan olana.

— İstədim, öz yanımda işə düzəldim onu. Nə qədər elədim getmədi... Uşaqlıqdan bir az ərköyün böyüyüb. Nə qədər bala-

caydı, mənə o qədər də çətinlik düşmürdü.

*Pauza*

Gündüz gedirəm məşqlərə, axşam da tamaşalara. Ürəyim qalır evdə. Baxma, böyük qızdı, hər şeyi başa düşür.

— Deyəsən, Səmranı çox istəyirsiz?

*Səma gülür. Başını yelləyir. Səsinə ara verir.*

— Övladdı da... Onu istəməmək olarmı, Ayaz?

— Elə analar var, uşaqlarını atırlar. Sizin kimi canıyananlar... Belə çıxır ki, atanlar uşaqlarını istəmirlər?

— Ətindən, qanından olanını kim istəməz ki?

*Səmanın sifəti yenə haldan-hala düşür. Gözlərinin lap dərinliyində tərəddüdqarışıq həsrət, həyəcan dolu anlaşılmaz hisslər oyanır. Özü də hiss eləmədən sinəsi qalxıb-enir.*

— Ayaz, o gün sən bir atılmış beş yaşlı uşaq barədə danışdın. Doğrusu, o uşağa mənim yazığım gəldi.

— *(Gülümsünərək)*: Anası dura-dura, uşağa sizin yazığınız niyə gəlsin? Atanda ana bilməliydi ki, uşağını öz əllərilə dəfn edir. Övlad qatili olur...

*Səma dərindən nəfəs alır. Gözləri ani olaraq pəncərəyə dikilir.*

— Görəsən, o uşaq salamatdımı?

— Nə bilmək olar? O taleyin qismətidi. Yoxsa, uşağı...

— *(Həyəcanını boğaraq)*: "Kimsəsizlər evi"ndə elə uşaqlar çox olar?

*Pauza*

— Məktəbdə oxuyanda bizi "Kimsəsizlər evi"ndə yaşayan





uşaqlarla görüşə aparmışdılar. Orda əlli-altmış, bəlkə də çox uşaq vardı. Onların aralarında elə uşaqlar var, ata-analarını lap körpə ikən itiriblər. Elələri var, ataları yoxdu. Elələri də var, anaları. Ancaq atalı-analı uşaqlar da orda yaşayırlar.

— Sağ olsun hökuməti, qayğı göstərir, onları tərbiyə eləyir, cəmiyyətə qaytarır.

— Nə danışırsız, xanım? Cəmiyyətə qayıdan mindən biridi. Çoxu küçə araşdırmalarıyla məşğuldu.

*Pauza*

— *(təəccüblə)*: Küçə araşdırmaları nədi, Ayaz?

— Küçədə iş gəzənlər. Baş qoymağa yer axtaranlar.

— Yazıqlar...

*Pauza*

— Onlar dolana bilmirlər, oğurluqlar, basqınlar eləyirlər, xanım!.. Bir çoxlarını da polis özü cinayətə təhrik eləyir. Gedib düşürlər türmələrə. Valideynlər doğma balasını əjdaha ağzına atacaqdılarsa, onları dünyaya niyə gətirirdilər? Adamı yandıran, bax, budur.

— Sən danışanda, Ayaz, adamın içi silkələnir.

— Silkələnsə də, silkələnməsə də, həqiqət budur, xanım.

— Həyat adama hər cür maska taxdırır.

— Bəli! Təəssüf ki, belə ata-analar var.

*Səma başı ilə Ayazın dediklərini təsdiqləyir.*

— Səni anlayıram, Ayaz.

— O uşaqların hamısı, mən deyərdim ki, ata-anaların çılğın ehtiraslarının, dar düşüncələrinin qurbanı olurlar. Atılan o günahsız uşaqları danışdıranda bilirsiz, nələr üzə çıxır?

— Yox...

— Biri: "Mən atamın üzünü görməmişəm, anam deyirdi, ölüb", ikincisi: "Anam məni aldadıb", üçüncüsü, bir başqa söz

deyir. Adamın ayaqları yerdən qaçır, Səma xanım... Şəxsən mən bir oğlandan soruşdum: "Qaqaş, anan yalançıdı?".

*Pauza*

O, duruxdu. Əvvəl mənə cavab vermək istəmədi. Sonra dedi: "Anam məni aldadıbsa, deməli, yalançıdı. Onu gizlətməyimin mənası varmı? Mən elə ananı istəmirəm. Deməli, atam anamı, anam da məni atıb".

*Ayaz səsinə ara verir. Səmanın üzünə ötəri baxır. Qadının kirpiklərində, bəbəklərində yaş gilələnir. Daxili sarsıntı keçirir, əsəbiləşir.*

*Qapı açılır. Səmra evə bir oğlanla gəlir. Səma ayağa qalxır, oğlana oturmaq üçün yer göstərir.*

**Səma:** Səmrayla bir sinifdə oxuyublar. Adı Güloğlandı. O vaxtdan dostdular. Bizə gəlib-gedəndi.

*Ayaz özünü qəsdən eşitməzliyə vurur.*

**Səmra:** Ana, sənə deyiləsi sözüm var. Yan otağa gecə bilərikmi?

*Səma ayağa qalxır.*

**Səma:** Hə, gəl görüm, yenə nə bicliyin var?

*Ayazla Güloğlan otaqda tək qalırlar. Güloğlan Ayaza acıqlı-acıqlı baxır.*

**Ayaz:** Mənə niyə elə baxırsan?

**Güloğlan:** Tək qadın olan evə ləyaqətli yad kişi ayaq basmaz.

**Ayaz** *(acıqlı)***:** Hə, yaxşı dedin. Onu bilmirdim.





**Güloğlan:** Sən bu həyətdən yığışıb getsən yaxşıdı...

**Ayaz:** Niyə?

**Güloğlan:** Qanmırsan?.. Görürsən, həyətdə cavan qız var.

**Ayaz:** Neyləyirəm ki?

**Güloğlan:** Mənə qəzəl oxuma. Yerini-yurdunu dəyişik salanı bıçaqla yorturlar.

*Ayaz diqqətlə Güloğlanın üzünə baxır. Sonra başını yelləyir.*

**Ayaz:** Kişilənmə. Çaxır tünd olanda qabını çatladır.

**Güloğlan:** Mən öz sözümü dedim. Özün də şit-şit xanımlara irişmə. Yığış, əkil burdan. Yoxsa...

*Səmayla Səmra otağa qayıdırlar.*

**Səmra** *(Güloğlana)***:** Hə, getdik. *(Səmaya)* Bizdən nigaran qalma. Ola bilər, bir az gecikək.

**Səma:** Yaxşı... Çalışın, çox gecikməyin. Şəhər çalxalanır. İt-qurdla qarşılaşarsız.

**Güloğlan:** Çalışarıq.

*Güloğlanla Səmra gedirlər. Araya ani sükut çökür.*

**Səma:** Əsəbi görünürsən. Olmaya Güloğlan xatirinə toxunacaq söz dedi.

**Ayaz:** Yoox...

**Səma:** Bayaqkı söhbətimiz yarımçıq qaldı.

*Pauza*

**Ayaz:** Həyatdı, Səma xanım. Hərənin bir güzəranı olur. Gərək ona qatlaşasan. Qatlaşmadınsa...

**Səma:** Qatlaşmaq təslimçilikdi, Ayaz.

**Ayaz:** Həyat xoşbəxtlikdən çox, bəzən adama bədbəxtlik təl-

qin eləyir. Onun da sonu cinayətlə qurtarır...

**Səma:** Həyatda bədbinlik faciəyə aparır.

**Ayaz:** Əslində, həyat barədə ikimiz də eyni qənaətlərə gəlirik, Səma xanım.

**Səma:** Məncə, ömür sevinclə kədərin növbələşməsidi.

*Ayaz düşüncələrə dalır. Bir an "Kimsəsizlər evi"ndəki həyatını xatırlayır. "Kimsəsizlər evi"nə gəlişi, Nərminlə görüşü, Fərəclə dava-dalaşları, Köçərinin, direktorun ölümü, Sadiqənin ifritəliyi, "Kimsəsizlər evi"ndən xudafizləşmələri... gözləri önündə canlanır.*

— Kimlər hardan, necə törədir balıq kimi dilsiz-ağızsız kimsəsizlərin ömür-günlərinə yazılan bu cinayətləri? Axı niyə onlar belə cəzalanmalıdırlar? Bəs, hanı kimsəsizlərin Allahı?

— Yox... Elə danışma, Allahın qəzəbinə düçar olarsan.

— O varsa, niyə zalımlara, qaniçən əclaflara yerlərini göstərmir?

*Pauza*

— Oyy... Ayaz, bu qədər aqressiya?! İnsanlara bu qədər nifrət səndə hardandı?

— İnsafsız valideynlərdən.

— Bu aqressiya səni məhv eləyə bilər.

— İndi siz deyin, Səma xanım, günahsızlara tətbiq olunan cəzaların qarşısını alanlar olacaqmı?

— O heç vaxt olmayacaq. Dünya yaranandan, Ayaz, insanlar ədalət axtarıblar. Heç vaxt da tapanmayıblar.

— Bəlkə, zalımla zavallının himayədarları başqa-başqadı. Hamı — haqlı da, haqsız da günahkar axtarır. Yaxşı, kimdi o günahkar, Səma xanım?





## XVIII bölüm

— Həyat zülmlər üzərində qurulub. Dünya məhvərindən çıxıb. Zalımla zavallının düşüncələri, haqları elə qarışıb ki, onları ayırmaq çox zaman müşkül işə çevrilir.

*Pauza*

— Bəli! Zalım da öz Allahını çağırır, zavallı da. Həmişə də güclü kimdi, qalib də o olur. Budurmu axtardığımız o ədalət, o haqq?! Fikirləşdikcə, məni dəhşət bürüyür. Kimə inanım? Əgər inancımda çatlar yaranırsa, kimdi günahkar? Yenə mən?! Çox gülməlidi, Səma xanım.

*Pauza*

— İnsanlıq missiyasını üzərinə götürənlər insanları faciələrə düçar eləyirlərsə, eyni cinslilərin nikaha girmələrinə rəvac verirlərsə, hansı ləyaqətdən dəm vurasan? Əgər əxlaq və mənəviyyatın keşikçisi taleyi ona tapşırılan bir qızın bakirəliyinə təcavüz eləyirsə, düşünən başlar o cinayətə susurlarsa, kimsəsizlərin hüquqlarının qorunması qeydinə qalmalı olanların yaşamaq haqları varmı? Nərmin kimi, Xatirə kimi, Tamam kimi, Xanım kimi, Nazlı kimi... Neçə-neçə arxasızlar kimi!.. Aman Allah...

— Ayaz, sən nələrdən danışırsan? Nərmin kimdi, Tamam kimdi?.. Səni dinlədikcə, mən dəhşətə gəlirəm...

— Nahaq. Yaxşı, olardı ki, hər kəs özünə baxsın.

— Mən səndən şübhələnməyə başlayıram, Ayaz...

Ayazın qulaqlarında riyaziyyat müəlliminin uşaqlara dedikləri cingildəyir: "Sizin əksəriyyətinizin taleyi türmələrdən keçəcək... Qızların bir çoxları kimlərinsə əllərində oyuncağa çevriləcəklər. Ən ağır cinayətləri sizin üstünüzə ata bilərlər... Bəli! Vaxt çoxdan yetişib.

*Səma sözünə davam eləyir.*

— Sən nə danışırsan Ayaz? Yoxsa, mən yuxu görürəm?

*Pauza*

— Danışdıqlarım yuxu olsaydı, nə vardı ki. Mən olanları deyirəm, Səma xanım.

— Bəlkə uydurmadı?

— Belə uydurma olmur, Səma xanım.

Ayazın qulaqlarında riyaziyyat müəlliminin sözləri cingildəyir: "Sizi cəmiyyət çətin qəbul eləyəcək.... Ən ağır imtahanlarınızı cəmiyyətlə üz-üzə dayananda verməli olacaqsız. Onda kimliyinizi dərk eləyəcəksiz. Hər şeyi çılpaqlığıyla görəcəksiz. Üzünüzə güləcəklər. Bilirsiz niyə? Fiziki gücünüzdən geninəboluna istifadə eləmək üçün. Sizi addımbaşı aldadacaqlar... Alçaldacaqlar. Adam yerinə qoymayacaqlar. Yanıram-yaxılıram, sizin barənizdə düşünəndə...".

— Aaa... Bu, vəhşilikdi ki? Həyatda çox şey olur, Ayaz. Hər olanı dilə gətirmək düz deyil.

— Həqiqəti açıqlamaq nə vaxtdan qəbahət olub?

— Çəlimsiz uşaqlar nə qanırlar ki?

— Dilsiz-ağızsızları doğmaları aldadıblarsa, indi də onlar arsız-arsız övladlarını bircə dəfə görmək həsrətiylə yaşayırlarsa, niyə də özgələr aldatmağa cəhd eləməsinlər?!

— Ayaz, doğrudan da atılmışlar o əzab-iztirablarla yaşayırlar?

— Hə...

— Aman Allah, nə böyük, böyük olduğu qədər də nə acı həqiqət!

— Bəli! Səma xanım! Həyat çoxüzlüdü. Hər üzü də rənglərin qarışığından alınan bir çalar!

— *(Qəsdən)*: Bir əxlaqsız elə cinayətlər törədirsə, yaxşıların nədir günahı, Ayaz.

— Əxlaqsızların bənizi görünür, içi yox. Qurcaladıqda, üfunətləri baş çatladır.





— Çox dərinə gedirsən. Səhhətini nəzərə al.

— Dünyada yaxşı nə varsa, insanlıq üçündü. İnsanlığa xidmət eləməyən hər şeyə nifrət eləyirəm.

— Nifrətlə işlər qaydasına düşürmü?

— Yoox, xanım, düşmür, düşməyəcək də. Heç olmasa, qəzəblə, nifrətlə zərər çəkənlər içlərini boşaldırlar. Bunun özü də qanana təskinlikdi.

— Ooy... Qanana!

— Ana balasını atırsa, kimə inanasan və yaxşını pisdən necə ayırasan? O zaman uşaqların bir çoxu hadisələri tam anlamasa da, düşünürəm, indi onun mənasını başa düşürlər və özlərinin fəlakətlərini anlayırlar. Deməli, uşaqların acı taleləri bütün rakurslardan görünürmüş...

*Pauza*

— Ayaz, belə çıxır ki, uşaqlar o zamanlar tövləyə salınmış quzular imiş. Yoluna çıxacaq canavarlardan xəbərsiz ot-əncər yeyə-yeyə bıçağa hazırlanırmışlar.

— Bir dəfə biz "Kimsəsizlər evi"nə getmişdik. Orda gözətçi işləyən yaşlı Nuru kişi kövrələrək bilirsiniz nə dedi, Səma xanım?

— Yox... Mən hardan bilim?

— Cavab istəmirəm, xanım.

*Riyaziyyat müəlliminin sözləri Ayazın qulaqlarında cingildəyir.*

"Oğlum, kimsəsizləri görəndə sel-suya dönürəm. Sanıram, damarlarımda qanım donur. Çünki hamı kimsəsizlərdən istifadə eləməyə çalışır. İş yerlərindəkilər bir cürə, cəmiyyətdəkilər başqa cürə. Özlərini gərək ehtiyatlı aparalar. Zirək olalar. Onları açıq-açığına cinayətə sürükləyəcəklər. Oğrular oğurluqlarını, basqınçılar basqınlarını, adam öldürənlər öldürdüklərini on-

ların üstünə atacaqlar... Gərək ayıq olsunlar, hər deyilən sözə inanmasınlar. Şübhələndikləri adamlardan, başqa sözlə, Allahsızlardan qaçınsınlar...".

*Pauza*

— Sən çox xatalı şeylərdən danışırsan, Ayaz.

— Xahiş eləyirəm sözümü kəsməyin... Doğrudur, mən o zamanlar çox şeyin mahiyyətinə varmasam da, özlüyümdə götür-qoylar eləyirdim. Sonralar əcaib hadisələrlə qarşılaşırdım. Biliklərim zənginləşdikcə, həyatın tamamilə başqa bir örtükdə olduğunu anladım. Bu anlamlar mənə çox şey verdi. İnsanların sifətini açıb tökdü. Sən demə, doğrudan da, biz quzularıqmış...

— Məni dəli eləyirsən, Ayaz.

*Pauza*

— Acı da olsa, həqiqət budur. Çox çəkmədi ki, özüm baş verənlərin şahidi oldum... İndinin özündə də adamlardan qorxuram, çəkinirəm.

— Ayaz, axı, niyə belə oluruq biz insanlar?! Kefimiz yuxarı olanda, deyirik, həyat nizamlıdı.

*Pauza*

— Doğrudur, digər canlılar üçün həyat nizamlıdır: eyni cinsdən olanlar özlərini didmir, parçalamır. Bəs biz insanlar? Yoxsa, — Həyat nizamlıdı — deyiminin bizə heç təfavütü yoxdur?

*Pauza*

— Eh... O qədər qarışıq, qaranlıq şeylər var. Adam fikirləşəndə başını itirir, Ayaz. Hərə bir tərəfdə öz mənafeyini güdür. Hamısı da əclaflığı yazıqlara əta eləyir. Hamısı da oğrular, basqınçılar, dələduzlardı?! Zeynəb qarı o zamanlar bizə deyirdi: "Ehtiyatlı olun!" Bəlkə, qarı — Ağıllı olun — deyəydi. Əgər kimsəsizləri udmağa cəhd eləyən cəmiyyət cinayətkardısa, istədiyi vaxt "ovlarına" çıxacaqsa, o zavallıların "ehtiyatlı" və ya "ağıllı", "zirək" olması məhv edilən həyatlarını əclaflar əlindən qurtaracaqmı? İndi siz deyin, Səma xanım...





— Onlar bu düşüncəylə hara gedə bilərlər, Ayaz? Niyə başa düşmürlər ki, içərisində yaşadıqları cəmiyyətə qarşı çevrilməklə yalnız özlərini fəlakətlərə yuvarlayarlar. Özlərini məhv eləyərlər. Bəyəm, onlar dünyanı düzəldəcəklər?! Onsuz da insanlar bir-birilərini udurlar. Bu, tarixən belə olub. Çox güman ki...

*Pauza*

— Mən çoxüzlü, riyakar dünyanın gərdişində rəqs eləyən insanları görəndə dəhşətə gəlirəm, Səma xanım.

— Dönə-dönə sənə deyirəm: "İnsanlara bu qədər nifrət səndə hardandı, Ayaz?".

— Dünyaya övlad gətirib, onu küçük balasıtək tin-bucağa atanlardan, doğduqlarından yaxa qurtarmağa çalışanlardan, adını "ana", "ata" qoyan əclaflardan...

— Sən nə yaman yanıqlısan, Ayaz?

— Siz elə deyəndə, mən əsəbiləşirəm, Səma xanım!!.

— Mən insanam! — missiyasını üzərlərinə götürən hiyləgərlər, dələduzlar, ziyalılıq iddiasında olan alçaqlar başkəsənlik eləyirlərsə, kimə nə deyəsən?!

*Ayaz həyətə çıxır. Səma da onun ardınca. Şükür kişi gəlir.*

**Ayaz:** Şükür dayı, salam.

**Şükür:** Salam, oğlum. İşlərin necədi? Darıxmırsan ki? Yaman fikirli görünürsən. Ayə, ay Ayaz, yüz fikir bir borcu ödəmir. Fikir fəsad gətirər. At başından lazım olmayan şeyləri...

*Pauza*

— Qəzetləri vərəqləmişəm. Ola bilər. Elə şəxsi şeylərdən yazırlar, adam onları oxuyub əsəbiləşir.

*Pauza*

— Özümüz özümüzə qənimik. Qəzet dedin, yadıma düşdü. Qəzetlərdə elə yüngül-düngül, hoqqulu məqalələr yazılır ki, adam az qalır özünə də nifrət eləsin. Əşi, oxucunun nəyinə gə-

rəkdi, kim nə təhər adamdı? Kim kimi aldı, kim kimi boşadı? Görəsən, barələrində danışılanlar nə deyirlər yazanlara?

— Mənə elə gəlir ki, faktları elə o adamlar özləri verirlər, Şükür dayı.

— Niyə?

— Gündəmdə olmaq üçün.

*Kadr dəyişir. Güloğlan gəlir. Səssiz-küysüz iti addımlarla Səmra, Şükür kişi və Ayazın yanlarından keçib Səmagilə gedir.*

**Şükür** *(Ayazdan soruşur)***:** Bu uzunqulaq kimdi, əə? Adama salam verməyi də bacarmır. Tutasan qulaqlarından, it kimi qovasan qapıdan.

**Ayaz:** Allah hərəyə bir ağıl verib.

*Ayaz başını yelləyir. Şükür kişi əsəbiləşir.*

— Səma bu gedəni niyə başından rədd eləmir, bilmirəm.

**Simarə:** Bu gədə, bir-iki dəfə də gəlib-gedib məhləyə. Heç düz adama oxşamır.

**Şükür:** Belə getsə, dəlixanalıq olacam.

**Simarə:** Allah eləməsin. Hər gün it-qurd əlindən...

*Bu vaxt Səma xanım evdən çıxır.*

**Şükür** *(Səmaya)***:** A qonşu, bu gədənin salamla arası yoxdu, deyəsən? Ona salam öyrətmək sizə qalacaq...

**Səma** *(mızıltılı səslə)***:** Danışaram özüylə.

**Şükür:** Doğrusu, mənim o gədədən heç xoşum gəlmir. Belə bir təhərdi ey. Elə qonaqdan olmasa, yaxşıdı.

**Səma:** Qonaqdı da.

**Şükür:** Elə qonaqdan olmasa yaxşıdı.





**Səma:** Səmrayla bir sinifdə oxuyublar. Gəlib, onu yoluxsun.

*Pauza*

**Şükür:** O gün də gəlmişdi. Sən evdə yox idin. Xeyli söhbət elədilər... Əşi, vaxtı ilə oxumusan, adama deyərlər, indi nə itin azıb başqasının evində?

**Səma:** Necə deyim ki, qapıma gəlmə...

**Şükür:** A Səma, vallah, sənin xatirini çox istəyirəm. Ona görə də, yeri gəlib, deyəcəm, odla pambığın nə əlaqəsi? Sonra peşman olarsız.

*Açıq qapıdan söhbəti eşidən Səmra həyətə çıxır.*

**Səmra:** Evimizə gələn qonağa da sizdən izin almalıyıq, Şükür dayı?

**Simarə** *(dərhal)***:** Məhlə tək sizin deyil, qızım.

*Şükür kişi tutulur.*

**Şükür:** Yox, qızım, yox... O gədəyə heç fikir vermisən? Nə qədər sırtıqdı. Adama yovuşmazdı.

**Səmra:** Bilməmişdik, evimizə gələn qonaq üçün gərək sizdən viza alaydıq.

**Simarə:** Onun səndən aldığı viza anana baha başa gələcək.

**Şükür:** Elə bil, bizim də onun dədəsinə borcumuz var. Mən istəyirəm məhləmə normal adam ayaq bassın. Bəyəm, ona mənim hüququm çatmır?

**Səmra:** Hüquq! Hüquq! Yekə kişisən, onda Ayazı da çıxar qapıdan... Bəlkə, sənə Ayaz qoyub bu qazı?

**Ayaz** *(dərhal)***:** Hə... İşə düşdüm.

**Səma** *(qızına)***:** Sən get evə, qapını ört, səsin çıxmasın.

**Səmra:** Güloğlan bu məhləyə gəlib də, gələcək də. Ona söz deyən olsa...

**Şükür:** İndi gəl cavab ver. Özün də düş bəlaya.
**Simarə:** Ağılsız qız özü özünü yandıracaq.
**Ayaz:** Qışqırma, Səmra, bir az aşağıdan danış.
**Simarə:** Xox... Cavan qızsan, danışığına bax... Yeyəsən danışığını. Sənin tayların ailə-uşaq sahibidi. Sənsə...
**Səmra:** Qoyursuz? Adamın əlinin üstünə...

*Səma qızının qolundan tutur və evə tərəf çəkir. Ayaz öz otağına gedir.*

*Kadr dəyişir. Axşamüstü. Şəhər. Ayaz tək-tənha şəhərdə gəzir. Qarşısında xarici markalı avtomobil dayanır. Fərəc maşından düşür. Ayaz Fərəci tanıyır. Qucaqlaşırlar. Hər ikisinin sevincdən gözləri yaşayır.*

**Fərəc:** Ayaz!
**Ayaz:** Fərəc?

*Yenidən qucaqlaşırlar, öpüşüb-görüşürlər.*

— Hara gedirsən?
— Heç, küçələri dolaşıram. Avara adamın peşəsi nə olar, Fərəc?

*Ayazın səsi titrəyir.*

— Gəl otur maşına.

*Ayaz maşına oturur. Maşın küçəylə şütüyür. Kadr dəyişir. Yeməkxana. Maşın dayanır. Onlar yeməkxanada əyləşirlər. Sifariş verirlər. Yeyirlər, alkoqolsuz içkilər içirlər. Ayaz çəkinir. Fərəc onu anlayır.*





— Nədən çəkinirsən, Ayaz? Hər şey var. Şirkət rəhbəriyəm. Sən harda işləyirsən?
— Kiçik bir sexdə. Babat iş yeri tapa bilmirəm...
— Səni yanıma gətirəcəm. Uşaqlardan kimləri görürsən?
— Cəmillə Xatirə ailə qurdular. Nihad və Firuzla tez-tez görüşürəm... Ancaq...

*Ayaz səsinə ara verir. Fərəc diqqətlə onun üzünə baxır.*

— Nə ancaq?
— Nərmin mədə xərçəngindən öldü.
— Nə?!

*Ayazın gözlərindən yaş axır. Fərəc Ayaza təskinlik verir.*

**Fərəc:** Nərminin ölümü hamımızın itkisidi. Ruhuna rəhmət. O, səni çox istəyirdi. Bilirəm, sənin üçün çox ağırdı.
— O, öldü, həyatım qırıldı. Hara gedirəm, mənimlədi...
— Unutmağa çalış. Kim nə bilir, sabah nə baş verəcək?
— Unutmaq çətindi... Gecə də yuxularımdadı.

*Fərəc söhbətin səmtini dəyişir.*

— Neçə vaxtdı gözüm sizi axtarır. Mənim başqa "Kimsəsizlər evi"nə köçürülməyimi direktor təşkil eləmişdi. Sağ olsun Gülşən müəlliməni, neçə dəfə yanıma gəldi. Özü də əli dolu... Salamınızı da çatdırdı mənə. Bilsən nə nədər sevindim? Hərdən mən də onunla görüşə gedirəm. Bayramlarını təbrik edirəm.
— Bilirdik, Fərəc. Direktorun və inzibatçısının cəzasını da Allah özü verdi, yəqin eşitmisən?
— Eşitmişəm... Sənin qaldığın yataqxanaya da gəlmişəm. Dedilər, yerini dəyişmisən, Ayaz.

*Pauza*

— Hə, indi kirayədə qalıram.
— Kirayədə niyə?
— Məqsədim var, sonra sənə deyərəm.

*Fərəc ah çəkir. Bir an içərisində fikrə gedir. Handan-hana özünə gəlir, başını yelləyir və təəssüf hissilə bildirir.*

— Özün barədə danış, Ayaz.

*Pauza*

— Həyat bizi hər sınağa çəkir, Fərəc. Günlər, aylar, illər bir-birini təqib elədikcə, ürəyim qübarlanır. Onda özümü kimsəsiz, arxasız və tənha sanıram. Ömrümün arxada qalan anları necə də mənasızdı. Ölgündü. O illərdən mənə azacıq da olsa, təsəlli verən izlər qalır...

*Pauza*

— Ayə, nə izlər, Ayaz. Azmı işlər görmüsən? Onlara iz demək olar?
— Hərdənbir bəzi anlar hansı zərurətdənsə yaddaşda oyanır, sonra da qeybə çəkilir. Elə bil, nə o cür anlar olub, nə də həyatımda baş verən acılı-şirinli hadisələr.
— Düz deyirsən. Dolanışığım, güzəranım nə qədər çətin olsa da, etiraf eləyim ki, həyata sevgiylə baxmışam, gələcəkdə xoşbəxt olacağıma böyük ümidlə yanaşmışam, Ayaz.

*Pauza*

— Hərdən öz-özümə qapanıram. Xəyal məni çəkib aparır uşaqlıq illərinin arxasına. Canlanır gözlərim önündə məsum xatirələr...





# XIX bölüm

— Yadındamı, Ayaz, həmişə, sən demiş, gələcəyə ümidlə boylanardıq. Fikirləşərdik, xoşbəxt gələcək vəd eləyən çağlar hələ qabaqdadı. Hədsiz ümidlə gözləyə-gözləyə, odlana-odlana keçilməz, arzuolunmaz, qara, əyri-dolam yollar qət elərdik. Bir də gözlərimizi açdıq, gördük ki, ixtiyarsız halda uçurumun kənarındayıq.

*Pauza*

— Eh... Fərəc, o ötən illər üçün ürəyim hərdən elə qübar eləyir, gəl görəsən.
— Biz ən çətin anlarda birləşə bildik, Ayaz. Dəyyus Köçəri neçə-neçə qızı bədbəxtlərin bədbəxti elədi. Arzu eləmirəm, ancaq düşündüyümü deyəcəm. İnanıram ki, onun ailəsi indi başqalarının əlindədi. Kimlərinsə ağuşundadı. Zeynəb qarı necə deyib: “Nə tökərsən aşına, o da çıxar qaşığına”.

*Pauza*

— Özü yıxılan ağlamaz, Fərəc. Eləmisən, eləyəcəklər.
— Direktor qadın idi. Onun da faciəli qətlini istəməzdim... Ancaq halına da acımıram. Niyə? Hər kəs əməlinin bəhrəsini dadır. Köçərini qətlə yetirmişik. Day-dayısı da — direktor bizim əlimizlə getdi... Qaniçənləri o kimsəsiz uşaqların haqqı tutdu. Bir şeyi də unutma, bizim ahımız doğma valideynlərimizi də ola bilməz ki, tutmasın, Ayaz.
— Onlara heç cür haqq qazandıranmıram, Fərəc. Bizim birinci düşmənimiz valideynlərimiz olublar.
— İnan mənə, onlar nə qədər özlərinə bəraət qazandırmaq istəsələr də, alınmayacaq.
— Fərəc, insanı təsadüfən, özü də cismən öldürənləri hüquqşünaslar cinayətkar adlandırırlar.

*Pauza*

Qanun yazanlar niyə düşünmürlər ki, təsadüfən əldə tüfəng açılıb, adam ölübsə, o tüfəngi gəzdirən o qədər də cinayətkar ola bilməz. Biri təsadüf nəticəsində maşınla adam qətlə yetiribsə, yenə mən onu cinayətkar sanmıram. Çünki o faciələrdə qəsd yoxdu. O faciələr insanlıq ruhunun çirkinliyindən, zəhərlənməsindən irəli gəlməyib. Bunlara, hardasa, bəraət qazandırmaq olar.

*Pauza*

— *(Gülümsünərək)*: Bəs, kimlərdi əsl cinayətkarlar, Ayaz?

— Əsl cinayətkar insanları mənən qətlə yetirənlərdi. Ata-ana övladını hara gəldi atır, övlad ölmür, ancaq valideynlərin də ölümlərinə fərman verilmir. Bəlkə də dediklərimi eşidənlər məni qatil, cinayətkar adlandıracaqlar, ya da başı xarab.

— Köhnə xasiyyətin dəyişməyib, Ayaz.

— Mənə elə gəlir, insan ölənə kimi xarakteri dəyişmir. Məni dinləyənlər fikirləşəcəklər ki, valideynləri barədə niyə bu qədər ağır ittihamlar söyləyir? Məni qəddarlığıma görə qınayacaqlar.

*Pauza*

Biz ölməmişik, salamatıq. Mənə elə gəlir ki, bunun özündə də, hardasa, təsadüfilik var. Bəxtimizin üzümüzə gülməsi var.

*Fərəc bir qurtum su içir.*

— Ayaz, o günlər arxada qaldı. Mən, sən və Cəmil ən dar ayaqda öz sözümüzü dedik. Ancaq özümüzə görə yox. *(Fərəc ünvan kartını Ayaza verir və sözünə davam edir)* Qardaş, Cəmillə görüş. Mən də təkəm. İmkan olduqca, uşaqları bir yerə toplayaq. Mənə də kömək gərəkdi.

*Pauza*

Sizə ev-eşik, ailə lazımdı. Yataqxanada, ya kirayədə qalmaqla istəyinizə nail olanmayacaqsınız.

— Fərəc, bizə, sadəcə, məsləhətçi gərəkdi. Qüvvəmiz var.





Çox iş görə bilərik.

— Mən də elə düşünürəm. Gəlin əl-ələ verək, işləyək. Halal çörəyimizi qazanaq. Oğurluq, quldurluq, qaçaqlıq, bir sözlə, cinayətkarlıq özümüz də hiss eləmədən bizi qamarlaya bilər... İndi başqa zamandı. Ağzındakını ağzından çıxarırlar. Pulsuz heç nəyə nail ola bilmərik.

— Günü sabah danışaram Cəmillə.

— Hə... Gözaltın varmı?

*Pauza*

— Yox... Fərəc, sən hamının vəziyyətini öyrəndin. Bayaqdan gözləyirəm, görüm, eşidim-bilim, özün barədə nə danışacaqsan?

*Fərəc gülür.*

— Ailəliyəm. Xanımım həkimdi. Bir oğlum var, bir qızım... Cəmili də götürərik, gedərik bizə, mənim də ailəmlə tanış olarsız...

— İş adamısan, vaxtını xeyli aldım.

— Qətiyyən.

*Fərəc hesabı ödəyir. Kadr dəyişir. Ayazla Fərəc maşına minirlər. Ayazın yaşadığım məhəlləyə gəlirlər.*

**Ayaz** *(çəkinə-çəkinə)*: Fərəc, səni evə dəvət eləyə bilmirəm. Əvvəla, ev sahibi həyətə başqa adamın gəlməsinə ciddi qadağa qoyub. İkincisi, mən səni belə evə aparmağı nə sənə, nə də özümə yaraşdırmıram.

*Fərəc Ayazın başını qucaqlayır, saçlarından öpür.*

— Elə danışırsan, güya, hardan çıxdığımızdan xəbərsizik...

Cəmillə səni gözləyəcəm.

*Ayaz maşından düşür. Maşın gedir.*

*Kadr dəyişir. Qonşu Sərdarla arvadı Fatma Ayazın yaşadığı həyətin darvazasına yaxınlaşırlar. Ər-arvad qarma-qarışıq, dava-dalaş səsi eşidərək qapı ağzında dayanırlar və Ayazın üzünə baxırlar.*

**Sərdar:** Heç vaxt səs çıxmayan, dava-dalaş görməyən bu həyətdə son zamanlar nə dolaşıqlıq, nə cəfəngiyyat yaranıbsa, xarabamızda otura bilmirik.

*Pauza*

**Ayaz:** Xəbərim yoxdu. Mən də işdən indi gəlirəm. Hələ heç həyətə girməmişəm.

**Fatma:** Bu nə bilsin? Səhər çıxır, axşam gəlir. Sakit, kirayənişin adamdı. Nə işinə qalıb, kimlər nə oyun çıxardırlar?

**Ayaz** *(gülümsünərək)***:** Arvadlar olan yerdə qeybət, hay-küy, saçyoldu olar.

**Sərdar:** Allah kəssin arvadların xasiyyətini. Dedi-qodu, səs-küy salan, qeybət qıran arvadlar, əcəb oyundu, heç nədən işə düşən günahsız kişilər.

**Ayaz:** Bəlkə arvadağız kişilər.

**Sərdar:** Hamısından var, oğlum.

*Pauza*

**Fatma:** Polislər künc-bücaqda marıtlayırlar. Bir balaca da səs qalxsa, gəlib kişilərin qan-tərlə qazandıqlarını əllərindən alıb aparacaqlar. Onda çənəgir arvadların da, arvadağız kişilərin də içləri göynəyəcək. Ağılları başlarına gələcək.

*Sərdar arvadının sözünü ağzında qoyur.*

**Sərdar:** Qoy gəlib aparsınlar. Yeyə bilməyənin pul-parasını





gəvələyərlər, arvad. Zeynəb qarının bir xoşa gələn sözü var: "Allah deyir, sənə azuqə də verdim, diş də. Mədən götürmür, yemə, yeyən tapılar..."

*Pauza*

**Fatma:** Qarı düz deyib, kişi. Yeməyənin malını yeyərlər... Qapı ağzında dayanmaq üçün gəlməmişik ha? Yoldan çəkil, keçək içəri. Görək, nə mərəkə qopub?

**Sərdar:** Keç deyirsən, keçək ey. Axı, hər gün, hər gün belə olmaz.

**Fatma:** Bu, hər günkünə oxşamır. Bu hay-qışqırıq çox uzandı...

*Sərdar qabaqda, Fatma da ardınca, Ayaz da arxada həyətə girirlər. Kadr dəyişir. Həyətdə xeyli qadın, uşaq, bir neçə kişi var. Ayaz təəccüblənir. Səma yaşadığı evin qapısına söykənərək əllərini sinəsinin üstə çarpazlayıb. Qadının halı özündə deyil. Şükür kişi əsəbi görünür. Nəfəsini çox ağır-ağır alır. Adamlar hərəsi bir söz deyirlər.*

**Pinəçi Sultan Murad:** Ağılsız qız elə qızışdı ki, kimə qoşulub getdiyini də bilmədi... Gərək qızın lap uşaqlıqdan gözünün odunu alasan. Qızı başına buraxsan... Halvaçı, zurnaçı məsələsi.

**Pişik Müzəffər:** Əşi, buna görə də kişilər qız istəmirlər də. Bilirlər, gec-tez başlarını söz-söhbətə qatacaqlar. Əşi, qızım filan paltar, oğlum filan maşın istəyir. Mənə təzə ev tikdir — deyir. Kürəkənini istirahətə göndər. Dərdləri, azarları özləri olur. Ata yaddan çıxır. Hi... hi... hi... Düz demirəm, Beçə Qafar?

**Beçə Qafar:** Ayə, bu Güloğlan Səmranın harasına və nəyinə vurulub, əə? Zırrama bir göz qırpımında götürüb aradan çıxdı qızı.

**Pinəçi Sultan Murad:** Qudurma, Beçə Qafar. Deyəsən, ləpirini Pişik Müzəffərin ləpirinə qoyursan. Sən öl, arvadın eşidər,

səni hər şeyə həsrət qoyar. Bilmirsən ki, arvad hərdən Allahı qoyub, şeytana sitayiş eləyir.

*Səma əsəbiləşir. Əlindəki süpürgəni Beçə Qafarın başına vurur. Beçə Qafar qorxur, geri çəkilir.*

**Beçə Qafar:** Hə... Bu da mənim sağ olum. Gəldim təskinlik verməyə, əvəzində süpürgə yedim. Zeynəb qarı bunda deyib də: "Nə işin var Bığırda, çaqqal da səni çığırda".

*Bu misal Ayaza toxunur. Ancaq incidiyini büruzə vermək istəmir.*

**Ayaz:** Nə baş verib?

**Sərdar:** Burda deyilənlərdən sənə heç nə aydın olmadı, ay Ayaz? Sözü nə qədər o üzünə-bu üzünə çevirmək olar? Bizim küçədə hələ belə qələt eləyən olmamışdı. Sahibi lazım idi, belə qızın başını qoyaydı kötüyün üstə. Baltayla vuraydı boynunun ardından. Baş bədəndən ayrılsaydı, o hamıya görk olardı.

*Pauza*

**Fatma:** Qızışan, qoşulub gedən huşdurum haray qızın aqibəti kor olar.

**Səma:** Bu nə söhbətdi?

**Fatma:** Söhbəti yaradan Güloğlanla Səmradı.

*Ayaz gözünün ucu ilə hamını süzür.*

**Şükür:** Əşi, o gədə qızın başını çoxdan piyləmişdi. Gərək qız havalananda...

*Səma Şükür kişinin dediyini qüruruna sığışdırmır.*





**Səma:** Evin tikilsin, nə olsa, danışırsan. Bildiyini də, bilmədiyini də. Gedib, əcəb eləyib, bir qız, axır ki, kiməsə qismət olmalıdı.

**Simarə:** Az, qızı bəlkə özün yola salmısan? İndi bizə vid göstərirsən.

*Pauza*

**Səma:** Hə, bu da ağbirçək. Danışdı çıxdı başa.

**Simarə:** A başına dönüm, a ağrın alım, bu qədər adamı hay çəkib, məhləyə toplamısan. Biz nə deyirik? Təki gedib arvad olsun. Üstünə qayıdıb gəlməsin. Kor nə istər, iki göz, biri əyri, biri düz. Başqa cür olsa, sən yanacaqsan. O, özü alışacaq... Qorxum bu həngamənin məhlədəki qızlara təsir eləməsidi.

*Pauza*

**Səma** *(istehzayla)***:** Xoşbəxtlik arzulamaqdansa, sən boyda arvad gör nə danışırsan? Qonşuluqda bütün xətir-hörməti tapdalayırsan. Ay xanım, mən sizə qarşı pis olmamışam axı. Ayağı büdrəyəni itələyib yıxmazlar, görmüşük, ayağa qaldırarlar... Ürək-dirək verərlər. Bəlkə yalan deyirəm, Şükür kişi?

**Şükür:** Yox, yalan demirsən, Səma xanım. *(Üzünü adamlara tutaraq, ikibaşlı)* Gedin, qonşular, gedin. İtkin-zad düşməyib ki, ürək-göbəyimizi yeyək. Ona da Səmra deyərlər.

*Qonşular gedirlər. Ayaz öz otağına çəkilir.*

**Ayazın daxili səsi:** Çox çəkməz... Adamlar özlərini bədbəxt eləyirlər. Nə Səmra ərdə oturandı, nə də Güloğlan arvad saxlayan. İnanıram, nə olsun ki, anamdı, onun verdiyi tərbiyə də belə olmalıdı... Qızını ərköyün böyüdən gərək hər təpkisinə dözə.

*Kadr dəyişir. Ayazın iş yeri. Güloğlan gəlir. Ayazla hədələşirlər.*

**Güloğlan:** Ayaz, gəldim sənə bir də deyim. Sən o məhlədən getməlisən. Səma mənim qayınanam, Səmra arvadımdı. Sənin orda kirayəşin yaşaman gec-tez o ailəyə qara ləkə olacaq. Onda mən məcbur olacam ki, bıçağı sənin qarnından salıb, kürəyindən çıxarım. Sonra da heç olmasa, bir stəkan qanını içim. Özüm də gedim girim kletkaya.

*Pauza*

**Ayaz:** Görürəm, Güloğlan, çox qeyrətlisən. Ancaq içim mənə deyir ki, nə səndən arvad saxlayan olar, nə də qan içən. Dişlərini qana batırman da vecsiz işdi. Mənə hərbə-zorba gəlmə.

**Güloğlan:** Sən onu nədən bildin?

**Ayaz:** Üz-gözündən, hərəkətlərindən, cılızlığından...

**Güloğlan:** Ağzına gələni danışma, Ayaz. Bu gündən sənə Səma xanımla danışmağı qadağan eləyirəm.

*Pauza*

**Ayaz:** Səma xanımın faciəsi ondadı ki, Səmra səni özünə ər seçdi. Sizin izdivacınız pişiyin asqırmasına bənzəyir.

*Güloğlan Ayazı qəflətən vurur. Ayaz geri çəkilir. Ayaz dözmür. Onun üstünə atılır. Yaxınlıqdakı fəhlələr onları ayırırlar. Güloğlan gedir. Ayaz onun ardınca qəzəblə baxır.*

*Kadr dəyişir. Axşama az qalır. Şükür kişi ilə Simarə həyətdə çay içirlər. Ayaz onların yanından salam verərək keçir.*

**Şükür:** Ayə, Ayaz, sənə elə öyrənmişəm ki, bu vaxtlar darıxıram. Gözlərim hey saatdadı. Stəkanını götür, gəl. Əla çaydı, içək. Vallah, səninlə çaya oturanda, elə bilirəm handa bərk gedən kababxanadayam.

*Ayaz gülür, otağına keçir. Kadr dəyişir. Paltarlarını dəyişib, əlində fincan Şükür kişi ilə çay içməyə gedir. Əyləşir. Simarə*





*ona çay süzür.*

**Ayaz:** Deyəsən, qonşular evdə yoxdular?

**Simarə:** Hə... Harasa gediblər.

**Şükür:** Qonşulardan kim olacaq? Sol tərəfdəkilər, ər-arvad rayona yasa gediblər. Biri də, gözümüz aydın, qoşuldu qaçdı. Anası da görünmür, yəqin qızının ardınca gedib. Ərə gedərlər ey, ancaq baxarlar, getdiyindən ər çıxar, ya çıxmaz. Nə isə...

**Ayaz:** Güloğlana necə ilişiblər, bilmirəm.

*Pauza*

**Simarə** *(narazı halda)***:** Ayaz, Səmagilin bura köçdüyü on ilə yaxındı. Mən ona ana-bacı olmuşam. Şükür də ata, böyük qardaş. Biz od qonşusuyuq. Həmişə də xatirini əziz tutmuşuq. Mənim-sənin bilməmişik.

**Ayaz** *(qəsdən)***:** İnsafən, o da sizin xatirinizi istəyir.

**Simarə:** Onda gərək özümüzü elə aparaq ki, bir-birimizin qəlbinə toxunmayaq. Səma axşamlar teatra gedəndə uşaq vaxtlarında Səmranı mən saxlardım. O qədər nadinc idi...

*Pauza*

**Ayaz:** Səmrada nadinclik hiss olunur. Bir az da oğlansayağıdı. Ərköyündü. Qız ki, ərköyün oldu, Əl-Həzər əlindən.

**Simarə:** Hə... Ana olub, qızının bircə sözünün qabağında söz deməyib. Elə bilib, qız övladı təkcə onda var. İstəyinə qarşı çıxsa, qızın ürəyi çatlar. Ta fikirləşməyib ki, qız sabah yad evə düşəcək. Ailə-uşaq sahibi olacaq...

**Şükür:** Ay arvad, az narazılıq elə. Qızının işi düz gətirməyəndə ağrısını o özü çəkəcək, sən yox. Hərə öz evinin ağasıdı. Adam başqasının evinə darğalıq eləməz.

**Ayaz:** Simarə xala söyüş söymür, kimisə təhqir eləmir. Şükür dayı, o gün Səmranın dedikləri, doğrusu, mənim də xoşuma gəlmədi. Mən güman eləyirdim ki, o, gəlib hamıdan üzr istəyəcək. Gəlmədi. Qoşulub getdiyi oğlandan gözüm su içmirdi. Bilmirəm

nəçidi? İşləyir, işləmir, qalmağa evi var, yoxdu?..

*Pauza*

**Simarə:** Eh... Qarnını gündə burda doldururdu. Elə adamın, axtarsan, iti-pişiyi də olmaz.

**Ayaz:** Onda nə adla qız qaçırır?..

**Simarə:** Atalar deyib: "Qızını döyməyən, gec-tez dizlərini döyər". Çox çəkməz. Qayıdar... Gəlib oturar Səmanın dizinin dibində.

*Pauza*

**Şükür:** Arvad, qonşulardan az gileylən, çox da yaralı danışma. Belə olmaz... Hamının pisi də var, yaxşısı da. Bu gün biz danışarıq, sabah onlar. Sonra da qalxarıq əlbəyaxaya. Adamlar da yığışar tamaşamıza. Bu, bizə gərəkdi? *(Üzünü Ayaza tutaraq)*: Ayə, ay Ayaz, öz işindən-gücündən danış, oğlum.

**Ayaz:** Nə danışacam? Pulun, arxan olmadısa, öl qurtar. Bir uşaqlıq dostum var. Təsadüfən onunla görüşdüm. Şirkət rəhbəridi. Siz soruşan kimi, o da məndən iş-gücümü soruşdu. Dərdli deyingən olar — deyirlər. Mən də açıb sandığı, tökdüm pambığı. Dedi ki, gəl yanımda işlə.

*Pauza*

**Şükür:** Hə... Kişidən danış, deyim, hə... Oğlum, bu saat hamı odu, öz qabağına çəkir. Bu evin işığı o evə düşmür. Aparır yanına, get. Görürəm, kasıb, kimsəsiz oğlansan. Pulsuz, kim olsan, özünə gün qazana bilməzsən.

*Səma darvazadan həyətə girir.*

**Şükür:** Gəl, ay Səma, gəl.

**Səma** *(gülümsünərək)*: Stəkanımı götürüb gəlirəm.





# XX bölüm

*Səma otağa keçir. Əlində stəkan-nəlbəki tez də qayıdır. Özünə bir stəkan çay süzür və oturur.*

**Şükür:** Ay Səma, deyirəm, hamımızın gözü aydın. Sən də oldun qayınana. Narahat deyilsən ki?

**Səma:** Yox, niyə ki?

*Pauza*

**Şükür:** Qadınlar kişilərdən çox fərqlidilər. Qayınana, nənə olanda özlərini çox pis hiss eləyirlər. Hətta, nəvələrə mənə nənə demə deyənləri də var. Həyat özü adamı nənə də eləyir, qayınana da. Budu ha, üzünə deyirəm, Simarə də uzun müddət nə qayınana, nə də nənə adını üstünə götürə bilirdi. İndi o adlarla fəxr eləyir. Bircə gün nəvə səsi eşitməyəndə, yerə-göyə sığmır...

**Simarə:** Qurban olaram, onların mənə nənə deyən dillərinə.

**Şükür:** Hə... Gördün... O gün olsun, ay Səma, nəvən ətəyindən tutub, qapıdan girsin. Muştuluğunu Şükür babası verər.

**Ayaz** *(qəsdən)*: Səma xanım, bir halda ki, ət girdi qazana, oldu yeməli. Güloğlan da oldu sizin ailənin üzvü. Bir yerdə işləyirmi?

*Pauza*

**Səma:** Deyir, işləyirəm. Ancaq bilmirəm harda. Soruşmamışam. Sevibləər bir-birilərini. İndi növbə sənindi, Ayaz.

**Ayaz:** Evim, işim, babat məvacibim olmasa, mən ailə qurmaram. Arvad məndən yemək, paltar istəyəndə ona nə cavab verim? Deyim ki, get anandan, atandan al?.. Onda deməz ki, bəs sən nə kişisən? Sən də mənim tayımsan? Kişi kişi olmalıdı, arvad arvad.

**Şükür:** Əla. Odur ki, səni çox istəyirəm, Ayaz. Qanana can qurban.

*Pauza*

**Səma:** Əşi, sənin də avazın yaxşıdı, oxuduğun Quran olsa.

**Ayaz:** Düz deyirsən, Səma xanım. İndi nə desəm, gop-kələk sanacaqsan... Bir də ki çaya çatmamış çırmanmazlar.

*Şükür kişi ilə Simarə hər ikisi eyni anda ciddi, sualedici nəzərlərlə Ayazın üzünə baxırlar. Ayaz susur. Səma qızarır.*

**Səma:** Sən canın, Ayaz, saxla. Danışma. Onsuz da qanım qaradı.

**Ayaz** *(pərt halda)***:** Baş üstə.

**Simarə** *(dərhal)***:** O nə danışıqdı, Səma? Gəlin etiraf eləyək ki, Ayaz sənin kürəkəninin tayı deyil. Göz qızanda, ağıl çaşar. Ağıl çaşanda, göz tutular. Ağı qaradan seçə bilməz.

**Şükür:** Sağ ol, arvad. Sözlərinə mən şərik. Bu dili hardan, kimdən öyrənmisən?

**Simarə:** Kimdən öyrənəcəm?.. Həyat gör-götür dünyasıdı. Seçə bilməyən, özünə lazım olanı götürə bilməyən, ömrü boyu gözləri yaşlı qalar.

*Pauza*

**Şükür:** Balığı başdan tutarlar, quyruqdan yox.

**Səma** *(başını yelləyərək)***:** Heç kim heç kimin dərdini bilmir. Dərd-sər kitab deyil, ay Şükür kişi, açıb qoyasan stolun üstünə. Deyəsən, kim istəyir, gəlsin oxusun. Zeynəb qarı demişkən: "İçim özümü yandırır, çölüm özgəni".

**Ayaz:** İncimə məndən, sənin o kürəkənin yola gedəsi adama oxşamır.

**Simarə:** O vaxt özünə yaxın buraxmasaydın, indi göynəməzdin.

**Şükür:** Köhnə sözü qurcalamasaq yaxşıdı... Səni də başa düşürük, Səma xanım. İndiki cavanların söz-söhbətindən də keçmə.





*Pauza*

**Səma:** Siz deyənlərin hamısını mən demişəm başı batmışa. Elə bilməyin ki, qızı mən yola salmışam, özüm də sevinirəm... Siz görəni mən də görürəm. Ürəyimdən daş asılıb. Aktrisayam. Hər gün kimlərinsə rollarını oynayıram. Bu neçə ildə hələ özümü oynamağa macal tapmamışam. Üzüm gülür, içim qətrə-qətrə əriyir. O qədər bağışlanması mümkün olmayan səhvlərim var, başımdan yuxarı. Hansını deyim?

**Simarə:** Etiraf böyüklükdü. Gərək onu qarşıdakı da qana, dəyərləndirə.

*Pauza*

**Səma** *(narazı halda)***:** Vallah-billah, səhvləri açıb-tökə bilmirəm, danışa bilmirəm, ancaq zingildəyirəm. Namussuz adam özgə çörəyinə göz dikər. Oğru it qapılar gəzər. O baş verənlər də, sizin üstüörtülü dedikləriniz də mənə yerli-yataqlı, bütün təfərrüatı ilə, bəzəksiz-düzəksiz aydındı. Yalvarıram, məni içimdəkiləri açıb tökməyə vadar eləməyin.

**Şükür:** İnsan belədi də. Neçə illər arzularla, ümidlərlə yaşayır, birdən elə səhvə yol verir ki, ömrü boyu qırıla-qırıla qalır, ömrünü it kimi başa vurur. Səsini çıxara bilmir. Onu duyan da, anlayan da olmur.

**Simarə:** Lap tutalım duyub anladı. Öz səhvini özü düzəldə bilmirsə, ona kim kömək eləyə bilər?

**Səma:** Əlbəttə, heç kim. Fikirdən hər gün, elə bil, qara məni basır. Yata bilmirəm.

*Səmanın dodaqları əsməyə, səsi titrəməyə başlayır. Kirpikləri islanır. Ayazın Səmaya yazığı gəlir.*

**Ayaz:** Deyəsən, səni çox incitdik.

**Səma:** Olan şeyləri deyirsiz də.

**Şükür:** Özünü ələ al, Səma. Ayaz düz deyir, deyəsən, qəlbi-

nə toxunduq.

**Səma:** Yox... Siz həqiqəti deyirsiz. Həqiqət həmişə çılpaq olur. Bəzək-düzək götürmür. Hardan baxsan, o, olduğu kimi görünür. *(Səma göz yaşlarını ovuclarının içi ilə silir)* Elə bilməyin ki, mənə sizin dedikləriniz təsir elədi. Əsla, yox...

**Simarə:** Özünü ələ al, həyəcansız danış.

**Səma:** Məni belə danışdıran, içimdəki xıltları açıb tökdürən illərlə qəlbimdə gəzdirdiyim, ancaq heç kəsə aça bilmədiyim narahatlığımdı, Simarə xanım. Məni yandıran odur ki, heç vaxt özümün ziddiyyətli, dələngəvaz, köntöy... obrazımı olduğu kimi ifa eləyə bilməmişəm. Əslində, bu, mənim faciəmdi. Özümün özümə xəyanətimdi.

*Pauza*

**Şükür:** Nə böyük etiraf!

— Bəli! Etiraf eləyim ki, mən riyakar, zalım, qansız, yalançı bir qadınam. Sizdən ricam budur ki, sirlərimin faşına səy göstərməyəsiz.

**Şükür:** O nə sözdü? Özün sirrini açmasan, səni buna kim vadar eləyə bilər?

**Ayaz:** Əlbəttə, heç kim...

**Səma:** Nə qədər çalışsanız da, onu indi sizə açmayacam. Ola bilər ki, o sirlər mənimlə qəbrə getsin. Mən bəxtəvər deyiləm, bədbəxtəm. Yaşadığı ömrün mahiyyətini dərk eləyib, doğulduğuna peşman olması insanın ən böyük faciəsidir.

*Pauza*

**Şükür:** Səma, bəxtəvərlik də, bədbəxtlik də nisbidi. Bəzən onlar növbələnir. İnsanı yaşadan ümidlərdi...

**Simarə:** Ümidlər puç olanda necə?..

**Şükür:** Ölünü qoy, dirini ağla...

**Səma:** Qızım getdi, qorxuram nə vaxtsa mənim səhvlərimi o təkrarlaya. Elə olsa, o, cəhənnəm əzabına öz istəyilə qatlaşacaq.

**Ayaz:** Neyləyəcəksən?.. Hər kəs öz ağlının bəlasını çəkər.





**Səma:** Ey... Ayaz... Ayaz... Elədiklərimin cəzasını çəkirəm.

*Pauza*

**Şükür:** Özünə gəl, Səma. Həyat çox keşməkeşlidi. Ona görə də insanlar labirintləri aça bilmirlər. Çox zaman dilemma qarşısında qalırlar. Hamı eyni cür yaşasaydı, eyni istiqamətə yönəlsəydi, həyatın mənası olmazdı.

**Səma:** İnsan heyvan, həşərat, quş deyil ki, eyni həyat tərzinə alışsın.

**Ayaz:** Elə olsaydı, inan mənə, hər şey mənasızlaşar, insanlar intihar yolunu tutardılar. İntihar eləyənlər nə qədər güclü olsalar da, həyatda öz yolunu seçməyi bacarmayanlardı.

*Pauza*

İnsan gərək öz seçimini ağılla eləsin. Ona bəxş olunan ömrün şirinliyini dadmağı bacarsın.

**Şükür** *(dərindən nəfəs alır, sonra sözünə davam eləyir)*: Əks halda, yaşamın sonu faciədi. Kefini pozma. Sən nə bilirsən ki, bizim hər birimizin içində nələr yatır. Orda hansı sirlər məskən salıb. Fikirləş ki, sən qadınsan, aktrisasan, cəmiyyətin üzdə olan adamısan...

**Simarə:** Bağışla, Səma, səni incitdik. Bizim heç vaxt elə fikrimiz olmayıb. Sənin bircə balanın xoşbəxtliyini Allahdan diləyirik. Fikirləşdikcə, sanki ürəyim daş olub, sinəmdən asılır... İndiyəcən çox yaxşı qonşu olmuşuq...

**Səma:** Bilirəm.

**Simarə:** Biz səni də, qızını da istəyən adamlarıq. İncimə... Burda gedən söz-söhbət sənə hörmətdən, qayğıdan, səmimiyyətdən və nəvazişdən irəli gəlir.

**Səma:** Mən də bərk sıxılırdım. Danışdım, ağladım, ürəyim boşaldı.

**Ayaz:** Səma xanım, haqsız iş hamını yandırır. Tək səni yox...

**Simarə:** Bəlkə də sənin dərdin mənimkindən qat-qat azdı. Hərənin içində bir dağ yatır. Adam var, hər gün ölüb-dirilir. Siz

uşaq deyilsiz ki, dərdinizə çarə qıla bilməyəsiniz.

*Pauza*

**Səma:** Əlbəttə... O qədər də ölü deyiləm.

**Şükür:** Onda danışma... Bu söz-söhbət kimə lazımdı?

**Simarə** *(üzünü ərinə tutaraq)***:** Bəsdi, Şükür. *(Səmaya çevrilərək)* Demək istəyirəm hamının çətinliyi var. Narahat olma, kədərlə sevinc gecəylə gündüz kimidi. Gecənin bir hissəsi zülmət, o birisi alatorandı. Gündüz də təqribən elə, insan taleyini onların ikisi ağuşuna alır. Ona neyləmək olar?

**Ayaz:** İnsanın qələbəsi səbr və təmkinindədi. Səbrsiz, dözümsüz insan özünü tez həlak elər.

*Pauza*

**Şükür:** Söhbət sap kələfi kimi şeydi. Nə qədər çözələsək, gələcək. Yatmaq vaxtıdı. Hələlik...

*Hərə öz otağına çəkilir.*

*Kadr dəyişir. İstidən nəfəs təngiyir. Günorta. Ayaz qapıdan çıxır. O, həyətdə Səmayla qarşılaşır.*

**Səma:** Ayaz, hara belə?

**Ayaz:** İstidən evdə nə otura, nə də uzanıb yata bilirəm. Ağacın kölgəsində dincəlmək istəyirəm.

— Şükürlə Simarə də köçüblər bağa.

— Nə tez?

— Səhər nələri vardı, yır-yığış elədilər. Evi də bizə tapşırdılar.

*Ayaz həyətdəki skamyanın üstündə oturur. Səma da gəlir. Onun əlində kitab var.*

**Ayaz:** Bu istidə kitab oxumaq olar? Adamın beyni qaynayır.





**Səma:** Kitabı oxumaq üçün gətirməmişəm. Bir şəkil var, istəyirəm, onu sənə göstərim.

— Maraqlıdı.

*Səma kitabın arasındakı şəkli Ayaza verir. Şəkildə dörd-beş yaş arası bir oğlan, onun da qucağında bir balaca qız var. Ayaz şəklə baxan kimi özünü tanıyır. Ayaz Səmanın üzünə baxır.*

**Ayaz** *(qəsdən)***:** Bu oğlanı görmüşəm. Ancaq harda? Yadıma sala bilmirəm.

— *(Gülümsünərək)***:** Güzgüdə?

— Yox... Yadıma sala bilmirəm.

— Əməlli fikir ver. İnsanın bütün əzaları dəyişsə də, gözləri heç vaxt dəyişmir. Anadan necə gəlibsə, ömrünün axırına qədər elə də qalır.

— Ola bilər.

*Pauza*

— Yadındadı, təzə-təzə gələndə sən beş yaşlı oğlanın anası tərəfindən atıldığını deyirdin. Düzünü de, o oğlanı indi tanıyırsanmı?

— Lap tutaq ki, tanıyıram. Necə bəyəm?

— Atılan oğlan bu şəkildəkinə bənzəmir ki?

— Bəlkə də. Uşaqlıqda...

*Səma fikrə gedir.*

— *(Handan-hana)* O oğlan sən özün deyilsən ki?

— Səma xanım, siz nə danışırsız?

— Ayaz, düzünü de. Hissiyatım mənə deyir ki, insafsız anası tərəfindən atılan uşaq sənsən.

*Ayaz Səmanın gözlərinin içinə baxır.*

**Ayazın daxili səsi:** Aman Allah, o gözlərdə nə oxunmur? Yazıqlıq, kimsəsizlik, peşmançılıq, ümidsizlik, ürəyi parçalanma... Nələr, nələr...

*Pauza*

**Səma** *(dodaqları əsə-əsə, səsi titrəyə-tirtəyə)***:** O şəkildəki oğlanın üz-göz cizgiləri eynən səninkidi. Onun adı Ayaz idi. Səninki də Ayazdı.

— Əvvəla, mən deyiləm, bir də tutaq ki, lap elədi. Bir zaman atdığın Ayaz indi sənin nəyinə gərəkdi?

— Ayaz, o qucaqdakı qız oğlanın doğmaca bacısı Səmradı.

*Ayaz çaşır, nə deyəcəyini bilmir. Özünə nə qədər toxtaqlıq versə də, birdən özündən asılı olmayaraq gözlərindən yaş sel kimi axır. Handan-hana özünə gəlir.*

— Tutaq ki, elədi, Səma xanım. Ölünü geri qaytarmaq olarmı?

— Deməli, o sənsən, Ayaz. Mənə yox demə. Mən "yox" sözünü eşitmək istəmirəm... Səni atmaqla öz əllərimlə başıma necə bəlalar açdım... Düşünürəm ki, qız vədəmdəki bütün qürurum, vüqarım, mənliyim, gücüm, qüdrətim... əriyib yoxa çıxıb.

— Sənin dediklərinə inanımmı, Səma xanım?

*Pauza*

— Sən inana da bilərsən, inanmaya da. O qadın mənəm — açıq etiraf eləyim. Mən o hərəkəti hansı əcaib qüvvənin təsirilə elədiyimi indi də anlaya bilmirəm. Özüm özümü zülmə atmışam, Ayaz.

— Təkcə özünü yox, həm də məni, Səma xanım.

— Nəfəsim aram-aram gedib-gəlsə də, hələ də yaşaya bilmirdim. Vücudum görünsə də, ruhum yox idi. Fiziki cəza çəkmək əzab-iztirab çəkməkdən, bilirsənmi, nə qədər yüngüldü?

— Sənin danışdıqlarında həqiqətdən çox, riyakarlıq duyuram.





— Nə danışırsan?

— Bəli, sən aktrisasan. Yaxşı bilməlisən ki, həqiqətlə riyakarlıq bir araya sığmaz. Sığdırmağa çalışsan da, çox bayağı görünər. Riyakarlıq həqiqət deyilən şeyi pərdələyir. Ancaq onu aradan çıxara bilmir.

*Pauza*

Əgər bacarırsansa, həqiqəti qoyub yalan danışma. Səndən xahiş eləyirəm.

— Haqlısan, Ayaz. Müəmmalı əhvali-ruhiyyəm var. Buna özüm də təəssüflənirəm. Ancaq kimlərinsə qarşısında nəyə görəsə əzilib-büzülməyi heç vaxt özümə sığışdıra bilmirəm. Bəlkə, mən həqiqətən də hissə qapılıram.

*Pauza*

— Yox... Gəl, ikimiz də rola girməyək. Səmimi olaq.

— Mən səmimiyəm, Ayaz.

— Bəli, mən sənin doqquz ay bətnində gəzdirdiyin, doğduğun, döşlərindən süd verdiyin, beş il sərasər əziyyətini çəkdiyin, sonra da küçük kimi küçələrə atdığın Ayazam.

*Səma özünü saxlaya bilməyib hönkür-hönkür ağlayır, Ayazı qucaqlayır, bağrına basır.*

— Ayaz, cismən qarşında dayansam da, ruhən ölüyəm.

— Mən səni həmişə axtarmışam. Gözlərim hər tində qarşılaşdığım qadınların üzünə dikilib. Səni kafedə tapdım və ardınca məhlənizə gəldim.

*Pauza*

Kirayə ev tutdum. Allaha şükür eləyirəm ki, indi səninlə atılmağım barədə söhbət eləyirəm.

— Əsəbiləşmə, Ayaz. Mən də cavan olanda çox şeyi başa düşmürdüm, anlamırdım. İnsan bəzən elə həddə çatır ki, nə elə-

diyini bilmir. Sonra da elədiyi səhvləri ömrü boyu düzəldə bilmir. İnləyir, ölür, dirilir. Ancaq düzəlməsi mümkün olmur. Görünür, bizi Tanrı qarşılaşdırıb.

— Sən məni aldadıb gedən, daha dəqiq desəm, atan qadınsanmı? Tez elə de, fikirləşmə.

— Bəli! Səni atan bədnam qadın mənəm. İndi də qarşında diz çökürəm.

— Mən necə vaxtdı sənin ardınca sürünürəm. Bu məhləyə qədəm qoyandan ağlınıza bələd olmuşam. Bəzək-düzəksiz deyirəm: sakitsən, sirlərini saxlamağı bacaransan. Öyrənmək istəyirəm, məni atandan sonra ayaqlarının altından yer qaçmadı ki?

*Pauza*

— Onu bilmirəm, ancaq yüz dəfələrlə ölüb-dirilmişəm.

— İncimə məndən, sən dardüşüncəlisən. Ehtiraslarının qulusan. Məni nəyə görə atdığın tək sənin özünə aydındı.

*Ayaz danışdıqca haldan-hala düşür, əsim-əsim əsir. Səma isə qorxu, təlaş hissləri keçirir.*

## XXI bölüm

— Bu cür danışmaq sənə yaraşmır, Ayaz.

— Doğma övladını atmaq sənə yaraşırdımı?

— Səsimizi eşidən düşünər ki, biz dalaşırıq... Ayıbdı, bir az özünü ələ al. Sən mənim sakitliyimdən sui-istifadə eləyirsən, Ayaz.

*Pauza*

— İkiüzlüsən. Onda sən məni aldadırdın. Mən sənə inanırdım. Məni aldadacağını ağlıma da gətirmirdim. Sən mənim insanlara inamımı beləcə içimdə boğdun.

— Sən mənim sözümü ağzımda qoydun, Ayaz, deməyə im-





kan vermədin. Mən tam ciddiyyətlə danışıram. Özümü təmizə çıxarmıram. Günahım böyükdü. Sənin barəndə insanlığa yaraşmayan cinayət törətmişəm.

*Pauza*

Sənin məni hər cür mühakimə eləməyə haqqın var. Mən anayam. Bunu bilə-bilə sənin haqqını tapdalamışam. Bununla da Allahıma xəyanət eləmişəm. Mən səni öz əllərimlə ölüm kabusuna atmışam. Bunun üçün hər cür cəzaya layiqəm. Ölməliyəm. Yaşam haqqımı itirmişəm. Məni bağışla. Mən nə elədiyimi bilməmişəm...

*Pauza*

— Həyatda, Səma xanım, mənim də səhvlərim olub. O səhvlərdən sonra salamat qalmışamsa...

— Yaradana şükür.

— Hərdən fikirləşirdim ki, heç vaxt səni görmək, səninlə kəlmə kəsmək mənə müyəssər olmayacaq... Sən ana idin. Məni faciəyə atanda nələrlə qarşılaşa biləcəyimi, taleyimin hansı sonluqla qurtaracağını təsəvvürünə gətirmişdinmi? Mənim keçirdiyim qorxu, təlaş hisslərimi bircə dəfə düşündünmü?!

*Pauza*

Taleyim təhlükələr burulğanına düşəndə, mənim qolumdan tutub geri çəkən başqaları yox, sən olmalıydın!

— Ayaz, qarşında günahkaram. Allah mənə hələ çox cəzalar verəcək. Mən o cəzalara layiqəm.

— Səhvlərimə görə məni sən yox, niyə yadlar məzəmmət eləməliydilər? Məni "uf" demədən atacaqdınsa, niyə dünyaya gətirirdin? Mən niyə atamın kimliyindən xəbərsiz olmalıydım? Məni atanda atamı xəbərdar eləmişdinmi? İnanıram ki, mən küçədə...

*Pauza*

İndi mən bir şeyə sevinirəm: baxışlarımızdakı, talelərimizdəki ziddiyyətlərin səbəbini biz birlikdə araşdırırıq. Məncə, bu bi-

zim ikimizin də xoşbəxtliyidi.

— Hər halda, fövqəladə vəziyyət baş verməyib, Ayaz.

— Siz fövqəladə vəziyyət deyəndə nəyi nəzərdə tutursuz? Cinayət törədib doğma övladınıza ölüm hökmü verirsiz. Sonra da deyirsiz, hər halda, fövqəladə vəziyyət baş verməyib. Bəlkə, aktrisa olsanız da, fövqəladə sözünün mənasını anlamırsız?

*Pauza*

— Etiraf eləyim ki, Ayaz, dəhşətli səhvlərimi anladıqca, həmişə dərin peşmançılıq hissi keçirmişəm. Hətta, bir neçə dəfə özümü öldürmək qərarına gəlmişəm. Bacının sonrakı taleyini düşünüb, niyyətimdən əl çəkmişəm.

— Buna inanıram və təbii hal kimi baxıram.

*Pauza*

— Məsələ açılsa, kimlərinsə qınağına çevriləcəm. Kimsə düz gözlərimin içinə deyəcək: cinayət törətmisən. Sən övlad qatilisən! Cinayətkarsan! Onu da özüm bilirdim ki, səni atmaqla mən qüruruma, şəxsiyyətimə, mənliyimə tüpürmüşəm. Özüm özümə xəyanət eləmişəm. İndi elədiklərim üçün vicdan əzabı çəkirəm.

— Buna da inanıram.

— Bu xatırlatmalarla özümü namuslu adam kimi təqdim eləmək fikrindən çox-çox uzağam. Yaşımın bu həddində içim elə qırılıb ki, şöhrət, dəyər çələnginə ehtiyac duymuram.

— Səma xanım, bilməlisən ki, tək mənim yox, "Kimsəsizlər evi"nə atılanların ömrünə valideynləri tərəfindən dəhşətli zəhər qatılıb. Uşaqlardan bəziləri "Kimsəsizlər evi"ndə dünyalarını dəyişdilər. Bəziləri dəhşətli xəstəliklər tapdılar. Kimlərsə türmələrdədi. Kimlərsə hazırda binaların girəcəklərində, parklarda, harda, harda mürgü döyürlər. Gecə-gündüz küçələrdə "axtarışlar" aparırlar.

*Pauza*

Görəsən, belə valideynləri Allah bağışlayacaqmı?





— Bağışlamadığındandı ki, daim əzablar içərisində boğuluruq.

— Xarakterim hələ mənə də məlum deyil. Çətindi, asandı, deyə bilmərəm. Mənə zahirən bələd olan kəs heç vaxt ağlına gətirə bilməz ki, mən həqiqətən də, onun tanıdığı şəxsəm. Mən onu anlayıram. Düşünəcəksiz ki, mən nəzakətsizəm, qorxuluyam, hər cür cinayət törədə bilərəm; oğruyam; narkomanam; dalaşqanam; adam öldürə bilərəm...

*Pauza*

— Mənim də adam tanımaqda təcrübəm var. Bu dediyin xüsusiyyətlərin heç biri səndə yoxdu.

— Mən demədim ki, cinayətkaram, daxilən ziddiyyətliyəm, Səma xanım.

*Pauza*

— Cinayətkar mənəm, Ayaz, sən yox. Doğma balasını atan ananın vicdanı heç vaxt sakit ola bilməz. Gecə-gündüz özünü didər. Onu Allah da bağışlamaz.

— Siz istedadlı aktrisasız. Mən neçə dəfələrlə sizin oynadığınız "Əsgər anası" pyesinin tamaşasına baxmışam. İfa elədiyiniz Mələk obrazının xarakterini çox gözəl açırsız. Doğrusu, o bacarığınıza heyran qaldım. Siz də, o obraz da mənim yaddaşıma həkk olunmusuz.

— Çox sağ ol, Ayaz.

*Pauza*

— İndi siz danışdıqca, bir kiçik rəvayət yadıma düşür. Ovçudan bir az aralıda yatan tula diksinib atılır. O, yerdə, dimdiyinin yanlarında sarılıq və başında pərqu yuvadan düşmüş körpə bir sərçə görür. Bala sərçə itdən qorxur və aciz halda qanadlarını çırpıb uçmaq istəyir. Ancaq uça bilməyib yerə düşür. İt ona yaxınlaşır. Ana sərçə ağacdan atılır itin qabağına. Tüklərini pırpızlaşdırır və ümidsizcəsinə, yazıq-yazıq, civildəyə-civildəyə iki dəfə itin ağzına — dişləri altına atılır. Balaca bədəni titrəyə-tit-

rəyə, səsi xırıldaya-xırıldaya ana sərçə balasını xilas etməyə çalışır. Daha doğrusu, özünü balasına fəda eləyir. Bunu görən it ayaq saxlayır, sərçəyə baxır və nə fikirləşirsə, üzünü çevirib gedir...

*Pauza*

— Çox gözəl rəvayətdir.

— Bəli! Mən başa düşə bilmirəm, şüursuz sərçə öz həyatını təhlükəyə atıb, balasını xilas eləməyə çalışdığı halda, necə olur ki, möhtəşəmliyinə hər cür şərqi oxuduğumuz analar doğmaca övladlarının həyatına qəsd eləyirlər.

— Oh... İçimi tərpətdin, Ayaz. Rəvayətə əsaslanan sözlərin canımı alır.

— Doğrusu, bu sualın cavabını nə qədər çalışıramsa, tapa bilmirəm. Gülməlidi, elə deyilmi? Deməli, bunun üçün sevgi lazımdı, məhəbbət lazımdı. Təəssüf ki, doğma balasını atan bəzi analar ondan məhrumdular.

*Pauza*

— Görkəmim göz oxşasa da, suyum kimsəyə şirin gəlsə də, tam əminəm ki, bədbəxtəm. İçimdəki ziddiyyəti məni mühit, ünsiyyətdə olduğum adamlar, görüb-eşitdiyim hadisələr yaradıb. Mən yaşayan ömrü kim yaşasaydı, inanıram ki, o da qəddar olardı.

— Bu, sənə öz övladını atmağa əsas vermir. Eşidənlər sənə ya gülərlər, ya da — Bəhanə eləyir — deyib gedərlər.

*Pauza*

— Adamlar olanlardan xəbər tutsalar, üzünə deməsələr də, inanıram, arxanda ünvanına olmazın təhqiramiz sözləri işlədərlər.

— Səma xanım, olanları səndən savayı kim bilir ki, o da aça?

*Səma yumaq kimi yumulur. Ayazın ona yazığı gəlir.*





— Yox, Ayaz, açılmasa da, vicdanım mənimlədi. Axı, içimi lərzəyə salan rüsvayçılığım özümə bəllidi. Özüm özümdən qaça bilmərəm ki?

*Ayaz başımı ustufca yelləyir. Təskinlik verirmiş kimi etinasız halda.*

— Bu, o deməkdi ki, canındakı xəstəliyin viruslarına müqavimət göstərən hüceyrələr bədənində hərəkətdədi. Əgər o, həqiqətən varsa, şübhəsiz ki, xəstəlikdən qurtulma, sağalma ehtimalın da var.

*Pauza*

Bəli, bu, o deməkdi ki, içində işıq var, o hələ tam sönməyib. Üstündə çalışıb-vuruşub onu gücləndirə bilərsən.

— Sənin dediklərin, Ayaz, dörd-beş yaşlı uşaqların qamışdan at minib, özləri də bilmədən, uçurumun kənarında böyük həvəs və aludəliklə çapmalarına bənzəyir.

— Olsun, Səma xanım, sevinc, iftixar hissinə bənzər əhvali-ruhiyyəni hərdən bir an da olsa, mən də keçirirəm. Özümçün arsız-arsız “xoşbəxtlik” sandığım bu mərəkəli aləmdən qəflətən ayrılıb, o uşaqlıq xatirələrimin ümmanına atılıram.

*Pauza*

Dənizkənarı Parkda doğma anamın yoxa çıxması; polis şöbəsinə düşməm; “Kimsəsizlər evi”nə aparılmam; adyalın altına başımı soxub hıçqırmam; göz yaşlarıyla balıncımı islatmam... Sonrakı girdablar. Nələr, nələr... Olub-keçənləri xatırladıqca, bütün bədənim titrəyir. Doğma adam axtarıram ürəyimi açmağa.

*Pauza*

Təəssüf ki, ruhumla bağlandığım yeganə adam Nərmin idi ki, o da vəfat etdi.

— Nərmin sevgilin idi?

*Pauza*

— Bəli!.. Sevgilim idi. O, başıma sığal çəkəcək doğmaca anam idi. Mənə ən ağır anlarımda təskinlik verəcək bacım idi.

*Səmanı qəhər boğur.*
*Axşam Səma Ayazı evinə dəvət eləyir.*

— Yox, gələ bilmərəm, məndən incimə.
— Nədən çəkinirsən? Evdə tək Səmradı. O da sənin bacındı.
— Sən söhbəti açsan, Səmra bizə necə baxar?
— Ondan narahat olma. Geç-tez o da hər şeyi bilməlidi.
— Bəlkə Səmra ailə qurandan sonra sirrin açılması məsləhətdi.
— Yox... Mən o vaxtacan dözə bilmərəm. Xahiş eləyirəm.
— Yaxşı, bir azdan gələrəm.

*Kadr dəyişir. Ayaz Səmagilə gedir. Səmra da evdədir. Salamlaşırlar. Səmra Ayaza çay gətirir.*

**Səma:** Səmra, mən sənə ailəmizin mühüm, ancaq ürək yandıran, qəlb sızladan bir sirrini açmaq istərdim.

*Pauza*

Elə bir sirrini ki, onun dövrəyə buraxılması mümkün deyil.

*Səmra anasına diqqətlə nəzər salır.*

**Səmra:** Yenə nə baş verib? Bizi dəli eləmə. Səndə nə sirr ola bilər?.. *(Gülümsünür)* Adam-zad öldürməmisən ki?.. *(Zarafatla)* Elə şey varsa, anam-bacım, məni ora qatma. Mənim dama girəsi halım yoxdu.
**Səma:** Ayaz mənim oğlumdu. Mən də onun anasıyam...
**Səmra:** Hansı kişidən?..





*Səma tutulur.*

**Səma:** Eyni kişidənsiz.
**Ayazın daxili səsi:** Aman Allah! Qulaqlarım nələr eşidir?! Gözlərim nələr görür?! Həyat insanları nələrlə qarşılaşdırır?! Səma sadəlövh, bacımsa yüngül xasiyyətli, mənsə tamam başqa cür bədbəxt. Tale bizim üçümüzü də əzib. Saxta həyat tez-tez ağlımı, duyğularımı dolaşdırır.

*Pauza*

Qəflətən qalxan küləyin qalaqladığı zir-zibillər kimi düşüncələrim gah bir yerə toplanır, gah da hara gəldi, səpələnir. Bəd duyğular bəd fikirlər doğurar. Belə olanda, insan qəlbindəki pak, ülvi duyğulara xəstəlik virusları səpilir.
**Səmra:** Ana, sənin dediklərin cəfəngiyatdır. Mənimsə cəfəngiyatlara qulaq asmağa nə vaxtım var, nə də həvəsim.
**Səma:** Sən mənim dediklərimə inanmaq istəmirsən, nahaq. Mənim dediklərim həqiqətdi, qızım.
**Səmra:** Sən hər şeyi şişirdirsən. Belə fırıldaqlara girişmə. Cəmiyyət pozulub. Hamı bir-birinə fırıldaq gəlir... Dələduzluq həddini aşıb... Ana qızı, ata oğlu, bacı bacını... fəlakətlərə çəkir.

*Ayaz Səmrayla söhbət eləmək, çənə çənəyə vermək istəmir. Getmək niyyətilə ayağa qalxır, dilucu xudahafizləşir və qapıya yönəlir.*

**Səma** *(Ayaza)*: Dayan. *(Cəld stuldan qalxır və qarşısına keçir. Ayaz dayanır, təəccüblə Səmranın üzünə baxır)*. Bu nə münasibətdi, Səmra? Deyirəm, Ayaz qardaşındı. Heç sənin tükünə də təsir eləmir. Mən bu hərəkəti sənə bağışlamaram. Bu ayrılıqda Ayazın heç bir günahı yoxdu. Bütün günahlar məndə olub.

*Pauza*

**Səmra** *(təəccüblə)*: Mən neyləməliyəm? Sənin elə yöndəm-

siz, gülünc, sadəlövh hərəkətlərin var ki, onlara məəttəl qalıram. Ayazın sənin oğlun, mənim qardaşım olduğuna sübut varmı?

*Ayaz əsəbiləşir və özünü hər vasitəylə ələ almağa çalışır.*

**Ayaz:** Səmra, əvvəla, səninlə görüşə mən dəvət olunmuşam. Öz təşəbbüsümlə gəlməmişəm. İkincisi də, Səmaya mən özümü: — Oğlunam, — deyə təqdim eləməmişəm ki, sən fakt-sübut axtarasan...

**Səmra** *(üzünü Ayaza tutaraq)***:** Yəqin anama baxıb mənə də elə qiymət verəcəksən?

**Ayaz** *(dərhal)***:** Anana nə olub ki? Südü ilə böyümüsən, çörəyini yeyirsən. Səni yanında saxlayıb, gəlib deyəcəm, ancaq çox şişirdib. İndi də onu bəyənmirsən? Ona görə də böyük ədayla tez-tez həddini aşırsan. Adam tanımaq istəmirsən.

**Səma:** Səmra, hər ikinizi bura mən çağırmışam. İstəmişəm, öz başımıza gələnlərə özümüz aydınlıq gətirək. Öz əllərimlə özümü oda salmışam, gecə-gündüz əzablar çəkmişəm. Bu nə danışıq tərzidi səndə?

*Pauza*

**Səmra:** Ayağının altına daş qoyma. Ömrümüz yarı olub. İndiyədək qardaşım olduğunu bilməmişəmsə... Sabah Güloğlan mənə deyəcək: "Ana çıxan ağacı qızı budaq-budaq gəzər".

**Səma:** Bu, nə deməkdi? Gələcəkdə yoluna çıxacaq kol-kosu, daş-kəsəyi təmizləmək?

**Ayaz:** Baş verən hadisələrdə sən deyənlər özünü doğruldacaq. Hələ əlavə söz-söhbətlər də çıxacaq. Yadında saxla, işlətdiyin sözlərinin, yersiz iddialarının mahiyyətində ciddi qəzəb və amansızlıqlar var. Bilmək istəsən, bu ailədə mənim də öz yerim, öz çəkim var. Qəbul eləmək istəmirsən, bu başqa məsələ. Ən çətin dövrlərimi sizsiz yaşamışam... Şükür eləyirəm ki, tale bizi





üzləşdirib. Bu söhbətə oturmuşuq.

**Səmra:** Əgər, doğrudan da, anam səni atıbsa, bəyəm, mən bu gün müqəssirəm?

**Ayaz:** Xeyr... Sən də müqəssir deyilsən.

**Səmra:** Bəlkə, müqəssir sən özünsən. Yəqin balaca vaxtı o qədər ipə-sapa sığmamısan ki, anam bezib, səni atmaq qərarına gəlib. Qundaqda ola-ola mən neyləməliydim?

**Ayaz:** Hə... İmkan ver, onu Səma xanım özü desin.

**Səma:** Müqəssir mənəm.

**Ayazın daxili səsi:** Sözün əsl mənasında bu sözlər amansız, şikəst bir qəlbdən, düşüncəsiz və axmaq başdan süzülüb gələ bilər.

*Ayaz Səmraya tərəf dönərək*

Bura gələndə belə də düşünürdüm.

*Pauza*

Ana-bala, bacı-qardaş — biz bir-birimizdən çox uzaqlaşmı--şıq. Aramızda istək, sevgi yaradacaq hisslər, duyğular çoxdan dəfn olunub.

**Səma** *(Səmraya)*: Söhbətə səninlə ona görə oturdum ki, cavansan, həyata daha açıq gözlə baxa bilərsən. Təəssüf. Çox təəssüf ki, mən indi də yanıldım. Ehtimallarım düz çıxmır. Ancaq bu münasibətlər məndə belə bir qənaət hasil eləyir ki, sənin də mənim kimi uşağın olar, ağlına yüz cür fikirlər gələ bilər, öz ciyərparanı sən də "uf" demədən atarsan. O acı təcrübənin şahidi və törədicisi olan bir adam kimi sənə deyirəm, elə səhvlərə yol vermə. Yandırsan, yanacaqsan.

*Pauza*

**Səmra** *(çılğınlıqla)***:** Sən mənə daha ağıl vermə. Mən uşaq deyiləm. Əli hər şeydən üzülən, suda boğulan saman çöpünə əl atar. Sənin sadəlövhlüyün həmişə başına oyun açıb.

**Səma** *(qəzəbdən qızararaq)***:** Bəsdi, Səmra. Sən danışdıqca

mən ölürəm. Neçə illər ərzində ağılsızlığım ucbatından yaşamamışam. Qəbirdə olmuşam. Cismim gəzib dolansa da, ruhum donub.

*Ayazın gözləri dolur.*

**Səmra:** Kimdi günahkar?
**Səma:** Mən özüm.
**Səmra:** Onda cəfasını çək.
**Səma:** Sən bu yekəxana danışdıqlarınla nə demək istəyirsən? Yox, bəsdi, mən Ayazı daha gözümdən uzağa qoymayacam. Sən bilirsənmi ki, mən bu gün Ayaza "Oğul" — deyə bilmirəm. Mən öz istəyimlə vaxtıyla analıq haqqımı, hüququmu itirmişəm.
**Səmra:** Ona da günahkar özünsən.

*Pauza*

**Səma:** Dərk eləyirəm... Əgər Ayaz məni qəbul eləyirsə, mən onun qarşısında ölməyə də hazıram.
**Ayaz** *(dərhal)*: Sən nə danışırsan? Nə ölmək? *(Üzünü Səmraya tutaraq)* Səmra, mən anamızın keçirdiyi hissləri duyuram, narahatlığını görürəm, anlayıram. İstəyirəm, sən də biləsən, o, yanır, cızdağı çıxır.

*Pauza*

Tək o, alışıb-tutaşmır, mən də onun vəziyyətindəyəm. Səninsə xəyalın... Bilirsən niyə? Daim ananın kölgəsində yaşamısan. Onun nəvazişlərilə uyumusan. Anasızlığını hiss eləməmisən.

## XXII bölüm

**Səma:** Ayaz, sən danışdıqca... Bu dilləri sənə kim öyrədib?
**Ayaz:** Kim öyrədəcək? Dərd hər şeyi adama aşılayır, öyrədir... Bilirəm, anamız gec də olsa, səhvini başa düşür, xəcalət çəkir, ancaq mənə yaxınlaşa bilmir və ömrü boyu da qasırğanın





yandırıcı təsirindən yaxa qurtara bilməyəcək. Onu da etiraf eləyim ki, anama yazığım gəlir.
**Səmra:** Bəlkə, anama belə yanaşmada, nəsə, umacağın var. Varsa, heç nəyə əlin yetməyəcək.

*Pauza*

**Ayaz** *(sakit tərzdə)*: Hə.. Belə de. Anamın quru dörd divarını umuram? Kiçik adam, cılız hisslər... Mənə maddi heç bir şey lazım deyil. Mənə lazım olan anamızın istəyi, təmiz nəfəsi, isti hissləridi, Səmra.
**Səma:** Səmra, Ayazı sən başa düşə bilməzsən. Çünki onun keçirdiyi hissləri sən keçirməmisən.
**Ayaz:** Mən beş yaşımdan ana nəvazişinə, ana hissinə, duyğusuna, ana əzizləməsinə, tumarına həsrətəm. Mənim nə axtardığımı bilmək istəsən, bunlardı. Mən anamı tanımışam. Mənə elədiyi bütün məhrumiyyətləri ona əziz balası kimi bağışlayıram. Mən indi təsadüfi qəza nəticəsində ölsəm də, dərdim yoxdu, Səmra.

*Səmra tutulur. Düşünür. Dediklərinə görə peşmançılıq hissi keçirir. Birdən-birə hönkürtüylə ağlayır. Ağlaya-ağlaya Ayaza yaxınlaşır, onu qucaqlayır. Üz-gözündən, boyun-boğazından öpməyə başlayır. Səma da onlara qoşulur. Ayaz onları qolları arasına alır və o da hönkürür.*

**Səmra** *(gülümsünərək)*: Bütün bu dediklərim acığa əsaslanan sözlərdi, Ayaz. Ancaq kimə acıq elədiyimi düz-əməlli özüm də bilmirəm. Sənsiz mən də düşünürəm: anam niyə məni yox, səni atırdı? Axı, niyə də ataydı? Səni tanımadığı, naməlum adamların ixtiyarına verən anam, görəsən, o zaman nə düşünmüşdü?
**Ayaz:** Düzünə qalsa, heç nə. Olsa-olsa maddiyyət. O da hisslərin təsirilə...

**Səmra:** Anam bu barədə bir söz deməsə də, nəyə görəsə tez-tez ölüb-dirilirdiyini duyurdum!

*Pauza*

**Ayaz:** Bəlkə mühakiməyə son qoyaq. Söz danışdıqca ucuzlaşır, qədirdən düşür.

**Səmra:** Ürəyin çox böyükdü, Ayaz. İndi mən deyirəm, anamız xəcalətindən, utandığından sənin üzünə baxa bilmir. Hissləri, duyğuları donub. Bəlkə də səni atanda belə olmayıb. Sənin atılmağında bircə adam günahkardı, o da anamız. Buna heç nə ilə bəraət qazandıra bilməz.

**Ayaz:** Günahkar axtarmıram.

**Səmra:** Vicdanla anamızın bu hərəkəti arasında heç bir əlaqə-filan görmürəm. Mən təkrar eləyirəm, hər kəs öz cəzasını çəkməlidi. Anama sənin atılmanla bağlı cəza versələr, mən nəinki etiraz eləyərdim, hətta, o cəzaya haqq da qazandırardım.

**Ayaz:** Mən hər şeyə təbii hal kimi baxıram. Ona görə də onu bağışlayıram. Ancaq sən qərarında çox qəddarsan.

**Səmra:** Bütün bunlara baxmayaraq, ona sevinirəm ki, anam səninlə mənim bacı-qardaş olduğumuza bizi inandıra bildi. Bununla da, üstündən elə bil, dağ götürüldü.

*Pauza*

**Ayaz:** Hər şey geridə qaldı, Səmra. Mənim də uşaqlıq eləməyə haqqım yoxdu.

**Səma** *(göz yaşları axıda-axıda)***:** Başımıza gələnlərdən xəbərdar olanlar məni ifritə də adlandıra bilər.

**Səmra** *(əhvalı yüngülləşir)***:** Hər kəs özünə cavabdehdi.

*Pauza*

**Səma:** Mənim balalarım, indi sevincimin həddi-hüdudu yoxdu. Günahım ucbatından itirdiyim arxamı, dayağımı tapdım. Ayrı gəzib-dolaşsanız da, ətiniz, qanınız birdi. Yaşım elə həddə çatmaqdadı ki, sabah mən olmaya bilərəm.

**Səmra:** Yaxşı... Bəsdi... Özünə qapılma.





**Səma:** Qızım, indi mən arxayınam ki, arxanda dayanacaq qardaşın var.

**Ayaz:** Gəlin, hər şeyə keçmiş deyək.

**Səma:** Mən niyə həqiqəti etiraf eləməyim? Gerçəkliyin üstünə qara bir pərdə çəkim? Axı, pərdə qaldırılmadığı təqdirdə yenə reallıq olduğu kimi üzə çıxacaq.

*Pauza*

**Ayaz:** Ana, səni başa düşürəm. Sən çox vasvasısan. Son dərəcə düşkün mühitdən çıxmısan və sonralar da ona bənzər mühitdə yaşamısan.

**Səma:** Tamamilə doğrudu, Ayaz. Elə bil, yanımda olmusan... Mən cavanlığımda lovğa, təkəbbürlü, eqoist olmuşam. Atanızla da bir neçə il kəbinsiz yaşamışam. Onun ayrı evi, ailəsi olub. Mən onun arvadına şərik çıxmışam. Beləcə, sizi dünyaya gətirmişəm.

**Səmra** *(gülərək)***:** Çox ağıllı iş görmüsən. Bir az da ucadan danış.

**Səma:** Acı da olsa, həqiqət belədi, qızım.

**Ayaz:** Atam barədə...

**Səma:** Atanız məndən ayrılandan sonra vərəmə tutuldu və vərəmdən də dünyasını dəyişdi. Çox kiçik olduğunuzdan, atanız barədə sizə bir söz demədim.

**Ayaz:** Həmişə mən də atam barədə düşünmüşəm...

*Pauza*

**Səma:** Ayaz, inan, səni atandan uzun müddət, az qala, dəli olmaq dərəcəsinə çatırdım. Sən gələli üz-gözündəki cizgilər, hissiyyatım mənə çox şeylər deyirdi. Kimsəyə bir söz deməsəm də, ilk görüşümüzdə sən atılmış beş yaşlı oğlandan söhbət açanda, bütün varlığım sarsılmışdı. Səmra olmasaydı, bəlkə də özümü öldürə bilərdim...

**Səmra** *(gözlərinin yaşını silə-silə, hıçqıra-hıçqıra)***:** Ayaz, anamız mənə bir söz deməsə də, daim ağlayırdı. Gözlərinin yaşı

səngimirdi. Hətta, bir neçə dəfə mənə demişdi: "Sən olmasaydın, qızım, mən özümü çoxdan öldürmüşdüm". Bu sözləri nə üçün dediyinin səbəbini indi anlayıram. Anamız çox şeyi içində çəkirmiş.

**Səma:** Cavanlığında adamın düşünülməmiş, insafa, mürvətə söykənməyən addımları olur. Ən yaxın, ən doğma adamlarına bir göz qırpımındaca qəsd eləyə bilərsənmi?..

*Kadr dəyişir. Dəbdəbəli ofis. Ayazla Cəmil gözləmə zalındadılar. Katibə kabinetdən çıxır, Ayazla Cəmilə içəri keçmək işarəsi verir. Onlar kabinetə girirlər. Geniş və səliqəli kabinet. Müasir mebellər. Masanın üstündə Azərbaycan bayrağı. Fərəc kompyuterdə işləyir. Fərəc ayağa qalxır, Ayaz və Cəmillə görüşür. Əyləşirlər. Katibə kofe gətirir. Dostlar sevinirlər.*

**Fərəc:** Bu gördükləriniz, etiraf eləyim ki, heç də mənim hünərim deyil.

**Ayaz** *(dərhal)***:** Yox, Fərəc, elə danışma, qardaşım. Qabiliyyətsiz heç nə olmur. Yadındamı, Baron olmaq istəyin?.. Köçəri məsələsi. Direktor Nəzirəni susdurmağın... Təcrübəsiz Fərəcin ilk addımları...

*Hər üçü gülür.*

**Cəmil:** Bağışla Fərəc, biz kabinetinə çarıqlı-patavalı gəldik.

**Fərəc** *(dərhal)***:** Kabinetimə yox... Biz burda sadəcə görüşə toplaşmışıq. Qaldı çarıq-patavaya. Qurban olaram, çarığınıza da, patavanıza da.

**Ayaz** *(gözləri dolaraq)***:** Sən canın elə demə. Görüb-götürəcəyimizsən. Məsləhətçimizsən.

**Cəmil:** Keçmişimizi düşünəndə dəhşətə gəlirik. Şükür, bu günümüz də varmış.





*Pauza*

**Fərəc:** Mən burda oturmuşam. Sizinlə nəfəs alıram. Bilirsiz, nə qədər sizsizləmişdim? O gün Cəmil, Ayazla sənin, Xatirənin, Nihadın, Firuzun barəsində söhbət elədik. Hal-əhval tutdum. Nərminin ölümü məni də halbahal elədi. Neyləmək olar, görünür, qismətimiz belə imiş... Nə isə...

**Cəmil:** Onun faciəli ölümündən danışma. Hamımızı sarsıtdı. Yaxşı qız idi. Vaxtsız getdi. Heyf ondan. Çox heyf...

**Fərəc:** Neyləmək olar. Başımız sağ olsun... Mənim vəziyyətim sırf təsadüfidi desəm, inanın. Mən "Kimsəsizlər evi"ndən çıxanda özümə özəl təşkilatlarda iş axtarırdım. Çox təşkilatlara müraciət elədim. Bir şey alınmadı. Əlacsız qalıb, bu təşkilata gəldim.

*Pauza*

Həyətdə səliqəli geyimli, ucaboy, yaraşıqlı bir kişiyə rast gəldim. "Kimsəsizlər evi"ndən çıxdığımı və qarnımı doyurmaq üçün iş axtardığımı bildirdim. Kişi mənə diqqətlə baxdı. Hiss elədim ki, sözüm onu tutdu, mənə yazığı gəldi.

*Ekran qaralır, sonra ağarır. Fərəcin gözləri önünə qayınatası ilə ilk görüşləri gəlir.*

**Fərəc:** Dayı, mənim gücüm var. Mən işləmək istəyrəm, avaralanmaq yox...

*Kişi mehribanlıqla Fərəcə baxır. Gülümsünür.*

— Nə işdə işləyə bilərsən?

— Yük boşalda, daşıya bilərəm. Hər nə desəniz. Gecə qaravolçusu da.

*Kişi ani fikrə gedir.*

— Gəl dalımca.

*Fərəclə kişi maşına əyləşirlər. Maşınla metlax, kafel satılan mağazaya gedirlər. Kişi mağazanın sahibinə yaxınlaşır.*

**Kişi:** Bu uşağa hələlik, qarnını doyuracaq iş ver. Qoy işləsin. Yatacaq da təşkil elə. Bir müddətdən sonra yerini dəyişəcəm.

*Ekran yavaş-yavaş qaralır. Sonra ağarır. Kamera Fərəcin kabinetini, Fərəci, Ayazı və Cəmili göstərir.*

**Fərəc:** Mən üç aydan artıq həmin mağazada işlədim. Mağazanın sahibinin o kişinin qardaşı olduğunu ağlıma da gətirməzdim.

*Pauza*

Gah böyük yük maşınlarından yük boşaldır, gah yük daşıyır, gah da kafel-metlax satışıyla məşğul olurdum. Xeyli keçdi. Həmin kişi tərəfindən unudulduğumu düşündüm... Günlərin birində gözlənilmədən qara, xarici markalı minik avtomobili mağazanın qarşısında dayandı. Həmin kişi maşından düşdü. Birbaşa üstümə gəldi.

*Ekran yenə qaralır və ağarır. Kişi ekranda görünür. O, Fərəcə əl uzadır. Görüşürlər.*

**Kişi:** Necədi, təcrübə toplaya bilmisənmi?
— Bəli!
— Elə isə səni xaricə yola salacam. Gərək həmkarlarını pis vəziyyətdə qoymayasan.
— Qoymaram... Çalışacam hər şey sizin ürəyinizcə olsun.

*Fərəcin sözləri kişinin xoşuna gəlir.*





— Türkiyəyə get. Kommersant dostlarımızla görüş. Kommersant olmaq təkcə alver məsələsi deyil. O, psixoloji xidmət olmaqla həm də adamlarla ünsiyyətə girmək bacarığıdı. Bəzi siyasi gedişlərə yiyələnmək mədəniyyətidi.
— Oldu.
— Atan kimdi, nəçi olub?

*Fərəc çiyinlərini çəkir. Kişi fikrə gedir.*

**Kişi:** Yaxşı, çalış etimadı qazan.

*Ekran qaralır, sonra ağarır. Adi günlərdən biri. Kişi Fərəcin yanına gəlir. Fərəc etiram əlaməti olaraq oturduğu stuldan qalxır. Kişiyə salam verir.*

— Eşidirəm.
— Maşının baqajında ərzaq var. Onu bizim evə çatdır.
— Oldu.

*Fərəc maşının açarını alır. Kadr dəyişir. Kişigilə gedir. Onu qapı ağzında kişinin xanımı Münəvvər qarşılayır.*

— Oğlum, qalx evə, çay iç. Tərlisən. Xəstələnərsən.
— Yox, xanım. İş çoxdu.
— İş həmişə var. Qalx yuxarı.

*Fərəc etiraz eləmir. Evə keçir. Münəvvər xanım ona çay verir. Fərəc bir-iki qurtum içir, qapı açılır. Gənc bir qız içəri girir. Salamlaşırlar.*

**Münəvvər** *(qızına)*: Şahanə, qızım, hazırlaş. Xalan səni gözləyir, onlara getməlisən.

*Şahanə Fərəcin, Fərəc də onun xoşuna gəlir. Ekran yavaş-yavaş qaralır, tədricən açılır. Yenidən kamera kabinet və dostları göstərir.*

**Fərəc:** Mən Şahanəylə ailə qurdum. Bir oğlum, bir qızım var. Bir il əvvəl qayınatam Toğrul obyekti mənə verib, özü təqaüdə çıxdı. İndi sakit, söz-söhbətsiz yaşayıram.

**Ayaz:** Sevinirəm, Fərəc. Gərək sədaqətini qayınatandan əsirgəməyəsən, dostum.

**Fərəc:** O, mənə həyat verdi. İndi şəhərin müxtəlif yerlərində tikinti materialları satılan obyektlərim var.

*Pauza*

İstəyirəm, hərənizi bir obyektə göndərim. İşinizi qurun. Sizə bir-iki məsləhətim də var. Adamları incitməyin. Nəfsinizi cilovlamağı bacarın. Tez varlanmağa çalışmayın. Çalışsanız, özünüzü itirəcəksiz. "Kimsəsizlər evi"ndən çıxdığımızı gərək unutmayaq.

*Pauza*

Qaldı Nihadla Firuza, hərəniz onlardan birini çəkərsiz qanadlarınız altına...

**Ayaz** *(Fərəcə)***:** Fərəc, qardaşım, bundan sonra səni necə adlandıraq? Baron, yoxsa şef?.. Əlbəttə, bu, bir uşaqlıq çağlarımızın zarafatıdı.

**Fərəc** *(ucadan gülür)***:** O Köçəriyə yönəlmiş planın tərkib hissəsi idi. Sizin üçün həyatım boyu Fərəcəm, Ayaz!

*Fərəc kiməsə zəng edir.*

— Dur bura gəl, Şahlar.

**Cəmil:** İndi biz sənə mane olmayaq.

**Fərəc:** Şahlar gəlir, sizi obyektlərlə tanış edəcək.





*Şahlar içəri girir, salam verir.*

**Fərəc:** Bunlar mənim dostlarımdı. Onlara özüm qədər inanıram. Cəmili taxta-şalbana, Ayazı isə kafel-metlax, oboy obyektlərinə nəzarətçiliyi həvalə elə. Sonrasına baxarıq...

**Şahlar:** Baş üstə... Oldu.

*Şahlar qabaqda, Ayazla Cəmil arxada qapıdan çıxırlar.*

*Kadr dəyişir. Şahlar Ayazla Cəmili obyektlərə aparır. Şıdırğı iş gedir.*

**Ayaz:** Şahlar, sən bizə görəcəyimiz işləri yaxşı izah elə. Etimadı doğrulda bilək.

**Cəmil:** Ayaz düz deyir. Yoxsa, biabır olarıq.

**Şahlar:** Qorxmayın. Fərəc nə qədər işgüzar, sərt və tələbkardısa, bir o qədər də ürəyiyumşaqdı. Adam başa düşəndi. Xeyirxahdı. İşçilərinə güzəştə gedəndi.

**Ayaz:** Xasiyyətinə bələdik. İş işdi. Gərək tələbi biz də yerinə yetirə bilək.

**Şahlar:** Hiss elədim ki, Fərəcin sizə böyük rəğbəti var. O, yalanı, fırıldağı, xəyanəti sevmir. Sözü düz adamın sifətinə çırpır.

**Ayaz** *(gülərək)***:** Ayə, çatmamış bizi qorxudub qaçırma.

*Gülüşürlər. Ayazla Cəmil sevinirlər.*

*Kadr dəyişir. Ayazın evi. Ayaz otaqdadır. Kitab oxuyur. Qapı döyülür. Ayaz qapını açır.*

**Səmra:** Anamın sənə deyiləsi sözü var.

— Nə söz? Əlimyandıdı?

— Bilmirəm... Gör nə deyir?

— Bu saat.

*Ayaz Səmranın ardınca gedir. Səma gülümsünür.*

**Səma:** Ayaz, həyatımızda bundan fərəhli hadisə olacağını düşünmürəm. Bacınla belə qərara gəldik ki, bu tanışlıq üçün çox da böyük olmasa, bir süfrə açaq. İstəyirəm, qonşular, hamı bilsin ki, sən mənim oğlumsan, Səmranın qardaşısan. Yenə deyirəm, heç olmasa, qonşular bilsinlər....

*Ayaz fikrə gedir.*

**Ayaz:** Ana, gəlin ailəmizin sirlərini hələ açmayaq.

*Səmra Ayazın sözündən şübhələnir.*

**Səmra:** Niyə? Ortaya çıxanlar həqiqətdirsə, sən, doğrudan da anamın oğlu, mənim qardaşımsansa, nədən qorxursan? Özümüzə aydın olan məsələni kimdənsə gizlətməyə ehtiyac varmı? Belə olmasa, gec-tez barəmizdə hərə bir şey uyduracaq.

*Ayaz məsələyə başqa yöndən yanaşır.*

**Ayaz:** Bacı, bir az səbrli olaq, tələsməyək. Bu məsələni açası olsaq, qonşular, tanış-bilişlər bizi müzakirə eləyib, özlərinin istəklərinə uyğun nəticə çıxaracaqlar. Anamız barədə yaramaz rəy formalaşdıracaqlar.

## XXIII bölüm

**Səmra:** Necə rəy formalaşdıracaqlar?
**Ayaz:** Onu nə sən biləcəksən, nə də mən. Uşaqlar kimdəndilər? Bu da təzə hoqqadı? Deyilənlər həqiqətsə, Səma qansız qadındı! Ailə bütünlüklə fırıldaqdı!





**Səma:** Doğrusu, bunlar heç ağlıma gəlmirdi. Düz deyirsən, Ayaz. Hələ bir qədər də artıq deyəcəklər.

*Pauza*

**Ayaz:** Ağlımıza gətirə bilmədiyimiz sözləri gülə-gülə üzümüzə deyəcəklər, çörəyimizi həvəslə yeyəcəklər, gedəndən sonra da arxamızca tüpürəcəklər. Eşidib-bilən müxbirlər də üstümüzə axışacaq.
**Səmra:** Aha... Düşünülməmiş hərəkət gör nə söz-söhbət yaradacaq... Ona şübhəmiz də olmasın.
**Ayaz:** Bütün aləm baş verənlərdən xəbər tutacaq. İş yerində, küçələrdə bizi barmaqla göstərəcəklər.
**Səma:** Düşünülməmiş hərəkət. Bunda deyirlər də dəvə başını soxur pambıq kollarının arasına, elə bilir, dalını görən yoxdu, Səmra.
**Ayaz:** Gözləyək. Sizə açıqlama verim ki, mən iş yerimi dəyişmişəm. Fərəcin yanında işləyirəm. Düşündüyümdən də çox məvacib alıram.

*Pauza*

Onun mənə və dostlarıma yaratdığı şəraitdən faydalanıb, kreditə üçotaqlı mənzil götürəcəm.
**Səmra:** Ayaz düz deyir, ana. Sağlıq olsun, ziyafəti o evdə eləyərik.
**Ayaz:** Həm də bütün ailə bir yerə cəmləşər. Bu evi istəyərsiz satarsız, istəyərsiz kirayəyə verib azdan-çoxdan xərclik götürərsiz.

*Ayazın son sözləri Səmranın ürəyincə olur. O, gülümsünür.*

**Səma:** Ziyafəti təxirə salırıq... Səmra, danışdıqlarımız sirr olaraq qalır.
**Səmra:** Anam-bacım, sizin ağzınızdan çıxmasa... Mən heç nə eşitməmişəm, heç nə bilmirəm.

*Kadr dəyişir. Axşam. Ayazın halı pisləşir. Belində ağrı hiss eləyir. Ağrı getdikcə şiddətlənir. Ayaz çarpayısına uzanır.*

*Qapı döyülür. Ayaz qapını açır. Ayaz ağrıdığını hiss etdirməməyə çalışır.*

**Səma:** Ayaz, gəl, çay iç, yeməyini ye, sonra gəlib dincələrsən.

**Ayaz:** Ac deyiləm. Bərk yorulmuşam.

— Bəlkə, duş qəbul eləyəsən?

— Yox... Sabah...

*Səma gedir. Ayaz çarpayısında uzanır. Ağrıdan qıvrılır. Əsəbləri gərilir. Onu yuxu aparır.*

*Kadr dəyişir. Səhərdir. Ayaz çarpayıdan qalxır. Çətinliklə yeriyir. Həyətə çıxır. Səmayla üzləşir.*

**Səma:** Yorğun görünürsən, Ayaz. Ağrımırsan ki?

**Ayaz:** Yox... Narahat olma.

*Kadr dəyişir. Ayazın iş yeri. Ayaz otağa girəndə yıxılır. Ağrı daha da artır. Öyüyür. Qapı açılır. Tərlan içəri girir.*

**Tərlan:** Nə olub sizə?

— Belim ağrıyır. Ağrı bütün içalatımı bürüyüb. İçim dağılır.

— Ola bilsin ya böyrəkdi, ya da... Bu dəqiqə tibbi yardıma zəng edərəm.

*Tərlan tibbi yardıma telefon açır. Tibbi yardım maşını gəlir. Hamı təəccüblənir.*

**Həkim:** Harda yaşayırsız?

**Ayaz:** Filan küçədə, 97 saylı evdə.





**Tərlan:** Kimə telefon açaq? Vəziyyətinizi bildirək.

**Ayaz:** Cəmilə.

**Tərlan:** Oldu.

*Tərlan Ayazın qoluna girir. Maşına mindirir. Maşın gedir. Kadr dəyişir. Xəstəxana. Həkim Ayazı müayinə eləyir. Hərarətini ölçür, ağrıkəsici iynə vurur. Cəmil hövlnak gəlir. Ayazı onun köməkliyi ilə palataya aparırlar.*

**Ayaz:** Biz kimə neyləmişik, Cəmil? Çəkdiyimiz mənəvi sarsıntılar azmış kimi, cismani cəzalara da düçar oluruq.

*Pauza*

**Cəmil:** Cəmiyyətin yarısı xəstədi. Sənin qədər deyinəni yoxdu.

**Ayaz:** Mən valideynlərimin günahlarını çəkirəm, yoxsa, özümün? Görünür, ədalət mizan-tərəzisi burda da pozulur. O, heç kimin istəyib-istəməməsindən asılı deyil. Həqiqətən də, qismət var. Tale yazısı var. Yoxsa, bu qədər ədalətsizlik mənim qarşıma hardan çıxa bilər?!.

*Cəmil palatadan çıxır. Nihadla Firuz palataya girirlər. Çox həyəcanlanırlar. Həkim gəlir.*

**Nihad:** Həkim, xəstənin vəziyyəti...

**Həkim:** Necə olacaq? Özünü elə aparır.

**Firuz:** Necə?

**Həkim** *(Ayaza)*: Əşi, özünü qadın kimi o qədər əzdirib-büzdürür, əsəbiləşirəm.

**Ayaz** *(həkimə)*: Sən canın, o yanda dur, mənim sənin müalicənə ehtiyacım yoxdu, paltarlarımı özümə qaytarın. Mən durub gedirəm.

**Nihad:** Səbrli ol, Ayaz.

**Firuz:** Bir az dözümlü ol, qardaş.

*Pauza*

**Həkim** *(Ayaza)***:** Özünü yaxşı aparmırsan. Unutma ki, sən xəstəsən, mən həkim. Hələ ki, sən mənim əlimdəsən.

**Ayaz:** Mən istəməzdim ki, bu palatada həkimlərin, tibb bacılarının, texniki işçilərin, xəstələrin gözləri önündə səninlə haqq-hesab çəkim.

**Nihad:** Sən də artıq-əskik danışma.

**Firuz:** Xəstəyə xəstə kimi yanaş.

**Ayaz:** Bezmişəm, bir tərəfdən həkim, o biri tərəfdən ağrı-acılar.

*Yaşlı şəfqət bacısı Ayaza yaxınlaşır.*

**Tibb bacısı** *(Ayaza)***:** Sən nə danışırsan? Bəlkə, hamımızı qırıb-batırasan? Görünür, sənə çox qayğısızlıq göstərmişik. Həkim neyləməlidi?

**Nihad** *(əlini Ayazın çiyinlərində gəzdirərək)***:** Qurtar söhbəti.

**Firuz:** Belə həkimdən şəfa gözləmək?

*Ayaz əsəbiləşir və çarpayının ortasında oturur.*

**Ayaz** *(əsəbi halda)***:** Ayə, soruşun görək, həkimin vəkili tibb bacısıdı?

*Pauza*

**Tibb bacısı:** Əcəb xəstədi. Elə bil, dünya görməyib. Özünü elə aparır, guya, hamının buna borcu var.

**Nihad** *(əsəbiləşir)***:** Bəlkə xəstənin sizə borcu var?

**Firuz** *(kinayə ilə)***:** Borcu olmasa, belə çənəgirlik eləməzlər ki?

**Ayaz:** Heç kimə borcum yoxdu, xanım. Mən qanunlarla təsdiq olunmuş haqqımı tələb eləyirəm.





**Tibb bacısı:** Əşi, nə haqq? Camaatdan nə istəyirsən? Utanqızar hərəkətindən. Abır-həya elə danışığından. Nə dərdin-çorun var, aç de. Yoxdu, rədd ol, camaatı bezdirmə.

**Nihad:** İblis...

**Firuz:** Neyləyim ki, qadınsan.

**Həkim** *(səsinin tonunu salaraq)***:** Yaxşı, yaxşı. İmkan verin, işimizi görək.

**Tibb bacısı** *(həkimə üzünü tutaraq):* Baş qoşma. Hər quyruq bulayana ağac atsan, heyin qalmaz.

*Həkim dinməz-söyləməz dayanır, şəfqət bacısının sözlərini dinləyir və Ayaza dediklərindən ləzzət alır. Hərdənbir üzündə təbəssüm görünür. Ayaz sakitcə çarpayıdan qalxır.*

**Nihad:** Ayaz, sərhədi keçmə.

**Firuz:** Bilirəm, ağrıyırsan, lazım olsa...

**Həkim:** Ayə, biz nə dedik ki?

**Tibb bacısı:** Bura davaya gəlmisən? Yoxsa...

*Yavaş-yavaş qapıya tərəf gedir. Qapını örtür, arxa cəftəsini bağlayır. Həkimə də, şəfqət bacılarına da iti nəzərlə baxır. Həkimin sifəti bozarır. Tibb bacısı qorxur.*

**Ayaz:** Gəlin əyləşin. Sizinlə ciddi söhbətim var.

*Xəstələri təəccüb bürüyür. Hamı bir-birinin üzünə baxır. Ayazın içi əsəbdən dağılır.*

**Tibb bacısı:** Əşi, sözdü, birini sən dedin, birini də biz. Qiyamət qopmadı ki? Bizi peşman eləmə.

**Ayaz** *(kəskin)***:** Dedim, əyləşin, mənim də səbrimin həddi

var.

**Nihad** *(həkimə)***:** Belə xəstə qəbul eləmirlər.

**Firuz:** Bunlarınkı çatmamış verdi.

**Həkim:** Əşi, sizdən pul istəyən var?

*Həkim də, şəfqət bacıları da əyləşirlər.*

**Nihad:** Qabında nə var, deyə bilmərəm, ancaq diliniz zəhərdi.

**Tibb bacısı:** Əşi, biz nə zəhərli söz dedik?

**Ayaz** *(səsinə bir qədər ara verərək)***:** Mən sizdən nə istəyirəm? Xəstə həkimdən, şəfqət bacılarından qayğı, nəvaziş tələb eləyər. Bundan artıq nə?

**Həkim:** Eləmirik?

**Tibb bacısı:** Biz də qardaş, sən deyənləri eləyirik də.

**Nihad:** Eləsəydiz, bu zurnaya ehtiyac olardı?

**Tibb bacısı:** Zurna nədi?

**Ayaz** *(dərhal)***:** Yox, eləmirsiz. Xəstələr arasında fərq qoyursuz. Xəstələrdən umursuz... Bəyəm, bunlar zurna deyil? Xəstələrə diqqət, qayğı, şirin dil gərəkdi. Siz isə, soyğunçularsız.

*Qapı döyülür. Ayaz qapını açır. Cəmil əlində torba gəlir.*

**Cəmil:** Ağrıkəsici alıb gətirmişəm.

**Tibb bacısı:** Ayaz...

**Ayaz:** Sus... Səsini çıxarma. Ağlınıza bələdəm. Sizinlə etik söhbətlər aparılmalıdı. Sizin özünüzə mədəniyyət lazımdı... Mədəniyyət... Mədəniyyət... Mədəniyyət... Bildiniz?

**Ayaz:** İndi gedə bilərsiz.

**Cəmil:** Bu nədi, Ayaz?





*Ayaz başını yelləyir. Həkim dərmanı alır. Tibb bacısı Ayazın qoluna bir iynə vurur.*

**Həkim** *(Cəmilə)***:** Qardaşın canı ağrıyır, əvəzini bizdən çıxır.

**Nihad:** Həkimin dili müalicəsi ilə yarıbayarıdı.

**Fərəc:** Həkim, etiraf elə ki, o dil də sizdə yoxdu.

**Cəmil:** Söz-söhbət qurtardı... Barışıq... Sülh...

*Ayaz çarpayısına uzanır. Onu yuxu aparır. Cəmil, Nihad və Firuz palatadan çıxırlar.*

*Həkim və tibb bacısı da dinib-danışmadan gedirlər.*

*Kadr dəyişir. Səhəri gün həkim cavan, ucaboy, Nuridə xanımla əvəz olunur. O, Ayazı müayinə eləyərək ciddi nəzarətə götürür. Təkrar rentgendən keçirir. Dərmanlarından bəzilərini dəyişir.*

**Nuridə:** Ayaz, narahat olma... Bu xəstəlik çox adamda var. Gərək özünü gözləyəsən... Ayaz, dünən həkimə, tibb bacılarına neyləmisən? Hamı səndən gileylənir.

**İkram** *(xəstə)***:** Əşi, olan şeydi. Çəkişməsən, bərkişməzsən.

**Salman** *(xəstə)***:** Həkimi tibb bacısı qızışdırdı.

*Ayaz suala sualla cavab verir.*

**Ayaz:** Həkim, dəli olmamışdım ki? Bəyəm, mən şərəşur adama oxşayıram? Onlar mənə, yoxsa, mən onlara? Nəsə eləmişəm? Sadəcə olaraq, mən haqqımı tələb eləmişəm.

*Sima gülümsünür.*

**Nuridə:** Səndən uzaq, eşitmisən də.

**Ayaz:** Nəyi?

**Nuridə:** Haqqı haqqını tələb eləyəndə, çox zaman dərisi boğazından çıxır... *(Hamı ucadan gülür.)* Yumşaq tərzdə də danışmaq olardı.

*Nuridənin çöhrəsində yüngül təbəssüm sezilir.*

**Salman:** İnşallah, təkrarlanmaz.
**Nuridə:** Çalışaq, o vəziyyəti biz də...
**Ayaz:** Yəqin ki, o hadisə təkrarlanmaz.
**Nuridə:** Oldu...

*Nuridə gedir. Ayaz çarpayıda uzanır. Səma gəlir. O, həyəcanlıdır.*

**Səma** *(titrək səslə)***:** Bu nədi, Ayaz? Xəstələnməyini, bura düşməyini mənə niyə deməmisən?
**Ayaz:** Məndə nə var ki? Sabaha-zada buraxacaqlar, gələcəm evə. Əziyyət çəkmisən.
**Səma:** Sən nə danışdığını bilirsən?

*Səma ağlayır.*

**Səma:** İnamsızlıqdı?
**Ayaz:** Nə danışırsan?.. Mən səni çox istəyirəm.
**Səma:** Ayaz, ürəyim köksümə sığmır, az qalır yerindən çıxsın...

*Ayaz anası gətirdiyi yeməkdən bir-iki loxma yeyir. Sonra onu yola salır...*
*Fərəclə Cəmil içəri girirlər. Hər ikisi Ayazı qucaqlayaraq öpürlər.*





**Cəmil:** Vəziyyətin necədi?
**Ayaz:** Pis deyil.
**Fərəc:** Həkiminlə danışmışam. Hər şey qaydasındadı. Qorxulu heç nə yoxdu. Bir az dincəl. Özünü çox gücə salma.
**Ayaz:** Narahat olmayın.
**Fərəc:** Evdəkilərin də sənə salamları var.
**Ayaz:** Təşəkkür eləyirəm.
**Fərəc:** Çalış, deyilənlərə əməl elə.
**Cəmil** *(ikimənalı)***:** Ayaz elə oğlan deyil.

*Gülüşürlər.*

**Fərəc:** Özün də tez sağal. Özəl projemiz var.
**Ayaz:** Çalışaram.
**Fərəc:** Cəmil də, Nihadla Firuz da səninlə əlaqə saxlayacaqlar. Özüm də tez-tez sənə telefon açacam. Nə lazım olsa, çəkinmə, de.
**Ayaz:** Oldu.

*Fərəclə Cəmil gedirlər. Ayaz çarpayısında uzanır.*
*Ayaz Nuridənin xidmətlərindən razıdır. Nuridə Ayazın xoşuna gəlir.*

**Ayazın daxili səsi:** Qəribədi, neçə gündü, nədənsə, həmişə Nuridəni görmək istəyirəm. İstəyirəm, o yalnız mənə məxsus olsun. Mən onu görəndə niyə çaşıram? Bəzən bildiklərimi unuduram. Deməli, mən onu sevirəm.

*Pauza*

Mənim onu sevməm azdı. Görəsən o hisslər Nuridədə də yarana bilərmi?!.

*İkramın səsi Ayazı düşüncülərindən ayırır.*

**İkram** *(gülümsünərək)***:** Bu Nuridə xanımı alan olsaydı, o da qaxılıb xarabasında oturardı.

*Pauza*

Hər axşam xəstələrə baxmaq adı ilə gəlib əl-ayağımıza dolaşmazdı. Burda ər axtarmazdı.

*Ayaz qalxıb çarpayının ortasında oturur. Acıqlı-acıqlı İkramı sezir.*

**Ayaz** *(İkrama)***:** Necə dedin, qanacaqsız? Anana da, bacına da o sözü deyərsənmi?

*İkram tutulur. Sir-sifəti bozarır.*

**İkram:** Sənə nə var, mənim Nuridəyə nə dediyimdən? Axmaq, həkim anan-bacındımı?

**Ayaz:** Məni təhqir eləmə, axmaq özünsən. Gərək ana-bacı ola? Azərbaycanlı xanımdı...

**İkram** *(təəccüblə)***:** Ayə, gic-cic danışma. *(Üzünü Salmana tutaraq)* Mənim millət təəssübkeşimə bax, ey. Ayə, sən millət qanırsan?

**Ayaz:** Ayə, yonulmamış, yenə təhqir?

*Pauza*

**Salman:** Ayə, kişiləşməyin. Ağrılarım məni öldürür. İmkan verin, dərdimizi çəkək. Özgə dərdi...

**Ayaz:** Nuridə bizə nə pislik eləyib? Həkim baxır, vay, baxmır, vay.

*Ayaz əsəbiləşir. Sıyrılıb çarpayıdan düşür. Salman İkramla Ayazın əlbəyaxa ola biləcəyini düşünüb araya girir.*





## XXIV bölüm

**İkram** *(Salmana)***:** Dəymə, qoy gəlib mənə əl qaldırsın.

**Ayaz:** Neyləyəcəksən?

**İkram:** Ayaz, sən əsəblərini müayinə elətdir. Gör vəziyyətin necədi?

**Salman:** Ayə, palata müalicə otağıdı, davaxana yox...

**İkram:** Deyirəm, qoy məni vursun. Görər mən neyləyərəm, onun səsi hardan gələr.

**Salman:** Ayə, bura küçə deyil, ey. Özünüzü kiməsə göstərəsiz. Nuridədən xəbərsiz qıracaqsız bir-birinizi. Polis də gəlib hər ikinizi aparacaq. Nə fikirləşirsən, Ayaz, bu həngaməni eşidən Nuridə yanına gələcəkmi? Sənə təşəkkür eləyəcəkmi?

*Pauza*

**İkram** *(dərhal)***:** Hay elədi, hay. Fəxrlə deyəcək: iki gic, iki dəli qırdılar bir-birilərini, mənim üstümdə.

**Salman:** Ayə, utanın. Qızarın. Səsinizi eşidib-bilənlər sizə ağız büzüb güləcəklər.

*Ayazla İkram geri çəkilirlər... Hər ikisi çarpayısına uzanır.*

*Kadr dəyişir. Ayaz palatada təkdir. Ayazın vəziyyəti yoluna düşür. O, həkimi gözləyir. Tez-tez saatına baxır. Nuridə palataya gəlir. Üzü gülür.*

**Nuridə:** Ayaz, özünü gözlə, çox gücə salma. Belindəki ağrı sinirlərə də təsir eləyir. Səni əsəbiləşdirir. Sənə tez-tez müayinə gərəkdi. Tapşıraram səni, yüngül masaj eləyərlər.

**Nuridə:** Oldu, həkim.

*Nuridə gedir və tez də əlində dərman geri qayıdır. Dərmanı Ayaza verir.*

**Ayaz:** Təşəkkür eləyirəm. *(Çəkinə-çəkinə)* Nuridə xanım, sizə bir söz demək istəyirəm, ancaq utanıram.

*Pauza*

— Utanma, sözünü de, Ayaz.
— Mən barənizdə çox şey öyrənmişəm.

*Nuridə xanımın çöhrəsində yüngül təbəssüm yaranır. Ayaz onun gözlərinin içinə baxır. O, susur.*

— Bilirəm, Ayaz.
— Anamı sizə göndərə bilərəmmi?!

*Nuridə tutulur. Yanaqlarında xəfif qızartı yaranır. Sonra çiyinlərini çəkir.*

— Hə.

*Kadr dəyişir. Yataqxana. Ayazla Cəmil Nihad və Firuzla otaqda görüşürlər. Nihadla Firuz təzə səliqəli kostyumdadırlar.*

**Ayaz** *(Firuza zarafatla)***:** Xeyir ola, Firuz, əlinizdən xata çıxar ha?

*Pauza*

**Nihad** *(gülür)***:** Ay Ayaz, sən mənim, elə bil, ürəyimi oxumusan. Bazar günü kostyumları alıb geyəndə mən Firuza dedim: "Adamlar bizdən şübhələnməsələr yaxşıdı".

**Cəmil:** Ayə, sizin ikinizin də əskisi tüstülüdü. Canınız üçün özünüzü qorumasanız, ilişəcəksiz.

**Ayaz:** Dedilər nə ilə almısan?

**Nihad:** Yox... Eşitdiklərimə inanmadım. Səhəri gün yataqxananın neçə sakini bizdən borc istədi. Deyəndə ki, ayə, nə pul? Bizim pulumuz var? Nə desələr yaxşıdı? Pulunuz yoxsa, kostyumları necə almısız?





**Cəmil:** Ayə, siz nə təhər adamlarsız, nə olsa, adınıza yapışır.

**Firuz:** Ayə, biz başı daşlılar əynimizə paltar almışıq. Maşın almamışıq ki?

**Cəmil:** Sizinlə bağlı çepe çıxanda, ürək-göbəyimi yeyirəm.

**Ayaz:** Kasıb belədi də. İmkanlı olsaydınız, "Çox mübarək" — deyəcəkdilər.

**Nihad:** İnandırmağa çalışdım ki, gecə gecədən keçənədək bazada yük boşaldırıq. Zəhmət haqqımızdı, inanan olmadı?..

*Ayaz Firuzun üzünə baxır. Firuz dərhal Nihadın sözünü təsdiqləyir.*

**Firuz** *(gülümsünərək)***:** Düz deyir.

**Ayaz:** Sizi qorxutmaq istəmirəm. Ehtiyatlı olun, özünüzü də kimsəyə göstərməyə çalışmayın.

*Pauza*

O qədər gözügötürməyənlər, əclaflar var ki? Ağıllarına nə gələ biləcəyini təsəvvürə də gətirmək olmur. Yadınızdadı da, şərlənib polisə düşməniz.

**Firuz** *(başını yelləyir)***:** Onu unutmaqmı olar? Hər dəfə yadıma düşəndə, öz-özümə nifrət eləyirəm. Allah o günü bir də bizə göstərməsin...

*Ayaz söhbətin səmtini dəyişir.*

**Ayaz:** Bir balaca özünüzü qoruyun. Fərəcin tapşırığıdı. Bu yaxında sizi də öz yanımıza çəkəcəyik. Biriniz mənim, o biriniz də Cəmilin yanında işlərsiz.

**Cəmil:** Ayə, belə adamlarla iş birliyinə getmək olar?

**Nihad:** Niyə olmur, Cəmil qağa.

**Cəmil:** Başınızda dul arvadın dul qızı fırlanacaq. İş yaddan

çıxacaq.

**Firuz:** Allah Fərəcə də, elə sizə də sağlam ömür versin.

**Ayaz:** Həm gündəlik dərdi-sərimizdən xəbərdar olar, bir-birimizə kömək əlimizi uzadarıq, dayaq dururıq, həm də qorxu-suz-hürküsüz işləyib yaşayarıq...

*Ayazın dedikləri Firuzla Nihadda ümid oyadır. Hər ikisinin sifətində ötəri işıq yaranır.*

**Nihad:** Ayaz, pula, işin yüngüllüyünə görə demirəm, elə istərdik, sizinlə birlikdə olaq. Burda yaşayırıq, inan, elə bilirik arxamız boşdu. İstənilən vaxt bizi sanca bilərlər.

**Firuz:** Nihad ürəyimcə danışdı. İnsanlar niyə belədilər?

**Ayaz:** Necə?

*Pauza*

**Firuz:** Elə bil, əqrəbdilər. Sancmağa bəhanə axtarırlar.

**Ayaz:** Sancmaq insanların xislətindədi. Siz də eşitmiş olarsız, canavarın xisləti barədə.

**Nihad:** Canavar nədi ki, onun xisləti də nə ola.

**Firuz:** Hər halda, çox adamınkından yaxşıdı...

**Nihad:** Özümüz hər gün canavarlar arasında kirlənirik də.

**Firuz:** Sağ ol, Nihad.

**Cəmil:** İmkan ver, görək Ayaz nə deyir.

**Ayaz:** Düzdü, mən də görməmişəm. Deyirlər, canavarlarda da çox məğrur, fəxr eləyəcək xislətlər var.

**Nihad:** Canavar yırtıcıdı. Yırtıcının nə məğrur, fəxr olunacaq cəhətləri?

**Cəmil:** Canavarı az tamaha mindir.

**Ayaz:** Qulaq asın. Mən eşitdiklərimi sayım, siz yaddaşınızda həkk eləyin. Canavar çox güclüdür. Ağıllıdır. Dəqiq planlar cızır. Canavar ailəsinin öz ərazisi olur. Heç bir yad hevan canavarın ərazisinə girmir. Hər canavarın öz ailəsi var. Başçı elədiyi





ovu ailəsinə çatdırır. Ailə üzvlərinin hamısı öz payını yeyir. Ailənin yaşlı üzvlərinə də canavarlar pay ayırırlar. Canavarlar ən çox xəstə heyvanları aradan götürürlər. Onların ölümünə mümkün qədər imkan vermirlər.

**Firuz:** Niyə?

**Ayaz:** Çünki xəstə heyvanların ölümü ərazidə mikroblar yaya bilər.

**Cəmil:** Təbiətin sanitarlarıdılar.

**Nihad:** Ayə, Ayaz, sən elə danışırsan, mən az qala, insanlıqdan çıxıb canavar olmaq istəyirəm. Onun yaxşı xüsusiyyətlərindən daha nə deyə bilərsən?

**Ayaz:** Namərd... deyillər. Ailəcanlıdılar, xəstələrinə qarşı qayğıkeşdilər, ayıq-sayıqdılar... Ehtiyatlıdılar. Ehtiyaclarına uyğun ov eləyirlər. Amma girəvəsinə keçəni məhv eləyir. Hər gün gözlərinin qarşısında baş verənlərə diqqət yetir. Onda görəcəksən, insan yırtıcıdı, yoxsa, canavar.

**Nihad:** Ayə, bu müqayisə başımı xarab elədi.

**Ayaz:** Çox nahaq. Təzə kostyum görün başınıza nə bəlalar açacaq. Neçə canavarla qarşılaşmalı olacaqsız. Bəyəm, tərbiyəçi Köçəri, direktor Nəzirə, təşkilatçı Sadiqə, yataqxanada da neçələri, canavardan pis deyillər? Gərək elə sümüyümüzü gəmirsinlər? Nə fərqi var, malımızı yedilər, ya özümüzü.

*Nihad söhbətin səmtini dəyişir.*

**Nihad:** Ayə, Ayaz, gözümüz aydın. Təzə xəbər var...

**Ayaz:** Nə xəbər?

**Nihad:** Firuza müştəri çıxıb.

**Cəmil:** Aha...

**Firuz:** Nihad, mən o sirri sənə açdım. Demədim ki, məni aləmlə bir elə.

**Ayaz:** Axı, nə sirdi o?

**Firuz:** Əşi, heç nə. Metrodan çıxanda...

*Kadr dəyişir. Metro. 50-55 yaşlı bir qadın. Yanında dolu zənbil. Firuz qadının yanında dayanır.*

**Qadın:** Oğlum, mənə kömək eləyərsən, bu zənbili aparmağa?

**Firuz:** Eləyərəm, xala.

*Bu vaxt qatar gəlir. Firuz zənbili qatara qoyur. Qatar hərəkətə gəlir. Onlar növbəti dayanacaqda düşürlər. Hərəsi zənbilin bir qulpundan yapışaraq metrodan çıxırlar.*

*Kadr dəyişir. Qadının evi. Qadın Firuza bir stəkan çay verir. Firuz bir-iki qurtum içir.*

**Qadın:** Oğlum, mənim kimsəsiz uşaqlara yazığım gəlir. Elə bil, adamlarla sənin kimi kimsəsizlərin arasına qurd yağı sürtüblər.

*Pauza*

**Firuz:** Hə... Düz deyirsiz, cəmiyyət bizi qəbul eləmir. Niyə? Bilmirəm.

**Qadın:** Oğlum, kasıbdan Allah da bezardı. Ancaq mən elə adam deyiləm. Sizi görəndə, elə bil, ürəyimin yağı əriyir... Mənim də bir qızım var. Səndən bir az böyükdü. Əşi, olsun da. Böyük, ya kiçik. Əri narkoman çıxdı. Dedim, a bala, ondan sənə ər olmaz, rədd elə başından. O da elədi...

**Firuz:** İndi duldu?

**Qadın:** Ayə, dul nədi? Bilirsən, nə baladı. Biş-düşü, gətir-götürü, bir sözlə, yaşamağın hər yolunu bilir. Sənə elə xəngəl, döşəmə plov bişirsin, barmaqlarının beşini də yala...

**Pauza**

İstəyəni çoxdu. Ürəyimə yatanı yoxdu. Qızıma elə adam lazımdı, gecələrin birində köçsün bizə.





**Firuz** *(qəsdən)***:** Sən nə danışırsan? Həqiqi sözündü?

**Qadın:** Yalançıya oxşayıram?

**Firuz:** Yoox... Əstəğfürüllah.

**Qadın:** Görmədiyin, ağlına gətirə bilmədiyin rahatlıq...

**Firuz:** Məsələn, nə?

**Qadın:** Qu tükündən balınc. İsti yorğan-döşək... Sahib olsun qızıma. Mən də düşüm rahata...

**Firuz:** Nə əcəb, qızın özünə layiq olanı tapa bilməyib?

**Qadın:** Var ey... Hamısı narkoman. Alkaş... Çoxu da inanılası deyil... Gəlir, qaçır. Axtarırıq bir halal süd əmmişi...

**Firuz:** Allah yetirsin. İstəyinizə çatasız... Qızınızın adı nədi?

**Qadın:** Həə... Qız deyil ey, qızıldı. Nə olsun ki, bir-iki il ərdə olub. Qadın ərə gedər də...

*Pauza*

**Firuz:** Uşağı var...

**Qadın:** Hə... İkisi... Qorxusu yoxdu. Özüm saxlayacam... Ancaq bizə ailəni ələ alan kişi lazımdı...

**Firuz:** Soraqlaşaram.

*Qadının qızı Firuza yaxınlaşır.*

**Qadın** *(dərhal)***:** Gəl əyləş, ay Məsmə. Firuzdu. Çox yaxşı oğlandı. Kimsəsizdi... Nə vaxt istəsə, mən oldum, olmadım, bu evə müzayiqəsiz gələ bilər.

**Məsmə** *(dərhal)***:** Gözüm üstə yeri var. Nə vaxt istəsə...

**Firuz:** Mən gedim.

**Qadın:** Gecdi, Firuz. Yataqxanada kimin var? Heç kimin. Evimizə nə olub? Qal burda, sabah yeyib-içib gedərsən.

**Firuz:** Nihad otaqdadı... Təkdi... İmkan olanda gələrəm.

**Məsmə:** Gələndə Nihadı da yaddan çıxarma.

*Firuz otaqdan çıxır. Kadr dəyişir.*

*Səhərdir. Yataqxana. Komendant Firuzgil yatan otağın qapısını döyəcləyir. Firuz yataqdan qalxır. Nihad qapını açır.*

**Komendant:** Ayə, Firuz otaqdadı?

**Nihad:** Hə... Nə olub ki?

**Komendant:** Ayə, bir xanım sabah erkəndən gəlib. Deyir, adı da Məsmədi. Sənin tanışındı... Gəl, gör nə deyir.

*Firuz çaşır.*

**Nihad:** Firuz, qardaş, deyəsən, sənə elçi gəlib.

*Firuz köynəyinin yaxasını düymələyə-düymələyə aşağı düşür. Nihad da onun ardınca. Məsmə onu qucaqlayır, üzündən öpür. Yataqxana sakinləri çaş-baş qalırlar.*

**Məsmə:** Ayə, tez ol, gəl, anam döşəmə plov bişirib, səni gözləyir... Əynimdəki kostyum necədi? Məni tuturmu? Xoşuna gəlirmi?

**Firuz:** Nə döşəmə plov? Mən toxam. Kostyumun da yaxşıdı.

**Məsmə:** Anam bundan birini də sənə alacaq, geyərsən.

**Nihad:** Ağ eləmə, Firuz, dünəndən acsan, get toqqanın altını bərkit gəl. Özü də hallıca-dulluca. Kostyumun da ki əla!

*Məsmə əl çəkmir. Firuzun qoluna girir. Firuz geri çəkilir.*

**Məsmə:** Qurban olum, sözümüzü yerə salma. İstəsən, lap Nihadı da götür.

*Əlacsız qalan Firuz gedir. Ekran qaralır, sonra ağarır. Söhbət davam edir.*





**Ayaz:** Bunun zibilini çəkməzsiz?

**Cəmil:** Ayə, Firuz, düzünü de, yoxsa, əynindəki kostyumu da arvad alıb, əə, sənə.

*Pauza*

**Nihad:** Ayə, sən də zarafat eləmə, Cəmil.

**Ayaz:** Ayə, oyun düzəltməyin. Canınız üçün sizə bir gün plov, o biri gün xəngəl yedirib, üçüncü gün əriştənizi kəsərlər.

**Cəmil:** O da olacaq bizə sürpriz.

**Ayaz:** Çoxdandı şəhərdə gəzmirik. Çıxaq çayxanada çay içək, söhbət eləyək.

*Dostlar otaqdan çıxırlar. Kadr dəyişir. Parkda gəzirlər. Çayxanada çay içirlər.*

**Cəmil:** Ayə, bu Firuzun başına əcəb quş qonub.

**Nihad:** Özü də bayquş.

**Firuz:** Məni dəli eləməyin. Sözdü də, oldu, qurtardı.

**Ayaz:** Ayə, nə qurtardı? Bir də gördün yekə bir uşağın əlindən tutub, aldılar başının üstünü. Dedilər: al balanı. Onda neyləyəcəksən?

**Cəmil:** Yaxşı gedək. Vaxt keçir.

*Çayın pulunu Ayaz verir. Dostlar stuldan qalxırlar. Ayazla Cəmil Nihadla Firuzdan ayrılırlar.*

*Kadr dəyişir. Polislər Nihadla Firuzu parkda yaxalayırlar. Adamlar onların başına toplaşırlar. Nihadla Firuzu maşına mindirirlər.*

*Polis şöbəsinə aparırlar.*

*Kadr dəyişir. Müstəntiqin otağı. Müstəntiq Nihadla Firuzu sorğu-suala başlayır.*

**Müstəntiq:** Ad-familiyanız, atanızın adı və harda yaşayırsız?

**Nihad:** Nihad Qurban oğlu Kazımov. "Kimsəsizlər evi"ndə böyümüşəm, hazırda yataqxanada yaşayıram.

**Firuz:** Firuz Əliş oğlu Məmmədov. Mən də "Kimsəsizlər evi"ndə böyümüşəm. İndi də yataqxanada oluram.

**Müstəntiq:** Sizi xuliqanlıq eləməyə nə vadar eləyib?

**Nihad:** Nə xuliqanlıq? Biz heç bir şey eləməmişik.

**Müstəntiq:** Necə eləməmisiz, kişinin qızının çantasına girirsiz. Özünü soyursuz. İndi də inkar eləyirsiz? Paltarı qazanıb alarlar, soyğunçuluqla yox.

**Firuz:** Barəmizdə deyilənlər yalandı. Həbs olunmamız üçün bir bəhanədi.

**Müstəntiq:** Camaatın özgə dərdi-səri yoxdu?

**Nihad:** Bilmirik.

**Firuz:** Bizi şərliyənin Allah bəlasını versin.

**Müstəntiq:** Ayə, pulunuz yox, daldanız yox, yurd-yuvanız yox... Ayə, şəhər dul arvadlarla doludu.

*Pauza*

Hamısının da var-dövləti. Gedin, girin onların yorğanlarının altına. Onlar da razı qalsın, elə siz də.

**Nihad:** Bizi təhqir eləmə, müstəntiq.

**Müstəntiq:** Siz özünüzə şərait yarada bilmirsiniz, özünüzü təhqir elətdirirsiniz, mən neyləməliyəm?

**Firuz:** Deyəsən, özünüzə dəyər verə bilmirsiniz. Bizə hədə gəlməyin. Biz həbs olunmaqdan qorxmuruq, müstəntiq. Bizim üçün türmə ilə buranın nə fərqi var?

## XXV bölüm

**Müstəntiq:** Deyəsən, başınız xarabdı... Bu, nə danışıqdı?

**Firuz:** Dəyər dəyər gətirər.

**Nihad:** Sizin, görünür, bu sahədə təcrübəniz çoxdu.





*Müstəntiq Nihadla Firuzu süzür. Başını yelləyir, üst dişləriylə alt dodağını gəmirir. Sonra polis çağırır.*

**Müstəntiq:** Bunları atın içəri. Bu gün gecdi. Başqa vaxt sorğu-sual apararıq.

*Polislər Nihadla Firuzu aparırlar.*
*Kadr dəyişir. Ayaz evə çatır. Cəmil Ayaza telefon açır.*

**Cəmil:** Xəbərin var, Ayaz. Firuzla Nihadı xuliqanlıq üstə tutub polisə aparıblar.

*Pauza*

**Ayaz:** Ay Cəmil, onlardan bir az əvvəl ayrılmadıqmı? Bu necə oldu? Sənə xəbəri kim verdi?

**Cəmil:** Yataqxanada yaşayanlardan Oqtay adında bir oğlan telefon açıb. Yenə şər! Böhtan!

**Ayaz:** Oqtay sənin nömrəni...

**Cəmil:** İlişəndə Nihad verib.

**Ayaz:** Ayə, bu yazıqların qaraçuxaları yatıb. Neyləyək? Mən gedirəm, polisə... Sən də gəl...

**Cəmil:** Bu barədə Fərəci məlumatlandırımmı?

**Ayaz:** Hələ tələsmə, Cəmil, səbrli ol. İşin nə yerdə olduğunu öyrənək, ehtiyac olarsa, sonra.

**Cəmil:** Nə vaxt? Harda görüşək?

**Ayaz:** Saat beşdə, polis idarəsinin qarşısındakı parkda.

**Cəmil:** Oldu.

*Kadr dəyişir. Ayazla Cəmil şərtləşdikləri yerdə görüşürlər. Polisə gedirlər. Müstəntiqin kabinetinə keçəndə onun stulunda başqasının oturduğunu görürlər. Cəmil qapını döyür və başını içəri salır.*

**Cəmil:** Olar?
**Müstəntiq:** Gəl görüm, nə deyirsən?

*Cəmillə Ayaz kabinetə girirlər.*

**Müstəntiq:** Eşidirəm sizi.
**Cəmil:** Bu gün bizim dostlarımızı — Nihadla Firuzu gərək ki, bura gətiriblər.

*Müstəntiq diqqətlə onları süzür.*

**Müstəntiq:** Siz də "Kimsəsizlər evi"ndə...
**Ayaz:** Bəli...
**Müstəntiq:** Doğrudu, biz hələ o məsələ ilə bağlı təhqiqata başlamamışıq. İşimiz çoxdu. Yəqin ki, sabah...
**Cəmil:** Ona kimi onlar burda?..
**Xələfzadə:** Burda yox, kamerada.
**Ayaz:** Bura deyəndə, biz elə kameranı nəzərdə tuturuq.
**Müstəntiq:** İmkan verin, məsələni düz-əməlli araşdıraq. Bəlkə günahsızdılar. Ancaq mənə çatan məlumata görə, onlar dünən bir qadının çantasına girib pulunu oğurlayıblar. Gedib həmin pulla özlərinə paltar alıblar.
**Cəmil:** Ağ yalandı.

*Ayaz qeyri-ixtiyarı olaraq "Aha..." deyir. Müstəntiq şübhə ilə onun gözlərinin içinə baxır.*

**Müstəntiq:** Nə olub? Siz, deyəsən, nəsə bilirsiz?

*Pauza*

**Ayaz:** Sizin dediyiniz paltarlar bazar günü alınıb. Bu günsə dördüncü gündü, müstəntiq. Əgər qadının pulu dünən oğurlanıbsa, o pulla bazar günü paltar necə alına bilər?





*Pauza*

**Müstəntiq:** Ola bilər, qadın onları şantaj da eləsin. Bu saat kişilər qadınlarla o barədə rəqabətə girə bilmirlər *(Gülüşürlər)*. Kişiləri yumaq fikrindən uzağam. Ancaq onu da yəqin eləmişəm ki, kişilərin başını çox vaxt qadınlar bələyirlər. Ola bilər, o qadın özü də düz adam olmasın. Ona görə də deyirəm, işlə tanışlığa imkan verin. Cavan oğlandılar, onlara mənim də heyfim gəlir.

*Ayazla Cəmil müstəntiqdən ayrılırlar. Kadr dəyişir. Ayazla Cəmil parka gəlirlər.*

**Ayaz:** Ayə, kimə etibar eləyəsən? Biri çıxıb desə ki, Ayazla Cəmil mənə hücum çəkdilər, başımı kəsmək istədilər, onda bizi də aparıb içəri atacaqlar.
**Cəmil:** Hücumçunu hamı eşidir. Müdafiəçini çox zaman saya salan da olmur. Çalış xətadan uzaq ol.
**Ayaz:** Fərəci də məsələdən agah eləyək. Sonra bizə qüsur tutar. Özün xasiyyətinə bələdsən.
**Cəmil:** Etiraz eləmirəm.

*Ayazla Cəmil Fərəclə görüşə gedirlər.*
*Kadr dəyişir. Fərəcin kabineti. Ayazla Cəmil Fərəclə söhbət eləyirlər.*

**Fərəc:** Xeyir ola? Bölüşdürə bilmədiyiniz bir şeymi var?
**Cəmil:** Kaş sən deyən kimi olaydı, Fərəc. Yenə Nihadla Firuzun quyruqlarını tapdalayıblar.
**Fərəc:** Ayə, bunlar gec-tez ilişməsələr yaxşıdı.
**Ayaz:** İlişmək nəyə deyirsən?
**Fərəc:** Quyruqlarını kimlər, necə?

*Pauza*

**Ayaz:** Şərləyiblər. Guya, xuliqanlıq eləyiblər. Mən hər şeydən xəbərdaram. Bu, açıq-açığına şərdi.

*Fərəc fikrə gedir. Başını yelləyir.*

**Fərəc** *(astadan)***:** Polislər salıblar içəri?
**Ayaz:** Hə...
**Fərəc:** Bu çox pis. İndi fikriniz?
**Cəmil:** Bilirik, işin çoxdur. Bununla belə, məsələni sənə deməyə bilməzdik.

*Fərəc saatına baxır, fikrə gedir.*

**Fərəc:** İşin axırıdı. Getsək, müstəntiqi işdə tapa bilməyəcəyik. Səhər müstəntiqin yanında olaq.

*Pauza*

Bu belə də olmalıydı... Ürəyimə dammışdı. Danışmasaq, ya ləngisək, işin içindən yüz cür zibil çıxaracaqlar. Sonra da ləngidiyimiz üçün özümüzü məzəmmətləyəcəyik. Daldan atılan daş topuğa dəyər.

*Səhər saat 9. Ayaz, Cəmil və Fərəc müstəntiqin yanına gəlirlər.*

**Müstəntiq:** Hə... Gəlin... Gəlin... Əyləşin.

*Onlar içəri keçib stulda əyləşirlər.*

**Cəmil:** Yəqin ki, gəlişimizin məqsədi sizə aydındı.
**Müstəntiq** *(gülümsünərək)***:** Dünən ikiydiz, bu gün üçsüz.
**Ayaz:** Bəli!





**Müstəntiq:** Axşam Nihadla Firuzun qaldığı otaqda axtarış aparılıb. Hərəsinin çamadanından beş ədəd, cəmi on kibrit qutusu anaşa çıxıb. Bunların nə iş gördüklərindən siz xəbərdarsızmı?
**Ayaz:** Xəbərdarıq. Özü də çox yaxşı.
**Müstəntiq:** Vəziyyətləri ağırdı.
**Fərəc:** Niyə?
**Müstəntiq:** Oğurluq, xuliqanlıq, anaşa alverilə məşğul olmaq... Aktlaşdırılıb. Şahidlər də yerbəyerində. Bəyəm, bunlar yüngül məsələdi?

*Ayaz Fərəclə Cəmilin üzünə baxır. Sonra üzünü müstəntiqə tutur.*

**Ayaz:** Hamısı oyundu. Nihadla Firuz qurbanlıqdı.
**Cəmil:** Belə getsə, gec-tez biz də...
**Müstəntiq:** Türmə ağzı açıq əjdahadı. Ora düşməyəcəyinə kimsə zəmanət verə bilməz. Elə siz də.
**Fərəc:** Müstəntiq, şəxsən siz özünüz bu qondarma aktlara, şahidlərə, izahatlara inanırsızmı?

*Pauza*

**Müstəntiq:** Faktlar ortadadı. Faktlar gözünü ağardan yerdə mənim inamım məsələni o qədər də həll eləmir. Hələ araşdırma aparılır, görək, başqa zibillər qarışdırmayıblar ki?
**Cəmil:** Sözünüzdən belə çıxır ki, deyilənlər şər, iftira yox, həqiqətdi. Mən düzmü başa düşdüm?
**Müstəntiq:** Bəli!
**Fərəc:** Belə çıxır ki, həbsləri qətidi.
**Ayaz:** Başa düşmədik, müstəntiq. Təhqiqatı aparan siz, işə məsul şəxs siz, özünüz də deyirsiz mənim inamım məsələni həll eləmir. Başqa nə zibilləri ola bilər ki?
**Müstəntiq:** Yəni başqa cinayətlər törətməyiblər ki? Varsa...
**Cəmil:** Haqsız yerə türmədə çürüməlidilər?

**Müstəntiq:** Hər kəs öz cinayətinə görə cəzalandırılır.

*Pauza*

**Fərəc:** Əcəb işdi. Arxası, imkanı yoxsa...

*Müstəntiqin sifəti bozarır.*

**Müstəntiq:** Arxasız qələt eləməz.

**Cəmil:** Dələduzlar ittifaqa girəndə, oyunu şeytan udar.

**Müstəntiq:** Ayə, nə dolaşıq danışırsız. Nə şeytan? Nə ittifaq? Nə udmaq?

**Ayaz:** Onu anlamaq üçün insanın içində ədalət...

**Müstəntiq:** Nə ədalət?! Deyirsiz, cinayətkarları açıb buraxaq?

**Fərəc** *(sakit tərzdə)***:** Günahları varsa, tutun. Onsuz da... Cəmiyyət kimsəsizləri boğmağa öyrəncəlidi. Onların günahı nədi? Qan-tər töküb, beş manat qazandıqları ilə əyinlərinə paltar almaq?

**Müstəntiq:** Zeynəb qarı deyənləri eşitmisiz də.

**Fərəc:** O, çox söz deyib. Siz nəyi nəzərdə tutursuz?

**Müstəntiq:** Od olmasa, tüstü çıxmaz. Çürüməyən leşdən iy gəlməz. Bu boyda yalan olmaz.

**Fərəc:** Yalan ilk zərbədə dağılır.

**Müstəntiq:** Filosofluq eləmə. Bura fəhlə-kəndli auditoriyası deyil ki, ağlına gələn mövzularda mühazirələr oxuyasan. Mən cinayətkarı üzündən tanıyıram.

**Fərəc:** Səncə, biz də cinayətkarıq?

**Müstəntiq:** İstəsəm, hə...

**Fərəc:** Siz deyən səfeh düşüncə budur, müstəntiq. Onlar, sadəcə olaraq, şərləniblər.

**Müstəntiq:** Deyilənlərin şər, iftira olduğunu sübut eləmək lazımdı.

*Pauza*





**Fərəc:** Qondarma aktlar, yalançı şahidlər, əsassız izahatlar... Burda nə əsaslandırma ola bilər ki?

**Ayaz:** O ruhu qanun keşikçiləri aşılayır insanlara, müstəntiq.

**Müstəntiq:** Cəmiyyətdə yaşayırsız, sonra da onun qanunlarına xor baxırsız.

**Cəmil:** Hə, o da sizin düşüncənizdi. Bu yolla cəmiyyəti bizim kimi zir-zibillərdən təmizləmək. Eləmi?

*Pauza*

**Müstəntiq:** Mən qatı cinayətkarlara görə sizinlə çənə-çənəyə verə bilmərəm. Ona vaxtım da yoxdu.

**Fərəc:** Görüş necə, onu da verə bilməzsiniz?

**Müstəntiq:** Hələ ki, yox... Vaxtı gələndə.

*Kadr dəyişir. Ayazla Cəmil Nihadla Firuzdan məktub alırlar. Oxuyurlar. Sonra hər ikisi birlikdə Fərəcin kabinetinə gəlirlər.*

**Ayaz:** Fərəc, səhər mən Firuzdan, Cəmil də Nihaddan məktub almışıq. İstərdik, məktubları sənə oxuyaq. İşin gedişindən sən də xəbərdar olasan.

*Fərəcin sifəti bozarır. Donuq vəziyyət alır.*

**Fərəc:** Oxu, eşidirəm.

*Ayaz Firuzun məktubunu oxuyur.*

“Qardaşlarım Fərəc, Ayaz və Cəmil! İstəyirəm, siz həqiqəti biləsiz. Biz nə oğru, nə də xüliqanıq, heç anaşa alverçisi də deyilik. Biləsiz ki, növbəti şərin qürbanı olmuşuq. Deməli, biz mövcud cəmiyyətə lazım deyilmişik... Bizə türmə də əvvəllər yaşadığımız həyat kimidi... Mən hamınızı öpürəm.

*Qardaşınız, kimsəsiz Firuz”.*

**Fərəc:** Cəmil, Nihadın da məktubunu sən oxu.

*Cəmil məktubu oxuyur.*

"Dostlarım, dar ayaqda olsam da, ürəyim sizinlədi... Məktubu özümüzü təmizə çıxarmaq üçün yazmıram. İstəyirəm, biləsiz, əqidəmiz sağlam, ağlımız başımızdadı. Biz cinayət törətməmişik. Sadəcə, cahilliyin qurbanı olmuşuq. Siz özünüzdən muğayat olun. Biz cəmiyyətə ləkə deyilik. Üçünüzü də bağrıma basıram.

*Hörmətlə, dostunuz Nihad".*

**Fərəc:** Belə bir gün də bizim üçün var!!!

*Kadr dəyişir. İşin sonu. Ayaz bərk yorğundur. Telefon zəng çalır. O, nömrəni tanıyır. Telefonu açır.*

**Ayaz:** Eşidirəm, Fərəc.
**Fərəc** *(səsi gərilə-gərilə)***:** Dur, yanıma gəl.

*Kadr dəyişir. Ayaz Fərəcin yanına gedir. Cəmili Fərəcin kabinetində görür. Ayaz gözlərini Fərəcin gözlərinə zilləyir.*

**Fərəc** *(ağır-ağır)***:** Qardaşlar, istəyirəm biləsiz, sizi bura niyə çağırmışam. Neçə gündü mənə telefon zənglərilə gəlinən hədə-qorxular, təhdidlər barədə sizə söz demək istəmirdim.

*Ayazla Cəmilin sifətləri ağarır.*

**Ayaz:** Necə?
**Cəmil:** Nə hədə-qorxu, nə təhdid?
**Fərəc:** Düşünürdüm, bu hədələr, qorxutmalar o qədər də ciddi məsələ deyil. O yalnız məni çəkindirməyə, məndən nəsə qoparmağa xidmət eləyir. İndi görürəm, iş mən düşündüyümdən də ciddidi... Biləsiz ki, məni buraxıb, düşüblər ailəmin üstünə.





**Ayaz** *(heyrətlənərək)***:** Nə?

*Pauza*

**Fərəc:** Səbrli ol, Ayaz, sənin qanında bir qaynarlıq var, qardaş. Kiçicik səhvimiz işi korlaya bilər...
**Cəmil:** Bədənim üşəndi, Fərəc.
**Fərəc:** Günortaüstü təqribən üç saat əvvəl oğlum Fəridi götürüblər. Daha doğrusu, oğurlayıblar.
**Ayaz:** Sən nə danışırsan?
**Cəmil:** Eşitdiklərimə inanan bilmirəm.
**Fərəc:** Əvvəl biz elə fikirləşdik ki, uşaq özü harasa gedib, qayıdanda yolu azıb, gəlib evə çıxmayıb. Təqribən iki saat əvvəl tanımadığım, səsini ilk dəfə eşitdiyim qalın səsli bir kişi mənə telefon açdı. Oğlumun onların əllərində olduğunu bildirdi.

*Pauza*

**Ayaz:** Aha... Quldurluq...
**Cəmil:** Uşağı oğurlamaq?
**Fərəc:** Şübhəsiz, bu adam tək deyil. Deyir, polis xəbər tutsa, Fəridi ölmüş bil.
**Cəmil** *(ağır-ağır)***:** Səndən bir şey istədilər?
**Fərəc:** Yox... Hələ ki, məlumatları məni sakitləşdirməyə xidmət eləyir... Xanımım Şahanəylə, qızım Fərqanə bir yerdə qərar tuta bilmirlər.
**Ayaz:** Onların əvəzində kim elə olmaz?
**Cəmil:** Başım xarab oldu.

*Pauza*

**Fərəc:** Mən də başımı itirmişəm. İnanın, hisslərim, düşüncələrim qapanıb. Nə eləyim, bilmirəm?
**Ayaz** *(nagüman halda)***:** Polis gec-tez hər şeyi biləcək. Onu polisdən gizlətmək nə dərəcədə?..

**Cəmil** *(etiraz eləyərək)***:** Polisə xəbər verməyi hələ ki, mən də lazım bilmirəm. Bəlkə nəsə alıb uşağı geri qaytara bilərlər.

*Pauza*

**Fərəc:** Nəyəsə görə uşaq oğurlamazlar. Neçə günkü hədə-qorxu elə bu imiş. Götürüblərsə, deməli, ağır da şərtləri olacaq...*(Başını arxasında oturduğu masanın üstə sallayır. Əliylə alnını ovuşdurmağa başlayır.)*

**Ayaz:** Deməli, hərəkətə keçməliyik.

**Cəmil** *(astadan)***:** Necə?

*Fərəcin mobil telefonuna zəng gəlir. Fərəc telefonu açır.*

**Fərəc:** Hə, Şəhanə, eşidirəm.

*Ayazla Cəmil həyəcanlanırlar.*

**Şahanə:** Bir qadın mənə zəng çaldı. Məsləhət bildi ki, sənə çatdırım.

**Fərəc:** Nəyi?

**Şahanə:** Telefon söhbəti deyil... İkilikdə...

**Fərəc:** Gəlirəm.

*Telefonu söndürür.*

## XXVI bölüm

**Cəmil** (*mızıltılı səslə)***:** Adam dəhşətə gəlir.

**Fərəc:** Əcəb işə düşdük. Uşaqla oyunmu olar? Nə sözün var, ay alçaq, gəl özümə de. Arvad-uşaqların zəhri çatlayacaq. “Ayının min oyunu var, bir armudun başında”.

**Ayaz:** Yorğan davası.





*Pauza*

**Cəmil:** Özü də murdarcasına.

**Fərəc:** Hə... Dava qayınatamdan mənə qalan mülkün, obyektin üstündədi.

**Ayaz:** Ahaa...

**Cəmil:** Deməli, azarları var.

**Fərəc:** Mən bunu gedib qayınatama necə deyə bilərəm? Deməz, a namərd, nəyim vardı, keçirtdim adına, hələ üstəlik, qızımı da verdim sənə. Qeyrətin əmlakını qoruyub saxlamağa çatmırsa, get, kəndiri sal boğazına, özünü öldür. Camaata yük olma... Bilirsiz, bu, nə deməkdi?

*Pauza*

**Ayaz:** Yox, Fərəc, sənin oğlun, həm də qayınatanın nəvəsidi.

*Cəmil qeyri-adi olaraq yumruğunu masaya vurur.*

**Cəmil:** Çox dumanlı məsələdi. Özü də namərdcəsinə təşkil olunub.

**Fərəc** *(acı-acı gülümsünərək)***:** Ona görə uşağı götürməyiblər ki, indi də onu qaytarıb bizi sevindirələr.

**Ayaz:** Burda oturmağın mənası yoxdu. Evdəkilər də narahatdılar. Gedək.

*Onlar ayağa qalxırlar. Otaqdan çıxırlar. Maşına əyləşərək evə gedirlər.*

**Fərəc:** Qayınatamla qayınanama yazığım gəlir.

*Fərəcin xanımı Şahanə, qızı Fərqanə, qayınanası Münəvvər və qayınatası Toğrul evdədirlər. Məyus və əsəbidilər. Fərəc Ayazla Cəmili onlara təqdim eləyir.*

**Toğrul:** Çox gözəl. Xoş gəliblər.

**Cəmillə Ayaz eyni anda:** Təşəkkür edirik....

**Ayaz:** Yəqin ki, bir razılığa gələrlər... Yolumuz özümüzü ələ almaqdı.

**Münəvvər:** Allah özü dadımıza çatsın... Əyləşin, ayaq üstə durmayın.

*Ayazla Cəmil əyləşirlər.*

**Toğrul** *(Fərəcə)***:** Düşmənlərimiz namərddilər. Ehtiyatsızlıq uşağın məhvinə səbəb ola bilər.

*Pauza*

**Fərəc:** Təkcə uşağınmı, ata? Burda digər məsələlər də var. Sənin əmlakına girişirlər. Özü də düşünmədən.

**Toğrul:** Yaramazlar, şərə də, böhtana da əl atmaqdan çəkinmirlər.

*Münəvvərin gözlərindən yaş axır.*

**Münəvvər:** Yazıq uşaq. Nənəsi ölmüşün bağrı çatlayacaq.

*Toğrul ayağa qalxır.*

**Toğrul** *(səsi titrəyə-titrəyə)***:** Bircə bunu görməmişdim... Polisə vermək də çox pisdi, verməmək də... Tamam başımı itirmişəm. Nə elədiyimi də bilmirəm. Ay Fərəc, oğlum, belə işdə bir az da soyuqqanlı olmaq gərəkdi.

**Fərəc:** Necə?

**Toğrul:** Emosiyadan uzaq.

**Ayaz:** Atılıb-düşmək, çılğınlıq pis nəticə verər.

**Cəmil:** Uşaqla oyun olar?

**Toğrul:** İnsanın ən ağrılı yeri övladdı.





**Fərəc:** Başımı təmiz itirmişəm.

**Toğrul:** İnanmıram ki, bu işdə hərəkətverici qüvvə polis olmasın. Necə ola bilər ki, kiminsə bir pəncərəsinin şüşəsi qırılanda, ya bir yumurtası sındırılanda, qatıq bankası oğurlananda, dağıdılanda onu polis tapır. Bu boyda işdən onlar xəbər tutmurlar?

*Pauza*

**Ayaz** *(sadəlövhlüklə)***:** Uşaq oğurları özləri deyirlər polisə verməyin, versəniz...

**Toğrul:** Oğlum, mən ömrümü bu şikəst cəmiyyətdə keçirmişəm. Quldurların — Polisə vermə, — demələri sadəlövh adamların gözlərində polislərin özlərini təmizləmələridi.

*Pauza*

**Fərəc:** Ata, mən sən deyənlərlə tam şərikəm. Bəlkə polisə müraciəti bir-iki gün də ləngidək. Razılığa gələ bilməriksə, başqa yolumuz yoxdu.

**Toğrul:** Sən deyən olsun, oğlum. Sən atasan.

*Toğrul yan otağa keçir. Hamının gözləri Fərəcə dikilir. Hissləri, duyğuları donur. Fərəc də qayınatasının ardınca gedir.*

**Ayaz** *(Cəmilə)***:** Fərəc belə acizləşə də bilərmiş? Övlad dərdi, sıxıntısı nə yaman şeymiş?! Özü ata-ana nəfəsi duymadığı, nəvazişlərini dadmadığı halda, övladı üçün indi o, hansı hissləri, əzabları, iztirabları keçirir. Xəbərin var? Yazıq ölüb-dirilir?!

*Pauza*

**Cəmil:** Mənim Fərəcə, onun ailəsinə yazığım gəlir.

**Ayaz:** Əsas uşaqdı, Cəmil. Uşaq xəstələnməsə yaxşıdı.

**Cəmil:** Həyat bizə çox şey öyrədib, hələ öyrədiləcək çox şey də var.

*Pauza*

**Ayaz:** Hərdən düşünürəm: budurmu və sonacan beləmi olacaq kimsəsizlərə cəmiyyətin münasibəti?! Kimsəsizləri yaşa-

dıqları həyatda inlədən cinayətkar cəmiyyətin sifəti?! Gündə yüz dəfələrlə üzlərini göylərə tutub kimsəsizlərin yalvarıb-yaxardıqları Xudanın sədaqəti?!

*Pauza*

**Cəmil:** Yöndəmsiz sualların cavabları da müəmmalı olur...

**Ayaz:** Ağzıgöyçəklər başlarına gətirilənlərin səbəblərini şeytanla, polislə, kimlə, kimlə bağlamağa çalışırlar. Bəs, onda insanın insana mərhəməti, sədaqəti harda qaldı?

**Cəmil:** Ayaz, özünü ələ al, qardaş? Haqsızlıq, deyəsən, Fərəcdən çox sənə təsir eləyir?

**Ayaz:** Axı, Fərəc nə pis iş tutub ki, cinayətkarlar da onu haqsız yerə beləcə cəzalandıralar?

**Cəmil:** O vacib deyil, Ayaz. Sən de ki, ölməyiblərsə, dünyalarını dəyişməyiblərsə, kimsəsizlərin valideynləri, görəsən, indi hansı cinayətləri törətməyə imzalar atırlar?!

**Ayaz:** Görəsən, atalarımız hansı məşuqələriylə, analarımız hansı aşiqləriylə ehtiraslarını söndürürlər?! Görəsən, bu müvəqqəti keflərdən yenə qaragünlü uşaqlar törəməyəcəklər ki?! Onları da bizim kimi "Kimsəsizlər evi"nə atmaqla uşaq böyütmək, tərbiyə eləmək yükündən qurtarmağa çalışmayacaqlar ki?!

*Pauza*

**Cəmil:** Bəlkə də... Bu qismət ki, bizdədi.

**Ayaz:** Necə də zəlil, rəzil olurmuş insanlar!

**Cəmil:** Ayaz, sən qızışanda nə desən danışırsan. Ayə, sənin içində nələr yatırmış?

**Ayaz** *(dərindən nəfəs alaraq)***:** Eh!... Cəmil!... Cəmil!... Yaşadığımız dünya! Sənin sıntarmış üzündə nələr yoxdu? Ədalətin, haqqın olsaydı, əl çəkərdin canımızdan? Bizim kimiləri inlətməzdin çirkin ayaqların altında!..

**Cəmil:** Biz pisiksə, dünya neyləsin?

**Ayaz:** Nədi Fərəcin günahı?! Neyləmişdi onun qayınatası? Nə pis iş görmüşdü onun qayınanası?





**Cəmil:** Özümüzü için-için yeməkdən savayı əlimizdən bir iş gəlmir.

**Ayaz:** Düz deyirəm də. Küçədən yazıqları gəldiyi bir kimsəsizi evinə gətirib, taleyini doğma qızlarınamı tapşırmaları?!

**Cəmil:** Yamanca qızışırsan, Ayaz.

**Ayaz:** Ayə, necə də qızışmayım? Biz insan deyilik? Məni başa sal görüm, Fərəcin dünyadan xəbərsiz oğlunun günahı nədi? Biz insanları kimlərsə əcəb öyrədiblər: mistikaya, kor-koranə inanclara. Hətta, bütlərə etiqad göstərməyə. Bəs, hər gün səcdələrinə qalxdıqlarımız bizə nələr vəd eləyirlər?

**Cəmil:** Bəzən elə suallar verirsən ki, cavab tapmağa gücüm çatmır.

**Ayaz:** Zülm. Qaranlıq. Aclıq! Səfalət! Xəstəliklər! Fəlakətlər! Ölüm!.. Bundan sonrası yoxdu ki?

*Pauza*

Daha dostum, istəsək də, istəməsək də, bircə yolumuz qalır. Təqiblərə qarşı mübarizəyə!

**Cəmil** *(pıçıltılı səslə)***:** Gecə gecədən keçir. Bəlkə biz gedək? Səhər erkən gələrik. Bunlar da yorğundular. Bunlar da gözlərinin acısını alsınlar. Sabah üzümüzə nə ilə açılacağını Allah bilir.

*Pauza*

**Ayaz:** Fərəci belə vəziyyətdə tək qoymaq olarmı? O, çox sarsıntı keçirir.

**Fərəc** *(yan otaqdan qayıdır)***:** Nə yaxşı ki, yanımdasız. Siz olmasaydız, ürəyim çatlardı.

*Ayaz Cəmilin üzünə baxır. Cəmil başını qaldırıb-endirməklə Ayazın sözünə haqq qazandırdığına işarə vurur.*

*Fərəcin balaca qızı Fərqanə divanda oturaraq mürgü döyür.*

**Fərəc** *(hər dəfə özünü boğaraq)***:** Qızım Fərqanənin "Ata,

qaqaş hara getdi?", "Hanı mənim qaqaşım?", "O, gəlsəydi, gedib yatardıq" deməsi məni əridir. Əlacım kəsilib. Bəhanə gətirib deyirəm ki, sən get, ananla otağınızda yat, qaqaş gələndə xəbər verərəm".

Hər dəfə deyir: "Yox... Getmirəm. Mən qaqaşsız yatmıram".

*Şahanə ərinin sözlərinə dözmür, ağlayır.*
*Fərəc isə sakit addımlarla pəncərənin nəfəsliyini açır.*

**Fərəc:** Günahım nədi, mən kimin qəzəbinə tuş gəlmişəm? Oğlumu aparan odur, o əclafdı, kişinin mülkünü əldə eləmək iştahasına düşüb. Bu, heç vaxt mümkün olmayacaq, ölərəm, ancaq qayınatama xəyanət eləyə bilmərəm.

*Pauza*

**Ayaz:** Fərəc, danışığından belə anladım ki, sən oğlunu aparanları təxmin eləyirsən? Əgər sözün qətidirsə, biz onunla danışa bilərik...

**Cəmil:** Ayaz, düz deyir, qardaş. Görürəm, sən çox şey bilirsən, ancaq, nədənsə ehtiyat edirsən, ad çəkmirsən.

**Fərəc:** Tələsməyin.

**Ayaz:** Biz yaman günlərin dostlarıyıq, sən həmişə bizə etibar eləmisən. İndi də eləyə bilərsən. Bizə lazımdı qəti qərarını eşitmək. Onsuz da neçə illərdi biz bu həyatda artıq yaşayırıq.

*Pauza*

**Cəmil:** Biz bu ağır günündə sənə dayaq durmayacağıqsa, niyə yaşayırıq? Artıq bizdən asılı olmadan qatı bir cinayət törənib. Ailə sarsıntı içərisindədi.

**Ayaz:** Fərəc, sən isə şübhələr içərisində yaşayırsan.

**Fərəc:** Şübhə həqiqətə qapı açan əldi.

**Ayaz:** Ağıllı fikirləşincə, dəli çırmanıb çayı keçir. Şübhələrin quyruğunda nə baş verən cinayətin izinə düşə bilərik, nə də uşağı xilas edə.





**Fərəc:** Qızışmaq, dəliyəm-zorluyam bizi fəlakətlərə aparar.

**Cəmil:** Mən Fərəcin fikrilə tamamilə şərikəm. Quldurların məqsədləri Fərəcdən pul, mülk qoparmaqdısa, Fərəc onlara bir şey vəd eləyəcəksə, ya onlar nə qədərsə alıb uşağı buraxacaqlarsa... Əlbəttə, bunlar mənim ehtimallarımdı.

**Ayaz:** Aldılarsa, şirnikəcəklər. Qorxuram. Yenə... Belə adamların silahları və nökərləri də olmamış deyil. Bu sahədə sənin başın bizimkindən daha yaxşı işləyir...

*Pauza*

**Fərəc:** Qarşıdakı bir-iki günü də gözləyək. Xəbər çıxmazsa...

*İki gün keçir. Axşam saat on. Telefona zəng gəlir. Dəstəyi Fərəc götürür. Telefonu mikrofona calaşdırdığından, səs otağı bürüyür.*

**Fərəc:** Alo! Alo!
— Dəstəyi Fərəcə verin.
— Fərəc mənəm, eşidirəm, sözünüzü deyin.
— Yanınızda kim var?
— Heç kim. Otaqda təkəm.
— Bir milyon.
— Nə? O qədər?..
— Onda iki...
— Əşi...
— Üç... Kimsə bilməməlidi. Məxfi!!!
— Uşaq hardadı?
— Etibarlı əllərdə. Uşaqla danışın.

**Fərəc:** Alo!

*Dəstəkdən xırıltılı, ağlamsına-ağlamsına səs eşidilir.*

**Fərid:** Hə... Ata... Ata... Mən qorxuram, ata!..
**Fərəc:** Qorxma, oğlum.

*Səs kəsilir. Fərəcin bütün bədənini üşütmə alır. O, əllərilə üzünü tutur. Elə bu vaxt sağ tərəfdəki yan otaqdan Toğrulla Münəvvər, sol tərəfdəkindən Şahanə hövlnak çıxırlar.*

**Toğrul:** Nə deyirlər?
**Fərəc:** Sözlərini dedilər. Uşaqla da danışdım.
**Toğrul:** Fasilə götürəcəklər.
**Ayaz:** Niyə?
**Toğrul:** Həm biz əl-amanda olub, tədarük görək, həm qızışaq, həm də sözə davamlılığımızı müəyyən eləsinlər və gücümüzü öyrənsinlər. Onların bu hərəkətləri onu göstərir ki, cinayətin arxasında daha təcrübəli adamlar durur. Bunlar hüquq mühafizəçiləri də ola bilər, başqa sahənin məmurları da.
**Münəvvər:** Dözə bilmirəm.
**Toğrul** *(Fərəcdən)*: Axır sözləri nə oldu?
**Münəvvər:** Üç milyon.
**Toğrul:** Hə... Bu adi gədə-güdə, quldur işi deyil. Arxasında mafioz qrup dayanıb. Məqsəd mülkləri satdırıb, pullarını almaqdı. Oğlum, çətin yerdə axşamlamışıq, onlar gec-tez satacağımız mülklərə də özləri müştəri çıxacaqlar.
**Fərəc:** Qorxuram axşam quldurların əlaltıları əmlaklarımızın pullarını bizə saysınlar, səhər bir başqa adla bizdən alsınlar. Ona kimi də yazıq uşaq yüz dəfələrlə ölüb-diriləcək...

*Toğrul hönkür-hönkür ağlayır. Cəmillə Ayaz ayağa qalxırlar, kişinin qolundan tuturlar. Onu divanda əyləşdirirlər.*

**Toğrul** *(Fərəcə)*: Oğlum, dostların bu gecəni yuxusuz qaldılar. Onlar sabah lazım ola bilərlər. Yatıb dincəlsələr, yaxşı





olar... *(Kişi sonra üzünü Ayazla Cəmilə tərəf çevirir)*: Gedin, siz də dincəlin.

*Pauza*

Ancaq, sizdən xahişim budu, bu dar gündə Fərəcin yanında olun. Onu tək buraxmayın... Fərəc sizə güvənir, özü də lap çox...

*Cəmillə Ayaz gecə evdən çıxırlar. Onlar parka gəlirlər. Skamyada əyləşirlər.*

**Cəmil:** Quldurlar çox səriştəlidirlər.
**Ayaz:** Polisdən qovulanlardı. Axı niyə?
**Cəmil:** Onları varidat düşündürür.

*Pauza*

**Ayaz:** Allahın mərhəmətilə ona çatan çörəyi çirkin yollarla qamarlayıb, əlindən almaq üçün belə cinayətmi törədərlər? "Kimsəsizlər evi"ndə min əzab-əziyyətlə, iztirabla yaşayan bir adama belə ağlagəlməz zərbə endirmək nə deməkdi?
**Cəmil:** Quldurlar üçün sənin bu dediklərinin fərqi yoxdu.

*Kadr dəyişir. Səhər açılır. Cəmillə Ayaz ofisə gedirlər.*
*Fərəc işə gecikir. Ayazla Cəmili təşviş, həyəcan bürüyür. Ayaz ona telefon açır.*

**Ayaz:** Səhərdən Cəmillə birlikdə səni gözləyirik, Fərəc.
**Fərəc:** Gəlirəm.
**Ayazın daxili səsi:** Aman Allah, övlad nə şirin şeymiş?.. Allahın sənə sevə-sevə bəxş elədiyi bu şirin payı necə gəldi, harda gəldi atmaq olarmı? Görəsən, valideynləri Fərəci atanda nə düşünüblər?
**Cəmil:** "Kimsəsizlər evi"ndə bütün uşaqların halına yanan, onların uğrunda öz həyatını təhlükələrə atan Fərəcin başına bu

fəlakət niyə gəlməli idi?! Biz bu gün Fərəcə təəssüf ki, kömək eləyə bilmirik.

*Pauza*

**Ayaz:** Məni də dəhşətə gətirən budur. Bizim buna nə imkanımız, nə də bacarığımız çatır. Olan gücümüzü olsa-olsa yanıb-yaxılmaqda görürük. Ürək ağrısı ilə təksinlik tapırıq.

**Ayaz:** Vallah, bu müəmmada bir işartı hiss olunsa, Fərəcə, onun oğluna canımı fəda eləməyə hazıram. Qara daş elə yerdən, elə atılıb ki, onu heç cür təsəvvür eləyə bilmirəm. Hisslərim donub, yoxsa, idrakım kordu?

**Cəmil:** Hərdən düşünürəm: bəlkə Fərəc düşmənini tanıyır? Hələ özü bizə demək istəmir?

**Ayaz:** Elə simasız adamlar var ki, vəhşilərlə kimsəsizlərə eyni eynəkdən baxırlar. Elə olmasaydı, hamı bizə it, pişik, çaqqal, donuz balaları kimi münasibət bəsləyərdilərmi?

*Pauza*

**Cəmil:** Əlbəttə, yox.

## XXVII bölüm

**Ayaz:** Doğrusu, mən daha heç kəsə, heç nəyə inanmıram. Hərdən fikirləşirəm, insanların fəlakəti elə insanlarla bağlıdı. Belə çıxır ki, yeməsən, uf demədən səni yeyəcəklər. Parçalamasan, parçalayacaqlar...

**Cəmil** *(köksünü ötürərək)***:** Ayaz, biz daha uşaq deyilik. Daha həyata da “Kimsəsizlər evi”nin dar pəncərələrindən baxmırıq. İnsanlıq barədə söylənilən ikili fikirlərə də inanmırıq. Yaşadığımız bu dəlisov həyat bizi öz ağuşuna alıb aramsız yırğalayırsa, ya onunla hesablaşmalıyıq, ya da məhv olmalıyıq.

**Ayaz:** Axı necə, Cəmil?

*Pauza*





**Cəmil:** Mən də bilmirəm. Əsas faktdı — gözümüzlə gördüklərimizdi. Buna təcrübə də deyirlər. Fərəcin başına gətirilən bu faciədən də betəri, inanıram, bizim də başımıza gələ bilər.

**Ayaz:** Uşağı oğurlamaq, ondan istifadə eləmək, bu nə deməkdi? Biz insanlardan hər cür əclaflıq çıxır. Mən başa düşmürəm, əclaflıq insanda anadangəlmə olur, yoxsa, sonradan yaranır?

**Cəmil** *(acı-acı gülümsünərək)***:** Nə fərqi var, dostum, istər anadangəlmə olsun, istər sonradan yaransın. Fakt budur ki, hər bir insanda əclaflıq fitrətən olur. Kimində az, kimində çox...

*Fərəc həmişəki kimi cəld və çevik addımlarla otağa girir. Ayazla Cəmili gözləmə otağında görür. Onlarla görüşür.*

**Fərəc:** Gəlin, qapı ağzında dayanmayın.

*Ayazla Cəmil onun ardınca kabinetə keçirlər. Fərəc güzgünün qarşısında üz-gözünə baxır. Sonra onlara tərəf çevrilir.*

**Fərəc:** Siz də mənim kimi yatanmamısız? Gözləriniz yuxusuzluqdan qızarıb.

**Cəmil** *(dərhal)***:** Belə vəziyyətdə yatmaqmı olar?

**Ayaz:** Bizdən sonra nə xəbər-ətər?

**Fərəc:** Məncə, onlar bizə olduqca sərt tələblər qoydular. Bu o deməkdir ki: “Hazırlaşın, mövqeyinizi bildirin”. Ona görə də vaxtı bir qədər uzatmalı olacaqlar.

*Pauza*

**Ayaz:** Uzatmaq nəyə xidmət eləyəcək?

**Fərəc:** Birincisi, qayınatam demişkən, mövqeyimizi dəqiqləşdirməyə. İkincisi, maddi hazırlığa... Onların əllərində hazır planları var. Mən qorxuram, bu təzyiqlərə qayınatam dözməyə. Yüksək şəkəri və qan təzyiqi var. Kişi birtəhər olar.

**Cəmil:** Biz neyləməliyik?

**Fərəc:** Neyləyəcəyimiz üçün hələ ki, onların fəaliyyətə keçmələrini gözləməliyik. Bəlkə quldurların özlərinin arasına bir nifaq toxumu səpildi, əlimizə ipucu keçdi. Əgər elə olsa, özləri öz pıçlarını açarlar, ya da bizə məlumat sızdırarlar.

**Ayaz:** Fərəc, bu ehtimallara sənin özündə, azacıq da olsa, inam varmı?

*Pauza*

**Fərəc:** İnsan ümidlə yaşayır, Ayaz. İnsan suda boğulanda saman çöpünə əl atır... Mən də oturub-durub fikirləşirəm: bu işdə sistemdən qovulmuş hüquq işçilərindən kiminsə əli varsa, başağrısı çox olacaq.

**Ayaz:** Məni də qorxudan budur.

**Fərəc:** Ancaq axşam tələb olunan rəqəm də məndə yoxdu. Mənim nəyim var? Azdan-çoxdan nə varsa, zavallı qayınatamındı. O da heç vaxt Allahsız iş görməyib. Məni düşündürən, yandıran budur ki, milyarderlər şəhərində bu iş niyə mənim başıma gəlir?.. İndi biz oturmuşuq burda, yazıq uşaq cinayətkarların əllərində qan ağlayır. Anası, nənəsi də orda göz yaşları axıdırlar.

*Pauza*

**Cəmil** *(sakit səslə)***:** Özünü ələ al, Fərəc. Təəssüf ki, sənə bir məsləhət verməyə də şəxsən gücümüz çatmır. Ancaq onu bil ki, səndən və sənin balandan ötrü biz hara, nəyə desən, getməyə hazırıq. Bizim taleyimiz əvvəldən dolaş-bulaş olub.

*Pauza*

**Fərəc:** Mən ağlamaq istəmirəm. Ağlayan adamlardan da zəhləm gedir.

**Ayaz:** Biz bunu bilirik. Cəmillə öz aramızda çox danışmışıq.

**Fərəc:** Fakt budur ki, biz hər cür əzab-əziyyətə qatlaşa-qatlaşa, körüklərdə əridilə-əridilə xarakterimizi möhkəmlətmişik, hər cür çətinliyə müqavimət göstərməyə hazırlamışıq. Ölümün caynağına atılmağa da cəsarətimiz çatır. Baş verən bu hadisə





məndə tam başqa qənaətlər yaradır.

**Ayaz:** Nə qənaətlərdi o, Fərəc?

**Fərəc:** Öləndə də kişi kimi ölmək.

**Cəmil:** Mənə elə gəlir ki, hər insanın öz Yaradanı var. Kimininki güclü, kimininki gücsüz. Elə insanların özləri kimi.

**Fərəc** *(astadan və təmkinlə)***:** Yox... Cəmil, mən səninlə razı deyiləm. Hamının Yaradanı birdi. Düşündüklərin səni itaətə aparıb çıxara bilər.

**Ayaz:** Mən də Cəmilin sözlərilə şərikəm. Bununla belə, insan qatilinə çevrilənlər...

*Pauza*

**Fərəc:** Bir qədər səbrli olsaq, təmkinimizi qoruyub saxlamağı bacarsaq, ədalət çığırından çıxmasaq, geci-tezi var, hər şey açılacaq. Yadına sal Köçərini, Nəzirəni, kimləri, kimləri. Həyat qabaqdadı, sənin kimi düşünsək, gərək həyatdan əl çəkək.

**Ayaz:** Mən donmuşam. Deyilənləri eşitsəm də, çox zaman nə anlaya, nə də doğru-düzgün nəticə çıxara bilirəm. Düşünürəm, ağzımız çörəyə çatanda, başımız daşa dəydi. Biz niyə belə vəziyyətə düşdük? Oturduğumuz yerdə bizə niyə sataşırlar? Gör, həyat bizi nələrə vadar eləyir? Ləyaqətimə and içirəm, Fərəc, uşağın hansı hissləri keçirməsi barədə düşünəndə, kimisə öldürmək istəyirəm.

**Cəmil:** Ancaq neyləyək ki, kimin yaxasından tutacağımızı, kimi hədəfə götürəcəyimizi bilmirik...

*Cavan olsa da, hər şeyi soyuq başla qəbul eləyən, ağlamağı bacarmayan Fərəcin gözlərində yazıqlıq əlamətləri duyulur. Onun səsi titrəyir.*

**Fərəc:** Səni də, Cəmili də anlayıram, Ayaz. Mənim doğmalarım, arxalarım... Övlad nə şirin, nə əziz şeymiş? Təəssüf ki, bu hisslər bizim valideynlərimizdə...

*Kadr dəyişir. Fərəcin evi. Müstəntiq Fərəcdən, Şahanədən, Münəvvərdən və Toğruldan izahatlar alır. Fərəc bezir.*

**Fərəc:** Ayə, bu qədər cəfəng danışıqlar olar? Hər gələndə deyirlər: "Oğlun filan yerdədi", "Filan yerə aparıblar", "Filan yerdən gətiriblər", "Onu sağ-salamat qaytarmaq üçün filan qədər verməlisən, verməsən, qaytarılması mümkün olmayacaq". Psixoloji təsir ailəni cana doydurdu.

*Pauza*

**Ayaz:** Məqsədləri Fəridi xilas eləmək yox, pul qoparmaqdı.

**Fərəc:** Ayə, gündə bir hüquq işçisi gəlir. Hər gələn də deyir: "Uşaq necə, nə vaxt yoxa çıxdı?", "Onun oğurlanmasını görən olubmu?", "Kimlərdən şübhələnirsiz?", "Oğurlanmasının səbəbi nədi?", "Sizinlə telefon əlaqələrinə tez-tez girirlərmi?", "Əlaqəyə girənlər arasında qadın varmı?", "Telefon nömrələrindən yadınızda qalanlar varmı?", "Onların istəyi sizcə nədi? Deyirlərsə, sizə hansı rəqəmi deyirlər?" "Sonuncu zəngdə tələbləri nə olub?". Nə?.. Nə?.. Nə?.. Mən də əvvəllər onlara inanır, hər nə var, açıb tökürdüm.

*Pauza*

**Cəmil:** Mənə elə gəlir ki, hüquq mühafizəçilərilə əlaqələr yaratmaqdansa, birbaşa cinayətkar qrupla söhbət etməyə üstünlük verməliyik.

**Fərəc:** Bəla burasındadı ki, hüquq mühafizəçilərilə quldurların dedikləri arasında da üst-üstə düşən cəhətlər var. Hansına inanasan?

*Qapı açılır. Müstəntiq içəri girir. Ayazla Cəmil pıçıltılı səslə.*

**Ayaz** *(kinayəylə)*: Aha. Adə, Cəmil, cinayət işini bu yaramaz aparacaq.

**Cəmil:** Elə olsa, batdıq.





*Fərəc də müstəntiqi tanıyır. Ancaq özünü o yerə qoymur.*

**Müstəntiq** *(Fərəcə)***:** Hə, nə dəyişiklik var?

*Fərəc Ayazla Cəmilə "Gedin" işarəsi verir. Ayazla Cəmil gedirlər.*

**Fərəc:** Cənab müstəntiq! Siz, elə bil, mənim uşağımın oğurlanmasında məndən şübhələnirsiz? Əşi, hər dəfə eyni sualları verir, eyni cavabları alırsız. Məni başa salın görüm, oğurluqla bağlı siz hansı məlumatları toplaya bilmisiz?

*Müstəntiq Fərəcin üzünə baxır. Fərəcin sifəti bozarır.*

**Müstəntiq:** Məxfidi. Nə olsun ki, valideynsiz, cənab Fərəc. Onu sizə aça bilmərik. Açsaq, biz də zərər çəkə bilərik, uşağı da məhv eləyərlər. Ancaq burda xərc işi də var...

*Pauza*

— Yaxşı, bu qədər vaxtda sizin fəaliyyətiniz heç görünməsin? Hər şeyi məxfi saxlayın? Uşaq geri qayıtmasın? Ailə də qırılıb batsın, cənab müstəntiq?

— Səsini qaldırmaq, hökm eləmək, bizə inamsızlıq... sənə fayda verməz, Fərəc. Mən də gecə-gündüz sənin təki narahatam. Sən mənə yalnız təşəkkür eləyə bilərsən.

*Pauza*

— Təşəkkürü nəyə görə eləməliyəm? Məlumat toplamamış — Xərcsiz mümkün deyil, — deyirsiz. Mən "Kimsəsizlər evi"ndə böyümüşəm. İndi-indi yaşamaq üçün beş-üç manat qazanıram. Mənim nə qədər pulum ola bilər? Bu barədə fikirləşirsizmi?

— Mən o sözü sənə etibar eləyib ağzıma aldım. Mənə deyiblər, deyirəm sənə. Uşaq yazıqdı. Qayınatan nə düşünür? Hər

halda, nəvəsidi... Ha!.. Ha!.. Ha!.. Baba nəvəsini çox istəyən olur.

*Fərəc təəccüblə müstəntiqin üzünə baxır.*

— *(Sərt halda)*: Deyirsən, məndə yoxdusa, babası versin. Cənab müstəntiq, mən sizin dediklərinizi heç cür başa düşmürəm. Şikayətçi mənəm, yoxsa, cinayətkarlar?

— Kobudluq eləmə. Səsini də hərdən qaldırırsan. Onu da başa düşürəm. Böyük zərər çəkmisən. Canın yanır. Bir az səbr elə. Biz bu işin araşdırılmasına başlamışıqsa, deməli, nəticəsi də olacaq.

*Pauza*

— Baxaq da... Ancaq babası təqaüddə olan adamdı. Onda da elə bir şey yoxdu. Özünü ancaq dolandırır.

— Yaxşı, Fərəc, mən gedim. İşimiz çoxdu. Sizinkinə bənzər bir başqa cinayət işi də var. Onun da araşdırılmasını mənə tapşırıblar... Cinayətkar birdimi, ikidimi?

*Müstəntiq ayağa qalxır. Fərəc onu qapıya qədər ötürür.*

— Gərək ki, biz tanışıq, hardasa görüşmüşük.

— Yadıma sala bilmirəm, Fərəc.

— "Kimsəsizlər evi"nin sabiq sakinləri... Firuzla Nihad...

— Yadıma gəlmir.

— Onları basdın dama.

— Cinayətkar cəzasını almalıdı, Fərəc.

— Bəs, sən azadlıqda hansı adla gəzirsən?

— Sən məni mühakimə...

— Hə... Sən alçaqsan. Qisas yerdə qalmır. Bu işdən uzaq ol.

*Müstəntiq pərt halda otaqdan çıxır. Fərəc qayıdaraq kreslosunda oturur. Başını əlləri arasına alır, saçlarını yoluşdurur. Kresloya söykənir. Telefon zəng çalır. Zəng nömrəsizdi. Fərəc telefonu açır.*





**Fərəc:** Alo!.. Alo!.. Eşidirəm.

*Səs eşidilmir. O, telefonu qapadır. İki-üç dəqiqə keçər-keçməz telefona yenidən zəng gəlir. Fərəc telefonu açır. Amiranə kişi səsi eşidilir.*

**Naməlum kişi:** Alo!.. Alo!..

**Fərəc:** Bəli! Bəli!

— Fərəc bəydi?

— Bəli, mənəm. Kimdi danışan?

— Polkovnik Əzimovam. Polisdən... Vacib bir məsələ barədə danışmalıyıq.

— Buyurun.

— Harda?

— Elə burda, mənim kabinetimdə.

— İşin axırında. Çalış, başqa adamlar olmasın.

— Kabinetdə tək söhbət eləyərik. Gəlməzdən telefon açın. Sizi aşağıda qarşılasınlar.

— Danışdıq.

*Telefon qapanır. Fərəci fikir götürür.*

**Fərəc:** Yaxşı, bu adam kimdi? İstintaqı müstəntiq aparırsa, bu adamla mənim danışığıma nə ehtiyac var? Bu adam göstərişi kimdən alıb? Bunda nə məlumat ola bilər? Varsa, hardan əldə eləyib? Çox müəmmalıdı...

*Pauza*

Deməli, hardasa qayınatamın ehtimalları özünü doğruldur.

Cinayətkarlarla bu məmurlar arasında əlaqə — iş birliyi var. Başqa necə ola bilər? Mən atayam. Müstəntiq mənə sirr vermir. “Məxfidir” deyir. Bu namərdlər mənimlə, çox güman ki, alış-verişə oturacaq...

*İş gününün sonu. Yağmurlu hava. Qısa payız günü. Telefon çalır. Fərəc dəstəyi götürür.*

— Eşidirəm.
— Yoldayam, beş dəqiqədən sonra çatıram.
— *(Dərhal)*: Sizi aşağıda Ayaz qarşılayacaq və birbaşa mənim kabinetimə qaldıracaq.

*Naməlum adam gəlir. Ayaz onu qarşılayır. Onlar yuxarı mərtəbəyə qalxırlar. Fərəc qapı ağzında onu qarşılayır. Əl verərək görüşürlər.*

— Eşidirəm.
— Polkovnik Əzimov.
— Çox yaxşı, gəlin...

**Fərəc** *(Ayaza)*: İki fincan kofe.

*Ayaz gedir. Qonaq özünü ikinci dəfə təqdim eləyir.*

— Polkovnik Əzimov.
— Tanışlıq üçün şadam.

*Pauza*

— Məni bura gəlməyə vadar eləyən vicdanımdı. Şəhərdə hərc-mərclik baş alıb gedir. Kimin əli kimin cibindədi, bilinmir. Mən sənin oğlunu aparanların izinə düşmüşəm. Uşaq kənardadı. Ancaq onu geri qaytarmaq olar... Xərc lazımdı.





*Fərəc fikrə gedir.*

— *(Dərindən nəfəs alır)*: Axı, müstəntiq tamam başqa söz deyir.
— Ola bilər ki, o, sənin başını yastığa qoyur.
— Əcəb işdi. Onda mən kimə inanım?
— Bax işinə. Oğlunun qayıtmasını istəyirsənsə, fikirləş.
— Kim istəməz ki, polkovnik, oğurlanan uşağı geri qayıtsın?.. Ancaq mənim pulum-param yoxdu. Məndən pul qoparmaq ümidinizi kəsin.

*İstədiyini Fərəcdən ala bilməyən Əzimov əsəbi halda gedir. Ayazla Cəmil gəlirlər.*

**Ayaz:** Ayə, bu Fəridin axtarıcıları nə qədərdi? Polislər, müstəntiqlər, falçılar, kitab açanlar, yuxu yozanlar... kimlər, kimlər. Müstəntiqin sifətini gördün də.
**Fərəc:** Gördüm nədi, az qaldı, üzünə tüpürüm. Firuzla Nihadın işini apardığını da ona xatırlatdım. Dedi: unutmuşam.
**Cəmil:** Ay onun atasına lənət.
**Fərəc:** Məncə, o daha mənimlə üzləşmək istəməz. Təhqiqatdan imtina eləyər.

*Pauza*

**Cəmil:** Bəs, onda təhqiqatı kim aparacaq?
**Fərəc:** O, imtina eləyəcək, başqasına tapşıracaqlar.
**Cəmil:** Birdən imtina eləmədi.
**Ayaz:** Maskası deşilən quldur öz ayağı ilə başını kola salmaz.
**Fərəc:** Ay Cəmil, ürəyim dözmür. Az qalıram...

*O, başını yelləyir. Əli ilə alnını döyəcləyir. Handan-hana sözünə davam eləyir.*

Evə gedə bilmirəm. Şahanənin, qızım Fərqanənin, qayınatam Toğrulun və qayınanam Münəvvərin əlindən. Onların — Təzə nə xəbər var? — suallarına da cavab verə bilmirəm. Sanki bu işdə günahkar özüməm. Utanıram, çəkinirəm, söz tapa bilmirəm danışmağa.

## XXVIII bölüm

*Kadr dəyişir. Adi axşamlardan biri, Fərəc bir stəkan qatıq içir. Öz otağına çəkilmək istəyir Toğrul boğazını arıtlayır.*

**Toğrul:** Fərəc, oğlum, bu faciə sənin başına gəlməməli idi. Sən buna layiq deyilsən.

**Fərəc:** Adamı bəzən layiq olmadığı girdabda boğurlar. Neyləyəsən?

**Toğrul:** Oğlunun nə məqsədlə oğurlanması da sənin günahın deyil. Əsəblərinlə oynayanlar çoxdu.

**Fərəc:** Narahat olma, ata.

**Toğrul:** Necə narahat olmayım? Bu boyda haqsızlığa sakit baxmaq olarmı? Gözlərimin qarşısında nələr çəkdiyini duyuram, anlayıram. Sən getdikcə əldən düşürsən.

**Fərəc:** Fəridin əzab-əziyyətlərinə mən qatlaşmalıyam, ata.

**Toğrul:** Mən də kişiyəm, oğlum. Mənim də vicdanım var. Bu işdə sənə güc, iradə, əsəb lazım olacaq...

*Pauza*

Gəl belə danışaq. Sən Ayazla Cəmili götür özünlə, tək getmə, bir kənara çəkil. Lap get istirahətə.

**Fərəc:** Sən nə danışırsan, ata? Ondansa mənə ölüm yaxşıdı. Mən Şahanənin, Fəridin... üzlərinə baxa bilərəmmi?

**Toğrul:** Düşündüm ki, əsəblərin balaca qaydaya düşsün. Sonra gələrsən. Ona kimi də yəqin uşağın harda saxlanmasından xəbər-ətər çıxar. Arxayin ol, uşaq salamatdı. Onu tələf eləmək kimə fayda verər ki? Hansı ki, uşaq fayda üçün oğurlanıb...





*Fərəc qayınatasının üzünə baxır. Xanımı da, qayınanası da susurlar. Fərəcin gözlərində yazıqlıq, tənhalıq hissləri doğulur.*

**Fərəc:** Oğlumu darda qoyub, harasa əsəb yumşaltmağa getsəm, vicdanım məni boğar. Bir zaman məni valideynlərim atıblar, indi mən də onların səhvlərinimi təkrarlayım? Yox... Mən oğlumsuz bir gün də yaşamaram. Mən valideynlərim tərəfindən atılanda ölməli idim. Neçə illərdi məşəqqətlər içərisində yaşamışam. Bu günə gəlib çatmışam. Ata-anamın qanları mənim damarlarımda gecə-gündüz axsa da, mən onlardan aldığım "estafeti" oğluma ötürə bilmərəm.

**Toğrul:** Həyatda çox şey olur. Valideynlərin barədə də çox danışma, oğlum. Bəlkə valideynlərinin başına elə qəziyyə gəlib... səni "Kimsəsizlər evi"nə başqaları gətirib?

**Fərəc:** Mən elə bilirəm, Fərid Fərəcin oğlu olub, anasına xidmət eləməlidi. Lap Xuda rəva bilsə, o, atası Fərəcin ruhu ilə yaşamalıdı...

*Şahanə hönkür-hönkür ağlayır. Qızı da, anası da ona qoşulurlar.*

*Toğrul peşman-peşman başını bulayır.*

**Toğrul:** Bağışla məni, oğlum, bu yaşda, deyəsən, səhvə yol verdim.

**Fərəc:** Yox, ata... Səni anlayıram. Bu, mənim taleyimdi. Niyə bu qədər rəzildi insanlar? Bu yaşda uşağa ata-anadan ayrılığı necə qıydılar?..

*Pauza*

"Keçi can hayında, qəssab piy". Övladı oğurlanan, onun

dərd-sərilə alışıb-yanan mən, törədilən fəlakətdən, bədbəxtlikdən xeyir güdən quldurlar.

*Fərəcin telefonuna zəng gəlir. Fərəc telefonu açır.*

**Fərəc:** Eşidirəm. Kimdi danışan?

*Qalın kişi səsi eşidilir.*

— Mənəm, müstəntiq Gözəlov. Sizə bildirmək istəyirəm ki, narahat olmayasız. Fəridin işi ilə indi mən məşğul olacağam.

**Fərəc:** Çox yaxşı.

**Gözəlov:** Eviniz də, telefonlarınız da nəzarətdədi. Gələrəm, görüşərik. Bilirəm, sizi nahaqdan çox incidiblər.

**Fərəc:** Buyurun, cənab müstəntiq.

**Gözəlov:** Hələlik.

*Müstəntiq telefonu qapadır. Fərəc telefonu stolun üstə qoyur.*

**Toğrul:** Yenə vəd verirlər?

**Fərəc:** O biri müstəntiq işi aparmaqdan yəqin imtina eləyib.

**Toğrul:** Qəribədi... Niyə? Yoxsa...

**Fərəc:** Yox... Narahat olma, ata, mən əvvəlcədən onu tanıyırdım. Bir cinayət işini necə apardığını ona xatırlatdım. Üstəgəl, mənim ona inamsızlığımı.

**Toğrul:** Allah iş avandlığı versin.

*Kadr dəyişir. Ayazla Cəmil parkda gəzirlər. Onlar skamyada əyləşirlər. Ayaz üzünü Cəmilə tutur.*

**Ayaz:** Mən Fərəc sarıdan çox narahatam, Cəmil. Fərəc nə qədər nəm-nüm eləsə də, — "Heç kimdən çəkinmirəm, siz də





narahat olmayın" — desə də, gərək biz onu qarabaqara izləyək. Bu sahədə təcrübəsiz olsaq da, bacardığımız qədər onun özünü və ailəsini qorumalıyıq.

**Cəmil:** Fərəc buna razı olarmı? İnanmıram. Deyəcək, aralıdan baxanlar nə deyərlər?! Fikirləşərlər ki, bu Fərəc nə tez qudurdu? Pulu elə çoxdu ki, özünə qoşa-qoşa cangüdən tutur? Siz Allah, elə eləməyin, mən biabır olaram...

*Pauza*

**Ayaz:** Hər şeyi ona niyə deməliyik?

**Cəmil:** Fərəc qazdan ayıqdı. İkicə dəfə o üz-bu üzünə keçsək, məqsədimizi anlayacaq...

*Ayazla Cəmil razılaşırlar. Bir neçə gün onlar Fərəcin həndəvərində gəzirlər... Bunu Fərəc anlayır.*

**Fərəc** *(üzünü Ayazla Cəmilə tutaraq)*: Ayə, bu cangüdənlər olmasa, səfeh müdirlər neyləyərlər?

*Pauza*

**Ayaz:** Ay Fərəc, biz elə cangüdənlərdən deyilik. Bizim kimilərdən yüzünü də saxlamaq olar...

**Fərəc:** Ayıbdı. Mən o boyda qudurğanlıq eləyə bilmərəm.

**Cəmil:** Əgər sənin oğlun oğurlanırsa, səni qorumaq gərəkdi.

**Ayaz:** Bizə mane olma, Fərəc.

*Fərəc gedir. Ayazla Cəmil qalırlar. Gülümsünürlər.*

**Cəmil:** Ayaz, Fərəcdən xəbərin var? Elə bil o, həmişə "Kimsəsizlər evi"nin ağır, sıxıntılı həyatını yaşayan, zülmdən, işgəncələrdən, iztirablardan kipriklərilə od götürən, mənəvi ağrılar, sarsıntılar çəkən adam deyil. Oğlunun oğurlanması, övlad həsrəti çox sıxır onu.

*Pauza*

Görürsən, arıqlayıb, az qala, gözləri çuxura düşüb... Yazığın yuxuları da ərşə çəkilib.

**Ayaz:** Görürəm, Cəmil. Neçə vaxtı o, oturduğu kreslosunda mürgü döyür... Halsızlıq onu əldən salır... Nəinki çevrəsindəkilərə, hətta, bəzən özünə də inamı olmur. Nifrətdən doğan hirsi, qəzəbi aşıb-daşır.

**Cəmil:** Ən acınacanqlı hal odur ki, acığından, nifrətindən qəzəbini kimin üstünə tökəcəyini də bilmir...

**Ayaz:** Dərdi güc gələndə yana-yana, cızdağı çıxa-çıxa deyir ki, yuxularımda oğlumu gah gülümsəyən, gah qəmli, gah da ağlayan görürəm. Hər dəfə də yuxudan diksinib qalxıram... Doğrusu, indi mən qorxuram Fərəcin taleyindən.

**Cəmil:** Lap darıxdım. Elə bil, boğuluram, Ayaz.

**Ayaz:** Ayə, belə şey olar? Bir tikə çörək qazanırsan, ona da göz dikirlər. — Yemə, mənə ver — deyə əlindən qapırlar...

*Axşamdan xeyli keçir. Ayaz, Cəmil, Fərəc söhbət eləyirlər. Şahanə bir yerdə qərar tuta bilmir. Fərəcin telefonuna zəng gəlir.*

*Şahanə narahatlıq keçirtməyə başlayır. Onun nigaran gözləri Fərəcə dikilir. Telefon ara verir. Şahanə dilə gəlir:*

**Şahanə:** Telefonu niyə açmırsan? Bəlkə...

*Pauza*

**Fərəc:** Yorulmuşam. Məndə qəribə hal yaranıb. Elə bil, telefondan qorxuram, Şahanə.

*Şahanə başını yelləyir.*

**Şahanə** *(astadan, üzüntülü halda)*: Yaranar da... Bütün günü axşamacan evdə nə elədiyimi bilmirəm. Bunu götürüb, onu qoyuram. Dəli kimi öz-özümə danışıram. Mənə baxıb, yazıq qızcığazımın da üzü gülmür. O da Fəridin fikrini eləyir...





*Fərəc çak-çukla işləyən divar saatına baxır. Telefonuna ikinci zəng gəlir. Saat on ikiyə on beş dəqiqə işləyir. O, telefonu götürür.*

**Fərəc:** Yenə naməlum nömrədən.

*Şahanənin ürəyi atlanır.*

**Şahanə:** Fərəc, telefonu aç, nigaranam. Elə bilirəm, hər dəfə zəng çalınanda nəsə yeni xəbər eşidəcəm.

**Fərəc:** Onsuz da telefonum dinlənilir.

*Fərəc düyməni basır. Mikrofondan cingiltili, ancaq çəkinilə-çəkinilə kişi səsi eşidilir.*

**Kişi:** Alo... Alo...

**Fərəc:** Eşidirəm... *(Səs ara verir və telefonun qırıq-qırıq qudoku eşidilir. Hamının diqqəti Fərəcə yönəlir. Fərəc telefonu qapadır)*. Əşi, adamı nə qədər oynatmaq olar? Övladını aparsınlar, hələ üstəlik özünü də ələ salsınlar?

**Ayaz:** Əsəbiləşmə. Xətdəki nə bilir ki, əhvalın necədi?

*Şahanənin sifəti bozarır. Telefon yenə zəng çalır. Fərəc əsəbi halda telefonu götürür.*

**Fərəc** *(sakit tərzdə)*: Eşidirəm, kimdi danışan?

**Kişi** *(salamsız-kəlamsız)*: Fərəc, sən məni tanımırsan. Mən isə səni bir neçə dəfə görmüşəm. Halını, oğlunun vəziyyətini düşünəndə vicdan əzabı çəkirəm.

**Fərəc:** Niyə?

*Pauza*

**Kişi:** Çünki oğlunun götürülməsində mən də alət olmuşam.

**Fərəc** *(təəccüblə)*: Necə? Necə?

*Telefonda etirafları eşidən Şahanə titrəməyə başlayır. Dəhşət doğuran hisslərin təsirilə dişlərini dişlərinə sıxır. Fərəc telefon danışığını qəsdən uzadır.*

**Kişi:** O gündən nə yediyimi bilirəm, nə də içdiyimi. Özümə də nifrət eləyirəm, məni o yola təhrik eləyənlərə də.

**Fərəc** *(qəsdən etinasız halda)*: Səmimiyyətinə inanıram. Uşağı aparmamışdan əvvəl niyyətinizi mənimlə də bölüşə bilərdiniz. Dediklərin həqiqətdisə, sizdə azacıq insanlıq hissi vardısa, gərək mənə təsir üçün oğlumu, ailəmi seçməyəydiniz..

**Kişi:** Sən haqlısan, Fərəc.

**Fərəc:** Vicdanınız insanlığa sığmaz qatı cinayət törədəndə oyanmalı idi, indi yox. — Daldan atılan daş topuğa dəyər, — deyiblər.

*Telefonda kişinin səsi ani olaraq ləngiyir.*

**Kişi:** Hə... O məsəli mən də...

**Fərəc:** Adın nədi?

*Pauza*

**Kişi:** Söhbəti gəl uzatmayaq. Oğlun barədə məlumat vermək üçün gecənin bu vədəsində sənə zəng elədim. Sən mənə inana da bilərsən, inanmaya da. Bu axşam məni qəbul elə. Sonra gec olar... Görüşəndə çox şeyə aydınlıq gətirərik. Onda adımı da bilərsən.

*Şahanənin gözlərindən yaş axmağa başlayır.*





**Fərəc:** Yaxşı, nə vaxt?

**Kişi:** Təkbətək. İstəmirəm, görüşümüzdən kimsə xəbər tutsun. Söz ver ki, məxfilik saxlanılacaq. Əks təqdirdə, hər ikimizin ailəsinə təhlükə yaranar.

**Fərəc:** Yaxşı, harda? Nə vaxt?

**Kişi:** Uzaqdayam. Çatan kimi zəng edərəm.

**Fərəc:** Danışdıq.

*Telefon danışığı kəsilir.*

**Şahanə:** Eşitdiklərimiz həqiqətdimi?

*Fərəc özünə gəlir. Əvvəl o nə "hə", nə də "yox" deyə bilir... Ayağa qalxır, səndələyə-səndələyə vanna otağına keçir, əl-üzünü yuyur. Ayazla Cəmil yerlərində donaraq qalırlar.*

**Şahanə:** Fərəc, bu, təxribat olmaz ki?

**Ayaz:** Ola da bilər. Amma...

**Cəmil:** Nə amma? Sözünü de, bizi dəli eləmə.

**Ayaz:** Bu adam söhbəti çox uzatdı. Niyə? Bu iki şeyə görə ola bilər, ya naşılıqda, ya da telefonun izlənib-izlənməməsini öyrənmək məqsədilə.

**Fərəc** *(soyuqqanlıqla)*: Hələ heç nə deyə bilmərəm.

**Şahanə:** Bəlkə atamla da məsləhətləşəsən?

*Fərəc Cəmillə Ayazın üzünə baxır. Dostlar çiyinlərini çəkirlər. Fərəc nəsə fikirləşir.*

**Fərəc** *(Şahanyə)*: Toğrul əmiyə zəng elə. Mən də müstəntiqlə danışım.

*Əvvəl Şahanə atasına zəng edir.*

**Şahanə:** Ata, təzə xəbər var. Fikirləşdik ki, söhbətdə sənin qərarın da lazımdı.

**Toğrul:** Gəlirəm.

**Fərəc** *(üzünü Şahanəyə tutaraq)***:** Atan narahat olmaz ki?

**Şahanə:** Nə narahat? Neçə vaxtdı, onsuz da özündə deyil. Ona deməsək, Allah eləməsin, bir iş baş versə, üzünə baxa bilmərik. İnciyər. Əsəbiləşər. Bir də ki bu görüş bizə nə vəd eləyəcək?..

*Fərəc müstəntiqlə danışır.*

**Gözəlov:** Narahat olma, danışığınız izlənildi, çevik polis alayından operativ qrup yaradıb sizdə olacam...

**Ayaz:** Məni həyəcan bürüyür.

**Cəmil:** Özünü ələ al.

**Fərəc:** Hər cür risqə gedəcəm. Ölüm şərəfsiz həyatdan yaxşıdı.

**Şahanə:** Səbrli ol, Fərəc. Sənə kimdi deyən Fəridin oğurlanması ilə barış.

**Ayaz:** Bizim əlimizdən nə gəlir ki?

**Cəmil:** Heç nə. Əlimizi sinəmizdə çarpazlamışıq.

*Toğrul, arvadı Münəvvər qapıdan girirlər.*

**Toğrul:** Nə xəbər var?

**Fərəc:** Naməlum bir kişi telefon açıb. Mənə görüş təklif eləyir. İstədik, sizin də xəbəriniz olsun.

**Toğrul:** Çox sağ ol, oğlum.

**Münəvvər:** Ürəyim çatlayır. Vay mənim halıma.

**Şahanə:** Nə olub, ana?

**Münəvvər:** Ay qızım, bundan da böyük şey olmalıdı? Gözləməliyəm? Nə əlimdən bir iş gəlir, nə də ağıllı söz demək. Bircə





göz yaşları axıda bilirəm.

**Toğrul** *(Fərəcə)***:** Oğlum, təşvişə düşsək də, düşməsək də, belə görüşlər olmalıdı. Uşağı gətirib, qapıdan içəri elə-belə buraxmazlar ki? Nə yaxşı ki, Münəvvərlə məni də bura dəvət elədiniz.

**Şahanə** *(səksəkə içində)***:** Ata, birdən Fərəcə qarşı təxribat olar. Onu aradan götürərlər. Onda da bir başa iki daş düşər. Fərəc gedər, uşağın da qaytarılacağına ümidimiz tamam itər.

*Qapı döyülür. Müstəntiq Gözəlov gəlir.*

**Gözəlov:** Üz-gözünüzdən əsəbilik yağır.

**Fərəc:** Başımızı itirmişik.

**Gözəlov:** Tələsməyin. *(Gülümsünərək)* Siçovul öz ayağı ilə tələyə gəlir.

*Pauza*

**Toğrul:** Görüşə mən də gedə bilərəmmi?

**Ayaz** *(müstəntiqə)***:** Sizcə, ev izlənilmir ki?

**Gözəlov:** Bizimkilər, hə... İzləyirlər.

**Fərəc:** Gələn sizi görüb bizimlə söhbətə girişməz.

**Gözəlov** *(Fərəcə)***:** Sən narahat olma, o bizim işimizdi.

**Ayaz:** Gələn adama biz də yaxınlaşa bilərikmi?

**Gözəlov:** Siz nə üçün?.. Gələn silahsız deyil. Hər cür hadisə baş verə bilər. Siz işə ancaq mane ola bilərsiz.

**Cəmil:** Ayaz yandığından tez-tez çaşır.

**Fərəc:** Gəlsə, deməkdi ki, məsələ gizlindən aşkaraya çıxır. Görünənlə mübarizə asandı.

**Münəvvər:** Can bala, can. Kaş gözlərim kor, qulaqlarım kar olaydı. Nə bunu görəydim, nə də eşidəydim... Durduqca həyəcanlanıram.

**Şahanə:** Sən özünü birtəhər eləyəcəksən.

**Gözəlov:** Nənə, baba belədi də.

*Gözəlovun telefonuna operativ qrupdan zəng gəlir.*

**Operativ qrup:** Hədəf nəzarətdədi.
**Gözəlov:** Oldu... Ehtiyatlı olun.

*Saat ikiyə işləmişdən hamını həyəcan bürüyür. Əsəblər yay kimi tarıma çəkilir. İkinin yarısında Şahanə gözləməyə dözmür.*

**Şahanə:** Yalan deyib. Görünür, zəng eləməyəcək. Bu qədər adamın da hisslərilə oynadı.
**Ayaz** *(dərhal)***:** Eləyəcək.
**Cəmil:** Mən də elə düşünnəm.
**Toğrul:** Vaxtı qəsdən uzadır.

*Pauza*

**Fərəc:** Onsuz da belə əsəb keçirməyə öyrəncəliyik.
**Gözəlov:** Səsi yazılıb... Binanın böyür-başında fırlanır.

## XXIX bölüm

*Gözəlovun telefonuna operativ qrupdan yenə zəng gəlir. O, düyməni basır.*

**Operativ qrup:** Binanın həndəvərində oğrun-oğrun gəzir.
**Gözəlov:** Gözdən qoymayın. Çalışın ürkməsin.
**Operativ qrup:** Oldu.
**Gözəlov** *(telefonu söndürərək astadan)***:** "Qonaq" nəzarətdədi, Fərəc. İndi zəng çalar. Heç biriniz oturduğunuz yerdən qalxmamalısınız.

*Pauza*

Binanın girəcəyindəki işıqlar söndürülüb. Zəng çalınan kimi, Fərəc, sən qabaqda pilləkənləri enəcəksən, mən də arxadan səni tapança ilə mühafizə eləyəcəm. Polis alayının çevik üzvləri ona hərəkətə keçməyə imkan verməyəcəklər. Həyəcanlanmağa dəyməz. İnşallah, bu gün bir iş görərik.





*Fərəcin telefonuna növbəti zəng gəlir. Fərəcin və evdəkilərin həyəcanı birdən-birə şahə qalxır. Fərəclə müstəntiq ayrı-ayrılıqda eyni vaxtda düyməni basırlar. Kişi danışmağa başlayır.*

**Kişi:** Fərəc, gəlmişəm. Hər şey şərtləşdiyimiz kimi.
**Fərəc:** Oldu. Hara gəlim?
**Kişi:** Beş dəqiqədən sonra düş yaşadığın binanın girəcəyinə.
**Fərəc:** Oldu.

*Hamı bir-birinin üzünə baxır. Telefonlar qapanır.*

**Gözəlov** *(ratsiya ilə)***:** Hərif yan-yörədə olmalıdı.
**Operativ qrup:** Görürük. Narahatlıq üçün əsas yoxdu.
**Fərəc:** Gedim, mışıl-mışıl yatan qızımdan xeyir-dua alım.

*Fərəc yan otağa keçir. Ayaz Cəmilin üzünə baxır. Şahanə Fərəcin ardınca gedir.*
*Kadr dəyişir. Fərqanə yatır. Fərəc ona yaxınlaşır. Yanaqlarından öpür. Saçlarına sığal çəkir.*

**Fərəc:** Şahanə, indi mən gedəcəm, əzizim. Səndən nə gizlədim. Ağır səfərdi. Fəridlə qızımızın gələcək taleyini sənə ümid oluram.
**Şahanə** *(səsi titrəyərək)***:** Yaxşı, bəsdi, Fərəc. Axı, sən belə zəif deyildin.
**Fərəc:** Fərid mənə çox yaxşı anlatdı.
**Şahanə:** Nəyi?
**Fərəc:** Həyatın adamı sındırdığını.

*Üz-gözündən əsəb, nifrət, intiqam hissləri yağan Fərəc ümidsiz görünən Şahanə ilə otağa qayıdırlar. Hər ikisi qalxdıqları stullarda əyləşirlər.*

**Gözəlov** *(Pıçıltılı səslə)***:** Özünümüdafiə üçün. Fərəc, istəyirəm, səninlə ikilikdə söhbət eləyim.

*Onlar qalxaraq sağ tərəfdəki otağa keçirlər. Gözəlov Fərəcə tapança verir. Aralı qapıdan tapançanın verilməsini və söhbətin məzmununu Şahanə duyur.*

**Şahanə** *(astadan Ayaza)***:** Tapança nə üçün?.. Özünümüdafiə nədi?
**Ayaz** *(dərhal)***:** Burda nə var ki? Gecədi, çox şey ola bilər. Nə çox it-qurd.
**Cəmil:** Deyirlər, ehtiyat igidin yaraşığıdı.

*Pauza*

**Toğrul:** A qızım, mənim ömrüm boyu evdə tapança saxladığımı görməmisən?.. Kimə neyləmişəm? Həyatda çox şey ola bilər. Hamısını ipə-sapa düzsən, yaşaya bilməzsən ki?.. Keç otur...
**Münəvvər:** Ağzımızı aça bilmirik, əşi, elə söz deyirsən, danışdığımıza da peşman oluruq.
**Ayaz** *(qəsdən)***:** İnşallah, Fəridi gətirək evə, bir şadyanalıq düzəldərik. Onda çəkilən zəhmətin, həyəcanın əziyyətini çıxarıq.
**Toğrul:** İnşallah.

*Pauza*

**Münəvvər:** Eh... Yazıq balam. Sənin başında nələr varmış... Atanın çəkdikləri sənə də qismət oldu.

*Şahanənin sifəti bozarır. Toğrul arvadına çəpəki baxır.*





**Toğrul:** O nə sözdü, danışırsan? Yığışdır... Bəyəm, Fərəcin oğlunu biz ondan çox istəyirik? Fərəc indi hara gedir, biz harda qalırıq? Elə oğlu Allah qızına nəsib elədiyi üçün şükürlər oxumaqdansa...
**Şahanə:** Anam özünü itirib... Nə danışdığını bilmir.

*Gözəlovla Fərəc otağa qayıdırlar. Telefona yenə zəng gəlir. Fərəc düyməni basır.*

**Kişi:** Mən burdayam. Sizin binanın girəcəyində.
**Fərəc:** Hə... Gəlirəm.
**Gözəlov:** Gəlibsə, deməli, ilişdi. Kələfin ucu əlimizdədi.

*Gözəlovla Fərəc tələm-tələsik ayağa qalxırlar.*
*Saat iki. Fərəclə müstəntiq qapını açır, ehtiyatla çölə çıxırlar. Qapı örtülür.*

**Ayazın daxili səsi:** Fərəcgil gedə, Cəmillə mən evdə qalam? Bu, necə iş ola bilər? Bu, qeyrətə sığandımı? Bəs, bizim qürurumuz, vüqarımız?

*Pauza*

**Cəmil:** Ayaz, gərək biz də onlarla gedəydik.
**Ayaz:** Hansı ünvana? Fərəc telefon açanda yadında olsun, ünvanı alaq.
**Toğrul:** Mən də sizinlə gedəcəm...

*Toğrul qalxır, otaqda var-gəl eləməyə başlayır. Pəncərənin qarşısında dayanır:*

**Toğrul:** Şəhər şirin yuxudadı. Bizsə dərd-sər içində... Allah mərdimazarın evin yıxsın. Gör, bizi nə günə saldı?
**Cəmil:** Ölsək də, biz onların ardınca getməliyik.

*Cəmillə Ayaz otaqdan çıxırlar. Fərəcgilin ardınca ehtiyatla irəliləyirlər. Girəcək qaranlıq zülmətdi. Göz ayaq altını görmür. Fərəclə müstəntiq pilləkənlərin məhəccərindən tuta-tuta, ayaqlarını pilləkənlərə sürtə-sürtə düşürlər.*

*Kadr dəyişir. Otaq. Toğrul var-gəl eləyir. Münəvvər yanlarını didişdirir.*

**Şahanə:** Bu gecə bizdən fəlakətsiz ötüşməyəcək, ata.

**Toğrul:** Beynindən elə şübhələri qov getsin. Gələn bir nəfərdi, ona qarşı təsəvvür elə ki, təcrübəli bir ordu dayanıb.

**Münəvvər:** Ağlım heç nə kəsmir. Bədənim əsir, Toğrul.

**Toğrul** *(əsəbiləşir)***:** İndi mən hansınıza təskinlik verim?

*Şahanənin ayaq üstə durmağa taqəti çatmır, divanda əyləşir. Üzünü əlləri ilə örtür.*

**Şahanə:** Allah, Fərəcə qıyma... Mənim Fəridimi...

*Şahanə hıçqıra-hıçqıra ağlayır. Toğrulla Münəvvər hərəsi onun bir tərəfində otururlar. Toğrul əli ilə qızının başına sığal çəkir. Münəvvərsə Şahanənin əllərini sığallayır.*

*Kadr dəyişir. Fərəcin qaraltısı görünür. Arxada gedən Gözəlov ehtiyatla hərəkət edir. O, addımlarını atarkən səssizliyi gözləməyə çalışır. Fərəc birinci mərtəbəyə enir. Çöldəki dirəklərin başında yanan elektrik lampalarının işığında girəcək alatoran görünür. Bunu nəzərə alan müstəntiq birinci mərtəbə ilə ikinci mərtəbə arasında dayanmalı olur...*

*Kadr dəyişir. Fərqanə çarpayısında mışıl-mışıl yatır. Şahanə qızını müşahidə eləyir. Sonra ata-anası olan otağa qayıdır.*

**Şahanə:** Dünyadan xəbərsiz Fərqanə necə də şirin yuxuya dalıb. *(Ağlayaraq)* Yazıq uşaq, bu gecənin bətnində nələr





doğulacağını hardan biləsən?

**Toğrul:** Dünya əzəldən belədi, qızım.

**Şahanə:** Necədi, ata?

**Toğrul:** Gecəli-gündüzlü, ağlı-qaralı..

**Münəvvər:** Danışma qızım, danışma... Odur ha... Neçə gün əvvəl Səməd kişinin ailəsi maşın qəzasında qırılıb batmadımı? Oğlunun başı bədənindən necə ayrılmışdısa, üç gündən sonra çətinliklə tapdılar... Adam dözümlü olar. Düzdü, mən də səbrsizəm... Bəlkə bu gecəki axtarış gözlənilən nəticəni verəcək...

*Şahanə ayağa qalxır. Pəncərənin pərdəsini azacıq aralayır. Çölə baxmaq istəyir.*

**Toğrul:** Pəncərədən kənarda dayan. Gələnlərdə şübhə yaradarsan.

*Şahanə geri çəkilir. Kadr dəyişir.*

*Liftin qarşısında küncə sıxılan ucaboy, cantaraq kişinin qaraltısı güclə sezilir. Fərəc onu görən kimi pilləkənin aşağı pilləsində dayanır.*

**Fərəc:** Məni siz çağırmısız?

**Kişi:** Fərəc sizsiz?

**Fərəc:** Bəli! Qalxaq yuxarı.

**Kişi** *(ötkəm səslə)***:** Yox... Çox qısa... Nə vaxta qədər nazınla oynayacağıq?

*Gözəlov Fərəcin çiyinləri üstən əlindəki lampanın gur şüalarını kişinin üzünə salır. Dərhal "qonağın" sir-sifəti qaranlıqdan ayrılır. O, əlini silaha atmaq istəyir. Qrup üzvlərindən ikisi kişinin qollarını burur, tapancanı əlindən alırlar.*

**Kişi** *(qışqıraraq)***:** Aaaa, qollarım sındı.

*Kişini qrup üzvləri maşına əyləşdirirlər. Fərəc Şahanəyə telefon açır.*

**Fərəc:** Narahat olmayın. Cinayətkar yaxalandı, indi o, əlimizdədi. Biz polis şöbəsinə gedəsi olduq.

*Fərəcgilin ardınca Cəmillə Ayaz da gedirlər.*

**Ayaz:** Ayə, Cəmil, nə dolaşıq gecə. Drammatik hadisə.
**Cəmil:** Yatanda yuxuma da gəlməzdi.
**Ayaz:** Görək, polislər neyləyəcəklər? Fəridi salamat xilas edə biləcəklərmi?
**Cəmil:** Deyirsən, başqa cür də ola bilər?
**Ayaz:** Qatı cinayətkarlardan hər şey gözləmək olar.
**Cəmil:** Uşağa qıymazlar...
**Ayaz:** Cinayətkar üçün uşaq-böyük yoxdu. Məqsədə çatma var.

*Kadr dəyişir. Polis şöbəsində kişi ilə sorğu-sual başlanır.*

**Gözəlov** *(kişiyə)***:** Adın nədi?
— Səfiyar.
**—** *(Qəsdən)***:** Nə? Səfehyar?
— Yox... Səfiyar.
— Neçə yaşın var?
— Qırx üç.
— Bu yaşda nə işlə məşğul olduğunu anlayırsan?
— İndi anladım.
— Gec deyil ki?
— Gecdi, müstəntiq.





— Uşaq hardadı, kimlərin əlindədi?

*Səfiyar susur.*

— Müstəntiq, desəm, ailəmi də, nəslimi də qıracaqlar.
— Vaxt itirmə. Sənin kimi onlar da istintaqa cəlb olunacaqlar. Suala cavab ver. Vaxt itirə bilmərik. Yalan danışmağa çalışma. Nə bilirsən, aç, de, qorxma. Təkrar eləyirəm: uşaq hardadı? Kimlərin əlindədi?

*Pauza*

— Mərdəkan bağlarında... Fılan ünvanda, ev nömrə, 17-də. Göy örtüklü malikanədə.
— Orda başqa adamlar yaşayırlarmı?
— Xeyr. Ev kirayə tutulub.
— Əməliyyat qrupu getsə, onları yaxalaya biləcəkmi?

*Pauza*

— Saat dörd otuzda uşağın yerini dəyişəcəklər.
— Hara?
— Onu bilmirəm... Silahlıdılar... *(Müstəntiq ani fikrə gedir)* Yalan daşnışmıram. Bəlkə də məni o uşağın günahı tutub. Ata-anasının Allahı gətirib məni bura.
— Sən bizim əlimizdəsən. Yalan desən, bəxtindən küs.

*Fərəc Şahanəyə ikinci dəfə telefon açır.*

**Fərəc:** Hərif dil açdı.

*Şahanə dərhal cavab verir.*

**Şahanə:** Eşidirəm, Fərəc.
**Fərəc:** Biz Fəridin ardınca gedirik. Siz narahat olmayın.

*Kadr dəyişir. Şahanə və ata-anasının həyəcanı artır.*

**Şahanə:** Məni tər basır, ana. Ürəyim dözmür.

*Münəvvər qızına bir stəkan su verir. Şahanə sudan içir. Handan-hana özünə gəlir.*

**Toğrul:** Allah bizi balamıza yaxınlaşdırır. Sən isə özünə sığmırsan. Allaha acıq gedər. Belə olmaz.

**Münəvvər:** Özünə gəl, qurban olum. Sənsiz biz neylərik? Fərəc ağıllı baladı. Neylədiyini yaxşı bilir.

*Şahanə başını divanın arxasına söykəyir, gözlərini yumur.*

*Kadr dəyişir. Müstəntiq kabinetdən çıxır. Cəmillə Ayazı görür.*

**Gözəlov** *(Fərəclə)***:** Əməliyyatda başqa adamlara ehtiyac yoxdu. Burda görünməyin. Biz özümüz hər ehtimala hazırıq. Sizin iştirakınız yersiz söz-söhbətə, lazımsız hay-küyə səbəb ola bilər.

*Ayaz müstəntiqə yanaşır.*

**Ayaz:** Cənab müstəntiq, Allah eləməsin, uşağa ağlagəlməz bir şey olar. Yüz cür söz-söhbət ortaya çıxar... Bizə icazə verin.

**Gözəlov:** Onda Fərəc bizimlə gedər. Cəmillə sən qal, Ayaz.

**Cəmil:** Müstəntiqin sözlərində böyük həqiqət var.

**Ayaz:** Mən də bilirəm. Ancaq kənarda qalmağı vicdanıma sığışdırmıram. Fərəcin başına bir iş gəlsə...

*Müstəntiqgil hazırlıqlarını görüb üç maşınla yola düşürlər.*





**Ayaz:** Belə-belə işlər... Çox şeylər görəcəyik.

**Cəmil:** Ayaz, Fərəc ağır səfərə getdi. Ya özü, ya oğlu... Nə fərqi var? Onda özümüzü bağışlaya bilərikmi?

**Ayaz:** Cəmil, gəl biz də başqa maşına oturub, onların ardınca gedək. Dünyanın işini bilmək olmaz.

**Cəmil:** Planı pozmarıq ki?

**Ayaz:** Yox... İnsan nə qədər yırtıcı olmalıdır ki, uşaq oğurluğuna girişə?

**Cəmil:** Bu işə mən də məəttəl qalmışam.

**Ayazın daxili səsi:** Nədir Fəridin günahı ki, İlahi, hər gün, hər an ata-anasının həsrətini çəkə?

*Pauza*

Bu zülmü Allah götürərmi?

**Cəmil:** Özünü ələ al, Ayaz. İnşallah, hər şey yaxşı qurtarar.

**Ayaz:** Bu hadisə Fərəcin başına gəlməməli idi. Şahanə az qala, ayaq üstə quruyub.

*Pauza*

Münəvvər xala da özünü lap itirib. Yazıq arvad nə danışdığını bilmir. Toğrul kişinin bədəni əsir. Elə bil, ayaq üstə dayananmayıb, yıxılacaq. Namərdlər ailəni beləcə faciəyəyə atıblar...

**Cəmil:** Ayaz, biz əvvəldən qaragünlüyük. Ədalət, haqq ölçüsü əyilməsin, əyildisə, düzələn deyil. İnsanın xoşbəxtliyi də, səadəti də elə...

*Ayazgil maşına otururlar. Onlar bağlara çatanda atəş səsləri gecəni vəlvələyə salır, Kalaşnikov avtomatının lülələrindən çıxan mis kimi qızarmış güllələr gecənin bağrını dəlir.*

**Cəmil:** Ayaz, irəli getmək olduqca təhlükəlidi. Elə olmasaydı, ətrafdakı bağ sakinləri gəlib malikanədə ən azı nəyin baş verməsi ilə maraqlanardılar.

**Cəmil:** Ölmək-ölməkdi, xırıldamaq nə deməkdi, getdik.

*Cəmillə Ayaz irəli atılırlar. Müstəntiq onların yolunu kəsir.*

## XXX bölüm

**Gözəlov:** Siz əməliyyatın gedişinə mane olursuz. Əlavə təhlükələr yaradırsız. Sizə kim icazə verdi ki, bura gələsiz? Tələb eləyirəm, təcili burdan uzaqlaşın. Yoxsa, barənizdə...

*Ayazla Cəmil geri çəkilməyə məcbur olurlar. Yalnız atışma səslərini eşidirlər. Atışmasa uzanır. Quldurlar sığındıqları evin qapısını açırlar. Fəridi qəsdən bayıra atırlar. Fərid atasını görür. Birbaşa onun üstünə qaçır. Fərəc oğlunu qucaqlayır. Bu anda güllə Fərəci tutur.*

**Fərəc** *(qışqıraraq)***:** Öldüm, Allah! Ay namərdlər! Puldan ötrü də..

*Fərəc yıxılır. Fərid atasını qucaqlayır.*

**Fərid:** Ata! Ata! Sənə qurban olum, ayağa qalx!

*Fərid atasının öldüyünü görüb ağlayır.*

*Onun yanıqlı səsi mühafizə işçilərinin qanlarını coşdurur. Mühafizə qrupunun üzvləri cəld və çevik hərəkətə keçirlər. Evin qapı pəncərəsini fasiləsiz atəşə tuturlar. Ucaboy, idmançı, cavan polis Ağaxan atəş aça-aça Fəridə tərəf qaçır. Onu bir göz qırpımında atəş altından çıxararaq müstəntiqin mövqeyinə gətirir və tez də döyüşə atılır. İki quldur öldürülür. Çevik alayın bir üzvi yaralanır. Yerdə qalan quldurlar həbs olunurlar. Qolları qandallanır. Maşına mindirilirlər.*





**Gözəlov:** Çox təəssüf, Fərəci itirdik.

*Fərid anasına təhvil verilir.*

*Kadr dəyişir. Ayaz otağında təkdir. Olduqca kədərli və küskün görünür. Pəncərədən çölə baxır. Gözləri yol çəkir. Cəmil gəlir.*

**Ayaz**: Köçərinin qətlə yetirilməsini xatırlayırsanmı? O cür hadisə baş versəydi, bir də elə iş tutardıqmı?

**Cəmil:** Həmişə olmasa da, ağlı tam üstələməsə də, emosiya çox şeyə qadirdi. Yəqin ki, hə. Haqsızlığa qarşı nə təhər dözəsən?

*Pauza*

— Necə oldu ki, "Kimsəsizlər evi"ndə biz üç adam birləşə bildik? Baron olmaq Fərəcin ağlına hardan gəldi? Görəsən, onu bizdən ayırmasaydılar, biz yeni-yeni cinayətlər törətməyəcəkdik ki?

— Ayaz, insan uydurulmuş həyatı ürəyincə yaşaya bilməz. Normal həyat normal düşüncə ilə olur. Kim özünü normal həyata uyğunlaşdıra bilirsə, gələcək də onundu. Sadəcə, realist olmağı bacarmaq gərəkdi.

— Düz deyirsən, Cəmil. Qorxunu, ürkünü ağlına gətirməyən Fərəcin bütün həyatı risqlər üzərində qurulmuşdu. Fikirləri aydın, sözləri dəqiq, ifadəsi kəsərli idi. Çox realist idi.

*Pauza*

— Mən hansısa əsərdə oxumuşam: "Gözə görünməz realizm ağlagəlməz fantaziyadan güclüdür". Mən bir çox məsələlərdə qibtə eləyirdim Fərəcə.

— Qızlara baxıb tez-tez gülən, yaltaqcasına danışığı özünə adət eləyən riyaziyyat müəllliminə onun bir dəfə dediyi söz indi də qulaqlarımda səslənir, Ayaz: Mən sizin hırıltınıza dözə bilmirəm. Qurtarın bu ələ salmalarınızı.

*Pauza*

— Fərəcin qəbri nurla dolsun, Cəmil. Biz əziz qardaşımızı, bir çox hallarda xilaskarımızı itirdik.

— Fərəc Fərəc idi, Ayaz.

*Kadr dəyişir. Səmanın evi. Səmra Güloğlandan gileylənir. Ondan ayrılmaq üçün söz-söhbətlər yaradır.*

**Səma:** Özün sevib-seçdiyin adamdı, dözüb oturmalısan. Ər papaq deyil ki, gündə bir başa qoyula.

**Səmra:** Ana, bilirəm günah özümdə olub. İndi gedib intihar yolunumu seçməliyəm? Mən Güloğlanı görəndə, onu da, özümü də öldürmək istəyirəm.

**Ayaz:** Səmra, ailə dağıtmaq o qədər asandımı ki, boşanmaq istəyəsən? Cəmiyyətin sənə gələcək münasibəti, özünün aqibətin barədə düşünürsənmi?

**Səmra:** Əşi, cəhənnəm olsun, hamısı. İçtimai rəyə görə...

**Ayaz:** Elə danışırsan, elə bil, günahkar sən yox, anamla mənəm. Bəyəm Güloğlanı tanımırdın? İstəyirəm biləsən, hər kəs öz qəbahətinin məsuliyyətini özü daşıyır.

*Pauza*

**Səmra:** Sən elə danışırsan, Ayaz, bişmiş toyuğun gülməyi gəlir.

**Ayaz:** Bacım, sənə — Güloğlana get, o yaxşı oğlandı — deyən olubmu? Öz istəyinizlə ailə həyatı qurmusunuz. Bir-birinizə güzəştə getməyi də bacarmalısız. Güzəşt olmayan yerdə birgə həyat yoxdu. Ev tikmək, ailə qurmaq çox çətindi. Gərək öyrəşəsiz.

**Səmra** *(mızıldanaraq)***:** Kül mənim başıma, o vaxt ağlım olmadı. Ağıllı məsləhət verənim də tapılmadı.

**Ayaz** *(sakit tərzdə)***:** İndi ağıllanmısan? Məsləhət verənin tapılsa, onu eşidərsən?





**Səmra:** Gecdi, Ayaz, gecdi... Mən birdəfəlik gəlmişəm. Geri qayıtmayacam. Mənim işimə heç kəs qarışmasın.

**Ayaz:** Başına gələnlərdən çıxardığın nəticə budur. Həm də deyirsən ki, ağıllı məsləhət verənim də yoxdu. Özünü nahaq yerə bizə qarşı qoyursan.

**Səma:** Nə? Sən dəli olmusan, nədi?

**Səmra:** Dəli niyə oluram ki? Deyirəm, Güloğlanla daha yaşamaram. Bir arvadını saxlaya bilməyəndən kişi çıxmaz. Ağzı xəmirkəsməzdi.

*Pauza*

**Ayaz:** Onları əvvəlcədən görmürdün?

**Səmra:** Təkcə özünün nadanlığı olsaydı, nə vardı ki? Qayınlarım, baldızlarım hərəsi başımın üstündə bir darğalıq eləyir. Əllərini ağdan-qaraya vurmurlar. Hərə bir tərəfdən deyir: onu elə, bunu elə, yemək bişir, çay qoy, ev-eşik təmizlə. Elə bil, mən ora gəlin yox, qulluqçu getmişəm...

**Ayaz:** Sən o evdə özünü qulluqçu kimi görürsən? O ailənin üzvüsən...

*Pauza*

**Səmra:** Eh... Sən kefdən danışırsan, Ayaz. Deyilənlər azmış kimi, özü də mənə tez-tez xəyanət edir.

*Telefon zəng çalır. Səma dəstəyi götürür. Dəstəkdən Güloğlanın anası Nənəşin əsəbi səsi eşidilir.*

— Mənəm... Səma, o nə qızdı böyüdüb evlərə salmısan? Nə əri ər qanır, nə qayınananı qayınana. Gəl, zibilinin soxalarını apar. Təpənizə dəysin. Elə cehizi də qapıdan çıxararlarmı?

— Deyəsən, çox hirslisən. Gözlərin ayaqlarının altını görmür. Özünə də, yan-yörənə də baxa bilmirsən. Aaz, səsini qaldırma.

— Az... Qızını da özün kimi ifritə öyrətmisən. Gözümüz

aydın, özüyçün təzə adam da tapıb.

— Şərini yığışdır, ifritə. Arvadı əri yığar, qayınana, baldızlar yox...

— Oğru, quldur böyütmüsən. Gələndən iddia qaldırır. Kor idi, hara gəldiyini görmürdü? Ona Güloğlan kimi oğul vermişəm, minnəti olsun. Qanmadı... Canın üçün onun bu evə ayağı dəyməyə qoymaram. Mənə də Nənəş deyərlər.

— Nənəş nə böyük adamdı ki?

— Göstərərəm sənə böyüklüyümü. Sənin qızın mənim oğlumun kəsili dırnağı da deyil.

— Neyləyək, elə mənimlə söz güləşdirəcəksən? Mənim söz güləşdirməyə vaxtım yoxdu. Bir də ki sən deyənlər telefon söhbəti deyil. Gələrsən, üzbəsurat danışarıq.

— Xeyr, məni ayağına apara bilməzsən. Özün gəl, zir-zibillərini apar.

— O zibilləri sənə bağışlasam necə?

— Pa... Pa... Adam iyrənir. İydən yaxın durmaq olmur. Ürəyim atılır onlardan ötrü... Pa... Pa...

*Səma telefonun dəstəyini yerinə qoyur. Ayazla Səmraya baxır.*

**Ayaz:** Sən danışdıqca, dediklərini mən də eşidirdim. Əsilsiz-nəsilsiz, tərbiyəsiz adamlara ürcah olmusuz. Belə adamları tanımaq üçün böyük dərrakə sahibi olmaq lazım deyil. Ağzını açması, yerişi-duruşu kifayət eləyərdi. Güloğlana baxanda hər şeyi görmək olur.

**Səma:** Eh... Səmra... Səmra... Qızım, bizi də, o bətnindəkini də bəlaya saldın.

**Səmra:** Eşitdiz də?! Elə bilirsiz, günahkar mənəm?

**Ayaz:** Sənsən, Səmra. Addımını hara atdığını bilməli idin. Bir zaman Güloğlanın başına and içirdin. Az qalırdın qonşuların





gözlərini çıxarasan, dillərini kəsəsən. İndisə Güloğlanı pisləyirsən.

**Səmra:** Əşi, oldu, qurtardı. İndi nə günahkar axtarırsız?

**Səma:** Ərə qoşulub qaçanda, qızım, kiminlə getdiyini bilməli idin. Elə qızışmışdın ki, gözlərin ayaqlarının altını seçmirdi. İndi, tutalım, mən də sənin sözlərinə şərik çıxdım, dedim getmə. Bəs bətnindəki körpə necə olsun? Axı, ikicanlısan...

**Səmra:** Bilmirəm, ana. Doğulacaq, uzaqbaşı aparıb atacam Güloğlanın üstünə. Deyəcəm, əkmisən, zəhmət çək, saxla.

**Ayaz:** Nikahla getmişdin Güloğlana?

**Səmra:** Yox... Tüpürüm ona da, onunla kəsilən nikaha da. Bir evdə bir qoşun yaşayır. Nikahda olmaqla ordan mənə nə düşəcəkdi ki? Gəlib-gedir, məni söyür, üstümə əl qaldırır.

**Səma:** Niyyətlə qurulan ailənin aqibəti belə olar.

**Ayaz:** Səmra, mən Güloğlanı yaxşı tanımıram. Açığını deyim, sizin qurduğunuz ailənin aqibətinin belə olacağına şübhə eləmirdim. Yadımdadı, Güloğlanın bura gəlişinə qonşular da yaxşı baxmırdılar...

**Səmra:** Qonşuların xatirinə, onlara xoş getsin deyə, mən ailə qurmamışdım.

*Pauza*

**Ayaz:** Ailə oyuncaq deyil, bu gün qurasan, sabah dağıdasan. Bacım, istəyirəm sənə bir söz deyim, onu qəbul eləyərsən-eləməzsən, özün bilərsən. Elə zəmanədə yaşayırıq ki, kimin ağıllı olması heç kimi maraqlandırmır. Hər kəs öz xeyrini güdür. Əcaib düşüncəyə bax, fikirləşirlər ki, dərrakəli adamlar onlara fayda verməzlər. Bu, faciədi.

**Səmra:** Bunları mənə niyə deyirsən? Fikirləşirsən ki, mənim ağlım yoxdu? Özümü idarə eləyə bilmirəm?..

**Ayaz:** Mən o adamı ağıllı sanıram ki, o başqalarının da faydalı düşüncəsindən istifadə eləyir. Bir şeyi də unutma, sənin şəxsi istəklərin Güloğlanınkı ilə uzlaşsaydı, onda dil tapa bilərdiniz.

Bunu əvvəlcədən bilməli idin.

**Səma:** Ayaz düz deyir, qızım, ərinə rəğbət bəsləməli idin. Onunla ayaq-ayağa qoymalı deyildin. İndi bütün yolları, körpüləri dağıdıb gəlmisənsə, biz Güloğlana, onun anasına, bacısına hansı ixtiyarla gedib deyək, qaçırmısan, qızımızı saxla.

**Ayaz:** Burda, ana, sənin də günahın böyükdü. Səmra nə deyirdisə, ona yersiz haqq qazandırırdın. O da şişirdi. Bir söz deməsəm də, qızına güzəştlərin məni hövsələdən çıxarırdı.

**Səma:** Düz sözə nə deyəsən? Etiraf eləyim ki, bu işdə mən də günahkaram.

**Səmra:** İndi kimsə kimi məzəmmət etməli deyil. *(Öz-özünə mızıldanaraq)* Kimin ayağı büdrədi, hamı onu günahkar çıxarır...

**Ayaz** *(üzünü Səmaya tutaraq)***:** Yadımdadı, hirsdən, acıqdan doğan sözlərim sənin də xatirinə dəyirdi. Mənə bir söz deməsən də, gözlərinin qarasını tökürdün.

*Pauza*

**Səma:** Haqq sözə nə deyəcəm, Güzəştlərimin indi də bəhrəsini yeməli oluram.

**Ayaz** *(Səmraya)***:** Onda içim göynəyirdi. Elə bil, qəlbimə əsəb, hirs, qəzəb yaradan partlayıcı maddə qoymuşdular. Hər kiçik şeydən ötrü sinirlərim gərilirdi. Mən bilmirdim onda anamıza nə deyim?

**Səmra:** Yıxılana balta çalan çox olar.

**Ayaz:** Sözümü kəsmə... Düşün, gör nə danışıram? Anam səni əzizləyəndə: — Yaxşı, gözlərinin yaşını sil, bir səhvdi, olub-olub da, — deyəndə, dəli kimi olurdum. Ona dəhşətli dərəcədə acığım tuturdu.

*Pauza*

**Səma:** İnsanlar özləri özlərini bədbəxt eləyirlər. Sonra da arsız-arsız bədbəxtliklərinin səbəbini başqalarında axtarırlar.





*İcazəsiz-filansız evin qapısı şaqqıltıyla açılır. Güloğlan içəri girir. Hamı çaşqınlıq içində ayağa qalxır. O, üzünü Səmraya tutur.*

**Güloğlan:** Mən səni salamat buraxmayacam. O vaxta qədər ki, evdən apardıqlarını geri qaytarasan.

**Ayaz:** Evdən nə aparıb ki?

**Güloğlan:** Anamın-bacımın qır-qızıllarını...

**Səmra:** Sizin qızıllarınız vardı? Yeməyə çörək tapmırsız... Gör, sən nə danışırsan? Utan, əə... *(üzünü Ayaza çevirərək)*: Böhtançıdılar. Hamını şərləyirlər. Qır-qızıl söhbəti məndən qurtarmaq üçün ortaya atılan bəhanədi.

**Səma:** Güloğlan, ağlını başına yığ. Səmra ikicanlıdı.

**Güloğlan:** Onun mənə dəxli yoxdu. Apardıqlarını geri qaytarmalıdı, vəssalam.

*Pauza*

**Ayaz** *(astadan)***:** Güloğlan, stul çək, otur. Bu, ayaqüstü söhbət deyil. *(Güloğlan oturur. Ayaz sözünün ardına keçir)* Əgər yalan səni ucaldırsa, gəl, mən də sənin yalanlarına dəstək verim. Həqiqətlə yalan bir araya sığmaz. Sən deyirsən, qaytar qır-qızılı, Səmrasa özünü öldürür ki, siz yeməyə çörək tapmırsız...

**Güloğlan** *(dərhal)***:** O, elə deməlidi?

**Səma:** Sən də belə?

**Güloğlan:** Üzü açılmış qızını mənə sırımısan.

**Ayaz:** Alçaq! Bu, nə sözdü? *(Səmra dizlərinə, baş-gözünə vuraraq ağlayır)*:

**Səmra:** Mən düz deyirəm, üstlərinə atmağa yorğanı olmayan adamlarda qır-qızıl hardandı? Üstəlik, o, mənə görün nə böhtan atır?

**Ayaz:** Yalanı o zaman deyərlər ki, üstünə pərdə çəkilən həqiqət görünməsin. Ancaq həqiqət ağ yalana qapı açmağa imkan verməz. Biz bunu bilə-bilə niyə özümüzə xəcalət gətirəcək ya-

lanın ardınca qaçmalıyıq. Utan! Alçaq! Namərd!

**Güloğlan:** Ayə, dünən gəlib, bu gün burda mənə moizə oxuma.

**Ayaz:** Ağlın, kimliyin görünür... Biz kor, cahil deyilik, Güloğlan, az-çox ağlımız var. Sənin uydurmaların keçməz...

*Güloğlan Ayaza əl atır. Ayazla bir-birilərinə sillə, yumruq vururlar. Güloğlan Ayaza təpik atır. Ayaz onun qıçını tutur. Güloğlan döşəməyə yıxılır. Başı divarın tininə dəyir. Qan üz-gözünü boyayır. Səma ilə Səmra araya girirlər. Səsə Şükürlə Simarə gəlirlər.*

**Güloğlan:** Özünü Səmanın ayağına yıxma, Ayaz. O, səni beş yaşında atan anadı. O da alçaqdı, elə sən də.

*Şükürlə Simarə bir-birilərinin üzlərinə heyrətlə baxırlar. Çiyinlərini çəkirlər.*

**Şükür** *(qəsdən)***:** Bu, nə sözdü, Güloğlan? Camaata qara yaxma.

**Güloğlan:** Yaxanın atasına lənət. Yalan deyirəmsə, qoy özləri desinlər. Ayazın hansı "Kimsəsizlər evi"ndə qaldığını da bilirəm. Mən deyim, siz gedin öyrənin.

*Pauza*

**Simarə:** Əvvəla, lap tutaq ki, elədi. A namussuz, kişinin yanında sirr olar. İkincisi də, "Kimsəsizlər evi"ni hökumət yaradıb. O da bir cür internatdı... Alçaq.

**Güloğlan:** Eeeh... Bir ayağınız burda, o biri ayağınız gorda... Kimin zurnasını çaldığınızı da bilmirsiz.

**Şükür:** Ayə, düdük... Gərək səni al-qana boyayım, bu yaşda gedim yatım barmaqlıqlar arasında?..

**Güloğlan:** Ha!.. Ha!.. Ha!.. Kişi, sən mənim bir qolumu qatlaya bilməzsən. Mən istəsəm, sənin belini büküb sındıraram.





**Simarə:** Sən get üz-gözünün qanını sil, təmizlə.

**Səma:** Kül sənin kişi başına. Danışığına bax, simasızın.

*Pauza*

**Simarə:** Gözlərim elə kor oldu ki, bu bədheybəti vaxtında tanıya bilmədim.

**Ayaz:** Güloğlan, sənin dərin soyulmalıdı... Ancaq neyləyək ki...

**Güloğlan:** Baxarsan... Mənə də Güloğlan deyərlər.

**Ayaz:** Sən gül oğlan yox ey, .... oğlansan.

**Güloğlan:** Göstərərəm sənə...

**Şükür** *(Güloğlana)***:** Deyirsən, polis çağıraq, a qanacaqsız?

**Ayazın daxili səsi:** İnsan xisləti bəzən necə də vəhşilərin xislətinə bənzəyir. Mənim barəmdə nə çərənləyir, çərənləsin. Səmra barədə dedikləri nədi? Elədisə, Güloğlan bu zibili indi niyə açır? Deməli, o, yalançıdı, oğraşdı. Doğrudanmı, mənim bacımın üzü açılıbmış? Yox... Yalandı, Güloğlanın uydurmasıdı... Əksər insanlarda ağlagəlməz alçaqlıq hissləri vardır. Güloğlan da elələrindəndi. O, niyə başa düşmür ki, kim kimə pislik eləyirsə, gec-tez cəzasını almalıdı. Kim kimsə tərəfindən təhqir olunursa, deməli, o da təhqir eləyənin cavabını verməlidir. Kim kimə zor göstəribsə, deməli, o da zora məruz qalmalıdı. Cavab verilmirsə, deməli, zəif tərəf zorlunun bütün yalanlarını özü acizanə qəbul eləyir. Bircə onu bilirəm ki, kişilərin hər cür yaramazlıqlarını, alçaqlıqlarını qəbul eləmək ər hökmünə tabe olan zəif qadınlara məxsusdu. Bu, nə deməkdi? Belə çıxır ki, mən pislik, zor işlətmək ixtiyarını sənə verirəm, sən də ondan genbol istifadə eləyərək məni söyə, döyə, minə, çapa bilərsən. Mən hələ bundan da artığına dözərəm. Çox gülməlidi...

**Güloğlan:** Gərək səni burda görən kim yortaydım.

**Səma:** Onu bacarmazdın, alçaq.

**Səmra:** Güloğlanın alçaqlığına şahid olun...

*Pauza*

**Şükür** *(Simarəyə)***:** Vaxtında o yaramazın üstə qanadlarını elə sərmişdin ki, sənə söz demək olmurdu.

**Güloğlan:** Hamınız susun, ağlınıza bələdəm.

## XXXI bölüm

**Ayaz:** Kimsəsiz bilib iki qadının üstünə gəlmək ən böyük alçaqlıqdı. Hər axşam bir yastığa baş qoyduğun qadına böhtan atmaq, adını "ər" qoyan kəsə yaraşarmı?!

**Güloğlan:** Sən kişilikdən çox da dəm vurma, Ayaz. Sənə elə halva çalaram, ömrün boyu unuda bilməzsən.

**Səma** *(Güloğlana)***:** Kişisən də.

**Güloğlan:** Şübhən var, qızından soruş.

*Ayazın bədəni əsir. Ayaz stolun üstündəki bıçağa baxır. Səma bıçağı götürür.*

**Səma:** Məni qana çalxama, Güloğlan. Zeynəb qarı yaxşı deyib: "İtin ardınca düşən zibilliklə qarşılaşar".

**Güloğlan:** Qızınız oğurladıqlarını qaytarmasa, Səma xanım, mən sizdən əl çəkməyəcəm... Onun heyfini sizdən alacam.

*Pauza*

**Ayaz:** Ay bədbəxt, sən bu ağılla hara qədər gedə bilərsən?

**Səma:** Türməyə.. Qəbrə...

*Güloğlan Səmaya əl qaldırmaq istəyir. Ancaq nədənsə çəkinir və qapıya tərəf gedir. Güloğlanın bacısı Fatı qapıdan girir.*

— Qardaşıma söz deyənin başına oyun açaram. *(Üzünü Səmraya tutaraq)* Ağız, ifritə, özünü qoymusan gic yerinə. Ağzına





gələni danışırsan. O nədi, aaz. Qarnını verib qabağa öyünürsən. Guya, sən hamiləsən? Güloğlanın uşağı-muşağı yoxdu. Kəbinsiz-filansız da uşaq olar? Özündən təzə söz çıxarmısan. "Vətəndaş nikahı" Hi!.. Hi!.. Hi!.. Adamın əti tökülür. Bir də Güloğlan sözünü ağzına alsan, səni bu əllərimlə...

*Hamı susub, səssiz-səmirsiz Fatışın üzünə baxır. Handanhana Səma dillənir.*

— Sözünü qurtardın, Fatış?

— İstəyirəm, sən cavab verəsən. Gör, nələri açıb tökəcəm.

— Aparın gədanızı döyün başınıza.

**Güloğlan:** Sizi salamat buraxsam...

— Ayə, get özünə iş tap. Xətər yetirən demir, eləyir... Şərəfsiz... Sən nökərsən, kişi yox...

*Fatış Ayaza tərəf gedir. Birdən qızışır. Səma araya girir.*

— Vur başıma, oğraş. Gəlib bu evdə kişi olub. Vurmasan, mən özümü al-qana boyayacam, şərimi atacam üstünə. Gedib bir az da yatarsan türmədə, ağlın başına gələr... Atasından bixəbər...

*Pauza*

**Güloğlan:** Səma xanım, siz siz olun, mən də mən.

*Qapı açılır. Qonşuluqda yaşayan Səmədağa içəri girir. Üzünü Güloğlana tutur.*

**Səmədağa:** Ayə, yekə adamsız, bayaqdan dediklərinizi eşidirəm. Kişi qadın yanında hönkürməz. Məni məcbur eləyirsən, sənə baş qoşam. *(Sonra üzünü Fatışa tutur)* Bu məhlədə qadınlar yaşayır.

*Pauza*

**Güoğlan:** Baş qoşub neyləyəcəksən?

**Səmədağa:** Qulaqlarını kəsəcəm. Səni ömürlük xəcalətli, bacını da ağlar qoyacam.

**Güloğlan:** Onu bacarmazsan.

**Fatış:** Səmədağa, cırıb-dağıtmağa adam axtarıram.

**Səmədağa:** Yekə-yekə doğrama. Canın üçün çörəyini itlərə yedirdərəm.

**Güloğlan:** Ayə, qadınla elə danışarlar?

**Səmədağa:** Kəs səsini, alçaq. Bayaqdan qonşular bağırtını eşidirlər.

*Güloğlanın səsi enir. Səmədağa onun qolundan tutur, özünə tərəf çəkir. İtələyib qapıdan çıxarır.*

**Güloğlan:** Baxarıq... Bu hərəkətləriniz cavabsız qalmayacaq. Sizə kimliyimi göstərəcəm...

**Fatış:** Ədə, burax gədəni.

*Güloğlanla Fatış həyət darvazasından çıxırlar.*

**Şükür:** Allah... Allah... Böyüklüyünə şükür. Hər cür dəli yetirmisən.

**Simarə** *(Şükürün qolundan tutaraq)***:** Gəl... Gəl evə... Görüm.

*Qonşular çəkilib gedirlər.*

**Ayazın daxili səsi:** Güloğlan anama necə dedi: "Üzü açılmış qızını mənə sırımısan?". Bunun yalan, yoxsa həqiqət olduğunu necə bilim? Kimdən soruşum? Nə olsun ki, onlar anam-bacımdılar. Bu əcaib hərəkətlə bağlı sual versəm, əvvəla, mənə doğru-düzgün nə cavab verərlər? İkincisi, onların mənə münasibətləri necə olar? Üçüncüsü də, o suala görə üzümə tüpürməzlərmi? Nəhayət, o sualı verməyə öz qürurum yol verərmi?! Deməli, bacımın dünyaya gətirəcəyi körpənin taleyi də eynilə mənimki kimi olacaq. Bu, ümidsizlik içimdə getdikcə dərin kök salır. Niyə? Səbəbini düz-əməlli özüm də bilmirəm. Nə qədər acı olsa, onu da düşünürəm ki, zəhmətə, əziyyətə qatlaşmağa iradəsi çatmayan Səmra nə vaxtsa öz-özünə qəsd eləyə bilər.





*Pauza*

Əgər səni doğulduğun cəmiyyətdə hər cür məhrumiyyətlərə, zülm və iztirablara düçar edirlərsə, girdabda boğulursansa, necə də özünə qəsd eləməyəsən? Yaşadığın cəmiyyətə, onun ağ yalanlarına, böhtanlarına, iftiralarına, çirkin niyyətlərinə tüpürməyəsən? Belə olduğu halda, Səmra kimilərindən nə gözləyəsən? Onda nə vaxtsa, kiməsə mərhəmət hissi qalarmı? Fəlakət...

*Kadr dəyişir. Ayaz, Səma dükan-bazarları gəzirlər. Səmanın telefonuna Simarə zəng çalır.*

**Simarə:** Səma, hardasız? Gəlin evə. Səmra intihar eləyib.

*Ayazın nitqi tutulur, onlar evə qayıdırlar. Həyətə xeyli adam yığışıb. Həkimlər, polislər, müstəntiqlər araşdırmalar aparırlar. Güloğlan hadisə yerindədir. Səma isə bu qəflət hadisədən donub qalır.*

**Ayazın daxili səsi:** Səmranı Güloğlan qətlə yetirib, ya da intihara təhrik eləyib.

*Pauza*

Burda iki adama qəsd olunub. Biri ana! Digəri onun bətnindəki körpə!.. Bu da eşqbazlıq oyununun son nəticəsi. Öz işini görən bu alçaq hansı ağılla bu çirkin niyyətə əl atıb? İndi də kənara çəkilib, ikibaşlı, onbaşlı oyun oynayır?

*Pauza*

Görünür, törətdiyi hadisənin nə ilə qurtaracağını ağlına gətirə bilmir. Bəlkə də bunu mən düşünürəm. O, alçaq, əclaf, dəyyus üçün ola bilsin, bu faciənin təfavütü yoxdur. Qəribədi, o, mənə necə də müəmmalı nəzərlərlə baxır.

*Müstəntiq Ayaza yaxınlaşır.*

**Gözəlov** *(Ayaza)***:** Səmranın yazdığı məktub ələ keçib. Məktubda deyilir: "Ana, qardaş, məni bağışlayın. Sizdən ayrılmaq mənim üçün nə qədər çətin olsa da, bu həyatda, Güloğlan kimi əclafların, alçaqların, cinayətkarların zəmanəsində yaşamaq istəmirəm. Güloğlan məni hər gün ölümlə hədələyir, gec-tez məni öldürəcək. — Bətnindəkini rədd elə — deyir. Hələ dünyaya gəlməyən körpəmi məhv eləməkdənsə, onu özümlə aparmağa üstünlük verdim.

Sizin Səmra".

*Səma qızının intiharına dözməyib tir-tir əsir. Ayaz anasını qucaqlayıb bağrına basır.*

**Ayaz:** Ana, sənə qurban olum, özünə gəl. Cinayət açılacaq...

*Pauza*

**Səma:** Açılacaq, ancaq ikicanlı qızımı mənə qaytarmayacaq...

*Ayaz susur.*

**Səma** *(pıçıltı ilə)***:** Şükür Allahın böyüklüyünə ki, bacını aparsa da, səni mənə qaytardı.

**Gözəlov** *(Ayaza)***:** Ayaz, ekspert sübut eləyib ki, Səmranı zorlayıblar. Onu dəhşətli dərəcədə alçaldıblar. O, dözülməz halda olub. Onun başına gətirilənlərə arı-isməti olan heç kəs tab





gətirə bilməzdi. Güloğlana nifrəti odun-alovun üstünə yağ töküb. Güloğlan niyə elə cinayət törətməli idi ki?

*Pauza*

**Ayaz:** Burda anlaşılmaz bir şey yoxdu. Səmra onu görəndə, od-alova bürünürdü. Güloğlan da naqolay vəziyyət alırdı. Güloğlan heyvandı. Tez-tez zavallı bacımı öldürəcəyilə hədələyirdi... Yekəbaş, burnundan uzağı görməyən idi. Başqalarını alçaltmaq vərdişləri, özünüqoruma, özünügöstərmə instinkti bəzi adamlarda xəstəlik həddinə çatır.

*Şübhəli şəxs kimi Güloğlan hadisə yerindəcə həbs olunur.*

*Polislər onun qollarını qandallayaraq maşına mindirirlər. Maşın gedir. Adamlar dağılışırlar.*

*Kadr dəyişir. Səmanın evi. Ayazla Səma qarşı-qarşıya əyləşirlər. Hər ikisinin üzündən yorğunluq, əsəb və məyusluq oxunur. Səma ağır-ağır sükutu pozur.*

**Səma:** Ayaz, oğlum, başıma gələnlər öz günahlarımdı. Böyük olan Allah mənim cəzamı elə bu dünyada verdi. Kimsədən umub-küsməyə, inciməyə haqqım yoxdu... Özünü tanımayan Allahını da tanımaz. Ona da asi çıxar... Sənə çox əziyyət verdim. Allahın mərhəmətinə bax. Məni yandırsaydı, bu ağır anlarımda sənə qovuşmaya da bilərdim. Allahım nəzərlərini üstümüzdən çəkməyibmiş... Taleyim belə də olmalı imiş. Buna min şükür.

**Ayaz:** Həyatda elə ağlagəlməz şeylər baş verir ki, o bir müəmma kimi adamın gözlərini yumur, canını didir, dağıdır.

*Pauza*

İnsanın böyüklüyü, məncə, ağıllı və dözümlü olmasındadı... Ağıl işıqdı, ömrün çıraqbanıdı. Gərək, onu alışdıra biləsən. Nəyə yönləndirdiyini, nəyə sərf elədiyini anlayasan.

— Dünya gəlimli-gedimlidi — deyirlər. Tarixi də qədim. Qa-

nanı da, qanmayanı da yaşadır. Kimisini güldürür, kimisini də bizim kimi ağladır.

— Yox... Elə deməzdim. Heç nədən gileylənmə. Ağlayanlar ağla möhtaclardı... İncimə sözlərimdən, elə götürək özümüzü. Görək, bütün addımlarımız düzdümü?

— *(Fikrə dalır, handan-hana)*: Düz deyirsən. Qismətimiz belə imiş...

— Qisməti insana bəxş eləyən ağıldı.

— Sən deyən olsun, Ayaz. Məni ən çox bircə şey yandırır...

— Nə?

— İçimdə bir nisgilim, nigarançılığım, intizarım var.

— Nədi, axı o?

*Pauza*

— Mənə ürəkdən bircə dəfə "Ana" deyə bilməməyin. Söz dilindən düşür... Əzab çəkirsən...

*Ayaz tutulur. Kövrəlir, dodaqları səyriyir. Handan-hana dillənir.*

— Sən nə danışırsan, ana?

— Dözməkdən savayı özgə çarəm yoxdu...

*Pauza*

— Ürəyimi çatlatma, ana. Gözlərim həmişə səni axtarıb. Səni tapanda qorxurdum, ürəyim dözməyib dayana. Özümü sənə tanıda bilməyəm... Şükür, yanılmadım. Bilirsən, səni tapdığıma nə qədər sevinirəm?

— Ayaz, mənim balam. Ürəyim dolub. Ağlamaq istəyirəm. Sən daha kişisən. Uşaq deyilsən...

*Ayaz qəsdən söhbətin səmtini dəyişir.*

— Kreditlə üç otaqlı ev almışam. Bu həyətdə yaşamaq sənin





üçün çətin olacaq... Səmranın əli dəyən şeylərə baxdıqca pis olacaqsan. Dərd-sərin çoxalacaq. Gəl, günü sabahdan yığışaq köçək mənim evimə. Bu evi neyləyəcəyini də özün bilərsən. Yadındamı, Səmrayla sənə bu sözü bir dəfə demişdim.

*Pauza*

— Yadımdadı, Ayaz, o sözün gözlərimi sevincdən yaşla doldurmuşdu. İndi də ürəyim... Satmaq ağlıma da gəlməz. Yadında saxla, Səmranın ruhu bu məhlədə, ev-eşikdə həmişə dolaşacaq, bizi axtaracaq. Tapmasa, inciyib birdəfəlik gedəcək.

*Söz Ayazı tutur. Gözləri dolur, qəhərlənir. Handan-hana soruşur.*

— Onda o üç otaqlı evi neyləyək?

— Ayaz, böyük oğlansan... Ailə qurmalısan. Oğul-qız sahibi olmalısan. Ara sakitləşsin, gəlini gətirək. O günü mən də görüm. Dünya çox etibarsızdı. Özümə ümüdim azdı. Elə bilirəm Səmra... Nə qədər gec deyil, qucağıma hamı kimi, mən də nəvə alım. Sənin evinə köçməyimə sonra baxarıq.

— Sənsiz o evə mən ayaq basa bilmərəm.

— Niyə? Sən mənə de görüm, Nuridəni yaxşı tanıyırsan?

— Hə... Bir neçə dəfə görüşmüşük.

— Kimdi?

— Nuridə.

— Səni müalicə eləyən həkimmi?

— Hə... Mən onunla danışmışam.

— Necə adamdılar?

— Atası yoxdu, anası var. Birlikdə yaşayırlar. Çox sadədilər.

— Heç olmasa, kimliyimizdən, necəliyimizdən xəbərdardılarmı?

— Ucundan-qulağından...

— Onda, gedək də.

— *(Gülümsünərək)*: Nişan?!
— *(Sevincək)*: Niyə də olmasın?
— Danışaram.

*Kadr dəyişir. Ayazla Nuridə parkda gəzirlər.*

**Ayaz:** Nə gözəl havadı.
**Nuridə:** Belə havadan xoşum gəlir.
— Mənim də səndən.
— Yaxşı... Az kompliment de.
— Kompliment niyə? Olanını deyirəm. Kofe içəkmi?
— Ürəyin istəyirsə...

*Onlar kafeyə gəlirlər. Kadr dəyişir. Müasir üslubda tikilmiş kafe. Ayazla Nuridə stulda əyləşirlər. Xidmətçiyə kofe sifariş verirlər.*

**Ayaz:** Nuridə, anam mənə aman vermir.
**Nuridə** *(təəccüblənir)*: Niyə?
— Deyir nə vaxta qədər istəklindən uzaqda qalmalısan? Təkid eləyir: — Vaxtdı, tez elə, evlən, mən də nəvə görüm, — deyir. Əzizim, biz nə vaxta qədər beləcə parklarda görüşəcəyik?
— *(Gülümsünərək)*: Onu sən bilərsən, Ayaz.
— Anana de, hazırlaşsın...

*Nuridə ani fikrə gedir.*

— Gəlin də.
— Danışdıq, sabah axşam.
— Buyurun.

*Onlar kofe içirlər. Ayağa qalxaraq kafedən çıxırlar.*





*Kadr dəyişir. Axşama yaxınlaşır. Ayazla Səma maşından düşürlər. Nuridəgil yaşayan binaya yaxınlaşaraq üçüncü mərtəbəyə qalxırlar. Ayaz qapının düyməsini basır. Qapını içəridən Nuridənin anası Şövkət açır. Ayazla Səmanı xoş üzlə qarşılayır və evə aparır...*
*Kadr dəyişir. Zövqlə bəzədilmiş, səliqə-səhmanlı otaq. Stolun üstündəki güldanda tər güllər. Açılmış süfrə. Ayazla Səma əyləşirlər. Nuridə yan otaqdan çıxır.*

**Nuridə:** Xoş gəlmisiz, Səma xanım.

*Şövkət qonaqlarla üz-üzə əyləşir. Nuridə mətbəxə keçir, podnosda hərəyə bir stəkan çay gətirir.*

**Şövkət:** Sən də gəl əyləş, qızım.

*Nuridə əyləşir.*

**Ayaz:** Mən istəyirəm, özüm barədə bəzi şeyləri bəri başdan danışım ki, sizdə də müəyyən təəssürat yaransın, Şövkət xala.
**Şövkət:** Sənin nə yaşın var, oğlum?
**Ayaz** *(gülümsünərək)*: Yaşımı vurun üçə.
**Səma:** Ayaz...
**Ayaz:** Mən heç vaxt yalan danışmıram. Yalana da güzəştə gedə bilmirəm. Süni də ola bilmirəm. Görünür, bu da mənim tərbiyəmlə bağlıdı. İstəyirəm, necəyəmsə, məni eləcə də tanıyasız.

*Pauza*

**Şövkət:** Danış... Sözün xoşuma gəlir. Bir həqiqət yüz yalanı xışdayır. Yalanın ömrü anlardı, saatlardı, lap olsun aylar, illər... Axır ki, açılır, üzüqaralıq yaradır, oğlum.
**Ayaz:** Nuridəyə ucundan-qulağından az-çox danışmışam.

Gizlətməyə ehtiyac yoxdu. Mən beş yaşımdan "Kimsəsizlər evi"ndə yaşamışam. Orda böyümüşəm, oxumuşam. Ağlamıram, ağrılı-əzablı həyat keçirmişəm. İndi də o onlar yadıma düşəndə, o əzabları xatırlayanda, dəhşətə gəlirəm. Çoxlu dostlarım olub. Canım qədər istədiyim Nərminim xərçəngdən dünyasını dəyişdi. Biz bacı-qardaş idik. İndi də onun yoxluğuna yanıb-yaxılıram.

*Pauza*

Dostum Fərəcin oğlu Fəridi oğurladılar. Uşağı cinayətkarların caynağından qurtarmaq istərkən, onu canilər güllələdilər. Ağır günlərimizin yadigarları Firuzla Nihad şərin, iftiranın qurbanı oldular. Doğma bacım Səmra da ikicanlıykən əbədi dünyasına qovuşdu. O, mənim ruhum idi. Dostlarımdan Cəmil və onun xanımı Xatirə qalıblar. Bir də məni dünyaya gətirən bu Qadın — Anam. Məni bağışla, biz — mən və sənin qızın Nuridə bir-birimizi sevirik. Anamla gəlmişəm, toy gününün xeyir duasını alaq.

*Şövkət Nuridənin üzünə baxır.*

**Nuridə** *(anasına)***:** Deyəsən, mənim cavabımı gözləyirsən, ana? Biləsən ki, daxili dünyamı Ayaza kitab kimi açmışam. Bəzəksiz-düzəksiz, mən Ayazı tanıyıram və sevirəm. Ömrümü onun ömrünə calamağı xoşbəxtliyim sanıram.

**Səma:** Sağ ol, qızım.

**Şövkət:** Səadətli olun.

*Şövkətlə Səmanın gözləri sevincdən dolur. Səma çantasından nişan üzüyünü çıxarır. Ayaz üzüyü anasından alır və Nuridənin barmağına taxır.*

**Şövkət** *(titrək səslə)***:** Sizə İnam... Sədaqət... diləyirəm.

**Səma:** Xoşbəxt olun, qızım Nuridə!.. Oğlum Ayaz!..





*Hər kəs stəkanını qarşısına çəkir. Çayına qənd salır və içir.*

**Şövkət** *(gülümsünərək)***:** Çox diribaş, çox ayıqsan, oğlum! İndi nə sözün var, Şövkət xalana?!

**Ayaz:** Daha xala yox, ana! Qaldı, toy məsələsi... Mənim kimsəm yoxdu. Yaxşı tanımadığım, halına-xislətinə az bələd olduğum adamları məclisimdə görmək istəmirəm... İstəyirəm, iki anamı, Cəmili, bir də onun ömür-gün yoldaşı Xatirəni dəvət eləyək evə. Bilirəm, hər bir ananın arzusu qızının ər evinə gəlinlik paltarında köçməsini görməkdi... Vağzalı səsi eşitməkdi.

*Pauza*

**Nuridə:** Ana, mən də Ayaz deyəni deyirəm.

**Şövkət:** Söz sizindi, balalarım.

**Səma:** Mənim sənə sözüm yoxdu, Ayaz. *(Gülərək)* Axı, bu dilləri mən sənə öyrətməmişəm.

**Ayaz:** O barədə sonra, ana!.. Bizim evimiz var. İstəsəniz, hər ikiniz köçüb bizdə qala bilərsiz...

*Şövkətlə Səma bir-birilərinin üzlərinə baxırlar.*

**Şövkət:** Yox, oğlum. Mən öz evimdən yalnız ömrümü başa vuranda köçəcəyəm.

**Səma:** Ayaz, cavan ailəsiz. Siz də sərbəst olun. Nə fərqi var, burda yaşadım, ya orda. Ora da, bura da bizimdi.

*Kadr dəyişir. Nuridə gəlinlik paltarında Şövkətin, Səmanın, Xatirənin və Cəmilin əhatəsində, Ayazın qolunda ər evinə köçür. Başda Ayazla Nuridə, yanda analar, sonra Cəmillə Xatirə əyləşirlər. Yeyirlər, içirlər.*

**Serialın sonu**

## OXUDUQLARINIZ

Ala qarğı.........................................................................3
Quzğun......................................................................... 48
Qəzəb........................................................................ 112
Kabus........................................................................ 156





**Ağarəhim (Nüsrət oğlu Rəhimov)**
Bakı, BQU, 2015, 491 səh.

*Korrektorlar:*
**Kamal Sərvəroğlu**
**Esmira Rəhimova**

*Nəşriyyat direktoru:* **Qasım Abdurəhimov**
*Nəşriyyat redaktoru:* **Aləmzər Fətəliyeva**
*Rəssam:* **Xəlil Xəlilov**
*Yığıcı:* **Sevda Quliyeva**

*Yığılmağa verilib: 26.01.2015*
*Çapa imzalanıb: 16.02.2015*
*Həcmi: 31 ç.v. Format: 70x100*
*Ofset çap üsulu*
*Sayı 500.*

*Telefonlar:* **050-392-60-85; 012-594-69-86**

Ağarəhim Rəhimov Əsərlər

338

*Ağarəhim Rəhimov* *Əsərlər*

339

Ağarəhim Rəhimov Əsərlər
340

Ağarəhim Rəhimov Əsərlər

341

*Ağarəhim Rəhimov* *Əsərlər*

342

*Ağarəhim Rəhimov* *Əsərlər*

343

*Ağarəhim Rəhimov* *Əsərlər*

344

*Ağarəhim Rəhimov* *Əsərlər*

345

Ağarəhim Rəhimov Əsərlər

346

*Ağarəhim Rəhimov* *Əsərlər*


347

Ağarəhim Rəhimov Əsərlər

348

*Ağarəhim Rəhimov* *Əsərlər*

349

Ağarəhim Rəhimov Əsərlər

350

*Ağarəhim Rəhimov* *Əsərlər*

351

*Ağarəhim Rəhimov* *Əsərlər*

352

*Ağarəhim Rəhimov* *Əsərlər*

353

*Ağarəhim Rəhimov* *Əsərlər*

354

*Ağarəhim Rəhimov* *Əsərlər*

355

*Ağarəhim Rəhimov* *Əsərlər*

356

*Ağarəhim Rəhimov* *Əsərlər*

357

Ağarəhim Rəhimov Əsərlər

358

*Ağarəhim Rəhimov* *Əsərlər*

359

*Ağarəhim Rəhimov* *Əsərlər*



360

*Ağarəhim Rəhimov* *Əsərlər*

361

*Ağarəhim Rəhimov* *Əsərlər*

362

Ağarəhim Rəhimov Əsərlər

363